**PAŞA ƏFƏNDİYEV**

# MOLLA CÜMƏ
## (həyatı və yaradıcılığı)

Bakı – 2017

**Tərtib edəni və redaktoru: Mahmud ALLAHMANLI**
**filologiya elmləri doktoru,**
**professor**

Paşa Əfəndiyev. Molla Cümə (həyatı və yaradıcılığı). Bakı, "Ləman nəşriyyat poliqrafiya" MMC 2017, 364 səh.

***Kitabda Azərbaycan aşıq sənətinin əvəzsiz ustadlarından olan Molla Cümənin həyat və yaradıcılığının müxtəlif tərəfləri geniş şəkildə təhlil olunmuşdur. Ustad aşığın ayrı-ayrı mənbələrdə, xalq yaradıcılığı bilicilərinin yaddaşında olan şeirləri, haqqında danışılanlar toplanıb şərh edilmişdir. Bir sıra mübahisəli məqamlara aydınlıq gətirilmiş, M.Cümə irsinin elmi-nəzəri təhlili verilmişdir.***

Ə $\frac{4702060000 - 65}{2017}$

© **"Ləman nəşriyyat poliqrafiya" MMC, 2017**

## MÜNDƏRİCAT

Folklorşünas Paşa Əfəndiyevin Molla Cümənin həyat və yaradıcılığı haqqında axtarışları ........................................................ 5

**BİRİNCİ BÖLMƏ**

Yenə Molla Cümə haqqında........................................................ 13

**İKİNCİ BÖLMƏ**

Molla Cümənin ədəbi irsi müqəddəs və toxunulmazdır ................ 27

**ÜÇÜNCÜ BÖLMƏ**

Məktublar, ərizələr, xahişnamələr................................................ 57

**DÖRDÜNCÜ BÖLMƏ**

Axtarışlar, tədqiqatlar, tapıntılar................................................ 75
Görkəmli sənətkar........................................................................ 75
Bir daha Molla Cümə haqqında.................................................... 83
Molla Cümənin yeni əlyazması.................................................... 87
Molla Cümənin əlyazmaları.......................................................... 90
El sənətkarının sorağında............................................................. 95
Molla Cümə...................................................................................98
Molla Cümənin ölümü haqqında həqiqət...................................... 101
Molla Cümənin gözəlləri............................................................. 107
İsmi Pünhan kimdir..................................................................... 114
Molla Cüməni kim öldürüb.......................................................... 118
Böyük sənətkarımıza əbədi heykəl ucaldaq................................. 123
Molla Cümə................................................................................. 125
Qeydlər və izahlar........................................................................ 143

Fərdi folklor ekspedisiyasından etüdlər........................................ 179
İki həcvin tarixçəsi................................................................... 195
Molla Cümənin əsərlərində işlənən tarixi, əfsanəvi, əsatiri şəxs və obrazlar........................................................................................... 199
Molla Cümə – böyük ustad......................................................... 210
Molla Pənah Vaqif və Molla Cümə............................................. 291

## BEŞİNCİ BÖLMƏ

## ƏLAVƏLƏR

Cahangir Qazıyev. Molla Cümə haqqında bəzi qeydlər .............. 315
Şərif İdrisov. İsmi Pünhan kimdir................................................ 318
Vəli Əkbər. Molla Cümə böyükdür, yoxsa Aşıq Ələsgər............. 326
Azad Nəbiyev. Molla Cümə əlyazmalarının hərrəcına son qoyulmalıdır.................................................................................. 331
Q.Məhərrəmli. Yeməyənin malını yeyərlər, yaxud Molla Cüməni kimlər oğurlamaq istəyir. ................................................ 333
Sənətkarın nəşr olunmamış şeirləri.............................................. 336
Paşa Əfəndiyev, Lətif Süleymanov. Qəhrəmanlığa çağırış motivləri..................................................................................... 339
Paşa Əfəndiyev. Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov cənablarına ............................... 344
Respublikamızın birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, elimizin mehriban qızı Mehriban xanım Əliyevaya.................................................................................... 346
Paşa Əfəndiyev. 70 il institut divarları arasında............................ 349

*58 il bir yasdığa baş qoyduğum,*
*ömrümün, günümün yoldaşı, sirdaşı*
*Cəfərova Lyudmila Yusif qızına ithaf edirəm*

*Müəllif*

# FOLKLORŞÜNAS PAŞA ƏFƏNDİYEVİN MOLLA CÜMƏNİN HƏYAT VƏ YARADICILIĞI HAQQINDA AXTARIŞLARI

Çağdaş Azərbaycan folklorşünaslığında klassikləşən, sonuncu magikan kimi möhtəşəm təsəvvür formalaşdıran əməkdar elm xadimi, professor Paşa Şərif oğlu Əfəndiyevin gördüyü əvəzsiz işlər elmimiz, mədəniyyətimiz üçün örnəkdir. Bu gün Azərbaycan folklorşünaslığı böyük uğurlara, ciddi nailiyyətlərə imza atmaqdadır. Xalq yaradıcılığı nümunələrinin toplanması, region folklorunun öyrənilməsi, ayrı-ayrı antalogiyaların nəşri və s. hamısı bunun göstəricisidir. Bu yolun dönməzliyi isə folklorşünas P.Əfəndiyevə qədər M.Mahmudbəyovun, H. Zərdabinin, E.Sultanovun, T.Bayraməlibəyovun, Y.V. Çəmənzəminlinin, S.Hüseynin, S.Mümtazın, V.Xuluflunun, C.Əfəndizadənin, H.Əlizadənin və bu sıradan olanların gördükləri ilə müəyyənləşir. Onlar Azərbaycan xalqının min illər boyu düşüncəsində olanları zərrə-zərrə, sətir-sətir toplayaraq yaddaşlardan silinmək qorxusundan xilas etmişlər. Xalq ədəbiyyatının, zəngin mədəniyyətinin nələrlə təcəssümünü dərk etmiş və onu kağıza köçürməyi məqsədə çevirmişlər. Daha doğrusu, kitab ömrü vermişlər. XIX əsrin ilk onilliyindən başlayan bu müqəddəs və savab iş günümüzə qədər həmişə çoxalan istiqamətdə getmişdir. Artıq indi Azərbaycan folklorşünaslığı şaquli və üfiqi istiqamətdə geniş faktura ilə səciyyələnir. Xalq ədəbiyyatının müxtəlif növ və janrları, eləcə də məzmun istiqamətləri

sistemli təhlillərin probleminə çevrilmiş, ciddi elmi baza formalaşdırılmışdır. Folklorşünas P.Əfəndiyevin bu istiqamət-də gördükləri bəlkə də institutların birgə görəcəyi işlə müqayisə edilə bilər. Təkcə onu demək kifayətdir ki, bu böyük alim Azərbaycan folklorşünaslığına ən gərəkli, həm də ən çətin olanı, folklorşünaslığın tarixini yazması ilə heç kəsə nəsib olmayan töhfəsini vermişdir.

M.Rəfilinin, Ə.Dəmirçizadənin xeyir-duası ilə yola çıxan Paşa müəllim elə başlanğıcdan olduqca ciddi və həm də gərəkli işlərin görülməsinə köklənmişdir. Dünya şöhrətli "Koroğlu" dastanımız haqqında ilk möhtəşəm monoqrafik araşdırmanı aparmışdır. Bu tədqiqat onun namizədlik işi olmuşdur. Prof. P.Əfəndiyev yazılarında M.Rəfilinin aspirantı olmasını qeyd edəndə xüsusi ilə vurğulayır ki, "bundan da xoşbəxt nə ola bilərdi". Əlbəttə bu xoşbəxliyə, uğura M.Rəfilinin xeyir-duası ilə bir xoşbəxlik də əlavə olunmuşdu. Bu da "Koroğlu" dastanının ilk tədqiqatçısı olmaq adina sahib çıxmaq idi. "Koroğlu" dastanı ilə bağlı araşdırma aparmaq istəyənlərin yolu indi Paşa müəllimin tədqiqatından keçir. Çünki dastanın sistemli tədqiqinə qapını ilk dəfə o açmışdır. Düzdür, "Koroğlu" dastanı ilə bağlı müxtəlif vaxtlarda məqalə səviyyəsində söz deyilmişdir. Ancaq onun sistemli araşdırılması, təkrar edirik, Paşa Əfəndiyevin adı ilə bağlıdır. Son dövrlər, daha doğrusu, Azərbaycanın müstəqilliyindən sonra olan yanlışlıqlara, tendensiyalı yanaşmalara böyük folklorşünasın araşdırmaları bir cavabdır. "Koroğlu" dastanı ali məktəblərin auditoriyasına da ilk dəfə Paşa müəllim tərəfindən gətirilmişdir.

Onun heç kəslə müqayisə olunmayacaq digər uğuru Azərbaycan xalqının milli ruhunun iftixarı olan M.Mahmudbəyov, T.Bayraməlibəyov, E.Sultanov, H.Zeynallı, S.Mümtaz, V.Xuluflu, Ə.Abid, Y.V.Çəmənzəminli, H.Əlizadə kimi görkəmli şəxsiyyətlərin (onların mühüm bir hissəsi repressiya qurbanlarıdır) folklorşünaslıq fəaliyyətini araşdırmasıdır. Çağdaş Azərbaycan folklorşünaslığının sistemli araşdırmalara yolu

məhz Paşa Əfəndiyevin yazdıqlarından keçir. XIX əsr Azərbaycan folklorşünaslığı, eləcə də XX əsrin əvvəlləri ilə bağlı mənbələrin izlənməsi, aşkarlanıb üzə çıxarılması, onların haqqında əsaslı araşdırmaların aparılması və ali məktəb auditoriyalarına gətirilməsi də Paşa müəllimin adı ilə bağlıdır. Universitet auditoriyalarına qədəm qoyan hər hansı tələbə ilk olaraq Paşa müəllimin möhtəşəm dərsliyi ilə qarşılaşır. Ondan Azərbaycan xalqının zəngin şifahi ədəbiyyatını, mərasim folklorunu, folklorşünaslıq tarixini, xalq şeiri janrlarını, aşıq yaradıcılığını, əfsanə, rəvayət, nağıl, atalar sözü, məsəl, lətifə, dastan və s. örnəklərini öyrənir. Zəngin mədəniyyətini sinəsinə yığmaqla böyük ədəbiyyatın, müqəddəs müəllim sənətinin yoluna çıxır və azərbaycanlı balalarına bilgilərini buradan, Paşa müəllimin yazdıqlarından çıxış etməklə mənimsədir. Son dövrlərdə alternativ dərslik məsələləri bir xətt kimi ədəbi-mədəni arenada özünə geniş yer tapsa da, nəticə etibarilə böyük uğursuzluqla üz-üzə qaldı. Bu, P.Əfəndiyevin "Azərbaycan şifahi xalq ədəbiyyatı" dərsliyində də özünü göstərdi. Ancaq "Azərbaycan şifahi xalq ədəbiyyatı" adı ilə yazılan bütün dərsliklər ortaya çıxdığı vaxtdan elə də çox zaman ötməsinə baxmayaraq ciddi uğursuzluqlarla qarşılaşdı. Azərbaycan auditoriyası onları birmənalı olaraq qəbul etmədi və özləri tarixin təbii yaddaşına kömüldü. Çünki Paşa müəllim bu dərsliyi qanı, canı ilə suvarmışdı, onu ruhu ilə süsləmişdi, könlünü ona vermişdi. Xalqa sönsuz məhəbbətin, vurğunluğun ifadəsi kimi yaranmışdı.

Onun xalq ədəbiyyatının toplanması, nəşri və tədqiqi sahəsində apardığı işləri fəaliyyəti insanlıq, vətəndaşlıq, ziyalılıq nümunəsidir. Əvəzsis folklor cəfakeşi, xalqın zəngin mənəvi mədəniyyətini bütün varlığı ilə ruhunda, yaddaşında yaşadan professor Paşa Əfəndiyevin haqqında müxtəlif vaxtlarda fikirlərimi bölüşmüşəm, düşüncələrimi yazıya gətirmişəm və bu gün də gətirməkdəyəm. Hər dəfə də nəyisə deyə bilmədiyimi düşünmüşəm. Çünki bu zənginlikdə olanları axıra qədər açmaq özü müşküldü və gərək cild-cild kitablar səviyyəsində

təhlillər aparasan ki, mahiyyəti açasan, demək istədiklərinin ünvanına çıxasan. Hələ onu deyə bilcəksən, bilməyəcəksən bu başqa məsələdir. Belə böyüklərin isə cəmiyyətdə sıxıntıları çox olur, müxtəlif səviyyələrdə gərəksiz söz-söhbət mövzularına çevrilir və bəzən qarayaxmalar, təhdid, təqiblər bir ucsuğzluğa qədər gedib çıxır. Onların mükafatı, təltifi, hər cür türlü adı xalqdan, etnosun münasibətindən gəlir. Yuxarıların qiymətləndirməsi isə bir müşkülə çevrilir, çünki onlarla mənsəb sahibləri arasında alınmaz bir qala, sərhəd mövcuddur. Folklorşünas Paşa Əfəndiyevdə də belədir. Təkcə onu demək kifayətdir ki, Paşa müəllimin "Azərbaycan şifahi xalq ədəbiyyatı" dərsliyi 1970-ci ildən bu yana bütün auditoriyaların, folklorşünaslığa qədəm qoyanların stolüstü kitabıdır. Bəlkə də neçə əlli illər də belə olacaqdır. "C.Cabbarlı və şifahi xalq ədəbiyyatı" (Bakı, Yazıçı", 1985), "Səməd Vurğun və xalq yaradıcılığı" (Bakı, Yazıçı, 1992), "Azərbaycan folklorşünaslığı. 1920-ci ilə qədər" (Bakı, ADPU, 1994), "Azərbaycan folklorşünaslığı. 1920-30-cu illər" (Bakı, ADPU, 1997), "Azərbaycan folklorşünaslığı. 1940-60-cı illər" (Bakı, 1998), "Dastan yaradıcılığı" (Bakı, ADPU, 1999), "Azərbaycan folklorşünaslığı (müntəxabat)" (Bakı, ADPU, 2000), "Azərbaycan folklorşünaslığının problemləri" (Bakı, ADPU, 2003), "Azərbaycan folklorşünaslığının problemləri". II kitab, (Bakı, ADPU, 2004), "Azərbaycan folklorşünaslığının problemləri". III kitab, (Bakı, ADPU, 2005), "Azərbaycan folklorşünaslığının tarixi" Bakı, ADPU, 2006), "63 il institut divarları arasında". Bakı, ADPU, 2009) və s. kitabları möhtəşəm abidələrdir. Onun qədir-qiyməti isə əvəzsizliklədir. Bu kitabların adını təsadüfi deyil, məqsədli olaraq xatırlatdım. Çünki bu adların verdiyi informasiya daha əhatəli düşünməyi zəruri edir.

Görkəmli folklorşünasın elmi fəaliyyətində mühüm bir hissəni ustad sənətkarımız Molla Cümə ilə bağlı araşdırmaları təşkil edir. Onun folklorşünas ömrünün mühüm bir hissəsi, demək olar, bu böyük sənətkarla bağlıdır. Folklorşünaslığa qə-

dəm qoyduğu ilk illərdən Molla Cümə onun yaddaşını məşğul etmiş, ruhunu, ürəyini ovsunlamışdır. Artıq həmin illərdən Paşa müəllimi təxminən 60 illik zaman ayırır və bu gün də belədir. Etdiyi söhbətlərin mühüm bir hissəsi Molla Cümə irsini öyrənmək işi ilə bağlıdır. Ustadın hər sözü, misrası, şeiri ətrafında olan söhbətləri, yazdığı yazılar mənim üçün nümunədir. Elə əlimin altında olan "Molla Cümə (həyatı və yaradıcılığı)" adlı möhtəşəm kitabının hər cümləsi də bunu diktə edir. Aydınlıq üçün əlavə edim ki, Paşa müəllim bu kitabı 89 yaşında çapa hazırlayıb. Bax burada məsələnin mahiyyəti daha da böyüyür və böyük folklorşünasın hansı ideallarla yaşaması təkrarən aydınlaşır. Ulu Tanrı ona bu müdriklik çağında xüsusi qüvvət, ilham vermiş və Molla Cümə ilə bağlı dediklərini təkrarən saf-çürük etmiş və əlavələrlə hamısını bir yerə yığaraq kitab bağlamışdır.

Paşa müəllim görkəmli ustadın gəzib dolaşdığı bütün yerləri diqqətlə izləmiş, onun yaxınlıq, dostluq etdiyi adamlarla görüşmüş, söhbətlər aparmış, yaddaşlarda olan əhvalatları, hadisələri el ağsaqqallarının, ağbirçəklərinin dilindən yazıya almış, şeirlərinin müxtəlif nümunələrini toplamış və fundamental bir baza formalaşdırmışdır. Dörd əlyazmanın ortaya çıxarılması özlüyündə böyük hadisədir və bu nəinki folklorşünaslıq, bütünlükdə ədəbiyyat tariximiz üçün əvəzsizdir. Professor yazılarında vurğulayır ki, "mən ömrümün yarısını sərf edib bunlar üzərində çox gərgin işləmişəm". Molla Cümənin həyatı faciə ilə bitsə də onun yaradıcı taleyi uğurlu olmuşdur. Qarşısına Paşa müəllim kimi folklorşünas çıxmış, şeirlərini Qax, Şəki, Balakən, Zaqatala rayonlarından toplamış və kitab şəklinə gətirmişdir. "Molla Cümə. Şeirlər" (Bakı, Azərnəşr, 1966), "Molla Cümə. Seçilmiş əsərləri (Bakı, Yazıçı, 1983), "Molla Cümə (rus dilində)". (Bakı, Yazıçı, 1984), "Molla Cümə. Əsərləri. (Bakı, Maarif, 1995), "Molla Cümə" (Bakı, Şərq-Qərb, 2006) kitabları məhz P.Əfəndiyevin uzunmüddətli zəhmətinin bəhrəsi kimi ortaya çıxmışdır. Onu da əlavə edək

ki, bu kitablara yazılan "Ön söz", "Qeydlər və izahlar" bir tədqiqat əsəri qədər əhəmiyyətlidir. Bu kitablar bütünlükdə aşıq ədəbiyyatına əvəzsiz töhfədir. Onun sənət dünyası, istedadının ecazkarlığı, klassiklərdən gələn ənənəni hansı səviyyədə özündə ehtiva etməsi və s. kimi məsələlər bu toplularda bütün tərəfləri ilə özünə yer tapır. Birmənalı olaraq onu deməyə əsas verir ki, Molla Cümə Azərbaycan aşıq sənətinin yetişdirdiyi ən qüdrətli sənətkarlardandır. O, zəngin yaradıcılığı ilə aşıq şeirini təkcə məzmun, mündəricə baxımından deyil, həm də forma baxımından zənginləşdirmişdir. Ayrı-ayrı nümunələrdə rast gəldiyimiz poetik fiqurlar, janr etiketləri, folklorşünaslığa (bütünlükdə bədii düşüncəyə) təqdim etdiyi İsmi Pünhan modeli ədəbiyyatımız üçün hadisədir. Molla Cümə öz zəngin yaradıcılığı ilə Qurbani, Dədə Kərəm, Abbas Tufarqanlı, Sarı Aşıq, Xəstə Qasım, Ağıq Alı, Abdalgülablı Valeh, Aşıq Hüseyn Şəmkirli, Aşıq Ələsgər səviyyəsində olan ustadlardandır. Onun bizə ərməğan elədiyi bədii irs müxtəlif istiqamətlərdə araşdırma və təhlillərin ehtiyacındadır. Yaradıcılığının poetik sisteminin bir bütöv olaraq araşdırılması, müəmmalarının açılması, sirlə-sehrlə dolu şeirlərinin məzmun və forma sisteminin tipoloji müqayisələrdə aydınlaşması bugünkü folklorşünaslığın qarşısında duran ən ümdə məsələlərdəndir.

Görkəmli folklorşünasımız P.Əfəndiyev "Molla Cümə (həyatı və yaradıcılığı)" kitabının sonuncu səhifəsində yazır ki, "mən şəxsən F.Köçərli, R.Əfəndiyev, S.Mümtaz, H.Zeynallı, Ə.Abid, Y.V.Çəmənzəminlinin böyük və müqəddəs ənənələri üzərində pərvəriş tapmışam... Beləliklə, respublikamızın ən böyük, ağsaqqal folklorşünası kimi yüksəlmişəm. Təbii mən əsərlərimin sayı miqdarına görə deyil, məhz elmi, təcrübi, tarixi əhəmiyyətinə görə titanik işlər görmüşəm". Doğurdan da, bu deyilənlər reallıqdır və birmənalı olaraq belədir. F.Köçərli hələ XX əsrin əvvəllərində M.P.Vaqif və M.V.Vidadi haqqında danışanda vurğulayırdı ki, onlar müqtədir sənətkarlardır. Professor P.Əfəndiyev də Azərbaycan folklorşünaslığı üçün müqtədir

alimdir. Təəssüf ki, bəzi elmsizlər, daha doğrusu, elmə at belində gələnlər, onun nə demək olmasının mahiyyətinə varmayanlar bu böyüklüyə qayğı göstərmək əvəzinə, böyük alimə sıxıntılar yaşatmaq yolunu tutur, müraciət və xahişlərinə belə cavab verməyi özlərinə rəva bilmirlər. Ancaq bilmirlər ki, Paşa müəllimin böyüklüyünə kölgə salmaq mümkünsüzdür.

"Molla Cümə (həyatı və yaradıcılığı)" kitabının uğurlu cəhəti ondadır ki, Paşa müəllim illərlə gördüşü işlərə, topladığı şeirlərin mahiyyətinə, hər bir nümunə haqqında deyilənlərə, misra, söz fərqliliklərinə axıra qədər aydınlıq gətirmək yolunu tutur. Böyük ustadın könül dostlarının, yaxınlarının, qohumlarının, eləcə də şəyirdəlinin dedikləri və özünün ciddi tədqiqatçı mühakimələri əsasında bütün incəliklərinə qədər diqqət yetirir.

Molla Cümə haqqında ilk bilgilərimi hələ keçən əsrin 70-ci illərinin axırında pedaqoji institutun birinci kursunda Paşa müəllimdən almışam. İçimdə Molla Cümə sevgisinin qığılcımları, yaradıcılığına sonsuz rəğbət həmin vaxtdan baş qaldırmışdır. Düzdür, hələ orta məktəbdə oxuyarkən aşıq məclislərində "İsmi Pünhan, niyə məndən küsübsən" misralı şeirini eşitmişdim. Ancaq sonrakı tanışlığım və bu günə qədər olanlar Paşa Əfəndiyevin yazdıqları ilə bağlanır və kitablarına yazdığım yazılarda da bunu müxtəlif səviyyələrdə qeyd etmişəm.

Kitab beş bölmədən ibarətdir. Birinci bölmə "Yenə Mola Cümə haqqında", ikinci bölmə "Molla Cümənin ədəbi irsi müqəddəs və toxunulmazdır", üçüncü bölmə "Məktublar, ərizələr, xahişnamələr", dördüncü bölmə "Axtarışlar, tədqiqatlar, tapıntılar", beşinci bölmə "Əlavələr" adlanır. Bunların hər birisi problematikası, məzmunu, zəngin fakturası ilə mühüm əhəmiyyət daşıyır. Araşdırmada əksini tapan bir sıra yazılar müxtəlif illərdə mətbuat səhifələrində işıq üzü görmüşdür. Lakin Paşa müəllim onu qəzet səhifələrində itib-batmaq təhlükəsindən xilas etmiş, bir kitab halına gətirmişdir. "Bir daha Molla Cümə haqqında", "Molla Cümənin yeni əlyazması", "El

sənətkarının sorağında”, “Molla Cümənin ölümü haqqında həqiqət”, “Molla Cümənin gözəlləri”, “İsmi Pünhan kimdir”, “Molla Cüməni kim öldürüb”, “Molla Cümənin əsərlərində işlənən tarixi, əfsanəvi, əsatiri şəxs və obrazlar” “Molla Cümə – böyük ustad”, “Molla Pənah Vaqif və Molla Cümə” və s. yazılar hər birisi böyük bir reallığın, qaranlıq və müşküllərin açılmasına səbəb olmuşdur. Bütün bunlarla folklorşünas alimimiz böyük sənətkarın ədəbi irsini yox olmaqdan xilas etmiş, qaranlıqların aydınlaşmasına yardımçı olmuşdur. Əks təqdirdə Molla Cümə də digər ustadlarımız kimi müəmmalarla üz-üzə qalmalı olacaqdı. Əməkdar elm xadimi, görkəmli folklorşünas bu böyük işləri ilə Molla Cümənin ədəbi irsini, haqqında olan həqiqətləri yox olmaqdan qorumuş, Azərbaycan xalqına, bütünlükdə türk dünyasına ərməğan etmişdir. Belə böyüklərdən hələ çox öyrənəcəklərimiz var. Onlar bizim üçün örnək, nümunədir. Paşa Əfəndiyevin “Mola Cümə (həyatı və yaradıcılığı)” kitabı bu möhtəşəmliyin göstəricisidir.

Mahmud ALLAHMANLI
filologiya elmləri doktoru, professor

## BİRİNCİ BÖLMƏ
## YENƏ MOLLA CÜMƏ HAQQINDA

*İki dünya fikrin çəkib dolubam daşıram,*
*Əqil-kamal sarıdan Məcnunun yoldaşıyam.*
***Molla Cümə***

Molla Cümə. Böyük insan, böyük şəxsiyyət, böyük sənətkar, ömrünün yarısını həyat və yaradıcılığına həsr etdiyim elimin müdrik nəğməkarı. Elə bu yaxınlarda yenidən yadıma düşüb ki, mən ilk dəfə onunla nə vaxt və harada tanış olmuşam. Hələ uşaqlıq vaxtında eşitmişdim ki, Molla Cüməni həyatində öldürüblər, özü də soldatlar öldürüblər. Oxuculardan üzr istəyirəm, hələ əlavə də edirdilər ki, Molla Cümə aftafa ilə bir soldatın başını yarıb. Aşığın "Sən ağlayanda" qoşması və "Pəri" müxəmməsi haqqında hətta çox az da olsa məlumatım var idi. Sonralar mən aşığı və onun yaradıcılığını unutdum. İlisudan Qaxa gəldim. 1946-cı ildə Qaxda orta məktəbi bitirdim və rayonda ilk medala sahib oldum. Həmin medalı bağrıma basaraq respublikamızın fəxri olan Pedaqoji Universitetin dil və ədəbiyyat fakültəsinə daxil oldum. Fakültəni fərqlənmə diplomu ilə başa vurdum. Həmin fərqlənmə ilə məni aspiranturada saxtadılar. Oldum professor Mikayıl Rəfilinin aspirantı. Bundan da xoşbəxt nə ola bilərdi. Aspirant kimi folklorla məşğul olanda, aşıq sənətini tədris edəndə, təbii Molla Cümə az da olsa yadıma düşürdü. Ancaq toplamaq, nəşr edib axtarışlar, tədqiqat aparmaq barədə heç düşüncələrim olmamışdı. 1950-1958-ci illərdə Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri professor Mikayıl Rəfili ilə işləmişəm. 1958-ci ildə qəflətən professor M.Rəfili 53 yaşında dünyasını dəyişdi. Bakı Dövlət Universitetindən professor Feyzulla Qasımzadəni Pedaqoji İnstituta kafedra müdiri gətirdilər. Ona biz hörmət əlaməti olaraq "Mirzə" deyirdik. Bir-iki il Mirzə ilə işlədim. Bir gün o, məni yanına çağırdı. Dedi ki, gələn il üçün elmi-tədqiqat işi möv-

zusu fikirləşin. Mən heç fikirləşmədən dedim ki, Mirzə, mən Molla Cümə yaradıcılığı ilə məşğul olmaq istəyirəm. Mirzə XIX əsr Azərbaycan ədəbiyyatının böyük tədqiqatçısı idi. O, dedi ki, Molla Cümə maraqlı şəxsiyyətdir və görkəmli sənətkardır. Əvvəlcə onun şeirlərini toplamaq və sonra isə tədqiq etmək lazımdır. Mirzənin toplamaq sözü məni necə deyərlər bərk tutdu. Bir neçə gün bu barədə düşündüm, yollar axtardım. Nə edim, nədən və necə başlayım. Axı Molla Cümənin fəaliyyət göstərdiyi yerlər mənə tanışdır. Mən oralara getsəm sözün həqiqi mənasında uğurlar qazana bilərəm. Bir gənc folklorşünas kimi əlbəttə yadıma ekspedisiya düşdü[1]. Gedib bilavasitə oraları gəzməli, axtarmalı və fəaliyyət göstərməliyəm. İnstitut rektorluğunun razılığı ilə fərdi ekspedisiyaya getmək qərarına gəldim. İki il, hər il oktyabr ayını fərdi ekspedisiyaya sərf elədim. Böyük işlər gördüm. Bu barədə yazmışam. İndi ən ümdə işim əldə etdiyim əlyazmaları (onlar dörd nüsxədi, ərəb əlifbası ilə yazılmışdı) üzərində iş idi. 11 bloknotda mən dolaşdığım kəndlərdən yazmışdım. İki il gördüyüm işlər haqqında institutun böyük sovetində hesabat verdim. Elmi işlərə həsr olunan kitabçada hesabatım çap olundu[2].

Budur, əldə elədiyim 4 əlyazması, kəndləri dolaşıb yazdığım 11 bloknot əlimin altındadır. 4 əlyazması, 4 nəfərin yazdığı və mənim yazdığım etibarlı qaynaqlar. Mən ömrümün yarısını sərf edib bunlar üzərində çox gərgin işləmişəm. Bunlar barədə yazmışam və çap da eləmişəm. Onları bir də təkrar eləmək istəmirəm. Əziz oxucularım, mən indi başqa bir cəhəti sizin nəzərinizə çatdırmaq istəyirəm. Molla Cümənin ömrü faciə ilə başa çatıb. İdris Mustafayevin dediklərini də mən yazmışam, Kənddən bir az aralı bir neçə adamın qalaxlanmış

---

[1] Oxuculardan üzr istəyirəm, Molla Cümədən danışanda yazılarımda məcburiyyət qarşısında bəzi məqamları təkrar etməli oluram.

[2] Aşıq Cümənin yaradıcılığı. V.İ.Lenin adına APU-nun 1962-ci il elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuş XVIII elmi – hesabat konfransının tezisləri. 1963, səh.152-153.

şəkildə meyidlərini tapıblar. İdris dayı deyir ki, Molla Cüməni qılıncla tanınmaz bir şəklə salmışdılar. Biz onu paltarından tanıdıq. Əlbəttə, böyük sənətkarın faciəvi ölümü haqqında mənbələr əldə edib iki böyük məqalə çap eləmişəm. Onlar bu kitabda özünə yer alıb. Mən əlbəttə, qürurla demək istəyirəm ki, Molla Cümənin ədəbi irsinin bir növ bəxti gətirmişdir. Çünki onun ilk naşiri və ilk geniş tədqiqatçısı məhz Paşa Əfəndiyev olmuşdur. Bir də ona görə ki, axı mən bilavasitə Molla Cümənin həmyerlisiyəm. Aşığın yaşayıb fəaliyyət göstərdiyi yerlər mənə hamıdan daha çox məlum və doğmadır. Şəki-Balakən ərazisinin adət və ənənələri, etnoqrafiyası yer, kənd, çay adları o zamanın ləhcə xüsusiyyətləri, müəyyən şəklə, formaya düşən sözlər və sairə haqqında məlumata bələd olmaq lazımdır. Həmçinin Azərbaycan aşıq sənətinə, onun tarixi və mərhələlərinə, görkəmli nümayəndələrin həyat və yaradıcılığına bələd olmadan Molla Cümə poeziyasını sözün həqiqi mənasında düzgün qiymətləndirmək çətindir. Elə sözlər var ki, onlar yalnız Şəki-Balakən zonasında işlənir, bunlar ləhcə sözləri, yaxud ümumi sözlərdir. O zonanın dilində işlənir. Qənfit, həşir, cehil, nəbqət, mağmul, cürə (kimi), nükəndi, məhlə, ixtilat, yimax, zığılda, badax, eşik, ərəsət, doqqaz, pota, gimgə, aquba və sairə. Məsələn, dildə "həş" sözü var. Almanı yeyirsən, çəyirdəyi ilə birlikdə içi qalır, ona "həş" deyirlər. Tez-tez belə ifadələr də işlənir, gözümə həş düşüb. Yaxud, "qaşqa" sözü var. Bu insanın alnına verilən addır.. Ruslar buna "çelo", "lob" deyirlər. Bu sözü uzun müddət əlyazmalarından oxumaqda çətinlik çəkdim. Qax rayonunun Ləlpaşa kəndində 75 yaşlı Şirin dayı var. O, Molla Cümənin bir neçə şeirini bizə əzbər dedi. Özü də çox şən, şux, söhbətcil adamdı. Onun dilindən mən eşitdim ki, "O, sözünü düz deyən adamdı, sözü adamın lap qaşqasına deyir".

Molla Cümə şeirlərinin birində deyir ki, ey yaradan, böyük Allahımız sənə ibadət eləməkdən qaşqam yara olub. Yaxud başqa bir misal. Şəki-Balakən zonasında cavanlara

cehil, yaxud cayıl deyilir. M.Yarəhmədov bu sözü cahil oxuyub böyük aşığın şeirlərini zəhərləmişdir. Sözümün sonu yenə təkrar edirəm, yaxşı ki, Molla Cümənin həyat və yaradıcılığını tədqiq eləmək məhz həmyerlisi Paşa Əfəndiyevə nəsib olmuşdur.

Molla Cümə Şəki rayonunun Layisqi kəndindəndir. Özü şəxsən bunu dəfələrlə təsdiq eləmişdir.

Aşıq anasıyam şairlər kökü,
Gəzərəm dünyada divanə təki ,
Mahalım Göynükdür, şəhərim Şəki
Layisqi kəndinin binasıyam mən.

Yaxud, "Kəndim Layişqidir mənim, Salah oğlu Cüməyəm". Molla Cümə Layisqilidir, bu bir mənalıdır. Hətta çox zaman və çox yerdə ona Layisqili Molla Cümə deyirlər. Bununla belə "Adəmin nəvəsi" şeirində bəndlərdən birisi belə başlayır:

Binəm Layisqiyə düşübdür mehman.

Mehman qonaqdır, bunu biz necə başa düşək. Nə üçün aşıq özünü Layisqidə qonaq adlandırır. Bütün bunlarla bərabər başqa cəhətlər də var. Əslən Şəkili olan böyük ədəbiyyatşünas və folklorşünas Salman Mumtaz 1927-1928-ci illərdə çap elədiyi iki cildlik "El şairləri" kitabında Molla Cümənin bir şeirini də çap eləmiş və yazmışdır ki, İlisulu Molla Cümə. Fərdi ekspedisiyamın ikinci ilində Qaxın mərkəzində milliyətcə ləzgi olan Aşıq Əhməd digər məlumatlarla yanaşı söylədi ki, Molla Cümə aşağıdakı bayatını çox sevirdi və onu tez-tz oxuyardı:

İlisuda olaydım
Şişələrə dolaydım
İlisu qızlarının
Nişanlısı olaydım.

İlisulu Laçına Molla Cümə xüsusi bir şeir həsr eləmişdir, şeirdə Laçın bütün gözəl xasiyyətləri ilə təriflənir.

Yaz fəslinin bir gülüsən,
Nə xoş cavansan, a Laçın.

Qəmli könül bülbülüsən,
Nə xoş cavansan, a Laçın.
Dərdi qanansan, a Laçın.

Şeir gəraylı üstündədir, 7 banddir. Orada belə bir misralar da var:

Kamalına səd maşallah,
Çağırana can deyərsən
Əslin-kökün İlisulu.

Son bənd:

Dəryaların zər daşısan,
Bu könlümün sirdaşısan,
Molla Cümə qardaşısan,
Nə xoş cavansan, a Laçın.
Şirin zəbansan, a Laçın,
Dərdi qanansan, a Laçın.

İlisu ilə bağlı başqa bir əhvalat da olmuşdur. O zaman Dilruba Qiyasbəyli Şəki-Zaqatala zonasında olanda bir nəfər hörmətli İlisulu ilə görüşmüşdür. Şəki-Zaqatala zonasında Molla Cümənin çoxlu dostları olub. Onlardan biri də İlisulu Molla Surxaydır. Qocaların, aşıqların dediyinə görə, Molla Cümə Molla Surxaya bir neçə şeir həsr eləmişdir. Həmin şeirlərdən hərdən birini hələ 1930-cu illərdə Hümmət Əlizadə çap eləmişdir[3]. Ancaq bu variant dörd bənddən ibarətdir. Məlumdur ki, Molla Cümə ənənəvi olaraq bütün şeirlərini tək bəndlərlə yazmışdır. D.Qiyasbəyli məqaləsində[4] şeiri tamam yazmış və çap etmişdir. Mən həmin şeiri özümdə olan əlyazmalarımda tapdım, müqayisələr apardım. Bütöv şəkildə aşığın külliyatına daxil elədim. D.Qiyasbəyli yazır: "Bu şeirin qəribə tarixçəsi vardır. Qoşma Qax rayonundakı İlisu kənd sakini Vəli Balay oğlu Qocayevdən yazılmışdır. (Məlum olsun ki, İlisuda Qocayevlər ailəsi var. Vəli dayını mən çox yaxşı tanıyıram. Uzun müddət İlisuda kənd sovetinin sədri işləmişdir. Qardaşı

---

[3] Aşıqlar, 1935. Səh.165-166
[4] Elm və həyat, 1971, № 6

Saleh Qocayev Bakıda məsul vəzifələrdə çalışıb. Son vəzifəsi Bakı Sənaye İnstitutunun rektoru idi. Əmisi oğlu Mahmud Qocayev kənd təsərrüfatı tədarük idarəsinin sədri olmuşdur (P.Ə.). Vəli dayı D.Qiyasbəyliyə aşağıdakı sözləri demiş: “1917-1918-ci illər olardı. O vaxt mənim 22-23 yaşım olardı. Şəkidən gəlirdim. Yolda, Əmbərcay kəndinə gedən yolun ağ-zında Molla Cümə ilə rastlaşdım. O, çox kefsiz idi. Çox qocalmışdı. Mənim kim olduğumu soruşdu. Atamı tanıdı. O, dostu Molla Surxaydan çox giley elədi. Dedi ki, çox xəstə oldum, yanıma gəlmədi. Xəbər də göndərdim. Qoca könlü kövrək olar. O, köksünü ötürüb dedi: “Yazı, pozu bilirsənmi? Dedim bəli. O, Molla Surxaya dediyi üç qoşmasını mənə yazdırdı. Aşıq dedi ki, şeir tapşırması ilə birlikdə üç olur”. D.Qiyasbəyliyə görə, Molla Cümənin Molla Surxaya həsr etdiyi şeirlər “Dünyadır”, “Bala mən” və bir də “Sonra” rədifləri ilədir. “Dünyadır” şeiri bilavasitə Molla Surxaya ünvanlanıb. Mən o biri şeirləri öz əlyazmalarımda axtardım. “Sonra” rədifli şeiri tapdım. Nə onda və nə də “Bala mən” şeirlərində Molla Surxaya aid heç bir nişanə tapa bilmədim. “Dünyadır” rədifli şeirindən bir bənd:

Çoxlarına tər bənəfşə iylədir,
Çoxlarını gecə-gündüz göynədir,
Çoxlarını dırnaq üstdə oynadır,
Çoxlarına tambur çalan dünyadır.

Ancaq Molla Cümənin Molla Surxaya həsr elədiyi digər şeirləri də var. “İnsandır”, “Üç insan”, “Molla Surxay”. Həmin şeirlər bilavasitə Molla Surxayla bağlıdır. Üç insan isə bunlardır: Molla Surxay, Məhəmməd və İsmi Pünhan. Bu şeirlər içərisində xüsusilə “Molla Surxaydır” müxəmməsi diqqət cəlb edir. Müxəmməs öz dərin məzmunu ilə, el dilinin möcüzələrinə bələdliyi ilə gözəl bir poemadır. Bəzi bəndlərin son iki misralarını misal gətirmək istəyirəm:

Nə qədər dostlarım varsa,
Qabağı Molla Surxaydır.

Cənnətdə sərvi Tubanın,
Budağı Molla Surxaydır.

Xudağının dünyada əziz
Qonağı Molla Surxaydır.
Abi Zəmzəm, Abi Kövsər,
Bulağı Molla Surxaydır.

Çox da olsun uca dağlar
Tur dağı Molla Surxaydır.
Muştuluq Adəm Ataya
Ondan qalmış bir fərzəndə.

Diqqət edin, Molla Cümə ən məşhur, ən dərin məzmunlu mifoloji qaynaqlardan istifadə edərək əziz ostunu tərifləyir, qiymətləndirir. Baxın Tuba cənnətdə müqəddəs ağacdır. Tur dağı Musa peyğəmbərin Allah Taala ilə danışdığı dağıdır. Zəm-zəm, Abi Kövsər cənnətin əbədi həyat bəxş edən müqəddəs sulardır.

Molla Cümənin "Usta" rədifli başqa bir qoşması da var. Orada aşıq Məhəmməd adlı İlisudan olan bir ustanı tərif edir.

Məskənin İlisu familin Eldar

Elmdə mahirsən gün kimi aşkar – deyərək nadir, gözəl insani keyfiyyətlərə malik 7 bəndlik qoşmada tərif olunur. Oxucum, təkrar edirəm, böyük sənətkarın İlisu ilə bağlı motivləri üzə çıxarıb yazmaqda məqsədim Molla Cümənin İlisululara və İlisuya rəğbət və məhəbbətim aşkarlamaqdır.

Ekspedisiyanın birinci ayında Aşağı Göynük kəndində İdris Mustafayevlə tanış oldum. Yaşı yüzü keçmiş İdris dayı dedi ki, mən 1917-ci ildən bolşevik idim. Məni bir bəhanə tapıb Sibirə göndərmişdilər. Məni Sibirdən Sovet hökuməti qaytardı. 1923-cü ildə partiyada təmizlənmə aparıldı, məni də partiyadan çıxartdılar. Sonra daha ərizə vermədim. İdris dayı çox yorğun görünürdü. O, ömür yoldaşı Mariya xalanı Sibirdən gətirmişdi. Çox mehriban dolanırdılar. İdris dayı dedi ki, Molla

Cümənin uşaqlıq yoldaşı olub. İdris dayı haqqında az da olsa yazmışam. İndi onu demək istəyirəm ki, Molla Cümə haqqında onda çoxlu xatirələr var idi. Ikinci ili onunla görüşə bilmədim. Çünki dünyasını dəyişmişdi. İdris dayı nəql edir ki, 1895-ci ildə İlisudan Xəlil bəyin oğlu Aşağı Layisqiyə gəlmişdi. Kəndə yüzbaşı seçmək istəyirdi. Xəlil bəyin oğlu məhz Molla Cümənin namizədliyini irəli sürür, Molla Cüməni yüzbaşı seçmək istəyir. Bizcə, çox ibrətamizdir. İlisulu bu şəxs xüsusi tapşırıqla gəlmişdi. Camaat razılaşmışdı, hamısı Molla Cüməni istəyirdi. Sonda Molla Cümə ayağa durdu və danışdı, dedi ki, mən aşıq babayam, kəndləri gəzirəm, məclislər aparıram. Məndən yüzbaşı olmaz. Onun sözlərini qəbul elədilər. Molla Cüməni azad elədilər.

Görünür  Molla Cümə İlisuda olub, özü də bir neçə dəfə, nə qədər olub demək çətindir. Düzü bu problemlə bərabər İlisuda sorğu apara bilmədim. Ancaq aşığın İlisuya həsr elədiyi qoşmanı axtarıb tapmışam, yoxlayıb aşığın külliyatına daxil eləmişəm.

İlisi kəndindən 7 kilometr aralı "Ağçay" çayının mənbəyində iyli, qoxulu bir su var. Həmin su zirvəsi görünməyən sal qayalardan, şırıltı ilə axıb tökülür. 37 dərəcə istisi var, kükürd qoxusu verir. Müalicə xarakterlidir. Molla Cümə burada olub. İlisulular oraya hamam deyirlər. Aşıq oranı seyr eləyib, gəlib-gedən insan axınını diqqətlə öz gözləri ilə görüb, bir qoşma da demişdir. Budur qoşma:

İlisunun hamamına varanda,
Kəndin gözəlləri mənə tuş oldu.
Görən təki məndə aman qalmadı,
Əqil getdi başdan, lap bihuş oldu.

Kimisi gəlmişdi, keyfə, damağa,
Kimisi də yatıb qaldı sabaha,
Canım qurban ayna kimi qabağa
Ağ üzündə xalı qələm qaş oldu.

Mən Cüməyəm, başım düşdü bəlaya
Hamam döndü qızılgülə, lalaya.
Yönümü çevirdim Tovla Talaya,
Hayıf ki, yollarım qara daş oldu.

Sonuncu iki misra maraqlıdır. Yönümü çevirdim Tovla Talaya, heyif ki, yollarım qara daş oldu. Məsələ burasındadır ki, İlisu bir neçə məhəllədən ibarətdir. Biri də Tovla Taladır. Burada həm Tovla var və həm də Tala var. Hər iki sözün özünə görə mənası vardır. Bu məhəllə Kürmük və Ağçay çaylarının arasındakı yüksəklikdə yerləşir. Mənim fərziyyəmə görə burada İlisu sultanlarının atları saxlanmışdır. Atlara burada xüsusi qayğı göstərilmişdir. Bəs "qara daş" nədir? Tovla Talanın ətəyində, çaylaqda daşların altından çox zəif bir şəkildə su axır. İlisulular ona Moh suyu deyirlər. Bu su həmin kəndin başında olan hamamın suyundandır. Ancaq çox az axır. Qadınlar hamama getməyə imkanı olmadıqda bu suyu qablara yığıb çimir, üzlərini, əllərini yuyur. Görünür Molla Cümə hamamda və həm də Tovla Talada olan Moh suyunda olub, diqqətlə müşahidə aparmışdır. Məncə, bu şəkildə olan əhvalatlar aşığın İlisuya və İlisululara qarşı rəğbəti ilə əlaqədar olur. Molla Cümənin çoxlu dostları olub. Aşığın el içində böyük hörməti olmuşdur. Çox ağayana, sözünə düz, ədalətli, qayğıkeş, insanpərvər bir şəxs idi. Aşıqlığı əsas etibarilə şeir demək, söz qoşmaqdan ibarət idi. İfadan daha çox şeir qoşmaqla məşğul olub. Yaxşı səsi olmayıb. Çox gözəl iti hafizəsi olub. Allahdan vergi alıb. Dilimizin incəliklərinə çox yaxın olub. Kiçik bir hadisədən təsirlənərək böyük bir əsər ortaya gətirərmiş.

Molla Cümənin şeirlərini toplamaq məqsədilə 2 il (1961-1962) hər dəfə 1 ay olmaqla Şəki-Balakən zonasında fərdi ekspedisiyada olmuşam. Şəkinin Baş Göynük kəndində olarkən dedilər ki, bu kənddə 1 nömrəli orta məktəbin dil və ədəbiyyat müəllimi Şərif İdrisov da neçə vaxtdır Molla Cümənin şeirlərini toplamaqla məşğuldur. O vaxt Şərif müəllim kənddə yox

idi. Mən artıq üç gün idi ki, Molla Cümənin qızı Reyhan xanımın qonağı idim. Üçüncü gün yola düşməli idim. Şərif müəllim gəlib çıxdı. Onunla görüşüm oldu, əməlli başlı söhbətlər apardıq. Şərif İdrisov mənə Molla Cümənin 2 müxəmməsinin əlyazmasını lütflə hədiyyə verdi. "Deyim" və "Göynüyü" rədifli müxəmməslərini Molla Cümənin 1966-cı ildə "Azərnəşr" tərəfindən buraxılan "Şeirlər" kitabında çap elədim. Sonralar ara-sıra Şərif İdrisov mənə nələri necə toplamaq və sairə haqqında məktublarla müraciət eləyirdi. Hətta özünün fərdi yaradıcılığı haqqında da danışırdı. Onu deyim ki, mən yuxarıda dediyin 2 müxəmməsdən başqa ondan heç nə istəməmişəm və almamışam. Ona görə ki, mənim əlimdə kifayət qədər əlyazmaları olub. Onlar üzərində intensiv olaraq işləmişəm. Bir gün Şərif İdrisov zəng eləyib bizə evə gəldi. Dedi ki, Paşa müəllim xahiş edirəm mənə kömək göstərin, əlimdə o qədər şeirlər var, onları nə edim? O, dərdini açıb mənə danışdı. Dedi ki, mən Molla Cümənin əlimdə olan şeirlərini bir yerə toplayıb makinada çıxardım. Cild eləyib "Yazıçı" nəşriyyatına apardım. Mənə dedilər ki, şeirlər haqqında müsbət rəy olmalıdır. Məni Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun folklor şöbəsinə göndərdilər. Folklor şöbəsinin müdiri, professor M.H.Təhmasib idi. Şeirləri şöbənin işçisi Bəhlul Abdullayevə rəyə verdim. O da mənfi rəy yazdı. Mən sonra Əziz Mirəhmədov, Kamal Talıbzadə ilə də söhbət eləmişəm. Heç bir xeyri olmadı. Paşa müəllim xahiş edirəm ki, mənə kömək edin. Şeirlərinin heç olmasa kiçik bir hissəsini çap eləyə bilim. Mən dedim ki, "Yazıçı" da kitabım var. Demək olar ki, onu tərtib eləyib qurtarmışam. Çalışaram sənin şeirlərindən bir neçəsini o kitaba daxil edəm. O zaman "Yazıçı"nın direktoru Əjdər Xanbabayev, baş redaktoru Sabir Rüstəmxanlı, şöbə müdiri Məmməd İsmayıl, mənim kitabımın redaktoru isə Qəşəm İsazadə idi. Nəşriyyatın icazəsi ilə Şərif İdrisovun 30-40 şeirini kitabıma daxil elədim. Bir neçə gündən sonra Qəşəm İsazadə məni

redaksiyaya çağırdı. Əlavə elədi ki, burada bir neçə şeir var. Onlar qüsurludur, çap eləmək olmaz. Göstərdi ki, hansı şeirlərdir. Hamısı da Şərif İdrisovun kitabından götürülən nümunələr idi. Şərif İdrisovu çağırdı. Qəşəm İsazadə dedi ki, Paşa müəllim şeirləri əlyazmalarından götürüb çap eləyir. Əlyazmalar sözünü eşidən Şərif İdrisov tezliklə Şəkiyə yollanır. Molla Cümənin yaxşı şagirdlərindən olan Aşıq Hacıbalanın arxivindən bir sıra şeirlər gətirdi. Mən həmin şeirlərdən bir neçəsini seçib kitaba daxil elədim. Həmin şeirlər mənim Molla Cümə haqqında 1983-cü il nəşrinə Şərif İdrisovun adı ilə daxil edildi.

Günlərin birində yenə Şərif İdrisov bizə gəldi. Dedi ki, mən indi M.H.Təhmasiblə görüşmüşəm. Mənə dedi ki, Molla Cümə haqqında namizədlik dissertasiyası yazmaq istəyirəm. Mən Akademiyaya dissertant qəbul olmaq istəyirəm. M.H.Təhmasib müəllim mənə dedi ki, respublikada Molla Cümənin ilk və əsas tədqiqatçısı professor Paşa Əfəndiyevdir. O, institutda işləyir, özü də kafedra müdiridir. O, asanlıqla səni dissertant götürə bilər. Paşa müəllimlə görüşün. Mən razılıq verdim, elmi rəhbəri olmağı da öhdəsinə götürdü. Şərif İdrisovdan xahiş etdim ki, sənədləri hazırlasın. Dissertantlığa qəbul üçün Molla Cümənin yaradıcılığı ilə bağlı bir referat hazırlasın. Şərif İdrisob təxminən 20 makina yazısında referat hazırladı. Ancaq sonra onun sorağı gəlmədi. Dedilər ki, o dünyasını dəyişib. İndi onun referatı əlimdədir. İstəyirəm Molla Cümə ilə bağlı hazırladığım kitabda onun bir hissəsini çap eləyəm. Qoy Şərif İdrisovun ruhu xoş olsun.

Baş Göynükdə olarkən yadıma nə düşdü. Mən dil və ədəbiyyat fakültəsini qurtaranda Maarif Nazirliyi məni Şəki rayonu Baş Göynük kəndi 1 nömrəli orta məktəbə dil və ədəbiyyat müəllimi təyin eləmişdi. Yol kağızları, sənədlər hazır şəkildə əlimdə idi. Mən də oraya getməyə hazırlaşırdım. Ancaq Ulu Tanrı mənim yolumu dəyişdirdi. Mən özümü tərifləmirəm, baxmayaraq ki, buna tamamilə layiqəm. o ili dil və ədəbiyyat

fakültəsini 75 nəfər qurtarırdı. Ancaq bunlardan 2 nəfər fərqlənmə diplomuna layiq görüldü. Onlardan biri mən idim. Ona görə mən özümü qəhrəman hiss edirəm. Dörd illik çox ağır və şərəfli təhsil illərini beləcə başa vurmuşam. Həmin zəhmətin müqabilində məni doğma institutda saxladılar. Professor M.Rəfilinin aspirantı olmaqdan böyük xoşbəxtlik nə ola bilər. İndi yolum həmin məktəbə düşmüşdü. Tale gətirib məni oraya çıxardı. Məktəbin müəllim kollektivi ilə görüşdüm. Dedilər ki, bu məktəbin dil və ədəbiyyat müəllimi Şərif İdrisov neçə illərdir ki, Molla Cümənin şeirlərini toplamaqla məşğuldur, ancaq indi kənddə yoxdur, bir neçə gündən sonra gələcək. Aşığın şeirlərini yığdıqca, topladıqca diqqətlə oxuyur, qoy-götür eləyir. Böyük sənətkarın yaradıcılığı haqqında çoxlu-çoxlu məsələ və mülahizələri fikirləşirdim. Onun poetik aləmi, rəngarəng şeir şəkilləri, müxəmməslərində cilvələnən şirin-şəkər dilimizin möcüzəli çalarları daim diqqətimdə olub. Həmişə də yazmaq, axtarmaq, tədqiq eləmək fikrindən daşınmamışam. Əsas məsələ o böyük insanı, şairlərini kobud, köhnə kağızlarda diqqətlə ayırıb, soraqlaşıb, müqayisələr aparıb əsil kökünü üzə çıxarıb, düzüb-qoşub böyük aşığın özü qədər sevdiyi doğma xalqına qaytarmaq olmuşdur. Bununla belə bir sıra axtarışlar, tədqiqatlar da meydana gəlmişdir. Vaxt-vaxt onları sistemə salıb çap etdirmişəm. Həmin axtarışlardan, tədqiqatlardan neçəsini kitabıma daxil eləmişəm.

Molla Cümə yalnız dinlərin tarixinin deyil ümumbəşəri mifologiyanın da gözəl bilicisi olduğunu nümayiş etdirmişdir. Dünyanın yaranması haqqında bütün xalqlar miflər düzəltmişlər. İslam mifologiyasında dünyanın yaranması müxtəlif şəkillərdə şərh olunmuşdur. Bunların bir çoxuna Molla Cümə bələd olmuşdur.

Cahar şeydən xəlq olmuşuq

Abi atəş xaki bad -yaxud bu dünyanı yaradan Allaha müraciətlə

Yeddi qat yer, yeddi qat göy yaradıbsan,

Binasını atəşdən yaratdı Allah.

Bəzi əsatirlərə görə Allah dünyanı yaradanda yarısı su, yarısı da od olmuşdur. Bundan sonra isə qalan məxluqatı, canlıları, heyvanları, nəbatatı yaratmışdır.

Hələ Adəm peyğəmbərdən qabağa,
Bir üzü ağ, biri qara dünyadır.

Aşığın bir çox misralarının arxasında böyük əfsanə, əsatirlər dayanır. Molla Cümənin şeirlərinin birində belə bir misra var: "Musayi Şeyubin əsası məndə". Bu misra qədim dini əsatirlərlə bağlıdır. Musanın əsası peyğəmbərin onunla göstərilən möcüzələr aiddir. Bəs Şeyub kimdir? Qədim mifə görə, Musa peyğəmbər bir müddət Misir hökmdarı Fironun sarayında yaşamışdır. Musa və Fironla bağlı əsatirlər mövcuddur. Müəyyən bir günah işlətdiyinə görə hökmdarın qəzəbindən Şama qaçmışdır. Orada Şeyub adlı varlı bir kişiyə çoban (nökər) olmuşdur. Quranda yazıldığına görə Şeyubun özü də peyğəmbər olmuşdur. Musa çoxlu sərvətlər toplayır və Şeyubun qızına evlənir. Deməli, Molla Cümə Musa peyğəmbərlə bağlı macəraları və Şeyubun xarakterinə bağlı əsatirlərə bələd olmuşdur.

Şəki əlyazmasının əvvəlində belə bir qeyd vardır. Molla Cümə həyatında bir dəfə də olsun mollalıq etməmişdir. Yazı bilmiş olduğu üçün Molla deyərək adlandırmışdılar. Heç bir vaxt mollalara verilən zəkat və başqa vergilərə ömründə yaxın durmamışdır. İbaxlıda (Qax rayonu) bir molla xalq qarşısında öz dolanacağından şikayətlənir. Molla Cümə bunu eşidir, ona buğda vəd edir. Molla gəlib aşığın evindən buğdanı aparanda Molla Cümə onu danlayır. Belə işlərin əsil din xadiminə yaraşmadığını söyləyir.

Molla Cümə savad görmüş sənətkardır. Qoşduğu şeirləri özü yazıya alıb. Belə ki, onun şeirləri iki yolla yayılıb. Əlyazmalar və şifahi yolla. Əlyazmaların bir hissəsi professional katiblər tərəfindən köçürülüb, yayılıb. Bir də həvəskarlar, necə

deyərlər əlyazma sahiblərindən alıb özləri üçün köçürülüb saxlanmışdır.

Aşığın şeirini oxuyub bəzən deyirlər, Molla Cümə bunu belə yazmaz, yaxud misranı belə deməzdi. Ola bilsin ki, bu düzdür. Ancaq unutmaq olmaz ki, hansı yolla da olsa bu şeir əlyazmasına belə düşüb. Bizdə olab başqa əlyazmalarında da variantı yoxdur, ona görə də həmin şeir həmin əlyazmasında necə varsa o şəkildə də kitaba daxil etmişik. Gələcəkdə, əlbəttə ki, onun əslinin üzə çıxarılacağına əminik. Şəki əlyazmasının əvvəlində çox maraqlı bir qeyddə rast gəlirik. Orada deyilir: Molla Cümə Zaqatalanı, Dağıstanı gəzmişdir. Bir qədər ürəyi darıxdığı zaman Zaqatalaya keçərdi. Hər bir yerdə şeir yazmaqla da məşğul olmuşdu. Başqa-başqa yerlərdə kəndisi aşıqlar tərzində qoşduğu bir çox el sözlərini hər yerdə söylər və oxuyardı. Bəzən lazımlılarını evdə dəftərinə yazardı. Əksəriyyəti isə el içində yayılıb qalmışdır ki, çoxlarını əldə etmək mümkünsüzdür. Çünki hansı bir məclisdəki söylədiyi şeirləri, qəzəlləri çox vaxt dəftərinə yazmazdı. Odur ki, kənd aşıqlarının ağzında əzbər qalmışdır.

# II BÖLMƏ
# MOLLA CÜMƏNİN ƏDƏBİ İRSİ MÜQƏDDƏS VƏ TOXUNULMAZDIR

*Məndə sığar iki cahan, mən bu cahana sığmazam,*
*Gövhəri laməkan mənəm, kövnü məkana sığmazam.*
*Nəsimi*

Mən düz 72 ildir xalqımızın fəxri 96 yaşlı pedaqoji məbədin divarları arasındayam. 16 il Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri olmuşam. Bu kafedranın əsasını 1921-ci ildə böyük yazıçı və böyük müəllim Abdulla Şaiq qoymuşdur. Əli Nazim, Mikayıl Rəfili, akademik Feyzulla Qasımzadə də kafedraya rəhbərlik etmişlər. Müdir işlədiyim illərdən birində kafedranın üzvü, professor Xeyrulla Məmmədov gəlib yanımda oturdu. Dedi ki, Paşa müəllim, mən indi Əlyazmaları İnstitutunun direktor əvəzi Məmməd Adilovun yanından gəlirəm. Onun əlində Molla Cümənin şeirləri çap olunan bir kitab var idi. Mən ona dedim ki, professor Paşa Əfəndiyev 30-40 ildir Molla Cümənin həyat və fəaliyyətini öyrənir, bir neçə kitabı da çıxıb. Məmməd, bunlardan xəbərin varmı? O cavab verdi və and içdi ki, onun heç nədən xəbəri yoxdur. Xeyrulla müəllim bunları mənə dedi. Düzü, mən təəccüb elədim.

Səhərisi mən Məmməd Adilova zəng çaldım. Məmməd müəllim bizim dostumuz mərhum dilçi alimimiz Musa Adilovun oğludur. O, namizədlik dissertasiyasını bizim pedaqoji institutda müdafiə eləyib. Müdafiə sovetində dissertasiyanın müzakirəsində sədrliyi də mən eləmişəm. Məmməd müəllimdən xahiş elədim ki, o kitabdan bir nüsxəsini mənə çatdırsın. Doğrudan da bir-iki gündən sonra o, kitabı göndərdi. Məmməd Adilov özünü mənim tələbəm hesab eləyir. O, kitabın avtoqrafında yazmışdı: "Əzizimiz, dərin hörmət bəslədiyimiz ağsaqqal alimimiz Molla Cümənin ilk tədqiqatçılarından biri, ilk naşiri, gözəl insan professor Paşa Əfəndiyev üçün dərin hörmət

və ən səmimi hisslərimlə, Adilov". Mən kitabı vərəqləyib, məzmununa, şeiriyyətinə dərindən varmadan rəfə qoydum. Uzun müddət ona baxmadım. Bu yaxınlarda kitab rəfdə gözümə dəydi, diqqətim artdı, alıb əməlli-başlı oxumağa başladım. Elə bu zaman Mövlud Yarəhmədovun vaxtilə yazdığı bir-iki məqaləni xatırladım, məqalələri olduğu kimi kitabın müqəddiməsinə köçürmüşdü. Bu zaman böyük aşığımız Molla Cümə ilə əlaqədar yazılmış məqalələr və söylənmiş mülahizələr gözümün qabağında canlandı. Bunlardan bəziləri haqqında indi danışmağı lazım bilirəm. Bir də ona görə ki, böyük sənətkarımız Molla Cümənin yaradıcılığına hörmət və məhəbbət ömrüm boyu mənim diqqətimdədir.

Molla Cümənin bir şeiri var. Hələ 1930-cu illərdə Hümmət Əlizadə aşığın bəzi şeirlərini çap eləyəndə bu əsərə çox gözəl bir ad vermişdi. "Adəmin nəvəsi"

Aşıqlıq Adəmdən icad olubdur,
Ol Adəm atanın nəvəsiyəm mən,
Dünyaya nə qədər aşıq gəlibsə,
Küllü aşıqların anasıyam mən.

Aşıq anasıyam şairlər kökü,
Gəzərəm dünyada divanə təki,
Mahalım Göynükdür, şəhərim Şəki,
Layisqi kəndinin binasıyam mən.

Binəm Layisqiyə düşübdür mehman,
Pədərim Salahdır, madərim Reyhan,
Vələdim Həsəndir, əxim Süleyman,
Famlim Molla Oruc, ədnasıyam mən.

Bu vücudnamədə Molla Cümə özü, həyatı, necə deyərlər, yurdu-məskəni, qohum-əqrəbası haqqında məlumat verir. Bu şeirdə belə bir misra var:

Vələdim Həsəndir, əxim Süleyman.

Bu şeiri hələ Böyük Vətən Müharibəsi ərəfəsində Hümmət Əlizadə çap eləmişdir. Mən deyə bilmərəm, diqqətsizlik ucundan, yoxsa tələsik olduğundan "əxim" sözünü adım sözü ilə əvəz edib, yəni belə oxuyub. Ondan sonra folklorşünaslığımıza da belə daxil olub. Mən də hətta aşığın ilk şeirlər kitabında (1966) adım yazmışam. Kitabı alan kimi Molla Cümənin nəvəsi Mövlud Əzizov mənə yazdığı məktubda göstərmişdi ki, aşığın adı Süleyman olmamışdır. Uzun müddət aşığın adı Süleyman kimi getmişdir. Hətta Mövlud Yarəhmədov neçə yerdə aşığın adını belə yazmışdı: Orucov Cuma Salah oğlu.

Mən Molla Cümənin şeirlərini toplamaq üçün Şəki-Balakən zonasında olarkən bir neçə əlyazmasını əldə edib 30-40 il onlar üzərində işləmişəm. Bu əlyazmalarından biri Mirzə Ələkbər Sabirin 1914-cü ildə İsabəy Aşurbəyovun "Kaspi" mətbəəsi tərəfindən buraxılmış "Hophopnamə"sidir. Bir gün bu əlyazmasını vərəqləyirdim. Gördüm ki, yazılıb "əxim Süleyman". Təəccübləndim, elə o saat qələmimi işə salıb bir məqalə hazırladım. Məqaləni belə başladım: Bu qeydlərimi yazmaqda məqsədim Molla Cümənin həyatı ilə bağlı yol verilmiş bir qüsurun islahıdır. Məqaləni hazırladım. Hətta aşığın başqa bir şeirində olan qeydi də oraya əlavə elədim. Molla Cümə Zaqatalanın Tala kəndində xəstələnib yatağa düşür, ağır xəstələnir, xəstəliyi uzun çəkir. O zaman doğmalarını, yaxınlarını xatırlayan bir şeir yazır. Gəraylı üstündə olan bu şeirdə belə bir bənd var:

Qürbətdə ağrayır başım,
Gözlərimdən axır yaşım,
Aşə yengə, bir qardaşım,
Ol Süleyman yada düşdü.

Məqaləni hazırlayıb "Ədəbiyyat və incəsənət" qəzetinin redaksiyasına getdim, şöbə müdiri Sabir Rüstəmxanlı idi. Sabir məni özünə müəllim hesab eləyirdi. Bir də ona görə ki, mən onun "Cəlil Məmmədquluzadə və folklor" adlı namizədlik

dissertasiyasının opponenti olmuşdum. Ona verdiyim rəyi kitablarımın birində çap eləmişəm. Heç yadımdan çıxmır, çox cavan olan Sabir Rüstəmxanlı haqqında rəyimin əvvəlində yazmışdım: folklorşünaslığımıza yeni bir istedad gəlir. Sabir müəllim elə o həftəcə məqaləmi çap elədi, adı da belə idi: "Bir daha Molla Cümə haqqında". Beləliklə, illərlə aşıq haqqında söylənən qüsur islah olundu. Şeiri tamamlayıb, yoxlayıb aşığın külliyatına daxil elədim.

"Adəmin nəvəsi" şeiri ilə əlaqədar daha bir problem də var. Molla Cümə şeirin üçüncü bəndində belə misralar işlədib. Bu bənddə o, öz doğmalarının adlarını çəkir:

Binəm Layisqiyə düşübdür mehman,
Pədərim Salahdır, madərim Reyhan,
Vələdim Həsəndir, əxim Süleyman,
Famlim Molla Oruc ədnasıyam mən.

Mən bu misraları ilk kitabımda olduğu kimi saxlamışam. Ona görə ki, mənim əlimdə əsas var idi. Mövlud Yarəhmədov yazır ki, "ədna" pis mənalı sözdür. Molla Cümə onu işlətməz. Mən kitabımı çapa hazırlayarkən bu misra üzərində çox düşündüm və qərara gəldim ki, böyük sənətkar çox yaxşı bilir ki, necə ifadə eyləyə bilər. Mən bizim böyük alimlərimizə müraciət etməyi də qərarlaşdırmışdım. Bir gün evdə oturmuşdum, telefon zəng çaldı. Səs gəldi ki, Paşa müəllim, mən şəxsən sizinlə tanış deyiləm. Ancaq bu günlərdə sizin kitabınızı almışam (söhbət "Azərbaycan şifahi xalq ədəbiyyatı" adlı dərslikdən gedir – P.Ə.), oxumuşam, mən çox sevinmişəm. Siz nə qədər zəhmət çəkmisiniz, neçə-neçə alimin, yazıçı və etnoqrafın, folklorşünasların fəaliyyətini işıqlandırmısınız, nə qədər mənbə və qaynaqları əldə edib diqqətlə təhlildən keçirmisiniz. Paşa müəllim, sizi təbrik edirəm, sizə çox sağ olun deyirəm. Zəng eləyən Azərbaycan jurnalistikasının patriarxı, əfsanəvi alim və tədqiqatçı Qulam Məmmədli idi. Siz təsəvvür edə bilməzsiniz ki, böyük insanın qiyməti mənim üçün nə qədər əziz və xoş idi. Mən özümü xoşbəxt hiss

elədim. Onu da əlavə edim ki, mən onsuz da Qulam müəllimə zəng eləyəsi idim. Elə indi yadıma düşdü. Böyük jurnalistə təşəkkür edəndən sonra çox ehtiyatla xahişimi bildirdim. Dedim ki, Qulam müəllim, böyük aşığımız Molla Cümənin çox qiymətli və gözəl bir şeiri var. 7 banddan ibarətdir, vücudnamədir, orada bəndlərin birində belə misralar var:

Vəlǝdim Həsəndir, əxim Süleyman
Famlim Molla oruc ədnasıyam mən.

İkinci misradakı "ədna" sözünə etiraz edirlər. Deyirlər ki, o, pis mənalı sözdür. Mövlud Yarəhmədov kitabının müqəddiməsində belə yazır: "Bu misradakı "ədnayam" sözünün kökü "ədna"dır. Əsli ərəb sözü olan "ədna"nın mənası "çox rəzil", "çox alçaq" deməkdir. Əgər bu misra həqiqətən də Cüməyə məxsusdursa, "onda nə üçün sənətkar özünü belə adlandırmalı idi". Əlbəttə, mən Molla Cümənin ilk şeirlər kitabında bu misranı böyük sənətkarın dediyi şəkildə saxlamışam. Çox maraqlıdır ki, Mövlud Yarəhmədovun da sonrakı qeydi çox qəribə və gülünc görünür: "Əlbəttə, belə təhriflərin hamısını Hümmət Əlizadənin ünvanına yazmaq bir qədər də doğru deyildir. Buraxılmış bəzi səhvlər korrektorların öz işinə soyuq yanaşması nəticəsində baş vermişdir. Ola bilsin ki, tərtibçi "əbna" vermiş, korrektorlar isə latın əlifbasındakı "b" – "б"lə "d" – "g"nı dolaşıq salmış, nəticədə isə "əbna"nın yerinə "ədna" getmişdir". Maraqlıdır ki, Mövlud Yarəhmədov hətta bu sözün işlədilmədiyi bir bənd şeiri də düzəltmişdir.

Binamız Layisqi, özüm bir mehman,
Pədərim Salahdır, madərim Reyhan,
Vəlǝdim Həsəndir, əxi Süleyman
Təbibsiz dərdlərin dəvasıyam mən.

Bu bənd heç bir vəchlə Molla Cümənin şeirinə uyğunlaşmır, uyuşmur. Molla Cümənin şeiri ustadnamədir, özü də zəncirləmə şəklində düzülüb qoşulmuşdur. Aşığın bu gözəl, məşhur şeirində hansı bənd nə sözlə qurtarırsa, sonra gələn bənd həmin sözlə başlayır:

Məsələn:

...Vələdim Həsəndir əxim Süleyman
Famlim Molla Oruc ədnasıyam mən.

Bu bənddə çox diqqətəlayiq və uyğun sözlər işlədilmişdir. Baxın, aşıq öz ailə üzvlərinin adlarını çəkir, nəslinin böyüyü Molla Orucla bəndi tamamlayır, özünü də bu nəslin kiçiyi, kəmtəri, balacası, ədnası adlandırır.

Ədnayəm, kəmtərəm dərdə dərmanam,
Hənəfi-məzhəbəm, həm müsəlmanam,
Nəbim Məhəmməddir, əhli-Quranam,
Mömin qardaşların aşnasıyam mən.

Molla Cümə başqa bir şeirində də özünü belə adlandırmışdır. “Ədna” kiçik, balaca, kəmtər və s. mənalarını daşıyır. Aşığın “Yenə” rədifli müxəmməsi var, şeirin birinci bəndində belə misralar işlədilmişdir.

Əl atıb tutmağa qorxdum,
Düşərəm qovğaya yenə.
Yazacam rəhm eyləsin
Mən təki ədnaya yenə.

Molla Cümə belə yazıb, belə oxuyub və mən də aşığın yazdığı şəkildə digər əlyazmaları ilə müqayisələr aparıb əsərlərinin külliyyatına daxil eləmişəm. Mən bunları çox çəkinə-çəkinə, ehtiyatla Qulam müəllimə danışdım və əlavə elədim ki, bu sözü Molla Cümə işlədə bilərdimi, yaxud Molla Cümə şeirində saxlamaq olarmı? Qulam müəllim çox səbrlə və ehtiyatla söylədi ki, əlbəttə, böyük sənətkar bilməsə, bu sözü işlətməz. Paşa müəllim, narahat olmayın, ədna kiçik, kəmtər, balaca mənasında da işlədilir. Mən böyük minnətdarlıqla Qulam müəllimdən ayrıldım. Ancaq bununla da kifayətlənmədim. Respublika Əlyazmaları Fondunda böyük şərqşünas alimimiz Məmmədağa Sultanov işləyir. Çox fikirləşəndən sonra Məmmədağa müəllimə də zəng çaldım. Məmmədağa müəllim də Qulam müəllimin dediklərini təsdiq elədi. Bir də onu əlavə elədi ki, Paşa müəllim, çəkinmədən heç bir ehtiyac

olmadan Molla Cümənin sözlərini təsdiqləməyi məsləhət bilirəm. Bütün bunlardan sonra mən uzun müddət fikirləşdim və bir mühüm problemin həllini tamamlanmış hesab elədim. Molla Cümənin şeirini aşığın yazdığı kimi də külliyyatına daxil etdim. Molla Cümənin “Adəmin nəvəsi” vücudnaməsinin çox ibrətamiz bir son bəndi var:

Mənada Mollayam, Molla Cüməyəm,
İsmi Pünhan oda şux pərvanəyəm,
Gəlmişəm cahana bir gün fənayam,
Axırda Kərəm tək yanasıyam mən.

Mən əvvəllər, düzü Mövlud Yarəhmədovun Molla Cümənin şeirlər kitabını çap elədiyini bilmirdim. Çünki o, aşığın şeirlərini nə vaxt, necə, haradan toplaması haqqında heç nə yazmamışdır. Mən bir gün Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutuna getmişdim. Beşinci mərtəbədə liftin qabağında dayanmışdım. Birdən Mövlud Yarəhmədov liftdən düşdü, çox kobud, azğın bir görkəm alaraq bütün etik, tərbiyəvi normaları tapdalayaraq mənim üstümə qışqırdı: “Sənin nə ixtiyarın var ki, Cumanı Cümə yazırsan, kim sənə icazə verib ki” deyərək çox mədəniyyətsiz bir şəkildə qışqırmağa başladı. Mən duruxdum, ürəyimdən səslər gəldi, abrını kimdən gözləmək lazımdır, abırsızdan. Dönüb sakitcə uzaqlaşdım.

Bir gün akademik Məmmədcəfər Cəfərovun imzası ilə belə bir məktub aldım.

“Hörmətli Paşa Əfəndiyev.

Molla Cümənin ədəbi irsi ilə əlaqədar mübahisəli məsələləri həll etmək üçün Sizin sentyabr ayının 23-də saat 11:00-da Azərbaycan SSR EA ədəbiyyat, dil və incəsənət bölməsinin (Akademiyanın əsas binası, V mərtəbə, otaq 530) iclasına gəlməyiniz vacibdir”.

Ədəbiyyat, dil, incəsənət bölməsinin akademik katibi M.C.Cəfərov.

İclası Məmmədcəfər müəllim aparırdı. İclasda Əziz Mirəhmədov, Kamal Talıbzadə, Mirəli Seyidov, Yaşar Qarayev iştirak edirdilər. Mən oxucularımdan üzr istəyirəm. İndi iclası bütövlükdə yaddaşımda canlandıra bilmirəm. Bir o yadımda qalıb ki, Mövlud Yarəhmədov tez-tez yerdən atmaca atır, çıxışlara mane olurdu, bir sözlə, iclası pozurdu. Arada mənə də hücum elədi, kobudluqla "Paşa Əfəndiyev ərəb əlifbasını bilmir" dedi. Ancaq bu ittihamın heç bir əsası yox idi. Bircə yadımda o qalıb ki, qərar belə oldu. Molla Cümənin əsərləri əlyazmalarından çap olunsun.

Mən Molla Cümənin seçilmiş şeirlərindən ibarət bir kitabı tərtib eləyib "Yazıçı" nəşriyyatına apardım. Baş redaktor Sabir Rüstəmxanlı dedi ki, "Paşa müəllim, narahat olmayın, plana salacağıq." Bir müddətdən sonra "Yazıçı" nəşriyyatının tematik planı nəşr olundu. Nə görsəm, yaxşıdır. Molla Cümənin cəmisi 8 müəllif vərəqi həcmində şeirləri plana düşüb. Ancaq mənim familyamın yanında Mövlud Yarəhmədovun də familyası yazılmışdı. Əlbəttə, mən çox təəssüf elədim, əvvəlcədən bilsəydim, dünyada Mövludun adının yazılmasına icazə verməzdim, mənim razılığım olmadan belə olması haqqında, əlbəttə, nəşriyyatla mübahisəyə girişə bilməzdim. Nə olardı, bu kitabları növbə ilə bir neçə ilin müddətində çap eləmək olardı. Mən heç bir zaman yan-yana oturub Mövlud Yarəhmədovla kitab tərtib eləyə bilməzdim.

Elə həmin günlərdə məni xalqımızın fəxri olan böyük pedaqoji məbədin filologiya fakültəsinə dekan seçdilər. İnstitutun ən böyük fakültəsidir, yalnız birinci kursda 300 tələbə oxuyur. Fakültədə çox çətin, ağır, böyük işlər görmək gərəkdir. Dərslər Ketsxaveli küçəsində köhnə bir məktəbin binasında keçirilirdi. Mən hər səhər saat 8-də işə gəlir, axşam saat 5-də fakültəni gözətçiyə tapşırıb gedirdim. Bu zaman ömrümdə ən böyük günahlardan birini işlətdim. Mən çox mülayim, sadəlövh, hər şeyə inanan, düzünə, etibarlı bir insanam. Diqqət edin, zəng çalıb Mövlud Yarəhmədovu dekanlığa dəvət etdim.

Dedim ki, bu qovluq mənim Molla Cümə yaradıcılığı üzərində illərlə apardığım fəaliyyətimin nəticəsidir. Bunu götür, bir şeir səndən, bir şeir məndən seçib kitabı tərtib elə, nəşriyyata təhvil ver. Mövlüd Yarəhmədov qovluğu götürüb əkildi. Evə gedib hər şeyi buraxıb mənim qovluğumun üzərinə düşdü, onun şirəsini çıxarmağa başladı. Bir neçə vaxtdan sonra nəşriyyat mənə zəng edib kitabı istədi. Cavab verdim ki, Mövlüd Yarəhmədov kitabı sizə təhvil verməli idi. Cavab verdilər ki, Mövlüd heç bu yerlərdə görünməyib. Heç ayağı bu yerlərə dəyməyib. Görünür o, mənim kitabımı aparıb, əlinə bir xəzinənin keçdiyini görüb və onunla məşğul olur. Kitab vaxtında təhvil verilmədiyi üçün o biri ilin tematik planına keçirildi. Mən zəng edib Mövlüddə olan qovluğumu istədim, dedi ki, verəcəyəm. Bir ay keçdi, vermədi. Gördüm ki, o kitabı mənimsəyib. Orada həm də Molla Cümənin "Baxış bəy və Leyla xanım" dastanının xüsusi variantı var idi. Mövlüd onu da özününküləşdirdi. Mirəli Seyidova, Həmid Araslıya müraciət elədim ki, mənə kömək eləsinlər. Heç bir nəticə alınmadı. Cahil, mədəniyyətsiz, azğın, tərbiyəsiz, mənəviyyatsız, şərəfsiz Mövlüd Yarəhmədov mənim uzun illər çəkdiyim əziyyətin bəhrəsi olan xəzinəmi qaytarmadı, mənimsədi. O biri il kitabı təkbaşına hazırlamalı oldum.

Bir gün kafedrada başıma gələn o əhvalatdan şikayətlənirdim. Mənim sözlərimi kafedranın professoru Xeyrulla Məmmədov eşitdi. O dedi ki, Paşa müəllim, bilirsinizmi, çox nadir bir kitabım var idi. Mövlüd Yarəhmədov yalvardı, xahiş elədi ki, bir neçə günlüyə onu oxumaq üçün verim. Kitabı iki günlüyə ona verdim. Mən nə biləydim, o, nə yuvanın quşu idi. Verdim, təsəvvür edirsinizmi, mən öz kitabımı ondan ala bilmədim, qaytarmadı. O biri il Molla Cümənin kitabını mən "Yazıçı" üçün təkbaşına hazırlamalı oldum, üzərində çox işlədim, nəhayət qurtarıb təhvil verdim. Həmin kitab 1983-cü ildə çap olundu.

İndi mən Mövlüd Yarəhmədovun Molla Cümə şeirlərindən ibarət çap elədiyi kitaba qayıdıram. Məmməd Adilov kitabı mənə göndərəndən sonra onu heç vərəqləməmişdim. İndi kitabı əlimə alıb vərəqləməyə başladım, vərəqlədikcə də diqqət və marağım artdı. İlahi nələr gördüm, kitabda demək olar ki, korlanmamış, təhrif edilməmiş şeir yox idi. Mən çox ağır hallar keçirməyə başladım. Molla Cümə mənim ailəmə daxil olub, doğmalaşıb. Ömrümün yarısını onun yaradıcılığına həsr eləmişəm. Ulu Tanrı, mən bu faciəvi vəziyyəti görüb necə rahat ola bilərdim. İndi onu hərtərəfli yoxlamağa, müqayisələr aparmağa və böyük, dahi sənətkarın yaradıcılığını özünə qaytarmağa nə fiziki, nə də mənəvi cəhətdən gücə, qüvvətə malik deyiləm. Bu faciəvi səhnələri elə belə qoyub necə o dünyaya köçüm. Böyük sənətkarın qanuni hüququnu özünə qaytarmaq lazımdır.

Kitab 2002-ci ildə nəşr edilib. Müqəddimədə yalnız mənim 1966-cı ildə "Azərnəşr"də çap olunan kitabımın adı çəkilir. Ondan sonra 1983 və 1995-ci illərdə aşığın daha iki kitabını nəşr eləmişəm. 1995-ci il nəşrində aşığım əlimdə olan bütün şeirlərini çap eləmişəm. Qeydlər, şərhlər, Molla Cümənin şeirlərində işlənən mifoloji və tarixi adlar, terminlərin şərhləri çox geniş şəkildə verilmişdir. Həmin kitablar haqqında heç nə deyilməmişdir. O zaman böyük sevinclə qarşılanan Molla Cümənin şeirlərinin 1966-cı il nəşri isə Mövlüd Yarəhmədov tərəfindən nöqsanlı kitab kimi qiymətləndirilmişdir. Əvvəlcə mən Mövlüd Yarəhmədovun Molla Cümə kitabına o qədər də əhəmiyyət verməmişdim. Birdən vərəqləməyə başladım. İlahi, Böyük Tanrı, kitabda demək olar ki, nöqsansız, qüsursuz şeir yoxdur. Məni dəhşət bürüdü. Bunlar haqqında bir az sonra daha geniş məlumat verəcəyəm. Hazırda məni maraqlandıran odur ki, Mövlüd Yarəhmədov bu kitabdakı şeirləri haradan əldə edib, toplayıb. O, mənim kimi dəfələrlə ekspedisiyaya getməyib, aşıqlarla, qocalarla görüşməyib. Müqəddimədən aydın olur ki, o, müəyyən əlyazmalarında şeirləri

oxuyub kitaba salmışdır. O yazır: “Əlyazmalarından biri aşığın özü tərəfindən hicri 1329-ci ildə yazıya alınmışdır, 19 vərəqdən ibarətdir, divanilər toplanmış cüngdür. Diqqət edin, bu adam cünglə əlyazmasının fərqini bilmir. Molla Cümə cüng yazmayıb, cüng klassik ədəbiyyatımızın nümunələri toplanmış böyük sənətkarlar haqqında müəyyən məlumat olan əlyazma – qaynaqdır, mənbədir. Yarəhmədov məqalələrində də yalnız Molla Cümənin cüngləri yazır. Kitabın müqəddiməsində sonra oxuyuruq ki, Mövlüd Yarəhmədovun əlində olan aşığın ikinci əlyazması oğlu Həsənə hədiyyə verdiyi mənbədir. Həmin əlyazması Molla Cümə yaradıcılığı üçün əsas və səhih mənbədir. Məncə, onun orijinalı indiyə qədər tədqiq olunmayıb. Əldə olanlar isə hamısı ondan köçürmədir. Mən Baş Göynükdə Reyhan xanımın yanında olarkən o, lütflə mənə əlyazma bağışladı. Mən bu variantın vaxtilə həmin orijinaldan köçürüldüyünü yazmışdım. Bu əlyazması üzərində 30 il işləmişəm. Bir də ona görə ki, köçürən şəxs bir o qədər də savadlı deyil idi. Mövlüd Yarəhmədov da qeyd edir ki, o aşığın oğluna hədiyyə verdiyi əlyazmasının harada olduğunu bilmir. O da yazır ki, köçürmə variantından istifadə etmişdir. Mövlüd Yarəhmədov yazır ki, ikinci əlyazmasında 1200-ə qədər şeir var, bunu da o, divan adlandırır. Ancaq məsələ burasındadır ki, o, bu əlyazmalarının harada olduğu, kimdə olduğu, hansı yerdə olduğu haqqında heç nə yazmır. Mən Şəki-Balakən zonasını qarış-qarış dolaşıb aşığın şeirlərini toplamış və xüsusi şəxslərdən (hamısının da adlarını qeyd eləmişəm) 4 əlyazmasını almışam. Onlar üzərində illərlə işləmişəm. Əlyazmalarının məzmunu, quruluşu haqqında çox dəqiq məlumatlar vermişəm. Daha sonra Mövlüd Yarəhmədov davam edir: “Molla Cümənin şeirləri olan başqa üç əlyazması da var. Bu əlyazmalar yazılarkən katiblər ciddi sərbəstliyə yol vermiş (heç bir sərbəstliyə aid misal, fakt göstərilmir – P.Ə.), şairin şeirlərində yersiz əməliyyat aparmış, lazımsız dəyişikliklər etmişlər. Çoxunda sənətkarın dili və şeirlərin həcmi nəzərə alınmamış, ixtisarlara

yol verilmişdir. Əlbəttə, bütün bunlar Molla Cümə şeirlərinə etinasızlıqdan deyil, zamanın, dövrün katiblərə verdiyi geniş imkanlardan irəli gəlirdi". Belə bir sual ortaya çıxır. Haradadır bu əlyazmaları? Mövlüd Yarəhmədov onları haradan əldə eləyib, üzərində iş aparıb. Məqalələrin birində deyir ki, əlimizdə Molla Cümənin 400 səhifəlik əlyazması var. Kitabda müqəddimənin bir yerində o yazır: "İstər əlyazmalarında, istərsə də çap kitablarında bir sıra nöqsanlar var. Əvvələn, qeyd etmək lazımdır ki, haqqında söhbət açdığımız əlyazmaların heç birisi Molla Cümənin ədəbi irsini tam əhatə etmir. İkincisi, bu vaxta qədər çap olunmuş şeirlərin hamısı şifahi məxəzlərdən (?) toplandığı üçün həddindən artıq söz, misra, ifadə, üslub təhriflərinə, yersiz ixtisarlara və lazımsız artırmalara yol verilmişdir". Əlyazmalarına kimlər əl gəzdirib, səhvlərə yol verib, bir müddətdən sonra biz ona aydınlıq gətirəcəyik. Məsələ burasındadır ki, məqalələrində, kitabın müqəddiməsində böyük sənətkarın bədii yaradıcılığından, sənətinin məziyyətlərindən, bənzərsiz şeirlərinin məzmun və forma xüsusiyyətlərindən, Molla Cümənin poetik aləmindən bir kəlmə də olsa danışmır. Nə desə də, şifahi, yaxud yazılı mənbələrə əsaslanaraq titanik bir sənətkarın hərtərəfli fəaliyyətini qiymətləndirə bilmək iqtidarına malik deyil. Bununla bərabər diqqət edin, o, Molla Cümə yaradıcılığı haqqında nələri şərh edir: "Mövcud ictimai quruluş bir sədd kimi Molla Cümənin qarşısını kəsmişdi. Qoluzorlular, darfikirli ailə başçıları İsmi-Pünhanı sevmədiyi, məhəbbəti, sevgini pulda, var-dövlətdə görən Paşa bəy adlı birisinə zorla ərə vermişlər. Qız məhəbbət, sevgi, eşqində yanmış, Molla Cüməni unuda bilməmişdir. Zamanın ədalətsiz qanunları onu vaxtsız məhv etmişdir. İsmi-Pünhan 1899-cu ildə həyatla vidalaşmışdır."

Yaxud başqa bir misal. "Yaratdığı şeir nümunələrində antoqonist siniflər arasında mövcud olmuş ziddiyyətlər yoxsul xalqın kədər və həyatı incəliklə təsvir olunmuşdur." Müəllif sonra Molla Cümənin həyatının müəyyən sahələrini, məqam-

larını göstərməyə çalışır. Bunların da heç bir şifahi və yazılı mənbə, qaynaq və əsasları yoxdur. Hamısı göydən asılı qalır. Məsələn, o yazır ki, Molla Cümə oxumaq üçün Marsan kəndinə Hacı İbrahim Əfəndinin hücrəsinə gedir. Qeyd edək ki, heç bir mənbədə və şifahi xatirələrdə belə aşığın Marsana oxumağa getməsi haqqında məlumat yoxdur. Çünki Hacı İbrahim Əfəndinin mədrəsəsi məhz Aşağı Göynükdədir. Mən aşığın ilk kitabında da (1966) Molla Cümənin Aşağı Göynükdə təhsil aldığını yazmışam. 1961-ci ildə fərdi ekspedisiya zamanı Şəkidə internat məktəbinin müəllimi Cahangir Qazıyevlə tanış oldum. O vaxt "Nuxa fəhləsi" qəzetində çap elədiyi məqaləsini lütflə mənə hədiyyə verdi. Orada da yazılıb ki, Hacı İbrahim Əfəndinin məktəbi Aşağı Göynükdədir. Molla Cümə də təhsilini orada alıb. Molla Cümə müxəmməslərinin birində Hacı İbrahim Əfəndinin məktəbinin adını çəkir:

*İbrahim Əfəndinin*
*Məktəbi haqq cənnətidir.*

Molla Cümə haqqında yazan Dilrüba Qiyasbəyli də aşığın məhz Aşağı Göynükdə Hacı İbrahim Əfəndinin məktəbində oxuduğunu söyləyir.

Kiçik bir haşiyə. Dilrüba Qiyasbəyli Azərbaycan Tibb Universitetinin müəllimidir. Bir gün o, mənimlə görüşdü və dedi ki, Paşa müəllim, mən Molla Cümə haqqında namizədlik dissertasiyası yazmaq istəyirəm. Mən onun bu fikrini bəyəndim, məsləhətlər verdim, hətta onun elmi rəhbəri olmağa da razılıq verdim. Sonra bir neçə dəfə görüşdük, zəngləşdik. "Elm və həyat" jurnalında Dilrüba xanımın Molla Cümə haqqında böyük bir məqaləsi də çap olundu (1971, № 6). Hətta müəyyən məruzə üçün onun tezislərini də redaktə eləmişdim. D.Qiyasbəyli məqaləsində yazır ki, o, 1970-ci ildə avqust ayında Şəki-Zaqatala zonasında olub, aşıq Hacıbala və Məhəmməd Həsrətovla da görüşüb, söhbətlər aparıb. Sonralar Dilrüba xanımın səsi-sorağı gəlmədi. Məncə, o, daha böyük aşığın yaradıcılığı ilə məşğul olmayıb.

Mövlüd Yarəhmədov yazır ki, İbrahim Əfəndinin məktəbində Molla Cümə və Əfəndinin qızı arasında məhəbbət macərası başlayıb. Onun yazdığına görə, guya bu məhəbbətə İbrahim Əfəndi icazə verməmiş, Molla Cümə də onun qızının adını gizlətmiş və İsmi-Pünhan adlandırmışdır. Guya qızın da adı Mərziyə olub. Bütün bu məlumatların heç birisinin şifahi, yaxud yazılı mənbəsi olmayıb və göstərilməyib də.

M.Yarəhmədov Molla Cümənin həyatı haqqında çox ziddiyyətli, əsası olmayan mülahizələr söyləyir. Məsələn, məqalələrin birində yazır ki, İsmi Pünhanı zorla Paşa bəyə ərə verirlər. Mən özümün əldə etdiyim əlyazmalarının birində Molla Cümənin Paşa bəyə həsr elədiyi şeiri tapdım. Şeir belə başlayır:

*Gün tək şölə salıb dünyaya çıxdın,*
*Mis yerinə qızıl tökdün, Paşa bəy.*

Şeir qoşma üstündədir, beş bənddir. Son misraları belədir:

*İrazıdır səndən Cümə qardaşın,*
*Yüz ilən könlümü tikdin, Paşa bəy.*

M.Yarəhmədov kitabın müqəddiməsində isə yazır: "Yuxarıda deyildiyi kimi, zorla bir Göynüklüyə ərə verirlər." Daha sonra M.Yarəhmədov daha qəribə və mənasız fikirlər söyləyir. Məsələn, o deyir ki, "İbrahim Əfəndi Molla Cümənin qızına olan məhəbbətini hiss eləyərək aşığı hücrədən qovur". Guya sonra baş Göynükdə olan daha iki mədrəsənin sahibləri Əbdürəhman Əfəndi, Şeyx Həmid Əfəndi də Molla Cüməni mədrəsələrindən qovurlar. Belə məsuliyyətsiz fikirlər böyük aşığımıza yaraşmır. O, lap cavan vaxtlarından elin, camaatın sevimlisi olub, Molla Cümə çox ağayana, tərbiyəli, ağıllı, xoşxasiyyət bir şəxs idi. M.Yarəhmədovun heç bir məsuliyyətsiz böhtanları ona yaraşmır. Mövlüd Yarəhmədovdan başqa İbrahim Əfəndinin məktəbinin Marsan kəndində olmasını heç kəs yazmamışdır. Molla Cümənin bir müxəmməsi var. "Baxın" rədifli çox yüksək bədii keyfiyyətlərə malik əsərdir. M.Yarəh-

mədov yazır ki, Molla Cümə bu şeirində göstərir ki, guya İsmi Pünhan, yəni İbrahim Əfəndinin qızı bir gün geyinib-kecinib Göynüyə gedir. Aşıq Göynük camaatına müraciət edir ki, onu yaxşı qarşılasınlar. Əslində isə belə deyil. Əvvələn, Molla Cümə ilə görüşməyi qadağan elədiyi qızını, yəni İsmi Pünhanı İbrahim əfəndi eləcə Göynüyə yola salmazdı. İkincisi, M. Yarəhmədovun bəhs elədiyi müxəmməs İsmi Pünhan deyil, bir nəfər ağıl-kamal mücəssəməsi olan qəşəng, səliqəli geyinmiş cavana həsr olunub. Müxəmməsdə belə misralar var:

*Rəhmət ol atasına,*
*Qoymuş dala böylə pusər.*

Yaxud,

*Olaydı dostum mənim,*
*Ya da ola bəradərim.*

Tərif edilən bu şəxs heç bir zaman İsmi Pünhan – gözəl ola bilməzdi, gənc oğlandı. Mövlüd Yarəhmədovun daha bir şifahi, yaxud yazılı mənbəyə əsaslanmayan şübhəli bir mülahizəsi var. O yazır: “Molla Cümə 1882-ci ildə rəcəb ayında Zöhrə ilə ailə həyatı qurmuşdur”. Düzünü deyim ki, mən 30-40 ildir Molla Cümə yaradıcılığı ilə məşğul oluram, iki il Şəki-Balakən rayonlarını, kəndlərini gəzmişəm, sorğular aparmışam, böyük aşığın Zöhrə ilə evlənməsini eşitməmişəm. Məsələ burasındadır ki, aşığın şeirlərində onun şəxsi ailəsi haqqında, ömür yoldaşına olan məhəbbəti haqqında nişanələr yoxdur.

Bizə o məlumdur ki, Molla Cümənin bir neçə övladı olub, ancaq iki uşağı qalıb, oğlu Həsən və qızı Reyhan xanım. Həsən 1919-cu ildə vəba xəstəliyindən vəfat edib. Reyhan xanım isə son dövrlərə qədər yaşayıb. Molla Cümə öldürülən vaxtı Reyhan xanımın 12 yaşı olub. Mən iki il hər dəfə Baş Göynükdə 3 gün Reyhan xanımın qonağı olmuşam. Molla Cümə arvadına müraciətlə gözəl bir şeir qoşub. Bu şeir aşığın böyük və keşməkeşli həyatının bədii salnaməsi, həm də ictimai əhəmiyyətə malik bir yadigarıdır.

Böyük sənətkarın həyatı ilə əlaqədar olaraq daha hansı məlumatlar var? Molla Cümənin oğlu Həsənlə bağlı bir əhvalat olub. Aşıq bu hadisəyə müəyyən bir şeir də həsr eləyib. Şeir tez bir zamanda el arasında yayılıb. Məsələ belə olub: Həsən çox şən, istiqanlı, hörmətcil, tərbiyəvi bir oğlan olub. Yoldaşları ilə həmişə yaxşı rəftar eləyərmiş. Bir gün yoldaşları ilə evə gəlir ki, yeyib-içib şənlənsinlər. Evdə isə təmir işləri gedirmiş. O, yoldaşlarını qonaq eləyə bilmir, həyətdəki atı minib çıxır. Ata-anasının isə onun hərəkətlərindən xəbəri olmur. Bir neçə gün o, evdə görünmür. Ata-anası çox narahat olurlar. Bir neçə gündən sonra xəbər gəlir ki, Həsəni Balakəndə çayxanada görüblər. Deməsən, o, atı minib Şəki, Qax, Zaqataladan keçib Balakənə gedib çıxır. Pulu qurtarır, atı satıb özünə ayaqqabı və arxalıq alır. Bu hadisəyə Molla Cümə bir şeir həsr eləyib. Mən o şeiri yoxlayıb, müqayisələr aparıb aşığın külliyatına daxil eləmişəm.

*Maşallah, ay oğul, yaxşıdır zəndin,*
*Bir arxalıq bir cüt çustnan bəzəndin,*
*At getsə də dost və aşna qazandın,*
*Hər kənddən bizlərə bir qonaq oldu.*

Arvadına müraciətlə dediyi şeirdən başqa Molla Cümə yaradıcılığında ailəsinə, ömür yoldaşına olan sonsuz məhəbbətinə həsr elədiyi şeirə rast gəlmədim. İki il gəzdiyim rayon və kəndlərdə də bu barədə eşitmədim. Molla Cümə böyük aşıqdır, eşqi, məhəbbəti ilahidən alıb. Bütün yaradıcılığı boyu deyir ki, eşq fədaisidir. Allah-Taala ona eşq verməklə onun boynuna böyük yük qoyub. O, bu böyük yükü, ilham və məhəbbəti daşıyır. Ancaq bütün yaradıcılığı boyu şahidi oluruq ki, o, nakam aşiqdir. Öz əsl məhəbbətini görə bilməmişdir, bu cəhətdən Molla Cümə böyük qürurla təsvir edir ki, o, Kərəm, Məcnun, Fərhad kimi nakam aşiqdir. Nakamlıq onun üçün xoşbəxtliyə çevrilmişdir. Bütün yaradıcılığında dinləyicilərdən üzr istəmişdir ki, onu qınamasınlar, onun özünün heç bir günahı yoxdur. Allahın bəxş etdiyi məhəbbəti ona layiq bir qüvvədə yerinə yetirir.

Molla Cümə böyük titanik sənətkardır. Onun mənalı həyatı, bənzərsiz poetik aləmi sirlərlə, möcüzələrlə, problemlərlə doludur. Mən bir kitabımın sonunda folklorşünaslara, aşıqşünaslarımıza, xüsusilə də cavanlara vəsiyyət eləmişəm ki, aşığın bənzərsiz sənət əsərləri üzərində 30-40 il işləyib, səliqəyə salıb bir külliyatda toplamışam, bunların təhlil edilməsini, qiymətləndirilməsini Sizə vəsiyyət eləyirəm.

Aşığımızın həyatında mövcud olan ən böyük problemlərdən biri İsmi Pünhanla bağlı həyat və hadisələridir. Nə üçün böyük sənətkar ömrü, həyatı qədər sevdiyi, necə deyərlər, butasının adını gizlətmişdir. 1962-ci ildə Qax rayonunun Zərnə kəndində olarkən Vətən müharibəsi iştirakçısı, ağsaqqal **Əzəddin** Əskərov dedi ki, hələ indiyə qədər xalq ədəbiyyatında tərənnüm edilən, təriflənən gözəlin adı gizlədilməmişdir. Ancaq Molla Cümənin İsmi Pünhanı açılmamış qaldı. Molla Cümənin yaradıcılığı ilə məşğul olandan bu problem məni düşündürür. Ona görə də bu barədə yazılarım lazım olub. İndi müəyyən qədər təkrar olsa da, bəzi məsələləri demək qərarına gəlmişəm.

Molla Cümənin İsmi Pünhanı haqqında çoxlu mülahizələrdən sonra mən ilk dəfə onun məhz zəmanəsinin və ölkənin ən böyük və dindar şəxsin qızı olması fikrini söyləmişdim. Təsəvvür edin, Molla Cümə nə qədər el gözəlini adı və xasiyyəti ilə vəsf eləmişdir. Molla Cümə şeirlərinin birində deyir ki, onun sazının qotazlarını üç gözəl asmışdır. Onlar bunlardır: Zeynəb, Tükəzban və Bədircahan. Aşıq yazır ki, o, öləndə qəbrinin üstündə aşağıda adları olan gözəllər ağlasın. Almalıda Tükəzban, Şotavarda Leyli, Marsanda Reyhan, Tasmalıda Gülüzar, Güllükdə Fətmət, Muxaqda Asiyət, Talada Həlmət, Qımırda Gülsənəm, Bazarda Əmnət, Çobankolda Nigar. Molla Cümə kəndlərin birisində daha gözəl və daha bəzəkli bir gözələ rast gəlir. Onun ilhamı pərvəzlanır, elə yerindəcə öz gözəllərinin sırasına daxil edir. Beləliklə, gözəl, təsirli, qiymətli bir müxəmməs oxuyur:

*Peyda olum boyuna*
*Qəbul eylə minnəti.*
*Səni görüb unutdum,*
*Aynaynan Həlməti.*
*Təmiz yaddan çıxartdım*
*Nigarnan Aminəti.*
*İnnən belə neylərəm,*
*Dursun ilə Mürvəti.*
*Daha könlüm istəməz*
*Asiyəti, Fətməti*
*Hamısından bilginən*
*Sən üzübsən əlim gəl.*

Molla Cümə tərif etdiyi gözəllərin adını bərk ayaqda əbcət hesabı ilə hərflərlə demiş, yaxud da gözəlin adında olan hərfləri şeirin vəzninə uyğunlaşdırıb söyləmişdir. Çoxlu şeirlərində dörd hərfin həsrəti ilə alışıb yandığını bəyan edir. Ancaq bu dörd hərf də müxtəlif şeirlərdə müxtəlif hərflərdir. Məsələn, əbcət hesabı ilə adın on beşdir. Burada gözəlin adı Mədinədir. Unutma adını yazıram axtar: "iki "mim", "rey" ilə, "yay" üstdədir dilbər". Burada gözəlin adı "Məryəm"dir. Ceyranın quzusu adın bilmişəm. "Qaf", "ze", "ye", "te", "rey"ə bağlıdır. Burada gözəlin adı Qızyetərdir.

*İki yüz bir ilə ismin söylərəm,*
*Görməsəm dillərin əfqan eylərəm.*

Bu misalları artırmaq olar. Hər bir adı gözlənən gözəl isə "İsmi Pünhan" ola bilməz.

Dilrüba Qiyasbəyli məqaləsində yazır. "Baş Göynükdə Hacı İbrahim Əfəndinin mədrəsəsində Şabalıtlı kəndindən olan Şeyx Nəsrullah da dərs deyirdi. Molla Cümə onun gözəl qızına aşiq olur. Şeyx Nəsrullah Molla Cüməni hədələyir ki, mənim qızımı sazla-sözlə oxuma. Ondan sonra Molla Cümə gözəlin adını gizlədir, ancaq sevgisi sönməmiş, nəğmələri oxumuşdur". Dilrüba Qiyasbəyli Molla Cümənin başqa bir şeirini misal gətirir və İsmi Pünhanın kim olduğunu yazır. O, Molla Cümə-

nin ilk şeirlər kitabından (1966) aşağıdakı şeiri gətirib təhlilə cəlb eləyir.

Sey, Lam, Nun, Zeynən ismin söylərəm,
Sənnən ayrı bu cahanı neylərəm.
Mən Cüməyəm, sənə minnət eylərəm,
Hər xoryad qucmasın bellərin sənin. (1966, s.53)

D.Qiyasbəyli davam edir. "Şeirin birinci misrasından samit hərflərə nəzər saldıqda İsmi Pünhanın təxminən Səlminaz olduğunu güman edə bilərik".

Mövlüd Yarəhmədov yazır ki, "İsmi Pünhan İbrahim Əfəndinin qızıdır, adı da Mərziyədir. Molla Cümənin vəsf elədiyi gözəl Mərziyə məhz İsmi Pünhandır." Aydın olsun ki, mən 2 il Şəki-Balakən zonasını dolaşmışam. Mərziyə adına rast gəlməmişəm. Özü də Mərziyənin adı heç bir yerdə qeyd olunmamışdır. Mən yenə Molla Cümənin uşaqlıq dostu, ömrü boyu onunla bir yerdə olduğu İdris Mustafayevin sözlərini təkrar etmək istəyirəm. İdris dayı dedi ki, mən həm də bir neçə dəfə çəltik əkininə də getmişəm, ayla həntdə qalmışıq. Bir gün cəsarət edib mən ondan soruşdum. Ay Cümə, kimdi bu İsmi Pünhan elə həmişə ondan danışırsan. Molla Cümə cavab verdi ki, İdris xahiş edirəm, üz vurma, bu sirr açılmamalıdır. Doğrudan da bu sirr açılmır ki, açılmır. Mən 1961-ci ildən bu problem haqqında düşünürəm. Hələ də bir tərəfə çıxa bilməmişəm. Qocalardan biri mənə dedi ki, İsmi Pünhan elə Molla Cümənin özüdür. Zaqatalada Aşıq Kazım dedi ki, İsmi Pünhan Qax rayonunda Şabalıtlı kəndində Şeyx Babanın qızıdır. Mən Molla Cümənin qızı Reyhan xanımdan da soruşdum. O da bu haqda bir şey bilmir. Bircə onu dedi ki, İsmi Pünhan da dünyadan nakam gedib.

Mən bu yazdıqlarımı qabağıma qoyub hey fikirləşirəm, bir tərəfə gedib çıxa bilmirəm. Diqqətim də heç bir mülahizənin üstündə cəmləşmir. Hey fikirləşirəm, düşünürəm. Dilimin ucuna Ulu Tanrımızdan bəzi fikirlər gəlir, hətta sözlər də gəlir. Deyirəm, ey Ulu Tanrı, bəlkə İsmi Pünhan ilahi bir

varlıqdır, Molla Cümənin bütün yaradıcılığının üstündə qərar tutub. Ona da özüm yenə inana bilmirəm. Çünki aşıq haqqında son məqaləmdə Molla Cümənin şeirlərinə söykənərək İsmi Pünhanın real insan, el qızı, kənd gözəli olmasını sübut etməyə səy göstərmişəm.

İsmi Pünhanla bağlı digər bir problem, necə deyərlər, xətt var. Məlumdur ki, hər bir ustad aşığımızın bütün məhəbbət dastanları qəhrəmanlarının özlərinə məxsus butası var. Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Sarı Aşıq, Aşıq Valeh, hətta aşıq Hüseyn Şəmkirlinin də butası var. Məhəbbət dastanlarımızdan "Tahir və Zöhrə", "Yusif və Züleyxa", "Vərqa və Gülşa", "Leyli və Məcnun", "Fərhad və Şirin", "Abdulla və Cahan", "Əsli və Kərəm", "Arzu və Qənbər", "Şah İsmayıl və Gülüzar", "Xurşud və Mah", "Aşıq Qərib", "Novruz və Qəndab" və s. Buta aşıqlara Ulu tanrının qismətidir. Onu Allah Taala Xızır Nəbi ilə aşiqlərə göndərir və vergi, ilhamla bağışlayır. Heç nədən, dünyadan xəbəri olmayan gənclər, hətta ömründə aşiq görməyən şahzadələr aşiq olur. Bununla bərabər aşiqlik cəmi gənclərə nə verir: aşiqlik istedadı, hər cür yarış və deyişmələrdə qələbə, müqəddəslik, yəni toxunulmazlıq və s. Mən heç yadımdan çıxara bilmirəm ki, 1962-ci ildə Zaqatalanın Çobankol kəndində yaşı 70-i ötmüş Aşıq Kazım mənə dedi ki, İsmi Pünhan Molla Cümənin butasıdır. Mən burada bir aşığımızın buta alma əhvalatını qısa da olsa qeyd etmək istəyirəm. Məsələn, görkəmli ustad aşığımız Abbas Tufarqanlının həyatına nəzər salaq. O, Güney Azərbaycanımızın Tufarqan mahalında yaşayan bir gəncdir. Heç bir əlamət ilə yaşıdlarından fərqlənmir. O, müxtəlif sənətlər haqqında fikirləşir və birini seçmək qərarına gəlir. Elə bu zaman gecə Xızr Peyğəmbər peyda olur. Əlindəki cəmdə olan müqəddəs suyu içirərək xəbər verir ki, Təbriz şəhərində şəhərin bəylərbəyisi Məhəmmədin bacısını ona buta verir. Buta Gülgəz Pəri Abbasa Allah tərəfindən göndərilən qismətidir. Butadan sonra adi bir gəncə hansı əlamət və xasiyyətlər əlavə olunur. Birinci, o, Ulu Tanrı-

dan vergi, ilham alır, görkəmli sənətkara çevrilir. Abbas eyni zamanda müqəddəs bir insan olur, yəni haqq aşığına çevrilir. Abbasa həm də elə ilham verilir ki, o, heç bir yarışda, deyişmədə məğlub olmayacaq, yəni həmişə qalıb gələcək. Abbas butasının dalınca getməyə hazırlaşır, sazını kökləyir, Tufarqandan Təbrizə gəlir. Təbrizdə o, bəylərbəyi Məhəmmədin aşıqlar məclisinə düşür. Orada böyük, təcrübəli aşıqlar var. İndiyə qədər məğlubiyyətin nə olduğunu bilməyən Aşıq Şirvan dostu var, onunla deyişmək mütləqdir. Aşıq Abbas onunla deyişir, qalib gəlir. Bu arada o, sevgilisini də görə bilir. Ona qovuşmaq üçün yollar axtarır. Elə bu zaman İsfahanda Şah Abbas Gülgəz Pərinin gözəlliyinin sorağını alır. Onu zorla öz sarayına – hərəmxanasına gətirməyi əmr edir, hətta adamlarını da göndərir. Gülgəz Pərini Aşıq Abbasın gözləri qarşısında kəcavəyə qoyub İsfahana yola salırlar. Aşıq Abbas yol boyu kəcavənin arxasınca yanıqlı-yanıqlı qoşmalar oxuyaraq onu müşayiət eləyir. Hətta Abbası yolda zəhər quyusuna salırlar. O, quyudan salamat çıxır, çünki haqq aşığıdır. Beləliklə, Aşıq Abbas İsfahana gəlib hətta Şah Abbasın sarayına yol tapır. Onu çox çətin imtahanlardan keçirirlər. Aşıq Abbas həm haqq aşığı olması və həm də qüdrətli sənətkar olması ilə Şah Abbasın sarayından "üzü ağ" çıxır, xilas olur. Haqq aşığı olan Abbası sevgilisi ilə birikdə azad edirlər. O, xoşbəxt olur və vətənə dönür. Kim deyə bilər ki, bu, tarixi bir hadisədir, yaxud olmuş əhvalatdır. Məsələ burasındadır ki, əlbəttə, bu mənim şəxsi qənaətimdir. Şah Abbas xalqın gözəl qızlarını seçib hərəmxanaya aparması haqqında nisbətən daha çox Aşıq Abbas şeirlər qoşub. Bu əhvalat xalqın ismətinə, namusuna toxunmaqdır. Aşıq Abbas elə özünün sağlığında bu mövzuda olan şeirlərini toplayıb dastanın ilk variantını qoşmuşdur. Sonra çox tezliklə dastan dillərə düşmüş, mükəmməl bir sənət əsəri kimi məşhurlaşmışdır. Yaxud Novruz bayramı günü anadan olduğu üçün adını Novruz qoyduqları şahzadə oğlu aşıqdan, sazdan xəbəri olmayan Novruz da yuxuda Xızr peyğımbərdən cəm

alır, içir və ona Misir padişahının qızı Qəndabı buta verirlər. Novruz bir gecədə gözəl aşıq-sənətkar olur. Butasının dalısınca gedir, çox çətinliklərə düşür, ölümlə qarşılaşır, dənizə düşür, kəlləgöz pəhləvanla vuruşur, qələbə çalır və butasına qovuşur. Göründüyü kimi, bütün Azərbaycan ustad aşıqlarının məhəbbət dastanlarının qəhrəmanlarının hamısının butası var. Bəs nə üçün böyük titanik sənətkar olan Molla Cümənin butası olmasın. Molla Cümənin də butası olub, bunu özü dəfələrlə etiraf edib. Biz aşığın butasını axtarmalı, aramalı, aşkarlamalı və bəkləməliyik. Aşıq deyir, "Mən işdiyim, Xızr Nəbi verəndi", deməli Xızr Nəbi ilahi, müqəddəs cəmlə birlikdə böyük sənətkara buta da bəxş eləyib. Aşıq deyir:

Mən yeddi yaşına dolandan bəri,
Bəlalı başımda eşq sövdası var.
Hər dərdə bir dərman veribsə Tanrı,
Bəs mənim dərdimə nə davası var.

Daha sonra görün Molla Cümə nə deyir:

Butasız dünyada ömür sürmərəm,
Səndən özgəsinə könül vermərəm,
Bu işi şəninə layiq görmərəm,
Cüməni özündən cida salıbsan.

Aşıq deyir: "İsmi Pünhan üstdədir xeyri, şərim."

Əldə etdiyim Şəki əlyazmasının bir yerində oxuyuruq: "On beş yaşlarında bir dəfə gözəl bahar günlərinin birində sərin bir ağac kölgəsində yataraq yuxuya dalır. Bu vaxt röyasında ona badə verirlər ki, bunu içib qurtardığı hədd anası oyadır. Bildiyimiz tarixi rəvayətlərə görə də, bir çoxları röyada içmiş olduqları badənin təsirindən aşiq olurlar. Molla Cümə də həmin gündən yazmağa başlamışdır."

Təsəvvür edin ki, aşıq yeddi yaşından məhəbbət alovu ilə yanır. 15 yaşından isə artıq şeir və mahnılar qoşur. Yaxşı, gənc aşıq 15 yaşında kimi vəsf eləyirdi. Xızr ona butasının

adını deməmişdi. Ona görə də Molla Cümə naməlum gözəlləri vəsf eləyir. Onlara da özü şəxsən heç bir ad vermir və adını gizlədərək "İsmi Pünhan" deyir. İllər keçdikcə aşığın adları məlum olmayan gözəlləri onun yaradıcılığına adı gizli, İsmi Pünhan kimi daxil olur və ömrünün sonuna qədər tərənnüm mənbəyinə çevrilir. Bunu biz çox cəsarətlə deyirik ki, aşıq Xızr Peyğəmbərdən buta almış və ömrünün sonuna qədər onunla yaşamışdır.

Təkrar edirəm:

*İsmi-Pünhan üstdədir xeyr-şərim,*
*Molla Cümə, butadarın sağ ikən*
*Baxmasın yadlara gözün, ay mədəd.*

Molla Cümə və buta problemi ilə bağlı daha bir neçə misal:

*Eşqə düşüb saralıban solmuşam,*
*Bu aşiqliq mənə vergidən oldu.*
*Saldı sövdaya bunu Rəblil-Cəlil*
*Vermədi dərmanın eylədi zəlil.*

Yaxud:

*Göründü gözümə mələk simalı,*
*Geyibsən qəddinə ay ağı sən də.*
*Xızrın verdiyi qədəh misalı,*
*İçirdin bir qədəh ay ağı sən də.*

*Molla Cümə eşq əhlidir,*
*Aşiqlər atasıdır,*
*Mədrəsədə dərs oxuyur*
*Fikrində də butasıdır.*

Məsələ burasındadır ki, Molla Cümə bütün yaradıcılığı boyu ilahidən aldığı vergidən, ilhamdan və özünün butasından danışır.

*Ey dünya, Cüməyə çox etdin sitəm,*
*Nə tay tuşum qaldı, nə atam, anam,*
*Könül əyləncəyi istəkli butam*

*Ol İsmi-Pünhanı neylədin, dünya.*

Oxucularımdan üzr istəyərək mən yenə təkrar eləmək istəyirəm. 1962-ci ildə Zaqatalanın Çobankol kəndində yaşı 70-i ötmüş məşhur Aşıq Kazım mənə dedi: Paşa müəllim, İsmi-Pünhan Molla Cümənin butasıdır. Mən belə hesab edirəm ki, Molla Cümənin həyatında olan buta hadisəsi, buta xətti də İsmi Pünhan sirrinin açılmasında mühüm rol oynaya bilər.

Böyük sənətkarın faciəvi ölümü də onun həyatı və fəaliyyətinin ən ağır, ən möcüzəli problemlərdən biridir. Bu barədə çoxlu mülahizələr, müddəalar, fərziyyələr mövcuddur. Mövlud Yarəhmədovun belə bir fikri var: "Molla Cümə 1920-ci ildə təxminən may ayının 20-də ömrünün 66-cı ilində təsadüfi bir yanlışlıq nəticəsində öldürülmüşdür". Oxuculara təkrarən xəbər verməliyəm ki, mən bu problemin üzərində illərlə işləmişəm, müxtəlif fərziyyələr, məlumatlar öyrənib, müqayisələr aparmaqla Molla Cümənin ölümü haqqında iki böyük məqalə çap elətdirmişəm. Oxucular hər iki məqaləni bu kitabda oxuya bilərlər.

Oxuculara məlum edirəm ki, böyük sənətkarımız Molla Cümənin yaradıcılığına bir də qayıtmağımın səbəbi aşığın şeirlərindən ibarət Mövlud Yarəhmədovun çap elədiyi kitab olmuşdur. Mən əvvəlcə kitaba heç baxmamışdım, hətta heç vərəqləməmişdim də. Kitab yenidən son dövrdə əlimə keçdi, vərəqlədim, şeirlərin böyük bir hissəsini nəzərdən keçirdim, ilk təəssüratım bu oldu ki, çox təəssüfləndim, vərəqlədikcə də hirsləndim və qəzəbləndim. İndi mənim bu kitab haqqında qənaətlərimi oxucularımla bölüşdürmək istəyirəm.

Birinci təəssürat: Kitab çox məsuliyyətsiz bir şəkildə çap olunub. O qədər də böyük olmayan kitabda 200-ə qədər söz var ki, onlar böyük aşığın şeirlərinin canına daraşıb onları korlayır, acınacaqlı bir hala salmışdır. Mən uzun müddət fikirləşdim bu qədər sözü necə qruplaşdırmaq olar, yerbəyer edib qiymətləndirmək olar. Bunlar axı böyük ustadın əksər şeirlərini eybəcər şəklə salıb.

Birinci qrup əsas etibarilə kompyuter səhvləridir. Kitabda iki nəfərin adı var. Bu səhvlər saysız-hesabsızdır. Bəla burasındadır ki, kitabın müəllifi qətiyyən baxmamış, oxumamış, yaxud da səhlənkarlıq eləmişdir, bəlkə də heç başa düşməmişdir. Dediklərimə bir neçə misal göstərmək istəyirəm:

| **Əsl sözlər yazılmalı** | **Təhrif olunmuş şəkli** |
|---|---|
| oyanıb | oynayıb |
| dəyirmançı | dərmançı |
| ölüsünə | ölsünə |
| təmənna | təmənə |
| gərdanına | kardanına |
| xoyuna | xuyuna |
| əğyara | əğrayə |
| müalicə | malaca |
| sağalmaz | sağlamaz |
| kəlim | kəlam |
| əksər | əsgər |
| məhşər | məşhər |

Belə səhvlər həddən artıqdır, yüzə qədərdir. Hamısını göstərmək qeyri-mümkündür. Acınacaqlı haldır ki, kitabın müəllifi kompyuterdan sonra kitabı oxumamışdır. Oxumuşsa da, başa düşməmişdir, oxuduqca adamın ürəyi ağrıyır.

Mövlüd Yarəhmədov kitabın müqəddiməsində yazır: "Molla Cümə hər sözü yerində işlədən bir sənətkar idi. Buna görə də onun yaradıcılığına həssaslıqla yanaşmaq lazımdır". Görün, böyük sənətkarın əksər şeirlərinə necə deyərlər, bəla gətirən müəllif nə yazır və yazdıqlarına necə riayət eləməyi bacarır.

Ən böyük bəla odur ki, çoxlu sözlərin mənası yoxdur. Onları tərtibçi oxuya bilməmiş, yaxud da səhv oxumuşdur, elə qüsurlu da kitabda saxlamışdır. Folklor el malıdır, çörək kimi müqəddəsdir. Ona əl qatmaq olmaz. Ulu Tanrının yanında da elin dimağından süzülən sərvət müqəddəsdir. Böyük sənətkarın şeirlərini təhrif edən, korlayan demək olar ki, məhv edən də

məhz saysız-hesabsız bu sözlərdir. Bir neçə misal göstərmək istəyirəm.

| | |
|---|---|
| zəvicə | həksim |
| hələbçi | nəkbət |
| murtaya | mətlub |
| suptuya | məhmur |
| ərab | məcublar |
| xurni | dənanı |
| nazılıb | tər abə |
| ədbar | kərabə |
| həcud | kütən |
| dövləftar | quzluqdan |
| şafiya | rifami |
| həristan | dərmançı |

Mən misalların sayını istənilən qədər artıra bilərəm, belə sözlər saysız-hesabsızdır. Məsələn, xoy sözünün mənasını bilmir, hər yerdə xuy yazır. Molla Cümənin şeirlərinin böyük bir qismini mənasız hala salıb, oxuyursan, heç nə başa düşmürsən. Yaxşı ay tərtibçi, oxuya bilmirsən, bir tədbirə əl at, kömək axtar. Böyük sənətkarın yaradıcılığının nə günahı var? Yalnız sözlər deyil, böyük bir miqdarda mənasız, eybəcər hala salınmış misralar var. Heç nə başa düşə bilmirsən. Aşığın qızıl gül kimi təravətli, dağ çeşməsi kimi şəffaf, büllur sözləri mənasız, eybəcər bir şəklə salınmışdır.

Bu qar bu girvədə yayan oluban,
Çilə günü qızdırmadan zağlıyam.
Hasil kəklik döşündə qızıl mətllə,
Cənabından sualım şəbih kalam.
Saluban kəsmə eylərəm kərbə,
Bir bürcü ölüyü tale bürcündən,
Mən bəsərə səni bəzir istərəm
Qərib üçün bez yaxşıdır dibadan
Arzulat ol yenə xaki şər abı.
Xədəngdir kərəkin millərdən sənin.

Xəlqə dinmə arvadını yoğurma
Bir padişah Cüm-Cüm[5] adı neylədin.
"Molla Cümə dönüb yenə qarğaya
Nə düşübsüz ağzın-ağzın yorğaya".
Cön donquzu mollaların xəridir,
İmam-əhzəm-malik-şafimi həmbəl,
Yığaq əğyar, namərd sürdü salımı və s.

Bu misalları da artırmaq olar. Hətta mənasız bəndlər də var.

Yanaşsa muyimə sətri məgrazi,
Dolar canıma xifətdən mərəzi,
Kağazı şamna yazmaqdan qərəzi,
Məni sən özündən əda eyləmə.

Sən kimilər onu girər ortaya,
Çığırmaqdan gözü dönər murtaya,
Olan qazancını verər surtuya,
Ələ gəlməz, gözü qalar dalınca.

Çoxlu misralar var ki, tərtibçi sözləri başa düşməyib, əlyazmasından da oxuya bilməyib, mənasız şəkildə şeirlərdə saxlayıb, əsərləri korlayıb.

Çəməndə dür nədir göldə yaşılbaş.

***Durnadır*** sözünü belə oxuyub.

İsmi Pünhan həristanın düzündə

***Ərəsəti*** həristan kimi oxuyub.

Yoxsa düşməz idin tər abə səngi

***Türabə*** (torpağa) sözünü belə təhrif eləyib.

Eylərsən cahili qoca bəxtəvər.

Şəki-Balakən zonasında cavan əvəzinə ***cehil*** sözü də işlənir, həmin sözü cahil kimi oxuyaraq şeiri bərbad hala salıb.

Duam qəbul olub duşunda yatın

***Döşündə*** sözünü duşunda oxuyub.

---

[5] *Cami-Cəm belə oxunub*

Dərd bilməyən bir nəkbəti neylərəm.

Nəkbət yox, ***nəbkəd***dir və s.

Belə misralar olduqca çoxdur, bu, onu göstərir ki, Mövlüd Yarəhmədov Azərbaycan dilinə də əməlli-başlı bələd deyil.

Bir sıra şeirləri başdan-ayağa təhrif eləyib. Yenə də bəla burasındadır ki, tərtibçi oxuya bilmir. Arada böyük sənətkarımız Molla Cümənin şeirləri zərər çəkir. Aşığın İsmi Pünhana həsr elədiyi "Hayıf oldu" adlı gözəl bir şeiri var. Mövlüd Yarəhmədov bu qoşmanı da əməlli-başlı oxuya bilməyib, mahnı səhvlərlə doludur. Yaxud, böyük bənzərsiz sənətkarın "Ay arvad" rədifli qoşma üstündə iri həcmli bir şeiri var. Bu şeir yalnız gözəl bədii əsər deyil, həm də Molla Cümənin dövrə, zəmanəyə, insanlara münasibətini bildirən ictimai bir ittihamnamədir. Bu şeirdə salamat bir bənd qalmamışdır, təhriflərlə doludur.

Molla Cümənin "Dolana-dolana" rədifli gəraylı üstündə iri həcmli bir şeiri var. Onun qaynağı xalqdan gəlir. Mövlud Yarəhmədov bu şeiri də əməlli-başlı oxuya bilməmişdir. Mən şeirin iki bəndini misal çəkmək istəyirəm.

| **Bəndin əsli:** | **Yarəhmədov oxuyub:** |
|---|---|
| *Bu dünyadır hicran dağı,* | *Bu dünyadır hicran dağı,* |
| *Bir yana çıxmaz ayağı,* | *Biyanı Xaçmaz ayağı,* |
| *Haqqın özü qalır baqi,* | *Haqq özü qalır boyağı,* |
| *Qulu dolana - dolana.* | *Qolu dolana - dolana.* |
| **O biri bəndi:** | |
| *Onçun dedim dünya fani,* | *Sonçun dedim bu nə fani,* |
| *Saydığım aşiqlər hanı,* | *Saddadığım şahlar hanı,* |
| *Əzrayıl da bir-bir canı,* | *Ol əzrayıl bir-bir canı* |
| *Alı dolana - dolana.* | *Aldı dolana - dolana.* |

Başqa bir bənddə belə misralar var.

| **Əsli:** | **Oxunub:** |
|---|---|
| *Qarun girdi dərin quya,* | *Dərin girdə dərin quya,* |
| *Neçə-neçə divanələr,* | *Neçə-neçə seyranələr,* |
| *Unutmuşdu dünyasını* | *Tullamışdı dünyasını,* |
| *Şüşə könlüm şüşə sını.* | *Şüşə könlüm şahisini.* |

Müxtəlif cəhətlərdən qüsuru olmayan şeir nümunəsi demək olar ki, yoxdur. Məsələn, söz, ad, misra, bənd qüsurları olmayan şeir tapa bilməzsən. Şəki ilə Balakən arasında xüsusilə də Qax, Zaqatalada bir sıra kəndlər var. Molla Cümə bu kəndlərdə məclislər aparıb rəğbət bəslədiyi insanları, elin gözəllərini tərif eləmişdir. Çox təəssüflər olsun ki, Mövlüd Yarəhmədov bu kəndlərin heç birisinin, təkrar edirəm, heç birisinin adını düz oxuya bilməmişdir. Həm də bu kəndlərin adları ilə tanış olmamışdır. Çünki o kəndləri dolaşmamışdır. Əlyazmasından da düz oxuya bilməmişdir, beləliklə, gülünc adlar alınmışdır.

| **Kəndlərin düzgün adları** | **Yanlış oxunması** |
|---|---|
| Əliabad | Əli Abad |
| Zəyəm | Zəkəm |
| Şıxlar | Şeyxlər |
| Baydarlı | Faydarlı |
| Qımırbazar | Qəmərbazar |
| Şotavar | Şutavar |
| Ənbərçay | Ənbər cida |
| Ağyazlı | Ağ yazı |

Molla Cümənin haqqında söhbət açdığımız şeirlər kitabının əksər şeirlərin bu şəkildə oxucu qarşısına çıxarmaq məsləhət bilinmir. Şeirlərin yazıldığı əlyazmaları əldə edilməli, ərəb əlifbasını yaxşı bilən şəxs tərəfindən yenidən oxunmalı və üzə çıxarılmalıdır. Bu kitabda olan əksər şeirlər açıq-aydın böyük sənətkarın zəngin yaradıcılığına hörmətsizlikdir.

Molla Cümə böyük sənətkardır, ülvi, müqəddəs şəxsiyyət. Dünya şöhrətli Azərbaycan aşıq sənətinin ən qüdrətli

dirəklərindən biri. Mən şəxsən fəxr eləyirəm ki, ömrümün 30-40 ilini o böyük sənətkarın həyat və fəaliyyətinə həsr eləmişəm. Böyük aşığın unudulub getməkdə olan bədii sərvətinə ikinci həyat vermişəm, böyük zəhmətlər bahasına yığıb, toplayıb, arayıb, araşdırıb, səliqəyə salıb tərtib etdiyim ilk külliyatını doğma xalqıma qaytarmışam. Molla Cümə mənim həyatıma, ailəmə daxil olub, doğmalaşıb. Onun bütün yaradıcılığı, hətta şəxsi həyatı da mənim əzbərimdədir. Böyük sənətkar haqqında çox böyük ədalətsizliyə, məsuliyyətsizliyə rast gəlmişəm. Əziz oxucularım, mən indi ağır xəstəyəm, gözlərim görməyir, hazırda mənim böyük sənətkara olan hörmətsizliyi pisləmək üçün nə fiziki, nə də mənəvi gücüm var. Belə olduqda əllərimi açdım, üzümü səmaya tutdum. Həmişə, hər zaman mənim mənə kəramətini göstərən Ulu Tanrıdan sonuncu dəfə güc, qüvvət təmənna elədim. Ulu Tanrı məni bəklədi, bu işin öhdəsindən gəlmək üçün mənə güc, qüvvət, hey verdi. Mən də ağır, çətin işin öhdəsindən gəlmək üçün var gücümü topladım. Nə səviyyədə gələ bilmişəmsə, türk dünyasını tərpədən "Kredo" qəzetinin oxucuları bunun şahidi ola bilərlər. Molla Cümə müqəddəs bir şəxsdir, ocaqdır, ömrü faciə ilə başa çatıb. Əsərləri sənətkarın dimağından süzülən incilərdir. Onlara əl qatmaq, təhrif eləmək Ulu Tanrı yanında günah işlətməkdir. Əziz oxucularım, böyük əziyyətlə, bəzən də yataqda başa çatdırdığım bu qeydləri sizin öhdənizə buraxıram. Mən daxilən bir rahatlıq hiss edirəm ki, Ulu Tanrı mənə güc, qüvvət verdi, belə bir ağır zəhmətin öhdəsindən gələ bildim.

# III BÖLMƏ

## MƏKTUBLAR, ƏRİZƏLƏR, XAHİŞNAMƏLƏR

Mən intensiv olaraq Molla Cümənin şeirlərini 1961-ci ildən toplamağa başlamışam. İki il fərdi ekspedisiyada olmuşam. İndiyə qədər aşığın şeirlərindən ibarət 5 kitab çap elətdirmişəm. Bütün bu illər ərzində arxivimdə bir çox ərizə, müraciət, məktublar toplanmışdır. əlbəttə belə sənədlər lap çox olub. Ancaq evimdə az bir miqdarda nümunələr saxlanmışdır. Bunlar tarixi sənədlərdir. Aşığın böyük bədii sərvətinin üzə çıxarılmasındakı rolunu çox aydıncasına biruzə verməkdədir.

Bir qədər mövzudan kənara çıxıram. Zaqatalada və Qaxda Əfəndiyevlər nəslinin bir çox ailələri yaşamışdır və yaşamaqdadır. Əfəndiyevlərin kahini, patriarxı Həmzət Əfəndiyev bütün ömrü boyu Azərbaycan balalarına rus dilini öyrətmişdir. Zaqatalada Fazil və Arif Əfəndiyev qardaşları yaşamış, onlar əsas etibarilə pedaqoji texnikumda çalışmışlar. Arif Əfəndiyev görkəmli riyaziyyatçı idi. Onun oğlu Maqsud Əfəndiyev indi professordur. Almaniyada yaşayır və işləyir. Zahidə fizik, Nilufər isə tarixçi idilər. Onlar çox mehriban insanlar idi. Qardaşları Tofik və İrfan Zaqatalanın həyatında mühüm rol oynamışlar. Şəhərin abadlaşmasında müəyyən əmək sərf etmişlər. Tələt, Nurməmməd, Əşrəf qardaşları isə pedaqoji fəaliyyətləri ilə hörmət qazanmışlar, xüsusilə Nurməmməd Əfəndiyev. Zaqatalanın maarif şöbəsində uzun müddət rəhbər vəzifələr daşımışdır. Şövkət Əfəndiyev də tanınmış müəllim idi, çox maraqlı şeirlər müəllifi idi. Nəcibə xanım Əfəbdiyeva Bakı şəhərində Ticarət orqanlarında çox məsul vəzifələr daşımışdır. Ədhəm, Əyyub, Fikrət, Aydın Əfəndiyev qardaşları Zaqatalanın həyatında mühüm rol oynamışlar.

Mərhum atam Şərif  Müslüm oğlu  Əfəndiyev İlisuda yaşayıb. Tarixilik baxımından Qax-Zaqatala zonasında maarifin yayılması və inkişafında xüsusi rol oynamışdır. 45 il maarif

sahəsində çalışmışdır. Qaxın Qıpçaq kəndində məktəb direktoru olmuş, bir neçə il də rayonun mərkəzində 300 nəfərlik uşaq evinə rəhbərlik etmişdir. Sonra İlisuya qayıdaraq ömrü boyu məktəbdə çalışmışdır. Oğlu Nəriman Əfəndiyev pedaqoji institutun məzunudur. Uzun müddət rayon maarif şöbəsində rəhbər vəzifələr daşımışdır. Sonra ömrünün axırına qədər Qax rayon orta məktəblərində riyaziyyat müəllimi işləmişdir. Nərimanın qardaşı Fikrət Əfəndiyev BDU-nun məzunudur, Zaqatalanın maarif şöbəsində işləmişdir.

Əfəndiyev nəslindən olan Rauf Əfəndiyev ailəsi ilə birlikdə Qax rayonunun Marsan kəndində yaşamışdır. Mən Molla Cümə ilə əlaqədar Qaxın Marsan kəndinə getmişdim. Orada bizə uzaq qohumluğu olan Rauf Əfəndiyev müəllim işləyir, ailəsi ilə birlikdə yaşayırdı. Rauf müəllim Marsanın başbiləni və ağsaqqalıdır. Xeyir və şər işləri Rauf müəllimsiz görülməzdi. O, Zaqatalada pedaqoji texnikumun və sonra da Şəkidə ikiillik institutun dil və ədəbiyyat fakültəsinin qiyabi şöbəsinin dekanı işləyəndə də oranı uğurla başa vurmuşdur.

Mənim nə üçün gəldiyimi bilən kimi Rauf müəllim dilləndi. Paşa müəllim Balakəndə İti Tala kəndində Aşıq Məhəmməd yaşayır. O, Molla Cüməni görüb, məclislərində iştirak edib, aşığın əksər şeirlərini əzbərdən bilir. Bir neçə dəfə Marsanda məclis aparıb, çox istedadlı bir sənətkardır. Elə indicə gedib onu tapaq. Kəndin maşınını aldıq, sürücü Əyyub çox istiqanlı, hörmətli bir oğlan idi. Gedib Balakəndə Aşıq Məhəmmədi tapdıq. Rauf müəllim təklif etdi ki, indi biz Şəkiyə Baş Göynük kəndinə Molla Cümənin qızı Reyhan xanımın hüzuruna getməliyik. Razılaşdıq. Şəki ilə Qaxın arasında bir kəndə çatanda maşın xarab oldu. Gecənin yarısı idi. Rauf müəllimlə Əyyub düşdülər. Mən isə maşının bir küncündə bürüşüb səhəri açdım. Səhər açıldı və biz yolumuza davam elədik. Baş Göynüyə çatdıq. Rauf müəllim evinə qayıtdı. Mən və aşıq Məhəmməd Reyhan xanımın qonağı olduq, üç gün qaldıq. Sonra mən aşağı düşdüm. Yola çıxdım, sürücüyə pul

verdim ki, Məhəmməd dayını Balakənə, İti Tala kəndinə çatdırsın.

Rauf Əfəndiyevlə əlaqədar başqa bir əhvalat da qeyd etmək istəyirəm. Mən Baş Göynükdə olarkən eşitdim ki, Reyhan xanımda Molla Cümənin şeirlərindən ibarət bir əlyazması var. Ancaq heç kimə vermək istəmir. Mən dolayısı ilə Reyhan xanıma xəbər göndərdim. Ancaq eşitdim ki, o, əlyazmasını mənə də vermək istəmir. Bu əhvalatı Rauf müəllim eşidir. Rauf müəllim məni çağırıb dedi ki, Reyhan xanımın ən yaxın qohumu mənimlə dostdur. Onun vasitəsi ilə mən o əlyazmanı alacağam. Zəkəriyyə Əzizov Şəkidə Rauf müəllimlə oxuyub, indi çox dostdurlar. Zəkəriyyə müəllim Raufun xahişi ilə əlyazmasını Reyhan xanımdan alıb mənə bağışladı. Bu isə ən böyük əlyazmalarından biridir. Bunun haqqında kitabda yazmışam. Mən arxivdən Rauf müəllimin mənə yazdığı iki məktubunu tapmışam. Bunlardan başqa Molla Cümənin nəvəsi Mövlud Əzizovun mənə ünvanladığı məktub vardır. Onları kitaba daxil edirəm. Mövlud müəllim mənə ünvanladığı məktubunda yazmışdır: "Paşa müəllim, sizə məlum olsun ki, bu yaxınlarda babamın şəkli tapılıb. Qaxdan həkim Calal kişinin qızı verib. Axtıda (Dağıstan R.Ə.) 1914-cü ildə çəkilib. Mən Qaxda olarkən həkim Əzizin arvadında Molla Cümənin şəkli olduğunu dedilər. Düzü mən Əziz doktoru tapa bilmədim. Sonralar mətbuatda aşığın şəkli haqqında məlumat çıxdı. Şəkli də çap eləmişdilər. Orada yazılmışdır: ... "Q.Hüseynovla Ə.Əsgərov Zaqatalaya gəldilər. Doğrudan da Calal kişinin qızı Firəngiz xanım atası ilə Molla Cümənin 1912-ci ildə Axtıda (Dağıstanda) müalicə günlərində çəkdirdikləri şəkli əziz xatirə kimi saxlayırmış". Şəkil də məqalənin yanında verilib.

Artıq aşığın əsərlərindən ibarət iki kitab çap eləyib oxucuların ixtiyarına vermişdim (1966, 1983). Yay aylarında, tətil zamanında birdən məni qaygı götürdü. Nə üçün mən aşığın əlimdə olan bütün əsərlərini toplamayım. Onun necə deyərlər külliyatını hazırlamayım. Çox böyük həvəs və məsuliyyət tələb

edən bu işin öhdəsindən gəlmək üçün işə başladım. Axı indiyə qədər aşıq Ələsgər də daxil olmaq şərti ilə heç bir aşığımızın sözün həqiqi mənasında elmi külliyatı ortaya qoyulmamışdı. Molla Cümənin bütün şeirlərini yığdım, düzdüm. Topladığım nümunələri əlyazmaları və qeydlərimi ortaya qoyub tərtibata başladım. Çoxlu çətinliklərlə rastlaşdım. Deyəsən aşığın əlimdə olan bütün şeirlərini bir yerə toplaya bilmişəm. Çoxlu müqayisələr, dəqiqləşdirmələr apardım. Aşıq sənətimizdə deyəsən ilk elmi-müqayisəli külliyat Molla Cüməyə nəsib olmuşdu. Çox əziyyət çəkməli oldum. Molla Cümənin bütün əsərlərində işlənən mifoloji, ictimai adları toplayıb aşkarladım. Gözəl bir lüğət tərtib elədim. Geniş bir müqəddimə yazdım. Makinaya verdim. 800 səhifə alındı. Beləliklə, böyük zəhmətin bəhrəsi kimi aşığın əsərlərinin külliyatı hazırlandı. İndi fikirləşdim ki, haraya, hansı nəşriyyata aparım. Qərara gəldim ki, "Yazıçı"ya aparacağam. Getdim, direktor Faiq Məlikov idi. Məni çox yaxşı qarşıladı. Şöbə müdiri İsgəndərzadəni çağırıb tapşırdı ki, nəzərdə tutsun. Bir müddətdən sonra Faiq müəllim dünyasını dəyişdi. Yerinə Əkrəm Əylislini qoydular. O, mənə açıqcasına dedi ki, bizim çap eləməyə imkanımız yoxdur. Əlyazmasını tələb elədim, iki gün axtardılar tapa bilmədilər. Özüm şəxsən arxivə gedib axtardım, 800 səhifəlik əlyazmamı mənimsəmişdilər. Əkrəm Əlisli də heç məhəl qoymadı, üzr də istəmədilər. Əlyazmamın məndə ikinci nüsxəsi var idi. Onun əsasında yenidən makinada yazdırdım. İndi mən nə edim, başıma nə çarə çəkim, hara gedim, əlacım kəsilib "Maarif" nəşriyyatına getdim. Oranın direktoru mənim sevimli tələbəm Allahverdi Eminov idi. Şöbə müdiri də yenə yaxşı tələbələrimdən olan İmran Abbasov idi. Allahverdi müəllim Molla Cümənin külliyatını "Maarif" nəşriyyatının tematik planına daxil elədi. Elə oldu ki, Allahverdi müəllim nəşriyyatın direktorluğundan çıxdı. Mən heç görmədiyim, adını belə heç eşitmədiyim Ziya Abdullayevi direktor təyin elədilər. Onun qəbuluna getdim. O, mənə qəti cavab verdi, biz Molla Cüməni o həcmdə çap eləyə

bilməyəcəyik. Kitabın yarısını götürün. Mən isə sakitcəsinə dedim: Ziya müəllim, kitabın yarısı artıq çap olunub. Bu isə Molla Cümənin bütün əsərlərinin külliyatıdır. O, mənimlə kobud danışdı, mən heç gözləməzdim. Çox zəhmət çəkdim, hətta nazirin yanına da getdim. Şəki şəhərinin rəhbər şəxslərinə məktub yazdım. Məktub "Şəkinin səsi" qəzetində çap olundu. Hər yerdən əlim üzüldü. Birdən yadıma Elçin Əfəndiyev düşdü. Elə bu yaxınlarda Elçin müəllimə yenicə çap olunmuş kitabımı vermişdim. Nəhayət Nazirlər Sovetində Elçin Əfəndiyevin qəbuluna getdim. O, məni çox yaxşı qəbul elədi. Dedi ki, sizi yaxşı tanıyıram. Bu yaxınlarda sizin "Azərbaycan şifahi xalq ədəbiyyatı" dərsliyiniz haqqında mətbuatda çıxış eləmişəm.

Dərdimi danışdım. Elçin müəllimin köməkçisi yanımda idi. Adı da Rasim idi. Elçin müəllim Rasimə dedi ki, direktorun nömrəsini yığ. Rasim isə bilmirəm nə dedi. Onda mən dilləndim ki, əzbərdən bilirəm. Rasim yığdı. Elçin müəllim birbaşa direktorla danışdı. Dedi ki, Paşa Əfəndiyev bizim yaxşı folklorşünasımızdır. Zəhmətkeş alimdir. Uzun illər çox zəhmət çəkib Molla Cümənin şeirlərini toplamışdır. Bu folklordur. El sərvətidir. Paşa Əfəndiyevin şəxsi yaradıcılığı deyil. Paşa müəllimin kitabını olduğu kimi çap eləyin. Mən Elçin müəllimə minnətdarlığımı bildirərək qayıtdım. Bir ay, daha çox keçdi. Kitab yerindən tərpənmir, direktor işi uzadır. Mən yenə işə qarışdım, dedim yenə Elçin müəllimin yanınamı gedim. Bir neçə gündən sonra kitabı mətbəəyə göndərdilər. Beləliklə, ömrü faciə ilə başa çatan böyük sənətkarın külliyatı dünyaya göz açdı. Kitab böyük əks-səda doğurdu. Bu nəşrin çox qəribə taleyi olub. Bu kitabın daha təkmilləşdirilmiş nüsxəsi Azərbaycan prezidenti İlham Əliyevin sərəncamı ilə 25 min nüsxə çap edilib. Bütün Azərbaycan kitabxanalarına pulsuz hədiyyə verilmişdir. Hazırda Molla Cümənin bu külliyatı Almaniyanın Halle şəhərində kitabxanada saxlanılır.

**Hörmətli Paşa müəllim!**

Salam!

Paşa, sizin məktubunuzu aldım. Mövlüd müəllim öz kəndlərində xeyir işləri olduğundan gec cavab yazmağımı bağışla. O, 3/IX-61 ildə məktəbə gəldi. Mən onunla ətraflı danışdım.

O, mənə dedi ki, mən və anam ona hərtərəfli köməklik göstərə bilərik. Hazırda Mövlüd müəllimin deməsinə görə, onun anasında ərəb əlifbası ilə Molla Cümənin əl yazmaları var. Mövlüdun özündə də 140 qədər qoşma, müxəmməs, divani, təcnis və s. vardır. Mövlüdun deməsinə görə, Layisqı kəndində Molla Cümə ilə bir dövrdə yaşayan Molla Cümənin dayısı oğlu Şirin kişi adlı 97 yaşlı qocadan da ətraflı məlumat almaq mümkündür.

Paşa, sonra mən özüm Molla Cümənin qoşmalarının əksəriyyətini bilən və onun haqqında rəvayətlər danışan Balakən rayonun İtitala kəndindən aşıq Məhəmməd adlı bir nəfəri tanıyıram. Onun Marsanda keçirilən bir neçə məclisində mən özüm olmuşam. O, Molla Cümə haqqında çox qoşma bilir. Əyər lazım olsa onunla da məsləhətləşmək olar. Sən yenə lazımı məlumatı almaq üçün əlaqə saxla. Mən Mövlüd müəllimdən onun anasında olan məlumatları (qoşmalarını) tələb etdim. O dedi ki, anam həmin əlyazmasını heç kimə vermir. Ancaq özlərində baxmağa icazə verir.

Sonra Mövlüdün əmisi oğlu da mənim yaxın dostumdur.

Sən gəlsən həm Layisqiyə birlikdə gedərik, həm də Aşıq Məhəmmədlə səni görüşdürərəm.

Paşa, Mövlüdün deməsinə görə bu yaxınlarda Nuxalı Ələşrəf adlı bir nəfər Molla Cümənin əl yazmalarından 2 dəftəri Nizami institutuna təhvil verib. Sən oranı da yoxla. Sonra sənə nə kimi materiallar lazımsa mənim gücüm çatanı düzəltməyə hazıram. Əyər sənsiz düzələsi şeylər varsa mənə yaz.

Mən Layisqıya gedim. Mövlüdün anasından və həmin qoca Şirin kişidən öyrənib sənə yazım.

Mənə ətraflı məlumat yaz. Mövlüd müəllim də sizə hər cür köməklik göstərməyə hazırdır.

*Hörmətlə sizin Rauf*
*4/IV-61*

**Hörmətli mama oğlu[6]!**

Sizin məktubunuzu aldım və oxudum. Sizə minnətdarlığımı bildirirəm. Çox sağ olun. Başa düşdüm ki, əziyyətimi çox çəkirsən.

Mama oğlu. Mən Layısqıya getdim. Mövlüdlə və Reyhan xala ilə görüşdüm. Mövlüddə təzə bir şey yoxdur. Siz yazan şeiri yazdım. Reyhan xalanında tək şəklini tapa bilmədik. Yenə göndərdiyimlə iş açmırsa ona mən demişəm şəklini çəkdirəcək. Xəbər ver onu alıb çatdırım. Ona Zəkəriyyə müəllim dedi ki, Baş Göynükdə bir adamda yeni şeirlər var. Onu alacaq, əyər yenisi varsa sizə çatdıracağam. Sonra Mövlüdün deməsinə görə, Balakəndə güya Molla Cumanın şəkli var. Mövlüd bu kanikulda ora gedəcək. Əyər tapsa onu mənə çatdıracaq, mən də sizə göndərəcəm. “Bolşevik” şeirini mənə verən Ləkit kənd sakini, 63 yaşlı, pensiyaçı Meçid Məsum oğlu Əhmədovdur (bizim əmi qızı İmamatın əri).

*Qax rayonu Marsan kəndi*
*Rauf Əfəndiyev. 1/XI-1961*

---

[6] Şəki-Balakən zonasında bibiyə mama deyirlər. Deməli, bibi oğlu yox, mama oğlu Rauf Əfəndiyevin də bizə qohumluğu çatır. Məni də mama oğlu adlandırmışdır.

“Hörmətli Paşa müəllim! Salam. Sizin göndərdiyiniz hədiyyəni aldım və çox şad oldum. Siz bilirsiniz ki, anam və bacılarım nə qədər şad oldu. Xüsusən anam nə qədər şadlandı, həddi-hesabı yoxdur. Kitab çatandan sonra demək olar ki, kəndin adamlarının hamısı kitabı oxumaq, xüsusən babamın haqqında sizin yazdığınız müqəddiməni oxuması ilə daha çox maraqlanırlar. Bir sözlə sizin adınız əzbər olmuşdur. Xüsusən sizin Cavad oğluna verdiyiniz yüksək qiymət Göynük camaatı arasında böyük şadlığa səbəb olmuşdur. Paşa müəllim, sizə məlum olsun ki, bu yaxınlarda babamın şəkli tapılıb. Qaxda həkim Calal kişinin qızı verib. Axtıda (Dağıstanda)-P.Ə.) 1914-cü ildə çəkilib. Həmin şəklin üzünü çıxarıb, hər-halda ya özünü gətirərəm və ya göndərərəm”.

***Mövlüd Əzizov***
*(Molla Cümənin nəvəsi)*
*Baş Göynük, 1966*

**Şəki kəndlərinin birində redaksiyaya belə bir məktub ünvanladım:**

Hörmətli redaksiya! Mən Nuxa, Qax, Zaqatala, Balakən rayonlarının bir sıra kəndlərini gəzib Molla Cümənin həyat və fəaliyyəti haqqında məlumat toplamışam, külli miqdarda yeni şeirlərini əldə etmişəm. Xüsusilə Aşağı Göynük, Biləcik, Aşağı Layişqi, Baş Layişqi və başqa kəndlərin necə deyərlər torpağı, daşı da belə Molla Cümədən danışır. Bu maraqlı şəxsiyyətin –böyük aşığın əsərlərini toplayıb sistemə salıb çap etmək, yaradıcılığını da öyrənmək folklorşünaslığımız qarşısında duran ən mühüm vəzifələrdən biridir. Ona görə də sizdən artıq dərəcədə xahiş edirəm ki, mənim məktubumu və hələ indiyə qədər çap üzü görməyən aşağıdakı şeirləri qəzetinizdə dərc edəsiniz.

*V.İ.lenin adına APİ-nin dosenti Paşa Əfəndiyev.*
*Aşağı Göynük kəndi*
2.X.1961-ci il

Çox təəssüf redaksiyadan cavab ala bilmədim. Elə bil ki, mən heç müraciət etməmişəm. İkinci dəfə artıq müraciət etmədim.

## Şərif İdrisovun məktublarından sətirlər

Akademiyada M.Yarəhmədov: "Sənin bir şeirini də çapa qoymayacağam" deməsi, Bəhlul Abdullayevin ikibaşlı çıxışı, əvvəlki rəyi ilə son çıxışı daban-dabana zidd idi".

"Əlyazmalar fondunda Molla Cümənin təxminən 492 səhifəyə qədər olan əlyazması kiminsə tərəfindən oğurlanmışdır". (1981)

"Şəkili Əliəşrəf İsmayılov Molla Cümənin əlyazmalarını qızı Reyhandan almış və Əlyazmalar Fonduna vermişdir". (1981)

"Molla Cümə arvadına baramadan tuman, anasına başmaq alacağına söz verməsi haqqında rəvayət". (1980)

"Müdrik qoca Xızrın Cüməyə və onun butası İsmi Pünhana eşq şərabı içirməsi. Şeyxin Cümənin məlahətli səsini alması, lakin çalmağa, qoşmağa icazə verməsi haqqında rəvayət". (1973)

Cümə ilə deyişməyə gələn iki aşığı Molla Cümənin on iki yaşlı qızı Reyhanın bağlayıb geri qaytarması haqqında rəvayət.".

Molla Cümənin "Ay arvad" qoşmasını yazması haqqında rəvayət".

Marsanlı Qazıdan inciməsi haqqnda rəvayət".

"Aşıq Ələsgərlə Bərdədə deyişməsi, tanış olması. "Gəlirəm" şeirinin yazılması haqqında rəvayət"[7].

**Hörmətli Paşa müəllim!**

"Azərbaycan şifahi xalq ədəbiyyatı"[8] dərsliyinizi oxudum.

Zəkanıza, səyinizə, səbirliliyinizə, təmkinliliyinizə heyran qaldım.

Siz gör kitabı yazmaq üçün nə qədər məxəzlərdən istifadə etmişsiniz. Nə qədər folklorşünas alimlərin, tədqiqatçıların, yazıçıların, folklor toplayıcılarının əsərləri ilə tanış olmusunuz? Nə qədər vaxt arxivlərdə araşdırmalar aparmısınız? Nə qədər kəndlər, nə qədər rayonlar gəzmiş, folklor yayıcıların, aşıqların məxsi yaradıcılıqları ilə tanış olmusunuz? Nə qədər klassik ədəbiyyatı, Azərbaycan tarixini, partiya qərarlarını oxumuşsunuz və məxəzlərin siyahısını tərtib etmişsiniz?...

Nə qədər yuxusuz gecələr düşünmüsünüz? ...

Siz xoşbəxtsiniz, ona görə ki, sizin dərsliyinizdə yalnız təkcə "Azərbaycan şifahi xalq ədəbiyyatı" haqqında deyil, Azərbaycan xalqının tarixi, dünya ədəbiyyatı və folkloru haqqında, Rus Sovet ədəbiyyatı və rus klassik ədəbiyyatı haqqında, ictimai quruluşlar haqqında, Marksist klassiklər haqqında, partiyamızın qərarları, yazıçılar və aşıqlar qurultayı və s. haqqında dolğun məlumat toplamısınız. Mənə qalsa siz təkcə dərslik deyil, tariximizin ensiklopediyasını yaratmışsınız.

Dərsliyi səlis, emosional, sadə dillə yazmısınız. Hər bir bölmə və başlıqları bir-biri ilə üzvü surətdə bağlamısınız. Elə buna görə də dərsliyin birbaşa nöqtəbənöqtə oxudum.

---

[7] Məlum olsun ki, Ş.İdrisov bu rəvayətlərin heç birisini şərh etməyib, açıqlamayıb. 1973, (müəllif)

[8] Rəy dərsliyin 1981-ci il nəşrinə yazılıb.

Dərslik şifahi xalq ədəbiyyatı haqqında mənə mənəvi zövq bağışladı. Sizin təvazökar və humanist münasibətiniz, özünüzdən əvvəlki hər bir toplayıcıya müsbət qiymət verməniz heykəlinizi bir daha qəlbimdə ucaltdı.

Dərslik təkcə ali və orta ixtisas məktəblərində dərs deyən müəllimlərə, tədqiqatçı aspirantlara deyil, kütləvi məktəblərə, ədəbiyyat müəllimlərinə, folklor sevənlərə və başqalarına da gərəklidir.

Belə qiymətli dərs vəsaiti gərək 28 000 nüsxə tirajla deyil, 100 000 nüsxələrlə çap ediləydi.

Dərsliyiniz haqqında yazdığım 13 vərəqəlik rəyi "Azərbaycan müəllimi" qəzeti nəşriyyatına göndərmişəm!

Paşa müəllim, Sizə daha böyük uğurlu yaradıcılıq müvəffəqiyyətləri və can sağlığı arzu edirəm.

***Hörmətlə: Şərif İdrisov***
***Şəki, Qızıl Əsgər küçəsi 17***
***14/IX 82***

**"Azərnəşr"in direktoru Nazim Novruzov yoldaşa**
**Müəllif Paşa Şərif oğlu Əfəndiyevdən**

## Ərizə

25 ildir ki, görkəmli Azərbaycan aşığı Molla Cümənin ədəbi irsini toplamaqla məşğulam. Dəfələrlə aşığın yaşadığı, fəaliyyət göstərdiyi yerlərdə olmuş, el ağsaqqalları ilə görüşmüş, aşıq haqqında xatirələri və onun şeirlərini şifahi dildən toplamışam. Bununla belə Molla Cümənin şeirlərindən ibarət dörd əlyazması əldə etmişəm. Bu əlyazmalarında aşığın 500-ə qədər şeiri vardır. Topladığım materiallar əsasında 1966-cı ildə "Azərnəşr" mənim tərtibimdə aşığın ilk şeirlər kitabını burax-

mışdır (5 m/v). 1983-cü ildə "Yazıçı" nəşriyyatı yenə mənim tərtibimdə aşığın "Seçilmiş əsərləri"ni çap etmişdir (8 m/v). Son kitabda olan şeirlərin əksəriyyəti yenidir. Hazırda aşığın əlimdə olan bütün əsərlərinin tərtibatı ilə məşğulam. Əlyazmalarını topladığım nümunələri nəzərdən keçirir, şeirlərini müxtəlif variantlarını yoxlayıb orijinalını üzə çıxarır və dəqiqləşdirirəm. Beləliklə, aşığın yeni və daha iri həcmli kitabını çapa hazırlayıb qurtarmaq üzrəyəm. Burda Molla Cümənin yeni əldə edilmiş külli miqdarda şeirləri vardır. Bütün bunlara görə də Molla Cümənin yeni şeirlər kitabını – külliyatını 20 m/v həcmində rəhbərlik etdiyiniz nəşriyyatın planına (1987) salınması üçün icazənizi xahiş edirəm.

***Paşa Əfəndiyev***
***V.İ.Lenin adına APİ-nin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri, filologiya elmləri doktoru, professor***

**Yazıçı nəşriyyatının direktoru**
**F.Məlikov yoldaşa**
**Müəllif Paşa Şərif oğlu Əfəndiyevdən**

Ərizə

30 ildir ki, görkəmli Azərbaycan aşığı Molla Cümənin şeirlərini toplamaqla məşğulam. Dəfələrlə aşığın vətənində olmuş, çoxlu şeirlərini yazıya almış və dörd əlyazması əldə etmişəm. Aşığın şeirlərindən ibarət ilk kitabım 1966-cı ildə ("Azərnəşr", 5/v), ikinci kitabım 1983-cü ildə ("Yazıçı" 8 m/v) çap olunmuşdur. Bütün bu 30 il ərzində əlyazmalar üzərində işləmiş, bütün şeirlərini dəqiqləşdirib tərtib edib qurtarmışam.

Bununla əlaqədar Rəşid Mahmudovun qəbulunda olmuş, o da vaxtilə Sizin adınıza məktub göndərmişdir.

Çox hörmətli Faiq müəllim!

Bu kitabda mənim 30 illik zəhmətim, ürəyim, əsəbim, qanım vardır. Ona görə də Molla Cümənin bütün əsərlərinin nəşri üçün Sizin köməyinizi xahiş edirəm.

***Paşa Əfəndiyev***
***V.İ.Lenin adına APİ-nin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Əmək veteranı***

***4/VI-1990***

**Azərbaycan SSR EA Nizami adına**
**Ədəbiyyat İnstitutuna**
**Paşa Şərif oğlu Əfəndiyevdən**

M Ə L U M A T

Molla Cümənin ədəbi irsi ilə əlaqədar aşağıdakıları Sizin nəzərinizə çatdırıram. Şərif İdrisov uzun illərdir ki, Molla Cümənin şeirlərini toplayır. 1961-ci ildə aşığın şeirlərini toplamaq məqsədilə ekspedisiyada olarkən mən onunla Baş Göynükdə tanış olmuşam. Doğrudan da o, çox zəhmət çəkib, çoxlu nümunələri şifahi dildən toplamışdır. O, topladığı materialları əvvəlcə Sizin instituta təqdim edib, bu barədə rəy də alınmışdır. Sonra mən də nəzərdən keçirib aşığın şeirlərini tərtib edərkən oraya dastanı ("Baxış bəy və Leyli xanım") və bir neçə şeiri daxil etmişəm. Ş.İdrisovun şifahi dildən topladığı şeirlərin demək olar ki, hamısı aşığın əlyazmalarında var, özü də daha kamil və tamdır. Başqa sözlə əlyazmalarında aşığın

üslubu və orijinallığı daha çox özünü saxlamışdır. Madam ki, belədir onda əlyazmalarının çap edilməsi məsləhətdir. Məncə Ş.İdrisovun materiallarını nəzərdən keçirmək, əlyazmalarında olmayan nümunələrdən seçib kitaba daxil etmək (əgər bəyənilərsə) və həmin səhifədə toplayıcının adını qeyd etmək məsləhətdir.

***Paşa Əfəndiyev***

**"Yazıçı" nəşriyyatının direktoru Ə.Xanbabayev yoldaşa**

ƏRİZƏ

20 ildən artıqdır ki, görkəmli Azərbaycan aşığı Molla Cümənin (1854-1920) əsərlərini toplayıram. Dəfələrlə aşığın anadan olduğu, gəzib dolaşdığı yerlərdə olmuş, şifahi dildən çöxlu şeirlərini, bununla belə 4 (dörd) əlyazmasını əldə etmişəm. Aşığın şeirlərindən bir qismini səliqəyə salıb 1966-cı ildə "Azərnəşr"də çap etdirmişəm. Təxminən 15 ildir ki, Molla Cümənin əlyazmaları üzərində iş aparmışam, bunlarda olan şeirləri oxuyub müqayisə etmiş, dəqiqləşdirmiş, bir neçə məqalə yazmış, "Maarif" nəşriyyatı tərəfindən buraxılan "Azərbaycan şifahi xalq ədəbiyyatı" kitabında aşığın həyat və yaradıcılığı haqqında ayrıca oçerk də vermişəm. "Azərnəşr"də direktor olduğunuz vaxt bir neçə dəfə Sizin qəbulunuzda olmuş, əlyazmalarını Sizə göstərmişəm (1976-cı ildə Sizin adınıza yazdığım ərizəni də əlavə edirəm). "Yazıçı" nəşriyyatı açıldıqdan sonra toplayıb tərtib etdiyim kitabı ora təhvil vermişəm. Belə olub ki, mənim kitabım 1982-ci ilin planına müəllif Mövlud Yarəhmədovla birgə salınmışdır. Mən yalnız aşığın şeirlərinin işıq üzü görməsi naminə onunla şərik olmağa razılı-

ğımı vermişəm. 1981-ci ilin təxminən oktyabrında Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutunda akademik M.C. Cəfərov və professor Əziz Mirəhmədovun bilavasitə rəhbərliyi ilə iclas keçirildi, belə məsləhət olundu ki, M.Yarəhmədov da öz əlyazmasını nəşriyyata versin və sonra birlikdə kitabı nəşrə hazırlayaq. (o zaman mənim əlyazmam artıq “Yazıçı” nəşriyyatında idi. Mən Sizin nəşriyyatınızda olan əlyazmamı elə o günlərdə M.Yarəhmədova təhvil verdim ki, o da özündə olan nümunələrlə birgə təcili olaraq nəşriyyata təhvil versin.

Çox hörmətli Əjdər müəllim! İndi o vaxtdan bir il keçmişdir. M.Yarəhmədov nəşriyyata bir səhifə də material verməmişdir. Deməli, o öz bildiyini etmiş, Nizami adına Ədəbiyyat İnstitutunu, “Yazıçı” nəşriyyatını və bir müəllif kimi məni də əgər təbiri caizsə aldatmışdır. Keçən bir il müddətində mənim əlyazmamla onun necə rəftar etdiyindən də xəbərsizəm, eşitdiyimə görə qəsdən gecikdirir ki, kitabı plandan çıxartsınlar. Əjdər müəllim, necə olub ki, M.Yarəhmədov indiyə qədər nəşriyyata bir səhifə də material vermədiyi halda adı bir müəllif kimi nəşriyyat planına düşmüşdür? O son illər özünü çox şübhəli və qeyri-səmimi aparmış, başqa sözlə Molla Cümənin əsərlərinin hazırlanmasına açıqcasına mane olmuşdur. Ona görə də uzun illər Molla Cümənin toplayıcısı və tədqiqatçısı kimi (Aşığın həyat və yaradıcılığına həsr etdiyim monoqrafiyanı tamamlamaq üzrəyəm) kitabın M.Yarəhmədovla şərikli çap olunmasına razı deyiləm. Molla Cümənin əsərlərindən ibarət kitabın mənim Sizə təqdim etdiyim əlyazması əsasında çap edilməsi üçün sərəncamınızı xahiş edirəm.

***Paşa Əfəndiyev***
***Filologiya elmləri doktoru, professor***

**Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Şıxəli Qurbanova Pedaqoji İnstitutun Azərbaycan ədəbiyyatı kafedrasının dosenti Paşa Əfəndiyevdən**

ƏRİZƏ

Çox hörmətli Şıxəli müəllim! Sizdən şəxsən dəfələrlə üzr istəyərək müraciət edirəm. Hazırda Siz respublikada elm, ədəbiyyat, incəsənət ideologiyanın bütün ağırlıqlarının zəhmətini çiyinlərində daşıyırsız. İşinizin belə vaxtında Sizi narahat etmək istəməmişəm. Biz xalqımızın fəxri olan Pedaqoji institutun divarları arasında 4 il tələbə olmuş, 3 il aspirantura keçmiş və bir neçə il də eyni kafedrada çiyin-çiyinə işləmişik. Siz institutun həmkarlar partiya işlərinə böyük töhfələr vermisiniz. Bütün bunları qoy-götür eləyəndən sonra hər yerdən əlim üzüldüyünə görə Sizi narahat etmək qərarına gəlmişəm. Mən neçə ildir ki, böyük Azərbaycan aşığı Molla Cümənin necə deyərlər unudulmaq qorxusu qarşısında olan ədəbi-bədii irsini toplamaqla məşğulam. Aşığın fəaliyyət göstərdiyi rayon və kəndləri qarış-qarış gəzərək şeirlərinin bir hissəsini dənə-dənə toplamışam, aşığın ilk kitabını tamamlamışam. İndi bu kitabı çap eləməkdə çətinlik çəkirəm.

Əziz Şıxəli müəllim! Sizdən dəfələrlə üzr istəyirəm, belə ağır, şərəfli işləriniz çox olduğu bir dövrdə Aşığın ilk kitabının çapı üçün vaxt tapıb mənə kömək etmənizi xahiş eləyirəm.

***Sizə çox hörmət eləyən Paşa müəllim***
***1966-cı il***

**Azərbaycan Respublikası Nazirlər Soveti sədrinin müavini Elçin Əfəndiyevə**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru Paşa Şərif oğlu Əfəndiyevdən

ƏRİZƏ

Çox hörmətli Elçin müəllim! Neçə illərdir ki, böyük Azərbaycan aşığı Molla Cümənin şeirlərini toplamaqla və öyrənməklə məşğulam. Dəfələrlə aşığın fəaliyyət göstərdiyi yerləri qarış-qarış gəzmiş, nümunələri sənətkarın ədəbi irsinin unudulmasından xilas eləmişəm. 1966 və 1983-cü illərdə sənətkarın iki şeirlər kitabını çap eləmişəm. Əlyazmalar üzərində 40 il işləmişəm. 41 müəllif vərəqi həcmində kitabını hazırlamışam. Kitab "Maarif" nəşriyyatının 1995-ci il tematik planına 25 müəllif vərəqi həcmində daxil edilmişdir. Nəşriyyata yeni direktor gəlib. O, isə kitabı bütövlükdə çap etməkdən imtina edib. Mən hər yerə müraciət eləmişəm, heç kimdən kömək görmədim. Elçin müəllim Molla Cümə irsi el malıdır. Onu elimizə çatdırmaq lazımdır. Sizin köməyinizə möhtacam.

***Hörmətlə: Paşa Əfəndiyev***
***filologiya elmləri doktoru, professor***
***1995***

İbrətamiz bir səciyyə. Yuxarıda dediyim kimi, böyük sənətkarımızın ilk şeirlər kitabı məhz Azərbaycan Mərkəzi Komitəsinin katibi məşhur dövlət xadimi, yazıçı və alim Şıxəli Qurbanovun köməyi ilə işıq üzü görüb. Molla Cümənin ədəbi-bədii irsinin nəşri üçün yollar açılmışdır. Sonra böyük zəhmət

və çətinliklərlə üzləşərək aşığın külliyatı hazırlanmışdır. Həmin külliyatın ilk nəşrinə isə Azərbaycan Nazirlər Sovetinin müavini məşhur yazıçı və dövlət xadimi Elçin Əfəndiyev kömək göstərmişdir. Daha sonra Molla Cümənin həmin külliyatını daha da təkmilləşdirilmiş ikinci nəşri isə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərəncamı ilə 25 min nüsxə çap edilərək Azərbaycanın bütün kitabxanalarına pulsuz hədiyyə verilmişdir. Bütün bunlardan sonra ömrü faciə ilə başa çatmış böyük xalq nəğməkarının ruhu xoş olmuş, böyük şəxsiyyətlərin sənətkara qayğısının şahidi olan və aşığın ədəbi-bədii irsinin yeganə varisi olan professor Paşa Əfəndiyev isə böyük qürur hissi yaşamışdır.

# IV BÖLMƏ

# AXTARIŞLAR, TƏDQİQATLAR, TAPINTILAR

*Qov könül, bağça barından bu qara qarğaları,*
*İmtahan eylə Hüma[9] quşlarını meydana çək.*
*Nizami Gəncəvi*

## Görkəmli sənətkar

Cümə (Molla Cümə) məşhur Azərbaycan aşığıdır. Onun həyatı və yaradıcılığı haqqında elm çox az məlumata malikdir. Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra, xüsusilə otuzuncu illərdə aşığın əsərləri toplanmağa başlanmışdır. Lakin həyatı, yaradıcılığı, indiyə qədər də tədqiq olunmamış və öyrənilməmiş qalmaqdadır. Son illər Molla Cümənin yaradıcılığı haqqında mətbuat aləmində, az da olsa, müəyyən fikirlərə rast gəlirik. Bu sevindirici bir haldır. Çünki Molla Cümə zəngin ədəbi irs qoyub getmişdir. Həyatı, ədəbi fəaliyyəti etibarı ilə çox maraqlı bir şəxsiyyət olmuşdur. Aşığın ümumi həyat və fəaliyyətinin tədqiqi Azərbaycan aşıq poeziyasının bir sıra nəzəri, ədəbi məsələləri və forma xüsusiyyətlərinin aydınlaşdırılmasına mühüm köməyi ola bilər. İndiyə qədər aşığın əsərlərinin cüzi bir hissəsi çap olunmuşdur. Bu nümunələrin də çoxusu 30-cu illərdə məşhur Azərbaycan folkor toplayanı Hümmət Əlizadə çap etdirdiyi "Aşıqlar" kitabında olduğu üçün indi çox tapılmır və geniş oxucu kütləsinə məlum deyildir. Cümə zəngin həyat təcrübəsinə, istedada, dünyagörüşə malik bir el sənətkarı olmuşdur. O, xalqın dərdini, sevincini duymuş və bunu sazı, sözü ilə ifa etmişdir.

Molla Cümə molla olmamışdır. Savadlı, elmli, bilikli olduğu üçün ona molla demişlər.

---

[9] Hüma-cənnət quşu

Adətən, aşıqların tərcümeyi-halını yazmaq, daha doğrusu bərpa etmək çox çətindir. Bunun üçün doğru, ən etibarlı mənbə aşığın öz şeirləridir. Çünki bu şeirlərdə aşıqlar öz həyatlarına dair mühüm hadisələri bu və ya digər şəkildə ifadə etməyə çalışırlar. Bu işdə aşığı görən, tanıyan, sevən şəxslərin xatirələri də tədqiqatçının köməyinə çatır. Beləliklə, müəyyən şəkildə də olsa, aşığın tərcümeyi-halı yarana bilir.

Molla Cümənin tərcümeyi-halında ən mühüm məsələ onun anadan olma tarixidir. Sovet hakimiyyəti illərində folklor toplayanlar, tədqiqatçılar, ədəbiyyatşünaslar Molla Cümənin anadan olma tarixini müxtəlif şəkillərdə - gah təxmini (H. Əlizadə), gah da əsərlərinə əsasən (F.Qasımzadə, Ə.Axundzadə, P.Əfəndiyev) göstərmişlər. Aşıq özü şeirlərinin birisində Həsənə müraciətlə belə deyir:

Min üç yüz otuz iki
Tarixdədir indi sənə,
Altmışa çatmış yaşım,
Sevda sərdə durur yenə.

Üzülüb bürcü-bədən
Üstdən gedir gündən-günə,
Tapşırır Molla Cümə
Oğul, sənə dönə-dönə:

Sidq ilə yaxşı tutub
Göz yetir dəftərə, Həsən!
Yazdığım bu dəftəri
Saxla yadigara, Həsən!

Parçada göstərilən hicri tarixi miladiyə çevriləndə 1914-cü illər olur. Deməli, 1914-cü ildə Molla Cümənin yaşı altmışa çatıbsa, onda aşığın təxminən 1854-cü ildə doğulduğu aydınlaşır. Hər halda bu tarixə inanmalıyıq, burada səhv olsa da bir-

iki il ola bilər. Başqa bir şeirində aşıq özünün kim olduğu haqqında belə bir məlumat verir:

Aşıq anasıyam, şairlər kökü,
Gəzərəm dünyada divanə təki,
Mahalım Göynükdür, şəhərim Şəki,
Layisqi kəndinin binasıyam mən.

Binəm Layisqiyə düşübdür mehman,
Pədərim Salahdır, madərim Reyhan,
Vələdim Həsəndir, əxim Süleyman,
Familim Molla Oruc ədnasıyam mən.

Molla Cümə ilk təhsilini Aşağı Göynük kəndində Hacı İbrahim Əfəndinin mədrəsəsində almışdır. Az müddət içərisində ərəb, fars dillərini mükəmməl öyrənmişdir. Ancaq o mədrəsədən tez uzaqlaşmışdır; gözəl təbə, şairlik istedadına malik gənci şeir, söz daha çox cəlb etmişdir. Molla Cümə öz şəxsi mütaliəsi ilə klassik Azərbaycan ədəbiyyatını, onun xüsusilə Vaqif, Vidadi, Zakir, Nəbati kimi sənətkarlarını, aşıq yaradıcılığımızı, xalq ədəbiyyatımızı dərindən öyrənmiş, özü də gözəl bir sənətkar kimi yüksəlmişdir.

Cümənin atası Saleh kişi əkinçiliklə məşğul olmuşdur. O, yeganə oğlu Cüməni də kiçik yaşlarından təsərrüfat işlərinə alışdırmışdır. Təbiətin gözəl mənzərələri qoynunda böyüyən Cümə kiçik yaşlarından sinədən şeir qoşmağa başlamışdır. Öz şəxsi bacarığı, təbii istedadı sayəsində dövrünün tanınmış sənətkarları səviyyəsinə yüksələ bilmişdir.

Sonralar bütün ömrü boyu Molla Cümənin əsas sənəti, peşəsi əkinçilik olmuşdur. Qax, Zaqatala, Balakən varlılarının zəmisində biçin biçmiş və bundan aldığı zəhmət haqqı ilə ailəsini dolandırmışdır. Qızı Reyhan deyir ki, olüncə atamın əlindən oraq, yaba düşməmişdir.

Molla Cümənin tərcümeyi-halında olan ən qaranlıq yerlərdən birisi onun ölümü məsələsidir. Bu barədə müxtəlif rəva-

yətlər söylənir. Bütün bu müxtəlif variantda olan rəvayətlərin birləşdiyi nöqtə odur ki, Molla Cümə səhvən öldürülmüşdür. Guya onu öldürəndən sonra tanımışlar. "Nuxa fəhləsi"[10] Molla Cümənin ölümü haqqında belə bir qeyd vermiş ki, 1920-ci ilin may ayının əvvəllərində XI Qızıl Ordunun hissələri Nuxadan Zaqatalaya doğru gedərkən, bu yolun ətrafındakı kəndlərin varlıları orduya müqavimət göstərmək fikrinə düşürlər. Burada atışma başlayır. Bir çox yoxsul kəndli ordu ilə onlara qarşı çıxanların arasında qalır. Molla Cüməyə də bu vaxt güllə dəyir...

Cümənin həyatından danışarkən bir cəhəti də qeyd etmək lazımdır: o da əksər şeirlərində adı çəkilən "İsmi Pünhan" məsələsidir. Məlumdur ki, bu söz gizli ad mənasındadır. Görünür aşığın bir gözəlin, məşuqənin, başqa sözlə desək, öz sevgilisinin adını gizli saxlamaqda bir məqsədi varmış. "İsmi Pünhan" Molla Cümənin tərcümeyi-halı, həyatı, fəaliyyəti ilə əlaqədardır. Bu məsələdən söhbət açanlar deyirlər ki, Molla Cümə varlı bir ailədən olan qıza aşiq olmuş, lakin onun adını çəkə bilməmiş, gizlətmişdir.

Aşığın öz şeirləri İsmi Pünhan haqqında daha doğru fikir yüütməyə material verir.

Necə dad etməyim, aman, ay fələk!
İsmi Pünhan mənə zəlalət eylər!

-beyti ilə başlanan qoşmanın son bəndi belədir:

Fələk məni döndəribdi Məcnuna,
İnsan salmaz insanı bu zülümə,
Göynüyün ətrafın bu Molla Cümə
Hər günü dörd yolla ziyarət eylər.

Bu şeir güman etməyə əsas verir ki, İsmi Pünhan məhz Göynükdən olmuşdur. Yaxud "Axtaran" rədifli başqa bir qoşmanın son bəndində deyilir:

---

[10] "Nuxa fəhləsi", 1961, №27

Mən cununam, kimə verim öyüdü,
Yandım desəm, tez tökərlər nöyüdü,
Cümə ölüb, tapılmasa meyidi,
İsmi Pünhan obasını axtarın.
Yaxud:

Könül dönsə, bu dostluğu atarıq,
Yol uzaqdır, özüm bihal, at arıq,
Cümə səni sevəndəydi, a tarix,
Min iki yüz doxsanıncı sənədə.

Həmin tarixi miladiyə çevirəndə 1873-cü il alınır. Cümənin anadan olduğu il 1854-cü il qəbul olunanda, o zaman İsmi Pünhanı sevəndə 19 yaşı varmış. Belə misalları Cümənin şeirlərindən çox gətirmək olar. Nəticə belədir ki, həmin qız Molla Cümənin dərs aldığı mədrəsə sahibinin, o yerin ən böyük dindarının qızı imiş.

Lakin zaan keçdikcə İsmi Pünhan məşuqə, aşiq, sevgili mənasından kənara çıxmış, aşığın, ümumiyyətlə həyat idealı, arzusu, diləkləri kimi özünü göstərmişdir.

Molla Cümə incə zövqə malik, insanın daxili, ruhi hisslərini gözəl, təsirli ifadələrlə inikas etdirməyi bacaran lirik bir şairdir. Cümə əsil məhəbbəti, saf, təmiz insani eşqi yüksək tutur, var-dövlət heç vaxt maraqlandırmır. Onun varı, dünyası gözəl bir həmdəmdir. Aşığın malı, dövləti yaxşı, mehriban insanlar, dostluq, səxavət, qonaqpərəstlik, alicənablıq olmuşdur. Bu gözəl insani keyfiyyətləri aşıq kimdə görmüşsə, ona can qurban etmiş, onu tərifləyib sevmişdir. Ona görə də Molla Cümə haqqında xatirə söyləyən qocalar deyirlər ki, min manat versəydin o insansız yerdə bir kəlmə söz oxumazdı. Cümə üçün əsil mənada insanlar məclisi lazım idi, onda ürəyi açılar, təklifsiz də oxuyardı.

Molla Cümənin ədəbi irsi içərisində həcvlər mühüm yer tutur. XIX əsrdə ümumiyyətlə ədəbiyyatımızda satiranın inkişafı ilə əlaqədar həcv də geniş yayılmışdır.

Aşıq Cümə həcvlərinin çoxusunda bu və ya digər varlını, din xadimini, alverçi və ya mülkədarı kəskin tənqid atəşinə tutmuşdur.

Molla Cümə yaradıcılığında fırıldaqçı din nümayəndələrinə kəskin nifrət vardır. Çox xarakterikdir ki, Molla ləqəbi götürən aşıq çəkinmədən mollaları qamçılayır. Özü dı bu təsadüfi deyil, qərəzlə deyil, münasibətdən münasibətə deyil, məhz ideyadan irəli gələn tənqiddir. Bu şeirlərlə Molla Cümə yolunu azan din nümayəndələrinin bütün fırıldaqlarını üzünə deyir, min cür yollarla xalqı aldadıb malını əlindən aldıqlarını açıqca göstərir:

Mənim kəftarıma yaxşı deməzsən,
Nə keçir könlündən, kimə əvəzsən?
Yediyin haramdır, halal yeməzsən,
Gəl çəkmə xalçanı qırağa, molla.

Molla Cümənin həyat, mühit, insanlar və münasibətlər haqqında şeirləri onun dünyagörüşünü aydınlaşdırmaq üçün bizə mühüm material verir. Bu şeirlər göstərir ki, Molla Cümə həyata, mühitə və onda olan ziddiyyətlərə açıq gözlə baxan, onların səbəblərinə varmaq istəyən, düşünən, axtaran bir sənətkar olmuşdur. Şair həmişə haqsızlığı, varlı-güclü, yoxsul-zəif məsələlərini demokratik cəbhədən, xalq cəbhəsindən təhqir etməyə çalışmışdır.

Aşığın dərdi şəxsi dərd deyil, el, xalq, dərdidir. O, özbaşınalıqdan, dərəbəylikdən şikayətlənir, ağıla, kamala, elmə qiymət verən yoxdur, qolu güclülər, namərdlər dünyasıdır, - deyir.

Molla Cümənin ictimai movzuda da şeirləri çoxdur. Bunlardan bəziləri bilavasitə aşığın məşğuliyyəti, əmək və zəhməti ilə əlaqədardır. Buna misal olaraq "Ay arvad" və

“Sərçələr” rədifli şeirlərini göstərə bilərik. Aşıq arvadına müraciətlə o dövrün bir sıra məsələlərini belə qələmə almışdır:

Ağyazlıda taxılımız zay oldu,
Bu ilki il kəsəkənlər bay oldu.
İnanmıram, çəltikdən də pay oldu;
Qazı kimi it ortaqdı, ay arvad.

Məsdilərin üstümüzdə borcu var,
Saldat pulu, bir də mirab xərci var,
İki qəvlə otuz manat töycü var,
Az demirəm, hələ çoxdu, ay arvad.

Təbii ki, bu şeir o zaman vergilər altında inləyən, ehtiyac içərisində yaşayan xalqların dərdi idi.

Xalq içərisindən çıxmış igidlər – kəndli hərəkatı başçılarına el sənətkarları həmişə rəğbət bəsləmişlər. Belə qəhrəmanlar xüsusilə XIX əsrdə çox yetişmiş, hətta dillərə, dastanlara belə düşmüşdülər: Adıgözəl, Yarəli, Dəli Alı, Qaçaq Kərəm, Cavadoğlu, nəhayət ən böyük və sevimli qəhrəmanlar Qaçaq Nəbi, (bu qəhrəmanların hamısının haqqında aşıq şeirləri, xalq mahnıları, epizod, xatirə və dastanlar vardır). Molla Cümə də belə igidlərdən olan Cavadoğlunun rəşadətinə şeir qoşmuşdur.

Cavadoğlunun qəhrəmanlığı, qorxmazlığı, həddindən artıq igid və çevik olması haqqında indi də Nuxada danışırlar. O, dəfələrlə çar hökümətinin məhz onu tutmaq, əsir etmək, yaxud məhv etmək üçün göndərdiyi qoşunla döyüşdə qalıb çıxmışdır. Xarakterik cəhət budur ki, aşıq qorxusundan həmin şeirin sonuna öz təxəllüsünü qoymamışdır. Şeirin yazılma tarixi yoxsa da, vuruşun harda getməsi, qoşunların sayı, yerli bəylərdən kimin canfəşanlıq etməsi və s. haqqında düzgün məlumat almaq mümkündür.

Ağalar, guş tutun,
Mən sizə əlanı deyim,

Seydi tək çöldə gəzən
Bir neçə oğlanı deyim.

Məhəmməd Cavadoğlu,
İgidlərin xanı deyim,
Rüstəmi zal, Muxtarı,
Əhmədi, Aslanı deyim.

İstərəm İsgəndərə
Zülfüqarı sanı deyim.

Molla Cümə Azərbaycan aşıq yaradıcılığının, xalq şeirinin bütün şəkillərində əsərlər qoyub getmişdir. (Qoşma, gəraylı, cığalı gəraylı, divani, təcnis, cığalı təcnis, hərf üstə təcnis, yedəkləmə təcnis, sallama qafiyə, əvvəl-axır, əlifləmə, bayatı, müxəmməs, müsəddəs, bağlama, deyişmə, ustadnamə, hərbə-zorba, həcv və dastan).

Bizə hələlik Cümənin iki dastanı məlumdur. “Səyyad və Səyalı”, “Molla Cümə və Aşıq Könlü”. İkinci dastandan təxminən 80 bənd əldə etmişik. Bu qoşmalar və Könlünün deyişmələrindən ibarətdir. (Həmin dastanı hər iki şəxsin dilindən Cümə özü söyləmişdir).

Onu da əlavə edək ki, bu dastandakı bağlamaların bir hissəsi “Abbas və Gülgəz”, “Valeh və Zərnigar” və başqa dastanlarımızda olan dini mövzulara aid deyişmələri xatırladır. Məlum olan əlyazmalarında Molla Cümənin elə şeirləri vardır ki, onlar (xüsusilə forma cəhətdən) tədqiqata möhtacdır və bunların təhlili Azərbaycan aşıq və xalq poeziyasının bir sıra forma xüsusiyyətlərinin aydınlaşdırılmasında ədəbiyyatşünas və folklorşünaslarımıza gözəl və yeni material verə bilər.

***1966***

## Bir daha Molla Cümə haqqında

Molla Cümə haqqında bu qeydlərimizi yazmaqda məqsədimiz indiyə qədər ədəbiyyatşünaslığımızda, folklorşünaslığımızda aşığın adı barəsində buraxılan bir səhvi islah etməkdir.

Məşhur ədəbiyyatşünas və folklorşünas Salman Mumtaz 1927-ci ildə çap etdirdiyi "El şairləri" kitabında aşığın adını "İlisulu Molla Cümə" yazmışdır. Həmin kitabın ikinci nəşrində isə sadəcə "Cümə" getmişdir. Akademik H.Araslının redaktəsi və müqəddiməsilə çap olunan "Aşıqlar" kitabında deyilirdi: "Molla Cümə XIX əsrin sonları və XX əsrin əvvəllərində Qax rayonunda yaşamışdır".

30-cu illərdə Molla Cümənin şeirlərini məşhur folklorçu H.Əlizadə çap etdirmişdir. Aşığın qızı Reyhan xatırlayır ki, H.Əlizadə hətta bir neçə gün onların evində qalmış əlyazmalarını nəzərdən keçirib çoxlu şeirlərinin üzünü köçürmüşdür. Tədqiqatçı "Aşıqlar" kitabının birinci cildində Molla Cümənin "Vücudnamə"sini vermişdir.

Şeirdə oxuyuruq:

Binəm Layisqiyə düşübdür mehman,
Pədərim Salahdır, madarım Reyhan,
Vələdim Həsəndir, adım Süleyman
Familim Molla Oruc, ədnasıyam mən.

Bu şeirin nəşrindən sonra bütün kitablara aşığın əsil adı Süleyman kimi daxil olmuşdur. Akademik F.Qasımzadə, folklorşünas Ə.Axundov da belə yazmış, aşığın 1966-cı ildə Azərnəşr tərəfindən buraxılan kitabında da belə qeyd edilmişdir. Filologiya elmləri namizədi M.Yarəhmədov aşığın hətta familyasını göstərmişdir: Orucov Süleyman Salah oğlu. Sonra şair V.Qafarov rusca çap etdirdiyi məqaləsində Cümə əvəzinə Süleyman Orucov yazmışdır. İllər uzunu adı, təxəllüsü xalqın dilinin əzbəri olan şairlərə təzədən familiya "düzəltməyə" nə ehtiyac var?

Son zamanlar əldə etdiyimiz bir kitabda - Mirzə Ələkbər Sabirin 1914-cü ildə çıxan "Hophopnamə"sində bəzi maraqlı faktlara rast gəldik. Kitabın səhifələrinin ağ yerlərində Molla Cümənin şeirləri var, əksəriyyətini də aşığın özü yazıb, "Hophopnamə"nin 4-cü səhifəsində "Vücudnamə"nin yuxarıda göstərdiyimiz misrası belədir?

**Vələdim Həsəndir, əxim Salman.**

Əlyazmasında həmin bəndin qənşərində, elə bil "əxim" sözünə izah üçün, başqa bir xətlə "qardaşı Salman" sözləri qeyd edilib. Həmin sözlər üzərində düşünəndə gördüm ki, "Əxim Salman" ifadəsi vəzni pozur. Əlyazmasının başqa bir şeirində "Hophopnamə"nin 150-ci səhifəsində yazılmış digər bir şeir bu məsələni aydınlaşdırır. Şeirdən aydın olur ki, Molla Cümə Zaqatalanın Tala kəndində xəstələnib yatağa düşür, çox ağır vəziyyətdə yaxın adamlarını, qohum-əqrəbasını yadına salıb, adbaad xatırlayır:

Qürbətdə ağrıyır başım,
Gözlərimdən axır yaşım,
Aşə yengəm, bir qardaşım,
O Süleyman yada düşdü.

Bəlli olur ki, Süleyman Cümənin qardaşının adıdır. Deməli, "Vücudnamə"də də "əxim Salman" deyil, "əxim Süleyman" olmalıdır. Salman və Süleyman sözlərinin ərəb əlifbası ilə yazılışı bir-birinə oxşayır. "Vücudnamə"də "l" ilə "m" hərflərinin arasında yaddan çıxıb iki nöqtə qoyulmadığına görə Süleyman Salman kimi oxunur. Aşığın qızı Reyhan xanımın bizə təqdim etdiyi əlyazmasında da "əxim Süleyman" yazılmışdır. Hümmət Əlizadənin əsas səhvi ondan ibarət olub ki, "əxim" sözünü "adım" kimi oxumuşdur. Diqqət yetirsək görərik ki, Molla Cümə heç bir şeirində öz adının süleyman olduğunu yazmır. Aşığın bir qoşmasınn möhür bəndinə nəzər salaq.

Adım Molla Cümə, Salahzadəyəm,

Üzüqara bəndə, kəmtər kədayam.
Mən özüm də səntək yardan cidayəm,
Dərdimə dərd qoşma, gülsənə, bülbül!

Bütün bunlardan sonra deyə bilərik ki, "Vücudnamə"də olan misra belə oxunmalıdır:

Vələdim Həsəndir, əxim Süleyman.

Ustad aşığın əsil adı Süleyman yox, Cümədir. Yerli ləhcədə ona "Cuma" deyirlər. Aşığın göstərilən əlyazmasında olan və indiyə qədər çap olunmayan bir neçə şeirini oxuculara təqdim edirik:

**Gəraylılar**

Bir gözələ gözüm düşdü,
Mən dönərəm, könül dönməz.
Ruhum getdi, əqlim çaşdı,
Mən dönərəm, könül dönməz.

Dərdimi söylərəm başdan,
Ay qabaqdan, qələm qaşdan,
Şirin dilli bir ölmüşdən,
Mən dönərəm, könül dönməz.

Molla Cümə, eylə dastan,
Mail baxan gözü məstan,
Bir vəfalı sevən kəsdən
Mən dönərəm, könül dönməz.

************

Gözlərim eylə tamaşa:
Yar qarşıda dayanıbdır.
Mənim yatan kor taleyim
İndi xabdan oyanıbdır.

Ay qabaqda siyah tellər,
Bülbül tək danışır dillər.
Ağ biləklər, həm ağ, əllər
Al xınaya boyanıbdır.

Gözlərin oxşar badama,
Ziyan verir çox adama,
Layisqili Molla Cümə
Baxıb səni bəyənibdir.

## Qoşma

Səndən xəbər alım, ey badi-səba,
Dilimin diləyi neçün gəlmədi.
Sarmaşa boynuma, deyəm, mərhəba,
Sərimin çələngi neçün gəlmədi?

Neçə vaxt görmədim dost məhəbbəti,
Versələr, almaram onsuz cənnəti.
Behişt hurisidir yer səltənəti
O ərşin mələyi neçün gəlmədi.

Adını demirəm, İsmi Pünhandı,
Ləblərinin suyu dərdə dərmandı,
Bu Cümə müntəzir xeyli zamandı,
Könül əyləncəyi neçün gəlmədi?

## Qoşayarpaq

Bir zülfü ənbərə, qarşı peykərə,
Bir gözü xumara canım peşkəşdir.
Yanağı əhmərə, üzü qəmərə

Bir dişi gövhərə canım peşkəşdir.

Bir ləbi şükkərə, dili şəkkərə,
Bir sinə mərmərə, bəxti əxtərə,
Bir qəddi ərərə, təzə nükbərə
Bir belə dilbərə canım peşkəşdir.

Bir ismi əzbərə, əndamı tərə,
Bir cavan bəkərə, gözəl duxtərə,
Bir eşqi əxkərə, çox zülmkərə
Cüməyəm, aşkara canım peşkəsdir.

***1976***

## Molla Cümənin yeni əlyazması

XIX əsrin axırları, XX əsrin əvvəllrində yaşayıb-yaradan Azərbaycan aşıqlarından biri də Molla Cümədir. O, çox maraqlı bir həyat yolu keçmiş, zəngin ədəbi irs qoyub getmişdir. Son illər aşığın həyatına, yaradıcılığına maraq artmışdır. Onun ayrı-ayrı naməlum şeirləri mətbuat səhifələrində çap edilmiş, 1966-cı ildə isə Azərnəşr aşığının əsərlərini kitabça halında buraxmışdır. Mətbuatda Molla Cümənin bu yaxınlarda tapılmış şəkli də verilmişdir. Biz uzun illərdir ki, aşığın şeirlərini toplamaqla məşğuluq. Onun fəaliyyət göstərdiyi yerləri gəzmiş, xeyli şeirini toplamışıq. Molla Cümənin bir-neçə əlyazmasını da tapmışıq. Bu əlyazması haqqında “Bakı” qəzetinin oxucularına məlumat vermək istəyirik.

Bu sənəd öz quruluşu, məzmunu, yazılış tərzi etibarı ilə başqa əlyazmalarından fərqlənir. Bu “əlyazması” sevimli şairimiz M.Ə. Sabirin 1914-cü ildə İsabəy Aşurbəyovun “Kaspi” mətbəəsi tərəfindən buraxılmış “Hophhopnamə”sidir.

“Hophhopnamə”ni Şəki rayonu Aşağı Göynük kənd orta məktəbinin müəllimi Vədud Salman oğlu Hacıyev saxlamışdır. Əsas sahibi isə Vədud müəllimin atası Salman Hacalı oğludur. (O, 1943-cü ildə vəfat etmişdir). Salman Molla Cümə ilə 20 ildən artıq dostluq etmişdir. Özü də savadlı olmuşdur.

Vədud müəllimin dediyinə görə, Salman hər dəfə Molla Cümənin xahişi ilə “Hophopnamə”ni də götürüb onlara getmiş, daha bir neçə nəfər ziyalının iştirakı ilə kitabı oxuyub diqqətlə qulaq asmışlar. Molla Cümə Salmanı səbirsizliklə gözlərmiş. Çünki əvvəllər şifahi olaraq eşitdiyi, sevdiyi Sabir şeirlərini indi əyani şəkildə oxumaq, görmək onun üçün əvəzi olmaz bir mənəvi nemət idi. Ona görə də Salman “Hophopnamə”sini götürüb evə yola düşəndə Molla Cümə kitabı bir daha əlinə alar, həm minnətdarlıq əlaməti, həm də xatirə olaraq səhifələrin ağ yerlərinə şeirlərini öz dəst-xətti ilə yazarmış, “Hophopnamə”də ağ yer qalmamış, Molla Cümə şeirləri Sabir satiralarına qaynayıb-qarışmışdır.

“Hophopnamə”də şeirlərin, demək olar ki, hamısı Molla Cümənin öz dəsti-xətti ilə yazılıb, ancaq digər şəxs tərəfindən yazılan şeirlər də vardır, bunlar da yenə Molla Cüməyə məxsusdur. Maraqlıdır ki, kitabın lap əvvəllərində böyük bir şeirin altında Rəşid bəy Əfəndizadənin imzası vardır.

Tapılan hər bir yeni əlyazması bu maraqlı şəxsiyyətin tərcümeyi-halının müəyyən bir sahəsini aydınlaşdırmağa kömək edir.

Molla Cümənin iki övladı olmuşdur. Oğlu Həsən və sonbeşiyi Reyhan, 1914-cü ildə aşıq əldə olan şeirlərinin seçilmiş nümunələrini səliqə ilə bir dəftərə köçürmüş, oğlu Həsənə yadigar vermiş və dönə-dönə tapşırmışdı ki, “yazdığım bu dəftəri, saxla yadigara Həsən”. Dəftərin ilk səhifəsindəki müxəmməsdə aşıq həm özü haqqında yazmış, həm də oğluna məsləhətlər vermişdi. O, Həsənə demişdi ki, bu dəftəri diqqətlə oxu, cildə çək, göz bəbəyi kimi qoru.

1919-cu ildə Həsən 26 yaşında ikən vəba xəstəliyindən vəfat etmişdir. Bu hadisə qoca aşığı sarsıtmışdır. "Hophop-namə" nin səhifələrində indiyə qədər heç bir əlyazmasında olmayan, hətta şifahi dildə də rast gəlmədiyimiz bir şeir var. Forma etibarı ilə də maraqlı olan həmin şeiri, bizcə, aşıq oğlunun ölümü münasibəti ilə söyləmişdir.

Qeydlərimizin sonunda demək istəyirəm ki, Molla Cümənin əsərlərinin bütün mövcud əlyazmaları əsasında geniş şəkildə nəşrinin vaxtı çatmışdır. Aşağıda əlyazmasında olan, aşığın indiyə qədər çap edilməmiş şeirlərindən bir neçəsini oxuculara təqdim edirik.

**Bayatılar**

Aşiqəm, çəkən dərdi,
Çəkdikcə çəkən dərdi,
Yüz dəvə çəkə bilməz,
Bir canım çəkən dərdi

Aşiqəm, al qaranı yaz,
Qələm al qaranı yaz,
Əvvəl dəftər başına,
Mən bəxtiqaranı yaz.

Aşiqəm, gül əsəndə,
Darışıb güləsən də,
Bülbülün bağrı çatlar
Yel dəyib gül əsəndə.

Dağı qar qucar yatar,
Sonanı sar qucar yatar,
Cəfanı bülbül çəkər
Gülü xar qucar yatar.

Mən aşiqəm bir az gül,
Bir az nərgiz, bir az gül,
Çünki sən çox gülmüsən
Xətrim üçün bir az gül.

***1976***

## Molla Cümənin əlyazmaları

Klassik Azərbaycan aşıq poeziyasının görkəmli nümayəndələrindən olan Molla Cümə həyatı, yaradıcılığı, poetik aləmi etibarilə maraqlı şəxsiyyət olmuşdur. O, müəyyən savad görmüş, ərəb, fars dillərini, klassik Azərbaycan aşıq və yazılı poeziyamızı dərindən bilmişdir. Şeirlərini müxtəlif zamanlarda yazıya köçürən Molla Cümənin ədəbi irsi yalnız Sovet hakimiyyəti illərində toplanıb, çap edilib oxuculara çatdı-rılmışdır. Hazırda da aşığın şeirləri xalq içərisində dildən-dilə gəzməkdədir. Biz aşığın şeirlərini toplamaq məqsədilə bir neçə dəfə ekspedisiyaya getmiş, onun anadan olduğu və fəaliyyət göstərdiyi Şəki, Qax, Zaqatala, Balakən rayonlarının kəndlərini dolaşmışıq. Yaşlılarla, aşıqlarla, hətta Molla Cüməni görən, məclislərində iştirak edənlərlə söhbətlər aparmış, onların dilindən çoxlu şeirlər, xatirələr yazmışıq. Belə səfərlər zamanı Molla Cümənin  müxtəlif formalı şeirlərindən ibarət dörd əlyazmasını əldə etmişik. Həmin əlyazmalar haqqında oxuculara məlumat vermək istəyirik.

Birinci əlyazmasını fərdi ekspedisiya zamanı Qax rayonunun İlisu kəndində Yunis Təhməzovdan almışıq. 92 səhifədən ibarət olan bu əlyazmada aşığın 200-ə qədər şeiri toplanmışdır.

İri həcmli mühasibat dəftərindən ibarət həmin əlyazmadan məlum olur ki, Yunis dayıda Molla Cümənin müxtəlif illərdə əldə etdiyi şeirləri olub. O, şeirləri səliqə ilə həmin dəftərə köçürmüşdür. Əlyazması bu sözlərlə başlayır: "Rəhmətlik Molla Cümənin qəlbindən süzülən müxəmməs, təcnis, təxmis, divani, qafiyə, kötəlləmə, əvvəl-axır... həmin dəftərə yazıldı.

Bunları yazdım burda qalmaq üçün,
Oxuyanlar bir dua qılmaq üçün".

Şeirlər şəkillər üzrə düzülmüş, nömrələnmişdir. Əlyazması müxəmməslə başlayır. Sonra isə təcnislər gəlir. Dəftərdə təcnisin bir çox nümunələri verilib. Təcnislərdən biri belə adlanır: "Təcnis dodaqdəyməz, özü də yedəkləmə, əlif əvvəl-axır". Bu, forma etibarilə çox maraqlı, müəmmalı şeirdir. Şeirin qurtaracağında bu sözlər yazılmışdır: "Afərin o adama ki, bu təcnisi oxuyub mənasın bilə, bilməyən qanmaza heyfdir, heyf".

Molla Cümənin əlyazmaları içərisində bayatılar da vardır. Vərəqlərin kənarında ağ yerlərdə həmişə haşiyələrdə yazılan bayatılara burada xüsusi səhifə ayrılmışdır. Onlar aşağıdakı şeir parçası ilə başlayır:

Xuda çatmaz dada Molla Cümə,
Yetməzsən murada Molla Cümə,
Sirrini vermə yada Molla Cümə,
Cəfan gedər bada Molla Cümə.

Sonra isə bayatılar verilmişdir. İlk bayatı belədir:

Əzizim yüzdə donar,
Tellər də yüzdə donar,
Məhəbbət gözdə olar
Görməsə yüz də donar.

Əlyazmasının sonunda digər aşıqların şeirlərindən və məhəbbət dastanlarından nümunələr də vardır. Bunlara Şair, Salah, Yusif, Heydər, Şeyda, Musa, Donu, Rəcəb (Ehraklı), Camal (Qax rayonunun Zəyəm kəndi), Məhəmməd (Varxiyanlı) və digər aşıqların şeirlərini, "Abbas və Gülgəz", "Əsli və Kərəm", "Novruz və Qəndab" dastanlarından mahnıları misal göstərmək olar.

Ekspedisiyaların birində Zaqatalanın Kəpənəkçi kəndinin sakini Aşıq Murtuzəli ilə tanış olduq. Aşıq Murtuzəli Molla Cüməni görmüş, məclislərində iştirak etmiş, hətta ona bir şeir də ithaf etmişdir. Həmin qoşmanı aşıq Murtuzəli sazın müşayiəti ilə oxudu və bizə təqdim etdi. O, Molla Cümənin çoxlu şeirlərini əzbərdən bilirdi. Aşıq Murtuzəli Molla Cümənin uzun illər qoruyub saxladığı bir əlyazmasını da bizə təqdim etdi. Bu əlyazma yarımçıqdır, bir hissəsi qopub düşmüşdür. Burada qoşma, gəraylı, divani, təcnis, müxəmməs, müxtəlif biçimli şeirlər, bayatılar toplanmışdır, yüzdən artıq şeir vardır. Görünür, əlyazması həcmcə böyük olmuşdur. Səkkiz vərəqi qalmış əlyazmasında şeirlər səliqə ilə, tuşla, xüsusi xətlə köçürülmüşdür. Əvvəlki əlyazmasından fərqli olaraq burada şeir şəkillərinin sırası gözlənilməmişdir. Qoşma daha çoxdur. Əlyazmasının haşiyələrində ağ yerlərdə Molla Cümənin qoşduğu bayatılardan nümunələr də vardır. Əlyazmasına sonralar müxtəlif xətlə aşığın şeirləri yazılmış adi kağızdan ibarət daha 18 səhifə əlavə edilmişdir. Bu şeirlər içərisində Molla Cümənin Aşıq Könül ilə deyişməsi də vardır. Həmin deyişmə əlimizdə olan dörd əlyazmasından yalnız ikisində verilmişdir. Burada aşıq müxtəlif şeir şəkilləri üstündə öz könlü ilə deyişir. Aşıqların dediyinə görə, bu, Molla Cümənin düzəltdiyi maraqlı bir dastandır ki, hələlik ondan 80 bənd şeir parçası qalmışdır.

Molla Cümənin Aşıq Könül ilə deyişməsinin başqa bir variantını ekspedisiya zamanı Balakən rayonunun İtitala kəndində Aşıq Məhəmməd Həsrətovun dilindən yazıya almışıq.

Deyişmənin sonu Molla Cümənin qələbəsilə başa çatır. Hər iki sənətkar bir dost kimi ayrılırlar. Əlbəttə, Molla Cümənin sənətkar dünyasını öyrənmək üçün bu parçaların da nəşrinin mühüm əhəmiyyəti ola bilər.

Molla Cümənin şeirlərini toplamaq üçün getdiyimiz ekspedisiyaların birində Şəkinin Baş Göynük kəndində aşığın qızı Reyhan xanımın qonağı olduq. Üç gün ətraf kəndləri dolaşdıq. Şifahi dildən aşığın çoxlu şeirlərini yazıya aldıq. Reyhan xanımla söhbətdən aydın oldu ki, evində atasının bir neçə əlyazması olmuşdur. O, hətta xatırlayır ki, 1930-cu illərin əvvəllərində məşhur Azərbaycan folklor toplayanı Hümmət Əlizadə bir neçə gün onlarda oturmuş, əlyazmaları üzərində işləmiş, lazım olan şeirləri yazıb aparmışdır. Dönə-dönə tapşırmışdı ki, əlyazmalarını qoruyub saxlasınlar. Reyhan xanımın dediyinə görə, Böyük Vətən müharibəsi ərəfəsində Şəkidə vəzifədə olan şəxslərdən biri onlara gəlmiş, əlyazmasını tələb etmiş və zorla alıb aparmışlar. Aşığın qızı belə bir əlyazması da təqdim etdi. Ancaq o, orijinal deyildir, adi mürəkkəblə ümumi dəftərə səliqə ilə köçürülmüşdür. 122 səhifədədir. Bizə görə dəftər təxminən 1940-1950-ci illərdə yazılmışdır. Əlyazmasının 19-cu səhifəsində oxuyuruq: “Bu dəftər yazıldı 1333-cü ildə. Katibi Molla Cümə ibn Salah. Mərhum Aşağı Layısqi.

1333-cü ili hicri miladi tarixə çevirdikdə 1914-cü il alınır. Görünür, həmin dəftər əsasında bir neçə variant meydana gəlmişdir. Belə ki, əlyazmasının üzünü köçürənlər, onda aşıq tərəfindən qoyulan tarixi də yazıb saxlamışlar. Reyhan xanımın bizə verdiyi dəftər də aşığın öz xətti ilə yazdığı həmin əlyazmasının üzündən köçürülmüş variantdır. Ancaq orijinalı indiyə qədər dəqiqləşdirilməmişdir. Deyilənə görə, bu əlyazması vaxtilə respublika Əlyazmaları İnstitutuna satılmışdır. Ancaq biz onu görməmişik, kim bilir bəlkə o da başqa bir variantıdır.

Əlimizdə olan dördüncü əlyazması Şəkinin Aşağı Göynük kənd orta məktəbinin müəllimi B.Hacıyevin bizə təqdim

etdiyi M.Ə.Sabirin 1914-cü ildə İsa bəy Aşurbəyovun mətbəəsində buraxılan "Hop-hopnamə"sidir. Kitabın bütün səhifələrində ağ yerlərə Molla Cümənin şeirləri yazılmışdır. Bir sıra səhifələrində hətta şeirlərin yazılma tarixi də vardır (1918, 1919 və s.). Müqayisələr göstərir ki, "Hophopnamə"nin səhifələrində olan şeirlər daha dəqiq və kamildir. Bizdə olan bütün əlyazmalarını diqqətlə nəzərdən keçirən mərhum akademik Həmid Araslı da bunu təsdiq etdi. Hacıyevin dediyinə görə, atası Salman Rzaqov (o, 1943-cü ildə vəfat etmişdir), 20 ildən artıq Molla Cümə ilə dostluq etmişdir. S.Rzaqov özünəməxsus olan "Hop-hopnamə"ni o zamanın ziyalılarını, dostlarını başına toplayıb oxuyarmış, Molla Cümə də belə məclislərin daimi qonağı imiş. O, hər dəfə "Hop-hopnamə"yə qulaq asandan sonra öz əlilə kitabın səhifələrindəki ağ yerlərdə şeirlərdən birini yadigar olaraq və həm də minnətdarlıq əlaməti kimi yazırmış.

"Hop-hopnamə"nin səhifələrində ağ yer yoxdur. Molla Cümənin şeirləri Sabir satiralarına qaynayıb qarışmışdır. Ümumiyyətlə, həmin kitabın səhifələrində Molla Cümənin 150-ə yaxın şeirləri vardır. Biz bu əlyazmaları üzərində iş aparmış və aşığın şeirlərini çapa hazırlayarkən onları əsas götürmüşük. Müşahidə göstərir ki, əlimizdə olan dörd əlyazmasında Molla Cümənin əksər əsərləri toplanmışdır. Hazırda aşığın bütün əsərlərininş qeyd və şərhlərlə çapı ümdə vəzifə kimi qarşıda dayanmaqdadır. Bizcə, Molla Cümənin əsərlərinin külliyyatının hazırlanmasında bunların mühüm rolu olacaqdır. Əlyazmalarının səhifələrində aşığın indiyə qədər heç yerdə çap olunmamış xeyli şeirləri də vardır. Onlardan birini oxuculara təqdim edirik.

## QALIBDIR

Ay ağalar, ixtiyarsız dünyadır,
Neçələrin ötgün sözü qalıbdır.
Neçə ululərın, neçə qazının,
Neçə əfəndinin yazı qalıbdır.

Neçələrin bala durmaz yuvada,
Neçələrin əli qalmaz duada,
Neçələri dövran sürür dünyada,
Neçələrin seyri, düzü qalıbdır.

Neçələri xınalayır əlləri,
Neçələri döşə düzür gülləri,
Neçələri nicələyir belləri,
Neçə gözəlalrin nazı qalıbdır.

Neçələri mərhum olur beşində,
Neçələri ölür otuz beşində,
Neçələri gedir doxsan yaşında,
Neçələrin gündə gözü qalıbdır.

Mən Cüməyəm xoş keçinmir zamanım,
Axirətdə qarşı gəlsin imanım,
Beş gün dövr etməyə gəlmir gümanım,
Ol Aşıq Rəcəbin sazı qalıbdır.
1989

## El sənətkarının sorağında

1961-ci ilin oktyabrında Molla Cümənin şeirlərini toplayan ekspedisiyamız Şəkinin Baş Göynük kəndinə gəlmişdi. Ağsaqqallarla, şeir həvəskarları ilə görüş zamanı ədəbiyyat müəllimi Şərif İdrisovu nişan verdilər. Dedilər ki, o, müharibə

illərindən aşığın şeirlərini, haqqında rəvayətləri toplayır. Şərif müəllimlə ətraf kəndləri dolaşdıq. Molla Cümənin bir sıra şeirlərini yığdıq. Bunlar aşığın 1966-cı ildə çıxan kitabına daxil edildi.

Şərif İdrisov uzun illərdir Molla Cümənin müasirləri, yaxın dostları, qohumları, şagirdləri, pərəstişkarları ilə söhbət-lər aparıb çoxlu materiallar əldə etmişdir.

Yaxud "İsmi Pünhan" məsələsini götürək. Molla Cümə öz ilk məhəbbətinin adını ona görə gizlətmişdir ki, o çox varlı, həm də dindar bir şəxsin qızı idi. Ş.İdrisov həmin məsələ ilə bağlı şeirlərdən birisini şifahi dildən tapıb yazıya almışdır.

Unutmaram ismin, eylərəm əzbər,
İki Mim Rey, Yeyin üstündə dilbər.

Son misrada olan hərflərdən Məryəm adı alınır. Bu da, bizcə "ismi pünhan"la əlaqədar olan mübahisələrə Ş.İdrisovun əlavəsidir. O, Molla Cümənin erməni aşığı Donu ilə deyişməsini də şifahi dildən yazıya alıb. Bu deyişmənin Molla Cüməyə aid hissəsi məlum idi. Aşıq Donunun sözlərini isə ilk dəfə Ş.İdrisov yazıya almışdır.

Molla Cümə şeirlərində özünü Layisqili adlandırır. Tədqiqatçılar da aşığı Aşağı Layisqili sayırlar. Ş.İdrisovun axtarışlarından sonra gəldiyi nəticə isə belədir: "Cümə Şəki rayonunun Baş Layisqi kəndinin Qumux hissəsində Həşim Şağa adlanan məhəllədə anadan olmuşdur. Atası Salah kişi Abbaskəndinə (Selbasana) köçmüş, bir müddətdən sonra həmin kəndi sel aparmış, ondan sonra Aşağı Layisqidə məskən salmışdır".

Topladığı materialları Ş.İdrisov indi səliqəyə salıb Bakıya gətirmişdir. Burada Molla Cümənin gəraylı, qoşma, təcnis, divani, deyişmə, ustadnamə, dastan və s. ibarət çoxlu əsərləri toplanmışdır.

Şərif İdrisov 1937-ci ildən doğma kəndi Baş Göynükdə müəllim, tədris hissə müdiri, məktəb direktoru vəzifələrində işləmişdir. Ədəbiyyat, şeir həvəskarıdır, bədii yaradıcılıqla da məşğul olur. Doqquz uşaq atasıdır.

M.F.Axundovun anadan olmasının 150 illiyi münasibətilə yazdığı "Görüş" pyesi 1962-ci ildə Şəki xalq teatrında tamaşaya qoyulmuşdur. Molla Cümənin həyat və yaradıcılığına həsr etdiyi "İsmi Pünhan" pyesini tamamlamışdır. Molla Cümə haqqında "Şəki fəhləsi" qəzetində məqalələr çap eləyib, yeni şeirlərindən nümunələr də vermişdir.

Şərif İdrisov Böyük Vətən müharibəsi iştirakçısıdır. Müharibənin ilk günü cəbhədə olub. Vətən müharibəsi əlili kimi vaxtından beş il əvvəl pensiyaya çıxmış, indi Molla Cümənin həyat və yaradıcılığı üzərində tədqiqat işlərini davam etdirir.

***Paşa Əfəndiyev***
***professor***
***1981***



Aşıq Məhəmməd Həsrətov,
Balakən rayonu İti tala kəndi



Reyhan xanım,
Molla Cümənin qızı



Yunis Təhməzov,
Qax rayonu İlisu kəndi



دور قاچاق اوغلوم باش آیاغ قاندی بو!!

واه! بوایمش درس اصول جدید
یو..ق یو..ق! اوغول مکتب عصیاندی بو
موللا دگل بونده کی تعلیم ایدەن
الحذر ایت بر یکی شیطاندی بو
دور قاچاق اوغلوم باش آیاق قاندی بو...

گور نجه آلت اوست ایلیوب شیلری،
دوندروب (آ)، (با) یه الف بیلری،
بدعنه باق! (با) اوقودیر (بی) لری،
سانکه حروفاتله دوشماندی بو...
دور قاچاق اوغلوم باش آیاق قاندی بو...

دقت ایدوب باقسان اگر درسینه،
هر سوزی تعلیم ایلیور ترسینه،
دگمز او بر پاسلی دمیر أرسینه
مین نه دیسه درج زرافشاندی بو
دور قاچاق اوغلوم باش آیاق قاندی بو...

ویردیکی درسی اوشاغا یازدیریر،
هیجه دیمیر هر عملین آزدیریر،
گاه اوقودیر گاه چیقاروب گزدیریر،
بر دیمیر اولاد مسلماندی بو،
دور قاچاق اوغلوم باش آیاق قاندی بو...

برده گوریرسن که اولوب هیوەرە،

Molla Cümənin şeirləri
"Hophopnamə"-nin səhifələrində

# MOLLA CÜMƏ
(1854-1920)

Klassik Azərbaycan aşıq poeziyasının görkəmli nümayəndələrindən biri də Molla Cümədir. Molla Cümə həyatı, yaradıcılığı, poetik aləmi etibarilə maraqlı bir şəxsiyyət olmuşdur. O, zəngin ədəbi irs qoyub getmişdir. Təəssüf ki, bu irsin öyrənilməsinə gec başlanmış, aşığın yaddaşlarda yaşayan yüzlərlə şeiri itib-batmış, ayrı-ayrı şəxslərdə olan onlarla şeirinin əlyazması bizə gəlib çatmamışdır. Altmışıncı illərdə bir neçə dəfə Şəki, Qax, Zaqatala, Balakən rayonlarının kəndlərini dolaşmış, aşığın şeirlərindən ibarət bir neçə əlyazması əldə etmişik. O zaman aşıqlarla, hətta Molla Cümə dövrünün adamları ilə söhbət aparmış, onların dilindən çoxlu şeirlər, xatirələr yazmışıq. Şəkinin Baş Göynük kəndində Salman Ərəbov, Aşağı Göynükdə Mehralı Həşimov, İdris Mustafayev, Qax rayonunun İlisu kəndində Yunis Təhməzov, Cəmil Həmzəyev, Qaxbaş kəndində Aşıq Rəfi, Zərnədə Zeynalabdin və Əbdülmanaf Əfəndiyev qardaşları, Ləpəpaşa kəndində Şirin Cəlilov, Zaqatalanın Çobankol kəndində Aşıq Kazım, Kəpənəkçi kəndində Murtuzəli, Balakən rayonunun İtitala kəndində Aşıq Məhəmməd (o, Molla Cümənin şagirdi olmuşdur) və başqaları aşığın əksər şeirlərinin əzbərdən söylədilər. Bir zaman Molla Cümənin əsərlərinin toplayıcıları – Şəki şəhər internat məktəbinin dil-ədəbiyyat müəllimi Cahangir Qazıyev, Baş Göynük orta məktəbinin müəllimi Şərif İdrisov, aşığın qız nəvəsi Mövlud Əzizovla da tanış olduq. Bütün bu axtarışların bəhrəsi olaraq 1966-cı ildə aşığın ilk kitabı çap edildi. İyirmi ilə yaxın bir vaxt ərzində apardığımız axtarışların nəticəsi kimi biz yenidən aşığın şeirlərini toplayıb nəşriyyata təqdim etmişik. Bu şeirlərin böyük əksəriyyətini aşığın əlyazmasından götürmüş, bəzilərini isə eldən toplayıb saf-çürük etdikdən sonra kitaba daxil etmişik. Molla Cümə olduqca məhsuldar bir sənətkar olmuşdur. Bəlkə də aşıq poeziyasının elə bir şəkli olmayıb ki,

M.Cümə onda qələmini sınamasın. Bu mənada ustad aşığın əsərləri külliyatının nəşri qarşıda bir vəzifə kimi dayanmaqdadır.

Molla Cümənin yaradıcılığında əsas yeri məhəbbət lirikası tutur. Aşıq şeirlərində insan gözəlliyini böyük səmimiyyətlə vəsf edir. Amma onun ilk və son sevdası İsmi Pünhandır. Diqqət etdikdə İsmi Pünhanın tarixi şəxsiyyət olduğuna inanırsan.

Bəs nə üçün aşıq sevdiyi qızın adını gizlətmişdir? İsmi Pünhan haqqında çoxlu rəvayətlər dolaşmaqdadır. Məsələn, Aşıq Kazımın dediyinə görə, İsmi Pünhan Qax rayonunun Şabalıtlı kəndində Şeyx Baba adlı bir nəfərin qızı olmuşdur. Əksər söyləmələrə görə, İsmi Pünhan varlı və həm də dindar bir yerdəndir. İdris Mustafayev bizə dedi ki, mən Molla Cümənin yaxın yoldaşı və ürək dostu olmuşam. Çəltik əkininə də bir yerdə çıxardıq. İsmi Pünhanın kim olduğunu məndən belə gizli saxladı, andı var idi, sirr açılmamış qaldı. Qax rayonu qocalarından birinin dediyi kimi, el ədəbiyyatında indiyədək gözəlin adı gizli qalmamışdır. Molla Cümənin İsmi Pünhanı isə pünhan qaldı.

Aşığın şeirlərində onlarla gözəl öz adları ilə vəsf olunur. Molla Cümə tərif etdiyi gözəllərin adını bərk ayaqda əbcəd hesabı ilə demiş, yaxud da gözəlin adında olan hərfləri şeirin vəzninə uyğunaşdırıb söyləmişdir. Bir sıra şeirlərində dörd hərfin həsrətilə alışıb yandığını söyləyir. Ancaq bu dörd hərf də müxtəlif şeirlərdə müxtəlif hərflərdir. Bu cəhətdən kitaba düşən bir sıra şeirlər tədqiqatçılara maraqlı material verəcəkdir. Onu da deyək ki, şeirdən şeirə keçdikcə İsmi Pünhan ümu-miləşir, ülviləşir, poetikləşir, aşığın bütün yaradıcılığına hakim kəsilir. Molla Cümənin özünün dediyi kimi “İsmi Pünhan üstündədir xeyri-şərim”.

Bir sıra şeirlərdə təsvir olunur ki, İsmi Pünhan Molla Cümə ilə məclis aparır, məşvərətlərdə iştirak edir, dost-mühasib kimi onun dərd və sevinclərinə şərik çıxır. Şeirlərin birində

göstərilir ki, İsmi Pünhan səfərə yollanır, başqa bir şeirdə əlində alma, heyva xəstə uşağı yoluxmağa gəlir, özü də "çeşmi ala"dır, "çinar boylu"dur, "xasiyyəti yumşaq"dır. Başqa bir şeirdə o, vəfasız yardır, bir başqa şeirdə isə "turab-altda" yatır və s.

Aşıq əksər şeirlərində dünyaya İsmi Pünhanın gözüylə baxmışdır. Xalq dastanlarında, ustad aşıqlarımızın yaradıcılığında hər bir qəhrəmanın yeganə bir idealı var, bu ideal onların ömrünün məğzi, mənasıdır. Bəziləri bu ideala qovuşur, bəziləri isə qovuşa bilmir. "Əsli və Kərəm" dastanından danışarkən N.Nərimanov deyirdi: "Həqiqi, təmiz məhəbbət müqəddəs bir hissdir. Onu pul ilə almaq, pula satmaq olmaz. Bu hiss şan-şöhrətdən, tac və taxtdan əl çəkdirir. Bu hiss padşahı gədadan ayırmaz. Həqiqi, təmiz məhəbbət, məzhəb, din bilməz və çirkin fikirlər bəsləməz... Məşuqun, məbudun vüsalına çatıb sonra ölmək ancaq həqiqi, təmiz məhəbbətin nişanəsidir. Məbud idealdır. Həqiqi, təmiz məhəbbət sahibi məbuduna, məşuquna çatarsa, ideala çatan kimidir. İdeala çatarsa, ideal ideallığından çıxar...

Kərəm başında qara, çirkin fikirlər bəsləsə idi, Əsli ilə yaşamaq istərdi, fəqət yaşamadı, öldü... və ölməyinə də səbəb Əslinin min cövr və cəfadan sonra tapılmağı və sonra Kərəmə verilməyi oldu. Baxınız, nə nazik bir mətləb! Nə gözəl və dərin bir fəlsəfə! Nə qədər təmiz və müqəddəs bir əqidə..."[11]

Molla Cümə ömrü boyu belə təmiz və müqəddəs ideala can atmışdır. O, məhəbbətə də belə toxunulmaz və ülvi bir hiss kimi baxmışdır.

Aşağı Göynükdə aşığın həyatını və şeirlərini yaxşı bilən Mehralı Həşimovun söylədiyi kimi Molla Cümənin əksər şeirləri "qarğışdan" ibarətdir. Gəlin, biz bunu şikayət mənasında başa düşək. Dövranın ağır qanunları altında əzilən aşıq dünyadan şikayətlənmiş, çox zaman isə yaşadığı dövrü lənətləmişdir. Bu mənada onun dünya, aləm, yaranış haqqında əsərləri

---

[11] N.Nərimanov. "Seçilmiş əsərləri". "Elm" nəşriyyatı, 1973, səh.393.

xüsusi bir əhəmiyyət kəsb edir. Aşığın dünyagörüşünü öyrənmək üçün bu şeirlərin geniş təhlilə ehtiyacı vardır.

Kəndləri dolaşdıqca, dünyagörmüş qocalarla, şeir-sənət həvəskarları ilə söhbət etdikcə bu qənaətə gəlirsən ki, Molla Cümə el üçün yalnız zövqlər oxşayan, insanlara sevinc bəxş edən sənətkar olmayıb, üstəlik xalq onun şeirlərindən dünya, zaman, həyat, yaşamaq məsələlərinə dair bir çox suallara cavab tapmışdır.

Bu kitabın tərtibinə başladığımız zaman Şərif İdrisov öz materialları ilə bizə müraciət etdi. Onun topladığı şeirləri də diqqətlə nəzərdən keçirdik. Şifahi dildən yazıya alınan şeirlərin demək olar ki, əksəriyyəti bizdə olan əlyazmalarında var: özü də daha tamdır. Onun şifahi dildən topladığı şeirlər qüsurludur. Ona görə də kitaba daxil etmək mümkün olmadı. Ş.İdrisov Molla Cümənin şagirdi aşıq Hacıbalanın arxivindən əlyazmaları əldə etmişdir. Həmin əlyazmasında olan bir sıra şeirləri kitaba daxil etməyi lazım bildik.

Bizcə, gələcəkdə Molla Cümənin şeirləri yalnız əlyazmalarından, özü də müxtəlif nüsxələr arasında müqayisələr aparmaq yolu ilə çap edilməlidir. Qeyd edək ki, Molla Cümənin xalqın yaddaşında yaşayan, əlyazmalarına düşməyən şeirləri az deyildir. Elə buna görə də oxuculara təqdim olunan bu kitabda da təbii ki, müəyyən kəm-kəsir, qüsur olacaqdır.

Molla Cümə şeirlərinin hələ yaddaşda qalan, dildə-ağızda gəzən nümunələrini toplamaqda bizə kömək edəcək oxucularımıza irəlicədən minnətdarlığımızı bildiririk.

1983

## Molla Cümənin ölümü haqqında həqiqət
### *(Anadan olmasının 135 illiyi münasibətilə)*

Ömrünün sonlarında Molla Cümə əldə olan bütün şeirlərini səliqə ilə bir dəftərə köçürüb oğlu Həsənə yadigar ver-

mişdir. Bu münasibətlə yenicə yazdığı müxəmməsini o, belə başlayırdı:

Min üç yüz otuz iki,
Tarixdədir indi sənə,
Altmışa çatmış yaşım,
Sevda səndə durur yenə...

Həmin hicri tarix miladiyə çevriləndə 1914-cü il alınır.

Deməli, bu zaman Molla Cümənin yaşı altmışa çatıbmış. Ona görə də aşığın özünün dediyi tarixə əsaslanaraq onun 1854-cü ildə anadan olduğunu qəbul edə bilərik. Ölüm tarixi isə 1920-ci ildir. İndiyə qədər biz yazmışıq ki, Molla Cümə 1920-ci ildə vəfat etmişdir. Əslində isə Molla Cümə öz əcəli ilə ölməyib, onu öldürmüşlər, özü də vəhşicəsinə öldürmüşlər. Aşığın ölümü də indiyə qədər bir sirr olaraq qalmaqdadır. Çox təəssüf ki, bu barədə heç nə yazılmamışdır.

Əlbəttə, biz onun şeirlərini toplamaq üçün ekspedisiyaya gedərkən bu məsələ barədə də maraqlandıq və çoxlu rəvayətlər eşitdik. Onlardan bəzilərini burada misal gətirmək istəyirik. Hələ uşaq vaxtı mən eşitmişdim ki, Molla Cüməni öz həyətlərində öldürüblər. O zaman həyətə soxulan kənar adamlar özbaşınalıq etmiş, aşıq gəlib işə qarışmış, azğınlaşmış şəxslər isə onu öldürmüşlər. Təxminən belə bir rəvayəti biz Qax rayonunun Zərnə kəndində aşığın yaradıcılığının gözəl bilicisi olan Əbdülmənaf Əfəndiyevdən də eşitdik. "Arvadı və qızı çörək bişirirmişlər, şübhəli adamlar gəlib həyətə doluşur, qarışıqlıq salırlar. Bu zaman aşıq yaxınlaşır, dözə bilmir, acıqlanır, o zaman onu doğrayırlar". Qaxda yaşı yüzü addamış Aşıq Məhəmməd: "Molla Cümə üç nəfər yoldaşı ilə gedirlərmiş, çiynində sazı olub, tüfəng bilib vurub öldürüblər. Öldürənlər isə soldat paltarında şübhəli adamlar idi, tanımayıblar, səhvən öldürüblər". Məsələ burasındadır ki, aşıq 1920-ci ilin may ayında öldürülmüşdür. Bu zaman Şəki-Zaqatala

zonasında Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə aparılan bir dövrdür. Bəzi rəvayətçilər aşığın məhz belə bir qarışıq zamanda öldürüldüyünü söyləyirlər.

1961-ci ildə Şəkidə ekspedisiyada olarkən internat məktəbinin dil və ədəbiyyat müəllimi Cahangir Qazıyevlə tanış olduq. O, bir neçə il idi ki, aşığın şeirlərini toplamaqla, tərcüme-yi-halını öyrənməklə məşğul idi. C.Qazıyev o zaman "Şəki fəhləsi" qəzetində Molla Cümə haqqında dərc etdirdiyi bir məqaləsini lütflə bizə təqdim etdi. Məqalədə Molla Cümənin ölümü haqqında aşağıdakı sözlər yazılmışdı: "1920-ci ilin may ayının əvvəllərində XI Qızıl Ordunun hissələri Şəkidən Zaqatalaya doğru gedərkən bu yolun ətrafındakı kəndlərin varlıları orduya müqavimət göstərmək fikrinə düşürlər. Burada atışma başlayır. Bir çox yoxsul kəndli ilə orduya qarşı mübarizə aparanların arasında qalır. Molla Cümə də yoxsulların yanında idi. Bu vaxt ona güllə dəyir.

Şəkinin Baş Göynük kəndindən olan, sənəti etibarı ilə feldşer Yaqub Əkbərov doğma dayısı Mahmud müəllimin hekayəsini olduğu kimi bizə nəql elədi. Mahmud o zaman Aşağı Layisqidə müəllimlik edirmiş. Şəki-Zaqatala tərəfdə qarışıqlıq düşən vaxtı, yəni Sovet hakimiyyətinin qurulmasına qarşı Zaqataladan olan Hafiz Əfəndiyevin düzəltdiyi əksinqilabi qiyam zamanı məhz burada – Aşağı Layisqidə qaçhaqaç düşür. (Aşağı Göynük, Aşağı Layisqi Şəki ilə Qaxın arasındakı yolun üstündəki kəndlərdir). Çünki XI Qızıl Ordunun əsgərləri ilə qiyamçılar arasında atışma olur. Camaat dağlara çəkilir. Bu zaman Mahmud müəllim də qaçırmış, özü də atnan qaçırmış. O danışır ki, atnan gedirdim. Bir də gördüm ki, Molla Cümə çiynində də saz yol ilə çox sakitcə yeriyir. Nə qədər təkid etdim ki, gəl, min ata, qaçaq, razı olmadı, cavab verdi ki, mən aşıq babayam, mənə heç kim heç nə eləməz, heç bir yerə qaçmaram, qonşu kəndə gedirəm. Mən atla uzaqlaşandan sonra güllə səsi eşitdim. Məncə bu güllə Molla Cüməyə dəydi. Hər halda bu rəvayətdə müəyyən həqiqət ünsürü olsa da, xalq arasında tez-tez təkrar

olunan danışıqdır. Çoxlu rəvayətlər təxminən bu məzmuna gəlib çıxır.

Molla Cümənin qızı Reyhan xanım atasının ölümü haqqında belə danışır: əvvələn, atam nə özü kənddən çıxıb, nə də ailəsini heç yerə qaçmağa qoymamışdır. O zaman Aşağı Layisqi kəndinin əksər camaatı dağlara qaçmışdı. Ancaq Molla Cümə ailəsi ilə birlikdə kənddə qalıb. Onda elə bir qənaət olub ki, sənətkar adamdır, ona heç kim heç nə eləməz. O biri tərəfdən gələnlərin, - XI Qızıl Ordunun kim olduğunu Molla Cümə çox yaxşı bilirdi. Ona görə də kənddən çıxmayıb, onların yolunu gözləmişdir...

Şəkinin Aşağı Layısqi kəndində yaşı yüzə çatmış İdris Mustafayev (o, Molla Cümənin uşaqlıqdan dostu olmuşdur) söyləyir ki, doğrudan da əksinqilabçıların qiyamı kəndə, camaata çox zərər vurdu. Bu atışma zamanı səhvən çox adamlara güllə dəydi. Onlar ya yaralandı, yaxud da öldülər. Atışma gedən kəndlərdə sonra çoxlu ölü yığılıb basdırıldı. İ.Mustafayev davam edir: təxminən may ayının axırları idi, ara nisbətən sakitləşmişdi, adamlar yerbəyer edildi. Bir də yolun kənarında olan kolluqdan nəsə ağır bir qoxu hiss edilir, camaat şübhələnir, gedib baxırlar, bir neçə insan cəsədi tapırlar. Molla Cümə də onların arasındadır. İdris dayı göstərir ki, Molla Cüməni yolun alt tərəfində şəxsən mən özüm bax bu əllərimlə basdırmışam. Özü də üzü aşağı yatdırılmışdı. Bir necə yerdən qılınc yarası vurulmuşdur, sifəti tanınmaz olmuşdu, aşığı yalnız paltarlarından tanıdıq. İdris Mustafayev davam edir ki, kəndin bu mötəbər adamlarını aparan və məhv edən o zaman müxtəlif yollarla hətta orduya belə soxulan, özü də əslən Şəkinin Səbətli kəndindən olan millətçilər idilər. Onlar Molla Cüməni tək aparmağa ehtiyat etmiş, çünki bu, müəyyən şübhə doğura bilərdi, bir çox işlərin üstünü açardı, həm də xalq buna qətiyyən icazə verməzdi. Ona görə də kəndin ən hörmətli adamlarından - qocalardan bir neçəsini seçmiş və aldadıb aşıqla birlikdə aparıb tələf etmişlər. Beləliklə, 1920-ci ilin may ayının

axırlarında Molla Cümə vəhşicəsinə öldürülmüş, qəbri də Aşağı Layisqidə yolun kənarındadır.

Həqiqət budur ki, Cümə öldürülmüşdür, bunu hamı təsdiq edir. Ancaq bəzilərinin dediyi kimi, aşıq səhvənmi öldürülüb, öldürəndən sonramı onun Molla Cümə olduğunu biliblər. Bu məsələ ilə əlaqədar biz bəzi digər mülahizə və müşahidələrimizi demək istəyirik.

Əvvəlan, Molla Cümə həddindən artıq həssas, narahat bir şəxs olub, ədalətsizliyə, zülmə, özbaşınalığa heç vəchlə dözə bilməmişdir. Xüsusilə, gözləri ilə gördüyü, şahidi olduğu haqsızlıqlara o, yerindəcə cavab verirdi. Bu cəhəti biz onun həcvlərində açıqcasına görməkdəyik. Axundlar, əfəndilər, mollalar acgözlük edirsə, min cür yalan və fırıldaqla xalqı soyursa adları və ya ləqəblərilə Molla Cümə şeirinə düşürdülər. Aşığın "Molla", "Əfəndi", "Hacılar", "Olacaq" və sair rədifli çoxlu şeirləri bu cəhətdən xüsusilə diqqəti cəlb edir. Zəmanənin ən varlı adamlarından olan Qıpcaqlı Hacı Kərim, Şəkili Cavad ağa, Axsaq Laçın, Almalı İsa dəllək, Səid və başqalarının özbaşınalığı, yoxsullara həqarəti, zülmü, ikiüzlülüyü, yalan və xəsisliyi həcvlərdə birbaşa üzlərinə deyilmişdir. Əlavə edək ki, Molla Cümə bütün yaradıcılığı boyu həcvlər yazmışdır. Qocaların, ağsaqqalların söylədiyinə görə xalqı aldadıb soyan, incidən, təhqir edən varlıların, din nümayəndələrinin aşığı görməyə gözləri yox idi. Əlbəttə, bu şəxslər Molla Cümədən intiqam almaq, ona mənəvi zərbələr vurmaq, aşığı yer üzündən silmək üçün fürsət axtarırdılar.

İkinci bir tərəfdən Molla Cümə öz müasirləri olan Ələsgər, Hüseyn Bozalqanlı, Çoban Əfqan, Xəyyat Mirzə, daha sonra Aşıq Bilal, aşıq Əsəd, aşıq Mirzə dünyagörüşlü sənətkar idi. O, yaşadığı dövrdən şikayətlənir, bəzən varlıları, qoluzorluları ədalətə, yaxşılığa, səxavətə, alicənablığa çağırır, bir sözlə yoxsulları müdafiə edirdi. Xüsusilə son dövr şeirlərində ədalətli, sərbəst, xoşbəxt bir zamanın gələcəyinə böyük ümidlər bəsləyirdi. Nəhayət, 1917-ci ildə Böyük Oktyabrın qələbəsi və

onun sədalarının Azərbaycana gəlib çatması aşığın yeni, azad, ədalətli bir həyata olan inamını birə on qat artırdı. Sevincini mahnılarla elə car eləməyə başladı. Bu cəhəti biz yalnız Molla Cümənin yaradıcılığında deyil, o zaman bir sıra Azərbaycan aşıqlarının da yaradıcılığında görürük. 1918-ci ildə Gəncədə gənc Aşıq Məhəmməd Qəhrəman oğlu "Gəlirmi" rədifli bir mahnı qoşub oxudu və beləliklə bir çox Azərbaycan aşıqlarının və xalqın intizarını bəyan etmiş oldu. Mahnı qadağan olundu, aşıq həbs edildi. Bu mahnıda belə bir misralar var idi: "Böyük Lenin bu dünyanın rəhbəri", "Qoca Şərqin Nərimanı gəlirmi" və s. Tovuzdan Xəyyat Mirzə, Ağstafadan Mirzə Səməd, məşhur şair və partiya işçisi İsmayıl Katib həmin rədifdə mahnılarla Aşıq Məhəmmədin səsinə səs verdilər. Bu zaman Şəkidən isə Molla Cümənin səsi ümumi ansambla qoşuldu. Aşığın nəvəsi Mövlud Əzizov 1961-ci ildə bizə babasının bir şeirini təqdim etdi. Birinci bənd belə idi:

> Ay cammat, gəlin sizə söyləyim,
> Azadlıqdan xoş bir səda eşitdim.
> Bəylərin torpağı gedir əlindən,
> Azadlıqdan xoş bir səda eşitdim.

Şeir 1968-ci ildə "Xalqın səsi" toplusunda çap olunmuşdur. Yenə 1961-ci ildə Qax rayonunun Ləkit kəndində olarkən təqaüdçü Məcid Əhmədov Molla Cümənin "Bolşevik" rədifli bir şeirini bizə oxudu:

> Başına döndüyüm qəriblər şahı,
> Miskin üçün göndəribsən, bolşevik.
> Füqarayə çox mərhəmət edibsən,
> Dərdimizə dava qılan bolşevik...

Şeir 1977-ci ildə "Azərbaycan" jurnalının 11-ci nömrəsində çap olunmuşdur.

Deməli, Molla Cümə Oktyabra qədər varlıları, müftəxorları, fırıldaqçı dindarları kəskin həcv edir, dünyadan şikayət-

lənir. Oktyabrdan sonra isə həmyerlilərinə inqilab haqqında eşitdiklərini sazında çalıb-oxuyurdu. Bütün bunlardan sonra qızı Reyhanın, dostu İdris Mustafayevin "Molla Cümə qarışıqlıq vaxtı kənddən çıxmadı, ailəsini də çıxarmadı. Mən aşıq babayam, mənə heç kim heç nə eləməz" sözlərinin mənası və əhəmiyyəti bizə aydınlaşmış olur. Ancaq belə bir zamanda azğın düşmənlər, qaragüruhçular fürsəti əldən verməmişlər. Beləliklə, həqiqət üzə çıxır. Ruhanilər, varlılar, qaragüruhçular, inqilab düşmənləri, millətçilər zamanın keşməkeşliyindən, qarışıqlığından istifadə edərək aşıqdan öz intiqamını almış və onu məhv etmişlər, onu qılınc ilə doğrayıb, üzü aşağı yolun kənarındakı meşənin içinə atmışlar.

***1989.***

## Molla Cümənin gözəlləri

XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində yaşayıb yaradan görkəmli Azərbaycan aşıqlarından biri də Molla Cümədir. Şəxsiyyəti, estetik aləmi etibarilə maraqlı həyat yolu keçmiş bu sənətkar bizə zəngin ədəbi irs qoyub getmişdir. Molla Cümə yaradıcılığının mövzu dairəsi geniş olmuşdur.

Bütün ömrü boyu əkinçiliklə məşğul olan Molla Cümə qış aylarında Şəki, Qax, Zaqatala, Balakən rayonlarını, Dağıstanın kəndlərini dolaşır, məclislər aparır, öz sevincini elin sevinc və kədərinə qatırdı.

Molla Cümə gözəllik, məhəbbət nəğməkarıdır, onun yaradıclığının əsas hissəsi məhəbbət lirikasıdır. Kəndlərdə, eldə, obada elin bəzəyi olan, xalqımızın ən yaxşı keyfiyyətlərini özlərində təcəssüm etdirən el qızlarını Molla Cümə fəxrlə vəsf edirdi. Gözəllər Molla Cümənin sazına-sözünə düşməsilə fəxr edirdilər. Əksər şeirlərini aşıq kəndlərdə şəxsən gördüyü, rast gəldiyi gözəllərə həsr etmişdir. Məsələn, Xana-

badda Məryəm, Qımırbazarda Firdovs, Əmbərçayda Güllü, Çobankolda Nigar, İlisuda Şirincan...

1960-cı illərdə aşığın şeirlərini toplamaq məqsədilə Qax rayonunda olarkən yaşı yüzü addamış Aşıq Məhəmmədlə görüşdük.

O, Molla Cümənin müasiri olmuş, məclislərində iştirak etmişdir, onun şeirlərini əzbərdən bilirdi. O, dedi ki, Molla Cümə tez-tez aşağıdakı bayatını çağırmağı sevirdi:

İlisuda olaydım,
Şüşələrə dolaydım.
İlisu qızlarının
Nişanlısı olaydım.

Molla Cümənin ən çox təriflədiyi gözəllərdən biri Nigardır. Nigar gözəl, ürəyi açıq, qonaqpərvər idi. Saza, sənətə, el aşıqlarına böyük hörməti olmuşdur. Çobankola gələndə Molla Cümə bu ailənin qonağı olarmış. Molla Cümə bir neçə mahnısında Nigarı xatırlamış və nəhayət ona üç şeir həsr eləmişdir. Şeirlərin birincisi beş bənddən ibarət müxəmməsdir. Burada Nigar elimizin ən ulu, müqəddəs, ad-sanını özündə yaşadan bənzərsiz bir gözəl kimi təriflənir.

Hər dəfə Zaqatalaya yolu düşəndə Molla Cümə bu ailəyə baş çəkərdi. Yenə bir gün Nigarı, onun anası Ayşaxatını yoluxmaq üçün onlara gəlir. Bu zaman Ayşaxatın pəncərədən görür ki, Molla Cümə həyət qapısını açıb içəri girir. Özünü saxlaya bilmir, dizlərinə döyə-döyə, başının tükünü yola-yola aşığın qabağına yüyürür. Molla Cümə o saat işin nə yerdə olduğunu bilir. Ayşaxatına ürək-dirək verir, elə bu anda ikinci bir şeir Molla Cümənin başında dolanır. "Tək düşmüşdün Çobankola ay Nigar" deyən aşıq vaxtsız dünyadan köçmüş bu el qızına ağı oxuyur:

Ərə getdin, yaman dərdə tuş oldun,
Boylanmadan sağa-sola, ay Nigar.

Ər evində Nigarın qısa ömrü xoş keçməmişdir.

Gəlin oldun, hərgiz yetmədin başa,
Dağ düyünüm qoydun dosta-sirdaşa.
Anan Ayşaxatın dönüb bayquşa
Ağlar, deyər: aman bala, ay Nigar.

Molla Cümə həyatla vaxtsız vidalaşan bu el gözəlinin faciəsini üzün illər unuda bilməmişdir. Nəhayət, bizə məlum olan üçüncü şeirində yenə Nigarı xatırlamışdır. "Ay ağalar gəldi, düşdü yadıma:" "Viran qaldı gözəl bağı Nigarın" sonra:

Molla Cümə ağlar, eylər ahu-zar
Getməz sinəsindən dağı Nigarın.

Balakən rayonunun İtitala kəndində Aşıq Məhəmməd Həsrətov dedi ki, Molla Cümə bu üçüncü şeiri Nigarın qəbri üstündə demişdir.

Elin qız-gəlinləri saysız-hesabsızdır, biri-digərindən gözəldir. Hər bir gözəllə rastlaşanda aşığa elə gəlir ki, daha ondan gözəli yoxdur.

Molla Cümənin elin dərdini və sevincini bölüşdüyü, elin gözəllərini elə car elədiyi "sazının qotazını da üç gözəl, üç mehriban asıbdır".

Kəhrəbası, göz muncuğu olanı,
Zeynəb adlı bir növcavan asıbdı.
Yaşıl muncuq üstə olan qotazı,
Xumar gözlü o Tükəzban asıbdı.
Ta ölüncə sazda saxla yadigar
Canım alan Bədircahan asıbdı.

El gözəlləri Molla Cümənin dadlı, duzlu məclisini həsrətlə gözləyirmişlər. Çünki aşıq gözəllik və gənclik nəğməkarı

olmuşdur. Bir dəfə Zaqatalanın kəndlərindən birində aşıqlar məclisi olur. Qızlar küləfirəngiyə toplaşıb mübahisə edirlər. Molla Cümə bu məclisə gəlib, ya gəlməyib? Onların bu narahatlığını evin içərisində aşığın qulağı çalır. Elə bu zaman gözəllərdən ən cəsarətlisi yoxlamaq üçün bir anlığa qapını açıb baxır, gözləri Molla Cümənin gözlərinə sataşır, sevinir, qapını örtüb rəfiqələrini muştuluqlayır. "Gəlib-gəlmədiyini bildi qayıtdı" misrası ilə bitən mahnı ordaca dünyaya gəlir və məclisdə oxunur. Məclis qızışandan sonra Molla Cümə bir anlığa gözü çaldığı gözəlin yadda qalan xarici görünüşünü də mahnıya salır.

Qızılgül tək açılıb
Qarşımıza çıxıbsan.
Kirpiklərin ox edib
Bağrımıza çaxıbsan.
Qola qolbax sarıyıb
Ələ xına yaxıbsan.
Şümşad qələm barmağa
Gümüş üzük taxıbsan.
Minə kəmər bağlayıb
İncə belin sıxıbsan...

El sənətkarının gözəllərə həsr etdiyi mahnılarından gül-çiçək, bənövşə qoxusu gəlir, baharın təravəti duyulur. Molla Cümə el içərisində ağıllı, kamallı, vəfalı, sədaqətli, gül çöhrəli gözəllər gördükdə ilhama gəlmişdir.

Şəninə tərif dediyi gözəllərin aşıq həm də xarici görünüşünü təsvir edir. El qızlarına zinət verən, onları daha da gözəlləşdirən geyimini də öz tərifinə əlavə edir.

Başında kalağayı
Baftası ləçək bacına.
Saçları güləbatın

Teli quyrum çək bacına.
Qabağı ayna kimi
Yanağı çiçək bacına.
Him vurub qaş oynadan
Sığalı birçək bacına.

Molla Cümə el gözəllərini üzü, qaşı, xalından başlayaraq əyninə geydiyi bütün paltarları və bər-bəzəyi ilə birlikdə çox ustalıqla öz şeirlərinə salır. Bizə belə gəlir ki, bu şeirlər əsasında bütün hərtərəfliliyi ilə, yəni zahiri və mənəvi məziyyətlərilə Azərbaycan gözəlinin portretini çəkmək olar.

Güləbətin zülflərini
Qulaq dibində burursan.
Şahmar kimi birçəklərin
Yaraşmış yanağa Məryəm.

Yaxud:

Belində gümüş kəmər
Yaxasında düyməsi xub.
Ayağında kişmir tuman
Taftalı yun geyməsi xub.

İnsanın hər şeyi gözəl olmalıdır tezisini də Molla Cümə şeirlərində təsdiqləyirdi.

Molla Cümə el qız və gəlinlərini xarici görünüşüncə gözəl və mənəviyyatca isə təmiz istəyirdi. Aşıq şirin dilliliyi gözəllərin ən ümdə keyfiyyətlərindən biri kimi tərifləyirdi.

Şəhdi şəkər bal sayaq
Danış şirin dilli yar.

Hətta xarici gözəlliyi, səliqəli, al-əlvan geyimlərini təsvir edəndə də Molla Cümə gözəlin xoş rəftarını, şirin dilini, necə deyərlər, tərbiyəsini yaddan çıxarmırdı.

Mən səndəki xoş qılığı
Hər insanda görməmişəm...

Ümumiyyətlə, xalq ədəbiyyatımızda, xüsusilə dastanlarımızda xalq belə bir ideyanı müdafiə edir ki, əsl, düzünə, səmimi, ülvi məhəbbət dünyada hər şeydən qiymətlidir, onu heç nə əvəz edə bilməz.

Qara at nalı neylər,
Qara qaş xalı neylər.
Sən kimi yarı olan
Dövləti, malı neylər.

Molla Cümə də öz lirik şeirlərində bu ənənəvi xalq idealını çalıb-çağırmışdır.

Aşıq eşqində sadiqdir. O, yer üzündə bircə vəfalı həmdəm istəyir və ömür, gününü də sona qədər onunla keçirmək arzusunda yaşayır. Belə keyfiyyətlər Molla Cümə yaradıcılığını el içərisində yaymış, özü isə ən görkəmli sənətkar kimi sevilmişdir.

Səndən ayrı ömür sürüb neylərəm
Molla Cümə istər ölsün səninlə.

Molla Cümə yaradıcılığında sevinclə kədər qoşa təsvir olunmuşdur. Bir də həyatın özü axı, belə qurulmuşdur. Molla Cümə dünyadan köçəndə də el gözəllərinin ona yas tutub ağlamasını arzulayırdı. Aşığın "Ağlasın" rədifli qoşması bunu sübut edir.

Ay ağalar, mən tək qərib öləndə,
Səs düşsün ölkəyə ellər ağlasın.

Ömrünün sonlarında ah və fəğan edən, özünü bu dünyada qərib və tənha sayan aşıq ömrü boyu gözəlliyini, eşq və səadətini tərənnüm etdiyi gözəlləri yasına çağırır və bunda müəyyən mənada təsəlli tapırdı.

Anam yox, bacım yox etsin ah-fəğan,
Yasım tutsun Almalıda Tükəzban.
Şotavarda Leyli, Marsanda Reyhan
Tasmalıda o Güllüzar ağlasın.

Adı çəkilən kəndlərin hamısı Qax rayonundadır. Elə buradaca kiçik bir ibrətamiz **haşiyə:** Bu əhvalatı bizə Marsanda ağsaqqallar (Rauf Əfəndiyev adlı) nəql etdilər. Molla Cümənin qız nəvəsi Mövlud Əzizov Şəki ikiillik müəllimlər institutunu qurtarıb, Qax rayonunun Marsan kəndinə müəllim təyin olunub. Orada Reyhan adlı bir gözələ könül verib, evlənib Şəkiyə, ata yurduna aparmışdır. Kim bilir, Mövlud müəllimin butası bəlkə də babasının tərif etdiyi Reyhanın nəvəsidir. “Ağlasın” qoşmasının son bəndini də oxuculara çatdıraq:

Cüməyə yas tutsun Güllükdə Fətmət,
Muxaqda Asiyət, Talada Həlmət,
Qımırda Gülsənəm, Bazarda Əmnət,
Çobankolda bircə Nigar ağlasın.

Aşıq bu qədər el gözəlinin adını dillərə dastan eləmişdir. Ancaq öz sevgilisinin adını çəkməmişdir. İsmi Pünhan (adı gizli) adlandırmışdır.

Qax rayonunda olduğumuz zaman Molla Cüməni yaxşı tanıyan və şeirlərini əzbərdən bilən dünyagörmüş qocalardan biri dedi ki, el ədəbiyyatı indiyə qədər gözəlin adını

gizlətməmişdir. Molla Cümənin butasının adı isə pünhan olaraq qaldı. Niyə onun adı gizli qalıb, açılmayıb? Bu, ayrıca bir söhbətin mövzusudur.

***1989***

## İsmi Pünhan kimdir

***İsmi Pünhan niyə məndən küsürsən,***
***Dost, mehriban ya bir olar, ya iki.***

İsmi Pünhan görkəmli Azərbaycan aşığı Molla Cümənin əksər şeirlərində çəkilən addır. "İsm – ad, "Pünhan" isə gizli deməkdir. Aşığın şeirlərinin əsas hissəsi İsmi Pünhana müraciətlə başlayır, müəyyən bir hissəsi də İsmi Pünhanla qurtarır. İsmi Pünhan kimdir? Ümumi rəy belədir: Molla Cümə gənc yaşlarında varlı, yaxud dindar bir yerdən olan qıza aşiq olmuş, ancaq qızın adını çəkməyi ona qadağan etmişlər. Ona görə də aşıq sevgilisinin adını gizlətmiş, İsmi Pünhan adlandıraraq ömür boyu şeirlərində vəsf etmişdir. 1960-cı illərdə bir neçə dəfə aşığın şeirlərini toplamaq məqsədilə Şəki, Qax, Zaqatala, Balakən rayonlarında olduq və bu adla maraqlandıq. Çoxlu rəvayətlər eşitdik. Zaqatalanın Çobankol kəndində Aşıq Kazım dedi ki, İsmi Pünhan Qax rayonunun Şabalıtlı kəndində Şeyx Babanın qızı olmuşdur. Bəzi qocaların dediyinə görə, İsmi Pünhan Şəkinin Aşağı Göynük kəndində Hacı İbrahim Əfəndinin qızı imiş, bəzilərinin dediyinə görə isə, İsmi Pünhan Molla Cümənin gənc yaşlarında təhsil aldığı mədrəsə sahibinin qızı olub, hətta əlavə edirlər ki, müəlliminin qızı olub. Qax rayonunda aşığın yaradıcılığına bələd olan qocalardan biri dedi ki, el ədəbiyyatında heç nə gizlədilməyib, ancaq Molla Cümənin İsmi Pünhanı pünhan olaraq qaldı. Aşığın yaradıcılığı ilə məşğul olduqca aydınca meydana çıxır ki, Molla Cümə nə

varlılardan, nə də din nümayəndələrindən qorxub çəkinməmişdir. Onun birbaşa adları – ləqəblərilə varlılara və dindarlara ünvanlanmış həcvləri bunu aydınca göstərməkdədir. Bəs niyə onun sevgilisinin adı indiyə qədər məlum olmamışdır. Bizə belə gəlir ki, Molla Cümə sevgilisinin adını iki səbəbə görə gizlədə bilərdi. Sevimli müəlliminin qızı olduqda, yaxud da evi, mülkü, özü el içərisində ziyarət hesab edilən dindar bir şəxsin qızı olduqda. Ancaq məsələ burasındadır ki, heç kəs İsmi Pünhanın kim olması haqqında dəqiq məlumata malik deyildir. Yəni İsmi Pünhanı bir buta – sevgili – aşiq kimi tarixdə tapmaq mümkün olmamışdır. Şəkinin Aşağı Göynük kəndində yaşı yüzü adlamış İdris Mustafayev dedi ki, mən Molla Cümənin uşaqlıqdan ürək dostu olmuşam, çəltik əkməyə də bir yerdə gedərdik. Bir gün araya salıb ondan soruşdum ki, axı, bu İsmi Pünhan kimdir, bundan nə qədər danışırsan? Molla Cümə cavab verdi ki, andım var, mən bu sirri ölüncə açmayacağam. Qızı Reyhan xanım da İsmi Pünhanın kim olmasını dəqiq deyə bilmədi, bir onu əlavə elədi ki, İsmi Pünhan dünyadan nakam getmişdir. Bütün bunlara biz bir cəhəti də əlavə etmək istəyirik. Azərbaycan aşıq sənətində qədimdən sabitləşən bir ənənə var: hər bir ustad aşığın bir sevgilisi, butası olub. Bizə belə gəlir ki, Molla Cümənin İsmi Pünhanı onun butasıdır və aşıq şeirlərinin əksəriyyətini də həmin butasına - İsmi Pünhana həsr eləmişdir. Qızı Reyhan xanım danışır ki, anamdan eşitmişəm ki, atama buta verilib, özü də bu hadisə evlənəndən sonra olub (Reyhan xanım bu əhvalatı anasından eşitdiyi kimi təfsilatı ilə bizə nəql elədi).

İndi gəlin, İsmi Pünhanla əlaqədar Molla Cümənin yaradıcılığına kiçik bir səyahət edək. Elə buradaca deyək ki, Molla Cümənin şeirlərində öz adları ilə vəsf edilən gözəllərin sayı-hesabı yoxdur. O, sazının qotazını asan, gəzib dolaşdığı yerlərdə rast gəldiyi digər el gözəllərinin hamısını öz adları ilə şeirlərində tərifləyir.

Elə ki, müəyyən səbəblərə görə tərif məqamında gözəllərin birbaşa adını çəkmək mümkün deyil, onda aşıq ya əbcəd hesabı ilə, yaxud da ərəb əlifbasının müxtəlif hərfləri vasitəsilə o gözəlin adını şeirinə salır.

Ceyranın quzusu, adın bilmişəm,
Qafi, zey, yay, teyi, reyə bağlıdır.

İkinci misrada q, z, y, t, r hərfləri düzülüb, bunlar Qızyetər oxunur.

Unutmaram, ismin eylərəm əzbər,
İki mim, rey, yeyin üstündə.

İki m, r, y hərfləri əsasında Məryəm adı alınır.

Yaxud, əbcəd hesabı ilə:
Altmış ilə səkkiz onu
Cəm, eylədim əlliyə mən.
Bu hesab içrə sənin,
İsmini Pünhan demişəm və s.

Birbaşa, İsmi Pünhan sözlərinin yazıldığı şeirlərin də sayı-hesabı yoxdur. Molla Cümə sevgilisinə vurulandan ömrünün sonuna qədər İsmi Pünhana şeirlər qoşmuşdur.

İsmi Pünhan dünyadan köçəndə Molla Cümə ona şeir də həsr eləmişdir.

Qoşmanın ümumi ruhundan aydın olur ki, aşığın butası çox erkən dünyadan köçmüşdür.

İsmi Pünhan əhvalatı onun dünyadan köçməsi ilə qutarmır, əksinə, ayrı bir məcraya düşür. İsmi Pünhan Molla Cümənin bütün yaradıcılığına hakim kəsilir. Şeirlərin birisində "İsmi Pünhan üstündədir xeyri-şərim", deyir. Şəkidə qocalardan biri söylədi ki, İsmi Pünhan elə Molla Cümənin özüdür.

Aşığın əksər şeirlərində İsmi Pünhan sevgili, buta deyil, Molla Cümə ilə müxtəlif münasibətlərdə bulunan şəxsiyyətdir. Məsələn, şeirlərinin birisində aşıq təsvir edir ki, üç insana dünyada onun meyli qonmuşdur: Molla Surxay, Məhəmmədəli və İsmi Pünhan. Molla Surxay Qax rayonunun İlisu kəndin-

dəndir, aşıq ona üç böyük şeir həsr etmişdir, Məhəmmədəli Şəkilidir, aşıq ona böyük bir müxəmməs ithaf eləmişdir. Ancaq burada İsmi Pünhan yenə də pünhan olaraq qalır, onun şəxsiyyəti aydınlaşmır. Şeirlərin birisində oxuyuruq ki, bir gün aşıq İsmi Pünhanın doqqazına gedir, qasid göndərib onu çağırır, onun üççə kəlmə xoş göftarına ehtiyac duyduğunu izhar edir, burada o, İsmi Pünhanı "həkimi-loğman" adlandırır:

Xubluqda əladır, kamalı cəmdir,
O olan məclis də söhbətdir, dəmdir.
Danışmağı hicran, gülmağı qəmdir,
Həsrətindən canım zara gəlibdir.

Başqa bir şeirində təsvir olunur ki, bir dəfə Molla Cümə xəstələnir, İsmi Pünhan onu yoluxmağa gəlir.

Şükür sənin birliyinə yaradan,
İsmi Pünhan məni görmağa gəlmiş.
... Bir heyva cibində, dörd də almaynan,
Cümənin halını sormağa gəlmiş.

Şeirdən-şeirə keçdikcə İsmi Pünhan aşıqdan uzaqlaşır, yadlaşır. Artıq İsmi Pünhan əlçatmaz bir varlığa çevrilir, indi Molla Cümə yalnız ona çatmaq üçün ah-aman edir, hətta İsmi Pünhan bir sevgili, aşiq olmaqdan çıxır, ümumiləşir və beləliklə də, aşığın həyatda çatmaq istədiyi, ömrü boyu can atdığı, ancaq yetə bilmədiyi həyat idealına çevrilir.

Belə şeirlərdə İsmi Pünhan buta deyil, əlçatmaz, ünyetməz idealdır, Məcnunun, Fərhadın, Kərəmin yetə bilmədiyi bir ideal.

***1990***

## MOLLA CÜMƏNİ KİM ÖLDÜRÜB

Molla Cümə haqqında lap uşaq yaşlarında eşitmişdim, hətta bəzi şeirlərini də əzbərləmişdim. Sonra atamın kitabxanasında Hümmət Əlizadənin hələ 1935-ci ildə çap etdirdiyi "Aşıqlar" kitabına rast gəldim. Orada aşığın şeirlərini gördüm, onları təkrar-təkrar oxumağı sevirdim. İş elə gətirdi ki, sonralar xalqın mənəvi sərvətinin toplayıcısı və araşdırıcısı oldum. 1961-ci ildə kafedra müdiri, akademik Feyzulla Qasımzadə məndən həmin il üçün elmi-tədqiqat işi mövzusu istədi. Molla Cümə yaradıcılığı ilə məşğul olmaq arzumu ona bildirdim. Alim arzumu bəyəndi və əlavə etdi ki, Molla Cümə çox maraqlı bir şəxsiyyət və görkəmli sənətkar olub (F.Qasımzadə XIX əsr ədəbiyyatına aid dərslik və monoqrafiyasında Molla Cümə haqqında yazmışdı), əvvəlcə onun şeirlərini toplamaq və ondan sonra tədqiq etmək lazımdır. Nəhayət, 1961-ci ilin oktyabrın əvvəllərində pedaqoji institutumuzun direktoru Mehdixan Vəkilovun sərəncamı ilə bir aylığa Şəki, Qax, Zaqatala və Balakən rayonlarına fərdi ekspedisiyaya yollandım. Oraları gəzdim, gəzdim və nə gördüm... bu yerlərin dağı, daşı, ağacları da Molla Cümədən danışırdı. Şifahi dildən bir neçə bloknot şeir yazıya aldım, çoxlu xatirələr topladım və nəhayət Molla Cümənin zəngin ədəbi irsini əhatə edən üç əlyazması ilə qayıtdım. İnstitutun böyük elmi şurasında hesabat verdim, ekspedisiyanın nəticələri elmi-tədqiqat işlərinin yekunlarına həsr edilən konfransın tezislər kitabında çap olundu. Bir müddətdən sonra məni gəlib iş yerindən radiokomitəyə apardılar, gördüyüm işlər barədə qısa məlumat istədilər. Əvvəlcə Zeynəb xanım Molla Cümənin "Ya bir olar, ya iki" şeirinə bəstələndiyi mahnını məlahətli səslə oxudu və sonra mən apardığım işlər və aşığın yaradıcılığı haqqında danışdım. Molla Cümənin şəxsiyyətinə, yaradıcılığına maraq artdı. Bir neçə gündən sonra İmam Mustafayev məni yanına çağırdı. O zaman onun rəhbərlik elədiyi Genetika və Seleksiya İnstitutu Filarmoniyanın yanında

idi. Getdim, görüşdük. İmam Mustafayev gülümsündü, məni aşığın şeirlərini toplamaqla məşğul olduğumu eşidənmiş, radiodan müxbir də mənim ardımca onun xahişi ilə gələnmiş, gördüyüm işlərdən razı qaldı. Molla Cümənin bir neçə şeirini əzbərdən söylədi və mənim həmin nümunələri əldə edə bilib-bilmədiyimi xəbər aldı. O, əlavə etdi ki, bilirsənmi, Molla Cüməni daşnaklar öldürüblər, bu barədə maraqlanıbsanmı, məlumat əldə edibsənmi? Dedim ki, yalnız aşığın faciəvi ölümünü bilirəm. Ancaq bu haqda məlumatım hələlik çox azdır. Əlavə etdim ki, aşığın vətəninə ikinci ekspedisiyam da planlaşıb, bu dəfə həmin məsələ ilə xüsusilə məşğul olaram. Doğrudan da mən 1961-62-ci illərdə bu barədə çox eşitdim, çoxlu rəvayətlər yazdım, qruplaşdırdım, müəyyən nəticələrə gəldim. Əksər şəxslər aşığın doğrudan da ermənilər tərəfindən öldürüldüyünü təsdiq etdilər. Ancaq elə bir əlyazması, yəni yazılı mənbə tapa bilməmişdim. Bu yaxınlarda 33 il əlimin altında olan əlyazmalarından birindən aşığın ölümü haqqında qeydləri görüb sevindim və məni heyrət bürüdü. Bir cəhət inkar olunmaz idi ki, Molla Cümə 1920-ci ildə XI Qızıl Ordunun Şəkiyə, Zaqatalaya hücumu zamanı qətlə yetirilib, özü də çox faciəvi surətdə. Bu ölümü heç kəs görməyib, elə ona görə də müxtəlif rəvayətlər meydana gəlmişdir. İndi bütün apardığım işləri ümumiləşdirib həmin məsələ barəsində oxuculara məlumat vermək istəyirəm.

Molla Cümənin ölümü haqqında olan şifahi məlumatları üç qrupa ayırmaq olar. Birincisi odur ki, Molla Cüməni adı ilə öldürüblər. O zaman, yəni XI Qızıl Ordunun gəlişi zamanı mollaları yığıb harasa aparıblar və onlar bir daha geri qayıtmayıblar, yəni gizlicə məhv eləmişlər. Molla Cümə də onların arasında olub. İkinci variant odur ki, Molla Cümə atışma zamanı kəndlilərin arasında olub, bir çoxları kimi, ona da güllə dəymişdir. Ən əsası və xüsusilə çoxlarının təsdiq etdiyi versiya odur ki, aşığı XI Qızıl Ordu gələrkən əsgər paltarına girmiş ermənilər-daşnaklar öldürmüşlər.

Mən ekspedisiya zamanı topladığım rəvayətlərdən bəziləri ilə oxucuları tanış etmək istəyirəm. Hələ uşaq yaşlarında eşitmişdim ki, Molla Cüməni öz həyətlərində əsgərlər öldürüb; təxminən buna oxşar bir rəvayəti bizə Qax rayonunun Zərnə kəndində aşığın yaradıcılığının gözəl bilicisi olan Əbdülmənaf Əfəndiyev söylədi: "Arvadı çörək bişirirmiş, balaca qızı da yanında imiş, yad adamlar gəlib həyətə doluşmuş, qəsdən qarışıqlıq salmışlar. Bu zaman aşıq dözə bilməmiş, yaxınlaşıb işə qarışmış, o zaman azğınlaşmış düşmənlər onu doğramışlar".

Qaxın mərkəzində milliyətcə ləzgi olan, yaşı yüzü addamış Aşıq Məhəmmədin dediklərini dilindən çıxdığı şəkildə veririk: "Molla Cümə üç nəfər yoldaşı ilə gedirmiş, aşığın çiynində sazı olub, tüfəng bilib vurub öldürüblər. Öldürənlər isə saldat paltarı geymiş ermənilər olub".

1961-ci ildə Şəkidə ekspedisiyada olarkən internat məktəbinin dil və ədəbiyyat müəllimi Cahangir Qazıyevlə tanış olduq. O, bir neçə il idi ki, aşığın şeirlərini toplamaqla, tərcümeyi-halını öyrənməklə məşğul idi. C.Qazıyev o zaman "Şəki fəhləsi" qəzetində Molla Cümə haqqında dərc etdirdiyi bir məqaləsini lütflə bizə təqdim etdi. Məqalədə Molla Cümənin ölümü haqqında aşağıdakı sözlər yazılmışdı: "1920-ci ilin may ayının əvvəlllərində XI Qızıl Ordunun hissələri Şəkidən Zaqatalaya doğru gedərkən bu yolun ətrafındakı kəndlərin varlıları orduya müqavimət göstərmək fikrinə düşürlər. Burada atışma başlayır. Bir çox yoxsul kəndli ordu ilə orduya qarşı mübarizə aparanların arasında qalır. Molla Cümə də yoxsulların yanında idi. Bu vaxtı ona güllə dəyir".

Şəkinin Baş Göynük kəndindən olan, sənəti etibarı ilə feldşer Yaqub Əkbərov doğma dayısı Mahmud müəllimin hekayətini olduğu kimi nəql elədi. Mahmud o zaman Aşağı Layisqidə müəllimlik edirmiş. Şəki, Zaqatala tərəfdə qarışıqlıq düşən vaxtı, yəni Sovet hakimiyyətinin qurulmasına qarşı Zaqataladan olan Hafiz Əfəndinin düzəltdiyi müqavimət və mübarizə zamanı məhz burada, Aşağı Layisqidə qaçhaqaç düşür

(Aşağı Göynük, Aşağı Layisqi Şəki ilə Qaxın arasındakı yolun üstündəki kəndlərdir.). Çünki XI Qızıl Ordunun əsgərləri ilə Hafiz Əfəndinin adamaları arasında atışma olur. Camaat dağlara çəkilir. Bu zaman Mahmud müəllim də qaçırmış, özü də atnan qaçırmış. O danışır ki, atnan gedirdim. Bir də gördüm ki, Molla Cümə çiynində də saz yol ilə çox sakitcə yeriyir. Nə qədər təkid etdim, gəl min ata qaçaq, razı olmadı, cavab verdi ki, mən aşıq babayam, mənə heç kim heç nə eləməz, heç bir yerə qaçmıram, qonşu kəndə gedirəm. Mən atla uzaqlaşandan sonra güllə səsi eşitdim. Məncə bu güllə Molla Cüməyə dəydi. Hər halda bu rəvayətlərdə müəyyən həqiqət olsa da, xalq arasında tez-tez təkrar olunana danışıqlardır. Çoxlu rəvayətlər təxminən bu məzmuna gəlib çıxır.

Molla Cümənin qızı Reyhan xanım atasının ölümü haqqında belə danışır: "Əvvələn atam nə özü kənddən çıxıb, nə də ailəsini heç yerə qaçmağa qoymamışdır. O zaman Aşağı Layisqi kəndinin əksər camaatı dağlara qaçmışdı. Ancaq Molla Cümə ailəsilə birlikdə kənddə qalıb. Onda elə bir qənaət olub ki, sənətkar adamdır ona heç kim heç nə eləməz".

Qızı Reyhanın yadında qaldığına görə, axşam çağı kəndin bir neçə hörmətli adamı ilə birlikdə Molla Cüməni də evindən aparıblar. Ondan sonra aşıqdan bir xəbər çıxmamışdır. Bir neçə gündən sonra meşədən meyidi tapılmışdır. Reyhan xanım dəqiq bilmir ki, atasını çağırıb aparan adamlar kim olub, onu qəsdənmi öldürüblər, yoxsa səhvən, birdən qarışıqlığamı düşüb, atışma zamanı ona güllə dəyib və s.

Molla Cümənin uşaqlıq dostu Şəkinin Aşağı Layisqi kəndində yaşı yüzə çatmış İdris Mustafayev söyləyir ki, doru-dan da Ordunun hücumu kəndə, camaata çox zərər vurdu. Bu atışma zamanı səhvən çox adamlara güllə dəydi. Onlar ya yaralandı, yaxud da öldülər. Atışma gedən kəndlərdən sonra çoxlu ölü yığılıb basdırıldı. İ.Mustafayev davam edir: "Təxminən may ayının axırları idi, nisbətən ara sakitləşmişdi. Araba ilə oradan keçənlər yolun kənarında olan kolluqdan nəsə ağır bir

qoxu hiss edirlər, şübhələnirlər, kəndə səs düşür, gedib baxırlar, bir neçə insan cənazəsi tapırlar. Onlar bir-birinin üstünə qalaqlanıb. Molla Cümə də onların arasındadır". İdris dayı göstərir ki, Molla Cüməni yolun alt tərəfində şəxsən mən özüm bax bu əllərimlə basdırmışam. Özü də üzü aşağı yatdırılmışdı. Bir neçə yerdən qılınc yarası vurulmuşdu, sifəti tanınmaz olmuşdu, aşığı yalnız paltarlarından tanıdıq. İdris Mustafayev davam edir ki, kəndin bu mötəbər adamlarını aparan və məhv edən o zaman müxtəli yollarla, hətta orduya belə soxulan, özü də əslən Şəkinin Səbətli kəndindən olan ermənilər idilər. Onlar Molla Cüməni tək aparmağa ehtiyat etmiş, çünki bu müəyyən şübhə doğura bilərdi, bir çox işlərin üstünü açardı, həm də xalq buna qətiyyən icazə verməzdi. Ona görə də kəndin ən hörmətli adamlarından-qocalardan bir neçəsini seçmiş və aldadıb aşıqla birlikdə aparıb tələf etmişlər. Beləliklə, 1920-ci ilin may ayında Mola Cümə vəhşicəsinə öldürülmüş, qəbri də Aşağı Layisqidə yolun kənarındadır.

Şəkidə Molla Cümənin qızı Reyhan xanımın bağışladığı əlyazmasında bu barədə aşağıdakı sözlər yazılmışdır: "1920-ci ildə bolşeviklər Nuxaya gəldiyi vaxt Nuxa, Zaqatala arasında hərbi gedişat sürətlənirdi. Şuranın gəldiyi bütün ətrafa, kəndlərə yayılır və bütün camaat, əhali qaçmağa başlayır. Bu xəbəri eşidən Aşağı Layisqi kəndindən dəxi olanlar başlayır. Molla Cüməyə bu xəbər çatınca heç yerə tərpənməyir; "getməyin, bu hökumət ancaq biz kəndlilərindir" deyə hərəkət göstərməyir və öz qonşularını da qaçmağa qoymayır. Bundan bir az qabaq erməni-müsəlman ziddiyyəti olduğu da məlum idi. Odur ki, həmin Aşağı Layisqi kəndinə gəlmiş Qırmız Ordu arasındakı ermənilər kənddə dayanmış Molla Cüməni, təxminən səkkizə qədər qaçmamış olan qonşularını tutub kənddən üç verst uzaqda öldürürlər ki, Molla Cümə də gözlənilmədən ağır bir ölümə məhkum olmuşdur". Gətirilən iqtibasda bir sözü oxuya bilmədik, əlyazmasında demək olar ki, pozulub, bütün səylərimiz bir nəticə vermədi, yerinə nöqtələr qoyduq. Bu söz bizcə addır,

özü də yer adıdır, yəni həmin ermənilərin mənsub olduğu yerin-kəndin adıdır, bir az da dəqiq desək, bizcə Şəkinin ermənilər yaşayan kəndlərindən birinin adıdır. Qızı Reyhan xanımın dilindən atasının ölümü haqqında məlumatı biz 1962-ci ildə almışıq, əlyazmasından isə bir neçə ay bundan əvvəl tapmışıq. Diqqət edilərsə o qədər rəvayətlər içərisində ən çox bir-birinə yaxın olan və Reyhan xanımla əlyazmasında qalmış məlumatdır. Nəhayət, əlyazmasının "bundan bir az qabaq erməni-müsəlman ziddiyyəti olduğu da məlum idi" ifadəsinə diqqət yetirək. Aydındır ki, Molla Cümə kəndin bir neçə hörmətli adamı ilə bu ziddiyyətin qurbanı olmuşdur. Əsgər paltarına girmiş ermənilər belə bir fürsətdən istifadə edərək intiqam almış, çoxdan izlədikləri görkəmli sənətkarı qətlə yetirmişlər.

***1993-cü il***

## BÖYÜK SƏNƏTKARIMIZA ƏBƏDİ HEYKƏL UCALDAQ

*Şəki Şəhər İcra hakimiyyətinin başçısı Nəzir Əhmədov, Azərbaycan Yazıçılar Birliyi Şəki Şəhər Filialının sədri Teymur Xəlilov, Azərbaycan Respublikası Elmlər Akademiyası Şəki etnoqrafiya qrupunun rəhbəri Hacı Sabir Əfəndi, "Şəkinin səsi" və "İpəkçi" qəzetlərinin baş redaktoru, respublikanın əməkdar jurnalisti Salis Məmmədov cənablarına*

Hörmətli həmyerlilərim!

Ömrümün 35 ilinin böyük aşığımız, ölməz sənətkarımız Molla Cümənin yaradıcılığına həsr etmişəm. 1961-62-ci illərdə iki il Şəki, Qax, Zaqatala, Balakən rayon və kəndlərini qarış-qarış gəzmişəm, aşığın saysız-hesabsız şeirlərini şifahi dildən toplamışam. Mola Cümənin dord əlyazmasını əldə etmişəm,

şeirlərindən ibarət iki kitabını (1966, 1983) və aşığın həyatı və sənəti haqqında 20-dən çox məqalə nəşr etdirmişəm.

Mən belə hesab edirəm ki, aşığın demək olar ki, bütün əsərləri əlimdə olan əlyazmalarındandır. Bütün illər ərzində dörd müxtəlif xətlə yazılmış (ərəb əlifbası ilə) əlyazmaları üzərində iş aparmışam. Bəzi şeirlərinin oxunmasına 1-2 ay vaxt sərf etmişəm. Nəhayət, 35 illik zəhmətim başa yetişmişdir: Molla Cümənin bütün əsərlərini oxuyub başa çatdırmış, lüğət tərtib etmiş, mifoloji surətlərin mənalarını açmışam, otuz müəllif vərəqi həcmində kitabı hazırlamışam. Böyük zəhmət, əziyyətlər, maddi və mənəvi çətinlikləri dəf edərək kitabı mətbəədə yığdırmışam. O zamandan iki ilə qədər vaxt keçmişdir. İndi mən heç nə eləmək iqtidarında deyiləm, kağızın olmaması bəhanəsilə kitab-mənim otuz beş illik zəhmətim məhv olmaq qorxusu qarşısındadır. Hər yerdən əlim üzülüb, üzümü Sizə tuturam, gəlin fikirləşək: nə yolla biz bu kitabı Şəki camaatına çatdıra bilərik. Mən təmənnasız olaraq əlyazmamı da şəkililərə hədiyyə verə bilərdim.

Molla Cümənin (qoca yaşlarında vəhşicəsinə qətlə yetirilmiş bu böyük insanın) külliyyatı hər bir şəkilinin evini bəzəməlidir. Mən Sizə, Şəkinin bütün imkanlı adamlarına, xeyriyyəçilərinə, ümumiyyətlə bütün Şəki camaatına müraciət edirəm. Kağız əldə eləmək üçün vəsaiti nə yolla əldə edə bilərik? Gəlin, birlikdə bu kitabı məhv olmaqdan xilas edək, bu kitabın capı ilə şəkililər elə bil şəhərin mərkəzində öz böyük sənətkarlarına əbədi heykəl ucaltmış olacaqlar.

Salis, əzizim, Sizə qardaş deyim, bala deyim, fikirləşin, məsləhətləşin-bu işi biz nə yolla başa çatdıra bilərik. Sizə zəhmət olmasa, mənim bu yazımı qəzetinizin səhifələrində çap edib bütün Şəki camaatına çatdırın. Mən Sizə böyük ümidlər bəsləyirəm. Mən xəstəyəm, şəhərdən çıxa bilmirəm, yoxsa gəlib Sizinlə görüşərəm.

Əvvəlcədən Sizə öz minnətdarlığımı bildirirəm.

Hörmətlə:

*Paşa Əfəndiyev,*
*N.Tusi adına Azərbaycan Dövlət*
*Pedaqoji Universiteti Azərbaycan*
*ədəbiyyatı tarixi kafedrasının müdiri,*
*filologiya elmləri doktoru, professor.*
*Ev ünvanım və telefonum: Bakı şəhəri,*
*Nizami küçəsi 98, mənzil 43.*
*Telefon: 98-07-73.*
***1995***

## MOLLA CÜMƏ
## *(1854-1920)*

Mən hələ uşaq yaşlarında Molla Cümə haqqında çox eşitmişdim. Yadımdadır, axşamlar tonqal qalayıb onun ətrafına toplaşar, müxtəlif kitablar oxuyar, nağıl danışardıq. «Koroğlu» dastanı, «Nizami əsərlərinin el variantları» kitablarını oxumaqdan doymazdıq. Yoldaşlarımız arasında hətta saz salmağı bacaran da var idi. Kiçik bir sazı dınqıldada-dınqıldada o oxuyardı:

*Mən necə şad olum sən ağlayanda,*
*Ay miskin maralım, sən ağlayanda.*
*Ay bülbül sədalım, sən ağlayanda…*

Tale elə gətirdi ki, pedaqoji institutun dil və ədəbiyyat fakültəsinə daxil oldum, qurtaranda aspiranturada saxlandım və…

…Xalqımızın mənəvi sərvətinin – folklorunun arayıb axtarıcısı oldum. Molla Cümə, onun sənətkar taleyi, onun haqqında kənddə eşitdiyim rəvayətlər və nəhayət, bu böyük saz ustadının yaradıcılığı zaman-zaman məni düşündürürdü. Vaxtilə H.Əlizadənin onun bir sıra şeirlərini çap etdirdiyini bilirdim. Molla Cümə aşıq sənətimiz tarixində ən az öyrənilən

aşıqlardan idi. 1960-cı il. Kafedramızın müdiri akademik Feyzulla Qasımzadə məni yanına çağırtdırıb gələn ilin elmi işi üçün bir mövzu verməyi tapşırdı. Molla Cümə yaradıcılığı ilə məşğul olmaq istəyimi professora bildirdim.

F.Qasımzadə Molla Cüməyə bələd idi. XIX əsr Azərbaycan ədəbiyyatını tədqiq edəndə onun da əsərlərinə rast gəlmişdi. O, mənim arzumu bəyəndi və əlavə etdi ki, çox maraqlı bir şəxsiyyətdir, ancaq əvvəlcə onun əsərlərini toplayıb üzə çıxarıb sonra tədqiq etmək lazımdır.

1961-ci ilin oktyabrında aşığın şeirlərini toplamaq məqsədilə ilk fərdi ekspedisiyaya getməli oldum. İşə əvvəlcə Qax rayonunun İlisu kəndindən başladım. Yunis Təhməzovu nişan verdilər. Yunis dayı çox həvəslə Molla Cümədən söhbətlər etdi və aşığın əsərlərindən ibarət böyük bir əlyazmasını lütflə mənə bağışladı. Beləliklə, İlisudan başlanan yol məni Qaxa, Zaqatalaya, oradan Balakənə və qayıdan baş aşığın vətəni – Şəkiyə gətirib çıxardı.

Bir ayın müddətində kəndləri dolaşdım… Nə gördüm… Bu yerlərin torpağı, daşı da Molla Cümədən danışırdı. Şifahi dildən aşığın çoxlu şeirlərini yazıya aldım. Qocalarla, ağsaqqallarla, aşıq şeiri həvəskarları ilə və nəhayət aşıqlarla görüşüb söhbətlər apardım. Xatirələr yazdım.

İkinci dəfə fərdi ekspedisiyada oldum, bəzi məsələləri dəqiqləşdirdim, yenə şifahi dildən şeirlər yazıya aldım. Hazırda əlimdə aşığın şifahi dildən yazıya aldığım şeirlərindən ibarət ona qədər bloknot vardır. Əsas nəticə bu oldu ki, Molla Cümənin şeirlərindən ibarət dörd əlyazması ilə geri qayıtdım.

Bizcə Molla Cümənin elmi tərcümeyi-halını yazmaq çox çətindir. Bu, yalnız Molla Cüməyə deyil, bütün ustad aşıqlarımıza aiddir. Ustadlarımızın həyatı haqqında ən səhih mənbə onların şeir və dastanlarıdır. Biz bu kitabda Molla Cümənin həyat və fəaliyyətilə bağlı əldə etdiyimiz çoxlu xatirə və məlumatların müəyyən bir qismini verməyi lazım bilirik. Bunları 60-cı illərdə fərli ekspedisiyalar zamanı toplamışıq və

o zaman topladığımız şəkildə də kitabın qeydlər və izahlar bəhsində verməyi lazım bildik.

Molla Cümənin anadan olma tarixi indiyə qədər təxmini qeyd edilmişdir. S.Mümtaz, H.Əlizadə, H.Araslı, F.Qasımzadə bu barədə zaman-zaman yazmışlar.

Əsrimizin əvvəllərində aşıq əldə olan bütün şeirlərini bir yerə yığıb səliqə ilə köçürmüş və oğlu Həsənə yadigar vermişdir. Bunu sənətkarın aşağıdakı müxəmməsindən aydın görmək olar:

*Min üç yüz otuz iki*
*Tarixdədir indi sənə.*
*Altmışa çatmış yaşım,*
*Sevda sərdə durur yenə.*
*Pozulub bürcü-bədən*
*Üstdən gedir gündən-günə.*
*Tapşırır Molla Cümə*
*Oğul, sənə dönə-dönə,*
*Sidqnən yaxşı tutub*
*Göz yetir dəftərə, Həsən.*
*Yazdığım bu dəftəri*
*Saxla yadigara, Həsən.*

Şeirdən aydın olur ki, Molla Cümə hicri tarixilə 1332-ci ildə, miladi tarixi ilə 1914-cü ildə 60 yaşına çatıbmış. Demək, ulu söz ustadı 1854-cü ildə doğulmuşdur. Savadlı, bilikli olduğu üçün ona Molla demişlər. Vaqifə, Vidadiyə deyildiyi kimi. Qax rayonunda aşıq Məhəmməd bizə danışdı ki, Molla Cümə «Mən» rədifli qoşma – vücudnaməsini tərəkəmə aşıqları ilə mübahisə zamanı bədahətən söyləyib. Bu şeirdən Molla Cümənin özü, yaşadığı yeri, ailəsi haqqında səhih məlumat ala bilirik:

*Aşıq anasıyam, şairlər kökü,*
*Gəzərəm dünyada divanə təki,*
*Mahalım Göynükdür, şəhərim Şəki,*
*Layisqi kəndinin binasıyam mən.*

*Binəm Layisqiyə düşübdür mehman,*
*Pədərim Salahdır, madərim Reyhan.*
*Vələdim Həsəndir, əxim Süleyman,*
*Familim Molla Oruc, ədnasıyam mən.*

Aşığın şeirlərindən onun mükəmməl mədrəsə təhsili alması, ərəb, fars dillərini dərindən bilməsi aydın görünməkdədir:

*Aşnayam, gedərəm doğru yolunan,*
*Bülbüləm söhbətim olur gülünən,*
*Danışsalar yetmiş iki dilinən,*
*Ol qədər arifəm, qanasıyam mən.*

*Oxuram, ustaddan almışam dərsi,*
*Oxumuşam ərəb, türkinən farsi,*
*Fikrim seyr edər, ərşinən kürsü,*
*Dərin kitabların mənasıyam mən.*

Molla Cümə 1920-ci ilin may-iyun aylarında vəhşicəsinə öldürülmüşdür. O, Şəkinin ətrafında olan Qax, Zaqatala, Balakən rayonlarını, bu yerlərdə olan kəndləri dolaşmış, məclislərdə çalıb oxumuş, gördüyü gözəllərin şəninə gözəlləmələr qoşmuşdur.

Deyildiyinə görə, Molla Cümə əsasən əkinçiliklə məşğul olmuşdur. Çox zaman o, taxıl məhsulunun yetişdiyi dövrdə ətraf rayon və kəndlərə getmiş, varlıların zəmisində biçinçiliklə məşğul olmuş, ondan aldığı zəhmət haqqı ilə güzəranını keçirmişdir. Qızı Reyhanın dediyinə görə ölüncə onun əlindən oraq düşməmişdir. Sonralar ehtimal ki, onun kiçik sahədən ibarət torpağı olmuş, buranı özü, öz arvadı ilə birlikdə əkib becərmişdir. Aşığın gəlib bizə çatan «Arvad» və «Sərçələr» adlı iki şeiri fikrimizə əyani sübutdur.

«Sərçələr» şeirində deyilir:

*Fəqir dostum cəfa çəkib əkibdir,*
*Kərim dostum toxumunu tökübdür,*

*Nə zülmünən alağını çəkibdir,*
*Ayaqyalın Reyhan qarı, sərçələr!*

Molla Cümənin «Ay arvad» rədifli şeirinə nəzər salaq. Şeir aşığın dilindən arvadına müraciətlə söylənmişdir:

*Ağyazlıda taxılımız zay ola,*
*İndən belə kəsəyənlər bay ola,*
*İnanmıram çəltikdən də pay ola...*

«Üç ildir ki, yarımçıqdır xanamız» – deyən aşıq evini tikib qurtarmağa imkanı olmadığından, güzəranının ağır keçməsindən şikayətlənir:

*Soruşursan neçə-neçə halım var,*
*Ev tikəsi nə ustaya pulum var,*
*Quyruğu yox, dişləri yox kəlim var,*
*Nagah ölsə evim yıxdı, ay arvad.*

Ulu söz sərrafı həmin şeirin başqa bir bəndində o zaman qoyulan ağır vergilərdən təngə gəldiyini bildirir:

*Məşədilərin üstümüzdə borcu var,*
*Saldat pulu, bir də Mirzə xərci var,*
*İki koxa, otuz manat töycü var,*
*Az deyirəm, hələ çoxdu, ay arvad.*

Aşığın arvadına müraciətlə söylədiyi bu şeir, şübhəsiz, o zaman ehtiyac içərisində yaşayan ümumi xalqın dərdi idi. Molla Cümə çar məmurları və yerli zülmkarlardan yaxa qurtarmaq üçün arvadına xitab etməklə xüsusi bir priyom işlətmiş, məsələyə sadəcə evə, ailəyə məxsus bir don geydirmişdir. Ancaq diqqət etdikdə aşığın etirazının xalqın şikayətilə birləşdiyinin şahidi oluruq:

*Mən Cüməyəm, bir murada irmədim,*
*Ha ki, cəfa çəkdim səfa sürmədim,*
*Bu dünyada yaxşı bir gün görmədim,*
*Haqqın dərgahında bədbəxt qul oldum.*

O, əzabların və xoşbəxtliyin səbəbini dünyada, zəmanədə, hətta fələkdə görür. Ona görə də şeirlərində bəzən zəmanədən, fələkdən şikayətlənir:

*Çoxlarına tər bənövşə iylədir,*
*Çoxlarını gecə-gündüz göynədir,*
*Çoxlarını dırnaq üstə oynadır,*
*Çoxlarına tanbur çalan dünyadır.*

*...Molla Cümə, sənin kimi aşığı,*
*Kəmənd ilə çəkən dara dünyadır.*

Səciyyəvidir, klassik aşıq yaradıcılığında kama yetməzlik, butasına, sevgilisinə qovuşa bilməmək böyük bir dərd kimi təsvir olunur. Bu dərd böyüyür, məhəbbət sərhədlərini keçərək elin, xalqın ümumi dərdi kimi ictimai bir rəng alır. Ustadların dərdləri, kədərləri bu yolla elin dərdinə qovuşur, onunla birləşir və o zaman daha böyük ictimai məzmun alır.

*Ey cahan içrə olan*
*Ömrü-günü qara Cümə.*
*Möhnətin, hicrin əlindən*
*Düşübsən avara Cümə.*

*Xalq ara sirlərini*
*Etməyən aşkara Cümə,*
*Dili şikəst, özü miskin*
*Kimsəsiz, biçara Cümə.*
*Ta ölüncə bu yarın*
*Sevdası sərdə qalacaqmı?*

Molla Cümənin çox kəsərli deyilmiş həcvləri də vardır. Aşıq bunları o zaman ayrı-ayrı bəy, xan, torpaq sahibləri, yaramaz adamların üzünə söyləmişdir. Bu həcvlərdə tiplər, günahkarlar öz adları ilə ifşa olunur. «Hacı Kərimi həcv», «Molla», «Axsaq Laçın», «Dəllək salam», «Səid», «Cavad ağa» və s. şeirləri buna misal göstərmək olar.

Molla Cümənin təcnis və bağlamaları da maraqlıdır. Bağlamalarda aşıq bu və ya digər şəkildə müəmmalı fikirlər söyləyir, dinləyicilərini, rəqibi düşünməyə sövq edir. Bu

cəhətdən onun «Gəlirəm» rədifli bağlaması böyük maraq doğurur.

Görkəmli sənətkarın təcnis növündə yazdığı şeirləri də müxtəlifdir. Bir sıra təcnislərdə bütün misralar eyni hərflə başlayır: «Zəhmətim əşəddir, bülbülüm gülsüz» təcnisinin bütün misraları «z», «Muştuluq sevdiyim, istəkli dostum» təcnisininki isə «m» üstündə qurulmuşdur. «k» üstündə qurulmuş bir təcnisə diqqət edək:

*Kəşf etdik çölləri divana düşdük,*
*Kələyə, qovğaya, divana düşdük,*
*Göstərdin camalın divana düşdük,*
*Kərəm et Cüməyə ya dili göyçək.*

Bütün göstərdiyimiz şeirlərlə yanaşı, Molla Cümə yaradıcılığında əsas yeri məhəbbət lirikası tutur. Aşığın müxəmməs, gəraylı, divani, təcnis və deyişmələrindəki yüksək sənətkarlıq, ülvi məhəbbət hissləri, nəhayətsiz həyat eşqi, canlı və təbii lirik duyğular, əxlaqi-estetik duyumlar kütlələrin zehninə, təfəkkürünə, dünyagörüşünə güclü təsir göstərir, onları daim düşündürür.

Molla Cümə gəncliyindən başlayaraq ustad sənətkarların ədəbi irsini dərindən öyrəndiyi üçün onun yaradıcılığı getdikcə zənginləşmiş və bənzərsiz bir orijinallıq kəsb etmişdir. Belə ki, o, özündən əvvəlki poeziyanın bəzi xüsusiyyətləri ilə bir səsləşən əsərlər yaratmış və onlara oxşatmalar yazmışdır. Ən başlıcası isə ulu ustad özünə qədər deyilməyən fikirləri böyük ustalıqla müxtəlif şəkildə təcəssüm etdirmişdir. Molla Cümə hər şeydən əvvəl gözəllik aşiqidir. Onun «Pəri» rədifli müxəmməsində gözələ xas olan bütün əlamətləri görmək olar:

*Yəqin bil kərəm kanı,*
*Mən yanıram ataşına.*
*Mayılam camalına,*
*Həm gözünə, həm qaşına,*
*Yıxılım ayağına,*
*Durub dolanım başına,*

*Həm sənə qurban olum,*
*Həm də sənin yoldaşına,*
*Yoldaşın pərvazdı gəlin,*
*Xub yerişin qazdı gəlin,*
*Bu necə əndazdı, gəlin,*
*Baxışın şahbazdı, gəlin,*
*Doğmuşsan şəmsü qəmər,*
*Gül didarın yazdı gəlin.*
*Ey bahar yazım,*
*Durna avazım,*
*Əlimdə sazım,*
*Eşit niyazım.*
*Aç qolunu qucaqlaşaq,*
*Demək nə lazım.*
*Oynatsın Molla Cümə,*
*Şamama tək səni pəri.*

Misralardakı axıcılıq, şirinlik, canlı portret gözəlliyi oxucunu vəcdə gətirir. Aşıq bir qitədə dörd dəfə şeirin şəklini dəyişdirir. Eyni qitədə bir hissədən o birisinə elə ustalıqla keçir ki, oxucu onun sənətkarlığına heyran qalır. Hecaların sayı dəyişərkən, bir hissədən o biri hissəyə keçilərkən əlaqə yaradan sözlər işlədilir. Məsələn, birinci səkkiz misranın sonunda gələn «yoldaş» sözü ikinci hissəyə, ikinci altı misranın sonunda rədif kimi işlənən «yaz» sözü ikinci hissəyə keçid vasitəsi kimi işlədilir. Bu cür sənətkarlıq xüsusiyyətlərinə görə aşıqlar Molla Cüməni müxəmməsin atası adlandırmışlar.

Kəndlərdə, eldə, obada, elin bəzəyi, yaraşığı olan el qızlarını Molla Cümə böyük ilhamla vəsf etmişdir. Əliabadda Məryəm, Çobankolda Nigar, Ənbərçayda Güllü, İlisuda Şirincan, Qımırbazarda Firdövs, Marsanda Reyhan, Almalıda Tükəzban, Şotavarda Leyli, Tasmalıda Gülüzar, Güllükdə Fətmət, Talada Həlmət və başqaları Molla Cümənin şeirlərində vəsf olunmaları ilə fəxr edirlər.

El-obanın tərcümanı olan sevimli sənətkar hər yetən gözəli tərifləməzdi. Onun vəsf etdiyi gözəllər sazın-sözün, sənətin qədrini bilən ləyaqətli, vəfalı el qızları idi. Aşıq Zaqatalanın Çobankol kəndindən olan nəcib keyfiyyətləri ilə başqalarından seçilən gözəllər gözəli Nigara üç şeir həsr etmişdir:

*Kəhrəbası, göz muncuğu olanı,*
*Zeynəb adlı bir növcavan asıbdı,*
*Yaşıl muncuq üstdə olan qotazı,*
*Xumar gözlü o Tükəzban asıbdı.*
*Ta ölüncə sazda saxla yadigar*
*Canım alan Bədircahan asıbdı.*

El sənətkarının gözəllərə həsr etdiyi mahnılardan gül-çiçək, bənövşə qoxusu gəlir, baharın təravəti duyulur. Aşığın gözəlləmələrində el qızlarının orijinal portretləri sözlə böyük ustalıqla rəsm edilmişdir:

*İncə belli, şümşad əlli,*
*Fəsih dilli, şirin sözlü,*
*Orta boylu, gözəl xoylu,*
*Əmbər boylu, qəmər üzlü,*
*İncə dişli, şux baxışlı*
*Qəmər qaşlı, maral gözlü...*

Ümumiyyətlə, xalq ədəbiyyatımızda, xüsusilə dastanlarımızda xalq belə bir ideyanı müdafiə edir ki, əsl, səmimi, ülvi məhəbbət dünyada hər şeydən qiymətlidir. Onu heç nə əvəz edə bilməz. Qoca dünyanın mehrabını eşq sayan xalqın əsrlər boyu mənəvi-bədii sərvətimizdə qoruyub yaşatdığı bu bəşəri, ənənəvi motiv ustad aşıqlarımız tərəfindən də el məclislərində, sazın müşayiətilə təbliğ və tərənnüm edilmişdir.

*Mal-dövlət özgəyə, bircə sən mənə,*
*Xudadan qismətim ol, ağrın alım.*

Yaxud:

*Bir para axmaq adam,*
*Bu dünyada mal cəm eylər.*

*Sənin təki yarı olan*
*Bu dünyada qəm nə eylər.*

Aşıq eşqində sadiqdir. O, ayrılıqda keçən ömrü bihudə sayır. Çünki onu yaşadan, onun həyatına rövnəq verən İsmi-Pünhan eşqidir:

*Səndən ayrı ömür sürüb neylərəm,*
*Molla Cümə istər ölsün səninlə.*

İsmi Pünhan kimdir? İsmi Pünhan həm Molla Cümənin tərcümeyi-halının, həm də, ümumiyyətlə, yaradıcılığının öyrənilməsində mühüm rol oynayan problemlərdən biridir. İsmi Pünhanın adı Molla Cümənin əksər şeirlərində çəkilir, külli miqdarda şeirlər isə məhz İsmi Pünhanla başlayır. Qax rayonunun Ləkit kənd sakini, Molla Cümə yaradıcılığına yaxından bələd olan Əzəddin Əsgərov deyir: «Xalq ədəbiyyatında gizli şey olmamışdır. Ancaq İsmi Pünhanın mənası açılmamış qalmışdır. İsmi Pünhan adı gizli deməkdir. Molla Cümənin şeirlərində birbaşa öz adları ilə tərif edilən gözəlləri çoxdur. Bəs nə üçün aşıq öz sevgilisinin adını gizlətmişdir? Bu barədə müxtəlif rəvayətlər var, onların əksəriyyəti əsasən bir ümumi qütbdə birləşir: Molla Cümə varlı, yaxud dindar bir yerdən qıza aşiq olmuş, ancaq şeirlərində onun əsl adını çəkə bilməmişdir. Hətta bəzən bu «varlı», «dindar» sözləri dəqiqləşdirilir. Zaqatala rayonunun Çobankol kəndində aşıq Kazımın dediyinə görə, İsmi Pünhan Qax rayonunun Şabalıtlı kəndində Şeyx baba adlı bir dindarın qızı olmuşdur. O, Molla Cümənin butasıdır».

Hətta Şəkidə qocalardan biri demişdir: «İsmi Pünhan elə Molla Cümənin özüdür». Şəkinin Aşağı Layisqi kəndində yaşı yüzü haqlamış İdris Mustafayev isə fikrini belə ifadə edir: Mən Molla Cümənin ürək dostu olmuşam, bir gün söz salıb ondan soruşdum ki, kimdir o İsmi Pünhan? Molla Cümə cavab verdi ki, üz vurma, andım var, gərək bu sirr açılmasın».

Bəzi rəvayətlərdə isə İsmi Pünhanın gənc yaşlarında Molla Cümənin oxuduğu mədrəsə sahibinin, yəni aşığın müəl-

liminin qızı olduğu göstərilir. Bu rəvayətlərdən belə bir fikir hasil etmək olar. Molla Cümə yalnız sevgilisinin adını ya mədrəsə sahibi-müəlliminin, yaxud da ən dindar bir şəxsin qızı olduğu təqdirdə gizlədə bilərdi. Biz də o fikirdəyik ki, folklorda, xüsusilə xalqın məhəbbət lirikasında tariflənən gözəllərin heç bir zaman adı gizlədilməmişdir. Məhəbbət dastanlarımızda dünyada ümidi bir sazı və bir də sözü olan yoxsul aşıq zəmanənin ən varlı adamının qızına aşiq olur, onu adı ilə vəsf edir. Lakin onun adını gizlətmir. İsmi Pünhan adı, heç şübhəsiz, Molla Cümənin tərcümeyi-halı, yaradıcılığı və dünyagörüşü ilə bağlı bir müəmmadı. İsmi Pünhan kimdir? sualına cavab vermək üçün uzun müddət tədqiqat-axtarışlar aparmaq lazım gələcəkdir. İki illik ekspedisiya müddətində apardığımız sorğu-sual da İsmi Pünhanın kimliyi barədə bir nəticə verməmişdir.

Xalq ədəbiyyatımızda təsvir olunan məşhur aşıqların butaları, sevgililəri olur. Buta aşiqə haqqın qisməti kimi bağışlanır. Buta ilə birlikdə adi insanlara haqq vergisi, aşiqlik istedadı da verilir. Aşıqlar isə bütün ömrü boyu öz butalarının eşqilə gözəl şeirlər düzüb qoşurlar.

Molla Cüməyə də Allah vergisi verilib, eşq camı içirilib, xudanın qisməti kimi buta verilib. Şəki əlyazmasının bir yerində bu barədə deyilir: «On beş yaşlarında bir dəfə gözəl bahar günlərinin birisində sərin bir ağac kölgəsində yataraq yuxuya dalır. Bu vaxt röyasında ona badə verirlər ki, bunu içib qurtardığı hədd anası oyadır. Bildiyimiz tarixi rəvayətlərə görə bir çoxları röyada içmiş olduqları badənin təsirindən aşiq olurlar. Molla Cümə də haman gündən yazmağa başlamışdır».

Molla Cümə özünü bu haqq aşiqləri sırasına daxil edir. Bütün ömrü boyu butası – İsmi Pünhanın şəninə şeirlər qoşur. Bu cəhətdən İsmi Pünhan haqqında hələlik ən səhih məlumatı biz elə aşığın şeirlərində alırıq, hətta Molla Cümənin öz butasına vurulduğu tarixi də şeirlərdən öyrənirik.

*Könül dönsə bu dostluğu atarıq,*

*Yol uzaqdır, özüm bihal, at arıq,*
*Cümə səni sevəndəydi o tarix –*
*Min iki yüz doxsanıncı sənədə.*

Həmin tarix miladi ilə 1873-cü ildir. Bu zaman aşığın 19 yaşı var imiş.

Bəhs etdiyimiz şeirdə İsmi Pünhanın yaşı, gözəllik əlamətləri göstərilir: hüsnü gülə, laləyə bənzədilir, qaşları ayla müqayisə edilir.

*Hesabda olubdur 19 yaşı,*
*Qabağı aynadır, hilaldır qaşı.*

«Alagöz» rədifli müxəmməsində isə Alagözün İsmi Pünhana oxşarlığı təsvir olunur:

*Alagöz, İsmi Pünhana*
*Əvvəl baxışın oxşayır,*
*Həm gözün, həm kirpiyin*
*Həm qələm qaşın oxşayır,*
*Həm dilin, həm dodağın*
*Həm inci dişin oxşayır,*
*Həm boyun, həm buxunun*
*Həm də qumaşın oxşayır.*

Aşığın başqa bir şeirində İsmi Pünhanın obası ilə bağlılığı eyhamla verilir:

*Cümə ölüb tapılmasa meyidi,*
*İsmi Pünhan obasını axtarın.*

Bu obanı gündə dörd yol dolanmaq aşıq üçün bir təsəlli və həm də bir ziyarətdir:

*Göynüyün ətrafın bu Molla Cümə*
*Gündə dörd yola ziyarət eylər.*

«Layisqi» rədifli qoşmasında isə İsmi Pünhanın həmin kənddə qərar tutması aydınlaşır. Aşığın Butası orada yaşadığı üçün Layisqi cənnətə bənzədilir:

*İsmi Pünhan səndə qərar tutubdur,*
*Oxşayırsan lap cənnətə Layisqi.*

Böyük söz ustadı bir sıra əsərlərində İsmi Pünhanın səciyyəvi xüsusiyyətləri də təsvir edilmişdir. İsmi Pünhan gözəl, vəfalı, ülvi bir sevgilidir. O, bəzən öz aşiqinə eşq əzabı verir, onunla görüşdükdə gülüb danışmaq belə istəmir.

*Xubluqda əladır, kəmalı cəmdir,*
*O olan məclis də söhbətdir, dəmdir.*
*Danışmağı hicran, gülmağı qəmdir*
*Həsrətindən canım zara gəlibdir.*

Belə hallarda aşiq məşuqəsinin cövrü-cəfasından ah-zar edərək bir ümid yeri axtarır:

*Kimsə deməz zalım İsmi Pünhana,*
*Aşiqini etmə dəli-divana,*
*Gah yönümü çevirirəm Şirvana,*
*Gah üz tutub Gürcüstana ağlaram.*

İsmi Pünhan Molla Cümənin ilk və son sevgilisidir. Molla Cümə butasız yaşaya bilmir:

*İsmi Pünhan qamətini sındıran*
*Biri mənəm, biri də varmı ola.*

Zaman keçdikcə İsmi Pünhan yavaş-yavaş əlçatmaz, ünyetməz bir varlığa dönür, aşığın həyat idealına çevrilir.

Biz Molla Cümənin şeirlərində İsmi Pünhanın ölümü haqqında da məlumata rast gəlirik:

*İsmi Pünhan köçdü fani dünyadan,*
*Qarışdı torpağa göz hayıf oldu.*

Yaxud:

*Min iki yüz doxsanda sevmişdim*
*Min üç yüz onda da əlimdən getdi.*

Aşıq hətta o biri dünyada da İsmi Pünhansız yaşamaq istəmir:

*İsmi Pünhan ərəsətin günündə*
*Ol hesab kitabın açmanam sənsiz.*

Nəticə belə olur ki, Molla Cümə «İsmi Pünhan deyə-deyə cahanda əyləşmişəm» deyərək ömrü boyu onunla bağlı olduğunu təsdiqləyir.

İsmi Pünhanın həyatdan getməsi aşığı sarsıtmışdır. O, şeirlərində bütün ömrü boyu İsmi Pünhanı yad etmişdir.

İsmi Pünhanla əlaqədar bir cəhəti də qeyd etmək istəyirik. Ən böyük ustad aşıqlarımızın butaları olub. Qurbaninin Pərisi, Abbasın Gülgəzi, Sarı Aşığın Yaxşısı, Xəstə Qasımın Mələk Siması, Abdullanın Cahanı, Valehin Zərnigarı və s. Butasız haqq aşığı ola bilməz. Bunlar hamısı dastana düşmüş, orada ömrünü davam etdirmişdir. Kim deyə bilər ki, doğrudan da Abbas Tufarqanlıya eşq camı ilə Təbrizdə yaşayan Gülgəzi buta verirlər. Abbas bir gecədə saz ustadına çevrilərək Təbrizə gəlir, sevgilisinin çöhrəsini hələ görə bilməmiş Şah Abbas gözəlliyinin sorağını aldığı Gülgəzi öz adamları vasitəsilə İsfahana apartdırır. Abbas Təbrizdən Gülgəzin kəcavəsinin dalınca payi-piyada yanıqlı-yanıqlı qoşmalar oxuya-oxuya dəfələrlə ölümdən qurtararaq Şah Abbas sarayına yol tapa bilir. Haqq aşığı kimi hər cür imtahandan çıxır, Gülgəzi alır və Tufarqana qayıdaraq xoşbəxt yaşayır.

Kim deyə bilər ki, bu tarixi həqiqətdir, bədii əsər deyil. Məsələ burasındadır ki, Abbasın yaradıcılığında buta – sevgili ilə əlaqədar bir müddət meydana gəlmiş şeirlər əsasında aşığın özü dastan – bədii əsər düzəltmişdir. Bu dastan da sonralar digər aşıqlar tərəfindən təkmilləşdirilmişdir. Buna oxşar hadisələrin məhz Molla Cümə yaradıcılığında da özünü göstərdiyi göz qabağındadır. İsmi Pünhan da Molla Cümə yaradıcılığında ustad aşıqlarımızın həyat və fəaliyyətinə öz butalarının oynadığı rolunu oynamışdır. Ustad aşıqlarımızdan fərqli olaraq Molla Cümə İsmi Pünhanla əlaqədar dastan yaratmamışdır.

Molla Cümə böyük sənətkardır. Aşıq, göründüyü kimi insanın ən ümdə, incə, zərif hisslərini dilləndirən, ehtizaza gətirən lirik mahnılarla yanaşı, dövrünün sərt, amansız qanunlarını, bu qanunların məngənəsində çabalayan insanların iztirablarını, faciəsini yüksək sənətkarlıqla təsvir edən çox ciddi əsərlərin də müəllifidir.

Bütün bunlarla bərabər biz onun yaradıcılığında dini mövzuların da ifadəsinin şahidiyik. Bəzən aşığın hər şeydən əli üzülür, onun dərdinə nə dostları, nə də tez-tez üzünü çevirdiyi fələk kömək edir. O zaman aşıq, necə deyərlər, ibadətə oturur, üzünü allaha çevirir. Bizdə hasil olan qənaətə görə gözəl ustad olan Molla Cümə üz tutduğu allahdan dərdinə əlac olacağına inanırdı. Bu, elə şeirlərdən də açıq hiss edilir. Belə əsərlər bir insan, şəxsiyyət kimi xalqın ağsaqqalı, bilicisi və nəhayət sənətkarı kimi ona lazım olurdu. Molla Cümə dövrünün ən görkəmli aşıqlarının sənət ənənəsinə sadiq qalaraq islam dini, onun tarixi, yaradıcıları haqqında geniş məlumata malik idi. Bu sahədə biliklərini o, çox sənətkarlıqla bir sıra şeirlərində ifadə edirdi. Belə şeirlər həm də onun sənətkar dünyasını, poetik aləmini, dinlərə olan münasibətini, etiqadlarını gözümüzün qarşısında canlandırır. Azərbaycan aşıq sənətində belə şeirlərin özünəməxsus yeri vardır. Bunlar aşıqların elmini, biliyini, həyat təcrübəsini, dünyaya baxışını, xalqın qəlbinə necə təsir etmək məharətini öyrənmək üçün xüsusi əhəmiyyətə malikdir.

Acınacaqlı haldır ki, ustad aşıqlarımızın bu mövzuda olan şeirləri vaxtilə məhv edilib. İslam mifologiyası ilə zəngin olan əsərləri inkar etmiş, yolunu azan bir-iki molla, əfəndi, qazı haqqında şeirləri nümunə göstərmiş, onları yazan sənətkarları isə elə car eləmişik.

Molla Cümənin ədəbi irsi içərisində Qədim Şərq, Azərbaycan əfsanə və əsatirləri, xüsusilə İslam dünyası ilə əlaqədar çoxlu şeirlər vardır. Qeyd edək ki, bu məzmunlu şeirlər vaxtilə əlyazmasına yazıldığı üçün gəlib bizə çatmışdır. Həm də aşığın belə şeirlərinin hamısı əlyazmalarına köçürülməmişdir və onların bir qismi bizə məlumdur. İlisuda olarkən bizə dedilər ki, Yunis dayı onu Quran kimi oxuyur. Biz sonralar başa düşdük ki, orada aşığın minacat və surələri toplanmış imiş. Aşığın bu mövzuda olan şeirlərini oxuyan görəcək ki, o, hər şeydən əvvəl Qurani-Kərimə, yer üzünə gəlmiş məşhur pey-

ğəmbərlərin, islam dünyasının şöhrətli şəxslərinin həyatına, fəaliyyətinə çox gözəl bələd imiş.

Böyük ustad sənətkar heç bir şeirində İslamı təbliğ etmir, insanları dinə çağırmır. Ancaq İslamın böyüklüyünü, müqəddəsliyini və toxunulmazlığını ürəkdən gələn sözlərlə bədii şəkildə ifadə edir. Molla Cümə din kahinləri kimi insanları bu dünyadan, həyatdan, zövq-səfadan əl çəkməyə səsləmir. Aşığa görə, İslama hörmət və məhəbbət bu dünyadan əl çəkmək demək deyil. Bu mövzuda şeirləri oxuyanda aydıncasına görürsən ki, İslamın müqəddəs qanunlarını, Quranı əlində tutub bu dünyada ömür sürməyə, gözü açıq olmağa, halal zəhmətlə yaşamağa, düzlüyə çağırır. «Mən içdiyim Xızır Nəbi verəndir» – deyən ustad Allahdan gələn vergini qəbul edərək bəzən eşq-məhəbbətdən, bəşəri hisslərdən çox danışdığı üçün günahının bağışlanmasını da rica edirdi. «Mədəd», «Bax», «Dünya», «Qalacaqmı», «Yarəb» və başqa şeirlər. Aşıq Könül ilə deyişmələri aşığın İslam dünyasına dərindən bələd olduğunu nümayiş etdirməkdədir. Xüsusilə dünyaya müraciətlə söylədiyi bir neçə şeir bu cəhətdən çox səciyyəvidir.

*İslamın çırağı, haqqın həbibi,*
*Məhəmməd Mustafanı neylədin, dünya?*

Aşığın bu mövzuda şeirləri haqqında geniş danışmağa imkan yoxdur, onlar ilk dəfə işıq üzü görür, əminik ki, bu şeirlər öz həqiqi qiymətini alacaqdır.

Vaxtilə məşhur dilçi alim Mirzə Kazım bəy demişdi ki, mifoloji lüğət olmadan Xaqaninin yaradıcılığını başa düşmək çətindir. Biz də deyək ki, İslam dini tarixini, mifologiya və əfsanələrini, xüsusilə Qurani-Kərimi bilmədən ustad aşıqlarımızın yaradıcılığının müəyyən bir hissəsini qiymətləndirmək çətindir. O cümlədən də Molla Cümənin şeirlərini.

Aşığın yaradıcılığında nə qədər tarixi, əfsanəvi, dini şəxslərin adları çəkilir, sadəcə çəkilmir. Məlum olur ki, onlar haqqında olan əfsanə və əsatirlərin hamısı aşığa bəlli olmuşdur: Habil, Qabil, Mənsur, Davud, Süleyman, İsa, Musa, İbrahim

Xəlil, Əyyub, Yunis, Adəm, Nuh, Yəqub, Şəddad, Firon, İskəndər, Nuşirəvan Keykavus, Xosrov Pərviz, Namrud və b.

Bəzən bir-iki misra ilə böyük bir hekayətə, yaxud dini-fəlsəfi adlara işarə olunur. Molla Cümə bunların hamısını məktəbsiz, institutsuz, akademiyasız təkbaşına öyrənmişdir. Bunları oxuduqca onun erudisiyası, üləmalığı qarşısında baş əyirsən:

*Yüz iyirmi dörd min Nəbi*
*Dünyaya qılmış zühur,*
*Yeddi qat yer, yeddi qat göy,*
*Ərş, Kürs, Qafi, Tur.*
*Şəms, Qəmər, mələk, nücum,*
*İnsi, cins, mari, mur,*
*Yüz sühufnan endi Tövrat,*
*Fürqani, İncil, Zabur,*
*İxlasnan, Yasin, Taha*
*Oxuyan dildən mədəd.*

Bununla belə, Molla Cümə eşq odu ilə yanıb-yaxılan aşiqdir. O, özünü ən məşhur, cəfakeş, əzabkeş aşiqlərin cərgəsində sayır. Qeys, Fərhad, Yusif, Tahir, Kərəm, Vərğa, Qənbər Şeyx Sənan kimi aşiqlərlə özünü müqayisə edir.

Molla Cümə həyatı, ömrü, dərin və ziddiyyətli yaradıcılığı ilə sirli bir xəzinədir. Bir əlində insanı ucaldan, yaşadan həyata bağlayıb qanadlandıran, bəşəri məhəbbəti vəsf edən şeirləri, o biri əlində isə həmin insanı ruhən, daxilən təmizləyən, xeyirxahlığa, əli açıqlığa, comərdliyə, mənəvi təmizliyə çağıran Quran surələrindən süzülüb gələn minacat və surələri. Biz belə hesab edirik ki, bu kitab həmin sirli mücrünü açmaq üçün açar olacaqdır. Bu açarı biz xalqın mənəvi sərvətinin keşiyində dayanan gənc folklorşünas alimlərimizə lütflə bəxş edirik.

Bu, Molla Cümənin üçüncü kitabıdır. Çalışmışıq ki, aşığın şəxsən bizə məlum olan bütün əsərləri bu kitabda toplansın. Şifahi dildən yazıya alınan şeirlərin əksəriyyətini biz aşığın

birinci kitabına daxil etmişdik. Həmin nümunələri keçən müddət ərzində əlyazmalarında olan nüsxələrlə tutuşdurub dəqiqləşdirmiş və beləliklə, son kitabında həmin şeirlərin əlyazma nüsxələri verilmişdir.

Onu da əlavə edək ki, hətta əlyazmalarının özlərində də şeirlər arasında fərqlər var. Əlbəttə, şeirlərin üzünü köçürənlərin burada müəyyən dəyişiklik etməsi aydın görünür. Buna baxmayaraq biz daha kamil, ideya-bədii cəhətdən mükəmməl nüsxələri seçib yeni kitaba daxil etmişik. Bizə görə, aşığın şeirlərinin əksəriyyəti bu kitabda verilmişdir və ona görə də biz bu kitabı Molla Cümənin külliyatının nəşri yolunda ilk addım, ilk təşəbbüs adlandırırıq.

Aşığın bir şeirini oxuyub bəzən deyirlər: Molla Cümə bunu yazmaz, yaxud misranı belə deməzdi. Ola bilsin ki, bu, düzdür. Ancaq unutmaq olmaz ki, hansı yolla da olsa, bu şeir əlyazmasına belə düşüb. Bizdə olan başqa əlyazmalarında da variantı yoxdur. Ona görə də həmin şeir, yaxud misra hələlik necə varsa, o şəkildə də kitaba daxil edilmişdir. Gələcəkdə, əlbəttə, onun əslinin üzə çıxarılacağına əminik.

Şəki əlyazmasında çox maraqlı bir qeydə rast gəlirik. Orada deyilir: «Molla Cümə Zaqatalanı, Dağıstanı gəzmişdir. Bir qədər ürəyi darıxdığı zaman Zaqatalaya keçərdi. Hər bir yerdə şeir yazmaqla da məşğul olmuşdur. Başqa-başqa yerlərdə kəndisi aşıqlar tərzincə qoşduğu bir çox el sözlərini hər yerdə söylər və oxuyardı. Bəzi lazımlılarını evdə dəftərinə köçürərdi. Əksəriyyəti isə el içərisində yayılıb qalmışdır ki, çoxlarını əldə etmək mümkünsüzdür. Çünki hanki bir məclisdəki söylədiyi şeirləri çox vaxt dəftərinə yazmazdı. Odur ki, kənd aşıqları ağzında əzbər qalmışdır».

Molla Cümə şeirlərini ilkin olaraq topladığımız vaxtdan indi təxminən 30 ildən artıq bir dövr keçir. Bu illər ərzində biz heç zaman aşığın əlimizdə olan əlyazmalarından ayrılmamışıq. Onlar üzərində iş aparmışıq. Bir şeirinin oxunmasına günlərlə vaxt sərf etmişik. Bu kitab bizim 30 illik gərgin əməyimizin

məhsuludur. Burada həm də bizim canımız, ruhumuz, ürəyimiz, qanımız, gözümüzün işığı təcəssüm etdirilmişdir. Vaxtilə yalnız bir neçə şeiri məlum olan bu böyük söz ustadının əksər əsərlərini xalqa çatdırmağa nail olmuşuq. Bizim ən böyük daxili, mənəvi rahatlığımız da elə bundan ibarətdir.

Nəhayət, kitabın tərtibi haqqında bir neçə söz. Molla Cümənin aşıq poeziyasının müxtəlif şəkillərində şeirləri saysız-hesabsızdır. O, çox zaman eyni rədifdə 2-3 və daha artıq şeir qoşmuşdur. Xüsusilə qoşma, divani və müxəmməsləri daha çoxdur. Bunları tərtib edərkən, düzərkən böyük çətinliklər qarşısında qaldıq. Çünki saysız-hesabsız şeirlər təkrar olunur, yaxud unudulub kənarda qalırdı. Ona görə də bütün şeirləri rədiflər üzrə əlifba sırası ilə düzüb kitaba daxil etdik. Bu, bizim işimizi müəyyən dərəcədə asanlaşdırdı.

Kitabda gözə çarpan qüsurları göstərən, ulu sənətkarımızın indiyə qədər məlum olmayan, kitaba düşməyən əsərlərini bizə göndərən oxuculara, aşıq şeiri bilicilərinə qabaqcadan öz minnətdarlığımızı bildiririk.

***1995***

## Qeydlər və izahlar

***Ön söz***

Birinci əlyazmanı 1961-ci ildə Qax rayonunun İlisu kəndində Yunis Təhməzovdan almışıq. Yunis dayının 80-nə yaxın yaşı var. Sənəti etibarilə dəmirçidir. Molla Cümənin çoxlu şeirlərini, xüsusilə müxəmməs və ustadnamələrini yadında saxlamışdır. Molla Cümənin şeirlərini ərəb əlifbasında səliqə ilə yazıb saxlamışdır. Əlyazma 92 səhifədən ibarətdir. Burada aşığın 200-dən çox şeiri toplanmışdır. Əlyazma bu sözlərlə başlayır: "Rəhmətlik Molla Cümənin qəlbindən süzülən müxəmməs,

təcnis, təxmiş, divani, qafiyə, kötəlləmə, əvvəl axır... həmin dəftərə yazıldı.

> Bunları yazdım burda qalmaq üçün,
> Oxuyanlar bir dua qılmaq üçün!.

Şeirlər şəkillər üzrə düzülmüş, nömrələnmişdir. Təcnislərdən biri belə adlanır: "Təcnis, dodaqdəyməz, özü də yedəkləmə, əlif əvvəl axır". Bu, forma etibarilə çax maraqlı, müəmmalı şeirdir. Şeirin qurtaracağında isə bu sözlər yazılmışdır: "Afərin o adama ki, bu təcnisi oxuyub mənasın bilə, bilməyən qanmaza heyifdir, heyif".

Əlyazmanın son səhifələrində digər aşıqların şeirlərindən və məhəbbət dastanlarından nümunələr də vardır. Salah, Yusif, Heydər, Şeyda, Şair, Musa, Donu, Ehraklı Rəcəb, Qax rayonunun Zəyəm kəndindən olan Camal, Varxiyanlı Məhəmməd və digər aşıqların şeirləri, "Abbas və Gülgəz", "Əsli və Kərəm", "Novruz və Qəndab" dastanlarından mahnılar vardır. Bunu biz İlisu əlyazması adlandırırıq.

Yenə 60-cı illərdə fərdi ekspedisiyaların birində Zaqatalanın Kəpənəkçi kəndinə getdik. Aşıq Murtuzəli ilə tanış olduq. O, Molla Cüməni görmüş, hətta apardığı məclislərdə iştirak etmişdir. O, uzun illər qoruyub saxladığı bir əlyazmasını bizə təqdim etdi. Onun bizə verdiyi əlyazması yarımçıqdır, yəni bir hissəsi qopub düşmüşdür. Yalnız 16 səhifəsi qalmışdır ki, burada da 100-dən çox şeir vardır. Bunu Zaqatala əlyazması adlandırırıq.

Bu illərdə ekspedisiyaların birində Şəkidə baş Göynük kəndində aşığın qızı Reyhan xanımın qonağı olduq. Reyhan xanım bizə 122 səhifədən ibarət bir əlyazması bağışladı. Əlyazmasının 19-cu səhifəsində oxuyuruq: Bu dəftər yazıldı 1333-cü ildə. Katibi Molla Cümə İbn Salah, mərqum, Aşağı Layisqi".

Müqəddimədən göründüyü kimi, Molla Cümə 1914-cü ildə şeirlərinin toplusundan ibarət bir əlyazmasını oğlu Həsənə yadigar verib. Bizə belə gəlir ki, bu dəftər aşığın oğluna yadigar verdiyi əlyazmasından köçürülüb. Bunu da biz Şəki əlyazması adlandırırıq.

Əlimizdə olan dördüncü əlyazması M.Ə.Sabirin 1914-cü ildə İsa bəy Aşurbəyovun mətbəəsində buraxılan "Hophopnamə"sidir. Kitabın bütün səhifələrində ağ yerlərə Molla Cümənin şeirləri yazılmışdır. Bir sıra səhifələrdə hətta şeirlərin yazılma tarixi də vardır (1918, 1919 və s.). Müqayisələr göstərir ki, "Hophopnamə"nin səhifələrində olan şeirlər daha dəqiq və kamildir. Bizdə olan bütün əlyazmalarını diqqətlə nəzərdən keçirən mərhum akademik Həmid Araslı da bunu təsdiq etmişdir.

Əlyazmasını bizə təqdim edən Şəkinin Aşağı Göynük kənd orta məktəbinin müəllimi Vədud Hacıyevdir. Vədud müəllimin dediyinə görə, atası Salman Rzaqov (o, 1943-cü ildə vəfat etmişdir) 20 ildən artıq Molla Cümə ilə dostluq etmişdir. S.Rzaqov özünə məxsus olan "Hophopnamə"ni o zamanın ziyalılarını, dostlarını başına toplayıb oxuyarmış. Molla Cümə də belə məclislərin daimi qonağı imiş. O hər dəfə "Hophopnamə"yə qulaq asandan sonra öz əlilə kitabın səhifələrindəki ağ yerlərə şeirlərindən birisini yadigar olaraq və həm də minnətdarlıq əlaməti kimi yazarmış. "Hophopnamə"nin səhifələrində ağ yer qalmamış, Molla Cümənin şeirləri sanki Sabir satiralarına qaynayıb-qarışmışdır. İndi kitabın səhifələrində Molla Cümənin 150-yə yaxın şeiri vardır. Həmin əlyazmasını isə biz "Hophopnamə" adlandırırıq. Bütün bunlar barədə institutun elmi şurasında hesabat verdim və əldə elədiyim ilk nəticələr tezislər şəklində çap olundu.

Dörd əlyazması, dörd müxtəlif xətt, bəzən bir söz və yaxud misra üzərində günlərlə iş aparılmış, digər əlyazmaları yoxlanmış, şifahi dildən yazıya alınan bloknotlar vərəqlənmiş,

nəhayət, əsil həqiqət üzə çıxarılmışdır. Bəzən isə bütün səy və axtarışlar hələlik bir nəticə verməmişdir.

Hələ 1960-cı illərin əvvəllərində "Azərbaycan gəncləri" qəzetində "Molla Cümənin yeni əlyazması" adından (diqqət edin, aşığın adı çoxlarının yazdığı kimi Cumə deyil, doğru olaraq Cümə yazılmışdır) məqalə çap olunmuşdu. Məqalənin müəllifi o zaman Əlyazmaları Fondunun elmi əməkdaşı Nəsrəddin Qarayev idi. N.Qarayev məqalənin əvvəlində 1927-ci ildən sonra Molla Cümənin şeirlərinin çap olunduğu qaynaqları yada salır. O yazır: Son illərdə Azərbaycan Elmlər Akademiyası Respublika Əlyazmaları Fonduna Molla Cümənin bir neçə əlyazması daxil olmuşdur. Həmin sənədlərdən birində yazılır: "Bu dəftər yazıldı 1333-cü Kitabətün Molla Cümə, ibn Salah, mərgum Aşağı Layisqi". Miladi tarixi ilə 1914-cü illərə təsadüf edən bu qeyddən məlum olur ki, həmin əlyazması Molla Cümənin avtoqrafıdır. Oxuculara məlum olsun ki, bu, 1914-cü ildə Molla Cümənin seçib bəyəndiyi şeirlərdən ibarət topladığı və oğlu Həsənə yadigar verdiyi əlyazmasının avtoqrafıdır.

Mən Baş Göynükdə olarkən məktəbin dil və ədəbiyyat müəllimi, Molla Cümənin şeirlərini toplamaqla məşğul olan Şərif İdrisov dedi ki, mən əlyazmaları fondunda aşığın əlyazmalarını görmüşəm. Vaxtilə onların şifrlərini də yazıb götürmüşəm. Şərif müəllimin dediyinə görə, həmin əlyazmalarının nüsxələrindən bəzilərini vaxtilə Mövlud Yarəhmədov oğurlayıb evinə aparmışdır.

Aşığın bir əlyazması haqqında da Dilruba Qiyasbəyli məlumat vermişdir[12].

Bu əlyazması da Şəkidən tapılmışdır. İlisu əlyazmasında olduğu kimi, burada da, aşığın qoşduğu şeir şəkillərinin adları sadalanır. Orada oxuyuruq: "Ey həzərat, mənim bu dəftərimin içində yazılıbdır: Əvvəl divani və ikinci qafiyə, üçüncü dübeyti, dördüncü heçabeyt, beşinci kükəri və ərəbi, altıncı təcnis,

[12] Bax: D.Qiyasbəyli. Molla Cümə. "Elm və həyat" jurnalı, 1971, № 6

yeddinci təxmis, səkkizinci şikəstə, doqquzuncu bayatı, onuncu qaraheca, on birinci dodaqdəyməz, on ikinci müxəmməs". Çox maraqlıdır ki, Molla Cümə şeir şəkillərini "Divani" ilə başlayır. Ona görə ki, aşıqlar məclisi divani ilə, daha dəqiq desək, "Baş divan" ilə başlayırlar. Molla Cümənin bütün əlyazmalarında "qoşma" adı çəkilmir, aşıq qoşmaya qafiyə deyir. Dübeyti, hecabeyt kimi şəkillər gəraylı üstündədir. Onu da əlavə edim ki, bizdə olan çoxlu əlyazmalarında "kükəri və ərəbi" şeir şəkillərinə rast gəlməmişik. Əlyazmalarında "təxmis" adı çəkilir. Çox maraqlıdır ki, əlyazmasında "qara heca" şeir şəklinin adı çəkilir. Bizcə bu, sadə, aydın mənalarına gəlib çıxır. Özü də, deyəsən, gəraylı üstündə oxunur. Molla Cümənin gəraylılarından birində belə bir bənd var:

Oxuduğum qara heca,
Çox danışmaq gəlməz vecə.
Cümə sənlə bircə gecə
"Yə" "əlif"ə, "te" "əlif"ə.

Molla Cümənin şeirləri həm şifahi şəkildə və həm də əlyazmaları şəklində yayılmışdır. Doğrudan da, aşığın əlyazmaları çox olub, hətta Dağıstanda da onun əlyazmaları olduğunu deyirlər. Mənə belə gəlir ki, Molla Cümənin zəngin və rəngarəng yaradıcılığı hələ indicə öyrənilməyə başlanmışdır. Aşığın anadan olmasının 150 illiyi münasibətilə Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda yubiley sessiyası keçirilmiş, Molla Cümənin yaradıcılığı müxtəlif qütblərdən öyrənilmişdir.

Oxucu bəzi şeirlərdə misraların, yaxud sözlərin yerində nöqtələr görəcək. Bunlar iki səbəbdən belə olmuşdur. Əlyazmasında bəzi söz və misralar pozulmuş, axtarışlar isə hələlik bəhrə verməmişdir. İkincisi isə aşıq bir sıra həcvlərdə qəzəblənərək ədəbdən kənar sözlər işlətmişdir.

Bizcə, Molla Cümənin elmi tərcümeyi-halını yazmaq çox çətindir. Bu, yalnız Molla Cüməyə deyil. Bütün ustad aşıqlarımızın həyatı haqqında ən səhih mənbə onların şeir və dastanlarıdır. Biz bu kitabda Molla Cümənin həyat və fəaliyyətilə bağlı əldə etdiyimiz çoxlu xatirə və məlumatların müəyyən bir qismini verməyi lazım bilirik. Bunları biz 1960-cı illərdə fərdi ekspedisiyalar zamanı toplamışıq və o zaman topladığımız şəkildə də kitabın qeydlər və izahlar bəhsində verməyi lazım bildik.

2.1961-ci ildə Qax rayonunun Ləkit kəndində Əzəddin Əsgərovla görüşdük. Yaşı altmışı haqlamışdı. O, cavanlıqda aşıq şeirinin vurğunu olub, özünün dediyinə görə, ona aşıqlıq butası verilib. Yəni Xızr peyğəmbər ona eşq camı içirib. "Eşq dünyası ayrı şeydir. Bir qıza vuruldum, az qala dəli olmuşdum, məhəbbətim ona qonmuşdu". Ə.Əsgərov davam edir: "Hafizəm lap iti idi. Gündə on şeir əzbərləyirdim. Səhərdən axşama qədər şeir oxuyurdum. O zaman aşıqların çoxusu şeiri əzbərləyəndə də yadda saxlaya bilmirdilər. Mənnən xahiş edirdilər ki, əzbərləyim və yadda saxlayım. Böyük Vətən müharibəsinə getdim, yaralandım, oradan qayıdandan sonra şeirlərin çoxusu yadımdan çıxdı. İndi bəzən radioya qulaq asıram, aşıqlar şeirləri düz oxumurlar, qarışdırır, dolaşdırırlar. Molla Cümə ilə əlaqədar bir əhvalat yadıma düşdü. Molla Cümə yolnan gedirmiş. Bir cütçü yer əkir və onun şeirlərini oxuyur və hamısını da qarışdırır, düz oxumur. Molla Cümə ona yaxınlaşır (əlbəttə, cütçü onu tanımırdı). Cütü əlindən alır, yeri bir o yandan, bir də bu yandan əkir, başqa sözlə, torpağı yaralayır, cızıqları pozur. Cütçü o saat dillənir ki, a kişi, sən nə eləyirsən? Molla Cümə o saat cavab verir ki, sən eləyəndən eləyirəm. Cütçü səhvini başa düşür".

S.Əsgərovun dediyinə görə, Molla Cümənin Qax-Zaqatala zonasında dostu çox olub. S.Əsgərovun dediklərindən: "İsmi Pünhan Molla Cüməyə buta verilib, sonra aşıq onu aşkara çıxarmamışdır. Butası isə Qax rayonunun Şabalıtlı kən-

dindən olan Şeyxin qızı idi. Şeyxin ocağı ziyarət yeri idi. Ona görə Molla Cümə butasının adını söyləməyib. El ədəbiyyatında, ümumiyyətlə, gizli şey yoxdu. Molla Cümənin İsmi Pünhanı açılmadı”.

Ə.Əsgərov yenə deyir: “Molla Cüməni Çobankola toya çağırırlar. O gəlib çıxana qədər Nigar vəfat edir. Toydan əvvəl Nigara və onun anası Ayşa xanıma baş çəkmək istəyir. Gəlib görür ki, Nigar artıq vəfat etmişdir”.

Ə.Əsgərovun dilindən “Bu oğlanın”, “Tamaşa”, “Duydunmu heç” rədifli şeirləri yazıya aldım. O, Molla Cümənin çoxlu şeirlərini əzbərdən bilirdi, özü də dəqiq bilirdi. Bundan başqa, Aşıq Məhəmmədin, dağıstanlı Azad Abdullanın, Ehraklı Aşıq Rəcəbin, Varxiyanlı aAıq Məhəmmədin şeirlərini də yazdıq.

Aşıq Rəcəbin şeiri:

Mənim yarım yenə məndən yad olur,
Yad oluban özgələrə ad olur,
Dostlar ağlaşıban düşmən şad olur,
Meydan olar o düşmənə mən ölsəm.

Sona, səni sevdim əzəl sonası,
Geyinmisən başdan-başa libası,
Anam, bacım, qohum, qardaş, babası,
Yığılsınlar vay-şüvənə mən ölsəm.

Əcəlim yetişib, vədəm dolubdu,
Günlərdə bu gün rəngim solubdu,
Deyəsən ki, Miskin Rəcəb ölübdü,
Xəbər çatsın Dağıstana mən ölsəm.

Ə.Əsgərov qadın aşıqlarımızın şeirlərindən çoxlu nümunələr oxudu. Qızyetər, Pəri və başqa qadın aşıqların şeirlərini dəftərimə yazdım.

Qax rayonunun Ləmpaşa kəndində olduq. Oraya Şirin dayının sorağına getmişdik. Cəlilov Şirin Məhəmməd oğlu Ləmpaşanın ağsaqqallarındandır. Özünün dediyinə görə, 75-ə yaxın yaşı vardı. Həmişə qaş-qabağı açıq, şən əhval-ruhiyyə yaradandı və gümrahdı. Çox gözəl hafizəsi var. Sinəsi sözlə doludur, özü də şeir, mahnılar qoşur. Onunla elədiyimiz söhbət əsnasında aşağıdakı atalar sözləri və xalq ifadələri yadımda qaldı. “El var ikən məscid haramdı”, “Cümədən böyük aşıq bilmirəm”, “Soğanın adı sarımsaq olmaz”, “Donuza baba deyən dünyadı”, “Ağıldan yüngül ayaqdan diri”, “Sözü adamın qaşqasına deyir” və s. Şirin babanın dilindən Molla Cümənin çoxlu şeirlərini bloknota yazdıq. O, aşığın müxtəlif formalı şeirlərini çox dəqiqliklə yadda saxlamışdır. Şirin babanın dediklərindən: “Molla Cümənin məclislərində olmuşam mən onun şeirlərinin böyük bir hissəsini yadımda saxlamışam. Özüm də onun kəndlərdə keçirilən məclislərində iştirak etmiş və aşığın şeirlərini dəfələrlə ifa etmişəm”.

Qax rayonunun Qaxbaş kəndində Rəfi dayını nişan verdilər. 1961-ci ilin oktyabr ayının əvvəllərində evində olduq. Ona aşıq Rəfi deyirlər (özünün dediyinə görə yaşı 70-dən ötmüşdür). Rəfinin atası Həzrət aşıqlıq etmiş, özü də Molla Cümənin yaxın dostu olmuşdur. Bir-birinin evlərinə gedib-gələrlərmiş. Molla Cümənin Həzrətə həsr etdiyi şeiri Rəfi dayının dilindən yazdıq. Rəfi dayı da bir zaman aşıqlıq eləyib. O, sazını gətirdi, çox yaxşı çalırdı. Özü dedi ki, ona vaxtilə aşıqlıq vergisi verilib. Aşıq Rəfinin çox gözəl hafizəsi var, dilindən Molla Cümənin və digər aşıqların bir neçə şeirini yazıya aldıq, sonralar bunların bəzilərini əlyazmaları ilə tutuşdurduq, bizi heyrət bürüdü, insanda da belə hafizə olarmış!

O həm də Qax, Şəki, Zaqatala tərəflərdə yaşayıb-yaradan aşıqların şeirlərini bilirdi. Şeyx Şamil haqqında çox həvəslə danışır və çoxlu rəvayətlər bilirdi. “Amandı”, “Sən” rədifli iri həcmli müxəmməsləri onun dilindən bloknota köçürdük. Birinci müxəmməs Molla Cümənin 1966-cı ildə “Azərnəşr”

tərəfindən buraxılan ilk şeirlər kitabına düşdü. Aşıq Rəfinin özünün çoxlu şeirləri olub, ancaq indiyə qədər heç kəs onunla maraqlanmayıb və şeirləri də toplanmayıb. Vaxtımızın darlığına baxmayaraq, biz onu Şeyx Şamilə və İlisu kəndinə həsr elədiyi şeirləri də dəftərə köçürdük. Rəfi dayının dediyinə görə, Molla Cümə öz dostu, Rəfinin atası Həzrət kişinin adına şeir də həsr edib göndərmişdir. Bu şeiri də Rəfi dayı əzbərdən dedi və biz də yazdıq. Aşıq Rəfinin Şeyx Şamilə həsr etdiyi şeiri belədir:

**Şəmil**

İstərəm haqq yolunda
Müridinən səni, Şəmil.
Yoluna qurban dedim,
Mən bu şirin canı Şəmil.
Ölkələrin şahısan,
Dünyaların xanı Şəmil.
Təhnəsindən ağlaram
Kafərə divanı Şəmil.
Gələydi tuş qabağa
Ataydı müjganı Şəmil.

Seyraqub ayağından
Gədalanan xanlara bax.
Axıdıb göz yaşını
O tökdüyü qanlara bax.
Vətəndən cida düşüb
Çəkdiyi bir günlərə bax.
İsmayıltək haqq yolunda
Qurban olan canlara bax.
Qurtarsın qayğılardan
Daniyə Sultanı Şəmil.

İlisu yandı deyin
Oda bimürvət əlindən.
Ölkələr ərbab oldu
Onların dövlət malından.
Özün bilməz danışsan
Xəbərdar olmaz dalından.
Üz tutub o Allaha
Dua eləyin dilindən.
Gələydi bu diyara,
Quraydı divanı Şəmil!

İşləni şəriəti
Çox söylənir doğru sözü.
Padşahla dava qılıb
Xotkara bənzəmiş özü.
Tutdurur topa onu
Nə qoymaz Cari, Tiflisi.
Gəlibən bu yerlərə
O alıbdı dağı, düzü.
Tökübdü bulud kimi
Kövkəbi, asmanı Şəmil.

Bilirəm ki, tab eləməz
Kimsə onun savaşına.
Yandırır eşq oduna,
Pərvanətək ataşına.
Titrəşir xəlayiqlər
Çıxanda mizan qoşuna.
Biçarə Rəfi deyər
Bəxtəvər onun başına.
Alıbdı bu dünyada
Cənnəti-rizvanı Şəmil.

Əhmədov Məhəmməd Əhməd oğlu (Aşıq Məhəmməd) Qaxda yaşayırdı, 100-dən artıq yaşı vardı. Gözləri yaxşı görmürdü. ən çox Molla Cümədən şeir bilir, çoxlu xatirələr söyləyirdi. Molla Cümənin apardığı məclislərdə iştirak etmişdi. Çox qocaldığından Molla Cümənin bir sıra şeirləri və bir çox şeirlərin də bəzi bəndləri yadından çıxmışdı. Molla Cümə haqqında danışmağı xahiş etdikdə aşağıdakı sözləri dedi: "Ortaboylu, dolubədənli adam idi, kiçik saqqalı olardı, iri, qara, aralı qaşları var idi, ağbəniz idi. "Özünün yaxşı səsi yox idi, bütün saz havalarından xəbərdar olmasına baxmayaraq, yaxşı saz çala bilmirdi. Onun sazı ürəyi olubdur. Maşa, odun, xəncər götürüb coşar və oxuyardı, özü də həmişə şagirdləri ilə olardı, nə görsə, nədən təsirlənsə, o saat şeir deyərdi, şagidləri də yadda saxlar və sonra oxuyardılar. Bir milyon da versələr, Molla Cümə xoşu gəlməyən yerdə oxumazdı, deyərdi ki, mənə həqiqi insanlar məclisi lazımdır. Xoşuna gələn məclisdə isə hətta təmənnasız nə qədər desən, oxuyardı. Aşağıdakı bayatını çox xoşlayar, və tez-tez deyərdi.

İlisuda olaydım,
Şişələrə dolaydım,
İlisi qızlarının
Nişanlısı olaydım.

Onun şagirdlərindən Aşıq İsmayıl məşhur idi. 1925-ci ildə Ağamalı oğlu böyük olanda İsmayılı Zaqataladan Bakıya Təbriz qəstininə aparıblar". Aşıq Məhəmməd Molla Cümənin ölümü haqqında belə dedi: "Molla Cümənin özü ilə bərabər üç yoldaşı da gedirmişlər, çiynində sazı olub, tüfəng bilib vurub öldürüblər, öldürənlər isə erməni soldatları idi, tanımayıblar".

Qax rayonu, Zərnə kəndi, Əfəndiyev Zeynalabdin. Özü şeir də qoşur, yaxşı saz çalır, sazın müşayiətilə şeirləri ifa edir. Ümumiyyətlə, Şəki-Zaqatala zonasının aşıqları haqqında yaxşı məlumatı var. Ən çox sevdiyi sənətkar Molla Cümədir. Onun

çoxlu şeirlərini bilir. Xüsusilə, divanilərini həm əzbərdən söyləyir və həm də saz havası ilə ifa edir. Zeynalabdin dayı dövlət qulluğunda çalışırdı. Uzun illər Qax rayonunda icraiyyə komitəsinin sədri olmuşdur. Zeynalabdin dayının dediklərindən: “Molla Cümə Qax rayonunun Ləkit kəndində Dağıstanın Saxur kəndindən olan Aşıq Hüseynlə təsadüfən rastlaşmış, bir gecə-gündüz deyişmişlər. Hüsen Savadsız olub, çobanlıq eyləyirmiş, Molla Cümə ona deyir ki, sən haqq aşığısan”.

Zeynalabdin dayının dilindən qoşmalar, divanilər, müxəmməsləri yazıya aldıq. Biz Zeynalabdin dayı ilə söhbətə başlayandan bir az sonra Əbdülmənaf da gəlib çıxdı. Əfəndiyev Əbdülmənaf Zeynalabdin dayının qardaşıdır. Zərnədə kolxozda hesabdar işləyir. Hər iki qardaş aşıq sənətinin vurğunudurlar. Ancaq Əbdülmənaf dayı Molla Cümə şeirlərini daha çox və daha dəqiq bilir, hafizəsi çox itidir.

Mustafayev İdris. Şəki rayonunun Aşağı Göynük kəndində yaşayırdı. 100-dən çox yaşı vardı. İcraiyyə komitələri yaradılanda yer quruluşu vəkili olmuşdur. İdris dayı Molla Cümənin, necə deyərlər, yaxın adamı, dostu olmuşdur. O, aşığın yalnız şeirlərini deyil, onun həyatı, fəailiyyəti haqqında da çoxlu faktları bilir. Molla Cümənin cənazəsini tapıb basdıran da İdris dayı olmuşdur.

Şəki rayonunun Aşağı Göynük kəndində Həşimov Mehrəli Seydəli oğlu, 85 yaşı vardı, kolxozçu idi. Aşıq sənətini, ədəbiyyatı sevən bir adamdır. Molla Cümənin çoxlu şeirlərini yadında saxlamışdır.

Zaqatala rayonunun Kəpənəkçi kəndində Aşıq Murtuzəli. O başqa aşıqlarla bərabər, Molla Cümənin də şeirlərini bilir və oxuyur. Yaxşı saz çalır. Gənc ikən Molla Cüməni öz kəndlərində görmüş və ona “Xoş gəldin” rədifli bir qoşma həsr etmişdir. Aşıq Murtuzəli əhvalatı özü belə nəql eləyir. “Dedilər ki, Molla Cümə kəndimizə gəlir. Hazırlaşdıq ki, onun qabağına gedək, aşığı qarşıladıq. Əynində qara haşiyəli ağ kürk, kürkün altında da kiçik saz var idi. Çox gümrah idi və tez-tez yeriyirdi.

Axşam məclisdə mən əvvəlcədən tələsik qoşub hazırladığım aşağıdakı qoşmanı sazı çala-çala oxudum:

Göydən əmr olunub düşübsən yerə,
Allahın şöləsi, nuru, xoş gəldin!
Dünyanın hər üzü bəyandır sənə,
Yüz min sirrin qır açarı, xoş gəldin!

Ustalar ustası, mollalar başı,
Elminin müştağı, alim yoldaşı,
Ölkənin dildarı, ellər sirdaşı,
Şəkistanın şah sərkarı, xoş gəldin!

Oxudun tərkibi – nəhvi-sərfində,
Otuz cüzv Qurandır təkrar dilində,
Yüz on dörd kitabdan xəbər verəndə
Haqq rəsulun qələndəri, xoş gəldin!

Murtuzəliyəm, yalvarıram mən sağa,
İstəyirəm yol-ərkanı qanmağa,
Mən sənə qul olum, sən mənə ağa,
Ol üstümün havadarı, xoş gəldin!

Molla Cümə məni dinlədi və dedi: “Oğul, Allahdan qeyri heç kəsə qul olma. İnsan heç vaxt insana qul olmamalıdır”. Aşıq Murtuzəli sözünü belə yekunlaşdırdı: “Cümə kimi şair, söz deyən dünya – aləmə az-az gəlir. Çox savadlı, elmli bir insan olub. O kişi dünyanın altını da bilirdi, üstünü də”.

Balakən rayonunun İtitala kəndində Aşıq Məhəmməd Həsrətov. Məhəmməd Əli oğlunun 75 yaşı vardı. Əvvəllər kolxozda işləmiş, sonra yaşı çox olduğu üçün işdən çıxmışdır. O, Zaqatalanın Tala kəndində olan aAşıq Dibronun (Kamal) şagirdi olmuşdur. Bir müddət mədrəsədə oxumuşdur. Sərbəst oxuyub yaza bilirdi. 1928-ci ildən sonra müstəqil olaraq aşıqlıq

edirdi. 1920-30-cu illərdə Zaqatalada keçirilən aşıq yaradıcılıqlarına baxışlarda iştirak etmişdir. Molla Cüməni çox məclislərdə görmüş və yaxşı xatırlayırdı. Aşıq Məhəmməd “Novruz”, “Valeh”, “Alıxan və Pəri xanım”, “Qul Mahmud və Şəhriyar”, “Nəcəfxan və Pərizad”, “Sayad bəy və Sayalı xanım” və s. dastanları tam bilirdi. Aşıq Məhəmmədin ən çox sevdiyi və bildiyi aşıqlar Ələsgər və Cümədir. Molla Cüməni Aşıq Məhəmməd qədər bilən, yadda saxlayan hələ ikinci bir nəfər yoxdur. Özü də, o, şeirləri tam, dəqiq və qaydasında yadda saxlamışdı. Molla Cümənin şeirlərini biz ən çox Aşıq Məhəmmədin dilindən yazmışıq. Hüseyn Bozalqanlının “Geri dur” rədifli müxəmməsi vardır. Aşıq Məhəmməd Həsrətov dedi ki, onun bir bəndini ixtisar edib nəşrlərdən çıxarıblar. Biz onu yoxladıq. H.Əlizadənin “Aşıqlar” (1935) kitabında həmin müxəmməsin dörd bəndi verilmişdi. Çıxarılmış son bəndi Aşıq Məhəmmədin dilindən yazıya aldıq.

Qülfü Allahı Əhəd
Dünyanı qərar elədi.
Lamyəlüd vələmyüləd
Vahidi aşkar elədi.
Vələmyəkun küffənəhəd
Ləhzədə tarmar elədi.
Yasin halətə əmməni
Hüseyn də əzbər elədi.
Dörd kitabda üç hürüfat,
Mən dili təngəm, geri dur.

Bütün bunlardan başqa, Qax rayonunun mərkəzində yaşayan 70 yaşlı Diniyev Nəbi, Şəkinin Baş Göynük kəndində Salman dayı, Zaqatalanın Çobankol kəndində Aşıq Kazım və başqaları da Molla Cümənin şeirlərindən bir çoxunu yadda saxlamışlar. Bunlar bizim tanış olduğumuz adamlardır. Molla

Cümənin hələ görüşə bilmədiyimiz biliciləri çoxdur. Qeyd etməliyik ki, yuxarıda adlarını çəkdiyimiz adamların çoxusu aşıq deyillər, söz həvəskarlarıdırlar. Ona görə də bir çox şeirləri tam bilmir, qafiyə və rədifləri qarışdırırlar. Bu səbəbdən biz bir şeiri bəzən iki, üç nəfərdən yazır, müqayisə və bərpa edirdik. Bu isə çox çətin olsa da, nəticədə aşığın əsəri tam şəkildə ortaya çıxırdı.

İdrisov Şərif Yunis oğlu. 1961-ci ildə Baş Göynük kəndində üç gün Molla Cümənin qızı Reyhan xanımın qonağı olmuşam. Mənə dedilər ki, orta məktəbin dil-ədəbiyyat müəllimi Şərif İdrisov neçə illərdir ki, Molla Cümənin şeirlərini toplamaqla məşğuldur. Ancaq o, indi evdə yoxdur, harasa gedib. Mən üç gün Şərif müəllimi gözlədim. Axırıncı günü axşam mənə xəbər verdilər ki, Şərif müəllim gəlib. Axşam saat 9-da o, evində məni qəbul elədi. Mənə Molla Cümənin iki müxəmməsini bağışladı. Hər iki şeir kitabın 1966-cı il nəşrinə daxil edildi. Sonralar biz məktublaşdıq. Bir neçə dəfə o bizdə oldu. Mən Şərif müəllimə məktub yazdım ki, Molla Cümənin şagirdləri haqqında mənə məlumat əldə eləsin. Ondan cavab məktubu aldım. İndi oxucular üçün həmin məktubdan bəzi sətirləri vermək istəyirəm. Şərif müəllim məktubun əvvəlində yazır ki, Molla Cümə el sənətinin sirlərini onlarla şagirdinə öyrətmişdir. Şagirdləri içərisində aşağıdakı şəxslərin adları çəkilir: "Ləzgi Aşıq Yarəli, Məhəmmədəli, Ümid Ağa Gözlü, Aşıq İskəndər, Aşıq Məhəmməd, Rutullu (Dağıstan – P.Ə.) Aşıq Hacı Məhəmməd, Qadruxlu (Dağıstan – P.Ə.) Aşıq İsmayıl, Zəyəmli (Qax) Molla Oruc, Aşağı Göynüklü Aşıq Yusif, Aşıq Hacıbala Layisqili, Aşıq Kərəm oğlu, Qaçay oğlu Aşıq Məhəmməd, Əlizadə Almalı, Qara Oruc İsmayıllı və sairə".

Bizim üçün daha çox maraqlısı Molla Cümənin şagirdi Aşıq Hacıbalanın haqqında olan məlumatdır. Çünki o, son dövrlərə qədər yaşamışdır. Yenə Şərif müəllimin məktubundan sətirlər: "Baş Layisqinin Miğan məhəlləsində 1901-ci ildə

dünyaya gəlmiş Aşıq Hacıbala sovet hakimiyyəti illərində çalmış-çağırmış, Cümə irsini təbliğ etmişdir. "Gülür", "Çəkərlər", "Ceyran", "Mollalar", "Zənqərəb oğlu", "Tütün", "Bayramdır", "Son vida", "May günləri" və sairə 30-a yaxın şeirlərin müəllifidir. 1977-ci ildə vəfat etmişdir".

Şərif İdrisovun məktubunun sonunda çox maraqlı qeydlər vardır. Bu, eyni zamanda, Molla Cümə şeirlərinin qorunub saxlanması üçün çöx əhəmiyyətli bir məlumatdır.

Aşıq Hacıbalanın ən böyük xidməti orasındadır ki, miras qoyub getdiyi 10 cib dəftərinə Cümənin 196 əsərini köçürmüşdür. Dəftərdə saxlanılan iri həcmli şeirlərdən bəzilərinin adlarını veririk:

**Dastanlar:** "Baxşı bəy və Leyli xanım", "Molla Cümə və Aşıq Könül";

**Deyişmələr:** "Qafiyə və təcnis", "Molla Cümə və Aşıq Donu". Bunlardan başqa, heç bir yerdə rast gəlinməyən "Dübeyti misal" adlı gəraylı üstündə 30 bənddən ibarət şeir.

Aşıq Hacıbalanın şeirlərindən nümunələr:

### GÜLÜR

Sovet Ordusundan gələndə səda,
Səhra gülür, çəmən gülür, düz gülür.
Şair coşub ona nəğmə yazanda,
Qələm gülür, kağız gülür, söz gülür.

Bizim qoşunların qəhrəmanları,
Ölümdən qorxmayan mərd insanları,
Saldılar nəfəsdən qan soranları,
Ellər gülür, dillər gülür, üz gülür.

Reystağa bayrağı sancan əsgərlər,
Hitleri taxtından salar əsgərlər,
Tarixdə yadigar qalan əsgərlər,

Alnıaçıq, indi keyfi saz gülür.

Qızıl Ordu dağlar yarıb, yol açdı,
Elə bil ki, qayalardan sel aşdı,
At oynadıb, qılınc vurub qol açdı,
Həvəslənib ürək gülür, göz gülür.

Cəbhədən qayıdan qəhrəman qoşun,
Dağ kimi dayanıb dik tutub başın,
Ata oğlu gördü, bacı qardaşın,
Ana gülür, oğul gülür, qız gülür.

## CEYRAN

Səhər-səhər səfalanıb,
Nə çıxmısan yola, Ceyran?
Bülbül kimi pərvazlanıb,
Sağdan baxır sola Ceyran!

Qaş-gözünü süzə-süzə,
Qurban olum xumar gözə,
Gəl, gözəlim, gedək bizə,
Əl Salıban qola, Ceyran!

Ayrılmaram belə yardan,
Qaşı qara, göz xumardan,
Qoynundakı heyva, nardan,
Birin versən nola, Ceyran?

Mən səni görəndən bəri,
Olmuşam divanə, Ceyran!
Sinəm oldu qəm dəftəri,
Yetir o dərmana, Ceyran!

Adın yazıb aça bilməm,
Dost-düşməni seçə bilməm,
Götürüb mən qaça bilməm,
Aparım hayana, Ceyran?

Hacıbalanı gəl dindir,
Dayan qarşımda, bax, güldür,
Kəs başımı, məni öldür,
Ya da yetir cana, Ceyran!

## TÜTÜN

Zəhmətinən yer üzünə düzülür,
Yarpağı döşənir torpağa tütün.
Əvvəlinci dib yarpağı üzülür,
Nazınan qoyulur damağa tütün.

Hər növündə ayrı tam, ləzzət olur,
Dostlar arasında keyf-izzət olur,
Qədrini bilməyən kəs bədzad olur,
Qutuynan çıxarsan qabağa tütün!

Al-əlvan açılıb başında güllər,
Ətrini əks edir düzənli çöllər.
Dəstə-dəstə dərir qızlar, gəlinlər,
Oxşayırsan göyçək yanağa tütün!

Toy-məclisində bəxtəvvərlərin,
Yanan ürəklərin eyləyir sərin,
Hacıbala fikri olmasın dərin,
Dönübsən şəkərə, qaymağa tütün.

3. Şəki əlyazmasının əvvəlində bu barədə belə bir qeyd vardır: "Molla Cümə həyatında bir dəfə belə olsun, Mollalıq etməmişdi. Yazı bilmiş olduğu üçün Molla Cümə deyərək adlandırmışlar. O, heç bir vaxt mollalara verilən zəkat, xüms və başqa vergilərə ömründə yaxın durmamışdır. İbaxlıda (Qax rayonunda kənd) bir molla xalq qarşısında öz dolanacağından şikayət edir. Molla Cümə bunu eşidir, ona buğda vəd edir. Molla gəlib aşığın evindən onu aparanda Molla Cümə onu danlayır. Belə işlərin əsil din xadiminə yaraşmadığını söyləyir.

4. Əlbəttə, biz onun şeirlərini toplamaq üçün ekspedisiyaya gedərkən bu məsələ barədə də maraqlandıq və çoxlu rəvayətlər eşitdik. Onlardan bəzilərini burada gətirmək istəyirik. Hələ uşaq vaxtı mən eşitmişdim ki, Molla Cüməni öz həyətlərində öldürüblər. O zaman həyətə soxulan kənar adamlar özbaşınalıq etmiş, aşıq gəlib işə qarışmış, azğınlaşmış şəxslər isə onu öldürmüşlər. Təxminən belə bir rəvayəti biz Qax rayonunun Zərnə kəndində aşığın yaradıcılığının gözəl bilicisi olan Əbdülmənaf Əfəndiyevdən də eşitdik: "Arvadı və qızı çörək bişirirlərmiş, şübhəli adamlar gəlib həyətə doluşur, qarışıqlıq salırlar. Bu zaman aşıq yaxınlaşır, dözə bilmir, acıqlanır, o zaman onu doğrayırlar".

1961-ci ildə Şəkidə ekspedisiyada olarkən internat məktəbinin dil və ədəbiyyat müəllimi Cahangir Qazıyevlə tanış olduq. O, bir neçə il idi ki, aşığın şeirlərini toplamaqla, tərcümeyi-halını öyrənməklə məşğul idi. C.Qazıyev o zaman "Şəki fəhləsi" qəzetində Molla Cümə haqqında dərc etdirdiyi bir məqaləsini lütflə bizə təqdim etdi. Məqalədə Molla Cümənin ölümü haqqında aşağıdakı sözlər yazılmışdı. "1920-ci ilin may ayının əvvəllərində XI Qızıl Ordunun hissələri Şəkidən Zaqatalaya doğru gedərkən bu yolun ətrafındakı kəndlərin varlıları orduya müqavimət göstərmək fikrinə düşürlər. Burada atışma başlayır. Bir çoxu yoxsul kəndli ordu ilə orduya qarşı mübarizə aparanların arasında qalır. Molla Cümə də yoxsulların yanında idi. Bu vaxtı ona güllə dəyir".

Şəkinin Baş Göynük kəndində olan, sənəti etibarı ilə feldşer olan Yaqub Əkbərov doğma dayısı Mahmud müəllimin hekayətini olduğu kimi bizə nəql elədi. Mahmud o zaman Aşağı Layisqidə müəllimlik edirmiş. Şəki, Zaqatala tərəfdə qarışıqlıq düşən vaxtı, yəni sovet hakimiyyətinin qurulmasına qarşı Zaqataladan olan Hafiz Əfəndinin düzəltdiyi müqavimət və mübarizə zamanı məhz burada, Aşağı Layisqidə qaçhaqaç düşür (Aşağı Göynük, Aşağı Layisqi Şəki ilə Qaxın arasındakı yolun üstündəki kəndlərdir). Çünki XI Qızıl Ordunun əsgərləri ilə Hafiz Əfəndinin adamları arasında atışma olur. Camaat dağlara çəkilir. Bu zaman Mahmud müəllim də qaçırmış, özü də atnan qaçırmış. O, danışır ki, atnan gedirdim. Bir də gördüm ki, Molla Cümə çiynində də saz yol ilə çox sakitcə yeriyir. Nə qədər təkid etdim, gəl min ata qaçaq, razı olmadı, cavab verdi ki, mən aşıq babayam, mənə heç kim heç nə eləməz, heç bir yerə qaçmıram, qonşu kəndə gedirəm. Mən atla uzaqlaşandan sonra güllə səsi eşitdim. Məncə bu güllə Molla Cüməyə dəydi. Hər halda bu rəvayətlərdə müəyyən həqiqət ünsürü olsa da, xalq arasında tez-tez təkrar olunan danışıqlardır. Çoxlu rəvayətlər təxminən bu məzmuna gəlib çıxır.

Molla Cümənin qızı Reyhan xanım atasının ölümü haqqında belə danışır: "Əvvələn, atam nə özü kənddən çıxıb, nə də ailəsini heç yerə qaçmağa qoymamışdır. O zaman Aşağı Layisqi kəndinin əksər camaatı dağlara qaçmışdı. Ancaq Molla Cümə ailəsi ilə birlikdə kənddə qalıb. Onda elə bir qənaət olub ki, sənətkar adamdır, ona heç kim heç nə eləməz".

Qızı Reyhanın yadında qaldığına görə, axşam çağı kəndin bir neçə hörmətli adamı ilə birlikdə Molla Cüməni də evindən aparıblar. Ondan sonra aşıqdan bir xəbər çıxmamışdır. Bir neçə gündən sonra meşədən meyidi tapılmışdır. Reyhan xanım dəqiq bilmir ki, atasını çağırıb aparan adamlar kim olub, onu qəsdənmi öldürüblər, yoxsa səhvən, birdən qarışıqlığamı düşüb, atışma zamanı ona güllə dəyib və s.

Şəkinin Aşağı Layisqi kəndində yaşı yüzə çatmış İdris Mustafayev (O, Molla Cümənin uşaqlıqdan dostu olmuşdur) söyləyir ki, doğrudan da, ordunun hücumu kəndə, camaata çox zərər vurdu. Bu atışma zamanı səhvən çox adamlara güllə dəydi. Onlar da yaralandı, yaxud da öldülər. İ.Mustafayev davam edir: "Təxminən mayın axırları idi, nisbətən ara sakitləşmişdi. Bir də yolun kənarında olan kolluqdan nəsə ağır bir qoxu hiss edilir, camaat şübhələnir, gedib baxırlar, bir neçə insan cənazəsi tapırlar. Molla Cümənin meyidi də onların arasındaydı". İdris dayı göstərir ki, Molla Cüməni yolun alt tərəfində şəxsən mən özüm bax bu əllərimlə basdırmışam, özü də üzü aşağı yatırılmışdı. Bir neçə yerdən qılınc yarası vurulmuşdu, sifəti tanınmaz olmuşdu, aşığı yalnız paltarından tanıdıq. İdris Mustafayev davam edir ki, kəndin bu mötəbər adamlarını aparan və məhv edən o zaman müxtəlif yollarla hətta orduya belə soxulan, özü də əslən Şəkinin Səbətli kəndindən olan ermənilər idilər. Onlar Molla Cüməni tək aparmağa ehtiyat etmiş, çünki bu, müəyyən şübhə doğura bilərdi, bir çox işlərin üsütünü açardı, həm də xalq buna qətiyyən icazə verməzdi. Ona görə də kəndin ən hörmətli adamlarından – qocalardan bir neçəsini seçmiş və aldadıb aşıqla birlikdə aparıb tələf etmişlər. Beləliklə, 1920-ci ilin may ayının axırlarında Molla Cümə vəhşicəsinə öldürülmüş, qəbri də Aşağı Layisqidə, yolun kənarındadır. Bütün bu dediklərimizi Şəki əlyazmasının əvvəlində verilən aşağıdakı qeydlərdə tamamlayırıq: "1920-ci ildə bolşeviklər Nuxaya gəldiyi vaxt Nuxa, Zaqatala arasında hərbi gedişat sürətləşirdi. Şuranın gəldiyi bütün ətraf kəndlərə yayılır və bütün bir çox camaat, əhali qaçmağa başlayır. Bu xəbəri eşidən Aşağı Layisqi kəndindən də olanlar qaçmağa başlayır, Molla Cüməyə bu xəbər çatınca heç yerə tərpənməyir. "Getməyin, bu hökumət ancaq biz kəndlilərindir" – deyə hərəkət göstərməyir və öz qonşularını da qaçmağa qoymayır. Bundan bir az qabaq erməni – müsəlman ziddiyyəti olduğu da məlum idi. Odur ki, həmin Aşağı Layisqi kəndinə gəlmiş

Qırmızı Ordu arasındakı... ermənilər kənddə dayanmış Molla Cüməni və bir neçə qaçmamış olan qonşularını tutub kənddən üç verst uzağa bir quru yerə aparır, təxminən səkkizə qədər adam öldürürlər ki, Molla Cümə də gözlənilmədən ağır bir ölümə məhkum olmuşdu”.

## GƏRAYLILAR

1. Molla Cümə bir sıra şeirlərində ərəb əlifbasının hərflərindən istifadə edir. Bu hərfləri elə işlədir ki, şeirlərin qafiyə, rədiflərinə uyğun olsun, həm də hərtərəfli işlətməklə onlar vasitəsilə müəyyən müəmmalı sözlər də söyləyir. Həmin gəraylıların misralarında – rədiflərində aşağıdakı sözlər işlədilmişdir: ata, sata, bata, yata; məsələn:

“Əlif”, “əlifə”, “te”, “əlifə iki”, “əlif” və bir “tey” hərfi – ata oxunur, eləcə də başqa misralar.

2. Biz Molla Cümənin şeirlərini toplamaq üçün Şəkinin kəndlərini gəzərkən aşığın həyat və yaradıcılığına bələd olan qocalardan biri belə bayatı söylədi:

Yazı yazan olumu,
Yazıb – pozan olumu?!
Aşiqlərdə Cümətək
Qaynar qazan olumu?

Axtarışlar nəticəsində bu mövzuda bir gəraylı əldə edildi. Deməli, Molla Cümənin həmin gəraylısı əsasında xalq arasında belə bir bayatı yaradılmışdır.

## QOŞMALAR

1. Bu qoşmanı ilk dəfə 1961-ci ildə Qax rayonunun mərkəzində aşıq Məhəmməddən yazıya almışıq. Aşıq Məhəm-

məd qoşmanı söyləməzdən əvvəl bir qeyd də verdi: “Molla Cümə yaxın tanışı, özünü dost kimi göstərən Məhəmməd ilə yol gedirmiş, birdən yolun kənarında bir uzunqulaq anqırır. Məhəmməd eyhamla deyir ki, bir aşıq oxumağa başladı. Bu söz Molla Cüməyə bərk toxunur, onu hirsləndirir, çünki elin sənətkarı olan aşıq haqqında belə söz deyən, onu təhqir edən adam heç vaxt Molla Cümənin dostu ola bilməzdi.

2. Bizcə, bu şeir aşığın tərcümeyi-halı ilə əlaqədardır. Sevgilisi İsmi Pünhanın nakam dünyadan köçməsi rəvayətlərinə işıq salır.

3. Molla Surxay Qax rayonunun İlisu kəndində olub, Molla Cümənin ən əziz dostlarından biridir. Həmin şeiri ilk dəfə H.Əlizadə çap eləmişdir (“Aşıqlar”, 1935, səh.165-166). Ancaq dörd bənddən ibarətdir. Sonra Dilruba Qiyasbəyli şeiri şəxsən yazıya alıb tam şəkildə çap etdirmişdir (“Elm və həyat”, 1971, №6). Şeirlə əlaqədar onun belə bir qeydi də vardır: “Bu şeirin qəribə bir tarixçəsi vardır. Qoşma Qax rayonunun İlisu kənd sakini Vəli Balay oğlu Qocayevdən yazılmışdır (Vəli dayı bir neçə il İlisu kəndində kənd soveti sədri işləmişdir. Mən şəxsən onu çox yaxşı tanıyıram – P.Ə.). O, bu şeirin tarixçəsini belə nağıl edir: “1917- 1918-ci illər olardı. O vaxt mən 22-23 yaşında idim. Mən Şəkidən gəlirdim. Yolda, Ənbərçay kəndinə gedən yolun ağzında Aşıq Molla Cüməyə rast gəldim. O, çox kefsiz idi. Çox qocalmışdı. Mənim kim olduğumu soruşdu. Atamı tanıdı. O, dostu Molla Surxaydan çox giley elədi. Dedi ki, çox xəstə oldum, yanıma gəlmədi. Xəbər də göndərdim. Qoca könlü kövrək olar. O, köksünü ötürüb dedi: “Yazı-pozu bilirsənmi?” Dedim: “Bəli!” O, Molla Surxaya dediyi üç qoşmasını mənə yazdırdı... Aşıq dedi ki, şeir tapşırması ilə birlikdə üç olar”. D.Qiyasbəyliyə görə, Molla Cümənin Molla Surxaya həsr etdiyi şeirlər: “Dünyadı”, “Bala mən” və bir də “Sona” rədifləri ilədir. Əlavə edək ki, Molla cümənin indi bəhs etdiyimiz şeirindən başqa, burada adı çəkilənlərin Molla Surxaya həsr olunmasını təsdiq edən elə bir əlamət, fakt yoxdur.

Ancaq bizim kitablarımızda aşığın Molla Surxaya həsr elədiyi "Molla Surxaydır" və "İnsandır" rədifli müxəmməsləri ilk dəfə çap olunur. Bundan başqa, Molla Cümə "Meylim qonub üç insana" kəlamını işlətdiyi digər bir müxəmməsində də əziz dostu Molla Surxaydan böyük hörmət və izzətlə söhbət açır. Üç insan isə Məhəmməd, Molla Surxay və bir də İsmi Pünhandır.

4. Molla Abdulla Cümənin dostlarından biridir. Bir gün o, oğluna sünnət toyu eyləyir, dostu Molla Cüməni də dəvət edir. Ancaq o vaxt Molla Cümənin əlində heç nə olmur ki, dostunun toyuna pay aparsın, ona görə gedə bilmir. Sonra eşidir ki, Molla Abdulla giley-güzar eləmişdir, onda həmin qoşmanı deyib ona göndərir. Şeir 1961-ci ildə Balakən rayonunun İtitala kəndində Aşıq Məhəmmədin dilindən yazıya alınmışdır. Bu əhvalatı da bizə o nəql eləmişdir.

5. Bu mövzuda bir çox Azərbaycan aşıqları şeirlər yazmışlar. İnsanların xasiyyətinə görə fərqləri haqqında xalq arasında qədimdən bəri məşhur məsəllər dolaşmaqdadır. Məsələn:

Adam var ki, adamların naxşıdır,
Adam var ki, heyvan ondan yaxşıdır,
Adam var ki, dindirərsən, can deyər,
Adam var ki, dindirməsən yaxşıdır.

XVII əsrin əvvəllərində yaşayıb-yaratmış məşhur Azərbaycan aşığı Abbas Tufarqanlı özünün "Bəyənməz" rədifli qoşmasının bir bəndində deyirdi:

Adam var ki, gəzir səhranı, düzü,
Adam var döşürər gülü, nərgizi,
Adam var geyməyə tapammaz bezi,
Adam var al geyər, şalı bəyənməz.

Molla Cümə də həmin şeirini xalqdan götürdüyü bu mövzu əsasında yazmışdır.

Şeirin xalq arasında dolaşan bir neçə variantını toplayıb əlyazması əsasında çapa hazırlamışıq. Üçüncü bəndin xalq arasında belə bir variantı da vardır.

Adam var, danışar eldən ötəri,
Adam var, danışar dildən ötəri,
Adam var, fitnəylə feldən ötəri,
Dostu oda salar, dəryaya atar.

6. Molla Cümənin tərcümeyi-halı ilə bağlı vücudnamədir. Ondan sonra həmin şeir uzun illər ixtisarla çap edilmişdir. Nəhayət, bu səhv Molla Cümə əsərlərinin 1983-cü il nəşrində düzəldilmişdir. H.Əlizadə əlyazmasında şeirin üçüncü bəndində olan "əxim" sözünü "adım" kimi oxumuş, sonrakı nəşrlərdə də belə getmişdir. Bu səhv də 1983-cü il nəşrində düzəldilmişdir. "Əxim" – qardaşım sözünü Molla Cümə bizcə şeirdə vəzn xatirinə işlətmişdir. Əlyazmalarının birində "əxim" sözünün qənşərində izahat məqsədilə "qardaşı" sözü yazılmışdır. Həm də bənddə "pədər", "madər", "vələd" sözlərindən sonra "əxim" deyilməsi təəccüb doğurmur. Molla Cümənin adı Süleyman deyil, Süleyman aşığın qardaşının adıdır.

7. Bu şeirə, el arasında "təknə-tabaq" deyirlər. Özü də şeirin adı gələndə gülüşürlər. Çünki bu şeirin maraqlı bir yazılma tarixi vardır. Bu əhvalatı bizə Balakən rayonunda Aşıq Məhəmməd nağıl elədi.

Molla Cümənin Həsən adlı bir oğlu olmuşdur. Həsən şən, məzəli, nikbin bir oğlan idi. Bir gün dostları ilə evə gəlir, evdə isə təmir getdiyinə görə yoldaşlarını qonaq edə bilmir. Həyətdə olan ata minib kənddən çıxır. Nə qədər axtarırlar, onu tapa bilmirlər. Evdə hamı narahat olur, hər yerə soraq salırlar, ancaq gördüm deyən olmur. Bir neçə gündən sonra xəbər gəlir ki, Həsəni Balakəndə çayxanada çay içən vaxtı görüblər. Deməzsən, o, atı minib Şəki, Qax, Zaqatala, Balakən rayonlarını, kəndlərini gəzir. Bir gün pulu qurtarır. Atı satıb özünə arxalıq, ayaqqabı alır və s. Oğlunun bu sərgüzəştini Molla Cümə həmin şeirində təsvir edir. Şeirin birinci variantını biz 1961-ci ildə

Aşıq Məhəmmədin dilindən yazıya almışıq. Həmin şeir Şəki əlyazmasında da vardır.

Həsən 1919-cu ildə atasından bir il əvvəl 26 yaşında vəba xəstəliyindən vəfat etmişdir.

8. Şeir beş bənddən ibarətdir. Son dörd bəndin hər birində gözəlin adında olan hərflərdən birinin adı çəkilir. S.R.T.M. hər bəndin birinci misrasında hərfin adı deyilir. Ondan sonarakı söz və ikinci, üçüncü misralar da həmin hərflə başlayır.

9. Qax rayonunun İlisu kəndi bir neçə məhəlləyə ayrılıb, hər məhəllənin də özünə görə adı var. Bunlardan biri Tovla Taladır. Bu məhəllə bir talanın - düzənliyin üstündə yerləşmişdir. İlisu kəndinin içərisindən iki çay axır: Gümrük və Ağçay çayları. Tovla Talanı kəndin əsas hissəsindən Ağçay ayırır. Oraya getmək üçün mütləq aşağıya – Ağçayın məcrasına enmək, bir müddət daşlı-kəsəkli ərazi ilə (buranı çaylaq adlandırırlar) getmək, çayı keçəndən sonra yenə dik yuxarı Tovla Talaya qalxmaq lazımdır. Molla Cümə "yollarım qara daş oldu" deyəndə Ağçayın axarına – daşlı, çınqıllı məcraya işarə edir. Deməli, aşıq Tovla Talada da olmuşdur. İlisu kəndinin 7-8 kilometrliyində Ağçayın başlanğıcında müalicəvi əhəmiyyətli isti (hərarəti 36-37$^0$ C olan) su axır. Bu suyun ürək-damar, əsəb, yel xəstəliklərini müalicə xassəsi vardır. Oraya hamam deyirlər, hər yayda buraya çoxlu adamlar gəlir, hətta qonşu kənd və rayonlardan da gəlib burada şəfa tapanlar çox olmuşdur. Şeirdən göründüyü kimi, Molla Cümə də həmin hamama getmişdir. Maraqlıdır ki, həmin isti suyun çox kiçik bir hissəsi də məhz Tovla Talanın aşağısından çıxır. Bura isə Moh su deyirlər. Bura kəndə yaxın olduğundan çox zaman camaat elə həmin suda çimib kəndə qayıdırdı.

Deməli, Molla Cümə həm yuxarı hamamda, həm də Tovla Talanın yanından çıxan isti suda olmuşdur. Qoşma bu münasibətlə və bu səfərdən alınan təəssüratla əlaqədar deyilmişdir.

10. Aşıqların dediyinə görə, Molla Cümə gürcüdən (çox ehtimal ki, ingiloydan – P.Ə.) on manata bir öküz alıb gətirir; uzun yol gəlir, həyətə girəndən bir müddət sonra öküz xəstələnir, yıxılır... Aşıq görür ki, indicə gətirdiyi öküz əldən gedir. Bu zaman çox narahat və həyəcanlı şəkildə öküzə müraciətlə həmin qoşmanı söyləyir. Ancaq şeirdə öküzə yalvarmanın bir nəticəsi olmur, öküz ölür. Milla Cümə öküzü soyur, müəyyən qədər də olsa, xərcini çıxarmaq niyyətilə öküzün dərisini dabbağa gətirir, satmaq istəyir. Dabbaq ilə Molla Cümənin deyişməsi kitabın "Deyişmələr" bəhsində verilmişdir.

## DİVANİLƏR

1. Divanidə bir sıra misralarda Molla Cümə ərəb əlifbasının hərflərinin adını çəkir, onlardan qafiyə, rədif yaradır və həm də şeirdə müəyyən müəmmalar yaradır. Məsələn, birinci misranın sonunda "ad", ikincidə "bad" ("külək"), dördüncüdə "vəd", ikinci bəndin sonunda "yad", üçüncü bəndin sonunda isə "dad" sözləri müəmma kimi işlədilmişdir.

2. Qax rayonunun Ləlpaşa kəndindən Aşıq Şirinin dediyinə görə, Molla Cümə bu divanini 1917-1919-cu illərdə çox qarışıq bir zamanda qoşmuşdur.

3. Divani 1961-ci ildə Qax rayonunun Ləlpaşa kəndində aşıq Şirinin dilindən yazıya alınmışdır. Əlyazmalarında həmin şeirə rast gəlmədik.

4. Molla Cümə bu divanini çox gənc yaşlarında, təsadüfən Şəkidə çayxanada rast gəldiyi Aşıq Dülgər oğluna bədahətən demişdir. Şeir 1961-ci ildə Balakən rayonunun İtitala kəndində Aşıq Məhəmmədin dilindən yazıya alınmışdır.

## MÜXƏMMƏSLƏR

1.”Amandı” rədifli müxəmməs 1961- ci ildə Qax rayonunun Qaxbaş kəndində Aşıq Rəfinin dilindən yazıya alınmışdır. Əlyazmalarında da var.

2. Xalq içərisindən çıxmış igidlər – kəndli hərəkatı başçılarına el sənətkarları həmişə rəğbət bəsləmişlər. Belə qəhrəmanlar xüsusilə XIX əsrdə çox yetişmişdir. Hətta dillərdə dastanlara belə düşmüşlər. Adıgözəl, Yarəli, Dəli Alı və başqaları. Şəkjli Məhəmməd Cavad oğlu da belə qəhrəmanlar sırasındadır. Onun adına biz ilk dəfə akademik Feyzulla Qasımzadənin "XIX“əsr Azərbaycan ədəbiyyatı tarixi” (1956) kitabında rast gəlirik. Bütün bu xalq qəhrəmanları haqqında aşıq şeirləri, xalq mahnıları, epizod, xatirə və dastanlar vardır. Mola cümə bu müxəmməsində Şəkili Məhəmməd Cavad oğlunun çar müstəmləkəçilərinə qarşı mübarizəsini vəsf etmişdir. Müxəmməsi bizə 1961-ci ildə Şəkidə Şərif idrisov təqdim etmişdir.

3. “Ələ düşməz” rədifli müxəmməs ilk dəfə 1966-cı ildə Molla Cümənin şeirlər kitabında çap olunmuşdur.

4. XX əsrin əvvəllərində Şəkinin Baş Göynük kəndində böyük təbii fəlakət baş vermişdi. Kənd dağların döşündə yerləşir. Gecə yarısı, camaat dərin yuxuda olan vaxt güclü yağış yağmış, birdən dəhşətli sel gəlmiş və yarım saat müddətində kəndin 400-dən çox evini yuyub aparmışdır. Bu fəlakət də aşığın nəzərindən qaçmamış, xalqın faciəsini həmin müxəmməsdə ifadə etmişdir. Aşıq özü bu zaman Göynükdə qonşu olan Aşağı Layisqi kəndində yaşayırdı. Molla Cümə müxəmməsin sonunda deyir:

Min üç yüz igirmi səkkizdə
Eylədi Fərman Göynüyü,
Rəcəbül mürəccəbdə
Qıldı pərişan Göynüyü.

Bu hicri tarixini miladi tarixə çevirəndə 1907-ci il alınır.

İçində var fisti-fəsad
Batırdı şeytan Göynüyü. –

Molla Cümə burada o zaman camaatın danışdığına-yozduğuna işarə edir ki, guya bu, iblis, şeytan işidir. Kənd əhlindən kiminsə işlətdiyi çox ağır günahların cəzasıdır.

5. Ən yaxın dostlarından biri, cavan yaşlarında vəba xəstəliyindən ölən Mustafaya dediyi müxəmməsdir. 1961-ci ilin oktyabrında Qax rayonunun Qaxbaş sakini, 70 yaşlı Aşıq Rəfinin dilindən yazıya alınmışdır. "Hop-hopnamə"də var.

6. "Hünü" rədifli müxəmməsi 1961-ci ildə Baş Göynükdə olduğumuz zaman Molla Cümənin nəvəsi Mövlud Əzizov bizə təqdim etmişdir. Bizdə olan əlyazmalarında da var.

7. Müxəmməsi ilk dəfə 1935-ci ildə H.Əlizadə əlyazması əsasında çap etdirmişdir.

8. Müxəmməsi ilk dəfə 1935-ci ildə H.Əlizadə əlyazması əsasında çap etdirmişdir.

## DEYİŞMƏLƏR

1.Aşıq Könül ilə deyişmə Molla Cümə yaradıcılığında mühüm yer tutur. Aşığın dünyagörüşünün, poetik aləminin açılmasında bu nümunələrin müəyyən dərəcədə əhəmiyyəti qeyd edilməlidir. Molla Cümənin bu deyişməsi ilə əlaqədar müəyyən rəvayətlər də dolaşır. Rəvayətin birində deyilir ki, Dağıstanın Qadrux kəndində Könül adlı bir aşıq olmuşdur. Aşıq Könül Zaqatalada ikən Molla Cümənin də bu rayonda olduğunu eşidir və təsadüfən Carbazar kəndindən, çayxanadan gələn Cümə ilə rastlaşır. Qayda belədir, iki aşıq harda qarşılaşsa deyişməlidirlər. Beləliklə, Aşıq Könül deyişmək niyyətində olduğunu bildirir. Elə oradaca əlavə edir ki, hətta evinə gedib Molla Cüməni orada tapmamışdır. Onun sorağı ilə buraya gəlib çıxmışdır.

Aşıqlar çayxanaya gəlirlər. Cavanlar Cümədən deyişməyi xahiş edirlər. Aşıqlar deyişirlər. Molla Cümə üstün gəlir. Könülü çayxanada qoyub çıxıb gedir. Bu hadisə Aşıq Könülə bərk təsir edir. O biri tərəfdən cavanlar da Könülü qınayır və qızışdırırlar. Aşıq Könül təzədən faytona minir və Aşağı layisqiyə Molla Cümənin evinə gəlir. Böyük sənətkar bir az bundan əvvəl üstün gəldiyi qonaq kimi qəbul edir və hörmətini əsirgəmir. Aşıq Könül məqsədini bəyan edəndə Molla Cümə hər şeyi anlayır və yarışa hazır olduğunu bildirir. Meydan yenidən qızışır. Bu dəfə də Molla Cümə Aşıq Könülü bağlayır, adəti üzrə sazını əlindən alır. Aşıq Könül, axı, qonaq olduğuna görə də Molla cümə sazını ona qaytarır və qonaq kimi də onu yola salır. Zaqatala əlyazmasının əvvəlində belə bir qeyd vardır: "Aşıq Könül gəlir Layisqiyə, Molla Cümə ilə deyişməyə, Cümə də çəltik bağlamaqdan gəlirmiş. Elə doqqazın qabağında da deyişirlər". Həmin deyişmə əlimizdə olan iki əlyazmasında vardır. İlisu və Zaqatala əlyazmalarında. Hər iki əlyazmanı diqqətlə oxuyub nəzərdən keçirmiş, müqayisələr aparmış və yoxlamışıq. 1961-ci il Balakən rayonunun İtitala kəndində olarkən Aşıq Məhəmməd Həsrətovun dilindən də deyişmənin müəyyən hissəsini yazıya almışıq.

2. Molla Cümə ilə Xəyyat Mirzənin deyişməsində Molla Cüməyə aid olan müxəmməs 1930-cu ildə H.Əlizadə tərəfindən çap etdirilimişdir. Bu həmin müxəmməsin ikinci nəşridir.

3. Qafiyə və təcnis. Şeirin müyyən bəndlərini H.Əlizadə "Aşıqlar" (1936) kitabında vermişdir. Həmin şeir İlisu, Şəki əlyazmalarında "Hophopnamə"də vardır. Biz son əlyazması əsasında çapa hazırladıq. Orada belə bir qeyd verilmişdir: "Göftarı – Molla Cümə". Bu da bir qəribə sözdür ki, bir bəndi qafiyə (qoşma-P.Ə.) bir bəndi təcnis. Oxuyan arif bundan çox mətləb götürər, amma hərif bir şey qanmaz". Sonda isə aşağıdakı sözlər yazılmışdır: "Bu əlli bir bənd qafiyə-təcnisi oxuyub qədrin bilən ona bir dilcavabı rəhmət oxunsa sağ olsun, oxumasa..."

4. Qızla gəlin. İlk dəfə Nurəddin Hacızadə tərəfindən toplanmış və “Azərbaycanı öyrənmə yolu” məcmuəsində (1930) çap edilmişdir. Sonra H.Əlizadənin “Aşıqlar” (1936) kitabında verilmişdir. Şəki və İlisu əlyazmalarında vardır.

## MÜXTƏLİF ŞEİRLƏR

1. Şeir 1961-ci ildə Qax rayonunun mərkəzində Diniyev Nəbinin dilindən yazıya alınmışdır.

2. “Bax” rədifli şeir 1961-ci ildə Qax rayonunun Zərnə kəndində Əbdülmənaf Əfəndiyevin dilindən yazıya alınmışdır. Sonra əlyazması nüsxəsilə tutuşdurulub dəqiqləşdirilmişdir.

3. Şərti olaraq “Vəsiyyət” adlandırdığımız bu şeir çox maraqlı quruluşa malikdir. Şeir ilk dəfə 1961-ci ildə Qax rayonu İlisu kəndində Cəmil Həmzəyevin dilindən yazıya almışıq. Əlyazması nüsxələri də vardır.

4. “Hacı Kərimi həcv” şeirini biz 1961-1962-ci illərdə bir neçə variantını yazıya almışıq, variant fərqləri yoxlanıb dəqiqləşdirilmişdir. Bu şeirin çox qəribə bir tarixi vardır. Bu tarixi bizə Balakəndə Aşıq Məhəmməd və Şəkinin Aşağı Layısqi kəndində 100 yaşlı İdris Mustafayev danışmışdır.

Qax rayonunun Qıpçaq kəndində Hacı Kərim adlı bir varlı olmuşdur. Bu adam çox xəsis, zalım və kinli imiş. Molla Cümənin xalq içərisində nüfuzu, xususilə həcvləri onu çox narahat edirdi. Hacı Kərim özünü aşığa üzdən dost kimi göstərir, camaatın yanında guya ona hörmət etdiyini söyləyirdi. Ancaq onun bütün bu zahiri hərəkətləri müqabilində aşıqdan nəinki tərifli şeir, hətta bircə dənə xoş kəlmə də ala bilməmişdi. Çünki onun daxili simasını Molla Cümə çox yaxşı bilirdi.

Nəhayət, aşıqdan intiqam almaq üçün onun əlinə fürsət düşür. Cüməni biabır etmək, ona mənəvi zərbə vurmaq qərarına gəlir. Bu əhvalatın şahidi olan İdris Mustafayev nəql edir

ki, çəltiyə çıxmağın vaxtı gəlib çatmışdı. Molla Cümə çəltiyə həmişə mənimlə birgə çıxardı. Bu zaman bir neçə ay çöldə qalmaq, çəltiyin əkilməsi, suvarılması ilə fasiləsiz məşğul olmaq lazım idi. Molla Cümə mənə dedi ki, evdə ailənin heç azuqəsi yoxdur, bilmirəm nə edim. Çox fikirləşəndən sonra aşıq yaxın bir neçə kəndi dolaşmaq qərarına gəlir ki, bəlkə ailəsinə bir şey tapsın. Hər yerdən keçir, gəlib Qıpçaq kəndinə çıxır. Kəndin girəcəyində görür ki, bir araba gəlir, araba yaxınlaşır, arabada isə Hacı Kərim oturmuşdu, o, Molla Cüməni saxlayıb, yağlı dilini işə salır, hara, nə məqsədlə getdiyini xəbər alır. Aşıq ona dərdini açmaq istəmir, buna baxmayaraq, Hacı Kərim ondan əl çəkmir, təkid edir (Cümə bilirdi ki, Hacı Kərimdən ona xeyir yox, yalnız zərər dəyə bilər). Aşıq məqsədini deməyə məcbur olur. Bu zaman Hacı Kərim aşığa deyir ki, burada heç bir çətin iş yoxdur, get bir araba tap qoş, gətir, mən sənə buğda verərəm. Molla Cümə buna inanmır, inad edir, nəhayət, xahiş edir ki, ona toxunmasın, o, özü başqa yerdən taxıl tapacaqdır. Ancaq Hacı Kərim elə inandırıcı, mülayim danışır ki, Molla Cümə inanmağa məcbur olur. Hacı Kərim deyir ki, axşamüstü evdə, darvazanın qabağında oturub səni gözləyəcəm, gəl bir tağar buğdanı apar. Cümə isə cavabında borcu yalnız məhsul vaxtı verə biləcəyini söyləyir.

Belə bir vəziyyətdə, çəltik əkininin qızğın vaxtında Cümə inanmasa da, Hacı Kərimdən borc buğda almaq üçün araba dalınca getməli olur. Axşamüstü idi. Qıpçaq kəndinin camaatı işdən sonra həyətə, yola, doqqaza çıxıb dəstə-dəstə oturub söhbət edirdi. Hacı Kərim də bir tərəfdə papirosunu tüstülədir, harın-harın danışırdı. Bu zaman Molla Cümə arabanı sürüb Hacı Kərimin darvazasının qabağında saxlayır. Aşığı görən Hacı Kərim ayağa qalxır, üzünü camaata tutub ucadan deyir: “Ay camaat, doğrudan da, aşıqların ağlı olmazmış, bircə baxın buna, mən demişəm gəl sənə bir tağar buğda verəcəyəm, o da inanıb mənim üstümə araba sürüb gəlibdir, mən taxıl paylayanam, ay Molla Cümə, sənin ağlın başındadır, yoxsa

havalısan” və s. Bu sözləri eşidən aşıq çox pərt olur, başını aşağı salır, mənən sarsılır. İdris dayı deyir ki, elə arabanın üstündəcə balaca sazını çıxarıb sinəsinə basır, camaatın gözü qarşısında Hacı Kərimi həcv edir (Aşığın çox kiçik sazı varmış, həmişə çuxasının altında gəzdirərmiş, yeri düşən kimi çıxarıb əlini sazına vura-vura bədahətən şeir qoşarmış. Qızı Reyhan indi də həmin sazı saxlayır). Həcv dildən-dilə düşür, sonralar Hacı Kərim Molla Cümənin adını eşidəndə uzaq qaçırmış.

5. “Dolana-dolana” əvvəlcə xalq mahnısında işlədilmiş məşhur rədifdir. Mahnı belə başlayır:

Göy üzünü aldı bulud
Mahı dolana-dolana...

Molla Cümə həmin rədif əsasında 21 bənddən ibarət şeir yazır. Şeirin şifahi dildən bir neçə variantını yazıya almışıq. Əlimizdə olan bütün əlyazmalarında vardır.

6. “İstərəm” rədifli şeir ağa Təmraza müraciətlə yazılmışdır. O, Qax rayonunun Zəyəm kəndindən olan varlılardan biridir. Deyildiyinə görə, Molla Cümənin müasiri olan Zəyəmli aşıq Camalın qardaşıdır. Molla Cümə Təmraza bir neçə şeir yazıb göndərmişdir. Şeirlərin hamısı məzmunlarından göründüyü kimi, xahiş, təmənna məqsədilə yazılmışdır.

7. “Aşiq məşuqdan ayrılsa” misrası ilə başlayan bu şeir çox maraqlı quruluşa malikdir. İlk dəfə biz bu şeiri 1961-ci ildə Qax rayonunun Zərnə kəndində Əbdülmənaf Əfəndiyevin dilindən yazıya almışıq. O, Molla Cümənin quruluşu etibarilə ən çətin, mürəkkəb şeirlərini, bağlamalarını çox dəqiq şəkildə yadında saxlayırdı. Əbdülmənaf dayı cuşa gəlib, qızışıb aşıq havaları üstündə Molla Cümənin gəraylı, qoşma, divani, müxəmməslərini oxuyurdu. Biz də diqqətlə qulaq asırdıq. Bir şeir oxudu, o saat diqqətimi cəlb elədi, havası da şeirin formasına uyğun idi. Əbdülmənaf dayı dedi ki, bu sallama qafiyədir. Mən o vaxta qədər belə şeir formasına rast gəlməmişdim. Başqa şeirlərlə birlikdə onu da yazıya aldıq.

8. Bu şeirin şifahi dildən çoxlu variantlarını yazıya almışıq. Ən dəqiq variant 1961-ci ildə Qax rayonunun İlisu kəndində Cəmil Həmzəyevdən aldığımızdır. Şeiri ilk dəfə H.Əlizadə "Aşıqlar" (1936) kitabında çap etdirmişdir. Şeir-həcvin dünyaya gəlməsinin çox qəribə bir tarixi vardır. Bu əhvalatları bizə Aşıq Məhəmməd Həsrətov nəql etmişdir. Aşıq Məhəmmədin variantı da qeyd kitabçamızda vardır.

Varlılar, ruhanilər, alverçilər daim aşığı camaatın gözündən salmaq, mənən öldürmək üçün əlindən gələni əsirgəmirdilər, çünki Molla Cümə onların pis əməllərini hamıdan tez görür, fırıldaqlarını açıb göstərir, xalqa başa salırdı. Belə varlılardan biri də Axsaq Laçın olmuşdur. Bu adam Şəkinin ən varlı adamlarından idi, baqqallıq edirdi. Axsaq olduğu üçün həmin ləqəblə də məşhurlaşmışdır. O, oğluna toy edir. Toydan bir qədər əvvəl Cüməyə deyir ki, toya səni çağıracağam, evdə otur gözlə, heç yerə getmə. Adam göndərəcəyəm, onunla gələrsən. Molla Cümə də Layisqidə oturub gözləyir ki, gəlib onu toya çağıracaqlar.

Günlər ötür, aşıq görür ki, heç bir səs çıxmadı, vədə vaxtı da keçdi. Axsaq Laçın isə Molla Cüməni qəsdən kəndə yola salıb toyu başlayır, Şəkinin Səbətli kəndində yaşayan o dövrə görə məşhur Aşıq Dülgəroğlunu toya çağırır. Dülgəroğlu ustad aşıqlardan idi. Molla Cümənin aşıqlıq təcrübəsi Dülgəroğlundan hələ az idi.

Cümə bir gün durub Şəkiyə gəlir. Təsadüfən danışıq əsnasında eşidir ki, Axsaq Laçın artıq toyu edib qurtarmışdır, özü də toyu Dülgəroğlu aparmışdır. Axsaq Laçının Molla Cüməni aldatması, ələ salması aşığa çox pis təsir edir, bundan təsirlənərək o, həmin həcvi söyləyir. Həcvi biz Qax rayonunun İlisu kəndində 70 yaşlı Cəmil Həmzəyevdən yazmışıq. Bu hadisə Molla Cümənin tərcümeyi-halı ilə bağlı olan başqa bir maraqlı əhvalatla da əlaqədardır. Molla Cümə Axsaq Laçının onu ələ saldığını eşidib yaxında olan çayxanalardan birisinə girir, yanında da şagirdləri var imiş. Deməzsən, toyu qurtaran

Dülgəroğlu hələ kəndə qayıtmamış, həmin çayxanada çalıb-oxuyurmuş. Təsadüfən Cümə də buraya düşür. Bu vaxta qədər Dülgəroğlu Molla Cüməni görməmiş, tanımayırmış, yalnız adını eşitmiş və bir çox şeirlərini bilirmiş. Uzaqdan qiyabi surətdə Dülgəroğlu gənc, istedadlı Cüməyə böyük rəğbət və hörmət bəsləyirmiş, Dülgəroğlu Molla Cümənin gəlişinə heç bir məhəl qoymur, əhəmiyyət vermir, hətta salamını belə almır. Bu əhvalatdan da Molla Cümə təsirlənir. Ayağa durur, Dülgər-oğluna müraciətlə bədahətən bir şeir söyləyir. Həmin şeir kitabda "Divanilər" bəhsində verilmişdir.

9. Bu şeiri bizə 1961-ci ildə Şəkinin Baş Layisqi kəndində Molla Cümənin nəvəsi Mövlud Əzizov təqdim etmişdir.

## Qəzəllər

İndiyə qədər Molla Cümənin üç qəzəli çap olunmuşdur. Bu kitaba düşənlər Şəki əlyazmasından və "Hophopnamə"dən götürülmüşdür. Bu bölmədə aşığın "Beyt" adlandırdığı bir-iki şeirini də veririk.

## Bayatılar

Bayatıların hamısı Molla Cümənin əlyazmalarından götürülmüşdür.

## Dastanlar

1960-cı illərdə Balakənin İtitala kəndində Aşıq Məhəmmədlə görüşümüz zamanı o dedi ki, Molla Cümənin iki dastanını bilir: "Sayad və Səyalı" və bir də "Cümə və Aşıq Könül". O zaman bu dastanları aşığın dilindən yazıya almaq imkanımız olmadı. Ancaq Könül ilə Cümənin deyişmələrindən də 80 bənd qoşmanı Aşıq Məhəmmədin dilindən götürdük. Nəsr hissəsi

barədə də ətraflı məlumatımız olmadı. Həmin dastanların mövcudluğu haqqında Molla Cümənin "Şeirlər" (1966) kitabının müqəddiməsində məlumat verilmişdir. İkinci dəfə fərdi ekspedisiya zamanı "Baxış bəy və Leyla xanım" dastanı haqqında eşitdim, bəzi epizod və qoşmalarını yazıya ala bildim. Həmin dastan haqqında "Azərbaycan şifahi xalq ədəbiyyatı" (1981) dərsliyimdə məlumat verilmişdir. 1982-ci ildə isə Molla Cümənin "Sayad və Səyalı" və "Baxış bəy və Leyla xanım" dastanları çap olundu. Hər iki dastan həmin nəşr əsasında çapa hazırlanmışdır[13].

Ancaq bizim yazıya aldığımız variant ilə çap olunan nüsxə arasında müəyyən fərqlər vardır.

Çap variantı elə bil ixtisarla verilib, bəzi yerləri xülası səciyyəsi daşıyır. Bizcə bu, dastanı söyləyən aşığın hafizə və istedadının səviyyəsilə bağlıdır. Burada hadisələr Yəməndə başlayır. Molla Hunay Yəmən şahı Əmirin sarayında yaşayır. Uzun illər övlad həsrətilə yaşayan Əmir şahın oğlu və Molla Hunayın qızı olur. Baxış bəy və Leyla mədrəsədə oxuyur və orada da bir-birinə aşiq olurlar. Molla Humay qızını götürüb Tehrana qaçır və Baxış bəy də Leylanı çox çətinliklə tapıb vətənə gətirir. Bizə məlum oan ikinci bir variantda isə Humay Türkmən vilayətində yaşayan kasıb bir oğlandır. Bir parça çörək dalınca İrana gəlir və Əmir şahın sarayında nökər olur. Öz səyi, bacarığı ilə şahın hörmətini qazanır, şah ona dini təhsil verir və molla sifəti ilə sarayında saxlayır.

Uzun illər Əmir şahın övladı olmurdu. Eyni vaxtda Əmir şahın oğlu, Molla Humayın isə qızı olur, Molla Humay hər ikisinə mədrəsədə dərs verir. Baxış bəyin və Leyla xanımın məhəbbətini hiss edən Molla Humay qızını götürüb vətəninə - Türkmən elinə qaçır. Baxış bəy qızın dalınca Türkmənə gəlir. Çox çətinliklərlə qarşılaşır, nəhayət sevgilisi ilə İrana qayıdır. Dastanda, daha bir sıra fərqlər də vardır. Burada bir məsələni

[13] Bax: Məhəbbət dastanalrı. "Gənclik" , 1982

qeyd etmək lazımdır. Molla Cümənin biliciləri "Baxış bəy və Leyla xanım" dastanında aşığın tərcümeyi-halı ilə əlaqəli əhvalatların olduğunu söyləyirlər. Xüsusilə mədrəsə illəri, Baxışın öz müəlliminin qızına aşiq olması və s. Deyildiyinə görə, burada aşıq özünün mədrəsədə dərs aldığı müəlliminin qızına aşiq olduğunu və s. epizodları dastana salmışdır.

**2006**

## *FƏRDİ FOLKLOR EKSPEDİSİYASINDAN ETÜDLƏR*
## *(toplayıcı və şərhlərin müəllifi prof.Paşa Əfəndiyevdir)*

1960-cı illərin əvvəllərində fərdi folklor ekspedisiyasında oldum. Şəki, Qax, Zaqatala, Balakən rayonlarını və bu rayonların kəndlərini dolaşdım. Məqsədim görkəmli Azərbaycan aşığı Molla Cümənin şeirlərini toplamaq idi. Qocalarla, müdriklərlə, Molla Cüməni tanıyan və onun məclislərində iştirak edənlərlə görüşüb çoxlu rəvayət, xatirə və şeirlər topladım. Qax rayonunun Ləkit kəndində Əzəddin Əsgərovla tanış oldum. Yaşı altmışı haqlamışdı. O, cavanlıqda aşıq şeirinin vurğunu olub. Özünün dediyinə görə, ona aşıqlıq butası verilib, yəni Xızır peyğəmbər ona eşq camı içirib. Əzəddin Əsgərov deyir: «Eşq dünyası ayrı şeydir. Bir qıza vuruldum, az qala, dəli olmuşdum, məhəbbətim ona qonmuşdu». O davam edir: «Hafizəm lap iti idi. Gündə on şeir əzbərləyirdim. Səhərdən axşama qədər şeir oxuyurdum. O zaman aşıqların çoxusu şeiri əzbərləyəndə də yadda saxlaya bilmirdi. Məndən xahiş edirdilər ki, əzbərləyim və yadda saxlayım. Böyük Vətən Müharibəsinə getdim, yaralandım, oradan qayıdandan sonra şeirlərin çoxusu yadımdan çıxdı. İndi bəzən radioya qulaq asıram. Aşıqlar şeirləri düz oxumurlar, qarışdırırlar, dolaşdırırlar». Əzəddin Əsgərov Molla Cümə haqqında bir neçə rəvayət danışdı. Kosanın nağılını söylədi. Xüsusilə çoxlu aşıq şeirlərini oxudu. Onun dilindən Molla Cümənin «Bu oğlanın», «Duydunmu heç»,

«Tamaşa» və başqa şeirlərini dəftərçəmə yazdım. Bir sıra aşıqların indiyə nədər məlum olmayan şeirlərini də o, bizə oxudu. Həmin şeirlərdən bir neçəsini «Dədə Qorqud» jurnalının oxucularına çatdırmaq qərarına gəldim.

## MOLLA CÜMƏ

### TAMAŞA

*Ay ağalar, heç qorxmuram ölümdən,*
*Torpaq altda yatandadı tamaşa.*
*Neçə günah qurtarıbdı əlimdən,*
*İnkir-Minkir sorandadı tamaşa.*

*Xilaf yoxdu alimlərin sözündə,*
*Yazılıbdı dörd kitabın özündə.*
*Çilin-çılpaq Ərəsətin düzündə*
*Boynu buruq durandadı tamaşa.*

*Molla Cümə, haqq bir divan qayırıb,*
*Möminləri behişt içrə buyurub.*
*Günahları dəstə-dəstə ayırıb*
*Cəhənnəmə süréndədi tamaşa.*

## VARXİYANLI AŞIQ MƏHƏMMƏD

Əlyazmada Aşıq Məhəmmədin də bir neçə şeiri vardır. Aşıq Məhəmməd Zaqatala rayonunun Varxiyan kəndindəndir. XIX əsrdə yazıb-yaratmışdır. Şəki-Zaqatala zonasının ən məşhur aşıqlarındandır. Aşıq Məhəmmədin iki şeirini veririk.

## YÜKÜM

*Eşqdən kamın alan xeyli iqbaldır yüküm,*
*Dürlü qumaş cəm etmişəm yaşıldır, aldır yüküm,*
*Mətahım mətah olunca, bazarım bazar olsun,*
*Nə alınmaz, nə satılmaz, xeyli cavandır yüküm.*

*Mərdanələr yığılıban söhbəti xoş eyləsin,*
*Bir-birinə xoş deyil, şirin peşkəş eyləsin.*
*Saqiyəm mərd məclisində, içən nuş eyləsin,*
*Abi-kövsərdən almışam, abi-zülaldır yüküm.*

*Məhəmməd sərrafkardır, hər nə desən varıdır,*
*Bir sözü cavahirat, bir sözü gövhər varıdır.*
*Qəbirbilən, yaxın gəl, qədirbilməz, geri dur,*
*Göstərmərəm hər yetənə, yaqutu-ləldir yüküm.*

## AŞIQ LƏZGİ MƏHƏMMƏD
## GECƏ

*Gəlibən getməkdən üzüldü halım,*
*İstərəm bu yerdə qalım bu gecə.*
*Nə dərdin var isə, gəl mənə söylə,*
*Sınıxmış könlünü alım bu gecə.*

*Gedibən hər yana salmışam sorax,*
*Sənnən də yaxşı olarmı gorax.*
*Bir saat gözümdən sən getsən uzax,*
*Dağılar dövlətim, malım bu gecə.*

*Ləzgi Məhəmmədəm, olmuşam məstə,*
*Canım da qurbandı sən təki dosta.*
*Başımı qoyuban ağ məmən üstə*
*İstərəm, səninlə olum bu gecə.*

## AZAD ABDULLA[14]
## MƏNİM

*Ay ağalar, gəlin sizə söyləyim,*
*Bayaqkindən yaxşı halım var mənim.*
*Ağacdan kövkürüm, quvaşdan qazan,*
*Tülü şişli tovasarım var mənim.*

*O yandan çala-çala gəlir zəngi,*
*Muğamı sevirəm qulağım həngi.*
*Keçi ağacından qırma tüfəngi*
*Ağac qalxan, zülfüqarım var mənim.*

*Azad Abdullayam, bir belə çağda,*
*Üç stəkan bəkməz, beş istəkan yağ da.*
*Yeddi çanax çəltik, on çanax buğda,*
*İyirmi beş çanax da darım var mənim.*

## QIZYETƏR

## YARIM

*Ellər köçdü yaylağa,*
*Nə durmusan, oyan, yarım.*
*Əzəl başdan dost yolunda*
*Şirin canı qıyan yarım.*

*Bağlı tükənlər açılsın,*
*Yar, sənə xələt biçilsin.*
*Boyun uzunu ölçülsün,*
*Yar, xələtə dolan, yarım.*

*Almalar qana boyandı,*
*Tüstüsü ərşə dayandı.*
*Hamılar yardan güvəndi,*

*Dəryadan ayrılan ada,*
*Bəs mən gedim kimə dada?*
*Qızyetəri bu dünyada*

---

[14] *Гах-Загатала зонасында сатирик шеирляриля танынмыш ашыг*

*Məni yarsız qoyan yarım.* *Gözü yaşlı qoyan yarım.*

*Uzundu, yar, sənin boyun,*
*Çağır, molla töksün suyun.*
*Qiyamətə qaldı toyun,*
*Məhşər günü oyan, yarım.*

## AŞIQ RƏCƏB

XIX əsrdə Dərbənd ətrafında yaşamışdır. Deyildiyinə görə, o, Samur qəzasının Ehrak kəndində doğulmuşdur. Ehrak Azərbaycana sərhəd olan Rutul rayonunun kəndlərindəndir. Aşıq Rəcəb, əsas etibarilə, Şəki, Qax, Zaqatala, Balakən rayon və kəndlərində məclislər keçirmiş, xalq arasında geniş şöhrət tapmışdır. Aşıq Rəcəb Huri adında bir qıza aşiq olmuş, lakin qızı varlı bir şəxsə zorla ərə vermişlər. Aşığın Hurinin dilindən söylədiyi qoşmaları da məlumdur. Ömrünün axırlarına yaxın gözləri kor olmuşdur. Dağıstan və Azərbaycan ellərində Xəstə Rəcəb, Kor aşıq, Haqq aşığı adları ilə böyük hörmətə malik olmuşlar.

### ÖLSƏM

*Mənim yarım genə məndən yad olur,*
*Yad oluban özgələrə ad olur.*
*Dostlar ağlaşıban, düşmən şad olur,*
*Meydan olur o düşmana, mən ölsəm.*

*Sona, səni sevdim, əzəl zonası,*
*Geyinmisən başdan-başa libası.*
*Anam, bacım, qohum-qardaş, babası*
*Yığılsınlar vay-şüvana, mən ölsəm.*

*Əcəlim yetişib, vədəm dolubdur,*
*Günlərdə bir gün rəngim solubdur.*
*Deyəsən ki, Miskin Rəcəb ölübdür,*
*Xəbər çatsın Dağıstana, mən ölsəm.*

## AŞİQ OLDUĞUM

*Səhərdən çıxdı yollara*
*Yoluna qurban olduğum.*
*Gəl bizə bir doğru danış,*
*Dilinə qurban olduğum.*

*Soyuq sular axar dağdan,*
*Qızıl güllər qoxar bağdan.*
*Əcayib qucmalı çağdan*
*Belinə qurban olduğum.*

*Kiçi Aşıq söylər halı,*
*Sənsiz neylər dünya malı?*
*Anası bir kaftar qarı,*
*Qızına qurban olduğum.*

* * *

Qax rayonunun İlisu kəndində oldum. Yunis Təhməzovla görüşdüm. O da aşıq şeirinin vurğunlarından biridir. Yaşı yetmişi keçmişdi. Yunis dayı Molla Cümənin böyük bir əlyazmasını mənə hədiyyə verdi. Burada Mola Cümənin 200-ə qədər şeiri toplanmışdır. Şeirlər şəkillər üzrə düzülmüşdür. Bu əlyazması üzərində uzun illər iş aparmışam. Molla Cümənin şeirlərini çap elətdirmişəm. Ancaq əlyazmasının son səhifələrinə əl vurmamışam. Burada müxtəlif aşıqların şeirləri, dastanlardan parçalar vardır. Salah, Yusif, Heydər, Şeyda, Şair, Musa, Donu, Ehraklı Rəcəb, Qax rayonunun Zəyəm kəndindən olan Aşıq

Camal, Varxiyanlı Məhəmməd, Tifarqanlı Abbas və digər aşıqların şeirləri, «Abbas və Gülgəz», «Əsli və Kərəm», «Novruz və Qəndab» dastanlarından mahnılar vardır.

Mən İlisuda Molla Nazim haqqında çox eşitmişdim. Ancaq şifahi dildən heç bir şeirini əldə edə bilməmişdim. Bu əlyazmasında Molla Nazimin də bir şeirinə rast gəldim. Həmin şeirlərdən bir neçəsini də aşağıda verirəm.

## İLİSULU MOLLA NAZİM

### GÖYÇƏK

*Bulut kimi dallarına tökülmüş,*
*Yarıtan zülflərin sonalı Göyçək.*
*Həsrətindən əlif qəddim bükülmüş,*
*Bəyaz mərmər təki xınalı Göyçək.*

*Xınalı barmağın, ağ əlin nazik,*
*Cığalı zülflərin sonası nazik.*
*Sənə əcəb vermiş sığalı nazik,*
*Sən baxtı canansan, analı Göyçək.*

*Dodaqların yaqut, mərcan, ləlinən,*
*Dilin şirin, şəkər, nəbat, balinən.*
*Nazim ilən bu yar eşqin alinən,*
*Sən boyat əlləri xınalı, Göyçək.*

### DÜŞƏN YAR

*Yenə bu könlümə saldın bir talan,*
*Pünhan yerdə gəlib yada düşən yar.*
*Əzəl mənim ilə danışıb gülən,*
*İndi yadlarinən bayramlaşan yar.*

*Tiğləyibsən ciyər bağrım dəlginən,*
*Xəzəl kimi saralıban solginən.*
*Hara getsən, qayıdıban gəlginən,*
*Gah bir ərin ölsün, gah da boşan, yar.*

*Məhəmmədin könlünü dəlməyəsən,*
*Bu dünyada bir mətləb almayasan.*
*Günün qara keçsin, heç gülməyəsən,*
*Həmişə ağlamaq olsun peşən, yar.*

## GEDİRƏM

*Mən bülbüləm, gül düşübdür yadıma,*
*Vətən sarı çox həvəsdi gedirəm.*
*Qan ağlaram, kimsə yetməz dadıma,*
*Yürəgi qaralı, yasdı gedirəm.*

*Dərin-dərin dəryalara boylama,*
*Tığ vuruban ciyər bağrun teyləmə.*
*Çox minnətdi, məni yoldan eyləmə,*
*Bu qədər danışmaq bəsdi, gedirəm.*

*Məhəmmədəm, neyçün könlüm almadın,*
*Gözdən axan qanlı yaşı silmədin,*
*Dedim, bayramlaşaq, razı olmadın,*
*Ol səbəbdən səndən küslü gedirəm.*

## AŞIQ CAMAL

Aşıq Camal Qax rayonunun Zəyəm kəndində anadan olub, orada da yaşayıb-yaratmışdır. Əsil adı İsadır, Camal təxəllüsüdür. Anadan olduğu və öldüyü illər belə təxmin edilir

(1830-1908). Bizdə olan əlyazmasında onun bir neçə şeiri vardır.

## GƏRAYLILAR

### GÜLXANIM

*Dünən bir gözəl görmüşəm,*
*Adı Gülxanım, Gülxanım.*
*Təzədən dərdə düşmüşəm,*
*Dərdi bil, xanım, bil, xanım.*

*Gedib ollam ona nökər,*
*Nökər olan cəfa çəkər.*
*Dişi inci, dili şəkər,*
*Dodaq bal xanım, bal xanım.*

*Aşıq Camal neylər nazı,*
*Əlinə götürməz sazı.*
*Allahım yazaydı yazı,*
*Mənim ol, xanım, ol, xanım.*

### QURBAN MƏN OLUM

*Gözəllər yola çıxanda*
*Yoluna qurban mən olum.*
*Mehrin bizə doğru danış,*
*Dilinə qurban mən olum.*

*Soyuq sular çıxar dağdan,*
*Gül, bənəfşə çıxar bağdan.*
*Yeriyib qucmalı çağdan*
*Belinə qurban mən olum.*

*Aşıq Camal neylər malı?*
*Sənsiz keçər necə halı?*
*Anası bir halım qarı,*
*Gülünə qurban mən olum.*

## QOŞMALAR

### GƏLMƏDİ

*Gecə-gündüz yollarına baxaram,*
*Hanı mənim barabarım, gəlmədi.*
*Məni saldı beylə müşkül hallara*
*Bietibar biilqarım gəlmədi.*

*Genə dərdim ziyad oldu bu gündən*
*Yaramın həsrəti heç çıxmaz candan*
*Nə səbəbdir, yüzün döndərdi məndən?*
*Bu insafsız biqərarım gəlmədi.*

*Şahbazın qəmzəsi mənə yağıdır,*
*Bundan ayrı bal da yesəm, ağudur.*
*Aşıq Camal, ağlamağın çağıdır,*
*Cümləsi gəldisə, yarım gəlmədi.*

### GEDİRƏM

*Seyr elədim İstambulun elini,*
*Qədəm basıb İsfahana gedirəm.*
*Yeddi ildir yarın həsrətindəyəm,*
*Alışıban yana-yana gedirəm.*

*Mən yarın yolunda çox çəkdim cəfa,*
*Getməsəm, olaram, şəksiz, bivəfa.*

*Ollam qabağında Bağdad xəlifə,*
*Mən dərdliyəm, yar, dərmana gedirəm.*

*Aşıq Camal yola tikmiş gözünü,*
*Bəndə poza bilməz xuda yazanı.*
*İsfahanda Nadir şahın qızını*
*Puta içib Zərnişana gedirəm.*

**YAXIN GƏL**

*Hərdəm-hərdəm nə daldadan baxarsan,*
*Gözəllər sultanı, xanı, yaxın gəl.*
*Çıx daldadan, boyun görüm, yar, sənin*
*Yandırma oduna məni, yaxın gəl.*

*Hərdəm-hərdəm al qumaşı geyirsən,*
*Eşq əlindən piyaləni içirsən.*
*Eşitdim ki, təzə qəzəl deyirsən,*
*Oxuduğun mahnı hanı, yaxın gəl.*

*Aşıq Camal səni yadlara qıymır,*
*Tutubdur yaxandan, heç əldən qoymur.*
*Uzaqdan baxmaqdan gözlərim doymur,*
*Elimin şöhrəti, şanı, yaxın gəl.*

**QIRMIZI**

*Yenə məni dərdə saldı bu gözəl,*
*Yaşıl çarşab, corabları qırmızı.*
*Onu gördüm, fikrim uçdu başımdan,*
*Qaşı qələm, yanaqları qırmızı.*

*Mən ki gördüm şahlar mehribanını,*
*Tamam alır görənlərin canını.*

*Dərdli idi, kəsdirmişdim yanını,*
*Diş mirvari, dodaqları qırmızı.*

*Ərz eyləyim, sən dərdimi biləsən,*
*Mən fəqirlə danışasan, güləsən.*
*Ağlayıram, göz yaşımı siləsən,*
*Mənə çəkdin bu dağları qırmızı.*
*Könlüm evi uçdu, dözə bilmərəm,*
*Dərdimi Fatmaya yaza bilmərəm.*
*İsayam, bu dərdə dözə bilmərəm,*
*Könlüm istər barmaqları qırmızı.*

**QALMIŞAM**

*Fələk məni saldı qəm dəryasına,*
*Qəmər atlı yüzə-yüzə qalmışam.*
*Gecələr sübhə tək əfqan eylərəm,*
*Göz yaşımı süzə-süzə qalmışam.*

*Gəzirəm elləri dili salamlı,*
*Mənə irast düşməz bir xoşkəlamlı.*
*Sinəsi dəftərli, dəsti qələmli,*
*Dərd tükənməz, yaza-yaza qalmışam.*

*Aşıq Camal deyər xan diyə-diyə,*
*Vücudum saraldı dərd yiyə-yiyə.*
*Məcnun təki «a Leyli» diyə-diyə*
*Bu dağları gəzə-gəzə qalmışam.*

## AŞIQ RƏCƏB

### OLSUN

*Mənim könlüm pərişandır,*
*Ədalət xana ərz olsun.*
*Gəlmiyəndən yaralıyam,*
*Dərdə, dərmana ərz olsun.*

*Dərdin saxlaram ölüncə,*
*Saralıb bənzim solunca.*
*Əcəl piyalə dolunca*
*Cümlə insana ərz olsun.*

*Doldur piyaləni, doldur,*
*Dəsdim bu canında boldur.*
*Yanaqları qızıl güldür,*
*Çeşmi məstanə ərz olsun.*

*Sidqinən sevmişəm mərdi,*
*Neylərəm yatan namərdi?*
*Qayğulu Rəcəbin dərdi*
*Ali sultana ərz olsun.*

### DE GƏLSİN
**(Hurinin dilindən)**

*Məndən xəbər apar butam Rəcəbə,*
*Baxmasın dağlarda qara, de, gəlsin.*
*Vaxtlı-bivaxt mənim gözüm yoldadı,*
*Əglənməsin, şanlı yara de, gəlsin.*

*Aşıqlar can qoyur bablı babına,*
*Qəndim-şəkər axar dil-dodağına.*
*Mən də mail oldum eşq kitabına,*
*Bülbül isə ahı-zara, de, gəlsin.*

*Bülbül deyər, bağda gülşən itibdir,*
*Avara düşmüşəm, məskən itibdir.*
*Əli sazlı cavan oğlan itibdir,*
*Ciyər olu həzar para, de, gəlsin.*

Bir dərdə düşmüşəm, tapılmaz dərman,
Yarəb, harda qaldı həkimi-loğman?
Başına döndüyüm, eylə bir ehsan,
Bəlkə, bu dərdimə çarə de, gəlsin.

Gecə-gündüz çəkdiyim əzabdır?
Yarı görmək kisvə qılan savabdır.
Huri deyər, sevdigim aşıq Rəcəbdir,
Gizlin deyil, var, aşkardı, de, gəlsin.

## SEVDİGİM

Nə ovqatsız səfər oldu, bilmədim,
Yollar mənə yaman oldu, sevgilim.
Külək qalxdı, qar-qar əsdi, sovruldu,
Çün gədiklər duman oldu, sevdigim.

Sevdiyim yadıma düşdü o vaxtı,
Sərasər bağrıma xançallar taxdı.
Göy guruldayıb, ildırım çaxdı,
Dünya axır zaman oldu, sevdigim.

Sinəmə çəkmisən dügünü, dağı,
Gözdən axan yaşın qandı fərağı,
Gah çökür qaranlıq, gah dolu yağır,
Axdı sellər,ümman oldu, sevdigim.

Bir yanı bəladı, bir yanı qara,
Cəhənnəm desələr, cəhənnəm dara.
Ol xudam göndərdi fərağın mənə,
Cəbrayıl güman oldu, sevdigim.

Dilim ahu-fəğan edərdi mənim,
Gözüm yaşı sel tək gedərdi mənim.

*Xəstə Rəcəb deyər, budur dərmanım,*
*Əgdi qəddim, bükdü belim sevdigim.*

## OLMUŞ

*Qazılar canımda arzuman qalmış,*
*Mənim yarım əğyarinən yar olmuş.*
*Gözlərim qan-yaş tökmüş, bidad eyləmiş,*
*Həmişə dilimdən ahu-zar olmuş.*

*Cavan ölmüş, məni atəşə salmış,*
*Atmış peykan oxu, bağrımı dəlmiş.*
*Tiğa almış əlinə, gərdanə çalmış,*
*Necə qanlar etmiş o xun-xar olmuş.*

*Sinən təzə yağmış bəyaz qar imiş,*
*Qoynundakı yumru-yumru nar imiş.*
*Çünki qələm yazmış beylə var imiş,*
*Mənsur təki çəkmiş məni dar olmuş.*

*Cünun olmuş canın fəda eyləmiş,*
*Dürlü yarım məni gəda eyləmiş.*
*Qəsdi durmuş, məni cüdu eyləmiş,*
*Yurdundan oynatmış dərbədər olmuş.*

*Rəcəb çox Huriyə iltica etmiş,*
*Gözləmiş yolları, gəlməmiş batmış.*
*Məni bəgənməmiş, sən ona getmiş,*
*Görüm o da məni təki kor olmuş.*

Müdriklərin dediyinə görə, Aşıq Rəcəb Azərbaycanda fəaliyyət göstərdiyi kimi, Molla Cümə də tez-tez Dağıstan ellərinə gedərək məclislər aparmışdır. Bizim qənaətimizə görə, bu iki böyük sənətkar bir-birilə görüşmüş, hətta çox yaxın olmuşlar. Təsadüfi deyildir ki, Aşıq Rəcəb vəfat edəndə Molla

Cümə onun ölümünə şeir həsr etmişdir. Həmin şeir də haqqında söhbət açdığımız əlyazmasında saxlanmışdır.

### MOLLA CÜMƏ QALIBDIR

*Ay ağalar, ixtiyarsız dünyadır,*
*Neçələrin ötgün sözü qalıbdır.*
*Neçə uluların, neçə qazının,*
*Neçə əfəndinin yazı qalıbdır.*

*Neçələri mərhum olur beşikdə,*
*Neçələri ölür otuz beşində.*
*Neçələri gedir doxsan yaşında,*
*Neçələrin gündə gözü qalıbdır.*

*Neçələrin bala durmaz yuvada,*
*Neçələrin əli qalmaz duada.*
*Neçələrin dövran sürür dünyada,*
*Neçələrin seyri, düzü qalıbdır.*

*Neçələri xınalayır əlləri,*
*Neçələri döşə düzür gülləri.*
*Neçələri incələyir belləri,*
*Neçə gözəllərin nazı qalıbdır.*

*Mən Cüməyəm, xoş keçinmir zamanım,*
*Axirətdə qarşı gəlsin imanım.*
*Beş gün dövr etməyə gəlmir gümanım,*
*Ol Aşıq Rəcəbin sazı qalıbdır.*

# İKİ HƏCVİN TARİXÇƏSİ

Molla Cümə görkəmli Azərbaycan aşığıdır. Onun yaradıcılığı XIX əsrin sonları və XX əsrin əvvəllərinə təsadüf edir. Bu müddət ərzində Molla Cümə zəngin ədəbi irs qoyub getmişdir. Aşığın mövzu daurəsi genişdir. O, klassik Azərbaycan aşıq sənətinin ənənələrini uğurlu surətdə davam və inkişaf etdirmiş, bununla belə XIX əsr Azərbaycan aşıq yaradıcılığına yeni motiv və keyfiyyətlər gətirmişdir.

XI əsrdə Azərbaycan aşıq poeziyası yeni bir mərhələyə daxil olmuşdu. Klassik aşıq poeziyasının sabitləşmiş ənənələri üzərində qərar tutan “XIX əsr aşıq sənəti yeni-yeni keyfiyyətlərlə zənginləşmişdi. Hər şeydən əvvəl burada ictimai-siyasi motivlər güclənmiş, həyata fəal münasibət, çox zaman isə müdaxilə, kəskin tənqid, satira aşıq poeziyasında məhz XIX əsrdə özünə mövqe qazanmağa başlamışdı.

Görkəmli xalq aşığı olan Molla Cümə də öz dövründə səsini müasirlərinin səsinə qoşmuş, çoxlu satirik şeirlər, həcvlər yazmışdır.

Görkəmli xalq aşığı olan Molla Cümə də öz dövründə səsini müasirlərinin səsini qoşmuş, çoxlu satirik şeirlər, həcvlər yazmışdır.

> Məşdilərin üstümüzdə borcu var,
> Saldat pulu, bir də Mirzə xərci var,
> İki koxa, otuz manat töycü var,
> Az demirəm, hələ çoxdu, ay arvad!

“Hacılar”, “Əfəndi”, “Molla”, “Axsaq Laçın”, “Almalı İsa dəllək”, “Hacı Kərimi həcv”, “Səid”, “Cavadağa” və başqa həcvləri aşığın yaradıcılığında mühüm yer tutur. Əlbəttə, bizim burada aşığın bütün həcvlərindən danışmağa imkanımız yoxdur. Ancaq ikisi barədə qısa da olsa fikrimizi söyləyək. Çünki

bunlar həm XIX əsr aşıq poeziyamız və həm də Molla Cümənin yaradıcılığı üçün səciyyəvidir.

Bu həcvlərdən birisi "Hacı Kərimi həcv"dir. Hacı Kərim Qax rayonunun Qıpçaq kəndinin varlılarındandır. Bu əsərin biz üç variantını yazıya almışıq. Ən mükəmməli Qax rayonunun İlisu kəndində Cəmil Həmzəyevin dilindən yazdığımızdır. Biz ekspedisiyada olarkən ağsaqqallar, aşıqlar bu həcvin yazılma tarixini ətraflı surətdə nəql elədilər. Biz Şəkinin Aşağı Göynük kəndində aşığın dostu İdris Mustafayevin dediklərini yazıya almışıq. Hacı Kərim çox xəsis, zalım və kinli bir varlı idi. Molla Cümənin xalq içərisində nüfuzunun get-gedə artması, xüsusilə həcvləri onu çox narahat edirdi. Hacı Kərim özünü aşığa üzdən dost kimi göstərir, camaatın yanında guya ona hörmət etdiyini söyləyirdi. Ancaq onun bütün bu zahiri hərəkətləri müqabilində aşıqdan nəinki tərifli şeir, hətta bircə xoş kəlmə də eşitməmişdi. Çünki Hacı Kərimin daxili aləmini Molla Cümə yaxşı bilirdi. Nəhayət, aşıqdan intiqam almaq üçün onun əlinə fürsət düşür. Cüməni biabır etmək, ona mənəvi zərbə vurmaq qərarına gəlir. İdris Mustafayev nəql edir ki, çəltiyə çıxmağın vaxtı gəlib çatmışdı. Molla Cümə çəltiyə həmişə mənimlə birgə çıxardı. Bu zaman 2-3 ay çöldə qalmaq, çəltiyin əkilməsi, suvarılması ilə fasiləsiz məşğul olmaq lazım idi. Molla Cümə mənə dedi ki, evdə ailənin azuqəsi qurtarmışdır, bilmirəm nə edim. Çox fikirləşəndən sonra aşıq yaxın bir neçə kəndi dolaşmaq qərarına gəlir ki, bəlkə ailəsinə bir şey tapsın. Gəlib Qıpçaq kəndinə çıxır. Kəndin girəcəyində görür ki, bir araba gəlir, araba yaxınlaşır, onun içində Hacı Kərim yayxanıb oturmuşdu. O, Molla Cüməni saxlayır, yağlı dilini işə salır, haraya, nə məqsədlə getdiyini xəbər alır. Aşıq ona dərdini açmaq istəmir, buna baxmayaraq, Hacı Kərim ondan əl çəkmir ki, çəkmir. (Cümə bilirdi ki, Hacı Kərimdən ona xeyir yox, yalnız zərər dəyə bilər). Aşıq məqsədini deməyə məcbur olur. Bu zaman Hacı Kərim xoş bir görkəm alaraq aşığa deyir ki, get bir araba tap, qoş gətir, mən sənə buğda verərəm. Molla Cümə

buna inanmır, inad edir, nəhayət, yalvarır ki, ona toxunmasın, azad etsin, özü başqa yerdən taxıl tapacaqdır. Ancaq Hacı Kərim elə inandırıcı, mülayim danışır ki, Molla Cümə inanmağa məcbur olur. Hacı Kərim deyir ki, axşamüstü evdə, darvazanın qabağında səni gözləyəcəm, gəl bir tağar buğdanı apar. Cümə isə cavabında borcu yalnız məhsul vaxtı verə biləcəyini söyləyir. (Cümə, yay aylarında Zaqatala, Balakən rayonlarında varlıların zəmisində biçinçilik edərdi).

Çəltik əkininin qızğın vaxtında Cümə inanmasa da, Hacı Kərimdən borc buğda almaq üçün araba dalınca getməli olur. Axşamüstü idi. Qıpçaq kəndinin camaatı işdən sonra həyətə, yola, doqqaza çıxıb dəstə-dəstə oturub söhbət edirdilər. Hacı Kərim də bir tərəfdə papirosunu tüstülədir, harın-harın danışırdı. Belə bir zamanda Molla Cümə arabanı sürüb gəlir. Aşığı görən Hacı Kərim ayağa qalxır, üzünü camaata tutub ucadan deyir: "Ay camaat, doğrudan da, aşıqların ağlı olmazmış, bircə baxın buna, mən demişəm gəl sənə bir tağar buğda verəcəyəm, o da inanıb araba sürüb gəlibdir, mən taxıl paylayanam, ay Molla Cümə, sənin ağlın başındadır, yoxsa itirmisən" və s. Bu sözləri eşidən aşıq çox pərt olur, başını aşağı salır, mənən sarsılır. Elə arabanın üstündəcə balaca sazını çıxarıb sinəsinə basır, camaatın gözü qarşısında Hacı Kərimi həcv edir (Aşığın çox kiçik sazı varmış, həmişə çuxasının altında gəzdirərmiş, yeri düşən kimi çıxarıb əlini sazına vura-vura bədahətən şeir qoşarmış, qızı Reyhan indi də həmin sazı saxlayır). Həcv dildən-dilə düşür, sonralar Hacı Kərim Molla Cümənin adını eşidəndə uzaq qaçırmış.

Aşığın haqqında bəhs açdığımız ikinci həcvi "Axsaq Laçın" adlanır. Bunun da əsas variantını biz Cəmil Həmzəyevdən yazıya almışıq. Bir variantını da ixtisarla Hümmət Əlizadə "Aşıqlar" (1938) kitabında çap etdirmişdir. Bu həcvin də yaranmasının çox qəribə bir tarixçəsi vardır.

Şəkinin Oxud kəndində Laçın adında bir baqqal olub. "Axsaq Laçın" ləqəbilə məşhur imiş. Çox varlı olub. Bir gün

Axsaq Laçın Molla Cüməyə xəbər göndərir ki, oğluma toy edirəm, arzum budur ki, toyu sən çalasan, ona görə də heç kimə söz vermə və kənddən də çıxma, bu günlərdə ismarışı alan kimi gələrsən. Molla Cümə ona inanır və oturub evdə gözləyir. Ancaq günlər keçir, heç bir xəbər-ətər çıxmır. Bir gün Molla Cümə yanında da şagirdləri Şəkiyə gəlir. Qulağı çalır ki, Axsaq Laçın toyunu eləyib qurtarıb. Toya Şəkinin Səbətli kəndindən Aşıq Dülgəroğlu çağrılıb. Dülgəroğlu milliyyətcə ermənidir, ancaq şeirlərini azərbaycanca qoşub, sazda da çox gözəl çalıb-oxuyur.

Aşıq həcvlərində varlıları, zülmkarları birbaşa adı və ləqəbilə tənqid edirdi. “Axsaq Laçın”a da Molla Cümənin kini, nifrəti həddini aşır. Ona görə də bəzən ədəbdən kənar sözlər işlədir. Şirəli, axıcı, xalq dilinin poetik zənginliklərindən istifadə ilə qoşulan həcvlər az bir zamanda xalqın dilində əzbər olurdu. Bu həcvlər, əlbəttə, bir sənətkarın şəxsi, necə deyərlər, giley-güzarı deyildi, el tənəsi, el qəzəbi, el nifrəti idi. Ağsaqqalların dediyinə görə, aşığı el içərisində hörmətdən salmaq istəyən varlılar, dindarlar özləri hörmətdən düşür və el içərisində bədnam olurdular.

Haqqında bəhs etdiyimiz bu həcvin yaranmasına səbəb olan bu əhvalat Molla Cümənin tərcümeyi-halı ilə bağlı başqa bir hadisə ilə əlaqədardır. Onu da buraya əlavə edək. Molla Cümə Axsaq Laçının onu ələ saldığını, ona mənəvi zərbə vurduğunu biləndən sonra Şəkidə, şagirdləri də yanında olan çayxanalardan birinə girir. Demə, toyu çalıb kəndə qayıdan Dülgəroğlu yolüstü həmin çayxanaya gəlibmiş, camaatın xahişilə çalıb-oxuyurmuş. Bu vaxta qədər Dülgəroğlu Molla Cüməni görməmiş və tanımayırmış, yalnız adını eşitmiş və bir çox şeirlərini də bilirmiş. Uzaqdan qiyabi surətdə Dülgəroğlu hələ gənc, istedadlı Cüməyə böyük rəğbət və hörmət bəsləyirmiş. Bu səbəbdən Molla Cümənin gəlişinə heç məhəl qoymur, əhəmiyyət vermir. Hətta salamını da belə almır. Onun bu hərəkətindən Molla Cümə təsirlənir. Aşıq Məhəmməd Həsrə-

tovdan yazıya aldığımız "Dost gərək əzəl deyə dosta salam əleyküm" misrası ilə başlayan divanisini oxuya-oxuya məclisə daxil olur. "Molla Cümə şagirdindən usta salaməleküm" deyə sözünü tamamlayır. Dülgəroğlu Cüməni tanıyır, yaxına gəlir, görüşür, şad olur, məclis yenidən qızışır. Cümə maraqlı, təsirli və hazırcavab sözlərilə tamaşaçıları, hətta Dülgəroğlunu da valeh edir. Onda Dülgəroğlu təklif edir ki, çayxanada yığılan bütün nəmər Molla Cüməyə çatsın. Ancaq Molla Cümə heç nəyə məhəl qoymayıb şagirdlərilə birlikdə çayxananı tərk edir.

Molla Cümənin geniş əhatəli yaradıcılığındakı həcvlərin nəşri və tədqiqi həm aşığın dünyagörüşünün, həm də XIX əsr aşıq poeziyamızın bir sıra özünəməxsus xüsusiyyətlərinin aşkarlanmasında mühüm əhəmiyyəti ola bilər.

***1990***

## Molla Cümənin əsərlərində işlənən tarixi, əfsanəvi, əsatiri şəxs və obrazlar

**Adəm** – Tanrının gildən yaratdığı ilk insandır, bəşəriyyətin atası sayılır. O, həm də ilk peyğəmbərdir. Allah Adəmdən sonra Həvvanı yaratmış və hər ikisi cənnətə göndərilmişdir. Onlar şeytanın sözü ilə qadağan edilən buğdanı yedikləri üçün cənnətdən çıxarılmışdır.

**Bilqeys** – Yəmən ölkəsinin qədim Səba şəhərində hökmdar olmuş, şəhəri abad edərək onu şöhrətləndirmişdir. Bilqeys Süleyman peyğəmbərin şan-şöhrətini, müdrikliyini eşitmiş, onu ziyarət etmək üçün Fələstinə gəlmiş, öz məsləkini qurban verərək peyğəmbərə məhəbbət bağlamışdır. Bilqeysin Süleymanla məhəbbət macəraları bütün Şərqə yayılmışdır. Bilqeysin adı məhəbbət, sədaqət rəmzi kimi hədislərdə, qədim hekayətlərdə və başqa mənbələrdə çəkilmişdir.

**Bubbu quşu** – nağıllarda olan Hüd-hüd (şanapipik) quşudur. Ona Süleymanın quşu da deyilir. Çünki bu quş guya Süleyman peyğəmbərlə Bilqeys arasında xəbər aparıb gətirir, Bilqeysin sirlərini açırmış.

**Qaf** – Əfsanəvi Simurq quşunun yaşadığı ehtimal olunan dağın adıdır. Belə bir mülahizə də var ki, Qaf Qafqaz dağıdır.

**Qarun** – Əsatirlərdə həddindən artıq dövlətli və həm də xəsis bir surət kimi təsvir olunur. Eramızdan əvvəl yaşamışdır. Əvvəllər çox yoxsul olan Qarun yəhudilərin peyğəmbəri Musanın vasitəsilə böyük mal-dövlət sahibi olmuşdur. Qarun mal-dövlətindən zəkat verməkdən boyun qaçırdığı üçün Musanın bədduası ilə guya bütün sərvəti ilə diri-diri yerə batmışdır.

**Qara daş** – Kəbədə göydən gəlmiş olan müqəddəs bir daşdır, ziyarətçilər mütləq onu öpməlidirlər.

**Davud** – Süleyman peyğəmbərin atasıdır. Davudun o qədər gözəl səsi var imiş ki, oxuyanda bütün heyvanlar, quşlar toplaşıb onu dinlərmişlər.

**Zəm-zəm** – Kəbənin yanında bir su quyusudur. Müsəlmanların əqidəsinə görə onun suyu müqəddəsdir.

**Əyyub** – İslam mənbələrinin birində söylənir ki, Əyyub adında bir peyğəmbər olub. O, çox varlı imiş və Allahı çox sevirmiş. Məlaikələr onun paxıllığını çəkərək allaha deyir: "Əyyuba hədsiz var-dövlət verdiyinə görə səni çox sevir". Allah Əyyubu imtahana çəkir, əvvəl əmlakını, sonra övladını və nəhayət sağlamlığını əlindən alır. Bunlara baxmayaraq Əyyub Allaha olan məhəbbətini daha da artırır, Allah yenə onu mükafatlandırır. Hətta Əyyubun bədəninə qurd da düşür. Ancaq o yenə də Allaha inamını itirmir.

**Ənqa** – Əfsanəvi bir quşdur, guya Qaf dağında yaşayır, tükləri zərif, boynu uzun, üzü insan üzünə bənzəyən və hər bir heyvandan bir əlaməti olan bir quşdur. Yaşadığı ərazidə nə qədər quş, heyvan varsa hamısını ovlayırmış, heyvan olmadıqda isə insanları aparırmış. Əsatirə görə xalq peyğəmbərə müra-

ciət eləmiş, Ənqa quşu ildırım vasitəsilə öldürülmüşdür, bununla da onun nəsli kəsilmişdir. Bəzi mənbələrdə Ənqa Simurq kimi də təsvir edilir.

**Əzrail** – Ölüm mələyidir, ona Mələkülmövt də deyilir.

**Əhmədi-Mürsəl** – Məhəmməd peyğəmbəri adlarından biri.

**Əhmədi-Muxtar** – Məhəmməd peyğəmbərin adlarından biri.

**Əsədulla-Əbutalib-Əliyul Mürtəza** – Həzrət Əlinin ləqəbi.

**Əfrasiyab** – Turan dövlətinin eradan əvvəl yaşamış hakimlərindən biri olmuşdur. "Şahnamə"də o, Əfrasiyab adlanır, ancaq türk mənbələrində onun adı Alp-Ər Tunqadır. Qədim göytürk, Uyğur, Qaraxanilər kimi türk dövlətləri sərkərdələri ilk hökmdar olan Əfrasiyabın bahadırlıq ənənələrini davam etdirmişdir. İgid hökmdarın xaincəsinə öldürülməsi türk dünyasını sarsıtmış, onun haqqında mərsiyələr, bahadırlıq dastanı yazılmış, bu dastanın müəyyən hissələri "Şahnamə" vasitəsilə gəlib bizə çatmışdır. Mərsiyələr isə Mahmud Kaşğarinin "Divani-lüğət-it-türk" kitabıda saxlanmışdır. Əfrasiyab igidlik, qəhrəmanlıq, dəyanət rəmzi kimi yad edilir.

**Əshabi-Kəhf** – Əshab-sahiblər, Kəhf-mağara deməkdir. Eramızın ikinci əsrində Dəpyanus adlı zalım bir padşahın zülmündən altı nəfər qaçmış, yolda bir çoban da Qitmir adlı iti ilə onlara qoşulmuşdur. Onlar bir mağarada sığınacaq tapmış və üç yüz doqquz il orada yatıb qalmış, ayılanda nə qədər yuxuda olduqlarını hiss etməmişlər.

**Zal** – Firdovsinin "Şahnamə" poemasının qəhrəmanlarından birdir. Samın oğlu, Rüstəmin atasıdır. Əsatirə görə? doğulanda tükləri ağ olmuş, atası onu ana südündən məhrum etmiş, qurda-quşa yem olsun deyə Elbrus dağına tullamışdır. Simurq quşu onu tapıb yuvasına aparmış, öz balası kimi bəsləmişdir. Zal böyüyərək məğlubedilməz bir pəhləvan kimi şöhrət tapmışdır.

**Zöhrə** – Ulduz adıdır, qədim iranlılar ona **Nahid**, romalılar **Venera**, ərəblər isə **Zöhrə** demişlər. Bu ulduza el arasında karvanqıran da deyilir. Qədim İran miniatürlərində əlində dəf rəqs edən gözəl bir qadın kimi əks etdirib. Şərq ədəbiyyatında və mifologiyasında eşq ilahəsinin rəmzi kimi məhəbbətlə tərənnüm olunur. Zöhrə müğənnilərin və musiqiçilərin himayədarıdır. O, həm də Şərqdə geniş yayılmış "Tahir və Zöhrə" dastanının qəhrəmanıdır.

**Zöhhak** – "Şahnamə"də zülmkar şah surətidir.

**Zümrüd** – Əsatiri Simurq quşuna verilən addır. Bu quş Günəşlə, Ayla əlaqədar kosmik obrazdır. Nağıllarımızda xeyirxah qüvvələri təmsil edir, müsbət qəhrəmanların köməkçisidir.

**Züleyxa** – Misir hökmdarının arvadıdır. O, öz qulu Yusifə aşiq olmuş, ondan istədiyi cavabı ala bilmədiyi üçün ona böhtan atmışdır.

Züleyxa və Yusiflə bağlı Tövratda, Quranda çoxlu hekayətlər mövcuddur. Züleyxanı öz quluna aşiq olmaqda qınamışlar. Züleyxa Misirin kübar qadınlarını evinə qonaqlığa çağırmış, yeməkdən sonra süfrəyə portağal-naringi gətirtmişdir. Qadınlar bıçaq alıb meyvəni soymağa başlayarkən Züleyxa Yusifi otağa buraxmışdır. Rəvayətə görə, bütün qadınlar Yusifin gözəlliyini görüb özlərini itirmiş və portağal əvəzinə barmaqlarını kəsmişlər. Sonralar Yusif Misirin hökmdarı olmuş, Züleyxa da öz arzusuna çataraq onunla qovuşmuşdur.

**İbrahim Xəlil** – Babildə doğulmuşdur, peyğəmbərlərdən biridir. Deyilənlərə görə Kəbənin əsasını o qoymuşdur. Onun övladı olmadığı üçün Allaha dua edir, oğlu olduğu təqdirdə onu qurban kəsəcəyini bildirir. Allah-taala ona bir oğul bəxş edir. O, övladının adını İsmayıl qoyur. İsmayıl böyüyür, ancaq ata oğlunun qurbanlıq olduğunu yadından çıxarır. Lakin bir gecə peyğəmbər yuxusuna girir. İbrahim Xəlil oğlunu İsgəndər dağının başına çıxarır, əlinə bıçaq alıb oğlunu kəsmək istəyir, ancaq bıçaq kəsməyir. O, hirslənib bıçağı daşa çalır, daş iki bölünür. Allah-taalanın buyuruğu ilə Cəbrayıl bir qoç gətirir

və İbrahim Xəlil qoçu qurban kəsir. İndiki qurbanlıq bayramı isə bu hadisə ilə bağlı yaranmışdır.

**İsa** – Xristian dininin banisidir, peyğəmbərdir. "İncil"də yazıldığına görə, o, insanların xilaskarıdır. İsanın möcüzələri çox geniş yayılmışdır. O, ən ağır xəstələri sağaldır, ölüləri dirildir, kor doğulanların gözlərinə işıq verirmiş.

İsanın süfrəsi də bir möcüzə kimi göstərilmişdir. Bu süfrədə behiştdən gələn yeməklər olarmış və heç bir zaman qurtarmazmış.

İsa Fələstində yeni bir din təbliğ etdiyinə görə, düşmənləri tərəfindən çarmıxa çəkilərək öldürülmüşdür. O, ölümündən üç gün sonra dirilmiş və mələklər tərəfindən göyün dördüncü qatına qaldırılmışdır. Deyildiyinə görə, məşhər günündə yenidən dünyaya qayıdacaq və şər qüvvələr üzərində qələbə çalacaqdır.

**İsgəndər (e.n. 356-323)** – Makedoniyalı İsgəndər, İsgəndər Zülqərneyn (ikibuynuzlu), İsgəndəri-Kəbir və başqa adlarla məşhurdur. Dünyada şöhrət tapmış məğlubedilməz sərkərdədir. Onun qalib yürüşləri bir çox əfsanə, əsatir və nağılların mövzusu olmuşdur.

Rəvayətə görə o, Xızrla birlikdə zülmətə getmiş, dirilik suyu içmək istəmişdir. Dirilik suyunu içmək yalnız Xızra qismət olmuşdur.

**İsrafil** – Dini mənbələrdə İsrafil öz Suru ilə möcüzə yaradan səmavi şəxs kimi təsvir olunur. Göstərilir ki, qiyamət qopandan, yer üzü alt-üst olandan sonra İsrafil öz Surunu çalacaq, sağ qalmış insanları oyadacaq və yer üzündə yenidən həyat başlanacaq.

**Yəqub** – Yəhudilərin peyğəmbəridir. Yusif peyğəmbərin atası, İbrahim Xəlil peyğəmbərin isə nəvəsidir. Deyilənə görə, Yəqubun doğma, ögey on iki uşağı olmuş, ən kiçiyi Yusifi o, hamıdan çox istəmişdir. Yəhudə onun böyük oğlu, Yusifin ögey, İbn Yamin (Binyamin) isə onun kiçik oğlu, Yusifin doğma qardaşıdır.

**Yədi-Beyza** – "Ağ əl". Musa peyğəmbərin möcüzələrindən biri imiş. Əsatirə görə, Musa əlini qoltuğuna salıb çıxaranda əlindən nur saçılarmış.

**Yəcuc-Məcuc** – Əsatirlərə görə Asiyanın şimalında və Çin sərhədində yaşamış iki tayfa olmuşdur. Bəzi rəvayətlərə görə, onlar Nuhun oğlu Yusifin nəslindən imişlər. Çox qısa boylu, döyüşkən və həmişə qarət və talançılıqla məşğul olmuşlar. Qonşu xalqlar İsgəndər Zülqərneynə onlardan şikayət etmişlər. O, bu xalqları Yəcuc-Məcuclardan qorumaq üçün "Səddi-İsgəndər"i çəkdirmişdir.

**Yusif** – Yəqub peyğəmbərin oğludur. Ağlı, gözəlliyi ilə o biri qardaşlarından seçildiyi üçün atası onu daha çox istəyirmiş. Ona görə də qardaşları onu quyuya atmış və atasına yalandan xəbər vermişlər ki, Yusifi qurd yemişdir.

Misirə gedən tacirlər onu quyudan çıxarıb bazarda qul kimi satmışlar. Misir hökmdarı onu bazardan alıb evinə gətirmiş, onun arvadı Züleyxa isə çox gözəl olduğuna görə Yusifə aşiq olmuşdur. Yusif isə Züleyxanı rədd etmiş, ona görə böhtanlara düşmüş, ömrünün yeddi ilini zindanda keçirmişdir. Sonra onu zindandan azad etmişlər. Nəhayət, o, Misirin padşahı olmuşdur.

**Yusifi-Kənan** – Şərq ədəbiyyatında, əsatirlərdə özünə geniş yer tapmışdır. Tövratda, Quranda onun haqqında maraqlı məlumatlar var.

**Yunis** – Qədim yəhudi peyğəmbərlərindəndir. O da İsa və Musa kimi möcüzələr göstərirmiş. Yunis peyğəmbər xalqı ulduzlara deyil, bir olan Allaha sitayişə çağırmışdır. Xalq onun bu niyyətini qəbul etməmişdir. Ona görə də bir gəmiyə minib Dəclə çayı vasitəsilə qaçmaq istəmişdir. Bu isə Allahın xoşuna gəlməmişdir. Yunis əlacsız qalıb çaya tullanmış, onu bir balıq udmuşdur. O, balığın qarnında Allaha tövbə duası oxuduğu üçün balıq onu neçə gün qarnında saxlayıb, sonra sahilə atmışdır.

**Keyxosrov** – Kəyanilər sülaləsinin üçüncü hökmdarıdır. "Şahnamə"nin qəhrəmanlarındandır. Səyavuşun Əfrasiyabın qızı Firəngizdən olan oğludur. Bir çox mənbələrdə Kir adı ilə böyük fateh kimi təsvir olunur.

"Astiaq", "Tomiris" əfsanələrində onun haqqında yarıtarixi məlumatlar verilmişdir. Massagetlər qəbiləsinin başçısı Tomiris ilə vuruşda öldürülmüşdür.

**Kəbə** – Ərəbistanda, Məkkə şəhərində müsəlmanların ziyarət yeri. Məhəmməd peyğəmbərin qəbri də buradadır.

**Kənan** – Nuh peyğəmbərin oğludur, atasının dinini qəbul etmədiyi üçün dənizdə boğulub ölmüşdür.

**Kufə** – Ərəb İraqının ən məşhur və ən böyük şəhərlərindən biridir, bir zaman xilafətin mərkəzi olmuşdur.

**Loğman** – Süleymanın atası Davud peyğəmbərlə bir əsrdə yaşamışdır. O, uzun ömür sürmüş, əfsanəvi bir həkim, filosof, hər bir dərdə dərman tapan şəfqətli bir loğman olmuşdur.

**Namrud** – Babil şəhərinin binasını qoymuş və onun hökmdarı olmuşdur. İbrahim Xəlil peyğəmbər bütpərəstlik əleyhinə təbliğat apardığına görə Namrud onu tutmuş, əl-ayağını bağlatdırıb diri-diri tonqala atddırmışdır. Allahın əmri ilə od dönüb gülzara çevrilmişdir. İbrahim Xəlil sağ qalmışdır.

Bəzi tarixçilərin verdiyi məlumata görə Namrud ümumiyyətlə, Babil hökdarına verilən addır.

**Məryəm** – İsa peyğəmbərin anasıdır. O, Beytül-müqəddəsdən qaçarkən yolda guya İsanı dünyaya gətirməli olur. Məryəm burada bir quru xurma ağacına söykənir, ağacın dibindən bulaq çıxır. İsa doğulur. Mələklər bu bulağın suyu ilə İsanı yuyurlar. Sonra Məryəm yenə quru xurma ağacını tərpədir. Ağacdan təzə xurmalar tökülür. Məryəm oradan İsanı Dəməşqə gətirir, orada yun əyirərək bir müddət onu saxlayır.

Əsatirdə deyilir ki, Məryəm İsanı atasız doğduğuna görə yəhudilər ona böhtan atmış, bu zaman yenicə doğulmuş

İsa dilə gəlmiş və anasının təmiz və günahsız olduğunu bildirmişdir.

**Mənsur** – Həllaci Mənsur (9-10 əsrlər) **Ənəl-həqq** – Allah mənəm deyən məşhur sufi mücahid, şair və filosofdur. Bağdadda kafir, dinsiz kimi edam olunmuşdur.

**Maçin** – Çində türkdilli qəbilələrin yaşadığı əraziyə deyilir. Əhalisi Cığatay dilində danışır. Özlərinə məxsus adət-ənənələri, etnoqrafik xüsusiyyətləri vardır.

**Musa** – Yəhudi dininin banisidir. Musa da İsa, Xızır, Məhəmməd kimi çoxlu möcüzələr göstərmişdir. Allah ona doqquz möcüzə vermişdir. Tur dağı onun adı ilə bağlıdır. Musa bu dağda Allahla danışırmış.

O, həmin dağda qırx gün oruc tutmuş və öz tayfasını da pəhrizə dəvət etmişdir. Musa peyğəmbərin bir əsası var imiş. O, təhlükə qarşısında əsanı atdıqda, əsa əjdahaya dönüb düşməni udarmış.

**Nil** – Missisipi və Missisuridən sonra dünyada ən böyük çaydır, Afrika qitəsindədir.

**Nuh** – nuh (növhə-mərsiyə) sözündəndir. Adəmdən sonra dünyaya gələn ikinci peyğəmbərdir. Deyilənə görə, doqquz yüz əlli il yaşamışdır. Allahın əmri ilə Nuh bir gəmi düzəldir. Ailəsini, ona iman gətirənləri və hər heyvandan bir cüt gəmiyə qoyur. Dənizdə tufan başlayır, qırx gün, qırx gecə davam edir, güclü yağışlar yağır, yer üzü yüz əlli il su altında qalır, bütün canlılar fəlakətə uğrayır, məhv olur. Allahın əmri ilə tufan dayanır, gəmi üzüb çıxır. Nuhun arvadı, övladları Sam, Yafəs, Ham bir də onun dininə iman gətirənlər salamat qalmışlar.

Bəşəriyyət yenidən Nuh övladlarından törəyib artmağa başlamışdır.

**Nuşirəvan** (Ənuşirəvan– "ölməz ruh") – Birinci Xosrovun ləqəbidir. Sasani hökmdarı Qubad şahın oğludur. Sasanilərin nəslindən olan məşhur hökmdardır. Onun vaxtında dövlətin şöhrəti artmış, ərazisi genişlənmişdir.

Nuşirəvan Şərqdə adil və ideal şah kimi məşhur olmuş, şifahi və yazılı ədəbiyyatda onun haqqında yazılmış maraqlı nümunələr vardır.

**Rüstəm** – "Şahnamə" qəhrəmanlarındandır. Zalım oğludur, Fövqəladə gücə malik, məğlubedilməz qəhrəman olmuşdur. Rüstəm Zal Şərq əsatirlərində igidlik, qəhrəmanlıq rəmzi kimi məşhurdur.

**Səməndər** – Əfsanəvi quşdur. Dağların ən yüksək yerlərində yaşayır. Guya Səməndər quşu min ilə yaxın ömür sürür. Qanadlarından qığılcım çıxır, Səməndər quşu bu qığılcımdan yanıb kül olur.

Guya külündən bir yumurta əmələ gəlir, həmin yumurtadan da özü kimi bala çıxır. Əsatirə görə Səməndərin qanadları – tükü qov, dırnaqları isə poladdır. O, bir balasını uçuranda sevinir, qanad çalır, ayaqlarından çıxan qığılcımlar onu yandırır. Bəzi əsatirlərə görə, musiqi Səməndərin çıxardığı səslərdən yaranmışdır.

**Süleyman** – Davud peyğəmbərin oğludur. Atasının ölümündən sonra eramızdan əvvəl 1016-cı ildə hökmdar olmuşdur. Beytül-müqəddəs-Qüds-Yerusəlim şəhəri onun vaxtında şöhrət tapmışdır. Asəf adlı vəzir onun yaxın məsləhətçisi olmuşdur. Onun haqqında çoxlu əsatir və rəvayətlər yaranmışdır. Süleyman bütün heyvanların və quşların dilini bilirmiş, nə vaxt, hansı quşu istəsə onun hüzurunda hazır olarmış. "Bəzmi-Süleyman" – Süleyman məclisi ifadəsi də buradan qalmışdır. Külək də, cinlər, friştələr də Süleyman peyğəmbərin ixtiyarında imiş. Əsatirlərin birində də onun sehrli üzüyündən danışılır.

Süleyman ədalətli və müdrik hökmdar rəmzidir.

**Turi-Sina** – Ərəbistan yarımadası ilə Misir arasında yerləşən (Sina yarımadasında) dağın adıdır. Əsatirə görə, Musa peyğəmbərlə Allah arasında ilk danışıq bu dağda olmuşdur.

**Turan** – İranlıların qədim türklərin yaşadığı əraziyə verdiyi addır. İran, Turan Şərq əsatirlərində, folklor və yazılı

ədəbiyyatımızda bu ad tez-tez işlədilir. Əsatirə görə Turan adı Cəmşidin nəvəsi, Firudunun oğlu Turun adı ilə bağlıdır.

Turan adına "Avesta"da da rast gəlirik

**Xosrov-Xosrov Pərviz** – Sasani hökmdarlarındandır. Hürmüzün oğlu, Nuşirəvan Adilin nəvəsidir. N.Gəncəvinin "Xosrov və Şirin" dastanının qəhrəmanıdır.

**Habil və Qabil** – Adəm peyğəmbərin övladları olub. Quranda göstərilir ki, Qabil Habilə ad olan qızı almaq istəmiş və ona görə də qardaşını hədələmişdir. Bu işi yoluna qoymaq məqsədilə Adəm onlara qurbanlıq gətirməyi təklif etmişdir. Habilin qurbanlığı qəbul edildiyi üçün paxıllıq edən Qabil qardaşının başına daş salıb öldürmüşdür.

**Harut-Marut** – Mələklər göydə Allaha şükayətlənirlər ki, insanlar yerdə nə istəsə edir, hətta cinayətlərə də yol verirlər. Allah-taala iki ən etibarlı mələyi – Harut və Marutu seçib Babil şəhərinə göndərir. Mələklər yerdə ədaləti qorumalı, məhkəmə işlərinə də nəzarət etməli idilər.

Bir gün ərindən boşanmaq barədə Zöhrə adlı gözəl bir qadın onlara müraciət edir və kömək istəyir. Mələklər Zöhrənin gözəlliyinə aşiq olur, ona kömək etməyə söz verirlər. Zöhrə onlardan İsmi-Əzəm duasını öyrənir. Yalnız bundan sonra onların istəyinə razı olacağını bildirir. Zöhrə İsmi-Əzəmi oxuyub göylər aləminə çəkilir və Səyyarəyə dönərək, əbədi orada qalır.

Allah yolundan çıxdıqlarına görə Harut və Marutu cəzalandırır. Başı aşağı asdırır.

**Firon** – Misir hökmdarına verilən ənənəvi ad. Şərq və eləcə də Azərbaycan əsatirlərində, nağıl və dastanlarda adı tez-tez çəkilir. Zülm, əsarət, qəddarlıq rəmzi kimi işlədilir.

**Xızr** – Əsatiri peyğəmbərdir. Zülmətdə dirilik suyu içdiyinə görə əbədi həyat qazanmışdır. Xızr insanları heyrətə gətirən möcüzələr göstərmək iqtidarına malikdir. Harada, kim dara düşsə Xızr özünü oraya yetirib kömək əlini uzadır. Bəzən Ağ atın belində uçur, hətta dənizin dibində də dara düşən

insanlara kömək göstərir. Əsatirlərdə Xıdır Nəbi, Xıdır İlyas adları ilə məşhurdur. Dastanlarda aşiqlərə eşq camı içirir.

**Həyyi-Sübhan** – Həyyi Allahın surətlərindəndir. Həmişə diri deməkdir. Sübhan – təmiz, pak – Allah.

**Hatəm** – Şərq ədəbiyyatında, əfsanə və nağıllarda, aşıq yaradıcılığında əliaçıqlığı, səxavəti, comərdliyi ilə şöhrət tapmış bənzərsiz bir şəxs kimi təsvir olunur.

**Həcərül-Əsvəd - Qara daş** – Kəbədədir. Guya əməli saleh, təmiz adamlar o daşı çox asanlıqla qaldırır, günahkar və pis adamlar isə qaldıra bilmirlər.

**Hörmüz** – Zərdüştlük dinində xeyir Allahıdır. Yaranış miflərinə görə Hörmüz həm də yerin, göyün, nəbatat aləminin və s. yaradıcısı olmuşdur.

**Hüma** – Cənnət quşu. Ona dövlət quşu da deyirlər. Əsatir və nağıllarda təsvir olunur ki, bu quş kimin başına qonarsa, ona dövlət və səadət gətirər.

**Cami** – Əbdürrəhman Cami. XV əsrin böyük tacik – İran şairidir.

**Ceyhun** – Asiya qitəsində ən böyük çaylardan biridir. Buxara və Mərv şəhərlərinin arasında olan Amu səhrasından keçdiyi üçün bu çay sonralar Amu-Dərya adlandırılmışdır.

**Cəbrayıl** – Allahın əmrlərini, vəhylərini peyğəmbərlərə çatdıran mələyin adıdır.

**Cəmşid** – İranda hökmranlıq etmiş pişdadilər sülaləsinin dördüncü hökmdarıdır. Deyilənə görə, yüz il hökmranlıq etmişdir. Əsil adı Cəmdir. Günəş məbudu olduğuna görə ona Cəmşid deyilmişdir. Şərq ədəbiyyatı və əsatirlərində Cami-Cəm, yəni Cəmşidin Cəmi məşhurdur. Bu Cəmdə yəni əfsanəvi qədəhdə Cəmşid bütün dünyanı görürmüş. Bəzi mənbələrdə şərabın Cəmşid tərəfindən icad edildiyi göstərilir.

Cəmşid hind əsatirlərinə görə günəş məbududur. "Avesta"da o, hökmdar kimi təsvir olunur.

**Şeyx Sənan** – Ruhanidir. O, gürcü qızı Xumara aşiq olmuş, xristian dinini qəbul etmiş və nəticədə yenə də sevgilisinə çata bilməmişdir.

**Şəddad** – Əsatirə görə, Yəmən ölkəsində (Ərəbistanda) yaşamış çox zamlı bir hökmdar olmuşdur. Guya Cənnəti o, tikdirmişdir. Əfsanə və əsatirlərdə, yazılı ədəbiyyatda və folklorda onun adı qəddarlıq, məşəqqət rəmzi kimi çəkilir.

## MOLLA CÜMƏ – BÖYÜK USTAD

*Qanıram, ustaddan almışam dərsi,*
*Oxumuşam ərəb, türkinən farsi,*
*Fikrim seyr eyləyir ərşnən kürşü,*
*Dərin kitabların mənasıyam mən.*

Mən Qax rayonunun İlisu kəndində boya-başa çatmışam. İlisu Azərbaycanın dilbər guşələrindən birində, dağların döşündə yamacda yerləşən bir kənddir. İlisu sözü haqqında mən yazmamışam, əgər müəyyən qədər yazan olubsa da mən oxumamışam. Sözün mənasını axtarmaq, araşdırmaq əlbəttə maraqlıdır və lazımdır. Məşhur Azərbaycan ədəbiyyatşünası və folklorşünası əslən Şəkidən olan Salman Mümtaz iki cildlik «El şairləri» kitabının sonunda Azərbaycan elləri haqqında tərtib elədiyi cədvəldə yazır: «Elisu – beş yüz evli, təbiətlə zəngin ab və havası ilə məruf bir kənddir ki, bir adı da İlıqsudur. Bu kənd Zaqatala qəzasının birinci kəndlərindən hesab olunur». Təkrar edirəm, mən indiyə qədər İlisu sözü haqqında yazmamışam. Diqqət edin, Salman Mümtaz Elisu yazır. Bu sözdə «el» sözü var, bir də türkcə ulus sözündən düşmüş ulu sözü də vardır. Ancaq «su» sözü hamıdan çox özünu büruzə verir. Salman Mümtaza görə bir adı ılıq sudur. Kəndin 7 kilometrliyində dağların birləşdiyi bir yerdə sal qayalardan su fəvvarə ilə çıxaraq aşağı doğru axır. Suyun yerə töküldüyü yerə

hələ çatmamış 2-3 kilometr aralı yüksək sal qayalardan axan bu suyun qoxusu burunları qıcıqlandırır. Bəlkə bu suya görə - yəni iyli suya görə də həmin kəndi İlisu yaxud, iyli su adlandırıblar. Ancaq bu adda bir türk mənşəyi də tapmalıyıq, o da ulus sözü ilə bağlıdır. Qədim türklərin yaşadığı uluslardan biridir. Əgər İlisu kəndini əhatə edən toponimləri çözələsək, türk toponimləri sıra ilə düzüləcək. Ərtürgən, Qəçbərə, Kötüklü, Yezli (Yazlı), Qarabulaq, Kürmük və sairə dağ, yer adlarıdır. Ərtürgən İlisunun ən məşhur yaylaqlarından biridir. Bu sözü həm Ərtürkan və həm də Türkan kimi işlədirlər. İlisu kəndində Qaradolaq, Quşlar, Buyurtmalar, ölügözlər, adamaylar, bacarlar, aşıqlar, keçəllər kimi nəsillər var. İlisuda qıtzalar adında bir nəsil var. Qıtza qoyun və keçilərin qıçlarına deyilir. Məncə, bu çox qədim dövrlərdə türk tayfaları içərisində maldarlıqla əlaqədar meydana gələn nəsil adıdır. İlisuda şeytanlar adında da nəsil var. Onu da əlavə edim ki, İlisu kəndinin toponimləri, nəsil adları öyrənilməyib, tədqiq olunmayıb. Mən oxuculardan üzr istəyərək yalnız yadımda qalanları söyləmişəm. Kiçik yaşlarımda bir gün anam mənə dedi ki, o, Dədə Xort-Xort nağılını bilir. Mənə onu danışacaq. Bu nağılı eşitmək Ulu Tanrıdan mənə qismət olmadı. Məncə, bu, Dədə Qorqud dastanları haqqında idi. Səciyyəvidir ki, M.F.Axundov da Dədə Qorqudu Dədə Xort-Xort adlandırmışdır.

Mən tələbəlik, aspirantlıq və ilk müəllimlik illərinin məzuniyyətini doğma İlisu kəndində keçirmişəm. Evimiz kəndin girəcəyindədir. Bir gün yayın qızmar günlərinin birində kəndin ortasına, camaatın gur olan yerinə gedirdim. Birdən qarşıma ulu şairimiz B.Vahabzadə və əslən İlisudan olan «Kommunist» qəzetinin xüsusi müxbiri Əhmədiyyə Əliyevlə qarşılaşdım. Səmimi söhbətimiz oldu, hətta «Kürmük» çayının məcrasına da endik. Bəxtiyar müəllim dedi ki, mən altı ildir ailəmlə birlikdə İlisuda istirahət eləyirəm. Kəndin başında Füzuli bağının yanında mənə ev verirdilər. Bəxtiyar müəllim məndən xəbər aldı ki, bu zonanın, yəni Şəki-Balakən zonasının

ləhcələri ilə məşğul olan varmı? Mən cavab verdim ki, Pedaqoji institutunun dosenti Azər Hüseynov uzun illərdir bu sahədə tədqiqat aparır, Azər müəllimin qənaətinə görə burada qədimdə hun və qıpçaq tayfaları yaşamışlar. Bəxtiyar müəllim dedi ki, mən İlisu qocaları ilə söhbətlər aparmışam, onların danışıqları ilə Anadolu türklərinin danışıqları arasında çox yaxınlıq, oxşarlıq vardır. Bəxtiyar müəllimlə belə bir nəticəyə gəldik ki, hətta alimlərin tədqiqatları da göstərir ki, İlisu qədim türk tayfalarının yaşayış yeri olmuşdur.

Uşaqlıq illərində oynadığımız bir oyun mənim yadıma düşdü. Axşam üstü iki dəstəyə bölüşürdük. Bir dəstə gizlənir, o biri dəstə isə axtarmağa başlayırdı. Axtaran dəstə onları axtarmağa başlamazdan əvvəl deyirdi. Haqq Qara Qazan yerini dəyiş, bərk otur. Sonra o dəstəni axtarıb tapana qədər gözləyirdik. Bu nə ifadədir ki, bizim – uşaqların dilinə düşüb yaşayır. Məncə bunlar qədimdən el arasında qalmış türk sözləridir. İndi mən bu sözləri çözələyim: Haqq Allahdır, Ulu Tanrıdır. Qara iri, böyük mənasında da işlənir. İlisuda qara ilə bağlı çoxlu adlar var. Qaradolaq, Qarabulaq, Qarasu, Qara Məmməd və s. Qazan isə Oğuzların ən çox sevdiyi insan adıdır. Yenə təkrar edirəm, bu sırf türk sözləri əsrlərlə İlisuların dilində yaşamış və indi də yaşamaqdadır.

Mən İlisuda müharibə və məktəb illərini xatırlayıram. Bizimlə olan qonşu evlərin əhatəsində bir o qədər də böyük olmayan boş ərazi var idi. Biz oraya Leyli xalanın məhəlləsi deyirdik. Bəzən axşamlar məhəllədə tonqal (biz ona halla deyirdik) qalayıb söhbətlər edir, nağıl və əhvalatlar danışırdıq. Bizim çox sevimli kitablarımız var idi. «Koroğlu» dastanı, «Atalar sözləri və məsəlləri», xüsusilə də «Nizami əsərlərinin el variantları». Necə deyərlər, hətta hallanın işığında oxuyurduq. Şəxsən bizim qonşumuz olan Məhsim dayının Qaxın Qorağan kəndində bir dəmirçi dükanı var idi. O, çox gözəl dəmirçi idi. Balta, bıçaq, dəhrə, xəncəl, qiyməkeş və sairə əşyaları çox ustalıqla qayırırdı. Məhsim dayı aşıq şeirlərinin vur-

ğunu idi. Hətta saz da çalırdı. Mən lap uşaq ikən Məhsim dayıdan və onun bizimlə yaşıd olan oğlundan hətta Molla Cümə haqqında da eşitmişdim. Məhsim dayının dediyinə görə böyük sənətkarı həyətində öldürüblər, özü də saldatlar. İbrahim xəlil kiçik bir sazı dınqıldada-dınqıldada Molla Cümənin bəzi şeirlərini oxuyurdu (əlbəttə bunları atası Məhsim dayıdan öyrənmişdi). Onun oxuduğu şeirdən bir neçə misra uzun müddət yadımda qalmışdı.

*Mən necə şad olum sən ağlayanda*
*Ay miskin maralım sən ağlayanda*
*Ay bülbül sədalım sən ağlayanda.*

Bu qoşmanı mən şifahi dildən də topladım, əlyazmalarında olan variantlarla da müqayisə elədim, sonra da aşığın külliyatına daxil etdim. Qoşma beş bənddir, üçünü oxuculara təqdim edirəm.

*Beyqafil qovrulub məlul ağladın*
*Müşgül oldu halım sən ağlayanda*
*Elə bil ağladın canım dağladın*
*İtirdim kamalım sən ağlayanda.*

*Elə yıxdın könlün qərib qonağın*
*Ölüncən sinəmdən çəkilməz dağın*
*Qorxuram soluxar o gül yanağın*
*Ay ləbi zülalım, sən ağlayanda.*

*Gəzirsən ağlayıb qan süzə-süzə*
*Hayıfdı yaş dolmaq o xumar gözə*
*Cümənin dərdini yetirdim yüzə*
*Ay Miskin maralım, sən ağlayanda.*

Mən İlisuda məktəb illərində teatr, kino, artistlər, konsertlər görməmişəm. Ancaq İlisuluların əsrlər boyu yaratdıqları mənəvi sərvət nümunələri dilimin əzbəri olub. Sonra Bakıya gəlmişəm, xalqımızın ən qədim və zəngin mənəvi sərvətləri ilə tanış olmuşam. Əziz oxucum, boynuma alım ki, mən Bakıda böyük forklorşünas kimi yetişmişəm. Mənim folklorşünas kimi fəaliyyətimin kökündə, əsasında doğma İlisuda eşidib, mənim-

sədiyim laylalar, bayatılar, mahnılar, nağıl, rəvayətlər durur. Burada başqa bir məqam da var. Təkrar edirəm İlisu Azərbaycanın dilbər guşələrindən birində dağ yamacının üstündə yerləşən bir kənddir. Mən evimizdən balkona çıxanda 50 metro qabaqda dağ görürəm. Dağ yarısına qədər otlaqdır, sonra qalın meşə başlayır. Dağın lap başında sal qayalar var, onlar çox böyükdür, özü də yasdıdır, ona görə biz onu taxta qaya adlandırmışıq. Günəşli günlərdə taxta qaya vasitəsi ilə günün vaxtını da müəyyən edirik. Çevrilib arxa tərəfə baxanda şırıltı ilə axan Kürmük çayını görürük. Bu şırıltı səni sirli və naməlum bir dünyaya səsləyir. Çaydan o tərəfdə düzənliklər var, yenə də bu düzənliklərdən başqa bir dağlar başlayır. Bu dağlar da yarısına qədər otlaqdır, sonra sıx meşə gəlir. Həmin dağların başında Ərtürgən var. Bu, gözəl bir düzənlikdir, məşhur yaylaqdır. Hər dəfə bu düzənlikdə səliqə ilə səpələnmiş qoyun sürüsünü görürsən. Bura çox sevilən yerdir. Çünki vaxtı ilə burada ərtürklər yaşamışlar. Kim deyə bilər ki, bu təbii gözəllikləri Ulu Tanrının səxavətlə bəxş elədiyi meşələr, dağlar, düzənlikləri, Kürmük və Ağçay çaylarının şırıltıları romantik bir gəncin poetik aləminə təsir eləyə bilməzdi. Bu gözəlliklərlə birlikdə Ulu Tanrının bəxş elədiyi vergi, ilham məni qanadlandırıb gələcək yaradıcılığıma təkan, qol-qanad verib. Məhz bununla da mən fəxr edirəm. Elə bil İlisunun zəngin mədəni sərvətləri Ulu Tanrıdan verilən ərməğan idi.

*Dağlar dağlara baxar*
*Aradan çaylar axar*
*Bizim yerdə adətdir*
*Sevən sevənə baxar.*

İlisu dörd tərəfdən dağlarla əhatə olunub. Dağların başı buludlara dəyir. Eləcə dağlar doğrudan da bir-birinə baxır, aradan isə çaylar axır. Kürmük çayı və Ağçay çayı. Qədimdən bəri İlisulular doğrudan da bir-birinə açıq-aydın sevgilərini bəyan ediblər. Böyük aşığımız Qurbaninin «Bənəfşə» rədifli qoşmasında oxuyub saxladığı «Sayrı» sözünü İlisulular öz bayatı-

sında oxuya-oxuya əsrlərin keşməkeşliklərindən keçirərək qoruyub saxlamışlar.

*Əzizim çəkə-çəkə*
*Bu dərdim çəkə-çəkə*
*Sağ canım seyri oldu*
*Yar dərdi çəkə-çəkə.*

İlisulular «sayrı»nı «seyri» kimi tələffüz edirlər.

**Molla Cümənin əlyazmaları.** Deyildiyinə görə M.Cümənin çoxlu əlyazmaları olmuşdur. Ömrünün sonuna yaxın aşıq şeirlərini bir əlyazmasına səliqə ilə köçürmüş, oğlu Həsənə yadigar vermişdir. Həmin əlyazmasını sənətkarın yazdığı bir xitab müxəmməsi müşayiət etmişdir. Bizə görə bir sıra əlyazmaları məhz bu bəyazdan sonra meydana gəlmişdir. Əlyazmaları aşığın qızı Reyhan xanım saxlayırmış. Reyhan xanımla görüşdə o, mənə dedi ki, hələ Böyük Vətən müharibəsi ərəfəsində folklorşünas H.Əlizadə aşığın sorağı ilə Şəkiyə gəlmişdir. Reyhan xanım şəxsən mənə dedi ki, H.Əlizadə bütün əlyazmalarını qabağına töküb üç gün onların evində oturub istədiyi şeirləri köçürmüşdür. Sonra əlyazmaların hamısını Reyhan xanıma qaytarmış və möhkəm tapşırmışdır ki, bunları heç kimə verməsin. Sandığa qoyub bərk saxlasın. Reyhan xanım deyir ki, əgər H.Əlizadə əlyazmaları aparsa da mən ona heç nə deyə bilməzdim. Eşitdiyimə görə Şəkidən məsul işçilərindən birisi at üstündə gəlib Reyhan xanımı hədələyərək əlyazmaların böyük bir hissəsini aparmışdır. Mənə dedilər ki, M.Cümənin bir neçə əlyazması Azərbaycan Respublikası Əlyazmaları fondunda var. Ulu Tanrıya and olsun ki, mən onları görmədim. Bir də ki, axı mənim onlara ehtiyacım olmadı. Deyirdilər ki, hətta Dağıstanda da aşığın əlyazmaları olub. Mən ekspedisiyaya gedərkən əsas məqsədim elin dilindən, qocalardan M.Cümənin şeirlərini yığmaq idi. Ekspedisiya müddətində hara gedirdimsə deyirdilər ki, orada aşığın əlyazması da olmuşdur. Ona görə də mən əlyazmalarının da axtarışına başladım. Bir də ki, əlyazmalarında olan variantlar, daha dürüst, etibarlı və səhih idi. İki

illik ekspedisiya dövründə aşığın dörd əlyazmasını ələ keçirə bildim. Ekspedisiyadan qayıdandan sonra onlar üzərində işləməyə başladım. Həm də ekspedisiya müddətində elin dilindən yazdığım nümunələr də mənim köməyimə çatırdı. İndi arxivimdə ekspedisiya dövrü elin dilindən yazdığım 11 bloknot vardır. Əlimdə olan dörd əlyazmasını şəxsən özüm əldə eləmişəm, məndən başqa heç kim onları görməyib və istifadə də eləməmişdir. İlisu əlyazmasını mənə Yunus dayı Təhməzov bağışlamışdır. Orada 200-ə qədər şeir var. Şeirlər şəkillər üzrə düzülmüşdür. Əlyazmasının əvvəllində yazılıb:

«Rəhmətlik Molla Cümənin qəlbindən süzülən müxəmməs, təxmis, divani, qafiyə, kötəlləmə, əvvəl axır həmin dəftərə yazıldı.

*Bunları yazdım burda qalmaq üçün*
*Oxuyanlar bir dua qılmaq üçün*».

İlisuda mənə dedilər ki, kəndin Tovla Tala məhəlləsində də bir əlyazması vardır. Həmin ünvana getdim. Dedilər ki, ərəb əlifbası ilə əlyazması olub, ancaq indi yoxdur, hara olub bilmirik.

İkinci əlyazmasını mənə Zaqatalanın Kəpənəkçi kəndində aşıq Murtuzəli hədiyyə vermişdir. Burada qoşma, gəraylı, divani, təcnis, müxəmməs, müxtəlif biçimli şeirlər, bayatılar toplanmışdır, yüzdən artıq şeir vardır. Ancaq çox təəssüf olsun ki, əlyazmasının yarıcırılmış bir hissəsi qalmışdır. Burada Molla Cümənin Könlü ilə deyişməsindən bir parça da vardır.

Üçüncü əlyazmasını bizə Şəkinin Baş Göynük kəndində Molla Cümənin qızı Reyhan xanım bağışlamışdır. Əlyazmasının əvvəlində yazılıb: «Bu dəftər yazıldı 1333-cü idə katibi Molla Cümə ibn Salah. Mərgum «Aşağı Layisqi» əlyazması 122 səhifədir, bir ümumi dəftərdir. Adi çernillə yazılıb, özü də köçürən o qədər də savadlı olmayan şəxsdir. 1940-50-ci illərdə köçürülüb. Onu da deyim ki, Molla Cümənin öz xətti ilə yazdığı əlyazmasının taleyi mənə məlum deyil, orijinalnı mən görməmişəm. Bu əlyazması elə bil həmin əlyazmasının orijina-

lından köçürülmüşdür. Hər halda məndə olan əlyazmaların hamısından daha çox şeirlər bu dəftərdə qalmışdır.

Dördüncü əlyazmasını bizə Şəkinin Aşağı Göynük orta məktəbinin müəllimi Vədud Hacıyev bağışlamışdır. Bu əlyazması M.Ə.Sabirin 1914-cü ildə İsa bəy Aşurbəyovun mətbəəsində çap olunmuş «Hophopnamə»sidir. Kitabın səhifəsində bütün ağ yerlərdə Molla Cümənin şeirləri yazılmışdır. Bəzi şeirlərin yazıldığı illəri də göstərilmişdir.(1918,1919) Həmin kitabin səhifələrində Molla Cümənin 150-ə yaxın şeiri vardır. Oxuculara məlum olsun ki, mən bu əlyazmaların üzərində 35 il işləmişəm. Əlyazmaları çox çətin oxunur, bütün əlyazmaları və elin ağzından topladığım 11 dəftərdə yazılmış şeirləri dəfələrlə oxumuş, müqayisələr aparmış və nəhayət orijinalı aşkar edib aşığın külliyyatına daxil etmişəm. Son kitabı Prezident administrasiyası 25 min nüsxədə çap edib, Azərbaycanın bütün rayon və kəndlərində olan kitabxanalara hədiyyə verilmişdir. 41 müəllif vərəqi həcmindədir. Ulu Tanrı şahiddir ki, bu kitabda yalnız və yalnız mənim şəxsən əldə etdiyim şeirlər toplanmışdır. Başqa əlyazmalarına ehtiyac duymamışam. Türk dünyasının, Ulu Tanrının qarşısında üzüm ağ, alnım da açıqdır. Ömrü faciə ilə başa çatmış sənətkarın şeirlərini bir-bir əldə edərək 41 müəllif vərəqi həcmində kitabla əbədi bir heykəl ucaltmışam. Bütün şeirlər yalnız və yalnız şəxsən əldə etdiyim nümunələrdir. Bununla fəxr edir, qürur hissi keçirirəm.

Molla Cümə çox zəngin, əvəzi olmayan ədəbi irs qoyub getmişdir. Mən Şəki, Qax, Zaqatala, Balakən rayonlarını dolaşdım. Oaralarda deməк olar ki, Molla Cüməni tanımayan, şeirlərini əzbərdən bilməyən şəxs yox idi. Bütün bu yerlərə yayılmış, insanların hafizəsində özünə yer almış şeirləri toplamaq, yığmaq, səliqəyə salıb aşığın bağrından qopduğu xalqına çatdırmaq, təvazökarlıqdan kənar olmasın, mənə nəsib olmuşdur. Mən bununla əvvəlcə böyük ustada, sonra da özümə əbədi heykəl qoymuşam. İndi qalır bu böyük tükənməz ədəbi irsi incələmək, çözələmək, geniş hərtərəfli təhlil edib qiymətləndirmək.

Molla Cümənin bir neçə şeirini 1930-cu illərdə Hümmət Əlizadə çap eləmişdir. Bir şeirini də Salman Mümtaz «El şairləri» kitabında vermişdir. Mən fəaliyyət göstərdiyim illərdə aşığın əsərlərindən ibarət aşağıdakı kitabları çap eləmişəm. Bunlar Molla Cümənin ilk kitablarıdır.

**1.Molla Cümə. Şeirlər. «Azərnəşr», 1966, 5 m/vərəqi.**

Bu kitab böyük əks-səda doğurdu. Bu kitab əsas etibarilə mənim ekspedisiya zamanı topladığım nümunələrdən tərtib olunmuşdur. Oxucular təəccüb elədilər. Molla Cümənin o qədər şeiri varmış. Bu kitabın çapında mənə keçmiş tələbə yoldaşım Azərbaycan KP mərkəzi Komitəsinin katibi, professor Şıxəli Qurbanov kömək eləmişdi. Kitabın bir nüsxəsini Şəkiyə Baş Göynük kəndinə Molla Cümənin qızı Reyhan xanıma hədiyyə göndərdim. Bir müddətdən sonra Reyhan xanımın oğlu, Molla Cümənin nəvəsi Mövlud Əzizovdan bir məktub aldım. Orada yazılmışdı: «Hörmətli Paşa müəllim, salam! Sizin göndərdiyiniz hədiyyəni aldım və çox şad oldum. Siz bilirsinizmi ki, anam və bacılarım nə qədər şad oldu. Xüsusən, anam nə qədər şadlandı, həddi-hesabı yoxdur. Kitab çatandan sonra demək olar ki, kəndin adamlarının hamısı kitabı oxumaq xüsusən babamın həyatı haqqında Sizin yazdığınız müqəddiməni oxunması ilə daha çox maraqlanırlar. Bir sözlə, sizin adınız əzbər olmuşdur. Xüsusən Sizin Cavad oğluna verdiyiniz yüksək qiymət Göynük camaatı arasında böyük şadlığa səbəb olmuşdur… Paşa müəllim, Sizə məlum olsun ki, bu yaxınlarda babamın şəkli tapılıb. Qaxdan həkim Calal kişinin qızı verib. Axtıda (Dağıstanda – P.Ə.) 1914-cü ildə çəkilib. Həmin şəkilin üzünü çıxarıb hər halda ya özüm gətirərərm və ya göndərərəm.»

**2.Molla Cümə. Seçilmiş əsərləri. «Yazıçı», 1983, 8 m/vərəqi.**

Kitab çap olunanda «Yazıçı»nın baş redaktoru Sabir Rüstəmxanlı, şöbə müdiri isə Məmməd İsmayıl idi.

**3.Molla Cümə. Əsərləri. «Maarif», 1995, 25 m/vərəqi.**

Bu kitabda Molla Cümənin əlimdə olan bütün əsərləri verilmişdir. Çapında təbii olaraq məni çox incitdilər. Yenə mənim dadıma Elçin müəllim Əfəndiyev çatdı, o, kömək elədi.

**4.Molla Cümə. Əsərləri. Prezident adminstrasiyasının nəşri, «Şərq-Qərb» nəşriyyatı, 2006-cı il, 41 m/vərəqi həcmində.** Bu nəşr Almaniyanın Halle şəhərində Maksirlüter Universitetinin kitabxanasında saxlanılır.

Bu kitab 25 min tirajla çap olunub. Azərbaycanın bütün kitabxanalarına pulsuz hədiyyə verilmişdir.

**5.Molla Cümə (rus dilində). «Yazıçı», 1984.**

Bütün bu illərdə aşığın yaradıcılığının tədqiqatı və öyrənilməsi ilə də məşğul olmuşam, aşağıdakı məqalələrim çap olunmuşdur:

1. Görkəmli sənətkar. Aşığın əsərlərinin 1966-cı il nəşrinə müqəddimə.
2. Molla Cümə. Aşığın seçilmiş əsərlərinin 1983-cü il nəşrinə müqəddimə.
3. Molla Cümənin yeni əlyazması. «Bakı» qəzeti, 1976, 5 aprel.
4. Molla Cümə haqqında yeni məlumat. «Ədəbiyyat və incəsənət» qəzeti, 1976, 10 aprel.
5. Aşıq şeirlərinin axtarışında. «Ədəbiyyat və incəsənət» qəzeti, 1981.
6. Molla Cümənin əlyazmaları. «Elm və həyat» jurnalı, 1989, №8.
7. Molla Cümənin ölümü haqqında həqiqət. «Azərbaycan gəncləri», 1989, oktyabr.
8. Molla Cümənin gözəlləri. «Azərbaycan qadını» jurnalı, 1989, №6.
9. İsmi Pünhan kimdir. «Ədəbiyyat və incəsənət» qəzeti, 1990.

10. Molla Cüməni kim öldürüb. «Ədəbiyyat və incəsənət», 1993, 3 dekabr.
11. Molla Cümə. «Musiqi dünyası» jurnalı, 2000, №2.
12. Böyük sənətkarımıza əbədi heykəl ucaldaq. «Şəkinin səsi» qəzeti, 1995, №26.
13. İki həcvin tarixi. «Sovet kəndi» qəzeti, 19 aprel 1990
14. Fərdi ekspedisiyadan etüdlər. «Dədə Qorqud» jurnalı, 2004, №4.
15. Böyük sənətkar Molla Cümənin «Əsərləri»nə müqəddimə. 2006

## Molla Cümənin zəngin və mürəkkəb yaradıcılığına ötəri bir giriş

Ulu Tanrı mədəniyyətimiz tarixində ilk vergisini, ilhamını türk dünyasının ən böyük ozanı olan Dədəmiz Qorquda bəxş elədi. Azərbaycan xalqının nə vaxtsa verdiyi bir tikə çörəyi ovsanata keçdi, dünya şöhrətli dastanımızın əlyazması orta əsrlərin dağıntıları, yanğınları içindən salamat çıxdı. İndi dünyanın ən böyük şərqşünasları, folklorşünasları 200 ildən artıqdır ki, bu abidənin sirlərini açmaqla məşğuldur. Bu sirlər hələ əsrlərdə də açılacaqdır. Ulu Tanrının vergisi ilə Nəsimi və Füzuli Azərbaycan və eləcə də bütün Şərq poeziyasını daha zirvələrə yüksəltdilər. Doğma vətənləri Azərbaycanda isə böyük Nizaminin renessansını doğma ana dilində yenidən canlandırdılar. M.P.Vaqif mindilli rübabını işə salaraq xalq, aşıq şeir formalarına klassik şeir formaları cərgəsində yer elədi. M.F.Axundov qədim Şərq fəlsəfəsini dirildərək yeni müasir məcraya salıb daha da yüksəltdi. M.Ə.Sabirin satirik misralarının dalğaları yalnız türk dünyasının deyil, bütün Şərqi sarsıtdı, dünyanın gözlərini həyata açdı. S.Vurğunun poeziyası bütün türk dünyasının muzası oldu. Ulu Tanrımızın dünya şöhrətli dahilərimizə bəxş etdiyi vergi və ilhamdan Şəkidə

böyük aşığımız Molla Cüməyə də pay düşdü. Bunu böyük sənətkarımız öz şeirləri ilə dəfələrlə etiraf etmişdir. Molla Cümə deyir:

*Mən içdiyim Xızır Nəbi verəndir.*

Şəki əlyazmasının bir yerində oxuyuruq:

«On beş yaşlarında bir dəfə gözəl bahar günlərinin birisində sərin bir ağac kölgəsində yataraq yuxuya dalır. Bu vaxt röyasında ona badə verirlər ki, bunu içib qurtardığı hədd anası oyadır. Bildiyimiz tarixi rəvayətlərə görə də bir çoxları röyada içmiş olduqları badənin təsirindən aşıq olurlar. Əz öncümlə Molla Cümə də həmin gündən yazmağa başlamışdır». Mən Baş Göynükdə qocaların birindən belə bir rəvayət eşitdim. «Müdrik Nəbi Cüməyə eşq şərabı içirir. Şeyx aşığa oxumağa icazə verir. Lakin məlahətli səsini əlindən alır».

Mən hələ Molla Cümə yaradıcılığı ilə məşğul olmağa başlamamışdım. «Azərbaycan gəncləri» qəzetində bir məqaləyə rast gəldim. Təxminən 1960-cı illərin əvvəlləri idi. Məqalə belə adlanırdı: «Molla Cümənin yeni əlyazması». Çox diqqətəlayiq idi ki, o zamana qədər Molla Cuma yazıldığı halda məqalədə Molla Cümə yazılmışdı. Məqalənin müəllifi o zaman Respublika Əlyazmaları Fondunun elmi işçisi Nəsrəddin Qarayev idi. N.Qarayev məqalənin əvvəlində 1927-ci ildən sonra Molla Cümənin şeirlərinin çap olunduğu qaynaqları yada salır. O yazırdı: «Son illərdə Azərbaycan SSR Elmlər Akademiyası Respublika əlyazmaları fonduna Molla Cümənin bir neçə əlyazması daxil olmuşdur. Həmin sənədlərdən birində yazılır. «Bu dəftər yazıldı 1333-də kitabatün Molla Cümə ibn Salah, mərgum Aşağı Layisqi». Miladi tarixi ilə 1914-cü ilə gəlib çıxır. Həmin qeyddən məlum olur ki, həmin əlyazması Molla Cümənin ilk əlyazmasıdır. Oxuculara məlum olsun ki, bu 1914-cü ildə Molla Cümənin özünün seçdiyi şeirlərdən ibarət topladığı və oğlu Həsənə yadigar verdiyi əlyazmasının avtoqrafıdır. Əlavə edim ki, Baş Layisqidə Molla Cümənin qızı Reyhan xanımın mənə verdiyi əlyazması həmin nüsxədən kö-

çürmədir. Üstündəki yazılma tarixi də eynidir. Mən həmin əlyazmasının originalını görməmişəm. Bir də ki, yuxarıda dediyim kimi mənim gücüm, səhhətim yalnız əldə etdiyim dörd əlyazmasını işləyib hazırlamağa çatdı. Eşitdiyimə görə fonddakı əlyazmasını oxumaq üçün Mövlud Yarəhmədov evinə aparıb sonra qaytarmamışdır.

Mən Molla Cümənin Prezident adminstrasiyası tərəfindən çap olunan əsərlərinin ilk nüsxəsini Folklor institutuna aparıb direktora hədiyyə verdim. Müdafiə sovetinin iclası idi. Sovet üzvlərindən biri – professor tez kitabı alıb vərəqləməyə başladı. Təxminən 20 dəqiqə vərəqlədi, kənara qoyub dedi «el şairidir». Məlum olsun ki, el şairi haqqında mən kitablarımın birində yazmışam. Mən bu termini qəbul eləmirəm. Bu termini ilk dəfə Salman Mümtaz işlədib. Böyük alim çox zaman el şairini elin – yəni Azərbaycan ellərinin şairi mənasında işlətmişdir. Şair sözünün yanına «el» sözünü artırıb onu kiçildir, aşığın yanına isə «şair» sözünü artırmaqla onu böyütmək istəyirik. Bunların heç birini qəbul etmək düz deyil, şair şairdir, aşıq da aşıqdır. Şairin də böyüyü, kiçiyi var, aşığın da. Molla Cümə aşıqdır. Özü də böyük aşıqdır. Bunu sənətkar öz əsərlərində dəfələrlə etiraf etmişdir.

*Aşıqlıq adəmdən icad olubdur*
*Ol adəm atanın nəvəsiyəm mən*
*Dünyaya nə qədər aşıq gəlibsə*
*Külli aşıqların anasıyım mən.*

*Aşıq anasıyam şairlər kökü*
*Gəzirəm dünyanı divanə təki*
*Mahalım Göynükdür şəhərim Şəki*
*Layisqi kəndinin binasıyam mən.*

Yaxud həcvlərin birində:

*De xəbərin çatdı mənə*
*Ay Oxuddu Axsaq Laçın*
*Kim deyər bizə aşıq*
*Kiriyibən dursaq Laçın.*

Oğlu Həsənə ithaf elədiyi müxəmməsin bir yerində deyir:

*Çətindir aşıqlıq*
*Bunu asan sanma oğul*
*Alışıb nagah-nagah*
*Eşq atəşə yanma oğul*
*Olginən bir binəva*
*Zirəkliyi qanma oğul*
*Nə sevmə Leyli yarı*
*Nə Məcnuna dönmə oğul.*

Çoxlu şeirlərində özünün aşıq olduğunu razılıqla qeyd edir. O, aşıqlığı ilə elin içində sevildiyinə görə fəxr edir.

Molla Cümə qeyd edir ki, Ulu Tanrı ona aşıqlığı səxavətlə bəxş etməklə onun boynuna böyük və məsul vəzifə qoymuşdur:

*Aşıq olan cövrü-cəfaya dözsün,*
*Ciyərini qara daşdan eyləsin.*
*Boynunu vursalar sirrini açmaz,*
*Özün təmiz çörək aşdan eyləsin.*

Misallardan yenə də gətirmək olar. Molla Cümə aşıqdır, özü də aşıqlığı ilə fəxr eləyir:

*Aşıq olan bir məclisə girəndə,*
*Gəzinə dörd yana qızan nər kimi.*
*Hər havada sözün tamam eyləyər,*
*Ağılı başında əsil ər kimi.*

Yaxud:

*Bir aşıq ki, mətləbinə irməsə*
*Əlində çalınar saz ixtiyarsız* və s.

Azərbaycan xalqı aşıqlar haqqında çox qiymətli kəlamlar deyib. «Aşıq el anasıdır», «Aşıq gördüyün çağırar», «Aşıq üçün hər yer məhrəmdir», «Aşığınkı haynan, mollanınki vaynan». Molla Cümə də xalqımızın böyük aşıqlarından biridir. Azərbaycan aşıq sənətinin ən görkəmli nümayəndələrindən

biridir, təkrarolunmaz ustaddır. Molla Cümə Azərbaycan aşıq sənətinin görkəmli və orijinal nümunələrini yaratmışdır.

«Molla Cümə eşq əhlidir, Aşiqlər atasıdır». Molla Cümə aşiqdir, özü də böyük aşiqdir. Bütün bunlardan sonra özü etiraf edir ki, nakam aşiqdir, heç vaxt və heç zaman sevgilisinə qovuşa bilməmişdir. Ümumiyyətlə, nakamdır, böyük sevgidən kam ala bilməmişdir. Xüsusilə də butası İsmi Pünhan onu əziyyətə salıb. İsmi Pünhanın dərdindən hətta gecələr də yata bilmir. Molla Cümə özünü məhəbbətdə, sevgidə dünyanın ən böyük aşiqləri sırasında hesab edir. Onun əsas və ən çox sevdiyi aşiqləri isə bunlardır: «Məcnun, Fərhad və Kərəm ki eşq əhlidir, ondan qalan xilaf söylər fitnə-fel dustağıdır.» Molla Cümə eşqdən, məhəbbətdən, Allah vergisindən çox danışır, çox çalıb-oxuyur. Baxmayaraq ki, bu Ulu Tanrının vergisidir. Aşıq elindən, obasından üzr istəyir.

*Bu sevdaya salan sənsən*
*Bağışla ah uca Dərgah.*

Guya o, günah işlədir. Ancaq onun məhəbbəti təmiz, saf, ülvi, təbiidir, o məhz belə məhəbbəti tərənnüm edir. Molla Cümənin aşiqi maldan, dövlətdən və hər cür bəhanələrdən təmizdir. «Molla Cümə odlananda durub alar dəstəmaz», «Üz çevirər dərgahına», «Minacatı butasıdır nə mal, dövlət istəməz».

*Nə üçün zülfünə yaxıbsan xına*
*Salıbsan Cüməni qəmə, hicrana*
*Mal-dövlət özgəyə, bircə sən mənə*
*Xudadan qismətim ol, ağrın alım.*

Yaxud:

*Bir para axmaq adam*
*Bu dünyada mal cəm eylər*
*Səni təki yarı olan*
*Bu dünyada nə qəm eylər.*

Eşq elə bir Ulu Tanrı tərəfindən böyük sənətkara əzab, əziyyət kimi göndərilib. Eşq Molla Cümədə narahat, yanğın,

cünunluq kimi sözlər ilə yanaşı durur. Çox maraqlıdır ki, eşqdən şikayətlə başlayan şeirlər dünyadakı şikayət hissləri ilə tamamlanır. Molla Cümə özünü yalnız məhəbbətdən deyil, ümumiyyətlə, dünyadan şikayət edən, necə deyərlər, dünya zülmündən zəlil olan bir şəxs kimi təqdim edir. Aşığın şeirlərindən aşağıdakı misraları tapıb oxuculara çatdırıram.

*Gəlmiyəydim dünyaya mən bəxti qara,*
*Fəğanım qalxıbdır yeddi səmayə.*
*Dərdim çəkməz dəvə olsa yüz qətər*
*O qədər dərdim var qərəli yoxdur*
*Yüz dərman tapıldı çarəmdən qeyri*
*Yüz dərdlər sağaldı yaramdan qeyri.*
*Dərd, qara gün yaxısını tanıyan*
*Biri mənəm biri də varmı biləydim.*
*İlk axşamdan sabahadək ağlayan*
*Biri mənəm biri də varmı biləydim.*

Molla Cümə Azərbaycan aşıq sənətinin müəyyən dövrünü təşkil edir. Molla Cümənin yaradıcılığı klassik Azərbaycan aşıq sənətinin ənənələri üzərində ətə-qana dolub. Azərbaycanın Şirvan zonasının aşıqları uzun müddət onun zəngin yaradıcılığından bəhrələniblər. Aşıq yaradıcılığı əvəzsiz və tükənməz sərvətdir. Ümumiyyətlə, Azərbaycanda aşıqlar müxtəlif məktəblərdə çalışsalar da daim bir-biri lə əlaqəli olmuş və yaradıcılıqlarını davam etdirmişlər. Aşıq səyyar sənətkardır. O, el-oba ölkələr dolaşır. O, görməsə yaşaya və yarada bilməz. Diqqət edin, ən böyük klassik aşıqlarımız ölkələr dolaşıb, gəzib, arayıb-axtarıb tanış olmuş və sonra da gördüklərini sazın müşayiəti ilə ifa etmişlər.

Ələsgər:

*Aşıq olub tərki-vətən olanın*
*Əzəl başdan pür kamalı gərəkdir.*

Aşıq Alı:

*Qəribədir gəzdim diyarbədiyar*
*Əzəl əldə İrəvanı görmüşəm...*

*Gümrüdən üz tutdum Sarıqamışa*
*Ərzurumdan keçdim dağ aşa-aşa.*
*Gəzdim Türkiyəni mən başdan-başa*
*Həm yaxşını, həm yamanı görmüşəm.*

Xəstə Qasım Tikmədaşdan Dağıstana gəzməyə gəlmirdi, gününü keçirməyə getmirdi. El sənətkarları ilə görüşmək, əlaqə yaratmaq, öyrənmək və nəhayət öyrətmək, lazım gələrsə, sənət sınağı təşkil eləmək üçün gəlirdi.

*Varxiyanlı Aşıq Məhəmməd:*
*Məhəmmədəm gəşt elədim*
*Bu cümlə cahanı gəzib*
*Gəncəni, Qarabağı*
*Şəkini, Şirvanı gəzib*
*Xoy, Salmas, Marağa*
*Təbrizi, Tehranı gəzib.*

Aşıq poeziyamızın ən böyük, ən sevimli mövzusu, əlbəttə, məhəbbət mövzusudur. Aşıqlar bir sıra digər mövzu və motivləri də məhəbbət donuna geydirib ifa edirlər. Molla Cümə eyni zamanda böyük Aşiqdir. Molla Cümə eyni zamanda böyük Aşiqdir. Onun məhəbbəti necədir? M.Cümə saf, təmiz, ülvi qeyd-şərtsiz, qiybətsiz məhəbbəti təbliğ edir. Onun məhəbbəti hər bir vasitədən, maldan, dövlətdən kənar, təmiz, düzünə məhəbbətdir. Əsl, təmiz məhəbbət insanı ucaldır, sevdirir, canlı həyata qaytarır, belə məhəbbətlə sevən insan həyatda çox dəyərli bir yer qazanır.

Aşıq deyir:

*Molla Cümə eşq əhlidir*
*Aşiqlər atasıdır*
*Mədrəsədə dərs oxuyur*
*Fikrində də butasıdır.*

Molla Cümənin Azərbaycan mədəniyyəti, ədəbiyyatı, folkloru tarixində üç böyük aşiqi var. Onlar eşq fədaisidirlər, əbədi, ülvi məhəbbətləri ilə xalqın nəzərində göylərə yüksəlmiş

insanlardır. Bu üç aşiq özlərini təmiz, ülvi, sadiq, əbədi məhəbbəti yolunda fəda etmiş və beləliklə, elin qəlbində əbədiləşmişlər. Məcnun, Fərhad və Kərəm. Bu üç aşiqin adı hər zaman Molla Cümənin əsərlərində qoşa çəkilir. Əsl məhəbbətin nümunəsi kimi tələqqi edilir. O, fələyə müraciətlə deyir:

*Fərhad, Məcnun, Kərəm kanın almadı*
*Bir Yusifi sevdiyinə yetirdin.*

Başqa qoşmasında:

*Fərhad ilə Məcnun Kərəmdən qeyri*
*Cümə tək yetməyən murada kimdir!!*

Dünyaya müraciətlə yazdığı başqa bir şeirində yenə bu üç əbədi aşiqin adlarını bir yerə çəkir:

*Ey dünya, əlindən gedərəm dada*
*Əsliynən Kərəmi yandırdın oda*
*Başında məskəni quşlar yuvada*
*Məcnunla Leylanı neylədin dünya.*

Çox diqqətəlayiqdir ki, bu üç aşiq arasında Molla Cümə özünü daha çox Kərəmə oxşadır. Kərəm Əslinin oduna yanıb kül olub iki aşiqin külləri birləşib əbədiyyətə qovuşub. Onlar dünyada ən məşhur aşiqlər kimi mənən yüksəliblər. Molla Cümə məşhur şeirlərindən birini aşağıdakı bəndlə tamamlayır.

*Mənada Mollayam, Molla Cüməyəm,*
*İsmi Pünhan oduna şux pərvanəyəm,*
*Gəlmişəm dünyaya bir gün fənayəm,*
*Axırda Kərəm tək yanasıyam mən.*

Molla Cümə İsmi Pünhanın oduna şux pərvanədir. O, pərvanə kimi İsmi Pünhanın başına dolanır. Son nəticədə özünü yandırıb külə döndərəcək. Onların da külləri Kərəmlə Əslinin külləri kimi bir-birinə qarışıb əbədiyyətə qovuşacaqdır.

Nə üçün Molla Cümə bu üç dünyaya məşhur kama yetməmiş aşiqin adını tez-tez özü də bir yerdə çəkir. Ona görə ki, böyük sənətkar özünü böyük aşiq adlandırır, özü də ömründə kama yetməmiş Aşiq adlandırır. Molla Cümə bütün

şeirlərində əsl, sadiq məhəbbətə can atan, ancaq ona çata bilməyən Aşıq kimi özünü büruzə verir. Çox ibrətamizdir ki, Molla Cümə heç bir şeirində öz məhəbbətinə, sevgisinə qovuşması barədə söhbət açmır. O dərindən, ürəkdən, könüldən sevməyi bacaran aşiqdir. Ancaq can atdığı məhəbbətinə çata bilmir. Bu mənada o, Məcnun, Fərhad və Kərəmin necə deyərlər yoldaşı, sirdaşıdır.

*Yəqin bilin mən olmuşam*
*Məcnun kimi didərgin...*
*Kərəm kimi yanıb, yanıb*
*Dumanda əgləşmişəm.*

*Fərhad, Məcnun, Kərəm ki var*
*Eşq əhlinin gözüdür*
*Ondan qalan xilaf söylər*
*Fitnə fel dustağıdır...*

*İki dünya fikrin çəkib*
*Dolubanı daşıram*
*Ağıl kamal sarıdan*
*Məcnunun yoldaşıyam.*

Aşiqlik Molla Cüməyə istedad kimi verilib. Allah vergisidir. Özü deyir ki, «tifil ikən uğramışam bir cavanın seyrinə. Yeddi yaşda eşqə düşdüm ömrüm çatdı yarıya...» «Eşqə saldı, evim yıxdı.» Aşıq həmyerlilərindən, dinləyicilərindən üzr istəyir. O, guya eşqdən, məhəbbətdən, həm də dindən çox söhbət açır. Ulu Tanrının verdiyi aşiqliyi o çox zaman xalqdan gizlətmək istəyir, ancaq bilməyir. Eşqdən, məhəbbətdən çox danışdığı üçün hətta günaha batdığını da etiraf edir.

*Molla Cümə eşq əhlidir*
*Aşiqlər atasıdır*

Yaxud:

*Sərimə sevda enibdir*

*Dad fələk, bidad fələk*
*Ciyərim eşqə yanıbdır*
*Dad fələk, bidad fələk.*

Orta məktəbdə oxuyandan elə bil Molla Cümə mənə doğma olurdu. Mən 9-cu sinfi İlisu kəndində qurtarmışam. Onsuz da İlisuda siniflərdə şagirdlərin sayı az olurdu. Hər gün dərslərdə müəllimə cavab verirdik. 9-cu sinfi qurtaranda mənim düz doqquz dənə tərifnaməm var idi. Onları yana-yana düzmüşdüm. Tərifnamələrdə «əla»dan başqa qiymət yox idi. Onuncu sinif üçün şagirdlərin sayı bitmədi. Biz necə deyərlər, onuncular Qaxın mərkəzinə gəldik. Orada bizə bir otaq ayırmışdılar. Rayonun bütün kəndlərindən də bir neçə şagird gəlmişdi. Biz o otaqda qalırdıq. Özümüz də yorğan-döşəyi salıb yerdə yatırdıq. İndi mən təsəvvür edə bilmirəm, mən dərslərimə necə və harada hazırlaşırdım. Onuncu sinfi bitirdim. Qax rayonunda ilk medal mənə qismət oldu. Bu hadisə o şəraitdə əldə etdiyim qəhrəmanlığım idi. Məktəbimizin direktoru Abdurraxman Xasiyev mənim sənədlərimi Maarif Nazirliyindən götürüb o zamanki V.İ.Lenin adına APİ-yə vermişdi. Mən 1950-ci ildə Pedaqoji İnstitutun dil və ədəbiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdim. Böyük alim və pedaqoq professor M.Rəfili elə o ili məni aspirant götürdü. 1958-ci ilə qədər professor M.Rəfilinin kafedrasında olmuşam. 1958-ci ildə professor M.Rəfili qəflətən dünyasını dəyişdi. Çox ibrətamiz hadisə. Professor aprel ayının 25-də dünyaya gəlmişdi, aprel ayının 25-də də dünyadan köçdü. O zaman mən gənc alim və müəllim idim. Azərbaycan Dövlət Universitetindən bizim instituta professor Feyzulla Qasımzadəni kafedra müdiri gətirdilər. F.Qasımzadə XIX əsr Azərbaycan ədəbiyyatının böyük mütəxəssisi idi. Biz hörmət əlaməti olaraq ona «Mirzə» deyirdik. Bir gün Mirzə məni yanına çağırıb dedi: Gələn il üçün elmi-tədqiqat işinin mövzusunu fikirləşib kafedraya deyim. Mən dedim ki, Mirzə mən Molla Cümə yaradıcılığı ilə məşğul olmaq istəyirəm. Mirzə XIX əsr ədəbiyyatımızı tədqiq

edəndə Molla Cümə ilə məşğul olmuşdu. Mirzə dedi ki, Molla Cümə çox maraqlı sənətkar və şəxsiyyətdir, onun əsərləri demək olar ki, toplanmayıb. Əvvəlcə onun əsərlərini toplamaq, çap eləmək sonra da yaradıcılığını tədqiq eləmək lazımdır. O saat mənim xəyalım böyük aşığın fəaliyyət göstərdiyi Şəki, Qax, Zaqatala rayonlarını dolaşdı. Bir gənc folklorşünas kimi diqqətim artdı. O zaman institutumuzun rektoru Mehdixan Vəkilov idi, elmi işlər üzrə prorektor isə məşhur fizik alim Rusiya Pedaqoji Elmlər Akademiyasının müxbir üzvü Abasqulu Abbaszadə idi. Hər ikisinə arzumu bildirdim. Onlar arzumu bəyəndilər. Beləliklə 1961-ci ilin oktyabrın birindən bir aylığa fərdi ekspedisiyaya yollandım.

Hamıdan əvvəl doğma kəndim İlisudan başladım, soraqlaşdım. Dedilər Yunus dayı Molla Cüməni yaxşı bilir. O, keçmişdə ən yaxşı dəmirçilərdən biri olub, indi yaşı 70-i keçib evdə olur. Özü də ana tərəfdən mənim keçmiş qohumumdur. Evinə getdim, söhbət elədik. Yunus dayı çox hörmət və lütflə Molla Cümənin böyük bir əlyazmasını mənə bağışladı. Əlyazmasını bağrıma basıb Yunus dayı ilə sağollaşıb evdən çıxdım. Axşam İlisu qocalarının toplaşıb söhbət etdiyi yerə getdim. Molla Cümənin adını eşidən kimi Cəmil dayı (Həmzəyev) aşığın şeirlərini söyləməyə başladı. Bir neçə şeiri bloknotuma yazdım. Cəmil dayı Molla Cümənin Qıpçaqlı Hacı Kərimə yazdığı həcvin ən etibarlı variantını söylədi.

İlisudan Qaxın mərkəzinə gəldim. Dedilər ki, Qaxda aşıq Məhəmməd var, özü də ləzgidir. Onu çayxanada tapdım, yaşı yüzdən keçmişdi. Molla Cüməni tanıyırdı, hətta aşığın məclislərində də olduğunu dedi. Molla Cümə haqqında məlumatları var idi. Şeirlərindən də bilirdi, hafizəsi çox zəifləmişdi. Molla Cümənin xarici görünüşü haqqında aşağıdakı sözləri dedi: «Ortaboylu, dolu bədənli adam idi, kiçik saqqalı, iri qara qaşları vardı, ağbəniz idi. Özünün yaxşı səsi yox idi, bütün saz havalarından xəbərdar olmasına baxmayaraq yaxşı saz çala bilmirdi. Onun sazı ürəyi olubdur. Maşa, odun parçası, xəncər

götürüb coşar və oxuyardı. Həmişə yanında şagirdləri olardı, nə görsə, nədən təsirlənsə o saat şeirlər deyərdi, şagirdləri də yadlarında saxlayardılar, sonra oxuyardılar. Bir milyon da versələr, Molla Cümə xoşu gəlməyən yerdə oxumazdı, deyirdi ki, mənə həqiqi insanlar məclisi lazımdır. Xoşuna gəldiyi məclisdə isə hətta təmənnasız nə qədər desək oxuyardı.

Aşağıdakı bayatını çox xoşlayır və tez-tez deyərdi:

*İlisuda olaydım*
*Şişələrə dolaydım*
*İlisu qızlarının*
*Nişanlısı olaydım.*

Məhəmməd dayının dediyinə görə zaqatalalı aşıq İsmayıl Molla Cümənin şagirdi olub. Ağamalı Oğlunun təklifi ilə 1925-ci ildə aşıq İsmayılı Zaqataladan Bakıya Təbriz qəstininə aparıblar".

Aşıq Məhəmməddən ayrıldım. Qaxda raykomun idarəsinin qabağından keçəndə əvvəllər tanıdığım Məmməd müəllimlə rastlaşdım. Mənim məqsədimi biləndə dedi ki, Paşa müəllim, qoy raykoma çıxım, hara getdiyimi onlara deyim. Məmməd müəllim məni raykomun maşınında Qaxbaş kəndində Rəfi dayının evinə apardı. Demə sən, Rəfi dayı Məmməd müəllimin qonşusu imiş. Yaxşı ki, Rəfi dayını evində tapdıq. Onunla söhbətə başladıq. Aşıq Rəfi. O deyir ki, vaxtilə ona aşıqlıq vergisi verilib. Uzun illər aşıqlıq eləmişdir. Özünün də şeirləri olmuşdur. Şəki, Qax, Zaqatala aşıqlarının da şeirlərini bilir. Rəfi dayı çox həvəslə Şeyx Şamil haqqında danışırdı. Deyirdi ki, Şamil haqqında o, atası aşıq Həzrətdən öyrənmişdir. Aşıq Rəfi deyir: «Atam söyləyirdi ki, Nikolay padişah əmr edir ki, Şamili onun yanına gətirsinlər, özü də diri gətirsinlər, öz adamını da göndərir. Onda Şamil deyir ki, məni müsəlman aparsın. Dayısı aparıb. Peterburqda Şamilə qvardiya çini veriblər. Şamili imtahan eləyiblər deyiblər ki, o əsil şeyxdir.» Aşıq Rəfinin Şeyx Şamilə həsr elədiyi şeiri də var, müxəmməs üstündədir. Həmin şeirdə belə misra və beytlər var:

*Gələydi bu diyara*
*Quraydı dövranı Şəmil.*
*Töküldü bulud kimi*
*Kövkəbi asmanı Şəmil...*
*Qurtarsın qayğılardan*
*Daniyə Sultanı Şəmil...*
*Alıbdı bu dünyada*
*Cənnəti rizvanı Şəmil.*

Rəfi dayının dilindən Molla Cümənin bir neçə şeirini də yazıya aldıq. Bu şeirlər içərisində «Amandı» rədifli müxəmməs də var idi. Bu müxəmməs elə bil gözəl bir lirik poemadır. Aşığın şeirlərin hava və şəkli formalarını bilməsi, doğma Azərbaycana, ana dilini bütün zənginlik və incəliklərinə bələdliyi məni heyran qoydu. Müxəmməsi elə Rəfi dayının dilindən aldığım kimi Molla Cümənin 1966-cı il «Azərnəşr» tərəfindən çap olunan əsərlərinə daxil elədim. Sonralar bu müxəmməsi Molla Cümənin bir neçə əlyazmasında da tapdım. Müqayisələr apardım. Aşıq Rəfinin hafizəsi qaşısında dəhşətə gəldim. Yenə istəyirəm ki, Aşıq Rəfinin Şeyx Şamilə həsr elədiyi müxəmməsdən bir bənd verəm:

*Bilirəm ki, tab eləməz*
*Kimsə onun savaşına*
*Yandırır eşq oduna*
*Pərvanə tək ataşına*
*Titrəşir xəlayiqlər*
*Çıxanda mizan qoşuna*
*Biçarə Rəfi deyər*
*Bəxtəvər onun başına*
*Alıbdı bu dünyada*
*Cənnəti-rizvani Şəmil.*

Sonra Qax rayonunun Lələpaşa, Güllük kəndlərində oldum. Axırda Zərnə kəndinə gəldim. Dedilər ki, Zərnədə iki qardaş var, Zeynalabdin və Əbdülmanaf. Hər ikisi ümumiyyətlə aşıq sənətinin bilicilərindəndir. Onlar ən çox Molla Cümə yaradıcılığını sevirlər. Zeynalabdin dayı Qaxın mərkəzində hökümət qulluğundadır. Əbdülmanaf isə Zərnədə kolxozun hesabdarıdır. Ən çox Əbdülmanaf dayının söhbətlərini dinlədim. O, həm də çox yaxşı saz çalır. Molla Cümənin bildiyi şeirlərini sazın müşahidəsilə oxuyurdu. Şeirlərindən birisi mənim diqqətimi daha çox özünə cəlb elədi. Əbdülmanaf dayı oxuyurdu, mənim əlimdə isə yalnız kağız və karandaş var idi. Onun oxuduğu havanı yaza bilməzdim. Ancaq xahiş edərək həmin şeirin sözlərini bloknotuma köçürdüm. Şeir belədir:

*Aşıq məşuqdan ayrılsa*
*Canı yanar*
*Təzənə vurar*
*Simin qırar*
*Saz vay eylər.*

*Yarı yannan gedən görsə*
*Bir ah çəkər*
*Yaşın tökər*
*Qəddin bükər*
*Göz vay eylər.*

Şeirin ikinci bəndi də bu şəkildədir. Belə formaya mən rast gəlməmişdim. Əbdülmanaf dayıya dedim bu nə formadır. Dedik, buna sallama qafiyə deyərlər. Sonra bu şeir haqqında mənim tələbəm aşıqşünas Mürsəl Həkimov yazdı. Uzun axtarışlardan sonra bu şəkildə şeiri biz Aşıq Hüseyn Cavanın və Mikayıl Azaflının da yaradıcılığında tapdıq.

Sonra yolum Zaqatalaya düşdü. Aşıq Kazımla söhbətim oldu. Mənə dedilər ki, Zaqatalanın Kəpənəkçi kəndində Aşıq Murtuzəli yaşayır. O, Molla Cümə haqqında danışır və əsərlərini oxuyur. Kəpənəkçiyə getdim, Aşıq Murtuzəlini tapdım.

O, məni çox hörmətlə qarşıladı. Dedi ki, mənim oğlum Pedaqoji İnstitutda qiyabi şöbədə oxuyur, özü də məktəbdə dərs deyir. Mirzəli dayının oğlu Qurban məni tanıdı. Biz səmimi görüşdük. Mirzəli dayı dedi ki, xəbər gəldi ki, Molla Cümə kəndimizə gəlir. Biz əvvəlcədən hazırlaşdıq. Mirzəli dayı yaxşı saz çalır və oxuyurdu. Mirzəli dayı Molla Cümənin gəlişinə bir şeir həsr eləyir. Qoşma 4 bənddir.

*Göydən əmr olunub düşübsən yerə*
*Allahın şöləsi, nuru xoş gəldin*
*Dünyanın hər üzü bəyandır sənə*
*Yüz min sirrin qırx açarı xoş gəldin*
*Mən sənə qul olum, sən mənə ağa*
*İstəyirəm yol-ərkanı qanmağa...*

Molla Cümə məni dinlədi və dedi: «Oğul, Allahdan qeyri heç kəsə qul olmaq olmaz. İnsan heç vaxt insana qul olmamalıdır.» Murtuzəli dayı mənə bir əlyazması bağışladı. Bu çox etibarlı mənbələrdən biridir. Əlyazmasında 100-dən artıq şeir var. Aşıq Murtuzəli deyir: Molla Cümənin əynində qara haşiyəli ağ kürk, kürkün altında da kiçik bir saz var idi. Çox gümrah idi və tez-tez yeriyirdi. Axşam qoşduğum şeiri sazın müşayiəti ilə oxudum.

Zaqataladan Balakən rayonuna keçdim. Balakəndə raykomun birinci katibi bizim Pedaqoji İnstitumuzun qiyabi şöbəsinin tələbəsi idi. Səfiyyə xanım Dübirova məni görüb sevindi və şoferinə tapşırdı ki, Paşa müəllim hara istərsə, onu apar. Dedilər ki, İti-Tala kəndində Aşıq Məhəmməd var. O, Molla Cüməni çox yaxşı bilir. O gecəsi Məhəmməd dayının qonağı oldum. O, Molla Cümənin şeirlərini çox dəqiq və səliqəli bir şəkildə oxuyurdu. Həm də böyük sənətkar haqqında əhvalat və rəvayətlər də danışırdı.

Qayıdan baş Şəkidə dayandım. Əvəllcə Baş Göynük kəndinə çıxdım. Üç gün Molla Cümənin qızı Reyhan xanımın

qonağı oldum. Reyhan xanımın söhbətlərinə qulaq asdım. Sonra kəndin qocaları ilə görüşdüm. Mənə Molla Cümənin əsərlərini bilən bir neçə qocanın adını verdilər. Mən onların adlarını burada yazıram.

1. Keçi oğlu Məhəmməd Salamov. Usta Məhəmməd aşığın bütün şeirlərini əzbərdən bilir. Bənna olub, Molla Cümənin şeirlərini oxuya-oxuya ev tikirmiş. 80-90 yaşında vəfat edib.
2. Salman Şərifov, çoxlu şeirləri yadında saxlamışdır.
3. Xinqal oğlu Süleyman
4. Məhəmməd oğlu Süleyman
5. Ərəb Abdulla
6. Ərəbov Salman
7. Qənimət Məhəmməd oğlu
8. Əbdülov Hacıbala. Nalbənd olub, çoxlu xatirələr danışır.

Salman dayı məni axşam evinə qonaq çağırdı. Aşığın şeirlərini, xüsusilə də müxəmməslərini çox dəqiqliklə söyləyirdi.

Mən Baş Göynük kənd orta məktəbinin dil-ədəbiyyat müəllimi Şərif İdrisovla kəndi dolaşırdım. Bir az aralıda gördüm ki, bir neçə qoca əyləşib söhbət edirlər. Demə sən, onlara deyiblər ki, Bakıdan gəlib Molla Cümənin şeirlərini toplayırlar. Mən gördüm ki, hündür boylu, başında papağı olan, o qədər də qoca olmayan bir qoca yoldaşlarından ayrılıb bizə tərəf gəlir. Yaxınlaşıb qənşərimizdə dayandı, sözsüz, təklifsiz aşağıdakı qoşmanı əzbərdən, aramla deməyə başladı. Qoşma məni çox maraqlandırdı. Onu qocanın köməyi ilə bloknotuma köçürdüm. Sonralar aşığın əlyazmalarından tapıb dəqiqləşdirdim. Molla Cümə küllliyatına daxil elədim. Mənə görə bu qoşma Molla Cümənin ən yaxşı əsərlərindən biridir:

*Maral gözlüm, ovçudanmı ürkmüsən,*
*Səkib gələn çöllərinə dolanım.*

*Dal gərdənə cığa telin tökmüsən,*
*Nazik, incə bellərinə dolanım.*

*Mən fəqiri gəl özünə yar eylə,*
*Hər nə desəm şəfqətindən var eylə,*
*Gəl yaxına, düşmənləri kor eylə,*
*Danış, şirin dillərinə dolanım.*

*Mən Cüməni ahu-zara yetirdin,*
*Üç dilək dilədim birin bitirdin,*
*Bu sövqatı cənnətdənmi gətirdin,*
*Xurma verən əllərinə dolanım.*

Bu şeiri oxumaqdan doymuram. Bəzən kövrəlirəm də. Sonra Şəkinin yüksək dağında olan Baş Göynükdən dağın dibində olan Aşağı Göynüyə endim. Dedilər bu kənddə İdris Mustafayev yaşayır. Evini tapdım. İdris dayı ilə görüşdük. O, dedi ki, Mən Molla Cümənin lap uşaqlıqdan yoldaşı olmuşam. Hətta çəltik əkininə də bir yerdə çıxırdıq, bir-iki ay kənddə qalırdıq. İdris dayının yaşı yüzü keçmişdi. İdris dayı ilə səmimi söhbətimiz oldu. O, Molla Cümənin şeirlərini o qədər də bilmirdi. Ancaq aşığın həyatı, fəaliyyətinə dair çox maraqlı məlumatlara malik idi. Molla Cümənin Axsaq Laçına, Hacı Kərimə, Əsəd Koxaya, Dəllək Salama yazdığı həcvlərin tarixcəsinə çox gözəl bələd idi. Mən şəxsən Molla Cümənin ölümünə dair əsas məlumatları da İdris dayıdan götürmüşəm. Bu mövzuya xüsusi məqalələr həsr eləmişəm. İdris dayının «Molla Cüməni öldürən yerdən, tapıb bax bu əllərimlə dəfn eləmişəm» sözlərini mən heç vaxt mən unuda bilmirəm. İdris dayının danışdığı daha bir əhvalatı mən indiyə qədər heç yerdə yazmamışam. İdris dayı dedi ki, XIX əsrin lap sonlarında İlisu kəndindən Xəlil bəy gəlmişdi. Aşağı Layisqidə yüzbaşı seçmək lazım idi. Namizədlər var idi. Hətta Molla Cüməni də seçmək istəyənlər çox idi.  Xəlil bəy və çoxları Molla Cüməni yüzbaşı

seçmək istəyirlər. Sonda Molla Cümə durub və deyir ki, ay camaat, mən aşıq babayam, məclislər aparıram, saz çalıb oxuyuram. Məndən yüzbaşı olmaz axı. Sonra aşığın sözləri ilə razılaşırlar. İdris dayı deyir ki, varlılar, adam aldadanlar haqqında Molla Cümə tənqidi fikirlər söyləyib. Necə deyərlər, aşıq onları görmək belə istəməyib. Ona görə də bir çoxu haqqında kəskin həcvlər yazmışdır. Məsələn, Şəkinin İncə kəndində Əsəd adlı varlı bir adam olub. O, koxa imiş. Əsəd həmişə Molla Cüməni ələ salarmış, dalınca danışarmış. Aşığın həcv yazarı olduğunu bildiyi üçün öcəşərmiş, istehzalı sözlər deyərmiş. Bir dəfə o danışanda Molla Cümə tanışı ilə gəlirmiş deyirlər. Odur Molla Cümə gəlir. Əsəd Koxa o saat sözünü kəsib dayanır, rəngi dəyişir. Deyildiyinə görə Əsəd həm də qoçuluq edərmiş. Elə oradaca Molla Cümə coşaraq həcv başlayır. İki misrasını deyən kimi qaçıb onun ağzını tuturlar. Daha dalını deməyə qoymurlar. Sözün dalısınıdan ehtiyat edirlər.

*Adını eşitdim İncəli Əsəd*
*Uşağın çox olsun, çörəyin kəsad.*

Mən bir ay idi ki, kəndləri dolaşırdım, çox yorulmuşdum, zəifləmişdim. İdris dayı tay qocalmışdı, yorulmuşdu. Onu da daha narahat eləmək olmazdı. Dedim, İdris dayı məni bağışlayın. Sizinlə söhbəti hələ qurtara bilməmişəm. Dekabr ayında Şəkiyə qiyabiçi tələbələrə məsləhət verməyə gələcəyəm. Söhbətimizi onda davam etdirərik. İdris dayıdan ayrılıb mən Bakıya döndüm. Birinci ekspedisiyam belə tamamlandı. Əlbəttə, çox hadisələri yazmağa imkanım olmadı.

Dekabr ayında Şəkiyə məsləhətə gəldim. Birbaşa İdris dayının görüşünə getmədim. Əvvəlcə evinə zəng elətdirdim. Dedilər ki, İdris dayı dünyasını dəyişmişdir. Mən çox məyus oldum. İdris dayı Molla Cümə ilə bağlı digər əhvalatları özü ilə bağlı o biri dünyaya apardı.

«Odlar yurdu» qəzetinin 24 dekabr 1989-cu il nömrəsində mən aşağıdakı qeydləri oxudum: «Şəkidə yubiley tədbirləri və şənlikləri». Molla Cümənin yolun qırağında meyiti tapılıb. Orada da basdırılıb. Ona görə də orda da meyitlər çürümüşdü, aparmaq mümkün deyil idi. İdris Mustafayev deyir ki, meyitlər qalaqlanmışdı. Molla Cüməni yalnız paltarından tanıdıq. Elə oradaca basdırdıq. Molla Cümənin divanilərinin birində belə misralar var:

*Yaz gələndə aşiqlərin*
*Köhnə dərdi sökülür,*
*Pərvanənin şam üstündə*
*Qol-qanadı tökülür.*
*O biçarə bülbülün də,*
*Gözünə tor çəkilir,*
*İki çeşmi bağlı olur*
*Güli mehman eşqinə.*

İlahi bundan da gözəl demək olarmı?

Bizim çox məşhur və zəngin məhəbbət dastanlarımız var. Bu dastanlarda eşq, məhəbbət, sevgi, sədaqət, etibar, sevinc və kədər böyük heyrət və məhəbbət təsvir olunur. Bu dastanları xalq öz balalarına elə bil bir məktəb kimi yaratmış, zənginləşdirmiş, qoruyub saxlamış və yadigar vermişdir. Bu dastanlarda çox ibrətamiz, tərbiyəvi, səciyyəvi epizod və əhvalatlar var. Bu əhvalatların bir çoxu məhz bülbül və gülün nakam və faciəvi məhəbbətlərinə həsr olunmuşdur.

Bizim məhşur məhəbbət dastanlarımızdan biri «Novruz və Qəndab» adlanır. Novruz şahzadədir. Novruz bayramında anadan olduğu üçün adını Novruz qoyublar. O, sarayda şahzadə kimi tərbiyə alır. Saz, mahnı, dastan və sairə haqqında təsəvvürü belə yoxdur. Bir gün aşıq dastanına qulaq asır və hadisə onun, necə deyərlər, psixikasını dəyişir. Yenə bir gün bir pirani onun yuxusuna girir, əlində badə. Pirani yumruğunu

açır, iki barmağını qaldırıb Novruza deyir: nə görürsən, yollar görürəm daha nə görürsən, böyük bir şəhər görürəm, daha nə görürsən, böyük bir saray içində də gözəl bir qız görürəm. Bax, Novruz o, Misir padşahının qızı Qəndab xanımdır. Novruz badəni içir. Pirani deyir ki, Qəndab xanımı sənə və səni də Qəndab xanıma buta verirəm. Novruz necə deyərlər, badənin təsiri ilə böyük bir aşıq olur. Çalıb oxumağa başlayır. Anasına, atasına deyir ki, mən mütləq butamın dalınca Misirə getməliyəm. Novruz yolda-izdə çox çətinliklərlə rastlaşır, hətta ölümlə üz-üzə gəlir. Dənizdə boğulmaq qorxusu olur. Bir qəvvas onu xilas edib evinə aparır. Qəvvasın Gülşən adında gözəl qızı var idi. Qız Novruza aşiq olur. Novruz hər şeyi unudaraq bir müddət bağçada gəzir, şənlənir, əylənir. Bir gün bağçada gəzərkən görür ki, bir bülbül dimdiyində soluxmuş bir gül yarpağı qarşıda olan ağaca qonub sevinir. Bülbül bu soluxmuş gül yarpağına aşiq olmuşdur. Bülbül birdən oxumağa başlayır. Soluxmuş gül yarpağı onun dimdiyindən düşüb aşağı uçmağa başlayır. Bülbül yarpağın dalınca şığıdı. Demə sən, ağacın arxasında tikan var imiş. Tikan biçarə bülbülün ürəyindən keçdi. Bülbül bu soluxmuş gül yarpağının yolunda canını fəda elədi. Novruz bu səhnədə çox təsirlənir, öz-özünə deyir ki, bülbül sevgilisi yolunda canını fəda etdi, mən isə butamı uzaq ellərdə qoyub burada əylənirəm. Elə o günü Novruz butasının dalınca Misirə yola düşdü.

Oxucum, bizim dastanlarımızda belə ibrətamiz, örnək olacaq hadisə və əhvalatlar çoxdur. Xalq bu epizodları balaları üçün yaradıb onlara dərs keçmişdir.

Molla Cümə gözəllik, məhəbbət nəğməkarıdır, onun yaradıcılığının əsas hissəsi məhəbbət lirikasıdır. Kəndlərdə, eldə, obada elimizin bəzəyi olan, xalqımızın ən yaxşı keyfiyyətlərini özlərində təcəssüm etdirən el qızlarını Molla Cümə fəxrlə vəsf edirdi. Gözəllər isə böyük sənətkarın sazına, sözünə düşməsilə fəxr edirdilər. Əksər şeirlərini aşıq kəndlərdə şəxsən gördüyü, rast gəldiyi gözəllərə həsr etmişdir. Əliabadda Mər-

yəm, Çobankolda Nigar, Ənbırçayda Güllü, İlisuda Şirincan, Qımırbazarda Firdövs, Marsanda Reyhan, Almalıda Tükəzban, Şatavarda Leyli, Tasmalıda Gülüzar, Güllükdə Fətmət, Talada Həlmət və başqaları.

Molla Cümənin ən çox tərifədiyi gözəllərdən biri Nigardır. Nigar gözəl, ürəyiaçıq, qonaqpərvər idi. Saza, söhbətə el aşıqlarına böyük hörməti olmuşdur. Zaqatalanın Çobankol kəndinə gələndə Molla Cümə bu ailənin qonağı olarmış. Aşıq bir neçə mahnısında Nigarı xatırlamış, onu təriflənmişdir, ona üç şeir həsr eləmişdir. Şeirlərin biri beş bənddən ibarət müxəmməsdir. Burada Nigar elimizin ən ulu, müqəddəs, ad-sanını özündə yaşadan qənirsiz bir gözəl kimi təriflənir.

Hər dəfə Zaqatalaya yolu düşəndə Molla Cümə bu ailəyə baş çəkərdi. Yenə bir gün Nigarı, onun anası Ayşaxatını yoxlamaq üçün onlara gəlir. Bu zaman Ayşaxatın pəncərədən görür ki, Molla Cümə həyət qapısını açıb içəri girir. Özünü saxlaya bilmir, dizlərinə döyə-döyə, başının tükünü yola-yola aşığın qabağına yüyürür. Molla Cümə o saat işin nə yerdə olduğunu başa düşür. Ayşaxatına ürək-dirək verir, elə bu anda ikinci bir şeir Molla Cümənin sazını tərpədir. «Tək düşmüşdün Çobankola ay Nigar» deyən aşıq vaxtsız dünyadan köçmüş bir el qızına ağı oxuyur.

*Ərə getdin yaman dərdə tuş oldun*
*Boylanmadın sağa, sola ay Nigar.*

Ər evində Nigarın qısa ömrü xoş keçməmişdir.

*Gəlin oldun, hərgiz getmədin başa,*
*Dağ-düyünün qoydun dosta-sirdaşa,*
*Anan Ayşaxatın dönüb bayquşa,*
*Ağlar deyər: aman bala, ay Nigar.*

Molla Cümə həyatla vaxtsız vidalaşan bu el gözəlinin faciəsini uzun illər unuda bilməmişdir. Nəhayət bizə məlum

olan üçüncü şeirində yenə Nigar xatırlanmışdır. «Ay ağalar, gəldi düşdü yadıma, Viran qaldı gözəl bağı Nigarın».

Sonra:

*Molla Cümə ağlar eylər ah-zar,*
*Getməz sinəsindən dağı Nigarın.*

Balakən rayonunun İtitala kəndində Aşıq Məhəmmədin dediyinə görə aşıq bu üçüncu şeiri Nigarın qəbri üzərində demişdir. Mən isə uzun axtarışlardan sonra Molla Cümənin Nigara həsr elədiyi hər üç şeiri tapıb, müqayisələr aparıb aşığın külliyyatına daxil eləmişəm. Molla Cümə el gözəllərinin qənirsiz gözəlliklərini, onların xarici görünüşünü, hətta geyimini də tərif edib şeirlərini daha da şirinləşdirirdi.

*Qızılgül tək açılıb*
*Qarşımıza çıxıbsan.*
*Kirpiklərin ox edib*
*Bağrımıza çaxıbsan.*
*Qola qolbax sarıyıb*
*Ələ xına yaxıbsan*
*Şümşad qələm barmağa*
*Gümüş üzük taxıbsan.*
*Minə kəmər bağlayıb*
*İncə belin sıxıbsan.*

M.H.Təhmasib Qurbanidən danışanda aşağıdakı sözləri işlətmişdir: «Qurbaninin əsas yaradıcılığı gözəl, bədii, axıcı qoşmalardan, gəraylılardan ibarətdir. Bu mahir sənətkarın qələmindən hər nə çıxmışsa gözəl çıxmışdır. Onun qoşmalarında sevinc də, kədər də, gülüş də, göz yaşı da, şikayət də, giley də, nisgil də gözəldir. O, sevinirsə, oxucunu da sevindirir, kədərlənirsə, oxucunu da kədərləndirir. Bir sözlə o, auditoriyasını istədiyi hala salmağı bacaran, özü ilə birlikdə sevindirib, özü ilə birlikdə kədərləndirə bilən bir sənətkardır». Böyük müəllimimizin bu sözlərini mən çox sevinc və məsuliyyətlə Molla Cümənin yaradıcılığına aid edirəm. Qurbaninin qoşma, gəraylı və təcnislərinin təsiri ab-havanı XV əsrdən aşıq sənətimizi

bəzəmişdir. Nə yaxşı ki, böyük aşıqdan sonra digər ustadlarımız, o cümlədən böyük ustadımız Molla Cümə də klassik aşıq sərvətimizin ənənələri üzərində pərvəriş tapmış, bu ənənələri nəsildən-nəslə, əsrdən-əsrə keçirərək yaşatmışlar.

*Çıxanda seyrana yar yaxasında,*
*Verirsiz baş-başa yüzə düymələr.*
*Zülfün oylağında can butasında,*
*Nə xoş görünürsüz gözə düymələr.*
*Çoxları olubdur könlü şikəstə,*
*Heyrandır səsinə neçə nörəstə,*
*Tər məmə altında ağ sinən üstdə,*
*Əcəb gəlirsiniz sözə düymələr.*
*Cümə də olaydı kəmər belində,*
*Danışaydı siznən bir hal dilində,*
*Alim məclisində, sərraf əlində,*
*Biriniz dəyərsiz yüzə düymələr.*

Molla Cümə eyni zamanda təbiət, gözəllik aşiqidir. Onun şeirlərində bənəvşə və qızılgüllər, eyni zamanda dağlarda, düzlərdə, daşdan-daşa tullanan kəkliklər, budaqdan-budağa uçub nəğmə deyən bülbüllər mühüm yer almışlar. Xüsusilə gülü və bənəfşəni tərifləmək, onun üçün çox xoş idi. Bənəfşənin klassik tərifi, onun gözəlliyi, məziyyətinə elə bir biz yenidən vaqif olmuşuq. Qurbaniyə Gəncədə yaşayan dünya gözəli Pərini buta vermişlər. Baharın xoş bir vaxtında gənc aşıq Qurbani sazını torbaya qoyub Cəbrayılın Diri kəndindən butasının dalınca yola düşür. Onun yolu Qarabağ yamacları ilə Gəncəyə düşür. Qarşısına baharın çiçəklərindən ibarət toplular rast gəlir. O, diqqətlə bu gül dəryasına batır. Güllər çox mehriban, sevinclə düzülmüşdülər. Qurbani bu çiçək topasını çox diqqətlə seyr edir. Təəccüblənir, ayrılmaq istəmir. Bir az irəli gedəndə yenə də həmin çiçəklərdən ibarət başqa bir topaya rast gəlir. Bu zaman onun marağı və diqqəti daha da artır. Çiçəklər rəngbərəng, mehriban və munisliklə düzülmüşdülər. Aşıq fikirləşir, bu ki möcüzədir, bəlkə göydən enmiş mələklər

bu çiçəkləri belə gözəlliklə düzmüşlər. Diqqətlə baxdıqda bu zərif, incə, munis çiçəklərin hamısının boyunlarını əyri görür, sənətkarın diqqəti bir az da artır, onu təlatümə gətirir. Necə deyərlər, çiçəklərə yazığı gəlir. Sevgilisi – butası Pəri yadına düşür. Ehmallıca sazını köynəyindən çıxarıb bu Qarabağ yamaclarının bahar güllərini-çiçəklərini vəsfə başlayır. Beləliklə, mədəniyyətimizin tarixində bahar gözəli – Qarabağ gözəli bənəfşənin tərifinə həsr olunan ölməz-klassik bir əsər yaranır.

*Tanrı səni xoş camala yetirmiş,*
*Səni görən aşiq ağlın itirmiş,*
*Mələklərmi dərmiş göydən gətirmiş,*
*Hayıf ki, dəriblər az bənəfşəni.*

Qurbanidən sonra yüzlərlə bənəfşələr dünyaya gəlib. Ancaq əsrlər uzunu yaranan bənəfşələrin kökündə, binasında Qurbani bənəfşəsi dayanırdı.

Molla Cümə:

*Mən sənə nə dedim zalım, bimürvət*
*Qoy qurusun qolun üz bənəfşəni*
*Süsənlə, sünbüllə, gülü-reyhanla*
*Dərib dəstə-dəstə düz bənəfşəni.*

XIX əsrdə Aşıq Bəsti aşıqların bənəfşəsinə öz xüsusi münasibətini bildirmişdir. Aşıq Bəstinin bənəfşələri öz orijinallığı və təravəti ilə seçilir.

*O yar gəzən oylaqlarda,*
*Bir də açdı bənəfşələr.*
*Səpələndi dağa daşa,*
*Yoldan aşdı bənəfşələr.*

*Yaralı quşlar kimi,*
*Kola düşdü bənəfşələr.*
*Yarıb o tutqu çayını,*
*Necə keçdi bənəfşələr.*

*Bir quş kimi yoxa çıxdı,*
*Hara uçdu bənəfşələr?!*
*Bəsti Xançobanım kimi,*

*Vaxtsız köçdü bənəfşələr.*

Hər bahar vaxtı sevdiyimiz, əzizlədiyimiz bənəfşə bizim üçün elə bil yenidən kəşf olunurdu. Aşıq sənətimizin dilinin əzbəri olan «Bənəfşə qız iylər, qız bənəfşəni» ifadəsi böyük sənətkarlırımız tərəfindən lütflə öz bənəfşələrinə daxil edilirdi. Molla Cümə də öz bənəfşəsinə bu ifadəsini daxil eləmişdi. Bununla belə Molla Cümənin də aşağıdakı misraları orijinaldır.

*Cümə deyər gülün vaxtı gəlibdi,*
*Daha iyləmərik biz bənəfşəni.*

Molla Pənah Vaqif də bənəfşəyə biganə qala bilməmişdir. Onun şeirlərində belə misralar var:

«Bənəfşə tək ənbər zülfü boy verir».
«Bənəfşə qoxulu yardan ayrılan».

Nəhayət böyük şair bənəfşəyə xüsusi qoşma da həsr edir.

*Bir üzü gül, rəngi lalə, zülfü tər*
*Gəştə çıxıb dərər tazə bənəfşə*
*Dəstə-dəstə sancıb buxaq yanına*
*Yaraşıbdır o şahbaza bənəfşə.*

Molla Cümə bahar, gözəllik, təbiət nəğməkarıdır. O, doğma vətəninin gözəlliklərinə, habelə vətən övladlarının iradəsinə, qəhrəmanlığına, yüksək əxlaqi-mənəvi sərvətlərinə çoxlu şeirlər həsr eləmişdir. Baharla əlaqədar gülə, bülbülə də şeirlər qoşmuşdur. Onun şeirlərində qışın gözəlliklərini də baharın təravətini də açıq-aydın hiss etməkdəyik. Baharın rəmzi olan bülbül və gül onun şeirlərində xüsusi bir həssaslıqla tərənnüm olunur.

*Gedibdir zimistan gəlibdir bahar,*
*Yatırsan bixəbər gəlsənə bülbül.*
*Neçə dost dostundan olubdur kənar,*
*Qorxuram meyl etməz gül sənə bülbül.*
*Bircə oxu görüm necə səsin var,*
*Qızıl gül üstünə xoş həvəsin var,*
*Nə peşman durursan yoxsa yasın var,*

*Məşəqqətmi gəlib il sənə bülbül.*
*Adım Molla Cümə Salahzadəyəm,*
*Üzü qara bəndə kəmtər gədayəm,*
*Mən özüm də sən tək yardan cidayam,*
*Dərdimə dərd qoşma gülsənə bülbül.*

Bülbülə həsr elədiyi başqa bir təcnisində Molla Cümə bülbülün bahar, gül həsrətinə öz səsini qatır, özünün yardan cida olduğunu bülbülün gül həsrətilə müqayisə edir.

*Bahar oldu düşdün ahi-fəryada,*
*Həsrətsən lalə tək yüzə sən bülbül.*
*Ya gərək canını salasan oda,*
*Ya gərək əlini yüzəsən bülbül.*
*Haray etsəm gəlib yetsə haraya,*
*Yetirdin dərdimi yüzə sən bülbül.*

Molla Cümə gülün, bülbülün adlarını şeirlərində tez-tez çəkir. Bülbül və gül bunlar Şərq poeziyasının populyar bədii obrazlarıdır. Gül Azərbaycan folklorunun ən sevimli və istəkli obrazıdır.

*Mən aşiqəm gül gülə,*
*Bülbül gülə gül gülə,*
*Yar telinə gül taxıb*
*Calaq olub gül gülə.*

Bu bayatı Azərbaycan bədii dühasının kəşflərindən biridir. Dünyada rəmzi olaraq kama yetməzliyin nişanələridir. Şərqin, eləcə də Azərbaycanın ədəbiyyat və folklorunda bu bədii obrazlar tez-tez müxtəlif şəkildə xatırlanır. Xalqımız bz folklorunda böyük məhəbbət və bədiiyyatla bu obrazları şeirinə salıb yaşadır.

*Bülbül sənin işin qandır*
*Aşiqlər oduna yandı*
*Nədən cəsədin əlvandı*
*Köksün altı sarı bülbül.*

Bülbül xalq poeziyasının ən etibarlı, sadiq aşiqlərindən biridir. Onun sevgilisi güldür. Bütün ömrü boyu bülbül öz sev-

gilisinə çatmaq üçün canından, başından keçir. Ancaq sevgilisinə qovuşa bilmir.

*On bir ay çəkdin qəhrini*
*Bu bir ayı zarı bülbül.*

Gəlin, bu beyti izah edəlim. Bülbül gülün aşiqidir. Şərq poeziyasının ən böyük və şöhrətli aşiqlərindəndir. Bülbül düz on bir ay gülün həsrəti ilə yaşayır, gözləyir ki, bahar gəlsin, güllər açılsın, o da aşiqinə qovuşsun. Ancaq ömrü boyu bülbül gül ilə görüşə bilmir. Çünki elə ki, gül açılır, bülbülün gözlərinə tor gəlir, o, gülü görə bilmir. Bülbülün gözləri düz bir aydan sonra açılır, artıq o vaxt gül solmuşdu, qurtarmışdı, yox olmuşdu.

Mən Molla Cümənin ilk şeirlər kitabına (1966) yazdığım müqəddimənin bir yerində demişdim: «Molla Cümənin elə şeirləri vardır ki, onlar xüsusilə forma cəhətdən tədqiqata möhtacdır. Bunların təhlili Azərbaycan aşıq və xalq poeziyasının bir sıra forma xüsusiyyətlərinin aydınlaşdırılmasında ədəbiyyatşünas və folklorşünaslarımıza gözəl və yeni material verə bilər» (səh.9). Müqəddimədə mən Molla Cümənin işlətdiyi aşağıdakı aşıq şeirlərinin adlarını çəkmişdim: «Qoşma, gəraylı, cığalı gəraylı, sallama gəraylı, divani, təcnis, cığalı təcnis, hərf üstdə təcnis, yedəkləmə təcnis, əvvəlaxır, əliflamə, bayatı, müxəmməs, müsəddəs, bağlama, deyişmə, ustadnamə, hərbə zorba, həcv və dastan». Molla Cümənin Şəkidən əldə edilmiş başqa bir əlyazmasında sənətkar özü aşağıdakı şeir şəkillərinin adlarını sadalayır: «Ey həzərat, mənim bu dəftərimin içində yazılıbdır: əvvəla divani və ikinci qafiyə, üçüncüsü dübeyti, dördüncü hecabənd, beşinci kükəri və ərəbi, altıncı təcnis, yeddinci təxmis, səkkizinci şikəstə, doqquzuncu bayatı, onuncu qara heca, on birinci dodaqdəyməz, on ikinci müxəmməs». Molla Cümənin şeirlərində belə bir bənd var:

*Oxuduğum qara heca*
*Çox danışma gəlməz vecə*
*Cümə sənlə bir gecə*

*«Ya» əlifə «te» əlifə.*

Ərəb əlifbasında «ya» və «te» hərflərini işlətməklə aşıq «yatmaq» sözünü söyləmişdir. Mənə belə gəlir ki, Molla Cümə «qara heca» deyəndə gəraylı şeir formasını nəzərdə tutur. Aşığın «Beyt» adlandırdığı başqa bir şeirində aşağıdakı misralar var:

*Çün demişəm divani təxmisdə mən*
*Həm müxəmməs, qafiyə təcnis də mən*
*On iki hava ilə dərdim haray*
*Heç tükənməz baxıban gördüm haray*
*İsmi Pünhan güzarində bir səhər*
*İstədim beyyit deyəm təhər-təhər.*

Bizim müəllimiz M.H.Təhmasib kitabında yazmışdır ki, aşıq yaradıcılığında nə qədər şeir şəkli varsa, bir o qədər də hava, melodiya var. Əlbəttə, bu fikri söyləmək də məsuliyyət tələb edir, təsdiqləmək də. Ancaq deyək ki, alimin mülahizəsində həqiqət var. Təsəvvür edin, bu və ya digər aşıq müəyyən şəkildə şeir qoşursa, deməli bu bədii nümunənin arxasında hava, melodiya var. Bizim ən böyük ustad aşıqlarımız eyni zamanda bəstəkar olublar. Onlar müəyyən hallarda hava yaratmış və bu havaya uyğun da şeiri dünyaya gətirmişlər. Özlərinin yeni cəzbedici havasını yaratmayan ustad aşığımız olmamışdır. Burada çox maraqlı bir cəhət var. Aşıqların şeirləri tez, rahatca yadda qalır. Bunları yaşadan məhz aşıqların bildiyi və sevdiyi havalardır. Baxın S.Vurğun, O.Sarıvəlli, B.Vahabzadə, Hüseyn Arif, Zəlimxan Yaqub qoşmaları da belə asanlıqla əzbərlənir. Çünki onların əsərləri aşıq sənətinin havalarına, melodiyalarına uyğun şəkildə yaradılır. Hər bir aşıq şeirinin arxasında aşıq havası var. Bu havalar aşıq qoşmalarının misralarında söz düzümündə heca və rədiflərində başqa sözlə, havalar üstündə qurulmuşdur. Bu cəhətdən Molla Cümə şeirlərinə yanaşanda böyük sənətkarların bütün aşıq havalarına bələdliyi qarşısında heyran qalırsan.

Molla Cümənin maraq doğuran və müxtəlif biçimli sözləri mənə görə məhz aşıq havaları üstündə qoşulmuşdur. Molla Cümənin forma etibarilə maraqlı şeirlərindən biri də «Ağlaram» rədifli mərsiyəsidir. Şeir 3 bənd qoşma və üç də bayatıdan ibarətdir. Qoşmanın bir bəndi verilir, sonra da bayatı gətirilir. Qoşmanın son bəndində aşığın təxəllüsü var. Bayatıların hər üçündə aşığın da adı çəkilir. Qoşmada rədif «ağlaram»dır. Bayatılar aşıq tərəfindən «ağı» kimi çağrılıb, özü də hava, melodiya üstündə. Hər üç bayatı «ağlaram» sözü ilə başlayır.

Son bayatı:

*Mən ağlaram tellər ağlar*
*Yaş tökər, sellər ağlar*
*Cümənin dərdin duysa*
*Ölkələr, ellər ağlar.*

Qoşmada da rədif «ağlaram»dır.

*Matəmdaram sağ əlimlə eyləyib*
*Torpaq başa, küll gözümə ağlaram.*

Bizim qənaətimizə görə bu maraqlı formada deyilən şeir aşığın tərcümeyi-halı ilə əlaqədardır. Daha doğrusu yeganə oğlu Həsənin (25 yaşında 1919-cu ildə) vəba xəstəliyindən dünyasını dəyişəndə demişdir. Təkrar edirəm, bayatılar aşıq tərəfindən «ağı» kimi çağırılmışdır, hava, melodiya üstündə.

Molla Cümənin forma etibarı ilə çox maraqlı və həm də müxtəlif biçimli təcnisləri vardır. Təcnislərdən bir qismi ənənəvi qoşma üstündə deyilmişdir. Həm bəndləri və həm də misralarında cinaslar işlədilir.

*Tək gəldin cahana didarı göyçək,*
*Dəndanı yaqutsan, ləlsən, ay, ay.*
*Sinəndə iylənir ətirli çiçək,*
*Narıncsan, nərgizsən, laləsən ay, ay.*

Qalan iki bəndin son misraları laləsən sözünə cinas kimi işlədilir.

Aşığın təcnislərinin böyük bir hissəsi hərf üstündədir. Belə təcnislərdə Molla Cümə böyük ustalıq göstərir.

Molla Cümənin «t», «z», «n» və başqa hərflər üstündə dəyərli təcnisləri var. «N» üstündə:

*Nazlı yarım heç doymuram busəndən,*
*Noğul, nabat şirin olmaz busəndən,*
*Nökər Cümə çox çəkinir bu səndən*
*Namərdlərin dilin vursun baz ilan.*

Hərf üstündə olan təcnislərin bəzilərində aşıq daxili cinaslardan da istifadə edir.

«Z» üstündə:

*Zəhmətim əşəddir bülbülüm gülsüz,*
*Zar olur könlümüz ayağa durmaz.*
*Zəbanın bəstədir, dəhanın dilsiz,*
*Zəncəfil göz yaşım ayağa durmaz.*

Molla Cümə hərf üstündə çox maraqlı divani-təcnislər yazmışdır. «X», «Z», «K», «L», «B», «N», «U», «Q» hərfləri üstündə deyilmiş təcnis-divanilər gözəl sənət nümunələrdir.

«Z» üstündə:

*Zağ ağlaram həsrətindən*
*Didəm qana boyanmaz*
*Zinhar etdi xəlqi sədam*
*Neyçün bəxtim oyanmaz.*
*Zəhmətindən dərdə düşdüm*
*Gələn təbib dayanmaz*
*Zənəxinnən bir busə ver*
*Dərdimə dərman əziz.*

«B» üstündə deyilmiş bir divaninin çox maraqlı şəkli xüsusiyyətləri var. Ondan bir bənd misal gətirək:

*Bülbül sayaq guşə gəldim*
*«Yeyi», «əlif», «zeyi»nən*
*Başladım göftar deməyə*
*«Yeyi», «vavı», «zeyi» nən.*
*Bədirlənmiş camalına*

*Qalmışam mail olub*
*Bildim candan xeyir yoxdur*
*«Nunı», «əlif», «zeyi»n görüb.*

Bütün divaninin hər bir misrasının sonunda ərəb əlifbasının hərfləri ilə aşağıdakı sözlər şeirə salınmışdır «yaz», «yüz» (üz), «naz», «qılıx», «ləb», «yanax», «göz», «dərs», «fars», «tərs» və «düz». Birinci bənddə üç misra «zeyi» ilə tamamlanır. Qalan bəndlərin dördüncü misraları da «zeyi»n sözü ilə tamamlanır. Başqa bir cəhət: bütün bəndlərdə hər üç misra eyni sözlərlə tamalanır: «görüb», «yaradıb», «oxuyub». Eyni zamanda burada Molla Cümə divani şeir şəklinin bütün tələblərinə riayət etmişdir. Beləliklə gözəl, axıcı, yüksək bədii təsirə malik şeir şəkli alınmışdır.

Divanilər Molla Cümə yaradıcılığının mühüm və əhəmiyyətli sahəsini təmsil edir. Mənim qənaətim budur ki, aşığın divaniləri haqqında ayrıca tədqiqat əsəri yazılmalıdır.

"Z" üstə əvvəl-axır:

*Zəhmətin əsəddir bülbülüm gülsüz,*
*Zar olur könlümüz ayağa durmaz,*
*Zəbanın bəstədir, dəhanın dilsiz,*
*Zəncəfil göz yaşım ayağa durmaz.*

Təkrar olunan üç misralı şeir parçasının birincisi yuxarıdakı bənddən sonra gəlir.

*Zəmanə sürməz*
*Məhəbbət qırmaz*
*Ağlayar az az.*

Diqqət edin, bu kiçik parçanın da misraları «z» hərfi ilə tamamlanır. O biri bəndlər də bu minvalla davam etdirilir. Molla Cümənin belə maraqlı ibrətamiz şəkildə daha bir neçə şeiri vardır. Onları təhlil etməyə imkanım yoxdur. Ona görə də bir-iki misal verməklə kifayətlənəcəm.

*Bir vəsiyyət edim sizə, qardaşlar,*
*Bəd əsil namərdin üzünə baxma.*
*Gimgəsinə çıxma*

*Gəl desə getmə*
*Yanımdan ötmə*
*Versə yüz tümən*
*Diyari çəmən*
*Diyari-çəməndə girsə araya*
*Hayıf ola ona toy-bayram məclis.*
*Yeridir ingilis*
*Olsun nasranı.*

Başqa bir şeir:

*Minib səməndinə olubsan süvar*
*Könül əyləncəsi bircə bəri bax.*
*Sonra ayrılax.*
*Əvvəl, axır bu ayrılıq bizə var*
*Gəl sarmaş boynuma çeşmi-çıraq.*
*Vədədir iraq...*

Yaxud:

*Dostluğun bölləm*
*Sən bizə gəlsən*
*Dərdinnənölləm*
*Sən bizə gəlsən.*
*Cümə fanaram*
*Dəymə sınaram*
*Fikrin qanaram*
*Sən bizə gəlsən.*

Çox maraqlı bir şeir:

*Sən mənim qədrimi bilmədin canan*
*İndən sonra bu dostluğu duala*
*Görəndə didarın sənin hər zaman*
*Düşər könlüm yüz min iki xəyala*
*Xəyal etdim bu sevdanı*
*Çağırram qədir mövlanı*
*Gözümdən töküb al-qanı*
*Çün çəkərəm dərdi-bəla.*
*Dərdi-bəla canda olu*

*Cəsəddə canda olu*
*Yar gəlib seyr etməyə*
*Açmışam canda yolu.*
*Yol açmışam canda yar gəlib gəzsin*
*Basıb öldürsün əlimi üzsün*
*Bir kərə öldürsün əlimi üzsün*
*Susasın qanıma, batsın babala.*
*Babal olar gözəllərdə*
*Eşitmişik əzəllərdə*
*İki mələk yaz ellərdə*
*Çiynik üstdə edib nalə.*
*Nalə edər hər gün ahı*
*İşləmə hər günahı*
*Yüzü haqda, dil duada*
*Çəkərəm hər gün ahı.*
*Ah çəkərəm yada düşəndə ruyin*
*Aləmi məst edər o müşki-buyin*
*O əhmər zülflərin sürahi boyun*
*Oxşatdım bənzimi solan xəzələ.*
*Xəzəl kimi saralmışam*
*Kömür kimi qaralmışam*
*Bimürvət bir yar almışam*
*Döndərib qəddimi dalə.*
*Yox dalım təzə yaydır*
*Kamandır, təzə yaydır*
*Yarım daldan çıxanda*
*Deyirlər təzə aydır.*
*Ay dolanıb ömür gedir üstündən*
*Dərdimi artırıb aşırdım mindən*
*Yəqin bildim fələk bizi gün-gündən*
*Bu dostluğu ayrışdırır zavala.*
*Zaval üzrə yas tutaram*
*Şad könlümə qəm qataram*
*Tərlan üçün tor ataram*

*Bayquş gəlib keçərələ.*
*Əlim əlli yüz ayrı*
*Doxsan ayrı, yüz ayrı*
*Mən ki, səndən dönmərəm*
*İstərsən dön yüz ayrı.*
*Bu ayrılıq candan saldı məni yar*
*Eylədigin iqrar, iman hanı yar*
*Molla Cümə əzəl sevdi səni yar*
*İnanmırdı döndərərsən əbdala.*
*Əbdal olub şal geyərəm*
*Bir neçə göftar deyərəm*
*Cümə deyər əl yuyaram*
*Bu sevdadan innən belə.*
*İnnən belə tərcüməni*
*Edərlər tər cüməni*
*İsmi Pünhan dərdinnən*
*Basıbdır tər Cüməni.*

Əzizim Əli Rza müəllim! «Kredo» qəzetinin hörmətli oxucuları, mənim həmkarlarım, folklorşünas, aşıqşünas alimlərimiz. Molla Cümənin əlyazmalarından götürdüyüm və aşağıda sizə təqdim elədiyim şeir nümunəsinə diqqət edin, ümumiyyətlə, şeirə, bəndlərə, misralara, rədif və qafiyələrə bəndlər arasında olan əlaqə vasitələrinə diqqət edin. Mən şəxsən bu şeirin adını deyə bilmirəm. Bəlkə Siz müəyyənləşdirib aşkarlayın. Mənə görə Molla Cümə bu şeirin oxuduğu melodiyanı – aşıq mahnısını da çox gözəl bilirmiş. Başqa sözlə, şeir Molla Cüməyə məlum olan aşıq havası üstündə qoşulmuşdur. Bir də hamıdan mən üzr istəyirəm, əgər şeirdə qüsur varsa, onu əlyazmasına köçürən şəxs buraxmışdır. Mən oxuyanda da qeyri-dəqiqliyə yol verə bilərəm.

Molla Cümənin yaradıcılığının böyük bir hissəsini müxəmməslər təşkil edir. Aşığın müxəmməsləri yüksək bədii səviyyəli, həcm etibarilə geniş bədii əsərlərdir. Müxəmməs eyni zamanda aşıq havasının adıdır. Müxəmməs klassik şeiri-

mizin ən çox yayılmış şəklindən biridir. Aşıqlar müxəmməsi klassik şeirdən fərqli olaraq aşıq havaları üstündə düzüb qoşurlar. Müxəmməs əsas etibarilə lirik janrdır. Molla Cümənin müxəmməsləri həm forma etibarilə müxtəlif və həm də məzmununa görə rəngarəngdir. Əsas etibarı ilə Molla Cümə müxəmməslərini lirik mövzulara həsr edib. Onlar elə bil lirik mövzuda məhəbbətə, sevgiyə həsr edilmiş gözəl bədii əsərlərdir. Molla Cümənin ictimai, tarixi-etnoqrafik mövzularda da müxəmməsləri vardır. Mən elə bilirəm ki, aşıq müxəmməsdə çox böyük təcrübə və sənətkarlıq göstərir. Hətta həcvləri də Molla Cümə müxəmməs üstündə qoşmuşdur. Əlbəttə, aşığın müxəmməsləri haqqında geniş danışmağa imkanım yoxdur. Ancaq Molla Cümənin müxəmməslərinin bir neçə özünəməxsus xüsusiyyətlərini qeyd etmək istəyirəm.

Əvvələn Molla Cümənin müxəmməsləri çox böyük sənət əsərləridir. Müxəmməslər elə bil dağ çeşməsi kimi aşığın sinəsindən süzülüb gəlir. Onları böyük həvəs və diqqətlə oxuyur və zövq alırsan. «Dilbər» rədifli müxəmməsdən bir bənd:

*Ol yaradan yaradıbdır*
*Sən balanı necə nazlı*
*İncəbelli, şümşad əlli*
*Fəsih dilli, şirin sözlü*
*Orta boylu, gözəl xoylu*
*Ənbər buylu, qəmər üzlü*
*Qələm qaşlı, şux baxışlı*
*İnci dişli, maral gözlü*
*İzin ver hüsnünə edim*
*Doyunca tamaşa dilbər.*

Molla Cümənin müxəmməsləri yüksək bədii səviyyəyə malik müstəqil poemalardır. Bunlarda xalqımızın yalnız sevgi, məhəbbət, vəfa sədaqəti deyil, eyni zamanda yüksək mənəvi dəyərləri, ailə, məişət tərzi, adət-ənənələri, etnoqrafiyası öz bədii inikasını tapmışdır. Müxəmməslərin hərəsi bir poemadır,

onlar geniş məzmuna, təsvir vasitələrinə, böyük sənətkarlıqla düzülmüş misralara malikdir. Onlardan misallar da seçib şərh eləmək çətin olur. Adət, ənənə və məişət tərzi, hətta gözəllərin geyimləri belə yüksək bədii səhnələrdə təsvir olunur:

*Başında çərkəz papaq*
*Qaraçuxa əynindədir.*
*Arxalığı, köynəyi*
*Tər kəlağay boynundadır.*
*Çit qurşaq, badis tuman*
*Hər birinin əynindədir.*
*Ağ dolaq xəmsə corab*
*Çağırı başmaq çiyindədi*
*Həmişə aydın olsun*
*Qabağı qaşı bu oğlanın.*

Dükanda dayanıb atasına kömək edən oğlanın geyimi belədir. Molla Cümə müxəmməslərinin ən ümdə xüsusiyyətlərindən biri də zəngin, rəngarəng, insanı heyran qoyan ana dilimizdən məharətlə istifadə olunmasıdır. Aşığın hər bir poeması bu və ya digər şəxsə, gözələ öz adı və ünvanı ilə müraciətlə yazılmış gözəl sənət nümunələridir. Sırf lirik, sevgiyə, məhəbbətə həsr olunmuş müxəmməslər elə bil dağ çeşməsi kimi təbii surətdə aşığın sinəsindən süzülüb gələn zəngin dilə, bədii müqayisə və bənzətmələrlə dolu lirik bir poemadır. Bir lirik müxəmməsdə ən azı 5-7 bənd var. Bu bəndlər çox ustalıqla, sənətkarlıqla qoşulmuşdur. Bir bəndin içində bəndlər, misralar, hecalar, dəfələrlə dəyişilir. Ancaq bu bəndlər arasında aşıq elə təbii, cazibəli əlaqələr yaradır ki, oxucu heyran qalır. Çoxlu lirik müxəmməslərin bir bəndi misal çəkmək istəyirəm, digər misallar üçün imkan yoxdur. Aşığın «Gəlin» rədifli müxəmməsi forma cəhətdən çox diqqətlə tədqiqata möhtacdır. Nədənsə əlyazmasında bu müxəmməsin 6 bəndi qalıbdır, halbuki 7 olmalıdır. Hər bənddə 24 misra var. Bəndlərin içərisində misralar bir neçə dəfə dəyişilir, yəni hecalar azaldılır, daxili hecalar düzəldilir. İlahi, bu bəndlərdə

misra, söz hecalar necə ölçülüb-biçilib, necə sığallanıb, yonulub, zinətlənib, doğma ana dilimizin zənginliyi ilə bəzədilib. İnsan heyran olur. Bu böyük sənətkar bağrından qopduğu xalqın dilinin necə də incəliklərinə, zənginliklərinə, şirinliyinə bələddir. Doğrudan da onun bütün müxəmməsləri məhz belə, necə deyərlər, xalqın dili ilə bəzədilmişdir. Bu sözlər elə bil Molla Cümənin dimağından təbii qayalardan billur çeşmə kimi axıb gəlir.

*İstərəm ol xudadan*
*Sən olasan yarım gəlin.*
*Yolunda peşkəş eylərəm*
*Külli dövlət, varım gəlin.*
*Apardın din imanım*
*Səbr ilə qərarım gəlin.*
*Eylədin Məcnun məni*
*Yoxdur namus, arım gəlin.*
*Gəzdirdin divanə tək*
*Üzdün ixtiyarım gəlin.*
*İxtiyarım üzürsən*
*Üzünə tel düzürsən.*
*Qaş-gözünü süzürsən*
*İşvə-nazla gəzirsən.*
*Sən Əzrayıl donunda*
*Can almağa hazırsan*
*Canım alasan*
*Başa bəlasan*
*Bir gəl yola sən*
*Göyçək balasan*
*Of, nə ola ilahidən*
*Sən mənim olasan*
*Həmişə sənnən keçə*
*Xoşca ruzigarım gəlin.*

Sırf məhəbbət mövzusunda olan müxəmməslərdə bəndlərin əlaqəsində Molla Cümənin öz ənənəsi var. Növbəti bənd

hər bir bəndin son misrasında olan sözlə başlayır. Bunlar isə aşıq sənətində olan havalarla, melodiyalarla bağlıdır. Elə bil Molla Cümə piano yanında oturub aşıq melodiyalarını formasına görə bənd, söz, misraları düzür. Bu düzümdə sən heç bir qüsur tapa bilməzsən. Bu bəndlərdə sözlər aşıq havalarının sədaları altında növbələşir. Mənim şəxsən qənaətim budur ki, Molla Cümə yaradıcılığı dil cəhətdən ayrıca tədqiq olunmalıdır. Diqqət edin, bir sıra ustad aşıqlarımızın şeirləri yaradıcı aşığın sazından elin dilinə keçmiş, el aşıqları əsrlər uzunu onları ifa etmişlər. Bu yolda istər-istəməz həmin şeirlərdə təbii müəyyən dəyişikliklər olmuşdur. Molla Cümənin müxəmməsləri belə deyil. Aşığın dilindən çıxan əsərlər əlyazmasına köçürülüb, orada donmuşdur. Əlyazmasından da Paşa Əfəndiyev birbaşa götürüb aşığın külliyatına daxil eləmişdir. Deməli, bu yolda Molla Cümə müxəmməsləri heç bir dəyişikliyə uğramayıb.

**Molla Cümənin deyişmələri.** Deyişmə aşıq sənətinin ən çox yayılmış, gümrah, cəlbedici şəkillərindən biridir. Deyişmə aşıqların sənətini, poetik dünyasını, erudisiyasını, ictimai həyata baxışlarını yoxlamaq üçün gözəl vasitələrdən biridir. Molla Cümənin də deyişmələri var. Onlar aşağıdakılardır: «Molla Cümə və Aşıq Könlü», «Qafiyə və təcnis», «Qızla gəlinin deyişməsi», «Molla Cümə və aşıq Donu», «Molla Cümə və dabbax». Bu deyişmələri mən həm şifahi dildən toplamışam və həm də əsas etibarilə əlyazmalarından götürüb müqayisələr aparıb, diqqətlə yoxlayıb aşığın əsərlərinin külliyyatına daxil eləmişəm. Bu deyişmələr içərisində xüsusilə Molla Cümənin Könlü ilə deyişməsi çox dəyərləri və əhəmiyyətlidir. Bu tipli deyişmələr bizim əsas etibarilə məhəbbət dastanlarımızda özünə yer almışdır.

Məşhur məhəbbət dastanlarında bu deyişmələr, tapmaca-bağlama məzmunu daşıyır. Özü də əsasən dini-mifoloji, əxlaqi mövzularda qurulur. Məsələn, «Qurbani» dastanında Qurbani ilə Dədə Yediyarın, «Abbas və Gülgəz» dastanında

Aşıq Abbasla Şirvan Dostunun, «Xəstə Qasım» dastanında Xəstə Qasımla Ləzgi Əhmədin, «Valeh və Zərnigar» dastanında Valehlə Zərnigarın deyişmələri bunun ən gözəl nümunələridir. Sonralar XIX əsrdə Aşıq Alı ilə Əsmər xanımın, Aşıq Hüseyn Şəmkirli ilə Reyhan xanımın deyişmələri də həmin ənənələr üzərində qurulmuşdur. Bizim məhəbbət dastanlarımızın müəyyən hissəsi ustad aşıqlarımızın həyat və yaradacılığına həsr edilmişdir. Mən bu dastanları aşıq dastanları adlandırıram. Bunlar haqqında vaxtilə müəyyən mülahizələr söylənmişdir. Məs., Hümmət Əlizadə hələ 1930-cu illərdə belə dastanlar haqqında yazırdı: Bu dastanları ustad aşıqların vəfatından sonra digər aşıqlar, yaxud şagirdlər onların həyat və yaradıcılığından, əsərlərindən istifadə edərək düzəldirlər. Uzun müddət bu mülahizə folklorşünaslığımızda qəbul edildi. Ancaq aşıq sənətinin, yaxud ustad aşıqların yaradıcılığının tədqiqatı, araşdırılması, yaxud bu gündən keçmişə səyahət göstərdi ki, həmin dastanların yaradıcıları elə aşıqların özləridir. Onlar öz sağlığında keçirdiyi həyat yolu və əsərlərindən istifadə edərək öz dastanlarını yaradırlar. Beləliklə, bütün ustad aşıqlar haqqında olan dastanların yaradıcıları elə özləridir. Belə dastanlarda ustad aşıqlar öz şeirlərini toplayaraq yaşadırlar. Deməli, haqqında söhbət açdığımız deyişmələrin müəllifləri də elə ustad aşıqlardır. Bu deyişmələr Azərbaycan aşıq poeziyasının müəyyən bir hissəsini təşkil edir. Bu deyişmələr ustad aşıqlarımız dünyagörüşünü, həyata baxışını, ictimai, bədii bacarığını, dini-ürfani görüşlərini, sənətkar bacarığını aşkarlamaq üçün gözəl vasitələrdən biridir. Qurbaniyə Gəncədə yaşayan Pəri xanımı buta verirlər. Qurbani sevgilisinin arxasınca Gəncəyə gəlir. Onu dövrəyə alıb dinləyicilər deyirlər ki, şəhərdə Dədə Yediyar yaşayır. O, Azərbaycan ozanlarının son nümayəndəsidir. Hələ indiyə qədər onun sözünün üstünə söz qoyan olmayıb. Şəhərə daxil olan bütün aşıqlarla deyişib hamısını məğlub eləmişdir. Qurbani deyir ki, mən gəlmişəm, böyük

ustadla deyişəcəyəm. Dədə Yediyar gənc aşığı bəyənir, ona xeyir-dua verir.

Dədə Yediyar:

*Məndən salam olsun cavan aşığa*
*Alnımızda yazı nə rəngdə idi.*
*Yazdıran kim idi, yazan kim idi*
*Əlində qələmi nə irəng idi.*

Qurbani:

*Al cavabın verim Dədə Yediyar*
*Alnımızda yazı al irəng idi.*
*Yazdıran allahdı, yazan ol əmir*
*Əlində qələmi al irəng idi.*

Maraqlıdır ki, aşıqlar bu deyişmələrdə eyni zamanda həyat, cəmiyyət, heyvanlar, bitkilər aləmi, göy cisimləri haqqında danışır, biri-digərinin həyat, sənət təcrübəsini yoxlayır və deyişmələrini də bu möcüzələr üzərində qururlar. Bu deyişmə yarışıdır, yoxlamadır. Aşıqların daxili aləmini açır, onların poetik dünyası ilə dinləyiciləri tanış edir.

Ləzgi Əhməd:

*O nədir ki, dayanıbdır dayaqsız*
*O nədir ki, boyanıbdır boyaqsız*
*O nədir ki, doğar əlsiz-ayaqsız*
*Üç ay keçər, ayağı var əli var*

Xəstə Qasım:

Göy bir çadır dayanıbdır dayaqsız
Ayla Gündür boyanıbdır boyaqsız
Qurbağadır doğar əlsiz-ayaqsız
Üç ay keçər ayağı var əli var.

Çox zaman aşıqlar deyişmələri sırf islam dini, yaxud islam mifologiyası üstündə qurur və elə bil hər kəsin islamı bilməsi dərəcəsini sınağa çəkirlər:

Aşıq Könlü:

*Xuda neynən ərş-əlam bəzədi*
*O nədir ki, qızıl güldən təzədir*

*O nədir ki, əvvəl axır bizədi*
*Nübat-nübat axır nəsdə dayandı.*

Molla Cümə:

*Həsən Hüseynlə ərş-əlam bəzədi*
*O elmdir qızıl güldən təzədir*
*O ölümdür, əvvəl axır bizədi*
*Nübat-nübat axır nəsdə dayandı.*

Bu tipli deyişmələrin qəribə taleyi olmuşdur. Başqa sözlə, onlara qarşı hücumlar baş vermişdir. Xüsusilə İslamla bağlı, İslam mifologiyası haqqında olan deyişmələr qadağan olmuşdur. Onlar guya dini təbliğ edir, dinləyicilərin dünyagörüşünü korlayır. Qurbani ilə Dədə Yediyarın deyişmələri haqqında belə bir hadisə olub. M.H.Təhmasib mənimlə söhbətində dedi ki, 5 cildlik Azərbaycan dastanları çapa hazırlanırdı. «Qurbani» dastanında olan deyişməyə hücumlar oldu. Qurbani ilə Dədə Yediyarın deyişməsi bədii cəhətdən çox kamil, məzmunca dolğundur, onun elmi-bədii əhəmiyyəti böyükdür. Bu deyişməni dastandan çıxardıblar və qadağan etdilər. Alim dedi ki, mənim bütün səylərim bir nəticə vermədi. Sonrakı bu deyişmənin mətni itdi, mən günlərlə axtarıb tapa bilmədim. Bu deyişmənin originalını bərpa etmək qeyri-mümükündür. İndi də tapa bilmirəm ki, sonralar lap bərpa olunan variantda demək olar ki, yaramır.

Başqa bir əhvalat. Bir gün M.H.Təhmasib məni Nizami adına Ədəbiyyat İnistitunun folklor şöbəsinə çağırdı. Dedi ki, 5 cildlik məhəbbət dastanlarının artıq üçüncü cildini hazırlamışıq. Demişəm ki, bu cildə rəyi sən yazasan. Mən cildi gətirib evə gəldim. Oxuyanda nə görsəm yaxşıdır. Aşıq Valeh və Zərnigarın yüksək bədii dillə deyilmiş, milli və İslam mifologiyasına həsr olunmuş deyişmələr qara karandaşla pozulmuşdur. Mən Təhmasib müəllimə dedim ki, bu kitabı şikəst eləməsinlər. Siz nüfuzunuzdan istifadə edin, bu kitab akademik nəşrdir. Deyişmələri saxlayın. M.H. Təhmasib dedi ki, mənim bütüm səylərim bir nəticə vermədi. Hətta Məmməd Arif müəl-

lim də kömək eləyə bilmədi. Deyişmələr qadağan olunmuşdur. Mən təəssüflə dedim ki, bu deyişmələr bizim aşıq sənətimizin zəngin hissələrindən biridir. Onları heç vaxt aşıq sənətinin böyük və qiymət xəzinəsindən çıxarmaq olmaz. Beləliklə, el malına xəyanət oldu. Bolşeviklər burada da özlərinin dişlərini göstərdilər.

Molla Cümənin Aşıq Könlü ilə deyişməsi təxminən yüz bənddir, burada çox rəngarəng mövzular var. Bu deyişmələrdə yüksək sənətkarlıq, mənəvi zənginlik, ictimai, psixoloji, etik, tərbiyəvi mövzular təbiət, cəmiyyət, dünya, aləm haqqında aşıqların fərdi, orijinal fikirləri əsas yer tutur. Belə deyişmələrin bəzən isə İslam dini, mifologiyası ilə bağlı olan bağlama və qıfılbəndlərin qoşulması səciyyəvidir.

Molla Cümə:

*Üç şey nədir gəldi adəm üstünə,*
*Danışdılar biri döşdə dayandı.*
*Ol ikisi gəzdi cümlə əzanı,*
*Biri üzdə biri başda dayandı.*

Aşıq Könlü:

*Ağıl, həya, iman üçü gəldilər,*
*Danışdılar iman döşdə dayandı*
*Ol ikisi gəzdi cümlə əzanı,*
*Həya üzdə ağıl başda dayandı.*

Molla Cümənin bu deyişməsi haqqında müxtəlif rəvayətlər var. Bəziləri deyirlər ki, aşıq Könlü tarixi şəxsiyyət olub, tanınmış şəxsiyyət olub. Həqiqətən də Molla Cüməni tapıb onunla deyişmişdir. Mən şəxsən Molla Cümə ilə bağlı kəndləri dolaşanda bu barədə maraqlandım. Molla Cümə yaradıcılığına bələd olanlar hamısı aşıq Könlü deyirdilər. Diqqət etsək, aşıq Könül yox, aşıq Könlü. Deməli, bu deyişmə hər şeydən əvvəl aşığın öz könlü ilə deyişməsidir və bilavasitə Molla Cümənin öz yaradıcılığıdır. Klassik aşıq poeziyamızın ənənələrinə sadiq qalaraq bu deyişməni məhz Molla Cümə özü yaratmışdır.

Rəvayətə görə ilk dəfə aşıq Könül Molla Cümə ilə Zaqatalanın Yuxarı Car kəndində çayxanada görüşüb deyişmişlər. Molla Cümə onu çayxanada camaatın gözü qarşısında bağlamışdır. Aşıq doğma Layisqiyə evinə gəlib çayxanada olan dinləyicilər tərpənib Molla Cümənin arxasınca Layisqiyə gəlib. Yenidən deyişiblər. Molla Cümə yenə Könlünü bağlayıb. Həmin məşhur deyişmənin son qıfılbəndi Molla Cümənin yaradıcılığı kimi qələmə verilir və indi deyişmənin sonunda saxlanmaqdadır. Mən şəxsən son qıfılbəndi əlyazmalarından tapıb deyişmələrin sonuna daxil eləyib aşığın əsərlərinin külliyyatında vermişəm. Onu «Kredo» qəzetinin oxucularına təqdim edirəm. Könlü ilə böyük deyişmə Molla Cümənin qələbəsi ilə məhz bu sonluqla tamamlanır:

*Yeddi qurandadır, yeddi surədə,*
*Yeddi də şammanı bir tağda gördüm.*
*Yeddisi ağdadır yeddisi qarada,*
*Yeddi də bülbülü bir bağda gördüm.*

*Yeddi ayaqdadı, yeddisi başda,*
*Yeddisi yerdədir, yeddisi ərşdə,*
*Yeddisi yazdadır, yeddisi qışda,*
*Yeddi də ovçunu bir dağda gördüm.*

*Yeddisi altdadır, yeddisi üstdə,*
*Yeddi düşməndədir, yeddisi dostda,*
*Yeddisi toydadır, yeddisi yasda,*
*Cüməyəm, yeddi alma budaqda gördüm.*

Məqalənin bu yerində bu deyişmələrin müəllifləri haqqında ətraflı mülahizələr söyləmək istəyirəm. Axtarışlar göstərir ki, Könül adında aşıq olmayıb. Bu könül deyil Könlüdür. Molla Cümənin özü Könlü ilə deyişir. Bütün yüzə qədər olan bəndlərin eyni zamanda qələbə ilə tamamlanan qıfılbəndin də müəllifi Molla Cümənin özüdür. Bu cəhət tarixən Azərbaycan aşıq sənətində sabitləşən ənənədir. Belə

deyişmələri ən böyük ustad aşıqlar qoşmuşlar. Bunlar sonralar məhəbbət dastanlarında mühafizə olunmuşdur. Məsələn, Qurbanidən başlayaraq onun Gəncədə Dədə Yediyarla məşhur deyişməsindən nümunələr «Qurbani» dastanında, Abbas Tufarqanlının Şirvan Dostu ilə ilə deyişməsi «Abbas və Gülgəz» dastanında saxlanılmışdır. Özü də səciyyəvidir ki, bu deyişmələr əsasən islam mifologiyası üzərində qurulmuşdur. Xəstə Qasımla Ləzgi Əhmədin, Valehlə Zərnigarın deyişmələri «Xəstə Qasım» və «Valeh və Zərnigar» dastanlarına bənzəyir.

Molla Cümə:

*O nədir ki, Nuhun gəmisini deşdi,*
*O nədir otların şirini seçdi,*
*O nədir ki, abi-həyatdan içdi,*
*Bilinməz məkanı, hardadır yurdu.*

Aşıq Könlü:

*Kəsəyəndi Nuhun gəmisin deşdi,*
*Arıdır otların şirini seçdi,*
*O Xızırdır abi-həyatdan içdi,*
*Bilinməz məkanı, hardadır yurdu.*

Molla Cümənin maraqlı və böyük deyişmələrindən biri də «qafiyə və təcnis» adlanır. Qafiyə böyük sənətkarın qoşmaya verdiyi addır. O, heç bir yerdə və heç zaman qoşma sözünü işlətməmişdir. Deyişmə 53 bənddir. Vaxtilə bu deyişmənin cüzi bir hissəsi çap olunmuşdur. Mən onu əlyazmalarından tapıb müqayisələr aparmış, tamamlamış və aşığın əsərlər kitabına daxil eləmişəm. Deyişmənin çox maraqlı başlanğıcı var. Söhbətə qafiyə başlayır.

*Ey dörd hərfli salamımı qəbul et*
*Məndən salam bir yara deyəsən.*

Təcnis ona cavab qaytarır. Çox maraqlıdır ki, təcnisin bütün bəndlərində misraların sonunda cinaslar var. Belə bir forma əvvədən axıra qədər davam edir. 53 bəndin hamısı «deməsəm» rədifi ilə tamamlanır. Bütün qafiyələr-qoşmalar elə bil tamamlanmış bəndlərdir, müstəqildir. Bunlar Molla Cümə-

nin digər şeirlərinin məzmunları ilə səsləşir. Əlbəttə, qafiyə və təcnisləri bütünlükdə təhlil etmək xüsusi hazırlıq tələb edir. Mən bu deyişmənin elə əlimə gələn bir-birinin dalınca qoşulmuş 2 bəndini gətirmək istəyirəm. Bəzi bəndlərin arasındakı əlaqə əvvəlki bəndin son sözü ilə sonrakı bəndin başlanmasıdır.

Qafiyə:

*Mail olmuş çoxlar ada qumaşa,*
*Həsrətimi çoxları çəkibdir başa,*
*Müştaq -müştaq çoxlar edər tamaşa,*
*Xətti-xala mah rüsxara deyəsən.*

Təcnis:

*Rüsxarına yazılmış ki, gözəldi,*
*Qaşı qasid, kiprik elçi göz aldı,*
*Hər görəndə cəsədimi köz aldı,*
*Bir ab səpsin tez ciyarə deyəsən.*

**Molla Cümənin qəzəlləri.** Diqqətəlayiqdir ki, Molla Cümənin qəzəlləri də var. Uzun illər qəzəllərin varlığı məlum olmamışdır. Yalnız son illər bu qəzəllər aşığın əlyazmalarından aşkar edilmişdir. Qəzəlləri Molla Cümə beyt adlandırır. Molla Cümənin qızı Reyhan xanımdan aldığım əlyazmasında və bir də «Hophopnamə»də bir sıra beyt və qəzəllər var. Bunları ilk dəfə mən aşkar edib, diqqətlə oxuyub, yoxlayıb, müqayisələr aparıb aşığın külliyyatına daxil etmişəm. Aşıq həm qəzəlləri və həm də necə deyərlər, beytləri hamısını bir yerdə beyt adlandırır. Beytlər çox müxtəlif həcmdədir. Eləsi var ki, 28 misradır. Aşıq deyir:

*Çün demişəm divani, təxmisdə mən,*
*Həm müxəmməs qafiyə təcnisdə mən.*
    *On iki hava ilə dərdim haray,*
    *Heç tükənməz baxıban gördüm haray,*
*İsmi Pünhan güzarında bir səhər.*
*İstədim beyyit-deyəm təhər-təhər,*
    *Eşq ucundan beyit-düzdüm dəxi,*

*Göz yaşımdan dəftər yazdım dəxi.*

Molla Cümənin beytləri çox maraqlı əsərlərdir. Onlar xüsusi tədqiqata möhtacdır. Beytlərin məzmunu aşığın digər bədii əsərlərinin mövzularına yaxındır. Elə beyt var ki, on dörd bənd-beytdir. Beytin birisi belə başlanır

*Məzarımdan çölə qoyun sağ əlim*
*Bu vəsiyyət sizlərə eylər dilim.*

Başqa bir beyt belə başlayır:

*Başlayıram dərdimi beyt ilə*
*Arif olan anlasın öyüd ilə.*

Bütün beytlər müstəqildir, bəzən aşıq bu beytlər arasında əlaqə də yaradır. Onu deyək ki, beytlərin içində qəzəllər də var, ancaq Molla Cümə qəzəl sözünü işlətmir. Onun divanilərinin birində deyilir:

*Şad günümdə eşqə gəlib yazdığım qəzəlləri*
*İndi peşiman dəftərinə düzməyin hayındayam.*

Molla Cümənin sözün həqiqi mənasında qəzəlləri də var. Bunlar aşığın beytlərindən fərqli olaraq bədii cəhətdən kamil, çox diqqətlə işlənmiş nümunələrdir. Klassik ədəbiyyatımızın qəzəllərinin bütün təhlillərinə riayət olunmuşdur. Elə bir görkəmli təcrübəli bir klassik əsərlər müəllifi şairimizin qələmindən çıxmışdır. «Deməyimmi», «Gəlir», «Getmə» rədifli qəzəlləri səciyyəvidir.

«Kredo» qəzetinin oxucularına aşığın qəzəllərindən birini təqdim edirəm:

*Çevril bir bəri bax, ey yari vəfadar getmə*
*Qoyub hicrində məni böylə giriftar getmə.*
*Sən belə getməginən həsrət-firqət adına*
*Yanmışam, yaxılmışam dildar, dilbər getmə.*

*Ey sərv qamətli canan, gəl sərimə sal saya*
*Qəribəm binəvayam sən ol havadar getmə.*
*Sən təbibsən mən zəif dərdimə çarə gərək*
*Sonra dərmansız ölər bu xəstə bihar getmə.*

*Qorxuram ki, gedəm xoş məzarın təlx edələr*
*Yolunu bənd eyləmiş bədguh-bədgar getmə.*
*Qayit allahı sevərsən bu könlümü şad eylə*
*Danış şirin dilinən bir neçə göftar getmə.*

*Aç qolunu sal boynuma sarmaşğınan ay dost*
*Qoy baxıb əğyar sözünə bu qədər……….*
*Baxıb əğyar sözünə bu qədər incitmə məni*
*Nə demiş xilaf demiş o binur bimar getmə.*

*Yalvara, yalvara busə verib peşman oldun*
*Cümədən küsməginən səndədir ixtiyar getmə.*

Akademik H.Araslı məqalələrin birində yazırdı ki, Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Valeh kimi ustad aşıqların klassik şeir üsulunda əsərləri olmuşdur. Bunlar yazıya alınmadığı üçün unudulub getmişdir. Molla Cümənin bu tipli şeirləri əlyazmasına düşdüyü üçün saxlanılmışdır. Bu şeirlərdə çox maraqlı və ibrətamiz beytlər var.

*Ey fələk, haçan olar mən təki bir taleyi sum*
*Gəzərsə Təbriz, Tehran, Misir, Yəmən,Van, hindu, Rum*
*Bu mənim bədbəxtliyim aləmlərə həm oldu faş*
*Bəlkə göydə eşidə Şəms, Qəmər, mələk, cum.*

**Molla Cümənin bayatıları.** Şəxsən mənə aşığın 60-dan artıq bayatısı məlumdur. Bunlardan bir qismi İlisu əlyazmasındadır. Orada xüsusi ayrıca səhifədə toplanmışdır. Qalan bayatılar ayrıca isə aşığın müxtəlif əlyazmalarında qalıb. Səhifələrin sonunda ya sol tərəfdə, ya da sağ tərəfdə bir-iki-üç nümunə bir yerdə səliqə ilə yazılmışdır. Aşığın bayatıları müxtəlif mövzulardadır. Bayatılarda təmiz, ülvü məhəbbət tərənnüm olunur. Xalq lirikasının çox ibrətamiz, səciyyəvi nü-

munələridir. Bülbül, gül, gül-çiçək, ceyran, quzu, Ay, Günəş, ulduz, ala-qara gözlər, bəxt, ülkər, nərgiz xalq bayatılarının ənənəvi zəminində böyük ustalıqla qoşulmuşdur.

*Dağları qar qucar yatar,*
*Sonanı sar qucar yatar,*
*Cəfanı bülbül çəkər*
*Gülü xar qucar yatar.*

*Mən aşiqəm oyan gül,*
*Oyan bülbül, oyan gü,l*
*Gec açıldın tez soldun*
*Məni ağlar qoyan gül.*

Molla Cümənin bayatıları el bayatılarından bir də deyilmə formasına görə seçilir. Xalq bayatıları «mən aşiq», «Aşiqəm», «Əzizim», «Eləmi» və sair ənənəvi sözlərlə başlayır. Molla Cümədə belə deyildir. Amma həmin ənənəvi sözlərlə başlayaraq bayatılar da var:

*Aşiqəm gül əsəndə*
*Danışıb güləsən də*
*Bülbülün bağrı çatlar*
*Yel dəyib gül əsəndə.*

*Aşiqəm gülə bəxtim*
*Bülbüləm gülə bəxtim*
*Yar sənə vəd veribdir*
*Şad olub gülə baxtım.*

Molla Cümənin bayatılarını ilk dəfə mən çap eləmişəm. (Bax: seçilmiş əsərləri. 1983 səh 173-182). Bayatılar sonralar aşığın çap olunan kitablarına və Şəki folkloru antologiyasına düşmüşdür. Bəzi bayatılarda Molla Cümənin öz təxəllüsü də var. Bunlar çox zaman aşığın şeirlərində cığa yerində işlədilmişdir.

*Xuda çatmaz dada Cümə*
*Yetməsən murada Cümə*

*Sirr vermə yada Cümə*
*Cəfan gedər bada Cümə.*

Yaxud:

*Ağlayan yaş ağlayar*
*Gözünən qaş ağlayar*
*Cümənin dərdin duysa*
*Ciyəri daş ağlayar.*

Molla Cümənin bayatıları yüksək bədii təsirli, janrın qəlibinə düşmüş, ideya-bədii cəhətdən kamil nümunələrdir. Aşığın bayatılarını əsrlər uzunu sığallayıb, təkmilləşdirilmiş ənənəvi xalq bayatılarından ayırmaq mümkün deyil:

*Aşiqəm od adamı,*
*Cənnətin od adamı,*
*Yandırsa yar yandırar*
*Yandırmaz od adamı.*

Molla Cümənin başqa bir maraqlı şeiri də var. O, belə adlanır: «Debeyti misalı». Molla Cümənin özünün yazdığı şeir şəkilləri içrəiisndə «Dübeyti» var. Bu şeir bizə Şəki rayonu Baş Göynük orta məktəbinin dil-ədəbiyyat müəllimi Şərif İdrisov lütflə bağışlamışdır. Şeir ilk dəfə aşığın «Seçilmiş əsərləri»ndə («Yazıçı», 1983, s.317-322) çap edilmişdir. Bu şeirin qoşulması haqqında müəyyən rəvayət də vardır: Guya Şəkinin Baş Göynük kəndində Molla Cümə məclis aparırmış. O zaman qadınlar da məclisə gələrmişlər. Ya ayrıca otaqda oturarmışlar, yaxud da otaq böyüksə bir küncə yığışarmışlar. Guya İsmi Pünhan da gəlib qadınların arasında oturarmış. Məclis başlayanda İsmi Pünhanın fikrinə gəlir ki, görəsən Molla Cümədə haqq aşıqlığından nişanə qalıbmı? Onu yoxlamaq üçün fikrində – ürəyində müxtəlif quşların adlarını xatırlayır. Əgər Molla Cümə haqq aşığıdırsa, onu hiss edəcək. Molla Cümə haqq aşığı kimi İsmi Pünhanın ürəyində nə varsa hiss edir və şeir qoşur. İsmi Pünhan artıq inanır ki, Molla Cümə hələ də haqq aşiqidir. Quşların adları çəkilir. Bəzilərini mən hətta ilk dəfədir ki, eşidirəm. Mahişə, bayquş, qarğa, alabaxta, qaratoyuq, qırğı,

himbiş, durna, göyərçin, qırqovul, qaranqaç, şamağa, leylək, ördək, cintal, bəzdək, dovdaq, civ-civ, cundu, qaz, bülbül, sağsağan, qurquru, kəklik, çita, qu-qu, yapalaq. İsmi Pünhan ürəyində hansı quşu tutursa, Molla Cümə elə o saat o quşa bir bənd şeir qoşur.

*İsmi Pünhan gözü şuxdu,*
*Kirpiyi canıma oxdu,*
*Dilimin qurbanı olmuş*
*Sən istəyən qaratoyuxdu.*

*İsmi Pünhan növcanım,*
*Ağlım, hissim din-imanım,*
*Məndən durnamı istərsən*
*Sənə qurban şirin canım.*

Şeir cəmi 30 bənddir. Bütün bəndlər gəraylı üstündə qurulmuşdur.

*İsmi Pünhan üzü güldür,*
*Xoş, sədalı, şirin dildir,*
*Bir vəfalı dost bağında*
*Başındadır, ya bülbüldür.*

*İsmi Pünhan gül sonası,*
*Eylər məni eşq anası,*
*Düşübdü könlümə kəklik*
*Yaxşı olar çığırtması.*

**Molla Cümənin dini şeirləri.** Bir gün Molla Cümənin nəticəsi Elman mənə zəng çaldı. Dedi ki, Paşa müəllim, AzTv-də film çəkirlər. Molla Cüməyə həsr olunub, guya Molla Cümə sufidir, İsmi Pünhan da Allahdır. Dedim, ay Elman, mən ömrümün yarısını sənin babanın həyat və fəaliyyətinə həsr eləmişəm. Axı niyə onlar mənə zəng vurub məsləhət almırlar. Elman əlavə etdi ki, Paşa müəllim, deyirlər film çəkən vaxtilə sizin tələbəniz olub. Mən çox təəssüf elədim. O film çəkilibsə də mən görməmişəm. Axı Molla Cümə heç vaxt sufi şair ola

bilməz. O, yer, sənət şairidir, onun ayaqları çox möhkəm yerə, bu dünyaya bağlıdır. Doğrudur, Molla Cümənin çox az şeirlərində sufi terminlər, işarələr var. Ancaq Molla Cümə heç vaxt sufii şair olmayıb, ola da bilməz. Bunun ən yaxşı və bariz ifadəsi elə böyük sənətkarın zəngin yaradıcılığıdır. O, şeirlərinin birisində deyir:

*Ədnayam, kəmtərəm dərdə dərmanam,*
*Hənəfi məzhəbəm, həm müsəlmanam,*
*Nəbim Məhəmməddi, əhli-Quranam*
*Mömin qardaşların aşnasıyam mən.*

Aşıq bir çox şeirlərində fəxrlə deyir ki, mən Ulu Tanrının quluyam, Məhəmməd Mustafanın vurğunuyam. Bax Molla Cümənin bu vəziyyətini şeirlərindən tapıb üzə çıxarmaq və öz qiymətini vermək lazımdır. Molla Cümə İslam dinini, tarixini, mifologiyasını çox dəqiqliklə sevən və təbliğ edən bir sənətkardır. Bunları biz aşığın bir çox şeirlərində müşahidə eləyə bilərik.

*Molla Cümə oddananda*
*Durub alar dəstəmaz*
*Üz çevirər dərgahına*
*Qohum-qardaş səsləməz.*

Aşıq İslam dinini, onun inkişafı tarixini, İslam üləmalarının fəaliyyətini, Qurani-Kərimi çox gözəl bilir. O, şeirlərinin birində belə deyir:

*Üz tutub dərgaha qıllam minacat*
*Dilim əzbərisən layəzəl Allah*
*Yanıbdır ciyərim qabardır qaşqa*
*Kimə deyim dərdim bir səndən başqa.*

Göründüyü kimi aşıq Ulu Tanrısına o qədər ibadət eləyib ki, hətta qaşqası (alnı) da yara olub. Şeirlərinin birində aşıq deyir ki, «Şükür cəlalına ey Qəni Səttar min bir ismi var birdir Qəffar». Başqa bir şeirində:

*Molla Cümə çağır Cəlili Cabbar*

*Yetiş imdadıma ey Qəni-Səttar.*

Mola Cümə Ulu Tanrıya çox minnətdardır ki, onu eşq sövdasına salıb, vergi verib. O biri tərəfdən bu eşqin sevdasını gizlədə bilmədiyi üçün ondan üzr istəyir.

*Molla Cümə, haqdan qeyri özgəsinə ərz eyləmək nə lazım,*
*Başın üstdə ağan vardır o qədir fələk kimi.*
*Çox da yanma Molla Cümə axırın torpaq olu*
*Cümlə işlər Allahdandır qəza-qada neyləyim.*

Aşıq fələkdən, zamanadan, qəzavü-qadadan narazıdır, ancaq Allah Taaladan yox. O, hər daim hər çətinliyə düşsə, Allaha, Xudaya ibadət edir, kömək diləyir. Digər bir şeirində özünə müraciətlə:

*Bu fəna dünyada sən*
*Getməginən azğın yola*
*Toba qıl yaradana*
*Bəlkə günahım əf ola.*

İsmi Pünhana müraciətlə:

*Sevərsən əvvəl Allahı*
*Həm Həbibi Mustafanı*
*Yəqin bil ki, öldüyündür*
*Etməsən bir çarə ey dost.*

Molla Cümənin «Allaha şükür» rədifli bir müxəmməsi var. Aşığın dünya görüşünü, həyata baxışını, insanlara münasibətini Ulu Tanrıya olan məhəbbətini öyrənmək üçün çox əhəmiyyətli bir əsərdir:

*Eyləyən şamu-səhər*
*Bir olan Allaha şükür.*
*Sərasər möcüzatı*
*Nur olan Allaha şükür.*
*Bilinməz qullarına*
*Dur olan Allaha şükür.*
*Hökmünü tutanlara*
*Zor olan Allaha şükür.*

*Padişahı dü cahanın*
*Nur olan Allaha şükür.*

Aşığa görə Allah Taala yeri, göyü, cənnəti, cəhənnəmi, yetmiş iki milləti yaratmışdır.

*Cümlə aləm yox ikən*
*Var olan Allaha şükür.*
*Yetirdi müradımı*
*Pərvərdigar axır özü*
*Cümə təki biçarəyə*
*Yar olan Allaha şükür.*

Məlum olsun ki, Molla Cümə sufi deyil, islamistdir. Türk dünyasının, İslam aləminin möcüzələrini çox dərindən bilən, onların təfərrüatlarına qədər varan aşıq onların çox ustalıqla şeirlərinə salıb həmyerlilərinə aşılamışdır. Molla Cümənin «Yarəb» rədifli bir surəsi var. Aşıq özü bu şeirini surə adlandırıb, qoşma üstündə olan 13 bənddən ibarət bu şeir belə başlayır:

*Bir diləkdir dərgahından istərəm,*
*İsmindir min birə bağışla yarəb.*
*Dil duada, üzüm göydə səsdərəm,*
*Həbib piru-nurə bağışla yarəb.*

O özünü Ulu Tanrının ümməti hesab edir. Allah, mən sənin yanında günahkaram, məni huri-qılmana, səkkiz uçmağa (cənnətə) bağışla. Aşıq dörd kitabın adını çəkir. Furqana, Zəbura, İncil və Torata, Sureyi-Yasinə bağışla, Yarəb. Bu şeir əvvəldən axıra qədər İslamın, Quranın möcüzələrinin şərhinə həsr edilib. Aşıq Musa peyğəmbərin Turi-Sina dağının müqəddəsliyini şərh edərək deyir:

*Turi-Sina məkan oldu Musaya*
*Əvvəla Adəmə, sonra Havvaya*
*Yüz igirmi dörd min gələn Nəbiyə*
*Xatəmi-Muxtara bağışla Yarəb.*
*Çağırram qırxları, cəm ənbiyanı*
*Amin deyin mən eyləyim duanı…*

Ulu Tanrıdan sonra Molla Cümənin ibadət etdiyi müqəddəs varlıq Allah elçisi olan peyğəmbər Məhəmməd Mustafadır. 124 min peyğəmbər haqqında onun şeirlərində çoxlu müraciətlər var:

*İslamın çırağı, haqqın həbibi,*
*Ol Məhəmməd Mustafanı neylədin dünya.*

Molla Cümənin bilavasitə Ulu Tanrıya müraciətlə şeirləri çoxdur. Eyni zamanda aşığın müxtəlif şeirlərində Allaha müraciətlə misraları da çoxdur. Mən «Hophopnamə»nin səhifələrindən aşığın bir qoşmasını əldə eləmişəm. Qoşma çox çətinliklə oxunmuşdur. Çox səciyyəvi və ibrətamiz olan bu qoşmanı mən lap çox sevdiyim «Kredo» qəzetinin oxucularına çatdırmaq istəyirəm.

*Xudavəndə, budur səndən niyazım*
*Günahkaram, məni oda yandırma*
*Xubların vəsfidir oruc, namazım*
*Xəşm eləyib bənzi yada yandırma.*

*Bu gərdişin qadir Allahı sənsən*
*Bu cahan mülkünün şah-şahı sənsən*
*Biçarə qulların pənahı sənsən*
*Sığınmışam min bir ada yandırma.*

*Hər mətləbin dörd kitaba enibdir*
*Bəxt, taleyim niyə belə sönübdür*
*Molla Cümə bu dünyada yanıbdır*
*Rəhm etginən o dünyada yandırma.*

**İsmi Pünhan kimdir?** Nə üçün böyük sənətkar öz sevgilisinin ismini (adını) pünhan (gizli) qoymuşdur. Ümumiyyətlə, folklorşünaslığımızda təriflənən gözəlin adı heç vaxt gizlədilməmişdir. Molla Cümənin yaradıcılığında bəlkə də onlarla el-kənd gözəli öz adı ilə təriflənir. O gözəllər adları ilə Molla Cümənin yaradıcılığına düşmələri ilə fəxr etmişlər. Mən iki illik ekspedisiya zamanı aşığın fəaliyyət göstərdiyi və anadan olduğu bütün yerlərdə bu məsələ ilə maraqlanmışam.

Çoxlu rəvayətlər eşitmişəm. Onların heç biri mənim üçün inandırıcı olmamışdır. Ancaq bir rəvayət məni inandırmışdır, mən də onun üzərində dayanmışam. Aşıq sevgilisinin adı ya oxuduğu mədrəsə sahibinin yaxud da o yerdə məşhur olan bir dindar şəxsin qızı ola bilərdi.

Molla Cümə yaradıcılığında ən böyük və ən mürəkkəb problem məhz İsmi Pünhan problemidir. Çünki bu problem yalnız tərcümeyi-hal ilə deyil, həm də aşığın böyük və zəngin yaradıcılığı ilə bağlıdır. Şəkinin Baş Göynük kəndində bir qoca mənə dedi ki, İsmi Pünhan elə Molla Cümənin özüdür. Aşığın uşaqlıq və ömür dostu yaşı yüzdən ötmüş İdris dayı dedi ki, bir gün mən Cümədən soruşdum kimdir axı bu İsmi Pünhan, cavab verdi ki, İdris üz vurma, bu sirr açılmamalıdır.

İsmi Pünhan haqqında ən geniş və ən səhih məlumat məhz Molla Cümənin zəngin yaradıcılığıdır. Molla Cümənin İsmi Pünhan haqqında şeirlərini iki qrupa bölmək olar. Birisi odur ki, Aşıq sevgilisinə öz məhəbbətini bildirir, başqa sözlə, İsmi Pünhanın sağlığında deyilən şeirlərdir. İkincisi isə İsmi Pünhanın faciəli surətdə həyatdan getməsindən sonra deyilən şeirlərdir. Onu da əlavə edək ki, Molla Cümə ömrü boyu İsmi Pünhandan müqəddəsləşmiş, unudulmaz, yaddan çıxmaz bir varlığa çevrilmişdir. İlk şeirlərində aşıq sevgilisinə olan məhəbbətini ifadə edir. Molla Cümə İsmi Pünhanın həqiqi, canlı surətini yaratmışdır. İsmi Pünhan bütün hərəkətləri, xarici görünüşü, hətta geyimi ilə canlı, həqiqi bir gözəldir. Aşıq İsmi Pünhanın həm daxili, həm də xarici nişanələrini taparaq gözəl bir insan şəklini çəkmişdir. Molla Cümə elə Ulu Tanrıdan vergi alandan İsmi Pünhanı vəsf etməyə başlamışdır.

Mən səni sevmişəm yeddi yaşımda. Aşığın şeirlərində İsmi Pünhanla bağlı müəyyən tarixlər də var. Onlardan bəzilərini xatırlayıq. Bütün bunlarla bərabər İsmi Pünhan pəri deyil, huri deyil, rəmzi gözəl deyil, mifik obraz deyil. Molla Cümənin kənddə, kəsəkdə şəxsən görüb aşıq olduğu el, kənd gözəlidir. İsmi Pünhan baxışı, paltarı ilə elin içində boya-başa

çatan gözəldir. İsmi Pünhan geyimi, üzü, yanaqları, qaməti, davranışı etibarilə canlı, real insandır.

İsmi Pünhan çox gözəl, sədaqətli, mehriban bir sevgilidir. Molla Cümənin əsərlərində İsmi pünhan haqqında çox danışır. Bəzən sevgili haqqında dediklərində ziddiyyətlər də Layisqi xatırlanır.

*Göynüyün ətrafını bu Molla Cümə,*
*Gündə dörd yolla ziyarət eylər.*
*İsmi pünhan səndə qərar tutubdur*
*Oxşayırsan lap cənnətə Layisqi.*

Molla Cümənin şeirlərində İsmi Pünhanla bağlı bir sıra tarixlər də var.

*Cümə səni sevəndəydi a tarix*
*Min iki yüz doxsanıncı sənədə.*

Həmin tarix 1873-cü ildir, onda aşığın on doqquz yaşı var imiş.

Yaxud:

*Hesabda olubdur 19 yaşı,*
*Qabağı aynadı, hilaldı qaşı.*

Başqa bir şeirində aşıq deyir:

*Min iki yüz doxsanında sevmişdim,*
*Min üç yüz onda da əlimdən getdi.*

Baxın, Aşıq «Alagöz» rədifli müxəmməsində İsmi-Pünhanın hansı əlamətlərini göstərir.

*Alagöz İsmi Pünhana*
*Əvvəl baxışın oxşayır.*
*Həm gözün, həm kirpiyin*
*Həm qələm qaşın oxşayır.*
*Həm dilin həm dodağın*
*Həm inci dişin oxşayır*
*Həm boyun, həm buxunun*
*Həm də qumaşın oxşayır...*
*Oxşursan İsmi Pünhana*
*Dərdindən öldüm Alagöz.*

Molla Cümə İsmi Pünhanın sağlığında onunla təmasda olub, tez-tez görüşüblər. Aşıq yaradıcılığı boyu İsmi Pünhanı müxtəlif vəziyyətlərdə görüb eləcə də şeirə salmışdır.

*Bu necə qamətdi bu necə beldi,*
*Bu qədər naz etmə aşığın öldü.*
*Sağ üzün bənəfşə, sol üzün güldü,*
*Əhmədi almadan aldı yanağın.*

Molla Cümənin «Üç insan» adında bir müxəmməsi var. Onlar bunlardır: Məhəmmədəli Cavan, Molla Surxay və İsmi Pünhan. Bu müxəmməsdə o, İsmi Pünhandan tanışı, dostu, əzizi kimi söhbət açır. Nəticə bu olur ki, İsmi Pünhan pəri, huri, mələk, mifik bir varlıq deyil, canlı, həqiqi insandır, tarixi şəxsiyyətdir. El gözəlidir. Molla Cümənin ömrünü, gününü qurban verdiyi qənirsiz, gözəl bir məxluqdur. Burada heç bir rəmzilik, mifiklik yoxdur.

*Səfər üçün qədəm bassa*
*Gəlincə yola baxırdım*
*Göynük şəhər ətrafını*
*Gündə yüz yol yoluxurdum*
*Bir saat ruyin görməsəm*
*Xəzəl təki soluxurdum.*

Molla Cümə gənc, cavan, gözəl, sevimli İsmi Pünhanla fəxr eləyirdi, onunla nəfəs alırdı. Ancaq tale işləri başqa bir məcraya saldı. Aşığın məhəbbəti, gözlədiyi qovuşmaya, vüsala can çatdığı İsmi Pünhan çox erkən dünyadan köçdü. Aşığın dili tutuldu, onun hətta yaradıcılığının mövzu istiqaməti də dəyişdi. El gözəli, al yanaqlı, qara gözlü, şümşad boylu sevgili Molla Cüməni sarsıtdı. Aşıq elə o günü aşağıdakı qoşmanı yanıqlı-yanıqlı oxudu:

*İsmi Pünhan köçdü fani dünyadan,*
*Qarışdı torpağa göz hayıf oldu.*
*Xudanın tədbiri beləymiş bizə,*
*Soldu yanaqları üz hayıf oldu...*
*Dedim ki, şad ollam bu bahar vaxtı,*

*Töküldü burnumdan yaz hayıf oldu.*

Molla Cümə böyük bir faciəni qəbul edərək bunun səbəbini də axtarırdı. Bütün yaradıcılığında olduğu kimi bütün faciələrin, dərdlərin səbəbi bu dünyadı, bunların hamısını aşığın başına dünya gətirir.

*Duam budur səni viran qalasan,*
*Məni qoydun könlü yaslı a dünya.*
*Yar qoxusunu dimağına iylətdin,*
*Eşqə saldın gecə-gündüz göynətdin.*
*Ayrılıq naməsin yazdın dilimdən,*
*Məhəbbət tasmasın açdım belimdən,*
*Çəkibən sevdigim aldın əlimdən,*
*Çıxartdın kəlləmdən tüstü a dünya.*

İsmi Pünhan el gözəlidir, kəndin ən sevilən gəlinidir. Xalq onun gözəlliyini təriflməkdən doymur. Bir də ona görə ki, İsmi Pünhan elin ən sevimli sənətkarının nişanlısıdır. Ona görə də İsmi Pünhan dünyadan köçəndə bütün el yasa batır, ağlayır. Həmin hissələri Molla Cümənin aşağıdakı şeirlərində açıqcasına görmək olar.

*İsmi Pünhan sinəmizi dağladın,*
*Sənin üçün neçə canlar ağlayır.*
*Çox tay-tuşun yollarını bağladın,*
*Üzün görən mehribanlar ağlayır…*

*Qohum-qardaş cümlə geyib qaranı,*
*Dostun dostdur cəm düşmənlər ağlayır.*
*…Heykəldə yadigar duran muyları,*
*Bu Molla Cüməynən qanlar ağlayır.*

İsmi Pünhan haqqında danışanlar deyirlər ki, o, Molla Cümənin butasıdır. Zaqatalanın Çobankol kəndində görkəmli aşıq Kazımla görüşdüm. İsmi Pünhanla maraqlandım Kazım dayının dediklərini olduğu kimi verirəm. «İsmi Pünhan Qax rayonunun Şabalıtlı kəndində Şeyx Baba adlı bir dindarın qızı olmuşdur. İsmi Pünhan Molla Cümənin butasıdır».

Bu problem barədə müxtəlif rəvayətlərdən başqa ən doğru, səhih məlumat yenə aşığın öz şeirləridir. Necə deyərlər, Molla Cümə ömrünün sonuna qədər öz butasına ağlamışdır. Bütün bunlar isə aşığın şeirlərində çox aydın istifadə edilmişdir. Bir neçə misal göstərək:

*Dad həzarat siz də bilin, sevgilimi itirdim*
*Ey zamana, biçarə Molla Cümənin əlindən aldın yarın.*

*Bir dəfə ol xudadan*
*Bəxti qara yazılmışam*
*Sevgilimdən cüda düşdüm*
*Bilin yetmiş iki millət.*

Fələyə müraciətlə:

*Sevdiyim əldən alıb*
*Qamətimi dal eyləmiş*
*Günahım əf et xudam*
*Zayi olan nəfsdi bu*
*Yar turab içrə yatar*
*Bikar quru həvəsdi bu.*

İstəkli butasını itirəndən sonra aşıq özünü bəxti qaralar sırasına salıb. Sevgilisinin ölümü onun bütün güzəranını alt-üst edib. Həyatının bütün sahələrində olan bədbəxtlikləri İsmi Pünhanın nakam ölümü ilə bağlayır.

Bizim ustad aşıqlarımızın məhəbbət dastanlarında qəhrəmanların butası olur. Buta aşiqlərə Ulu Tanrı tərəfindən qismət kimi bəxş edilir. Onu Xızr peyğəmbər gətirir. Ulu Aşıq Qurbaninin Pərisi – butası Gəncədədir. Abbas Tufarqanlının butası Gülgəz Pəri Təbrizdədir. Xəstə Qasımın butası Tikmədaşdadır, Aşıq Valehin butası Dərbəndədir. Eləcə də məhəbbət dastanlarının qəhrəmanları Aşıq Abdulla, Kərəm, Novruz, Şah İsmayıl, Aşıq Qərib, Alı xan və başqalarının da butaları vardır. Ustad aşıqlar öz butalarına həsr elədiyi şeirlərini bir dastanda toplayıb yaşadırlar. Qəhrəmanların böyük bir hissəsi uzun zəhmətdən, əzab-əziyyətdən sonra butaları ilə qovuşub xoşbəxt olurlar.

Dedik ki, aşiqlərə Ulu Tanrı qisməti kimi verilir. Ona görə də əvvəl-axır uzun əzab-əziyyətdən sonra butasına qovuşur. Ancaq bəzi dastanlarımızda ustad aşıqlarımızın yaradıcılığında buta ilə vüsal baş tutmur. Aşıq sevgilisinə çatmaq yolunda məhəbbətinin qurbanı olur, fiziki cəhətdən şəhid olur. Ancaq bir fədakar aşıq kimi mənəvi cəhətdən qələbə çalır və əbədiləşir. Molla Cümə çoxlu şeirlərində belə fədakar aşıqlar içərisində Məcnun və Kərəmin adını vəsf edir.

*Məcnun Kərəm ki var eşq əhlinin gözüdür,*
*Ondan qalan xilaf şeylər fitnə-fel dustağıdır.*

Molla Cümə özünü məhz bu aşiqlərin sırasına daxil edir və bununla da fəxr eləyirdi.

*Könül əyləncəyi, istəkli butam,*
*Ol İsmi Pünhanı neylədin dünya!*

Çünki İsmi Pünhana qovuşa bilmir. Çünki İsmi Pünhan nakam bir sevgili kimi vaxtsız köçür. Bir də onu əlavə etmək istəyirəm ki, yaradıcılığının sonunda meydana gələn şeirlərdə İsmi Pünhan artıq bir sevgili, bir şəxs kimi ümumiləşir. Aşığın əlçatmaz, ünyetməz həyat idealına çevrilir. N.Nərimanov deyir: «həqiqi, təmiz məhəbbət müqəddəs bir hissdir. Onu pul ilə almaq, pula satmaq olmaz. Bu hiss padişahı gədadan ayırmaz, həqiqi, təmiz, məzhəb, din bilməz və çirkin fikirlər bəsləməz... Məşuqun məbudun vüsalına çatıb sonra ölmək ancaq həqiqi, təmiz məhəbbətin nişanəsidir. Məbud idealdır, həqiqi, təmiz məhəbbət sahibi məbuduna, məşuquna çatarsa, idealına çatan kimidir. İdeal ideallıqdan çıxar.

Kərəm başında qara, çirkin fikirlər basləsə idi, Əsli ilə yaşamaq istərdi, fəqət yaşamadı, öldü... və ölməyinə də səbəb Əslinin min cövr-cəfadan sonra tapılmağı və sonra Kərəmə verilməyi oldu. Baxınız, nə nazik bir mətləb! Nə gözəl və dərin bir fəlsəfə! Nə qədər təmiz və müqəddəs bir əqidə...» Molla Cümənin bircə sevgilisi olub İsmi Pünhan, o da nakam gedib. Molla Cümə İsmi Pünhandan sonra heç kəsi sevməmiş, əsər-

lərindən də bu barədə məlumat yoxdur. Aşıq ömrü boyu butasının eşqi ilə yaşamışdır.

**Molla Cümənin «dünya»ları.** Molla Cümə bir sıra şeirlərində «dünya»ya müraciət eləmişdir, bəzən isə sadəcə adını çəkmişdir. Hər dəfə də aşıq dünyanı tənqid eləmiş, çox zaman isə damğalamışdır. Aşıq bununla belə elə şeirlər də yazmışdır ki, onlarda dünyaya müraciətlə sərt fikirlər söylənir. Elə bil aşıq dünya ilə üz-üzə dayanıb onunla döyüşə hazırlaşır. Onu damğalayır. Molla Cüməyə görə bəşər övladı heç vaxt dünyadan xeyir görməmişdir.

Məlumdur ki, dünya çox mənalı sözdür. Bəlkə də onun saysız-hesabsız mənaları var. Dünya bütün dövrlərdə dünyanın ən böyük alimləri, yazıçını düşündürmüşdür. Onların hamısının özünə görə dünya haqqında mülahizələri vardır. Ona görə ki, dünya alimləri hər dəfə fikirləşmişlər ki, dünya nədir, onun əvvəli nədir , axırı nədir. Dünya necə yaranıb, kim yaradıb, kim onu saya-hesaba salıb. Dünya böyükdür və sirlər aləmidir. Onun sirləri nədir və kim onun sirlərini bilir. Bəşər övladı əsrlər boyu dünya, aləm, haqqında saysız-hesabsız rəvayətlər, əhvalatlar düzəldib söyləmişdir. Dünya haqqında dünya xalqları nə qədər miflər düzəltmiş, hər bir xalqın da özünə görə dünya haqqında orijinal mifləri olmuşdur. Dünya xalqlarının ən böyük və ən zəngin mifləri məhz dünya haqqındadır. Rus mifologiyasında ona «mirozdaniye» deyilir. Bütün dünya alimlərinin və sənətkarların dünya haqqında mülahizələri var... Dünyaya türk dünyasında ilk müraciəti Ulu Babamız Dədə Qorqud eləmişdir.

*Qanı dediyim bəy ərənlər*
*Dünya mənim deyənlər*
*Əcəl aldı yer gizlədi*
*Fani dünya kimə qaldı*
*Gəlimli gedimli dünya*
*Axır son ucu ölümlü dünya.*

Gözəllik və ağıl mücəssəməsi olan, dövrünün həyat və güzəranını dərindən duyan, həyatın, varlığın ziddiyyətlərini çox dərindən dərk edərək öz poeziyasında çox uğurla bədii çalarlarla ifadə edən XII əsrin mələk şairimiz Məhsəti Gəncəvi rübailərində dünyanı ustalıqla qiymətləndirərək bədii və fəlsəfi yüksəkliyə qaldırdı.

*Bu dünya bir qızıl kuzəyə bənzər*
*Suyu gah şirindir gah da ki zəhər*
*Çox da öyünmə ki, uzundur ömrün*
*Əcəl köhlənində hazırdır yəhər.*

Türk dünyasının böyük səyahətçisi Evliya Çələbi «Səyahətnamə»nin cildlərinin birində Azərbaycan bayatı ustası Lələnin aşağıdakı bayatısını vermişdir:

*Lələnin dünyası nə?*
*İnanma dünyasına.*
*Dünya mənim deyənin,*
*Dün getdik dun yasına.*

Əziz oxucum, diqqət edin həmin bayatıdan Ulu Babamız Dədə Qorqud kəlamlarının qoxusu gəlir.

Aşıq Səməd:

*Üstündən yel keçmiş dağlar görmüşəm,*
*Dağılmış, talanmış bağlar görmüşəm,*
*Mənəm deyənləri ağlar görmüşəm,*
*Kimsə gülər, kimsə ağlar dünyada.*

Dünya doğrudan da çox mənalı bir məfhumdur. Dünyanın ən böyük şəxsiyyətləri hər şeydən əvvəl iki dünyanı qəbul etmiş və ondan danışmışlar. O dunya yaxud axirət dünyası, bir də yaşadığımız dünya. Bundan başqa bir də insanların öz şəxsi dünyaları var. Bunu da iki mənalı qəbul etmək olar. Bir xarici ətraf, dünya, bir də sənətkarın mənəvi daxili dünyası. Böyük şairimiz bunları cahan adlandırmışdır. Diqqət edilsə, elə məhz dünya deməkdir. Böyük Nəsiminin da daxili dünyası nəhəng böyük xarici dünyasına da sığmır. Daxili dünya çox və

sonsuz dərəcədə genişdir. Şairi yaşadan, şöhrətləndirən də məhz daxili dünyasıdır.

Böyük Ulu Dədəmiz Qorqud deyirdi ki, hanı dediyim bəy ərənlər dünya mənimdir deyənlər. Molla Cümə Dədəmizin elə bil bu sözlərinə qüvvət verən bir şeirində – iri həcmli qoşma üstündə olan bir şeirində deyirdi:

*Kənanın şöləsi, Misir sultanı,*
*Yusif Züleyxanı neylədin, dünya.*
*Abi-həyat üçün varan zülmətə,*
*İskəndər Zülqərneyni neylədin, dünya.*
*Bisutun dağında çalışan səngə,*
*Fərhad tək şeydanı neylədin,dünya.*
*Başında məskəni, quşlar yuvada*
*Məcnunla Leylanı neylədin dünya.*
*İslamın çırağı, haqqın həbibi*
*Məhəmməd Mustafanı neylədin dünya.*
*Allahın yolunda Zülfüqar çalan,*
*Əli tək aslanı neylədin, dünya.*

Molla Cümə böyük sənətkardır. Onun özünəməxsus mürəkkəb, geniş, zəngin, poetik dünyası var. Molla Cümə özünün dediyi kimi hər şeydən qabaq aşıqdır, özü də böyük aşıqdır. O, dünyaya nəzər salıb sakit dayana bilməz, gördüyün çağırmalıdır. Bu cəhətdən Molla Cümənin eyni zamanda necə deyərlər, ictimai-fəlsəfi, dini-ürfani dünyası da var. Bu dünya onu daha çox düşündürmüş, valeh etmişdir. Yaşadığımız dünya ziddiyyətlərlə doludur. Bunlar haqqında Molla Cümənin özünün xüsusi aləmi var. Bu aləmi açmaq eyni zamanda aşığın daxili ziddiyyətlərini aşkarlamaq deməkdir. Molla Cümənin bilavasitə dünyaya müraciətlə bir neçə şeiri var. Bu şeirlər «Dünya» rədiflidir, iri həcmli şeirlərdir, qoşma və müxəmməs üstündədir.

Bəlkə də müqayisəsi yerinə düşməz, ancaq mən öz müqayisəmi aparacağam. Hazırda məncə sirr deyil. Molla Cümə Baş Göynükdə, Baş Layisqidə, Aşağı Göynükdə, Aşağı

Layisqidə oturub bu qədər elmi-dini, ürfani, fəlsəfi, ictimai məlumatları haradan almışdır. Axı o, bizə məlum oluduğuna görə yalnız bir neçə dəfə Dağıstana getmişdir. Vəssəlam. Mən bir dəfə öz təəccübümü bildirmək üçün belə bir müqayisə aparmışam. Axı bizim böyük Nizamimiz yalnız Gəncədə oturub dünya bədii fikrinin fövqünə yüksəlməmişdirmi? Cümə də belə bir möcüzənin sahibidir. Molla Cümə bəzi şeirlərində özü də dini-ictimai şeirlərində böyük həqiqətlər açır. Mən belə bir qənaətdəyəm ki, Molla Cümə məşhur islamşünas alimdir – üləmadır.

*Qanıram ustaddan almışam dərsi,*
*Oxumuşam ərəb, türk ilə farsi,*
*Fikrim seyr eyləyər ərşinən kürsü,*
*Dərin kitabların mənasıyam mən.*

O, İslamı bütün təfərrüatlarına, incəliklərinə qədər öyrənmişdi. Aşığın xüsusilə mifologiyaya həsr edilən şeirlərinin təhlili bunu aydıncasına göstərməkdədir.

Molla Cümə dünyaya həsr elədiyi bütün şeirlərində ondan qəti surətdə narazıdır. Aşığa görə dünya dünyada baş verən bütün bədbəxtliklərin səbəbkarıdır. Molla Cümə elə bil dünya ilə üz-üzə dayanıb ona hökm oxuyur, bütün hərəkətlərini birbaşa üzünə deyir. Belə bir xalq deyim var. «Dünya beş gündür beşi də qara». Xalq beş günün heç birisini bəyənmir, hamısı bədbəxtliyin mənbəyidir. Böyük şairimiz Səməd Vurğun hələ Böyük Vətən müharibəsi ərəfəsində elədiyi məruzələrin birində xalq ədəbiyyatından danışanda belə bir bayatısını seçib misal gətirmişdir.

*Əzizinəm gülə naz,*
*Bülbül eylər gülə naz,*
*Dünya bir qəmxanadır*
*Ağlayan çox gülən az.*

Poeziyamızın günəşi, şərəfi Məhəmməd Füzulidə belə misralar var.

*Dünya işinin mədarı yoxdur,*

*Heç kimsəyə etibar yoxdur,*
*Eylər birisini sahibi tac*
*Ol birisini eylər ona möhtac.*

Biz bunlara oxşar misraları Molla Cümənin şeirlərində də tapırıq:

*Cahan kandır qullar asi,*
*Cürə-cürə yaranıbdır.*
*Kimi varlı kimisi ac*
*Kimi qoyar qızıldan tac.*

Bu cəhəti biz xüsusilə Molla Cümənin qoşma üstündə söylədiyi iri həcmli şeirlərində görməkdəyik:

*Fələk məni ondan betər tərsə saldı işimi,*
*Fərhad cürə eşq ucundan dağıdımmı başımı,*
*Tahir sifət qərq oluban ümmanda əgləşmişəm.*

Molla Cümə əsərlərində ən çox dünyadan şikayətlənir. Bununla belə dünya sözünün əvəzediciləri də var fələk, zamana, aləm, qəza, qəzavü-qədər və sairə. Dünyadan sonra ən çox işlənən «fələk»dir. Molla Cümə hətta fələyə bir neçə şeirini də həsr etmişdir. Fələk haqqında folklorumuzda çoxlu nümunələr vardır. Bir sıra atalar sözü: «Fələyin qaydasıdır dağı dağ üstdən çəkər», «Fələyin zoruna heç nə kar eləməz», «Fələyin çərxi dönər». Məşhur Azərbaycan bayatı ustadı Ələminin bayatısını Övliya Çələbi əsərlərinə salıb saxlamışdır.

*Ələmi halım fələk,*
*Dil bilməz zalım fələk,*
*Kəsdin can bağçasından*
*İki nihalım fələk.*

*Mən aşiqəm yüz yalvar,*
*Yüz oturub yüz yalvar,*
*Fələk bildiyin eylər*
*Sən istəsən yüz yalvar.*

Nəcəf bəy Vəzirov deyir: «Çəkmə çəkə bilməzsən bərkdir fələyin yayı».

Fələyi tez-tez ərşi-fələk adlandırırlar. Fələk də Allah kimi göyün bir qatındadır. Məhəmməd Füzuli deyir: «Fələklər yandı ahımdan muradım şəmi yanmazmı». Yaxud böyük sənətkarın belə bir beyti də yadıma düşdü:

*Değil bihudə gər yağsa fələkdən başıma daşlar*
*Binasın tişeyi ahimlə viran etdiyimdəndir.*

Məhəmməd Füzuli ahının külüngü ilə fələyin binasını viran eyləmişdir.

*Aman fələk aman sənin əlindən,*
*Axır məni böylə günə yetirdin.*
*Bir dərdim artırıb minə yetirdin.*

Molla Cüməyə görə fələk indiyə qədər heç kəsin əlindən tutmayıb. Fələk azğındır, fələk qorxunc bir qüvvədir. Onu da deyim ki, fələkdən bütün məhəbbət dastanlarında da şikayət var.

*Yüz dərman tapıldı çarəmdən qeyri,*
*Yüz dərdlər sağaldı yarəmdən qeyri,*
*Fərhad ilə Məcnun Kərəmdən qeyri,*
*Cümə tək murada yetməyən kimdi.*

Bəzən aşıq şeirlərində göstərir ki, onu sağalmaz eşq dərdinə, bəlasına salan da fələkdir. Fələyin bəlasından qurtarmaq mümkün deyil. Fələk aşığı elə bir dərdə salıb ki, onun dərmanı yoxdur. Həyatda dərmansız dərdə düşən aşiqlər də var. Molla Cümə də onlardan biridir.

*Aman aman nə haldayam gör məni,*
*Yaxam oldu göz yaşımın xırmanı,*
*Səndə bitir hər bir dərdin dərmanı,*
*Sən var ikən kimə gedim, ay fələk*
*Çirkin oldu gözəl adım, ay fələk.*

Molla Cümə «f» hərfi üstündə təcnis yazıb. Fələyə böyük bir müxəmməs həsr eləyib.

*Of fələk, yandım fələk,*
*Görəndə dildarı fələk,*
*Of fələk, öldüm fələk*

*Olanda üzbarı fələk.*

İbtətamizdir ki, Molla Cümə mifologiya ilə bağlı şeirlərini əsasən Ulu Tanrıya müraciətlə başlayır. Bu cəhətdən «Yarəb» rədifli qoşma üstündə iri həcmli şeir diqqətə layiqdir. Aşıq bu şeirini «surə» adlandırmışdır.

*Bir diləkdir dərgahımdan istərəm,*
*İsmindir min birə bağışla yarəb.*
*Dil duada üzüm göydə səsdərəm,*
*Həbib pirü-nurə bağışla yarəb.*
*Ol huri-qılmana səkkiz uçmağa (cənnət)*
*Leylə türqədirə bağışla yarəb.*
*Furqandan Zabura İncil Törata,*
*Abi kövsərə bağışla yarəb.*
*Musa gündə min bir kəlmə danışan,*
*Ol Sinayə, Tura bağışla yarəb.*
*Yüz igirmi dörd min gələn Nəbiyə,*
*Xatəmil-Muxtara bağışla yarəb.*
*Övliya məkanı Məkkə, Mədinə,*
*Şam ilə Buxara bağışla yarəb.*
*Yunisi dəryada saxlayan maha,*
*Yeddilər, qırxlara bağışla yarəb.*

Molla Cümənin bu şeiri 13 bənddir. Diqqət edildə görünür ki, aşıq hər bir bənddə İslam mifologiyasının motivləri, obrazları və əhvalatları ilə şeirini aşkarlayır.

Dünya dinlərinin dörd kitabı, Musa peyğəmbərin Tur dağında söhbətləri, yüz igirmi dörd min nəbinin fəaliyyəti Xeyr-Şər yazıları Lövhi-Məhfuz, qəriblərin dadına çatan Xızr peyğəmbər, Müqəddəs Məkkə, Mədinə və sairə aşığın şeirinin əsas iştirakçılarıdır. Molla Cümə bununla özünün islam dünyasına, dini əfsanələrə, mifoloji motivlərə vaqifliyini büruzə verir.

Molla Cümənin bilavasitə mifoloji süjetlərə həsr edilən şeirlərindən biri də «Mədəd» rədifli müxəmməsidir. Aşıq özü bu şeiri «minacat» adlandırmışdır. Qax rayonunun İlisu kəndin-

də olanda Yunis Təhməzov mənə aşığın böyük bir əlyazmasını hədiyyə vermişdi. Deyirdilər ki, guya Yunis dayı Molla Cümənin bəzi şeirlərini Quran kimi avazla oxuyur. İndi mən anladım ki, Yunis dayıda məhz bu tipli şeirləri olmuşdur. Belə şeirlər Molla Cümənin bütünlükdə İslam mifologiyasına və həm də Şərqin məşhur mifoloji süjetlərinə və obrazlarına yaxından tanışlığını sübut edir. Mifologiyaya, mifoloji süjetlərə həsr edilən şeirlərdə elə obraz və süjetlərə rast gəlirsən ki, açılması şəxsən mənim üçün müşgül işdir. Halbuki bu obraz və süjetlərin sirlərinə Molla Cümə bütün təfərrüatı ilə vaqif olmuşlar. Heyran olursan ki, böyük sənətkar bunları nə vaxt, harada və necə öyrənmişdir. Özü də Baş Göynükdə oturub.

*Doqquz yüz əlli yaşayıb*
*Nuh getdi dünya səndən*
*Çox möcüzat zühur oldu*
*Şüheybin əsasından*
*Daş içindən çıxdı dəvə*
*Salehin duasından*
*Zəkəriyyə girdi ağaca*
*Yardılar qafasından*
*Qoyun kimi boğazlanan*
*Yəhya Məlildən mədəd.*

Mən onu bilirəm ki, Saleh, Zəkəriyyə, Yəhya, Məlil bunlar peyğəmbərlərdir. Ancaq onların həyatı, fəaliyyəti, vəzifəsi haqqında heç bir məlumatım yoxdur. Aça da bilmədim. Vasim müəllimə də zəng eləmək istədim, o da baş tutmadı, evdən də çıxa bilmirəm. Bunlar qaldı gənc həmkarlarımın öhdəsinə. Mən «Mədəd» rədifli müxəmməsin daha bir neçə bəndini misal gətirib mifoloji köklərini açmağa çalışacağam.

*Gecə-gündüz duam budur*
*Cabbar Cəlildən mədəd...*
*Adəmin cəsədi yoğrulan*
*O Abi gildən mədəd.*

Sonra:

*Əyub yaman dərdə düşdü*
*Əridi cismi canə*
*Sultan ikən Bilqeyisi*
*Qul etdilər Süleymanə*
*İbrahim Xəlil dost yoluna*
*Oğul verdi qurbanə*
*Quyu içinə düşdü Yusif*
*Dua etdi Sübhanə*
*Ağlar qalan Yaqub təki*
*Çeşmi alildən mədəd.*

Burada Əyyub, Bilqeyis, Süleyman, İbrahim Xəlil, Yusif, Yaqub, Sübhan kimi mifoloji obraz və tarixi şəxsiyyətlərin adları çəkilir. Məlum olsun ki, hər bir adın, şəxsin arxasında böyük mifoloji əhvalat, hadisə və süjetlər var. Bunların hamısı bütün təfərrüatı ilə Molla Cüməyə məlum olmuşdur.

Şeirin başqa bir bəndinə nəzər salaq:

*Dəryada balıq qarnında*
*Yunis oxur halətə*
*Dörd yol öldü carcuz Nəbi*
*Çıxdı axır səlamətə*
*Tutdu Əli Zülfüqarı*
*Çalışdı qəzəvətə*
*Kərbalada Həsən, Hüseyn*
*Təslim oldu cənnətə*
*Mustafanın çeşmi-nuru*
*Ol iki güldən mədəd.*

Müxəmməsin bu bəndi müxtəlif və kifayət qədər mifoloji, dini geniş yayılmış əhvalatlar üzərində qurulmuşdur. Bunları Molla Cümə böyük ustalıqla, sənətkarlıqla şeirə salıb dinləyicilərinə çatdırmışdır, bir az da dəqiq desək, təbliğ eləmişdir. Yunisin dəryada balıq qarnında qalması Həzrət Əlinin Zülfüqarla qəzəvətə çalışması, Məhəmməd peyğəmbərin nəvələri

Həsən və Hüseynin Kərbəla faciəsində cənnətə vasil olması və sairə əhvalatları göstərmək olar.

Müxəmməsdə daha maraqlı və xüsusilə də İslam mifologiyasının süjetləri obraz və əhvalatları ilə bağlı bəndlər vardır:

*Yüz igirmi dörd min Nəbi*
*Dünyaya gəlmiş zühur,*
*Yeddi qat yer, yeddi qat göy*
*Ərş, Kürs, Qaf, Tur*
*Şəms, Qəmər, Mələk, Nücum*
*İns, cins, mari mur.*
*Yüz sühufnan endi Tövrat*
*Fürqani, İncil, Zabur*
*İxlasnan yasin Taha*
*Oxuyan dildən mədəd.*

Mənə belə gəlir ki, müxəmməsin bu bəndinə şərh verməyə ehtiyac yoxdur. Birinci misradan sonuncu misraya qədər sırf mifoloji və dini rəvayətlərdir ki, aşıq bunları şeirə salıb dinləyicilərinə çatdırır.

## V Ə S İ Y Y Ə T

Molla Cümə yaradıcılığı ağzında möhkəm qıfıl olan böyük və sirli bir sandıqdır. Sandığın içində olan dünya, aləm, insanlıq, təmiz və ülvi eşqə məhəbbət, islama, Ulu Tanrıya olan məhəbbət ilə dolu sənət nümunələri toplanmışdır. Mən professor Paşa Əfəndiyev bu bənzərsiz bədii nümunələri dənə-dənə toplayıb qorxusuz, xatasız bir sandıqda yerləşdirmişəm. İndi mən ey mənim həmkarlarım, cavan aşıqşünaslarımız bu sandığın açarını da, içindəki dünya dolu mənəvi sərvəti də sizə yadigar verirəm, bağışlayıram. Qollarınızı çirməyin, qələmlərinizi itiləyin. Azərbaycan xalqının əsrlər boyu yaratdığı, inkişaf etdirdiyi aşıq sənətinin ənənələri ilə silahlanıb, təhlil edib,

bu sirləri aşkarlayıb Molla Cümənin ürəyi qədər sevdiyi doğma xalqına qaytarın.

## Əzizim Əli Rza müəllim.

Əzizim, mən Sizə çox zəhmət vermişəm, ərkinən Sizi çox incitmişəm. Yenə də incitmək istəyirəm. Mən ömrümün yarısından çoxunu böyük Azərbaycan aşığı Molla Cümənin həyat və fəaliyyətinə həsr eləmişəm. Elin dilindən şeirlərini dənədənə yığmışam, evlərə, ayrı-ayrı şəxslərə müraciətlə əlyazmalarını əldə eləmişəm. Aşığın hər bir şeirini əlimdə olan bütün variant və əlyazmaları ilə müqayisə edib nəhayət onun külliyyatına daxil eləmişəm. 41 müəllif vərəqi həcmində olan bu külliyyatı prezident adminstrasiyası çap eləyib bütün Azərbaycan kitabxanalarına hədiyyə vermişdir. Molla Cümənin həmin külliyyatı hazırda Almaniyanın Halle şəhərində universitetin Landes kitabxanasında saxlanılır. Mən aşığın şeirləri üzərində işləyəndə hər dəfə hansısa bir sənətkarın şeirlərinin izi, təsiri, rayihəsi məni narahat edirdi, həvəsləndirirdi və həm də hər gün düşündürürdü. Nəhayət bu yaxınlarda böyük şairimiz Molla Pənah Vaqifin əsərlərini təzədən oxudum. Ulu Tanrı, Böyük Allah, bu nə möcüzədir!? M.P.Vaqif və Molla Cümənin iki nəhəng, titanik sənətkarların yaradıcılığı arasında bağlar, tellər, oxşarlıqlar gördüm. Bunlar məni valeh elədi, əməlli-başlı müşahidələr apardım. Əli Rza müəllim, əzizim, mən indi çox ağır xəstəyəm. İlk müşahidələrimi də demək olar ki, yataqda aparmışam, yazmışam, müşahidələri genişləndirmək üçün mənim nə mənəvi, nə də fiziki imkanım yoxdur.

Əli Rza müəllim. Mən əldə elədiyim müşahidələrimi bir məqalədə ümumiləşdirib Sizin sevimli qəzetimizə göndərirəm.

Siz böyük ustad və böyük sənətkarsınız, bir müəlliminiz kimi Sizinlə fəxr eləməyə mənim haqqım və hüququm var. Mən də böyük alim və böyük pedaqoqam, 86 yaşımda hələ də əlimdə qələmim işləyir. Sizin də öz müəlliminzlə fəxr eləməyə haqqınız var. Əli Rza müəllim, əzizim, qoy mənim apardığım bu ilk müşahidələr şəxsən Sizin və mənim adımdan elimizin iki böyük sənətkarının ruhlarına oxunan dualar olsun.

Hörmətlə,

***PAŞA ƏFƏNDİYEV***

*professor, əməkdar elm xadimi*
*10.06.2014-cü il*

## MOLLA PƏNAH VAQİF VƏ MOLLA CÜMƏ

Oxucularım fikirləşərlər ki, bu iki böyük sənətkarı nə kimi yaxınlığı, yaradıcılıqları arasında nə kimi oxşarlıq, əlaqə birləşdirə bilər. Mən ömrümün yarısını Molla Cümənin həyat və fəaliyyətinin öyrənilməsinə həsr eləmişəm. Hər dəfə aşığın şeirlərini müqayisələr aparmaq yolu ilə nəşrə hazırladıqca məni hansısa bir sənətkarın Molla Cümə şeirləri ilə yaxnlıq, oxşarlıq halları düşündürürdü. Bu cəhət aşığımızın həm qoşma, gəraylı və müxəmməslərinə aid idi. Molla Pənah Vaqif yaradıcılığı ilə xüsusilə məşğul olmamışdım. Ancaq bildiklərim, yaddaşım mənim nə isə bu iki sənətkar arasında oxşarlıq olduğu qənaətinə gətirib çıxarırdı.

Molla Cümənin vətənində onun şeirlərini topladığım zaman aşığı görənlər, tanıyanlar, sənətkarlar hər zamanlar bir ağızdan deyirdilər ki, Molla Cümə molla olmayıb, mollalıq eləməyib yalnız elmli, bilikli ürfan sahibi olduğuna görə onun adının əvvəlinə Molla sözünü artırmışlar. Qax rayonunun İlisu kəndində mənə dedilər ki, burada şair Nazim olub, mən onun

şəxsiyyətini aydınlaşdıra və şeirlərini tapa bilmədim. Böyük ədəbiyyatşünas və folklorşünasımız Salman Mümtaz 1927-1928-ci illərdə çap elədiyi 2 cildlik «El şairləri» kitabında Nazimin 3 şeirini verib və Molla Məhəmməd Nazim yazıb. Şəkidə Molla adlandırılan çoxlu şəxslərə rast gəldim. Özü də onlar öz dünyagörüşü, elmi, biliyi, təcrübəsi, müdrikliyi ilə seçilən şəxslər idi. Vaqifin də adının əvvəlinə Molla sözünün artırılması, əlbəttə, mənə görə bu səbəbdən olmuşdur. Bütün Azərbaycanda Vaqif haqqında çox məşhur, yayılmış məsəl, aforizm gəzmiş, elə indi də gəzməkdədir. «Hər oxuyan Molla Pənah olmaz». Vaqifə də Molla Pənah demişlər. Axı Vaqif hələ Qazaxda ikən məktəbdarlıq eləyib, başqa sözlə desək, o, müəllimlik eləmişdir. Molla Cümə Vaqifi tanıyırdımı? İstər-istəməz mənim qarşıma tez-tez belə əhəmiyyətli suallar çıxırdı. Görəsən, Vaqifin özü yaradıcılığı haqqında aşıq nə və nəyi bilə bilərdi? Sonralar mən təbii ki, Vaqifin şeirlərini yenidən oxudum, qarşıma çox ibrətamiz hallar gəlib çıxdı. Doğrudur, Molla Cümənin peoizyasında Vaqifin adı çəkilmir. Ancaq Vaqif poeziyasının rayihəsi, sirri, gözəlliyi Molla Cüməni bir sənətkar kimi heyran eləmişdi. Molla Cümə Vaqifin yaradıcılığı haqqında eşitmişdi. Çünki Molla Pənah Vaqifin şeirləri bütün Azərbaycanda dilləri dolaşırdı. O biri tərəfdən axı aşıqlarımız səyyar sənətkarlardır. Onlar bütün ölkədə el, oba, məhəllə, bölgələri özlərinə yaxın olan ölkələri də dolaşırdılar. Bu baxımdan Molla Cümənin Vaqifi tanıması tamamilə təbii idi. Görün, Varxiyanlı aşıq Məhəmməd hələ XIX əsrdə nə deyirdi:

*Məhəmmədəm gəşt elədim*
*Bu cümlə cahanı gəzib*
*Gəncəni, Qarabağı*
*Şəkini, Şirvanı gəzib*
*Xoy, Salmas, Marağa*
*Təbrizi, Tehranı gəzib.*

Aşıqlarımız Türkiyəyə, Gürcüstana, Qərbi Azərbaycana, Dağıstana, İrana səfər edir, həm öz şeirlərini oxuyur, yayır, aşkarlayır. Şahidi olurlar ki, böyük ustad Vaqif onlardan qabaq gəlib elin içərisində dolaşır, oralarda çoxdan şair öz gözəl gözəlləmələri ilə hakimdir. Beləliklə, baxın Azərbaycan aşıqları məhz bu yolla Vaqif poeziyasına vaqif olurdular.

Molla Cümə şeirləri ilə Molla Pənah Vaqif yaradıcılığı arasında çox aydınlıqla görünən tellər, bağlar var. Böyük aşığımız böyük şairimizin yaradıcılığı ilə necə, nə yolla və harada tanış ola bilərdi? Mən çox inamla və cəsarətlə deyirəm, mənim apardığım müşahidələrimə görə Molla Cümə böyük, ulu şairimizin yaradıcılığına vaqif idi. Ancaq bu sadəcə danışıqdır. Bunu sübuta yetirmək üçün çoxlu axtarışlar, müqayisə və təhlillər aparmaq lazımdır. Bunun üçün xüsusi tədqiqat işləri görmək gərəkdir. Əlbəttə, bunu tezliklə birinci axtarışda aşkarlamaq çətindir. Çox ehtiyatla, səbrlə, diqqətlə yoxlamaq, xalqımızın hər iki sənətkarının yaxınlıq və oxşarlığını göstərmək lazımdır. Uzun illər bu iki sənətkarın yaradıcılıqları arasında olan yaxınlıq, tellər və bağlar məni rahat buraxmırdı. Axı bu möcüzədir, özü də çox ibrətamiz bir möcüzədir. Vaqif və Molla Cümə yaradıcılıqları arasında yaxınlıq və oxşarlıq üzə çıxır. Mən bu sahədə kiçik və ilk müşahidə aparmaq qərarına gəldim. Onu da deyim ki, bu yaxınlıq və oxşarlığın çox dərin kökləri var. Bunları axtarmaq, üzə çıxarmaq folklorşünaslıq, ədəbiyyatşünaslıq üçün çox vacib problemlərdən biridir.

Mən şəxsən bu işə formal, xüsusi müqayisələrlə başlamaq istəyirəm. İlahi, hər iki sənətkarın nə qədər də oxşar, yaxın əsərləri var. Elə bunların özü də sübut edir ki, Molla Cümə Vaqifi, onun dünya şöhrətli yaradıcılığını, xüsusilə də qoşma, təcnis və deyişmələrini yaxşı tanıyır və ürəklə bəhrələnirdi. Hər iki sənətkarın eyni bir şeiri üzərində müşahidələr aparmaq uğurludur.

Şeirlərində Vaqif əvvəlcə gözəlin portretini çəkir, gözəlliklərini, əlamətlərini sadalayır. Molla Cümə isə «gözəl»

deyərək müxtəlif mənalar üzərində şeirini tamamlayır. Elə bil Vaqif tərəfindən portreti çəkilmiş gözələ vurulan Molla Cümə ondan çarə istəyir. Başqa sözlə, Molla Cümə gözəli artıq tərifləri, əlamətləri aşkar edilmiş hazır gözəldir. Vaqif isə onun gözəlliklərini, əlamətləri ilə şeirə gətirir. Vaqif gözəl sözünü müxtəlif mənalarda işlətməklə gözəlin gözəlliyini ustalıqla poetikləşdirir. Oxucuya aydın olsun ki, söhbət hər iki sənətkarın gözəlin tərifinə elədiyi və bir-birinə oxşar, yaxın olan «gözəl» şeirindən gedir.

**Vaqif:**

*Gözəl qamət, gözəl gərdən, gözəl üz*
*Gözəl olmaz sən tək olsa, gözəl yüz*
*Gözəl canı munca yetər, gözəl üz*
*Gözəl deyil, etmə, gözəl alı sən.*

**Molla Cümə:**

*Gözəl bircə, gözəl, dayan burada*
*Gözəl dərdim gözəl deyim sənə get*
*Gözəl günüm gözəl qoydun qarada*
*Gözəl, rəhmin gözəl eylə mənə get.*

**Vaqif:**

*Gözəl durub, gözəl gəzib, gözəl bax*
*Gözəl kəlbəm, sal boynuma gözəl bağ*
*Gözəl, seyrü kəşt eyləyib gözəl bağ*
*Gözəl, dər budaqdan gözəl alı sən.*

**Molla Cümə:**

*Gözəl varmı gözəl dərdə dərmanım*
*Gözəl aldı gözəl dinim, imanım*
*Gözəlim sən, gözəl İsmi Pünhanım*
*Gözəl doğru, gözəl cavab denə get.*

Hər iki sənətkarın elə şeirləri var ki, onlar arasında oxşarlıq, yaxınlıq göz qabağındadır. Burada istər-istəməz ustad-şagird ənənəsi özünü aydıncasına göstərməkdədir.

**Vaqif:**

*Bir fitnə fellinin, üzü xallının*

*Bir şirin dillinin qurbanıyam mən.*
*Bir qənd məqallının ləb zülallının*
*Bir ağzı ballının qurbanıyam mən.*

**Molla Cümə:**

*Bir zülfü ənbərə, qaşı peykərə*
*Bir gözü xumara canım peşkəşdir*
*Bir yanaq əhmərə, üzü qəmərə*
*Bir dişi gövhərə canım peşkəşdir.*

**Vaqif:**

*Bir süsən muylunun, səmən boylunun*
*Friştə xoylunun, mələk soylunun*
*Bir cənnət küylünün, Tuba boylunun*
*Bir şümşad qollunun qurbanıyam mən.*

**Molla Cümə:**

*Bir ismi əzbərə, əndamı tərə*
*Bir cavan bəşərə, gözəl düxtərə*
*Bir eşqi əxkərə çox zülümkərə*
*Cüməyəm, əşkara canım peşkəşdir.*

Vaqif Azərbaycanın aşıq sənətinin ənənələri üzərində pərvəriş tapmışdır. Onun bütün şeirləri öz köklərini Azərbaycan aşıqlarının şeirlərindən götürür. Beləliklə, Vaqif böyük ustad sənətkar, müəlim kimi formalaşmışdır. Bunun ikinci bir tərəfi də var. Azərbaycan aşıq sənətinin ənənələrindən güc-qüvvət alan Vaqif sonralar özündən sonra yetişən aşıqların, ən böyük ustadları da daxil olmaqla ustadı olmuşdur. Vaqifdən sonra elə bir Azərbaycan aşığını tapmaq olmaz ki, o, böyük sənətkarın yaradıcılığından bəhrələnməmiş olsun. Akademik Həmid Araslı yazır ki, XIX və XX əsrlərin aşıqlarının çoxu Vaqifin mövzularını təkrar etmiş, onun kimi qoşmalar yaratmağa çalışmış, onun qafiyələrini, rədiflərini və bədii ifadələrini dönə-dönə işlətmişlər.

**Vaqif:**

*Bayram oldu heç bilmirəm neyləyim,*
*Bizim evdə dolu çuval da yoxdu.*

*Dügiylə yağ hamı çoxdan tükənmiş*
*Ət heç ələ düşməz motal da yoxdu.*

**Hüseyn Bozalqanlı:**

*Nə odun var evdə ocaq qalayaq,*
*Nə yağ var ki, plov üstə calayaq,*
*Gedək kimin sinisini yalayaq,*
*Ölmürük, itmirik əcəl də yoxdur.*

Vaqif aşıqların içində böyüyüb. Kiçik yaşlarından onun sinəsi el sözləri, aşıq dastan və qoşmaları ilə dolmuşdu. Ona görə hələ Qazaxda ikən ilk şeirini də qoşma üstündə yazmışdı. Xalq aşıq şeirlərində böyük məharətlə ifa edilən məhəbbət mövzusu onun yaradıcılığında da əsas istiqamət olaraq qalırdı. Vaqif artıq Qarabağa sinəsi el sözləri ilə dolu gəlmişdi. Vaqif Azərbaycan aşıq sənətinin yetirməsidir. Ona görə də qoşma, təcnis, gözəlləmələrin əksəriyyəti ustad aşıqlarımızın rədiflərinə bənzəyirdi. Beləliklə, Vaqif yaradıcılığı üçün Qarabağda gözəl şərait yaranmışdı. Onun qoşmaları dağ çeşməsindən gələn büllur bulaq kimi axıb tökülürdü. Hətta ən böyük ustad aşıqlarımızı da heyrətə gətirirdi.

Qarabağın Abdal-Gülablı kəndindən olan böyük aşığımız Valeh cahannamə yazıb. Bu şeirdə Şərqin böyük sənətkarlarının, hökmdarlarının adlarını çəkir. Son bənddə Vaqif yad edilir. Çox diqqətəlayiqdir ki, Valeh Vaqifi böyük sənətkar adlandırır və həm də kamal sahibi hesab edir:

*Hanı Molla Pənah bivəfa cahan*
*Təxəllüsü «Vaqif», nəzmi dürəfşan*
*İndi eyləmisən xak ilə yeksan*
*Tapmaq olmaz o kamalda can hanı?*

Firidun bəy Köçərli əsərlərində Əli adlı bir aşıq haqqında məlumat vermişdir. O yazır: «Aşıq Əlinin bir neçə kəlamından ki, Mirzə Yusif Qaracadaği tərtib etdiyi məcmuədə dərc olunmuşdur. Belə məlum olur ki, onun elm və savadı yox imiş və ona şair deyilməyib, aşıq deyilib». F.Köçərli sonra göstərir ki, kəlamından görünür ki, aşıq Əli Vaqifin müasiri

olmuşdur. Aşığın şeirləri içərisində ədib həm lətafətlilərinin, həm də qüsurlu olanlarının da olduğunu qeyd edir. Rəvan və təsirli şeirlərindən misallar verir.

*Əliyəm, çox çəkdim dərdi bəladan,*
*Qəm əl götürmədi mən mübtəladan,*
*Aləmi-ərvahda qalü-bəladan,*
*Xun cigərli qara dağlı olmuşam.*

Bundan sonra F.Köçərli aşıq Əlinin Vaqifi tərif etdiyi qoşmasını da misal gətirir. Dörd bənddən ibarət olan bu şeirin son bəndi belədir:

*Əli çəkər gecə-gündüz ahı-zar*
*Kəsildi müdarə, getdi ixtiyar*
*Vaqif olsun bu mənadan xəbərdar*
*Mədinə kuyinə Səkinə gəlmiş.*

Deməli, Aşıq Əli Qaracadağdan Qarabağa Vaqifin hüzuruna gəlmiş, başqa sözlə, ona pənah gətirmişdir. Firidun bəy Köçərli sonra belə bir qeyd verir: Səkinə aşıq Əlinin arvadıdır. Qaracadağdan Qarabağa gələndə aşıq Əli öz hərəmini dəxi oraya gətirmişdi və Molla Pənahın övrəti Mədinə ilə Səkinə görüşübdür.

Vaqif bütün Azərbaycan ədəbiyyatına, xüsusilə də aşıq sənətinə böyük və qüdrətli təsir göstərmişdir. Belə bir sualı da axtarmaq istəmişəm. Deyərlər ki, Molla Cümə Vaqifi oxuya bilərdimi? Necə və hansı bir yolla? Aydındır ki, təkrar edirəm, bütün ustad aşıqlarımız səyyar sənətkarlardır. Onlar ömrü boyu el, ölkə gəzirlər. Aşıq Ələsgər deyirdir ki, o, aşıq kimi diyar-diyar gəzmişdir. Aşıq Hüseyn Bozalqanlı deyir ki, o, «Koroğlu» dastanının ən böyük qollarından birini Göyçəli aşıq Musadan almışdır. Qurbani Dədə Yediyarın yanına getmişdi. Aşıq Valeh Dağıstana Zərnigarın görüşünə yollanmışdı. Xəstə Qasım isə Dağıstanda Ləzgi Əhmədlə görüşmüşdü.

Azərbaycan aşıq sənəti bənzəri, bərabəri olmayan böyük mənəvi sərvətdir. Bu böyük sərvəti Azərbaycan xalqının ustad aşıqlar kollektivi yaradıb. Mənə belə gəlir ki, əsrlər boyu

Azərbaycanın müxtəlif rayon və bölgələrində yaşayıb-yaradan aşıqlar biri digəri ilə əlaqədə olmuş, bu böyük və kamil sənətin ölkənin hər bir guşəsində yayılması üçün əlindən gələni əsirgəməmişlər. Xəstə Qasım Dağıstana gəzməyə getməmişdi. O, bu bölgənin aşıqları ilə əlaqə yaratmaq, yaxından tanış olmaq üçün getmişdi. Həm öyrədir, həm də öyrənirdi. Bu mənada böyük sənətkarımız Vaqifin qoşmaları məhz görkəmli aşıqlarımız vasitəsilə ölkənin bütün ucqar guşələrində belə yayılırdı. Vaqifi bütün Azərbaycan aşıqları tanıyır, əsərlərini oxuyur və yayırdılar. Vaqif Azərbaycan aşıq sənəti üçün bir məktəb olmuşdu.

Molla Pənah Vaqifin cüt gözəlin tərifinə həsr edilən iki şeiri var, qoşma üstündədir. Şeirin birində gözəllərin adları çəkilmir, heç bir nişanəsi də göstərilmir. Həmin şeirdən nümunələrə diqqət yetirək:

*Bir-birinə həmdəm iki növcavan*
*Biri güldür, biri gülgəz yanaqlı,*
*Biri tər sinəli, ayna əndamlı*
*Biri nar məməli, nəsrin buxaqlı.*
*...Biri bəstə boylu, narınc örtüklü*
*Biri şux baxışlı, xəncər kirpikli*
*Biri dal gərdənli, süzgün sümüklü*
*Biri uzun qaşlı, həm gen qabaqlı.*

Şair cüt gözəlin tərifinə həsr elədiyi ikinci şeirində artıq gözəlləri reallaşdırır, öz adı və gözəlliyi ilə tərifləyir.

*Səhər-səhər həsrətilən gəzirdim*
*Cüt qoşa nar gördüm iki sinədə*
*Birisi qız idi, birisi gəlin*
*Can qurban eylərəm ikisinə də.*
*...Gəlinin yaxası polad iynəli*
*Qızın yaxasıdır çarpaz düyməli*
*İkisin də gərək gözəl öyməli*
*Can qurban eylərəm ikisinə də.*

Şeirlərə diqqət yetirək, gözəllər özlərini tərif eləmir, gözəlliyini öymürlər. Onları Vaqif özü tərifləyir, onların ən gözəl məziyyətlərini şeirə gətirir.

Böyük aşıq Molla Cümənin də «Qızla gəlinin deyişməsi» adlı kiçik bir əsəri var. Bu deyişməni ilk dəfə Nurəddin Hacızadə şifahi dildən toplayıb «Azərbaycanı öyrənmə yolu» jurnalında çap eləmişdir (1930). Sonra mən bütün əlyazmalarından götürüb müqayisələr aparıb aşığın külliyatına daxil eləmişəm. Bu şeirdə gəlin və qız özlərini tərifləyir, biri digərindən üstünlüyünü göstərməyə çalışırlar.

*Qızla gəlin bir xəlvətdə cəng elər*
*Qız deyər ki, incə belim var mənim,*
*Hansı kəsnən iki kəlmə danışsam*
*Eşqə sallam, şirin dilim var mənim.*
*Gəlin deyər qız özünə güvənmə,*
*Bax sənin tək yüz sığalım var mənim.*
*Nə boy buxun, nə yaraşıq, nə əndam*
*Gözəllikdə hər cəlalım var mənim.*
*Qız deyər ki, mənlə başlama cəngə*
*Məclislərdə mən oynaram hər həngə*
*İstanbula, ingilisə, firəngə*
*İş bildirrəm bu kamalım var mənim.*

Hər iki sənətkar böyük ustalıqla, bədii incəliklə eyni bir mövzunu özlərinə məxsus orijinallıqla qələmə almışlar. Göründüyü kimi, bu mövzuya əvvəlcə Molla Pənah Vaqif müraciət edib, Molla Cümə də özünəməxsus orijinallıqla həmin mövzuya yüksək sənətkarlıqla bədii don geydirmişdir. Mənə görə Vaqif şeirlərinin Azərbaycanı dolaşması həqiqəti aydınca görünür.

1947-ci il. Mən Pedaqoji İnstitutun birinci kurs tələbəsiyəm. Bakıya gəldiyimin heç bir ili də tamam olmamışdır. Eşitdim ki, Yazıçılar İttifaqında Nizami Gəncəvinin yubileyinə həsr olunan böyük bir iclas keçiriləcək. Mən hər gün Nizami haqqında prof.M.Rəfilinin mühazirəsinə qulaq asırdım. Nizami

artıq filologiya fakültəsinin tələbəsi kimi mənim ən sevimli sənətkarlarımdan birinə çevrilmişdi. Mən indi təəccüb içindəyəm, hələ Bakını heç yaxşı tanımırdım. Hansısa yolla özümü Yazıçılar İttifaqının Natəvan adına klubuna yetirdim, bir küncdə oturdum. Azərbaycanın ən böyük, hörmətli yazıçı və alimləri bu kluba toplaşmışdı. Mən demək olar ki, heç kimi tanımırdım, ilk dəfə görürdüm. Prezidiumda Səməd Vurğunu gördüm, ortada oturmuşdu. Az keçməmiş şair ayağa durdu, iclası açdı, kağızsız, qələmsiz danışırdı. Danışdıqca da qürrələnir, həyəcanlanır, necə deyərlər, ilhamlanırdı. Birdən hər iki əlini qabağındakı masanın üstünə qoyub bir sağına, bir də soluna baxdı. Həmkarlarına müraciətlə: «Qızıl kimi sözlər danışıram, ancaq yazanı isə yoxdur» dedi. İlahi, əgər böyük şairimizin bu konfransın açılışındakı çıxışı yazılmış olsaydı, böyük Nizami haqqında ən qiymətli və böyük əsər olardı. İclasda böyük alimlər bir-birinin dalınca məruzələrlə çıxış elədilər. Nizami məclisi məni götürmüşdü, rahat ola bilmirdim. Yataqxanaya gəldim, gecə saat birə qədər gözümə yuxu getmədi. Ədəbiyyatdan mühazirələri yazdığım dəftərin lap birinci vərəqində sol tərəfə böyük qürur və sevinc hissləri ilə iri hərflərlə qeyd elədim. Səməd Vurğun Nizami haqqında çıxışında qürurla dedi ki, «Nizami Azərbaycan xalqının kamal günəşidir». Nizami Gəncəvi əsrlərlə öz kamalı, ağlı, mədəniyyəti ilə doğma Azərbaycanı bəzəyir. Bir müddətdən sonra şair Səməd Vurğunun aşağıdakı misaraları da dilimin əzbəri oldu.

*Aydanmı, günəşdənmi yarandın, de nədən sən*
*Xalqın gözü də, qəlbi də, vicdanı da sənsən.*

Nizami deyirdi:

*İnsana zinətdir onun kamalı*
*Ağlıdır onun dövləti, malı.*

Böyük Nizaminin kamal günəşli əsərləri doğma xalqının həyatını işıqlandırmışdır. Kamal irəliləyib XVIII əsrin astanasına çıxmışdır. Sevimli şairimiz Molla Pənah Vaqif bu

zaman böyük ehtiyat və narahatlıqla kamal mənəviyyatını izah etməyə başladı. Lap elə birinci şeirində bu narahatlığı biz görməkdəyik:

*Bayram oldu heç bilmirəm neyləyim*
*Bizim evdə dolu çuval da yoxdur.*
*...Bizim bu dünyada nə malımız var,*
*Nə də evdə sahib-camalımız var,*
*Vaqif, öyünmə ki, kamalımız var,*
*Allaha şükür ki, kamal da yoxdur.*

Molla Pənah Vaqif gözəlin bütün gözəlliklərini yüksək bədii bir dillə tərifləyir. Gözəlin ayağındakı başmağından tutub telinə sancılan şanasına qədər gözəli istəyirdi. Bununla belə Vaqif öz gözəlini eyni zamanda ağıllı, kamallı, mərifətli, təmiz görmək istəyirdi. Onun gözəllərinin gözəlliklərini ağıl və kamal tamamlayırdı. Bunlar göstərir ki, Vaqif heç zaman ağlı, kamalı, həyanı unutmamışdır. Bununla bağlı şairin yaradıcılığından bir-iki misal gətirmək istəyirəm.

*...Bulaq tək qaynaya həm gözü, qaşı*
*Artıq ola həm **kamalı** gözəlin.*
*...Zülfü ənbər – ağlı başdan dağıdan*
*Nə sözü var **kamalına** Vaqifin.*
*..Eyb olmaya kirpiyində qaşında*
***Həyası** üzündə **əqli** başında.*
*...Səni tək gözəl sevən kimsənə*
*Dəxi əqlə, bir **kəmalə** gəlirmi.*
*...Çünki belə imiş dünyanın halı*
*Əbəs ki, yetişdin **kəmalə** Vaqif.*

Aşıqlarımızın yaradıcılığında ustadnamələr var. Bunlar ustad, ulu, böyük sözləridir. Ustadnamələri adətən aşıqlar apardığı məclislərin əvvəlində oxuyur, necə deyərlər, doğma xalqına ağıl, kamal, mərifət dərsi keçirlər. Dastanların əvvəlində ustadnamələrə xüsusi yer verilir. Burada aşıqlar hər cür, necə deyərlər, ürfani, əxlaqi, mənəvi dərs keçirlər.

**Aşıq Könlü:**

*Üç nə idi gəldi adəm üstünə*
*Danışanda biri başda dayandı.*
*İkisi dolandı cümlə əzanı*
*Biri üzdə, biri döşdə dayandı.*

**Molla Cümə:**

*Ağıl, həya, iman üçü gəldilər*
*Danışanda ağıl başda dayandı.*
*İkisi dolandı cümlə əzanı*
*Həya üzdə, iman döşdə dayandı.*

Əlbəttə belə deyişmə və ustadnamələr öz rəngarəng mövzuları ilə seçilir. Hamısı da bir məqsəd daşıyır – dinləyicilərə təsir edərək onları tərbiyələndirmək.

**Aşıq Könlü:**

*Xuda neynən ərş əlanı bəzədi*
*O nədir ki, qızılgüldən təzədi*
*O nədir ki, əvvəl-axır bizədi*
*Nübat-nübat axır nəsdə dayandı.*

**Molla Cümə:**

*Həsən Hüseyn ərş əlanı bəzədi*
*O elmdir qızıl güldən təzədi*
*O ölümdir əvvəl axır bizədi*
*Nübat-nübat axır nəsdə dayandı.*

Dahilərimizin kamal arzusu öz yolu ilə gəlib XIX əsrə də yetişdi. Böyük ədib və filosof M.F.Axundov «Hekayəti Molla İbrahimxəlil kimyagər» komediyasında lap çox sevdiyi surəti olan şair Hacı Nurunun dili ilə deyirdi: «Kamal ata börkü deyil ki, atadan oğula keçə». Deməli, kamal ya ilahidən verilir, yaxud da və xüsusi ilə böyük zəhmət, əmək, məhrumiyyətlər hesabına həyatda qazanılır. Bənzərsiz aşığımız Ələsgər elə bil ustadı Vaqifin dilindən aldığı kamal sözünü özünün ən yaxşı əsərlərindən birində aşkarladı:

*Aşıq olub diyar-diyar gəzənin*
*Əzəl başdan pür kamalı gərəkdir,*
*Oturub durmaqda ədəbin bilə*

*Mərifət elmində dolu gərəkdir.*

*Xalqa həqiqətdən mətləb qandıra*
*Şeytanı öldürə nəfsin yandıra*
*El içində pak otura, pak dura*
*Dalısınca xoş sədalı gərəkdir.*

Böyük Nizaminin, Vaqif, M.F.Axundov, Aşıq Ələsgər kimi sənətkarların kamal arzularını böyük şairimiz Səməd Vurğun heç zaman unutmamışdır. Son əsəri olan «İnsan»ın baş qəhrəmanı Şahbaz qürurla deyirdi ki, «qalib gələcəkmi cahanda kamal». Böyük dahilərimizin arzusu bu idi, qoy bəşər övladı ağıl, kamalla yaşasın.

Adam heyran qalır ki, M.P.Vaqif nə dərəcədə ustalıqla, sənətkar təbi ilə şeirlərdə sənətin incəliklərinə riayət edir. Böyük ustad qafiyələri, rədifləri, misra və bəndləri düzərkən, onların qarşılıqlarını şirin-şəkər dilimizin zəngin, rəngarəng xəzinəsindən necə də tapıb üzə çıxarır, şeirlərini bəzəyir, zinətləndirir. Bütün bunlar hamısı onun Allahın verdiyi böyük və dərin, tükənməz istedadından irəli gəlirdi.

*Ey süsən sünbülüm, al zənəxdanım*
*Qurban olsun lalə, gül ilən sənə*
*Bir neçə gündür ki, səndən ayrıyam*
*Sanasan həsrətəm il ilən sənə.*

*Deməli çox gizlin dərdi-dilim var,*
*Qorxuram ki, deyim eşidə əğyar*
*İstərəm ki, yazam göndərəm ey yar*
*Səhər oğrun əsən yel ilən sənə.*

*Ağzı piyaləsən, gərdəni mina*
*Nazik əllərində innabı həna*
*Səni görən deyər yaşılbaş sona*
*Ucu həlqə, siyah tel ilən sənə.*

*Çoxlar sənə iyma ilən baş əyər*
*Mum tək ərir, olsa bağrı daş əgər*
*Tuba görsə ikram eylər baş əyər*

*Bu gözəl boy ilən bel ilən sənə.*
*Yadıma düşəndə zülfün ənbəri*
*Qüllab girər ciyərimdən içəri*
*Mən şaham, ey gözəllərin sərvəri*
*Qurbanam Vaqif tək qul ilən sənə.*

Bununla belə M.P.Vaqif qoşmalarında biz, necə deyərlər, klassik şeir ənənələrindən axıb gələn müəyyən dərəcədə çətin, ağır görünən ifadələrə də rast gəlirik. Doğrudur, bunlar şairin yüksək sənətkarlıqla işlətdiyi aşıq sənətindən qopub gələn ifadələr içərisində o qədər də hiss olunmur. Şairin klassik şeir formalarından istifadə ilə işlətdiyi bəzi söz və ifadələri burada göstərmək istəyirik. Lal-əhmər, hindu-xal, şamu-səhər, qəmi-eşq, misli səlasil, qibləgah-tər, şuxi-sitəmkar, bari-möhnət, zərb-ab, qeybü-xəzan, cümlə-cahan, huriyi qılman, haqnahaq, afəti-can və sairə. Onu da əlavə edim ki, Molla Cümənin qoşma və gəraylılarında belə ifadə və birləşmələr demək olar ki, yoxdur. Aşıq elin qaynayan, çağlayan dilindən seçdiyi sadə, axıcı, şirəli sözlərlə şeirlərini qurub tamamlayır.

*Ay ağalar, sizdən xəbər alayım*
*Dərdimə dərd qatan burada kimdir.*
*Siz Allah, göstərin onu görəyim*
*Qəlbimi saxlayan qarada kimdir.*
*İkimiz danışaq siz qulaq asın*
*Görün zəhmətini, eşqin bəlasın*
*Alıban başına yarın sövdasın*
*Nahaq bədnam olan orada kimdir.*
*Yüz dərman tapıldı çarəmdən qeyri*
*Yüz dərdlər sağaldı yaramdan qeyri*
*Fərhad ilə Məcnun, Kərəmdən qeyri*
*Cümə tək yetməyən murada kimdir.*

M.P.Vaqif də Molla Cümə də saysız-hesabsız müxəmməslər yazmışlar. Vaqifin müxəmməsləri klassik şeir üslubundadır. Bütün müxəmməslərin hər bəndi beş misradan və beş bənddən ibarətdir. Bizim aşıq sənətimizdə müxəmməs adında

həm şeir forması var, həm də aşıq havası var. Molla Cümənin bütün müxəmməsləri məhz aşıq havaları üstündə qurulmuşdur. Şeirlərdə misra və bəndlərin sayı məhz müxəmməs aşıq havasının quruluşuna uyğun şəkildə yaradılır və oxunur. Hər iki sənətkarın bu formada şeirləri haqqında mənim qeydlərim çoxdur, özü də maraqlıdır. Bir cəhəti xüsusilə qeyd etmək istəyirəm. İlahi, həm Vaqif və həm də Molla Cümə nə qədər şirin-şəkər dilimizi bilir və böyük dahiliklə onun rövnəqlərini qurub qoşduğu müxəmməslərində yerli-yerində işlədə bilirlər. Ana dilimizin möcüzələri hər iki böyük sənətkarın, mən əlbəttə müxəmməslərini nəzərdə tuturam, yaradıcılığından, axtarıb, arayıb tapıb üzə çıxarmaq olar. Mən hər iki sənətkarın müxəmməslərindən bəzi bəndləri burada misal gətirmək istəyirəm.

**Vaqif:**

*Nə zaman ki, deyəsən ey güli-xəndan, gedərəm*
*Bil ki, mən həm düşübən dalına giryan gedərəm*
*Yəni zülfün kimi çox halı pərişan gedərəm*
*Öz ayağınla gəlibsən, sənə qurban, gedərəm*
*Ey qara kirpiyi ox, qaşı kaman, xoş gəldin!*

**Molla Cümə:**

*Ol yaradan yaradıbdır*
*Sən balanı necə nazlı.*
*İncə belli şümşad əlli*
*Fəsih dilli, şirin sözlü.*
*Orta boylu, gözəl xoylu,*
*Ənbər buylu qəmər üzlü,*
*Qələm qaşlı, şux baxışlı,*
*İnci dişli, maral gözlü,*
*İzin ver, hüsnünə edim*
*Doyunca tamaşa dilbər.*

**Vaqif:**

*Qaməti mövzun ilə bir sərvi-gülşənsən, gözəl*
*İki dünyanın səfavü zövqünə təksən, gözəl*
*İtməyə gözdən, könüldən ayrısan gensən, gözəl*

*Fikri, zikri dediyi danışdığı sənsən, gözəl*
*Mayil olmaz hər yetən göftarə, gördüm Vaqifi.*

**Molla Cümə:**

*A gəlin, yoxdur ayıb*
*Qaş kirpiyin gözün gözəl.*
*Dil gözəl, dodaq gözəl*
*Yanaq gözəl, üzün gözəl.*
*Xoy gözəl, qılıq gözəl*
*Söhbət gözəl, sözün gözəl.*
*Boy gözəl, buxun gözəl*
*Qamət gözəl, özün gözəl.*
*A gəlin oxşar canın*
*Yağmış təzə qara gəlin.*

Akademik Həmid Araslı məqalələrinin birində yazmışdır ki, Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Valeh kimi ustad aşıqların vaxtilə klassik şeir üslubunda əsərləri olub. Məsələn: rübai, müxəmməs, qəzəl, mürəbbe və sairə. Belə şeirlər yazıya alınmadığı və aşıqlar tərəfindən ifa edilmədiyi üçün qalmamışdır. Məlumdur ki, Molla Pənah Vaqif klassik şeir üslubunda çoxlu əsərlər yazmışdır. Klassik şeir üslubunda şeirlər Molla Cümənin də yaradıcılığında var. Buna mən xüsusilə aşığın qəzəllərini göstərə bilərəm. Aşığın qəzəllərini ilk dəfə əlyazmalarından tapıb mən çap eləmişəm. Çox diqqətəlayiqdir ki, Vaqifin və Molla Cümənin qəzəlləri içəri-sində oxşar nümunələr vardır. İndi mən hər iki sənətkardan bir qəzəl misal göstərəcəyəm.

**Molla Pənah Vaqif:**

*Aydın olsun gözlərin kim gəldi yarın kağızı*
*Könlümü şad eylədi gözəl nigarın kağızı.*
*Oxudum, öpdüm gözə sürtdüm dedim səd mərhəba*
*Gözüm üstdə var yerin ey gülüzarın kağızı.*
*Səndən ayrı ol qədər qan ağladım kim dəmbədəm*
*Yaşa batıb islanıb səbri qərarın kağızı.*

*Çox çəkirdim intizarın gözlərim yolda idi*
*Şükrüllah gəldi çeşmi xumarın kağızı.*
*Qeyri yarı ey gözəl qılma bədəl sən Vaqifə*
*Yadigar saxla bu olsun etibarın kağızı.*

**Molla Cümənin qəzəli:**

*Səhərdən yollara çıxdım gördüm ki, mehriban gəlir*
*Qış günləri yaza döndü şirin dil xoş zəban gəlir.*
*Can cəsəddə lərzələnib ağıl başdan çıxmaq istər*
*Öz-özümə səbir verdim dedim mahi-taban gəlir.*
*Çıxardıb al libasını geyibdi qara donları*
*Yəqin bildim eşq ucundan halı çox pərişan gəlir.*
*Dörd yanına nəzər eylər kimsə yox dərdin söyləyə*
*Ayrı düşüb şeydasından çəkib ahu-fəğan gəlir.*
*Molla Cümə çıx daldadan səni görsün o sirdaşın*
*Bəlkə canı qərar tapa eşidib bigüman gəlir.*

Hər iki sənətkarın yaradıcılığında çox maraqlı şeirlərdən biri xüsusilə diqqəti cəlb edir. Əcaba, bir-birindən xəbərsiz yazılan bu müxəmməslərdə necə də oxşarlıqlar var. Bəlkə Molla Cümə doğrudan da Vaqifin bu şeirini nə vaxtsa eşidib, yaxud hardasa ona qulaq asıb. Hər halda bu şeirlər arasında yaxınlıq, bir-biri ilə tanışlıq göz qabağındadır. Görün, böyük ustad Vaqif necə də sonrakı yenə də ustad olan sənətkarların yaradıcılığına yol tapırdı.

**Molla Pənah Vaqif:**

*Gədə, mən qurban olum qaşları kaman bacına*
*Belə bir şux baxan kirpiyi peykan bacına*
*Məməsi misli-şəkər, gözləri ceyran bacına*
*Dişi dür, ağzı sədəf, ləbləri mərcan bacına*
*Məst dəmənkəşi xəndani xuraman bacına.*

**Molla Cümə:**

*Gədə mən qurban olum*
*Gözləri göyçək bacına.*
*Başında kəlağayı*
*Baftası ləçək bacına.*

*Saçları güləbatın*
*Teli qurumsaq bacına.*
*Qabağı ayna kimi*
*Yanağı çiçək bacına.*
*Him vurub qaş oynadan*
*Sığallı birçək bacına.*
*Gədə mən qurban olum*
*Gözləri göyçək bacına.*

Hər iki sənətkarda müxəmməs gözəlin tərifinə həsr olunub. Onun gəzişi, duruşu, baxışı, geyimi, nazı, qəmzələri, nadir gözəlliyi, üzü, dişləri, dodaqları, baxışları və s. Oxucuların icazəsi ilə mən hər iki sənətkarın müxəmməsindən daha iki bənd gətirməyi məsləhət bilirəm.

**Vaqif:**

*Görmüşəm gözlərimi - nərgizi məstanə kimi*
*Gecə-gündüz gəzərəm çölləri divanə kimi.*
*Ələ düşsə dönərəm başına pərvanə kimi*
*Parə-parə ciyərim eyləmişəm şanə kimi*
*İstərəm sarmaşam* ol *zülfü pərişan bacına.*

**Molla Cümə:**

*Gözləri büllur kimi*
*Qaşlarının əyməsi xub.*
*Qoynunda cüt şamama*
*Yengicə dəyməsi xub.*
*Belində gümüş kəmər*
*Yaxasında düyməsi xub.*
*Ayağında kişmir tuman*
*Taftalı yun geyməsi xub.*
*İstığa çəpkən olan*
*Zər ciqqə əlcək bacına,*
*Gədə mən qurban olum*
*Gözləri göyçək bacına.*

Molla Pənah Vaqif və Molla Cümə bütün bəndlərin sonunda birinci bəndin iki misrasını təkrar edərək şeirin təsir qüvvəsini çoxaldırlar.

Molla Pənah Vaqif klassik Azərbaycan ədəbiyyatının orta əsrlərdə yetişdirdiyi nadir simalardan biridir. Doğrudur, kökündə, mənbəyində Azərbaycan aşıq sənətinin ənənələri dayanır. Ancaq unutmayaq ki, Vaqif klassik şeir üslubunu çox heyrətlə aşıq sənəti ənənələri ilə qovuşdurmuşdur. Onun ədəbiyyatımız, mədəniyyətimiz tarixində ən böyük xidmətlərindən biri də budur. Məsələn, Vaqif də müxəmməs yazıb, Molla Cümə də. Vaqifin müxəmməslərinin ayaqları klassik şeir üslubunda bərkiyib. Molla Cümənin müxəmməsləri isə saz havaları üstündə qurulmuşdur. Çox zaman hər iki sənətkar eyni rədif üstündə müxəmməslərini düzüb-qoşurlar. Əlbəttə, şeirlər biri digərinin himayəsi ilə dünyaya gəlmişdir. Vaqif deyir:

*Dilbər, nə deyim sən kimi canan ələ düşməz*
*Zülfün kimi heç zülfü pərişan ələ düşməz*
*Ləbin kimi bir ləli-Bədəxşan ələ düşməz*
*Bir yerdə belə həkimi-Loğman ələ düşməz*
*Biçarələrin dərdinə dərman ələ düşməz.*

Molla Cümə isə aşıq-saz havaları üstündə düzüb qoşduğu müxəmməsində deyir:

*Ey könül, qalxma səmayə*
*Əvvəlki dövran ələ düşməz.*
*Yarinən, həmdəminən*
*Etdiyin seyran ələ düşməz.*
*Çox keçər illər, aylar*
*Olubdu viran, ələ düşməz.*
*Lalə, nərgiz, tər bənəfşə*
*Sünbülü-reyhan ələ düşməz*
*Gül solub bülbül gedib*
*Ölübdür bağban ələ düşməz.*

Molla Pənah Vaqifin və Molla Cümənin bədii cəhətdən çox kamil, təsirli, bəlkə də oxşar süjetli təcnisləri var. Yalnız

qoşmalarda, müxəmməslərdə, qəzəllərdə deyil, hətta təcnislərdə də hər iki sənətkarın gözəl, axıcı, gözoxşayan, ürəyəyatımlı təcnisləri çoxdur. Onları oxuduqca oxumaq istəyirsən.

**M.P.Vaqifdə:**

*Çəkilir sürmələr, qaralı gözlər*
*Alır məndən səbri qaralı gözlər*
*Yoluna baxmaqdan qaralı gözlər*
*Gəl indi bir quru ayağilə sən.*

**Molla Cümədə:**

*Bağ yetirdim bar tapmadım öz əlim*
*Ha hərrədim boş qayıtdı öz əlim*
*Qızıl gülə həsrət qoydu öz əlim*
*Bülbüllər yaşırdı a yazı məndən.*

Molla Pənah Vaqifin qoşmaları elə bil ki, cüt – qoşa yazılmışdır. Bu ənənə Vaqif yaradıcılığında əsas yerlərdən birini tutur. Əgər diqqət eləsək, Molla Cümə də tək şeir qoşmamışdır. Eyni rədifdə ən azı iki qoşması – şeiri vardır. Mən aşığın şeirlərini toplayarkən onu tanıyanlar, qocalar deyirdilər ki, Molla Cümə tək şeir yazmamışdır. (Əlbəttə, bu ənənə onun qoşma, gəraylı, divani və bəzən də təcnislərinə aiddir.) Məsələn, Vaqifin məşhur rədiflər əsasında yazılan qoşmalarından bəzilərinə nəzər salaq:

*Xeyli vaxtdır ayrılmışıq yar ilən*
*Gördük amma tapışmadıq ayrıldıq.*
*...Olmayaydı belə səfərə çıxmaq*
*Biz yar ilə danışmadıq, ayrıldıq.*

Yaxud başqa bir misal:

*Açıq başda əgər olsa bir dilbər*
*Onda bu nişanlar müəyyən gərək.*
*...Bulud zülflü, ay qabaqlı gözəlin*
*Duruban başına dolanmaq gərək.*

«Gərək» rədifli qoşmaların sayı çoxdur. Belə misallardan daha çox misal çəkmək olar. Molla Cümə isə əsasən iki

oxşar rədifli qoşma söyləyir. Heç vaxt onda bir rədifli qoşma olmayıb, iki-üç oxşar rədif var, ancaq bir rədifli yoxdur.

*Bəd əsilnən dost olmayın qardaşlar,*
*Bəd əsil dost olan ahu-zar eylər.*
*...Necə dad etməyim ay fələk,*
*İsmi-Pünhanın mənə zəlalət eylər.*

Belə misalları daha çox gətirmək olar.

Çox zaman hər iki sənətkar eyni, oxşar bir mövzuya şeirlər həsr edirlər. Molla Cümənin mənim çox sevdiyim «Ağlayanda» rədifli qoşması var, 5 bənddən ibarətdir. M.P. Vaqifin də həmin mövzuya həsr etdiyi qoşması var. O da 5 bənddir. Maraqlı cəhət odur ki, hər iki sənətkar mövzu ilə bağlı çox ibrətamiz, təsirli, bədii cəhətdən yüksək səviyyəli oxşar bədii dil vasitələri, bənzətmə, ibarə, obrazlı müqayisələr seçirlər. Onların bu bədii dil vasitələri ilk baxışda oxşar kimi görünür. Ancaq bədii təsir qüvvəsi ilə orijinal və bənzərsizdir. Məsələ burasındadır ki, hər iki qoşma oxucuda çox dərin bədii vüsət oyadır.

**Vaqif:**

*Məni qərq eylədin qəm dəryasına*
*Ey çeşmi-xumarım nöşün ağladın,*
*Ey gözüm, nə dəyib köyrək könlünə*
*Ey şirin göftarım, nöşün ağladın.*

*Hər kəs görən dəmdə öz sirdaşını*
*Məgər tökər qabağını-qaşını*
*Oda yaxdın ciyərinin başını*
*Vaqif der: dildarım nöşün ağladın.*

İndi gəlin, Molla Cümənin həmin mövzuda olan qoşmalarından misallara nəzər salaq:

*Beyqafil qovrulub məlul ağladın,*
*Müşkül oldu halım sən ağlayanda,*
*Elə bil ağladın canım dağladın*
*İtirdim kamalın sən ağlayanda.*

*Qurban olum gözlərinin yaşına*
*Səbir eylə ol xudanın işinə*
*Bir od saldın ciyərimin başına*
*Ay bülbül sədalım sən ağlayanda.*

Molla Cümə bütün realist həyatdan, eldən-gündən gələn mövzularla yanaşı, mifik və əfsanəvi obrazlara da qədim Şərq, Azərbaycan, İslam mifologiyasına da çoxlu əsərlər həsr etmişdir. Bu mövzuda olan şeirlərdən bir neçəsinin adını qeyd edək. «Mədəd», «Şükür», «Dünya», «Dünyadır», «Neylədin», «Yarəb», «Bax» və s. rədifli şeirləri buna misaldır. Aşıq hətta digər mövzulara həsr elədiyi şeirlərində də tez-tez mifoloji və əfsanəvi obrazlara müraciət edir. Belə şeirlər onun ilahiyyat elminə, qədim İslam mədəniyyətinə, Qurani-Kərimə bələdliyini təsdiq edir. Molla Pənah Vaqif də əsl realist bir sənətkardır. O, o dövrün həyatını, həyat gerçəkliklərini canlı, real gözəlləri tərifləmişdir. Onun gözəlnamələri hər gün və tez-tez rastlaşdığı el, oba qızlarına həsr edilmişdir. Böyük şairin real, üzvi, müqəddəs aşkara məhəbbəti də böyük və tükənməzdir. Bu o demək deyildir ki, M.P.Vaqif qədim Şərq, Azərbaycan, İslam rəvayət, dastan, lətifələrinə bələd olmamışdır. Aşağıda görəcəyimiz misralar aydın surətdə sübut edir ki, adlarını çəkdiyimiz miflər tarixi və əfsanəvi obraz və şəxslər haqqında olan rəvayət, miflərlə tamamilə tanış idi. Yenə də təkrar edirik ki, Molla Pənah Vaqif yaradıcılığının üslubu belədir, o formalar bunu belə tələb edirdi. Böyük şairin saysız-hesabsız qoşma və gözəlnamələri həyatın özündən nəşət edirdi, elin ən böyük və həm də ən incə gözəlləri haqqında tərənələri dağ çeşməsi kimi büllur, saf qaynaqlardan təbii yolla axıb gəlirdi. Qoşmalardan bəzi misallar:

*Bir məlahət kanı, Yusifi-sani,*
*Yüz Züleyxa, yüz min Yusifi-Kənan.*
*Oturuşu şirin, danışı Leyla*
*Ağ sinəndir təxti Süleyman kimi.*

*Gedin deyin o ləbləri Yəmənə*
*Olsa yüz min Tuba boylu gül bədən.*
*Mən bir Fərhad, sən bir Şirin dəhandan…*
*Fərhad Şirin üçün sığındı dağa*
*Məcnunun oylağı Leyli dağıdır.*
*Ey Kəbəm, Kərbəlam, Məkkəm, Mədinəm…*
*Döndəribdir məni Şeyx Sənana*
*Cam içmişəm mən məstanə gəlmişəm.* və s.

Vaqifin «Mənim» rədifli qoşmasından daha bir bənd:

*Vəhdətim, xoş günüm, söhbətim, dəmim*
*Fəxfürum, Qeysərim, Cəmşidim, Cəmim*
*Xosrovum, Xaqanım, şahi-əzəmim,*
*Padişahım həm əla sultanım mənim.*

Azərbaycan aşıq sənətinin əlamətlərindən, bəlkə də əsas xüsusiyyətlərindən biri də aşıqların şeirlərdə işlətdikləri rədiflərdir. Rədif sadəcə sözlər deyil, onlar bəlkə də aşıq şeirlərinin bəzək-düzəyidir. Çox zaman rədiflər ayrı-ayrı bəndlərdə hətta qafiyələri də çəkib gətirir. Rədiflər aşıq şeirlərinin ayrılmaz tərkib hissəsidir. Çox zaman aşıq qoşmalarının ümumi təsiri məhz onlarda işlədilən rədiflərlə əlaqədardır. Belədir, hər bir aşıq şeirinin birinci bəndində ikinci misrasının sonu rədiflə tamamlanır. Sonra bu rədiflər qoşmaların qalan bəndlərində dördüncü misrada tez-tez təkrar olunur. Ustad aşıqların birinci bənddə işlətdiyi rədiflər sonrakı bəndlərdə dəyişilmir, eynilə təkrar olunur. Bu, xüsusi bir qayda ilə qorunmuş qanundur. Molla Pənah Vaqif qoşma və təcnislərində klassik rədiflər var. Bunlar sonrakı aşıqlarımızın şeirlərində təkrar olunmuşdur. Heç kəs deyə bilmir ki, rədifləri bir aşıq başqasından götürüb. Rədif özü qoşmalarla qoşa-qoşa gəlib özləri xüsusi bir qayda ilə yerləşirlər. Klassik aşıqlarımızın rədif işlətməsində Molla Pənah Vaqifdə bir yenilik var. Başqa sözlə, rədif sonrakı bəndlərdə eyni ilə təkrar olunmur, oxşar səslərlə əvəz olunur. Bir neçə misal çəkək:

**Ziyarətimdir**
**İbadətimdir**
**Qiyamətimdir**
**Əmanətimdir**
**Şekayətimdir**
**Şikayətimdir.**

**Yaxud başqa bir misala nəzər salaq. Eyni bir şeirdə:**

**Dürdanədəndir**
**Xəzanədəndir**
**Məstənadəndir**
**Pərvanədəndir**
**Divanədəndir**
**Şənadəndir.**

Bu sözlər sadəcə sadalanmır. Əksinə hərəsi qoşmanın müvafiq bəndində deyilən fikirdən doğur. Ona görə də yerinə düşür və şeiri rövnəqləndirir. Xalq şairi Səməd Vurğun Kəlbəcərə gedəndə aşıq Şəmşirlə tanış olub. Böyük sənətkar böyük aşığın bir rədifini çox bəyənmişdir. Bir də ona görə ki, bu rədif çox orijinal və aşıq Şəmşirin kəşfidir. Şair Səməd Vurğun deyir:

«– Ayə, axırda nə sayaq deyirsə, hamısı yadımdan çıxıb.

– Və əgərki Şəmşiri görmək istəsən
Doğru, düz ilqara gəl **vədəsində**.»

Əziz həmkarlarım! Mən Azərbaycan xalqının iki böyük, nəhəng sənətkarının yaradıcılıq yaxınlığı haqqında ilk müşahidələrimi aparmışam. Mənim bu axtarışlarım ilk təcrübədir. Bu problemi daha da irəli aparmaq, dərinləşdirmək, genişləndirmək üçün hazırda mənim imkanım yoxdur. Əziz həmkarlarım, gənc folklorşünas və aşıqşünaslarımız, bu işi tamamlamağı mən sizə vəsiyyət edirəm…

# V BÖLÜM
# ƏLAVƏLƏR

## Molla Cümə haqqında bəzi qeydlər

Aşıq yaradıcılığı Azərbaycan ədəbiyyatının mühüm sahəsidir. Aşıq xalqın sevimlisi, onun qəlbi ilə qırılmaz tellərlə bağlı olan bir sənətkardır. Buna görə də aşıq ədəbiyyatı, eləcə də aşıqlıq sənəti tarix boyu xalq tərəfindən hərarətlə qarşılanmışdır.

Azərbaycan xalqı özünün bir sıra söz ustaları, ustad aşıqları ilə haqlı olaraq fəxr edir. Belə aşıqlardan biri də Molla Cümədir. Molla Cümənin həyat və fəaliyyəti haqqında mətbuatda bir neçə xırda məqalələr dərc edilmişdir. Lakin Molla Cümənin harada və nə zaman anadan olmasını dürüst müəyyənləşdirmək istəyən folklorşünas yoldaşlar hazırda Baş Laysqı kəndində yaşayan M.Cümənin qızı Reyhanla görüşüb. Molla Cümənin onda olan şeirlər dəftərcəsini nəzərdən keçir-səydilər, Aşağı Laysqı kəndinin yaxınlığından keçən Nuxa-Zaqatala şosse yolunun kənarında olan M.Cümənin qəbir daşının üzərində yazılmış hicr tarixinə nəzər salsaydılar, şübhəsiz, onlar M. Cümənin həyatı ilə oxucuları daha ətraflı tanış edərdilər.

Saleh oğlu Molla Cümə 1854-cü ildə Nuxa rayonunun Aşağı Laysqı kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur. Molla Cümənin 1332-ci ildə (hicri tarixlə) 60 yaşında ikən oğlu Həsənə yazdığı "Oğluma nəsihət" şeirindən aydın olur ki, o, Aşağı Laysqı kəndində anadan olmuşdur. Molla Cümənin qızı Reyhanın deməsinə görə, "Molla Cümənin atası Saleh kişi əkinçiliklə məşğul olaraq, ağır külfətini çətinliklə dolandırarmış. Saleh kişi öz yeganə oğlu Cüməni də uşaqlıqdan təsərrüfat işlərinə alışdırmışdır. Təbiətin gözəl mənzərələrindən ilham alan, lakin ağır, can sıxıcı həyata tab gətirməyən Cümə kiçik yaşlarında ikən söz qoşmuş, sinədən şeirlər demişdir. Molla Cümə ilk təhsilini Aşağı Göynük kəndində Hacı İbrahim Əfən-

dinin mədrəsəsində almışdır. Ərəb-fars dilində mükəmməl təhsil alan Cümə şeir yazmağa 15 yaşında ikən başlamışdır".

Cümənin şeirlərindən məlum olur ki, o, kəndin varlı bir adamının qızına aşiq olmuş, lakin bu qızın adını çəkməyə qorxduğu üçün onun adını "İsmi Pünhan" ("gizli ad") adlandırmışdır. Molla Cümə ömrünün axırına kimi "İsmi Pünhanı" unutmamış, onun eşqi ilə yazmış və yaratmışdır.

O, "Ürəyim" rədifli qoşmasında belə deyir:

Bu iş tanrıdandır, deyil insandan,
Bir gözələ mehribandır ürəyim,
Dilimin əzbəri İsmi Pünhandan,
Eyzən, möhnət, qəm hicrandır ürəyim.

Bir dərd əhli heç tapmadım burada,
Nahaq yerə rüsvay oldum arada,
Nə ölmədim, nə yetmədim murada,
Ah çəkməkdən qızıl qandır ürəyim.

Cümə gözəl şair, həm də məharətli aşıq idi. Təbiətin rəngarəng gözəlliklərinə aşiq olan Cümə çox zaman səyahətlə məşğul olmuşdur. O, Nuxa, Qax, Zaqatala, Balakən və Dağıstanın bir çox kənd və obalarını qarış-qarış gəzmiş, məclislərə dəvət olunmuş, saz çalıb oxumuş, aşıqlarla deyişmişdir. Cümənin iştirak etdiyi məclislərdə olan savadlı adamlar aşıq tərəfindən deyilən şeirləri qələmə alırdılar. Lakin o zaman savadlılar az olduğundan Cümənin bir sıra şeirləri yazılmayıb xatirdən çıxırdı. Dövrünün aşıqları Cümənin şeirlərini əzbərləyib məclislərdə oxuyurdular. Məsələn, Dodulu Aşıq Paşa hansı məclisdə iştirak edirdisə, camaat ondan Molla Cümənin sözlərini eşitmək istədiyini bildirirdi.

Molla Cümə dövrünün varlılarını, camaat hesabına dolananları, hacıları, mollaları kəskin tənqid etmişdir. O, Hacı Kərimə yazdığı həcvdə deyir:

Elin dəyyususan, ölkənin bici,

Məkkəyə getməklə olmazsan hacı,
Heç yanma təndirə, asasan sacı,
Yeyəsən aşını, yavan deyirəm.

Görkəmli şair hər hansı bir məclisə toplaşan adamları, xalqın qanını zəli kimi soran müftəxorlarla, tüfeylilərlə tanış edir, xalqın düşmənlərini öz kəskin sözləri ilə rüsvay edirdi. Cümə "Molla" rədifli qoşmasında deyir:

Mənə böhtan demə, dili qurumuş,
Verginən ağzına qadağa, molla.
Döndərdin bağrımı bişmiş kababa,
Çox çətin dözərəm bu dağa, molla.

Molla Cümə həssas, gözüaçıq, hazırcavab, yoxsulların ürək çırpıntılarına acıyan və dövrün ictimai hadisələrini duya bilən xalq şairi olmuşdur. Reyhanda olan şeirlər dəftərçəsində Cümənin yetimlərə münasibətinə aid bir parça vardır. Bu parçada deyilir: "M.Cümə bir dəfə haradasa bərkə düşür. O, yetimi sevindirməyi niyyət edir. Xülasə, Cümə yol ilə gələndə bir yetimlə rastlaşır. Onun cibində pulu olmadığı üçün yetimi sevindirə bilmir. Əlacsız qalan Cümə belə bir iş düşünür. O, yetimi tutub deyir ki, səni kəsəcəyəm. yetim qorxub yalvarır. Cümə tez yetimi buraxıb deyir ki, bala, indi sevindinmi? Yetim cavabında: "Sevindim əmi, çox sağ ol! – deyir". Cümə köksünü dərindən dərərək: - Get oğul, get! Vaxt gələr, tezliklə bizə də bir qapı açılar" – deyir.

Cümənin arzusu ürəyində qalmadı. 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyətinin qurulması onu hədsiz dərəcədə sevindirdi. Cümə sazını sinəsinə basıb bu xoşbəxt həyata, onu bəxş edənlərə gözəl sözlər dedi:

Ay camaat, gəlin sizə söyləyim,
Azadlıqdan xoş bir səda eşitdim.
Bəylərin torpağı gedir əlindən,
Azadlıqdan xoş bir səda eşitdim.

Cümənin bütün şeirlərində səlistlik, yığcamlıq, axıcılıq vardır. Onun hər sözü sadə, ahəngdar və təsirlidir. Bütün bu xüsusiyyətlərə görədir ki, bu gün belə Molla Cümənin şeirləri maraqla oxunur, əldən-ələ, dildən-dilə keçir. Onun bizə məlum olan 150-dən artıq şeiri vardır.

Nəhayət, 1920-ci ilin may ayının əvvəllərində XI-ci Qızıl Ordunun hissələri Nuxadan Zaqatalaya doğru gedərkən bu yolun ətrafındakı kəndlərin varlıları orduya müqavimət göstərmək fikrinə düşürlər. Burada atışma başlayır. Bir çox yoxsul kəndli ordu ilə orduya qarşı mübarizə aparanların arasında qalır. Molla Cümə də yoxsulların yanında idi. Bu vaxt ona güllə dəyir.

Molla Cümə 1920-ci il iyun ayının əvvəllərində vəfat edir. Onun qəbri Aşağı Laysqı kəndindədir.

***Cahangir Qaziyev***
***İnternat-məktəbin müəllimi***
***"Nuxa fəhləsi, 3.III.1961***

## İsmi Pünhan kimdir?

İsmi Pünhan[15] gizli ad deməkdir. Şifahi xalq ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan Molla Cümə öz sevgilisinin adını ömrü boyu gizli saxlamağa məcbur olmuşdur. Yalnız "Dilbər" şeirində İsmi Pünhanın adını çəkmişdir.

Nədənsə bu günə qədər İsmi Pünhanın kim olduğunu söyləyən olmamışdır.

---

[15] Şərif müəllim bu yazını Şəkidən göndərib ki, mən onu Molla Cümə kitabında çap eləyəm. Burada qeyri-dəqiq, artıq və mübahisəli cəhətlər çoxdur. Çap eləyirəm ki, Onun ruhu şad olsun.

Paşa Əfəndiyev yoldaş çox böyük iş görmüş, Molla Cümənin əsərlərini toplamış, 1966-cı ildə "Molla Cümənin şeirləri" kitabını çap etdirmişdir.

"Molla Cümənin şeirləri" kitabında Cümənin 16 gəraylı, 91 qoşma, 20 divani, 17 müxəmməs və 19 təcnisi, cəmi 163 şeiri çap olunmuşdur.

H.Araslı yoldaşın 1957-ci ildə çap etdirdiyi "Aşıqlar" kitabında da Molla Cümənin 6 şeiri çap olunmuşdur.

Hər iki kitabda toplanan şeirdən başqa, hazırda 127 çap olunmayan şeiri də var. Bu şeirlərin sayını artırmaq imkanı da var.

Topladığım şeirlərin içərisində iri həcmli "Qafiyə və təcnis", "Dü beyti misalı", "Aşıq Donu ilə deyişmə", həmçinin "Baxış bəy və Leyli xanım" dastanı və s. vardır. "Dü beyti misalı" bilavasitə İsmi Pünhana həsr edilmişdir. "Baxış bəy və Leyli xanım" dastanındakı Baxış bəy də bir növ Cüməyə oxşayır. Hər ikisinin başına gələn macəra eyniləşir.

İsmi Pünhanın kimliyini öyrənmək üçün Cümənin gənclik illərinin harada keçməsi, harada təhsil alması məsələsini aydınlaşdırmaq, Cümə yaradıcılığını aydınlaşdırılmasına kömək edər.

İsmi Pünhan Baş Göynüklü olduğundan, Cümə məhəbbəti də Baş Göynüklə bağlıdır. Bu haqda Cümə şeirlərinə istinad edərək fikir yürütmək olur ki, Cümə təhsilini Baş Göynükdə almışdır. İndiki Şin çayının yatağı olan yerdə Böyük selə qədər abad mülklü Göynük kəndi yerləşirdi. Böyük Məscid də həmin yerdə idi. Həm Göynüyün, həm də ətraf kəndlərin cavanları həmin məsciddə, məscid nəzdində olan mədrəsədə təhsil alırdı. Belə bir fikir Cümə haqqında da söyləməyə imkan verir ki, Cümə də təhsilini Aşağı Göynükdə Hacı İbrahim Əfəndinin mədrəsəsində deyil, Baş Göynükdə almışdır.

Belə ki, Cümə gənclik illərini Baş Layısqıda keçirmişdi. Çünki o, Baş Layısqıda, kəndin Qumux adlanan hissəsində Həşimşağa adlanan məhəllədə anadan olmuşdur.

Baş Layisqi ilə Baş Göynüyün mədrəsələri arasındakı məsafə də olduqca
yaxın idi. Cəmi 1000-1500 metr məsafədə olardı.

Cümə kimi kamil savada malik bir gənc Şəkidən sonra yalnız Baş Göynükdə təhsil ala bilərdi.

Çünki o vaxtlar Baş Göynükdə Qazı Əhməd Əfəndi ("Zövcü" imzası ilə şeirlər yazardı), Hacı Mahmud Əfəndi (söyləndiyinə görə hikmətli şeirlər yazardı), Məcid Əfəndi (çox müdrik, ağıllı, kamil, həm də nəfsi özündə bir şəxsiyyət olub), Şeyx oğlu Molla Əhməd, Molla Məmməd Əfəndi və başqa onlarca görkəmli din xadimləri Baş Göynükdə yaşayırdılar. Dövrün ideologiyasını təbliğ edirdilər.

Başlıcası da budur ki, haqqında danışılan İsmi Pünhan Göynüklüdür. Hadisələr Baş Göynükdə və Baş Layısqıda cərəyan edir. İsmi Pünhan ölənə yaxın Baş Layısqıda olduğundan yalnız "Layısqı" şeirindən söhbət açılır.

Deməк, İsmi Pünhanla Cümə məhəbbətinin bağlılığı Baş Göynüklə əlaqədardır. Madam ki, bu bağlılıq Baş Göynüklə nəticələnir Cümə də təhsilini Baş Göynükdə almışdır.

***

Niyə Cümə öz sevgilisinin adını gizli saxlamışdır? Sualı meydana çıxır. Bu sualın cavabını vermək üçün isə mütləq o vaxtkı Baş Göynüyün vəziyyətindən danışmaq zərurəti də meydana çıxır.

Cümənin təhsil aldığı illər təxminən 1870-1880-ci illərdə olduğunu şərti götürsək, o vaxtlar Baş Göynük ən qüvvətli məhəllələrə: Çökəkli, Qəssəbşağa, Hacı Mustafaşağa, Məhyəddinşağa və onlarca məhəllələrə bölünürdü.

Hər məhəllənin özünə məxsus əli silahlı qoçağı, qulduru, oğrusu, bəyi, mülkbaşçısı, yüzbaşısı, din xadimi və b. vardır.

Torpaq üstə, qız götürüb qaçmaq üstə, su üstə, yüzbaşı seçilmək üstə və s. üstündə qanlı toqquşmalar olur, faciələr baş verirdi.

Tərəf-tərəfə düşür, ev yandırır, tayalar odlayır, adam öldürür, qan ədavəti aparırdılar.

Haşsuflu-çökəkli, Məhyəddinşağa və Məsimşağa arasında ən qüvvətli düşmənçilik mübarizəsi gedirdi.

O vaxtlar Göynük kimi kənddən kənara – aran kəndlərə yalnız şükəst qızlar köçürülürdü.

Ərəb, fars, türk dillərini kamil bilən 19-20 yaşlı Cümə kimi ağıllı bir gənc, yoxsul bir gənc "Mötəbər" bir mollanın, - din xadiminin qızına açıq Şəkildə məhəbbətini elan edə bilməzdi, bilsə belə, yenə də o vaxt Göynükdən kənara o, qız çıxara bilməzdi.

Özü də İsmini Pünhan tutduğu gözəl bir qızı!... Cüməni hər gün öldürərdilər. Belə bir mürəkkəb şəraitdən yalnız Cümə kimi ağıllı, bacarıqlı, tədbirli bir gənc baş çıxara bilərdi. Cüma də belə hərəkət etmişdir. İsmi Pünhanla şərtləşmiş, əhd-peyman bağlamış, ölənəcək bu ad altında gizli görüşmüş, öz eşqlərinə sadiq qalmışdılar.

İsmi Pünhanın eşq piyaləsini Qoca Xızır Cüməyə içirməsi haqqında və Cümə ilə bağlı başqa rəvayətlər də vardır. Bu rəvayətlər Cümənin İsmi Pünhanla bağlı şeirlərinə əsasən söylənmişdir.

Cümə yaradıcılığının ilk dövrü İsmi Pünhanla bağlı dövrüdür. Bu dövr yaradıcılığında Cümə yüzdən artıq şeirində ya açıq şəkildə, ya da işarə etmək yolu ilə İsmi Pünhana şeirlər həsr etmişdir.

Cümənin aşağıda adlarını çəkəcəyim şeirlərindən məlum olur ki, o, tez-tez İsmi Pünhanla görüşmüş, biri o birinin yanına gizli şəraitdə gedib gəlirmiş, dərdləşir, hal-əhval alırlarmış.

İsmi Pünhanının ölümü bir müddət sevən aşığı lirik şeirlər yazmaqdan soyutmuşdur. Bu səbəbli "İsa dəllək", "Dəllək Salam", "Axsaq Laçın", "Bilal", "Molla", "Hərbə-zorba", "Hünü", "Sərçələr" kimi satirik həcvlərini; "Göynüyün", "Deyim", "Dünyanı", "Dünya", "Aşıqlıq", "Ay

arvad" kimi ictimai-siyasi mənalı şeirlərini yazmışdır. Bu dövrdə Cümə evlənmiş, ailə qurmuş, sevimli şagirdlərinə aşıqlıq sənətinin sirlərini öyrətmişdir ki, bu da Cümə yaradıcılığının ikinci dövrünü təşkil edir.

Cümə yaradıcılığının üçüncü dövrü daha mənalıdır. Bu dövrdə bir aşıq kimi yetişən Cümə, Car, Şəki və başqa mahalları gəzmiş, məclislər keçirmiş, məclislər keçirdiyi mahallarda yüzlərlə gözəl qızlar, gəlinlər görmüş, onlara insani məhəbbət bəsləmişdir. Necə deyərlər onun qəlbində yenidən İsmi Pünhan məhəbbəti baş qaldırmışdır. Zeynəb, Əminət, Tükəzban, Leyla, Reyhan, Gülzar, Fətmət, Gülsənəm, Nigar, Asyat, Dursun və başqa onlarca el qızlarının, gəlinlərinin insani gözəlliklərini tərənnüm etmişdir.

"Dilbər", "Nigar", "Of Nigar", "Gəlin", "Oynayır", "Pəri", "Asıbdır", "Nigarın" kimi oynaq ruhlu şeirləri buna misal ola bilər.

Vətənini, elini hərarətli qəlblə sevib yad edən aşıq xəstə olarkən "Ağlasın" qoşmasını yazaraq öz həsrətini bildirmişdir.

"Asıbdır" qoşmasında isə özünə olan ümumxalq məhəbbətini tərənnüm etmişdir.

Cümə İsmi Pünhanı mədrəsədə oxuyarkən sevmişdir. İsmi Pünhanı mədrəsədə oxuyarkən sevmişdir. İsmi Pünhanın Göynükdən olduğunu isə biz Cümənin öz şeirlərindən görürük.

**"Eylər" şeirində yazır:**

Fələk məni döndəribdir Məcnuna,
İnsan salmaz insanı bu zuluma,
Göynüyün ətrafını Molla Cümə,
Hər gün dörd yolla ziyarət edir...

"Göynüyün ətrafını dörd yolla ziyarət edən" aşıq "Göynüyü" müxəmməsində "Güynük" mədrəsəsini sel apar-

masından bəhs edərək Şin çayının gətirdiyi fəlakəti sadalayır. Müxəmməsin bir bəndində deyir:

... Min evin mədrəsəsin
Sel aparıb etdi xarab,
Əlli, altmış ayna-qapı
Yer altında verdi cavab.
Bu ərzi – hal yazılsa
Heç götürməz dəftər-kitab,
Bizə gələn yıxıntıya
Heç bir insan çəkməz hesabını,
O, ərşi asman Göynüyü...

"Du beyti misalı" qoşmasından və "Baxış və Leyli Xanım" dastanından çıxan nəticə belədir ki, İsmi Pünhan mötəbər bir din xadiminin qızıdır. Cümə İsmi Pünhanı mədrəsədə oxuyarkən sevmişdir. İsmi Pünhan təhsilini Baş Göynük mədrəsəsində almışdır. Deməк, yuxarıda dediyimiz kimi Molla Cümə da təhsilini Aşağı Göynükdə deyil, Baş Göynükdə almışdır.

İslam dininin saz çalmağı qadağan etdiyi, aşıqlığı haram sandığı, dinə zidd olduğunu irəli sürdüyü və qanlı – qadalı toqquşmalarla dolu olan bir kənddə açıq məhəbbətdən danışmaq olmazdı. Cümə kimi açıqgöz, ağıllı bir gənc belə bir mürəkkəb şəraitdə öz məşuqəsinin adını gizli, pünhan saxlaya bilərdi. Məhz buna görə də Cümə da belə etmişdir.

Bu baxımdan onun 30 bənddən ibarət olan "Dubeyti" misalı qoşması da çox xarakterikdir.

İsmi Pünhanı atası tərəfindən istəmədiyi bir adama zorla ərə verdikdən sonra eşidir ki, Cümə Baş Göynükdədir. Məclis keçirəcəkdir. (O, vaxt məclis keçirilərkən arvadlar da başı örtülü gəlib ya məclisin arxasında, ya da qonşu evdə, yaxud da ayaq üstə dayanıb qapının ağzında aşığa qulaq asa bilərdilər). İsmi Pünhan başı örtülü arvadlara qoşulub məclisə gəlir. Məclisin arxasında keçib oturur. Bu Cümənin gözündən yayınmır. Qəlbi təlatümə gəlir. İsmi Pünhan isə qəlbində quş tutur.

Qəlbində qoy-götür edir ki, həqiqətən Cümə yenə də məni sevirsə, əvvəlki məhəbbəti sönməyibsə, ürəyimdə tutduğu quşun adını söyləyəcəkdir.

Bu belə də olur. Cümə məclisdə otuz bəndlik şeir söyləyir. "Mahişə, alabaxta, qarattoyuq, şarmaq pimbiş, göyərçin, qırqovul, qaranqac, şamağa, leylək, ördək, bəzgək sərvi, dovdaq, cif-cif, cundu, qaz, igid oğlan, bülbül, qurquru, kəklik, qu-qu" kimi quşların adınl sadalayır. Bağlamasında:

Molla Cümə mərd oğludur,
Sinəsi eşqə dağlıdır
Zəndimi sən itirdin,
Yapalaqdan nə bağlıdır...

-deyərək məclisə yekun vurur. İsmi Pünhanın ərini yapalağa, özünü sinəsi eşqdən dağlanmış mərd oğluna oxşadır. Məclis dağılarkən İsmi Pünhanın razı qalıb gözlərindən gülgüyü Cümənn gözlərindən yenə də yayınmır. Cümə məclis keçirdiyi evdə gecələyir. Hər ikisinin bu pünhan görüşü qəlblərinə təsəlli verir. Razı qalırlar.

Molla Cümənin İsmi Pünhanla sevişməsini bir növ xatırladan ən böyük əsəri "Baxış bəy və Leyli" xanım dastanıdır.

Rəvayətlərin biri Cümə ilə İsmi Pünhanın mədrəsədə sevişməsi, Cüməyə müdrik qoca Xızır Nəbinin eşq piyaləsi içirtməsi, Şeyxin dalınca adam qaçırılması, şeyxin gəlib əhvalatdan halı olması, Cüməyə aşıqlığa icazə verməsi, lakin məlahətli səsinin olması, üzünə şillə vurması haqqında ayrıca bəhs olunacaqdır.

"Baxış bəy və Leyla xanım" dastanında da Baxış bəy mədrəsədə Humay mollanın qızı Leyli xanımı sevir. Leyli xanımın busə şərabını içir. Humay molla əhvalatdan xəbərdar olur. Qızı Leylini məktəbə buraxmır.

İsmi Pünhan Cüməsiz dura bilmədiyi kimi, Leyli xanım da bəysiz dura bilmir. Ayrılıq qəminə dözə bilmir. Pəncərənin arxasında da olsa dayanıb Baxış bəyin səsini eşitmək, üzünü

görmək istəyir. Baxış bəy bu vaxt Humay mollanın qabağında dərs əvəzinə Leyli xanıma olan məhəbbətini oxuyur:

Açdım kitabımı, baxdəm qaraya,
Göründü gözümə yaşılbaş sona.
Kitabım, əzbərim, dərsim, qələmim
Durubdur qarşımda, baxıram ona.

Humay molla Baxış bəyə acıqlanır:

- Düz oxu!
- Yaxşı, oxu deyirsən, oxuyum.

Oxuyur:

Sən bilirsən mənim ürək handadır,
O da mənim kimi yan ha yandadı,
Öldürsən də vallah gözüm ondadır
Dönüb huri qılmana mahtabanım.

Humay molla yenə də açıqlanır:

- Düz oxu! ..

Baxış bəy oxuyur:

Yeni yetişmiş baxça-bar indi,
Qoynunda bəslənmiş bir cüt nar indi,
Baxış deyər mənim Leyli  yar indi,
Eyləyib yar məni dəli divanə.

Baxış bəyin belə oxumasından yenidən qəzəblənib şübhəyə düşmüş Humay molla pəncərənin qabağına gedib çölə baxdıqda qızı Leylini görür. Onu hədələyib qovur. Nəhayət, Leylini götürüb Türkmən vilayətinə qaçır... Baxış Leylinin dalınca "gedər-gəlməz" yollara düşür, çətinliklərlə uzlaşır. Leylini gətirməyə gedərkən Şahzadə xanımı, Gülzarı görür. Onlaın köməyi ilə vüsala çatmış Baxış bəy üçünü gətirib gəlir, ata vətənini qara matəmdən qurtarır.

Burada Humay molla ilə Şeyx, Humay molla ilə İsmi Pünhanın atası "Mötəbər dindar molla", Leyli xanım ilə İsmi Pünhan, Baxış bəy ilə Molla Cümə arasında olan oxşarlıq eyniləşir.

Leyli xanımı atası götürüb qaçırsa da harambaşı Bəybalaya ərə vermək istəyirsə də, sevgisinə son dərəcə sadiq qalan Leyli xanım səbirsizliklə Baxış bəyin yolunu gözləyir, toy mərasimi qurulduğu anda belə özünü itirmir, Baxış bəy gəlib çıxdığı xəbərini eşidən kimi, Leyli xanım bir cüt at istəyir, gəzməyə çıxacağını bildirir. Bağın qabağında onun yolunu gözləyən Baxışa atın birini verir, qoşalaşıb qaçırlar.

Dastan Cümənin kamilləşdiyi dövr yaradıcılığının məhsulu olduğundan bitkinləşir.

-

**Şərif İdrisov**
***1983, Şəki***

## Molla Cümə böyükdü, yoxsa Aşıq Ələsgər[16]

Məsələnin belə qoyuluşunda konkret heç bir marağım yoxdur. Bu, əslində bir daha mənəvi abidələrimizə yönəltmən naminədi. Bir-iki nüans ki, onu da sizlərçün xırdalayacam. Əvvəla, Molla Cümə bu vaxta qədər aşıq kimi tanıdılsa da, o, aşıq deyil. Əgər fakt kimi, müraciət etdiyi aşıq ədəbiyyatı janrlarını göstərərlərsə, deyək ki, o dövrdə başqa şeir formaları elə də aktual deyildi. Eyni zamanda, gərək, onda Vaqifi, Vidadini və başqalarını da aşıq adlandıraq. Bir də ki, Molla Cuma irsi hələ o qədər də ciddi araşdırılmayıb. Əslinə qalsa, Molla Cümə dərin mütəfəkkir şairdi. Son məlumatlara görə, onun iri həcmli şeiri (poeması) aşkarlanıb. Və yüzlərcə, minlərcə şeirləri var ki, hələ dildə-ağızdadı. Çoxları da itib-batıb. Bir qisminə isə Aşıq Soltan kimiləri yiyələniblər. Molla Cümə əvvəldən axıra kimi yiyəsizlikdən üzə çıxarılmayıb. Belə

[16] Bu məqaləni müzakirə üçün çap eləməyi lazım bildik. Görünür P.Əfəndiyevin 1961-ci ildən bəri ömrünün yarıdan çoxunu sərf eləyib böyük aşıq haqqında çap elədiyi kitablarla və məqalələrlə Vəli Əkbər tanış deyil (redaktor).

deməmk mümkünsə, Azərbaycan ədəbiyyatı, ədəbiyyat elmi ona sahib durmayıb. Həm fiziki, həm də mənəvi repressiyanın qurbanı olub. Yaxşı ki, Salman Mümtaz var imiş. Yoxsa, ədəbiyyatımızın ondan xəbəri də olmayacaqdı. Haqqıda həqiqəti yazmağa həmişə qorxublar. 70 il Sovet rejimi imkan vermədi etiraf edilsin ki, Molla Cüməni XI Qızıl Ordu güllələdi. Və o dövrdə Molla Cümə ona görə kiçildildi, adi el aşığı edildi ki, məsələyə siyasi rəng verilməsin. Biz də illərcə susduq. İndisə danışmağa ya taqət yoxdu, ya da ki, hacət. Hər şey tutulub. Hər şey bölünüb. Molla Cüməninsə sahibi yoxdu. Neyçün bu ifadəni tez-tez işlədirəm? Çünki bu susqu indi də davam edir. Bir-neçə ay öncə "Rezonans"da yazmışdıq ki, Molla Cümənin şeirlərini Aşıq Soltan oğurlayıb. Bu boyda məmlkətdə bir kimsə tapılmadı ki, səsimizə hay versin. Bu işə bir əncam çəksin. Hələ bir neçə mötəbər şəxs (mən onlara belə deməzdim – V.Ə.) mötəbər yerlərdə söylədilər ki, fakt lazımdı, gərək sübut edəsən. Anlaya bilmədim ki, o boyda saxtakarlığa nə sübut lazım idi. Məgər üslub, dil, ifadə tərzi və həmən şeirlərin çox-çox öncə Molla Cümənin adıyla dərc olunması fakt deyildimi? Bəs Molla Cüməni araşdırıb doktor olan kəslər və bu gün də onun "çörəyini" yeyənlər niyə susdular? Heç olmasa, etika xətrinə kiçik bir məktub yazmaq E.A. üçün çətin idimi? Yoxsa, Ədəbiyyat İnstitutuda yazmağı yadırğayıb? Dediklərim yiyəsizliyi sübut etmirmi?

Mənəvi abidələrimizə bu qədər biganə olmağımız bu gün Dubaya, Türkiyəyə yönələn mənəviyyatsızlıq yollarını açıb. Aşıq soltanların beş-on manatına aldanlb milyonlarla ölçülməyən nələrimizi qurban verdiyimizin fərqində olmamışıq. Nəticə isə hamımızın məhvinə işləyib.

Mayın 14-15-i Molla Cümənin XI Qızıl Ordu tərəfindən qətlə yetirildiyi gündü. Düz 79 il əvvəl törədilmiş bu cinayətə susmaqla şərik çıxmağımızın günahlarından qurtulmaq zamanıykən, yeni cinayətlərə susuruq. Və imkan veririk ki, Molla Cüməni bir də öldürsünlər.

Bir şeyi də xatırlatmaq yerinə düşər. əgər Molla Cümə biz bilən kimi əhəmiyyətsiz olsaydı, Qars və Qahirə universitetlərində ona bu qədər həssas yanaşmazdılar. Qars universitetində 40 saat Molla Cümə tədris olunur. Qahirədə isə ondan mühazirələr oxunur.

Bir qədər də qayıdaq o məsələyə ki, Molla Cümə böyükdü, yoxsa Aşıq Ələsgər. Hər ikisi mənəvi sərvətimizdi. Və müqayisə etmək fikrindən də uzağam. Qoy, hər iki ustadın ruhu məni bağışlasın. Amma biz yatmışları oyatmağın ayrı yolu yoxdu. Gərəkdi ki, zurna-balaban olsun.

Molla Cümənin bu vaxta kimi dərc olunmamış 5 şeirini sizlərə təqdim edirik. Şeirləri bizə Molla Cümənin nəticəsi və onun araşdırıcısı Elman Əzizov çatdırıb.

***Vəli Əkbər***

## Sona

Nə yandırdın eşq əhlinin canını,
Sənsən bu dünyanın maralı, Sona.
Tökməginən sən aşığın qanını,
Soluban gül rəngin saralı, Sona.

Bağban olub bağlarına girmədim,
Qızıl gülü dəstə-dəstə dərmədim.
Dərib sevdiyimə verə bilmədim,
Alışan ocaqlar qaralı, Sona.

Gözəllər içində məşhurdur üzün,
Məxluqat içində şirindir sözün,
Xumarlanmış, canan, qaş ilə gözün,
Nə üçün gəzirsən aralı, Sona.

İndi düşdü ayrılığın zamanı,

Kim eylərdi böylə işə gümanı,
Xəzəl tək saraltdın Molla Cüməni,
Başım olub mənim bəlalı, Sona.

## Əmanət

Qurban ollam ala gözlü yara mən,
Mən gedirəm, sən Allaha əmanət.
Həsrətliyəm bağça ilə bara mən,
Mən gedirəm, sən Allaha əmanət.

Mən ki, burda qərib-qərib qalmışam,
Ağ üzümə pərdələri salmışam.
Hər nə desən qulluğunda durmuşam,
Mən gedirəm, sən Allaha əmanət.

Mən Cüməyəm, qulluq etdim yara mən,
Həsrət qaldım bağça ilə bara mən,
Verməərəm gülümü hüç xara mən
Mən gedirəm, sən Allaha əmanət.

## Gərək

Ey könül, sənə həmdəm, bir qaməti ərər gərək,
Qaş qara, kiprik qara, ruxsarı da əhmər gərək.

Göz siyah, dəndan bəyaz, ləbləri şux, qönçə dəhan,
Al yanaq, nəsri buxaq, ol qaşları qəmər gərək.

Əl şüşə, barmaq qələm,  dırnaq sədəf  başsan-başa,
İncə bel, əndamı şux, tər sinəsi mərmər gərək.

Xoşqılıq, xoş məcazlı, xoş ixtilat eylər ləziz,
Dindirsən, can söyləyən, hər kəlməsi şəkkər gərək.

Avazı bülbül kimi, danışanda dür tökülə,
Nəfəsindən gül qoxuyan, ətri müşk-ənbər gərək.

Hər səhər min naz ilə sığallanıb qarşı çıxa,
Yerişi kəklik kimi, həm libası məxmər gərək.

Ağıl ola başında cəm, həm gözləyə namus-arı,
Ədəbi-mərifəti, el dilində əzbər gərək.

Rəqib sözünə uymayan, əğyara məhəl qoymayan,
Fitnə-fəsadı qanmayan həyalı bir dilbər gərək.

Bu nişanda məhbubənin xidmətində qul olmağa,
Sənin kimi, Molla Cümə, bir ciyəri əxbər gərək.

**Bəri bax**

Başına döndüyüm alagöz ceyran,
Aç gözünü, amandır, bir bəri bax.
Yar olan yarına eylər bir çarə,
Halım olub yaman, bir bəri bax.

Giriftar eylədin dərdə məni də,
Gül durubdu, sevdiyim, sağ yanında,
Mən ovçuyam sən maralın dağında,
Sürüdən ayrılmış, ceyran, bəri bax.

Cüməni salmısan sən yanar oda,
Qoymadın, əzizim, yetəm murada,
Əslini bilmədim, ey mələkzada
Hurisən, Pərisən, qılman, bəri bax.

### Gəldi

Ay ağalar, gözüm yaşı,
Çağlamağın çağı gəldi.
Eşqin odu ürəyimi,
Dağlamağın çağı gəldi.

Burda bir maralım itdi,
Fələk mənə zülm etdi.
İsmi Pünhan yarım getdi,
Ağlamağın çağı gəldi.

Molla Cümə qalır yasda,
Etibar yoxmuş heç dosta.
Tərlan könlüm tovuz üstə,
Ağlamağın (?) çağı gəldi.

“Rezonans” qəzeti 18.V.1999

## Molla Cümə əlyazmalarının hərracına son qoyulmalıdır

Türk dünyasının XIX yüzilliyin sonu və XX yüzilliyin əvvəllərində dünya mədəniyyətinə bəxş etdiyi nadir simalardan biri də Molla Cümədir. O, Azərbaycan aşıq sənətinin elə parlaq ulduzudur ki, parıltısı bütün zamanlarda görünəcəkdir. Həyatını xalqının adət-ənənələrinə, toy və mağarların şuxluğuna həsr edən sənətkar özündən sonra rəngarəng və məzmunlu irs qoyub getmişdir ki, toplanıb nəşr olunması günümüzün aktual məsələlərindən biridir. Lakin aşığın öz taleyi kimi, əl yazmalarının da taleyi “qəribə”liklərlə doludur.

## “Ərən” qəzetinin baş redaktoruna

Cənab baş redaktor! Aşıq Soltanın 1996-cı ildə Dərbənddə naməlum nəşriyyatda “Telli sazım” şeirlər toplusu nəşr edilmişdir. Nəşrin redaktorları Mustafa İsgəndərzadə, Zirəddin Qafarlı və Hüseyn Arif, rəyçisi professor Qara Namazovdur.

Həmin nəşrin toplayıcısı və tərtibçilərindən biri isə guya mənəm. Əvvəla onu demək istəyirəm ki, Dağıstanın əməkdar mədəniyyət işçisi Aşıq Soltanın sənətinə dərin ehtiramım var. Hələ orta məktəb illərində onu heyranlıqla dinləmiş, Aşıq Soltanın şəxsində aşıq sənətinə mehrim artmış və mən bu sənətin tədqiqatçılarından biri kimi çox uzun bir yol keçmişəm. uşaqlıq təəssüratımı, Aşıq Soltan sənətinə münasibətimi “Elin ustad sənətkarı” adlı məqaləmdə (“Azərbaycan müəllimi” qəzeti, 1993) bildirmişəm. Lakin Aşıq Soltanın heç bir şeirini nə toplamışam, nə də tərtib etmişəm. “Telli sazım” kitabını nəşrə hazırlayanlar Aşığın 1993-cü ildə tamam olmuş 70 illik yubileyi münasibətilə yazdığım məqaləni kitabın əvvəl səhifələrinə qoyublar, guya kitabı “Nüfuza” gətirmək istəmişlər. Bir daha təkrar edirəm ki, belə bir kitabın tərtibi və nəşrindən əsla xəbərim yoxdur. Çap edilmiş kitabın bir nüsxəsini isə mənə yalnız həmkarım professor M.Qasımlı 1998-ci ilin sonlarında göndərmişdir.

Son vaxtlar bu topluyla bağlı müxtəlif qəzetlərdəki yazılarda və ANS televiziya şirkətinin verilişlərində mənim də adımı hallandırırlar. Kitabın nəşrində iştirak etməsəm də, Molla Cümə – Aşıq Soltan “qarşıdurmasına” əslində biganə qala bilmərəm. məlumdur ki, hələ əvvəlki illərdə Molla Cümə əlyazmaları ətrafındakı söz-söhbətlər, hətta “Soltan və Qəndab” dastanının da ona məxsus olması barədə şayiələr dolaşmaqda idi. Bütün bunlara son qoymaq üçün ustad sənətkarın qarşıdan gələn 145 illiyi münasibətilə əlyazmalarını Əlyazmalar institutunda cəmləşdirmək gərəkdir.

Məndə olan dürüstləşdirilməmiş bir məlumata görə, Molla Cümənin əlyazmalarının böyük bir qismi onun yaxınları tərəfindən Aşıq Soltana, yaxud onun nəslindən olan kiməsə satılmışdır. Bu düyün açılmamış başqa düyünlərə ilgək salmaq olmaz. Bir də "Soltan və Qəndab" Azərbaycan dastanlarının ilk akademik nəşrinə daxil edilib. Həmin nəşr M.H.Təhmasibin rəhbərliyi ilə kollektiv tərəfindən çapa hazırlnmışdır.

Göründüyü kimi, ANS televiziyası faktı dürüstləşdirmədən efirə çıxartmamalıydı, əvvəl ittihamçı Elman Əzizovun öz ulu babası Molla Cümənin irsinə hansı mövqedən yanaşdığını müəyyənləşdirməliydi.

Son sözüm budur ki, Molla Cümə əlyazmalarının hərracına son qoyulmalı, sonra isə bu əlyazmaların kimə məxsusluğu mütəxəssislər, ekspertlər və eləcə də hüquq-mühafizə orqanları tərəfindən müəyyənləşdirilməlidir.

***Hörmətlə: Azad Nəbiyev***
***Professor***

## Yeməyənin malını yeyərlər, yaxud Molla Cüməni kimlər oğurlamaq istəyir?!

Azərbaycan xalqının çox böyük mənəvi sərvətləri olub. Amma nə fayda ki, onun malını həmişə özgələr yeyib, dağıdıb. Başımıza gələnlərin çoxu sadəlövhlüyümüzdən, ürəyiaçıqlığımızdan gəlib. Yəqin Mirzə Şəfi Vazeh yadınızdadır. O da yadınızda olar ki, alman Bodenşdet Vazehi necə aldadıb tora saldı, əsərlərini necə öz adına çıxdı. Bu azmış kimi Nizamimizi, Füzulimizi, daha hansı duhalarımızı da "özəlləşdirmək" istəyənlər çoxdur və buna onların nə dərəcədə nail olacaqları asılıdır bizim fərasətimizdən...

Nə isə, mətləbi çox uzatmayaq. Bu gün bizim yaramızın qaysağını qoparan məsələ XIX-XX əsrin görkəmli

Azərbaycan aşığı Molla Cümənin yaradıcılıq irsinə olan təcavüzdür. Deyəsən bu ürəyəyatımlı, xalqın arzu və istəklərindən mayalanmış poeziya incilərinə yiyə çıxmaq istəyənlər yaman bic tərpəniblər. (Niyə də tərpənməsinlər, əgər biz öz malımızın qədrini bilmiriksə. Belə yerdə deyiblər: bacarana can qurban!) Dağıstanlı Aşıq Soltan Molla Cümənin yaxınlarından şairin min səhifəlik şeirlərini alıb aparmış, öz imzası ilə çap etdirmişdir. Əhsən! "Günün günorta çağı oğurluq" buna deyərlər. Bizim məşhur "Rezonans" qəzeti bu faktla əlaqədar öz etiraz səsini qaldırsa da, nədənsə, digər "mətbu qardaşlar", o cümlədən, əlaqədar təşkilatlar belə vacib məsələyə barmaqarası baxır, necə deyərlər, xalqımızın mnəviyyatına qarşı edilən təcavüzə göz görəsi rəvac verirlər. Unudurlar ki, laqeyidlik xalqı məhvə aparır, unutqanlıq uçuruma...

Biz çox mehriban, qonaqpərvər, sülhsevər xalqıq. Bu haqda çox deyilib, çox yazılıb. Həqiqətən də belədir. Axı biz hamını çox istəyirik – özümüzünkülərdən savay! Yadlara pəh-pəhlə çəpik çalmaq, başa keçirmək adətimizdir. Onlar da başa keçən kimi başlayırlar başımızı kəsməyə. Özü də pambıqla yox, açıq-aşkar xəncərlə, qılıncla...

Repressiya qurbanlarını yadınıza salın! Müşfiqlər, Cavidlər, Hadilər... kimlər, kimlər... poeziyamızın, mənəviyyatımızın qaymaqları! Lakin gəlin unutmayaq ki, Azərbaycan xalqı bütün tarixi boyu mənəvi sərvətlərini itirə-itirə gedib, Babəkdən, Nəsimidən üzü bu yana. Çox da uzağa getməyək: bu gün haqqında bir az ürək yanğısı ilə, bir az məhəbbətlə, neçə il öncə isə az qala qorxa-qorxa xatırladığımız şair Molla Cümə də 1920-ci ildə "şanlı XI Qızıl Ordu" tərəfindən qətlə yetirilib, həyat yoldaşı Zöhrə xanımla birgə. Lakin "böyük qardaşımızın" xofu o qədər güclü idi ki, neçə-neçə igid, cəsur oğullarımızı qətlə yetirmiş bu mənfur düşmənin cinayətləri zaman-zaman öz eloğullarımızın üstünə yıxılmış, xalq öz dostu ilə düşmənini tanımamışdır.

Yaxşı ki, tarix yaşayır, nəsil və şəcərələr qol-budaqlı ağac kimi şaxələnir, köklər torpağın daha dərin qatlarına işləyir. Bu gün Molla Cümə nəslinin nümayəndələri Şəkinin Layısçı kəndindən pərvazlanaraq, ölkəmizin bütün bölgələrinə yayılmışlar. Onların hər biri öz genlərində ustad şairin poeziya ilə yoğrulmuş ürəyinin zərrələrini daşıyır.

Bu günlərdə "Vahid" poeziya məbədində Molla Cümənin 145–ci, qətlə yetirilməsinin 79-cu ildönümü münasibətilə musiqili, ədəbi-bədii gecə keçirilmişdir. Xatirə gecəsini şairin nəvə və nəticələri təşkil etmişdilər.

Filologiya elmləri doktoru, professor, Molla Cümə yaradıcılığının tədqiqatçısı Paşa Əfəndiyev şairin həyat və yaradıcılıq yolundan danışmış, 1966, 1983 və 1995-ci illərdə toplayıb çap etdirdiyi Molla Cümə əsərlərindən ibarət kitablarla gecənin iştirakçılarını tanış etmişdir. Bildirmişdir ki, hələ şairin çap olunmamış çoxlu şeirləri vardır ki, bunların da hər biri əsil sənət nümunəsidir.

Gecənin aparıcısıs, şair-qəzəlxan Həkim Qəni sözü tarix elmləri doktoru, şair-qəzəlxan Şahin Fazilə verdi. Ş.Fazil Azərbaycan Ensiklopediyasında görkəmli şair Molla Cümənin əsil adının səhvən böyük qardaşının adı ilə "Süleyman Saleh oğlu" kimi getdiyini bildirdi. Respublikanın xalq artisti, bəstəkar Şəfiqə Axundovanın, bəstəkar-pianoçu Taleh Hacıyevin Molla Cümənin sözlərinə bəstələdikləri mahnılar səsləndi. Müğənnilərdən Gülyaz Məmmədova, Fəridə Elsoy, Təranə Vəlizadə, Aşıq Oqtay Əsədoğlu, Aşıq Əjdər şairin sözlərinə yazılmış musiqi nömrələri ifa etdilər. Tədqiqatçı alim Əbdüləlimov, tele-jurnalist Xətayə Səhabət, şairə Qiymət Məhərrəmli və başqaları çıxış edərək, Molla Cümə yaradıcılığına göstərdikləri ehtiram və qayğı üçün tədbirin təşkilatçılarına xoş duyğularını çatdırdılar.

Tədbirin sonunda ustad sənətkarın nəvəsi Mövlud Əzizov şairin ev muzeyinin yaradılması ilə bağlı həmyerlilərinin arzu və təkliflərini yetirdi, Qars və Qahirə univer-

sitetlərində Molla Cümə yaradıcılığına geniş yer verilərək, mühazirələr oxunduğu halda, Azərbaycanda şairə göstərilən biganəlik və laqeyidliklə bağlı narahatlığını bildirdi. Babasının xatirəsinə göstərdikləri ehtiram, onun yaradıcılığına bəslədikləri səmimi və mehriban münasibətə görə gecənin qonaqlarına Molla Cümə yadigarının dərin təşəkkürünü yetirdi.

*Q.Məhərrəmli*
*"Tək səbir" qəzeti,*
*4-11 iyun 1999-cu il*

## Sənətkarın nəşr olunmamış şeirləri

Qəzetimizin 20 iyul 1967-ci il tarixli nömrəsində "Məşhur şair Molla Cümə" sərlövhəli material dərc edilmişdi. Həmin materialda Molla Cümənin rayonumuzun kəndlərində olmasından, onun şeirlərindən öz şəklinin tapılmasından söhbət gedirdi.

Həmin material oxucular arasında maraq doğurmuşdur. Rayon suvarma sistemləri idarəsinin fəhləsi Ərrəhman Rəşidov redaksiyamıza Molla Cümənin şeirləri yazılmış üç şagird dəftəri təqdim etmişdir. Həmin dəftərlərdəki şeirlərin xeyli hissəsi indiyədək dərc olunmamışdır.

"Dolanım", "Mən də", "Dilbər", "Dünya", "Ayağa durmaz", "Üz əlim", "Sən də", "Məni", "Belə mən", "Arvad", "Əfəndi", "Qocalıb", "Bacına", "Yavaş-yavaş", "Yay kimi", "Bağlama", "Qız və gəlin", "Bizə gəlsən" və başqa şeirləri oxuculara hələ tanış deyildir. Aşağıda həmin şeirlərdən bir neçəsini dərc edirik.

## Qoşuldu

Yenə dərdim həddən aşdı,
Canım odlara qoşuldu.
Bağrı nəmli, gözü yaşlı,
Adım, adlara qoşuldu.

Şad könlümə su bağlandı,
Ciyərim çarpaz dağlandı.
İsmi-pünhan sığallandı,
Gedib yadlara qoşuldu.

Molla Cuma dərd yığnağı,
Gövdəsi hicran ağnağı,
Sər dəhanın boğanağı,
Qalxıb badlara qoşuldu.

## Bizə gəlsən

Dostluğun billəm,
Sən bizə gəlsən.
Dərdindən ölləm,
Sən bizə gəlsən.

Getmə küsərəm,
Yel tək əsərəm.
Qurban kəsərəm,
Sən bizə gəlsən.

Cümə fanaram,
Dəymə, sınaram,
Fikrin qanaram,
Sən bizə gəlsən.

## Belə

İndən belə ar-namusu ataram,
Yoğurram ciyərim daş ilə belə,
Yarın həsrətindən matəm tutaram,
Qan ağlar gözlərim yaş ilə belə.

Şəyird ərzin elər öz ustadına,
Təbibsiz xəstənin yet imdadına,
Ayaq turabına, əziz adına,
Qoyaram canımı baş ilə belə.

Cüməni gözündən yar saldı getdi,
Viranə könlümü qəm aldı getdi.
Can sənin yanında bil, qaldı getdi,
Oynatma gözünü qaş ilə belə.

## Ey gözəl

Ey gözəl, surətinə,
Mehri dürəxşan demişəm.
O güli rüxsarına,
Mah ilə taban demişəm.
İnci tək dişlərinə,
Ləli bədəxşan demişəm.
Qaşların əyməsinə,
Naleyi-müjgan demişəm.
Zülfünün hər telinə,
Sünbülü reyhan demişəm...

***"Şəlalə" qəzeti,***
***24 avqust 1967-ci il***

## Qəhrəmanlığa çağırış motivləri
### *(Fənn müəllliminə kömək)*

Azərbaycanın xalq şairi S.Vurğunun yaradıcılığında şifahi xalq ədəbiyyatı nümunələrindən istifadə mühüm yer tutur. S.Vurğunun yaradıcılığından bəhs edən tədqiqatçılar bunu, hər şeydən əvvəl, saza və sözə geniş meydan verildiyi Qazax rayonunun mədəni mühiti ilə bağlayırlar. Deməli belə bir mühitdə dünyaya göz açmış S.Vurğun xalq ədəbiyyatını, onun zəngin xəzinəsini sevməyə bilməzdi. Həssas qəlbi və nadir istedadı, müşahidə qabiliyəti şairə xalq ədəbiyyatının ən incə nöqtələrini dərindən öyrənməyə imkan vermişdir. Şifahi xalq ədəbiyyatı nümunələrindən – nağıllardan, atalar sözləri və əfsanələrdən, bayatılardan sənətkarlıqla istifadə edən şair maraqlı sənət nümunələri yaratmışdır. Xalqın yaratdığı söz incilərinə məhəbbətlə yanaşan və yüksək qiymət verən şair yazırdı:

Oxucum, belədir aqil babalar,
Bir dastan yaradır ikicə sözlə.
Bu kamal dünyası gülər bir üzlə,
Nəsildən - nəsilə keçir yadigar.

Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar xalq ədəbiyyatına müraciət yeni əhəmiyyət kəsb etdi. Bunun başlıca səbəbi şifahi ədəbiyyat nümunələrində qəhrəmanlıq motivlərinin gen-bol işlədilməsi ilə bağlı idi. Vətənin başı üstünü təhlükə alan zaman bu qəhrəmanlıq ənənələrinin yeni məzmunda şeirə gətirən S.Vurğun qələmini süngüyə çevirərək, xalqımızın igid oğul və qızlarını mübarizəyə səslədi.

Böyük rus mütəfəkkiri İ.Dobrolyubov demişdir ki, doğma vətənin fəlakətə uğradığı zamanlarda xalq öz keçmiş şöhrətini xatırlayaraq qədim əfsanələrə, rəvayətlərə müraciət edir, onları yenidən işləməyə, yenidən canlandırmağa başlayır. Ölkəmizə qəflətən hücum etmiş alman faşistlərinə qarşı mübarizədə bir əsgər kimi vuruşmağa hazır olduğunu S.Vurğun

"Vətənin keşiyində" (1941-ci il, 22 iyun) adlı şeirində belə ifadə etmişdir:

Bilsin ana torpaq, eşitsin vətən,
Müsəlləh əsgərəm mən də bu gündən!
Bu gün bir süngüdür əlimdə qələm.

Böyük şeir ordusunun manifestinə çevrilən bu misralar qəhrəmanlıq ənənələri ilə zəngin olan xalqımızda vətəndaşlıq qürurunun nə qədər yüksək olduğunu bir daha sübut edirdi. S.Vurğun yaradıcılığının həyat və zamanla canlı əlaqəsi, böyük ictimai və siyasi mənası, xəlqiliyi və partiyalılığı müharibə illərində daha qabarıq görünməyə başladı. "Ananın öyüdü", "Şəfqət bacısı" və sair şeirlərində şair xalq ədəbiyyatının qəhrəmanlıq ənənələrinə yeni məzmun verdi:

Qoy vətən torpağı ayağa qalxsın,
Hər igid gözündən ildırım çaxsın,

-kimi misralarla Vətən oğullarını səfərbərliyə səsləyir, onlarda qəhrəmanlıq hisslərini gücləndirirdi. "Qoy faşist anası geyinsin qara, Qoy batsın taleyi qaranlıqlara" – deyən şair xalqın bu çətin mübarizədə mütləq qalib gələcəyinə dərin inam bəsləyirdi. Döyüşçülərdə vətəndaşlıq duyğularını alovlandıran şair xalqlar dostluğuna böyük əhəmiyyət verirdi:

Bizim ellər Koroğludur, Çapayevlər yurdudur,
Hər nəfəri güllə batmaz, top dağıtmaz ordudur.

"Ananın öyüdü" yalnız S.Vurğunun müharibə dövrü yaradıcılığında deyil, ümumən müharibə dövrü poeziyamızın ən qiymətli əsərlərindən biri kimi bu gün də sevilə-sevilə oxunur. Zəngin folklor materiallarından məharətlə istifadə edən şair Vətənin azadlığı naminə hər cür çətinliyə mərdliklə sinə gərən məğrur ana obrazı yarada bilmişdir. Bircə ciyərparasını müharibənin odlu-alovlu qoynuna yola salan ana sakitdir. O bilir ki, oğlu ana qəlbini zəfərlərin sayı ilə isindirəcək, son damla qanına kimi ləyaqətlə vuruşacaqdır: "Oğlum, göz bəbəyim, sən ey ömür çiçəyim! Tarixlərin şahididir mənim bu

ağ birçəyim!" – deyən ana oğluna torpağımızı düşmənlərdən azad etməyi tapşırır. Xalqımızın qəhrəmanlıq ənənələrinə sadiq qalmağı tövsiyə edir.

Ana cəbhəyə yola saldığı oğlunun dalınca su atır. Aydınlıq rəmzi kimi şifahi xalq ədəbiyyatından gələn bu ənənədən şair bacarıqla faydalanmış, şeirin ümumi məzmununa bir təravət gətirmişdir:

Günəş yaydı şöləsini Vətənin göylərindən,
Ana baxdı öz oğluna, su da səpdi dalınca.

"Partizan Babaş" şeiriyyəti, xəlqiliyi və ifadə etdiyi ideyanın orijinal xüsusiyyətlərinə görə seçilir. Əsərdə Koroğlu ilə bağlılıq çox təbii və təsirlidir:

Sən deyirsən: "Qəlbimizdə Koroğlunun qanı vardır".
Mən deyirəm: "Bu namusla yaşayanlar bəxtiyardır".
Sən deyirsən: "Misri qılınc! Baş bir yana, leş bir yana".
...Mən deyirəm: "Qoy var olsun sinəndəki el ürəyi,
Mərd oğullar ayaqlamaz and içdiyi duz-çörəyi".

Qonağı duz-çörəklə qarşılamaq, duz-çörəyə and içmək xalqımızın ən gözəl adər-ənənələrindəndir. Bu adət-ənənəni bir daha şeirə gətirən, poetikləşdirən S.Vurğun onu qoruyub saxlamağı hamının borcu hesab edirdi. Vətəndaşlıq pafosunu, onun insanlara aşıladığı mərdlik xüsusiyyətlərini şair Azərbaycan şifahi xalq yaradıcılığından əxz edib öyrənmişdir:

Yaxın gəlmə qarı düşmən!
Döyüşlərdə boy atdım mən,
Ayaq basma torpağıma
Od parıldar nəfəsimdən.

Belə odlu, cəsarətli misralar adamlarda qələbəyə inam hissini gücləndirir, vətəndaşlıq qeyrətini alovlandırırdı. Poeziyanın əsgərlərin həyatında mühüm rol oynadığını dərk edən S.Vurğun müharibə dövrü məqalələrinin birində yazırdı: "Qəhrəmanlıq və poeziya əkizdirlər. Həqiqi qəhrəmanlıq, eyni zamanda həqiqi poeziyadır... Bədii söz həmişə xalq bahadır-

larının, qəhrəmanların, sərkərdələrin və bütün əsgərlərin əlində qüdrətli silah olmuşdur. Yaşasın qəhrəmanlıq və poeziya!”.

S.Vurğun yaxşı bilirdi ki, əsgərlər şeirə, sənətə məhəbbətlə yanaşır, onu özlərinin ikinci silahı kimi qəbul edir, sevə-sevə oxuyurlar. Təsadüfi deyil ki, akademik M.Arif o zaman məqalələrinin birində yazırdı: “Müharibə oxucuların ürəyini kövrəltmişdir. Onlar daha həssas olub, lirik şeirdən ehtirasla yapışırdılar”.

S.Vurğunun müharibə dövrü poeziyasında diqqəti cəlb edən cəhətlərdən biri də xalqlar dostluğu, beynəlmiləlçilikdir. Şairin bu mövzuda yazılmış əsərləri sırasında “Ukrayna partizanları” öz xəlqiliyi və yüksək şeiriyyəti ilə diqqəti cəlb edir. Şeir S.Vurğun yaradıcılığında qələbəyə inam hissi aşılayan, qüvvətli vətəndaşlıq duyğuları ilə səciyyələnən ən yaxşı əsər kimi bu gün də öz aktuallığını saxlayır. Heç təsadüfi deyil ki, 1979-cu ildə Azərbaycanda Ukrayna ədəbiyyatı ongünlüyündə H.Ə.Əliyev yoldaş S.Vurğunun “Ukrayna partizanları” şeirinin bu gün də müasir səsləndiyini, əhəmiyyətinin azalmadığını qeyd etmişdir: “S.Vurğun öz şeirində Ukrayna xalqının əzəmətini, cəsurluq və mətinliyini, azadlıqsevərliyini obrazlı şəkildə vəsf etmiş, faşizmlə ölüm-dirim mübarizəsində Sovet İttifaqı xalqlarının, o cümlədən Ukrayna xalqının davam gətirib qələbə çalacağına öz inamını bildirmişdir”.

Müharibə illərində S.Vurğun dəfələrlə müxtəlif cəbhələrdə olmuş, əsərləri ilə döyüşçüləri qələbəyə ruhlandırmışdır. Döyüşçülər S.Vurğunun hər bir əsərini maraqla qarşılamış, ən çətin anlarda belə onun şeiri ilə qəlblərini isindirmişlər. Şairin “Azərbaycan” şeirini döyüşçülər əzbərdən bilir, onu nəğmə kimi oxuyurdular. Bu, S.Vurğuna elə təsir etmişdi ki, o bu mövzuda bir şeir yazmışdı. 1944-cü ildə yazılmış “Mənə belə söylədilər” şeirini şair hərbi xəstəxanada ölüm zamanı “Azərbaycan” şeirindən bir bəndi əzbər deməklə ömrünü başa vuran Vətən övladlarından birinin xatirəsinə həsr etmişdir. Vətənin azadlığı uğrunda canlarını qurban verən igid döyüşçülərin

qəlblərdə daim yaşayacağını şairin son misraları bir daha sübut edir:

Sən öldün ömrünün gənclik yaşında,
Adın səadətlə yazıldı, sirdaş.
İndi heykəlinin mərmər daşında
Sənin son sözlərin yazılmış, qardaş:
"El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən.
Anam doğma vətənimsən,
Ayrılarmı, könül candan?
Azərbaycan! Azərbaycan!"

S.Vurğunun müharibə dövrü poeziyası qəhrəmanlıq ənənələri ilə zəngindir. Həm də bu ənənələr xalq ədəbiyyatından gəldiyi üçün daha qiymətlidir. Folklordan təsirlənmə S.Vurğunun müharibə dövrü poeziyasında təbii kimi özünü göstərir, xalq ruhu bu şeirlərin mayasını təşkil edir. S.Vurğun istər kiçik, istərsə də iri həcmli əsərlərində xalqın bədii təfəkkürünü, düşüncə tərzini, döyüşkənliyini, vətənpərvərliyini saxlamağa müvəffəq olan qüdrətli sənətkarlardandır.

***Paşa Əfəndiyev***
***filologiya elmləri doktoru, professor***
***Lətif Süleymanov***
***V.İ.Lenin adına APİ-nin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dissertantı***

***"Azərbaycan müəllimi" qəzeti, 17.VI.1986***

## AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN REKTORU, PROFESSOR CƏFƏR CƏFƏROV CƏNABLARINA[17]

*Dədə Qorqud elmi tədqiqat laboratoriyasının aparıcı elmi işçisi, filologiya üzrə elmlər doktoru, professor, əməkdar elm xadimi Əfəndiyev Paşa Şərif oğlundan*

ƏRİZƏ

Çox hörmətli və əzizim Cəfər müəllim! Düz 71 ildir ki, rəhbəri olduğunuz böyük, şöhrətli pedaqoji məbədin divarları arasındayam. Burada tələbə, aspirant, dosent, professor, olmuşam, indi də əməkdar elm xadimiyəm. 67 ildir xalqımızın milyon illər yaradıb hafizəsində gətirdiyi mənəvi sərvətlərin sirlərini dogma balalarımıza öyrədirəm. Bununla mən fəxr edir, qürur hissi duyuram. Respublikamızın elminə, mədəniyyətinə, təhsilinə layiqli töhfələr vermişəm. Filologiya fakültəsi mənim həyatım, ürəyim, vicdanım və şərəfimdir. Mən onun qucağında boya-başa çatmışam. Həm əyani, həm də qiyabi şöbələrində dekan olmuşam. Abdulla Şaiq, Əli Nazim, B.Çobanzadə, M.Rəfili, F.Qasımzadə yadigarı olan Azərbaycan ədəbiyyatı tarixi kafedrasına 16 il rəhbərlik etmişəm. Dünya şöhrətli "Koroğlu" dastanından bütün türk dünyasında ilk dissertasiyanı da mən yazıb müdafiə etmişəm (1953). Respublikamızın tarixində ali məktəb tələbələri üçün folklordan ilk dərsliyi də mən yazmışam. Ali məktəblərimizin tarixində folklordan ilk tədris kursunu və proqramını mən hazırlamışam. 30-dan çox kitab, 200-ə qədər elmi-metodiki məqalə yazmışam. Ülvi, böyük pedaqoji məbədin tarixində filologiya fakültəsinə həsr edilən ilk kitab da mənim adımla bağlıdır. Bu isə qucağında

[17] Bu ərizəmə aylarla cavab gözlədim, lakin heç bir cavab ala bilmədim. Əksinə, rəyim nəzərə alınmadan işdən çıxarıldım.

boy atdığım fakültəyə ən qiymətli hədiyyəmdir. Mən qürur hissi ilə bəyan edirəm ki, filologiya fakültəsinin böyük və dahi simaları Ə.Dəmirçizadə, M.Rəfili, C.X.Hacıyev, Əli Sultanlı, İ.Şıxlının böyük məbədimizdə yeganə yadiyarı mənəm, onların ənənələrinin ləyaqətli davamçısıyam. Mən ömrümü xalqımın elminə, mədəniyyətinə, ədəbiyyatına, təhsilinə, folkloruna fəda etmiş övladam. Müstəqil respublikamız üçün 14 folklorşünas alim yetişdirmişəm. Müstəqil respublikamızda ən böyük folklorşünasam. Bütün Azərbaycan folklorşünaslarının müəllimi və ağsaqqalıyam. Xalqımın yanında üzüm ağ, alnım da açıqdır.

Əziz Cəfər müəllim, Sizinlə birlikdə mən bu böyük məbəddə 15 rektorla işləmişəm. Ulu Tanrıya and olsun hamısının da rəğbətini qazanmışam.

1. Seyidov Əhməd, 2. Hacıyev Cəfər Xəndan, 3. Mehdizadə Mehdi, 4. Qədirov Həmid, 5. Ələsgərov Cəbrayıl, 6. Vəkilov Mehdixan, 7. Əliyev Mehdi, 8. Ağayev Şövqü, 9. Ağayev Haşım, 10. Qurbanov Afat, 11. Aslanov Sərvər, 12. Xudiyev Nizami, 13. Ağayev Bəhlul, 14. Məmmədov Yusif, 15. Cəfərov Cəfər.

Vaxtilə universitetimizdə mənim təşəbbüsümlə folklorşünaslıq laboratoriyası açılmışdır. Mən bir neçə il bu laboratoriyanın müdiri vəzifəsində işləmişəm. Hazırda Dədə Qorqud elmi tədqiqat laboratoriyasının aparıcı elmi işçisiyəm. Laboratoriyada gənc elmi kadrların yetişdirilməsində bütün qüvvəmi sərf eləmişəm. Müntəzəm olaraq elmi tədqiqat işlərimi yerinə yetirirəm, elmi işlərim laboratoriyanın əsərlərində çap olunur.

İndi yaşlanmışam, hər şey mənim üçün çətindir. Ömür yoldaşım da müəllimdir. 45 il böyük rus xalqının dilini Azərbaycan balalarına öyrətmişdir, yaşlı, zərif qadındır. Yıxılıb ayağını 3 yerdən sındırıb, aylarla yataqdadır. Psixikası pozulub, əsəbləri xəstələnib, gözləri görmür. Evdə faciəli bir ömür yaşayırıq. Həkim və dərman üçün vəsait çatışmır.

Əzizimiz Cəfər müəllim! Böyük, şöhrətli 90 yaşlı pedaqoji məbədimizin memarlarından biri kimi Sizə cansağlığı, daha böyük uğurlar və yeni-yeni zirvələr diləyirəm.

Ulu Tanrı Sizə yar olsun. Əziz Cəfər müəllim, mən Sizdən artıq dərəcədə xahiş edirəm ki, 2016-2017-ci tədris ilində Dədə Qorqud elmi-tədqiqat laboratoriyasında aparıcı elmi işçi kimi fəaliyyətimi davam etdirməyə icazə verəsiniz.

**Paşa ƏFƏNDİYEV**
***Dədə Qorqud elmi-tədqiqat laboratoriyasının aparıcı elmi işçisi, filologiya üzrə elmlər doktoru, professor, əməkdar elm xadimi***

***Respublikamızın birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, elimizin mehriban qızı Mehriban xanım Əliyevaya***

***filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi Paşa Şərif oğlu Əfəndiyevdən***

**Ə R İ Z Ə**

Çox hörmətli Mehriban xanım!

Mən 1928-ci ildə Qax rayonunun İlisu kəndində xalq müəllimi ailəsində dünyaya göz açmışam. Atam Əfəndiyev Şərif Müslüm oğlu 45 ilin maarif xadimi olub, Əməkdar müəllim idi. Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni və başqa medallarla təltif olunub. Mən indi mərhum atamın arzularını, əməllərini davam etdirmişəm ki, onun ruhu şad

olsun. Mən 1946-cı ildə orta məktəbi medalla bitirmişəm. Elə o ili medalı bağrıma basaraq pedaqoji instituta gəlib 1950-ci ildə dil və ədəbiyyat fakültəsini qırmızı diplomla qurtarmışam. Elə o ili professor Mikayıl Rəfili məni özünə aspirant götürmüşdür. Düz 72 ildir ki, mən pedaqoji məbədin divarları arasındayam. İndi 89 yaşım var. Mən institutda tələbə, aspirant, dosent, professor olmuşam. Hazırda əməkdar elm xadimiyəm. 30-dan artıq kitabın, 200-dən artıq elmi-metodiki əsərin müəllifiyəm. Elimizə 14 folklorşünas yetirmişəm. Pedaqoji məbəddə illərlə dekan, kafedra müdiri, müdafiə şurasının katibi, sədr müavini vəzifələrini daşımışam. 14 rektorla işləmişəm.

Mən 1950-ci ildən Azərbaycan ədəbiyyatı tarixi kafedrasının üzvü, 16 il də kafedranın müdiri olmuşam. 66 ildir ki, xalqımızın balalarına mənəvi sərvətimizin sirlərini öyrədirəm. Birdən ədalətsizcəsinə kafedranı mənim əlimdən aldılar, kafedra çox ağır vəziyyətlərə düşdü və hələ də özünə gələ bilməyib. Hazırda mənim kafedramı keçmiş tələbəm idarə edir. Bir gün o, mənə zəng çaldı ki, sizi yarım ştata keçiririk. Əks halda tamamilə dərs yükünüz olmayacaq. İndi şəhərin poliklinkalarından xəstəlik kağızı toplayıb gətirin. Məni dəhşət bürüdü. Nəhayət rektor ona icazə verməyib. Yenə başqa bir gün Himalay Qasımov mənə zəng çaldı ki, sizə dərs çatışmır. Təsəvvür edin kafedrada 8 elmlər doktoru var. Başda müdir Himalay Qasımov olmaqla hamısı mənim tələbəm olub, həmin dərsləri əvvəlcə onlara mən demişəm, onları mən yetirmişəm, indi onlara dərs çatır, mənə yox. Nəhayət, kafedra müdiri, dekan Buludxan Xəlilov birləşib məni əvvəlcə auditoriyadan, sonra da kafedradan çıxardılar, yerimə də bir qadını götürdülər. Məni də laboratoriyaya göndərdilər. Bir il orada işlədim.

İnstitutumuza yeni rektor göndərdilər. Bu institutda mənimlə işləyən 15-ci rektor idi. Professor Cəfər Cəfərov. Mən ona bir məktub yazıb özümü ona təqdim elədim, səmimi təbriklərimi çatdırdım. Xahiş elədim ki, mən bir il də laboratoriyada işləyim, gələn ili çıxıb gedəcəyəm. Aylarla cavab ala bilmə-

dim, telefon danışığını da mənə rəva görmədi. Bir neçə ay əmək haqqı da vermədilər. Bir gün xəbər gəldi ki, əmək müqaviləsinə qol çəkmədiyim üçün səni universitetdən xaric eləmişik. Halbuki, müqavilə haqda mənə heç xəbər verməmişdilər. 72 il ömür qoyduğum, ürəyimi, vicdanımı fəda elədiyim böyük pedaqoji məbəddən məni ədalətsizcəsinə, göz görə-görə qovdular (mən başqa ifadə işlədə bilmirəm).

Çox hörmətli əzizimiz və mehrubanımız Mehriban xanım, mənim ömür yoldaşımın 82 yaşı var. Düz 58 ildir ki, bir yerdəyik. 45 ilin müəllimidir. 12 il Nərgiz xanım Paşayevanın kafedrasında onunla bir yerdə işləyib, indi evdədir, yıxılıb ayağı sınıb yatağa düşüb, əsəbidir, psixikası pozulub. Biz indi köhnə, təmirsiz bir evdə faciəli bir ömür yaşayırıq. Hər yerdən əlimiz üzülüb. Sizdən acizanə surətdə kömək diləyirik. Sizə böyük ümidlər bəsləyirik. İndi mən respublikamızın və hər bir azərbaycanlının prezidenti olan İlham Əliyevdən, şəxsən Sizdən xahiş edirəm ki, dünya şöhrətli dahi Heydər Əliyevin adına olan təqaüdə layiq biləsiniz. Ömrümüzün sonunda bundan başqa təmənnamız yoxdur.

***Paşa Əfəndiyev***
*filologiya elmləri doktoru, professor,*
*əməkdar elm xadimi*
*Bakı şəhəri, Nizami küçəsi 98, mənzil 43*

# 70 İL İNSTİTUT DİVARLARI ARASINDA[18]

Əzizim Teymur müəllim. Dostluğumuzun, işgüzar münasibətlərimizin 60 illik tarixi var. Siz görkəmli ədəbiyyatşünas, böyük jurnalistsiniz. Mən 70 ildən artıqdır ki, böyük fəxrimiz olan pedaqoji məbədin divarları arasındayam. Həmin fəaliyyət illərində ibrətamiz məqamlar, anlar yaşamışam. Bunlar mənim taleyimdir. İndi 88 yaşa çatmışam, ağır xəstəyəm, gözlərim görməyir. Həmin ibrətamiz anları o biri dünyaya apara bilmərəm. Teymur, əzizim, bu yazımı "Respublika" qəzetində çap edib oxuculara çatdırmanızı xahiş edirəm. Çünki bu yazımı bu dünya üçün yadigar qoyuram.

***Hörmətlə, Paşa Əfəndiyev***
***professor, əməkdar elm xadimi***

Mən 1928-ci ildə Qax rayonunun İlisu kəndində xalq müəllimi ailəsində dünyaya göz açmışam. Kəndimiz Azərbaycanımıza təxminən 250 ziyalı bəxş eləmişdir. Bu ziyalıların təhsilində, tərbiyəsində mərhum atam Əfəndiyev Şərif Müslüm oğlunun titanik əməyi olub. 1930-1940-cı illərdə İlisunun uşaqlarını Şərif müəllim öz balaları kimi sevib tərbiyə eləmişdir. Şərif müəllim 45 ilin maarif xadimi idi. 45 il Azərbaycan balalarına böyük rus xalqının dilini öyrətmişdir. Şərif müəllim əməkdar müəllim idi. Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordenləri və medallarla təltif edilmişdi. Mən 9-cu sinfi İlisu kəndində 1946-cı ildə qurtarmışam. 10-cu sinfi oxumaq üçün isə Qaxın mərkəzinə, nümunəvi orta məktəbə gəlmişəm. Mən yaxşı oxuduğum üçün qızıl medala namizəd idim. Elə bu vaxt bir hadisə oldu. Moskvadan nümayəndələr gəlmişdi. Moskva-

[18] Bu məqalə «Respublika" qəzetinin baş redaktoru T.Əhmədovun xahişi ilə yazılmışdı və həmin qəzetdə çap olunmalıydı. Lakin hansı səbəbdənsə məqalə çap olunmamışdır.

nın ali məktəblərinə layiqli abituriyent toplayırdılar. Medala namizəd olduğum üçün mənimlə söhbət apardılar. Ulu Tanrı şahiddir ki, mən onların xoşuna gəlmişdim. Ancaq ortada çoxlu problemlər var idi. Mən müharibənin ağır illərindən çətinliklə çıxmış, arıq, sısqa, sarıyanız, əməlli-başlı üstü-başı olmayan bir kənd-ev uşağı. Gözümün qabağında çoxlu çətinliklər canlandı. Axı rus dilini də bilmirdim. Moskva ali məktəblərində necə tələbə ola bilərdim. Çox, lap çox fikirləşdim, ağır ruhi hallar keçirdim. Elimizin dili ilə desək, gözüm almadı. Moskvalılar deyirdilər ki, medal alsanız, sizi başdan ayağa qədər geyindirib istədiyiniz Moskva ali məktəblərinə qəbul edəcək, yataqxana və təqaüd də verəcəyik. Mən çox qoy-götür elədim, dərin mənəvi sarsıntılar keçirdim, nəhayət imtina elədim. Sonralar illərlə təəssüflər keçirdim. İki onuncu var idi, yalnız mən medal ala bildim. Qaxda ilk medal mənə qismət oldu. O medalı da bağrıma basıb Bakıya gəldim. Tale məni xalqımızın ziya, işıq mənbəyi olan Ali Pedaqoji İnsituta gətirdi. Məbədin dil və ədəbiyyat fakültəsini 1950-ci ildə fərqlənmə diplomu ilə başa vurdum. Doğma elimizin Ulu Tanrıdan vergi almış üç şəxsiyyəti, alim-pedaqoqu-rektor professor Cəfər Xəndan Hacıyev, Azərbaycan dilçiliyi kafedrasının müdiri, fakültə dekanı, türkoloq-alim Əbdüləzəl Dəmirçizadə və Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri, böyük alim və insan professor Mikayıl Rəfili məni aspiranturada saxladılar. Oldum professor M.Rəfilinin aspirantı. Bundan da xoşbəxt anlar keçirmək olardımı? Beləliklə, mən sözün həqiqi mənasında folklorşünas alim-pedaqoq kimi yüksəldim. Əvvəllər təəssüf edirdim ki, nə üçün Moskvaya getmədim, mən vətənim üçün bəlkə daha çox işlər görə bilərdim. Ancaq indi qəti və qəti şəkildə təəssüf eləmirəm. Mən vətənimdə, doğma torpağımızda varlığım qədər sevdiyim xalqım üçün daha çox və xeyirli işlər görmüşəm, layiqli mənəvi töhfələr vermişəm. Mən mədəniyyət, ədəbiyyat, folklor fədaisiyəm. Doğma xalqım üçün gördüyüm işlərdən bəzilərini yada salmaq istəyirəm.

Bizim dünya şöhrətli "Koroğlu" dastanımız var. Mənə qədər bu dastan elmi-tədqiqat mövzusu olmayıb. Professor Mikayıl Rəfili onu mənə namizədlik dissertasiyası kimi təsdiq elədi. Mən dastanı hərtərəfli öyrəndim. "Koroğlu" Azərbaycan xalqının dimağından süzülmüş əvəzsiz bir bədii abidədir. "Koroğlu"nun digər türkdilli xalqlarda variantları var. Diqqətli tədqiqat göstərdi ki, "Koroğlu" Azərbaycan torpağından pardaxlanmışdır. Mən dissertasiyada göstərmişəm ki, digər türkdilli xalqlardakı variantlar Azərbaycan dastanından qopmuş çarpanalardır. Başqa xalqlar "Koroğlu"nun obraz, hissə, əhvalat, variantlarından istifadə edərək öz dastanlarını yaratmışdır. Mənə qədər böyük, dünya şöhrətli bəstəkarımız Üzeyir Hacıbəyov "Koroğlu" operasını yazmışdır.

Mən təsdiq elədim ki, "Koroğlu" operası və "Koroğlu" haqqında dissertasiya ilə biz böyük dastanı bütün tellər, qaynaqlar, bədii, etnoqrafik materiallarla doğma Azərbaycan mədəniyyətinə böyük bağlarla bağlamışıq. Dissertasiyanı mən tələb olunan vaxtdan 3 ay əvvəl hazırlayıb professor M.Rəfiliyə təhvil vermişdim. Elə ilk oxunuşda professor dissertasiyanı qəbul eləmişdi. Ancaq çox çətinliklərlə qarşılaşdım. Məni o ki var incitdilər, əsəbiləşdirdilər, elə bil dissertasiyanı əlimdən alacaqlar. Nəhayət, çox çətinliklə 1953-cü ildə tamamladığım və böyük Rəfilinin çox böyük qiymət verdiyi dissertasiyanı 1955-ci ilin may ayında müdafiə eləyə bildim. Təvazökarlıqdan kənar olmasın, mən respublikada Koroğluşünaslıq elminin əsasını qoydum. Bır sıra subyektiv və obyektiv səbəblər ucundan dissertasiyanı çap eləyə bilmədim. Ancaq vaxt-vaxt məqalələr şəklində çap eləyib folklorşünaslıq elminə əlavələr eləmişəm.

Bu, mənim elmdə ilk uğurum, ilk qələbəm idi. Həm də gələcək qələbələrimdən xəbər verirdi. 1970-ci ildə Moskvada ədəbiyyat məsələlərinə həsr edilmiş Ümumittifaq simpoziumu keçirilirdi. Mən də iştirakçı idim. Təsadüfən türkmən alimi akademik Baymuxammed Qarrıyevlə tanış oldum. O, məni

tanıyıb sevindi, əlavə elədi ki, Paşa müəllim, mən sizin Koroğlu haqqında dissertasiyanızın sorağını eşidib Bakıya gəldim. Pedaqoji İnstitutda oxu zalında oturub 3-4 gün dissertasiyanızı oxumuşam, mənə çox köməyi olub. Məlum olsun ki, Qarrıyevin "Koroğlu" haqqında kitabı 1968-ci ildə işıq üzü görüb. Halbuki gənc Azərbaycan alimi Paşa Əfəndiyev "Koroğlu" haqqında məşhur dissertasiyasını 1953-cü ildə tamamlamışdır.

Kafedranın iclasında böyük müdirimiz professor Mikayıl Rəfili elan elədi ki, Paşa müəllim çox uğurla "Koroğlu" haqqında dissertasiyanı müdafiə elədi. Mən təklif edirəm ki, fakültədə şifahi xalq ədəbiyyatı kursunu biz Paşa müəllimə tapşıra bilərik. Beləliklə, bütün üzvlərin razılığı ilə şifahi xalq ədəbiyyatı kursu mənə həvalə olundu. Fakültədə birinci kursda 2 birləşmə var idi. Hər birində də 75 nəfər tələbə oxuyurdu. Şifahi xalq ədəbiyyatı kursu 42 saat mühazirədən ibarət idi. İlahi! İndi mən böyük, məsul və şərəfli bir problemlə qarşılaşmışdım. Axı mənə qədər pedaqoji məbədimizdə Azərbaycan şifahi xalq ədəbiyyatı kursunu oxuyan ixtisas sahibi müəllim olmamışdır. Mən çox fikirləşdim, götür-qoy elədim. Əvvəlcə 42 saat üçün təqvim planları tərtib elədim. Sağına, soluna baxdım. Son illər Azərbaycan folkloru demək olar ki, çap olunmurdu. Heç bir dərslik, dərs vəsaiti, hətta sanballı bır məqalə də yazılmamışdı. Mən nə etməli idim. M.F.Axundov adına Mərkəzi kitabxana indiki Milli Elmlər Akademiyasının prezidiumunun binasında yerləşirdi. Mən hər gün gedib orada işləyir, mühazirələri hazırlayırdım. Hər həftənin başında bir mühazirə hazır olurdu. Mən mühazirələrimi səliqə ilə tələbələrimə yazdırırdım. Beləliklə, ilin axırında Azərbaycan şifahi xalq ədəbiyyatı haqqında mükəmməl mühazirələrim hazır olurdu. Mən onları hər il təzələyir və təkmilləşdirirdim. Bu mühazirələr doğma respublikamızda Azərbaycan şifahi xalq ədəbiyyatından ilk dərsliyin əsası oldu. Mən respublikamızda ilk dəfə ali məktəblər üçün Azərbaycan folklorundan mühazirə kursları

yaratmışam. Bu kursların da ilk dəfə respublikamızda tədris proqramını hazırlayıb bir neçə dəfə çap eləmişəm. Bu da mənim elmi, ədəbi, mədəni, pedaqoji fəaliyyətimin ikinci böyük qələbəsi idi. İndi qalırdı folklordan ali məktəblər üçün ilk dərsliyin hazırlanıb tələbələrin ixtiyarına verilməsi. Buna da bir neçə il sərf elədim. Nəhayət, 1970-ci ildə respublikamızın tarixində ali məktəblər üçün "Azərbaycan şifahi xalq ədəbiyyatı" adlı dərsliyin ilk nəşrini həyata keçirdim. Bu, böyük bir hadisə idi. Bununla mən respublikada folklorun tədrisini təşkil elədim və necə deyərlər, üçüncü qələbəni qazandım. Bununla mən indi də fəxr edirəm, qürur hissi keçirirəm.

"Azərbaycan şifahi xalq ədəbiyyatı" dərsliyi tezliklə respublikada böyük əks-səda yaratdı. Tələbələr, aspirantlar, magistrlər, ümumtəhsil məktəb müəllimləri dərslikdən uğurla istifadə eləməyə başladılar. Mən dərsliyimi hər dəfə yenidən işləmək, təkmilləşdirməklə bir neçə il çap eləyib xalqımızın balalarına çatdırırdım (1981, 1992, 2006, 2010 və s.). Hazırda dərsliyin sorağı Urmiyadan, Türkiyədən, Kiprdən gəlir. Yenə də dərsliyi çap eləyib tələbələrə çatdırmaq lazımdır. Ancaq mənim həm səhhətim, həm də maddi vəziyyətim ona yol vermir.

Ali məktəb müəllimi həm alimdir, həm də pedaqoq. Müəllim əgər sözün həqiqi mənasında alim olmasa, onun uğur qazanması qeyri-mümkündür. Hətta müəllimliyi də bir müddətdən sonra sönüb gedəcək. O, bir müəllim kimi tələbələrin gözündən də düşəcək.

Təbii vaxt gəlmişdi. Mən doktorluq dissertasiyası haqqında düşünməli idim. Onsuz da kitablarım, məqalələrim müntəzəm olaraq çap olunurdu.

Mən həm müəllim, həm də aliməm. Mən dəniz, okean kimi təlatümə gətirilən milli folklorumuzun xəzinəsinə daxil olmuşam. Hələ ilk aspirantlıq dövründə kitabxanada işləyərkən ürək yanğısı ilə folklorumuza biganə münasibət gördüm. "Azərbaycan şifahi xalq ədəbiyyatının nəşri haqqında" adlı

böyük bir məqalə yazdım. Milli folklorumuzun ağır vəziyyəti haqqında həyəcan təbili çaldım. "Ədəbiyyat qəzeti" məqalənin əsas hissəsini çap eləyib elmi ictimaiyyətimizə çatdırdı. Mən sonralar hiss elədim ki, bu məqalə folklor elmimizin ümumi vəziyyəti haqqında gələcəkdə yazacağım böyük və monumental bir işin başlanğıcı idi. Beləliklə, folklor elmimizin tarixi məni özümə cəlb eləməyə başladı. Bu isə çox böyük əmək, məsuliyyət tələb edirdi. Bizim folklor tariximizdə bu işin öhdəsindən yalnız Hənəfi Zeynallı gələ bilərdi. Ancaq o, 1930-cu illərdə repressiyaya uğramışdı. Qoy oxucular məni qeyri-təvazökarlıqda qınamasınlar, indiki dövrdə yalnız mən bu problemi araya-ərsəyə gətirə bilərdim. Əvvəlcə düşündüm ki, yalnız sovet dövrünü tədqiq eləyim, düşündüm, mənbələrə baxdım, müqayisələr apardım, gördüm ki, folklor elmimizi kökdən ayırmaq olmaz. Folklor milyon illərin məhsuludur. Onun toplanması, nəşri, öyrənilməsi son dövr əsrlərin məhsuludur. Azərbaycan folklor elmi çox qədim, zəngin, ağır bir yol keçir. Burada qədim əlyazmaları, cünglər, mətbuat (üç əlifbada - ərəb, latın, rus), saysız-hesabsız qaynaqlar mövcuddur. Bu elmi iki əsr müddətində yüzlərlə həvəskarlar, tarixçilər, xanəndələr, şairlər yazıb yaratmış, zənginləşdirmişdi. Bunların hamısını toplamaq, təhlildən keçirmək, ümumi folklor elmini formalaşdırmaq lazımdır. Mənə qədər folklor haqqında elmimizə heç kəs əl vurmayıb. Bir də ona görə ki, bu böyük, ağır, həm də şərəfli işin öhdəsindən gələ bilmək məsuliyyətini götürmək üçün istedad, professionallıq, əmək, səbr sahibi lazımdır. Mən şəxsən ömrümün 20 ilini bu böyük, şərəfli vəzifənin öhdəsindən gəlməyə sərf elədim. İlahi, bəzən çox gərgin, çətin, məsul problemlərlə qarşılaşır, yorulur və öz-özümə deyirdim ki, bu işlərin öhdəsindən gəlmək yalnız mənəmi nəsib olub. İstədiyin qədər mövzular var, birini seç işlə. Yenə özümə təsəlli verir, Ulu Tanrıdan güc, qüvvət diləyərək, doğma folklorşünaslığımızı işləyirdim. Ondan üzülmək istəmirdim. Ömrümün 20 ilini sərf eləyərək böyük, fundamental doktorluq disserta-

siyasını başa çatdırdım. İki əsrlik tarixi olan Azərbaycan folklorşünaslığında indiyədək belə böyük əsər yazılmamışdı. Dissertasiyanı əvvəlcə məşhur, görkəmli Azərbaycan alimləri qarşısında uğurla müdafiə elədim. Müdafiə zamanı məşhur alimimiz professor Abbas Zamanovun aşağıdakı sözlərini heç vaxt unuda bilmirəm. "Paşa Əfəndiyev ədəbiyyat tariximizin indiyə qədər əkilməmiş, becərilməmiş xam torpağının bir hissəsini əkmiş və becərmişdir. ...əməksevərliyin sayəsində belə dəyərli əsər yaranıb. Əgər oturmağı bacarırsansa, alim olacaqsan."

Paşa Əfəndiyevin dissertasiyasının sorağı gedib Moskvada Ali Attestasiya Komissiyasına çıxdı. Əlbəttə əsərin sahibi mən idim. Hələ alnımdakı tər qurumamışdı. Hər kəsə hər yerdə cavab verməyə hazır idim. 368 səhifəlik doktorluq dissertasiyasının hər bir səhifəsindən azərbaycanlı balası boylanırdı. Moskvada öz tələbkarlığı ilə seçilən ekspert soveti dissertasiyamı müzakirə elədi. Müdafiə Şurasının sədri, dünya şöhrətli alim, Lenin mükafatı laureatı F.P.Filin prezidiumdan düşüb əlini çiynimə qoydu və razılığını bildirdi. Oxucum məni bağışlasın, xoş tariflər eşitdim. Müdafiə Şurasının ünvanına Moskva Dövlət Universitetinin professoru, dünya şöhrətli türkoloq alim Xalıq Hüseyn oğlu Koroğlu göndərdiyi rəydə yazırdı: "P.Ş.Əfəndiyefin əsəri, şübhəsiz, folklor haqqında Azərbaycan elminə yeni bir hədiyyədir. Əsərdə ilk dəfə olaraq Azərbaycan folklorşünaslığına aid bir çox ayrı-ayrı və pərakəndə materiallar tənqidi süzgəcdən keçirilir. Müəllifin nəzəri müddəaları əsaslandırıcıdır və elmə gətirilən zəngin materiallar ilk dəfə təhlildən keçirilir.

Monoqrafiya Azərbaycan folklorşünaslığının gələcək inkişafı üçün təcrübi əhəmiyyət kəsb edir. Bu nəticələr müəllifə filologiya elmləri doktoru elmi dərəcəsini almaq üçün əsas verir."

"Azərbaycan folklorşünaslığının tarixi" əsərimi ayrıca çap eləmişəm (2006). Mənə belə gəlir ki, türk dünyasında folk-

lor elmi haqqında belə bir monumental əsər yazılmamışdır. Bu kitab Almaniyanın Halle şəhərinin universitetinin kitabxanasında saxlanılır. Mənim fəxr elədiyim, qürur hissi keçirdiyim kitablarımdan biridir.

Folklor və yazılı ədəbiyyat dünya folklorşünaslığında ən böyük problemlərdən biridir. Bu problem mənim yaradıcılığımda da xüsusi yer tutur. Nizami, Füzuli, M.P.Vaqif, M.F. Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Şaiq kimi məşhur sənətkarlarımızın xalq yaradıcılığı ilə əlaqəsinə xüsusi məqalələr həsr eləmişəm. Sovetlər məkanında fəaliyyət göstərən Mehdi Hüseyn, Mikayıl Müşviq, Məmməd Rahim, Bəxtiyar Vahabzadə, Hüseyn Arif sənəti və folklor mövzusunda da tədqiqat aparmışam. İki böyük, dahi sənətkarlarımız C.Cabbarlı və Səməd Vurğun yaradıcılığının xalq sənəti ilə bağlılığına monoqrafiyalar həsr eləmişəm ("C.Cabbarlı və xalq yaradıcılığı". Bakı, Yazıçı, 1985; "S.Vurğun və xalq yaradıcılığı". Bakı, Yazıçı, 1992).

Ulu Tanrı mənə yazmaq, axtarmaq, tədqiq eləmək, elmi nəticələrə gəlmək kimi mahir bir istedad bəxş eləyib. Mən ömrü boyu çap elədiyim kitabların siyahısını tutdum. Hər bir kitabın nəşri məni o dünyaya aparıb gətirmişdir. Tənhalıq, kimsəsizlik, maddi ehtiyac, pul kasadlığı məni çox çətinliklərə salıb, əziyyətlər vermişdir. Bütün bunlara baxmayaraq mənim kitablarımın sayı 30-u keçmişdir. Fəxr elədiyim kitablardan biri də dərsliyimdir. Azərbaycan folklorşünaslığı tarixində belə kitab yazılmayıb. İlk böyük, fundamental dərslikdir. Mən isə yaşlanmışam, xəstəyəm, gözlərim də görmür, maddi imkanım da yoxdur ki, bu nadir dərsliyi təzədən çap eləyəm. 200 elmi-metodik məqalə çap eləmişəm. 11 elmlər namizədi, 4 elmlər doktoru, professor hazırlamışam. Bağrından qopduğum, qucağında boya-başa çatdığım filologiya fakültəsinin həm qiyabi, həm də əyani şöbələrində illərlə dekan işləmişəm. Filologiya fakültəsi mənim həyatım, mənim taleyimdir. Fakültənin adı çəkiləndə gözümün qabağına Səməd Vurğun, Mikayıl Müşviq,

Osman Sarıvəlli, Mirvarid Dilbazi, Həmid Araslı, İsmayıl Əfəndiyev, Əzəl Dəmirçizadə, Süleyman Rəhimov və başqaları gəlir. Bu məbədin divarları arasında adi tələbəlikdən Əməkdar elm xadimi kimi şərəfli bir ada qədər yüksəlmişəm.

Afad Qurbanov rektor idi, bir gün məni çağırdı və dedi ki, Azərbaycan ədəbiyyatı tarixi kafedrasını sənə tapşıracağam. Beləliklə, 1983-cü ilin martında institutun böyük soveti məni kafedra müdiri seçdi. Müdirlik illərində çox gərgin işlədim, çoxlu problemlər həll etməli oldum. "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasının əsasını 1921-ci ildə böyük müəllim və böyük yazıçı Abdulla Şaiq qoymuşdur. Əli Nazim, Mikayıl Rəfili, Feyzulla Qasımzadə vaxt-vaxt bu kafedraya rəhbərlik etmişlər.

İnstitutun əsas kafedralarından birinin müdiri kimi fakültənin bütün elmi, pedaqoji, tərbiyəvi işlərində çox fəal iştirak etmişəm. 12 il fakültə sovetinin elmi katibi işləmişəm. İllərlə filologiya fakültəsinin tələbə elmi cəmiyyətinin sədri olmuşam. Hər il müntəzəm olaraq tələbə elmi cəmiyyətinin iclasını keçirmişəm. Tələbələr kafedra müəllimlərinin rəhbərliyi ilə elmi işlərini – məruzələrini hazırlayırdılar. Mən kafedra müdiri kimi bir neçə gün kafedrada tələbələrin məruzələrini dinləyir, müzakirə, təhlillər aparır, seçilən məruzələri xüsusilə qiymətləndirirdim.

Kafedrada bütün fənlərin proqramları təzələnmişdi, elmi-tədqiqat işlərinin səviyyəsi yüksəlmişdi. Gənc elmi kadrların hazırlanmasına xüsusi diqqət yetirilmişdir. Kafedrada 6 professor fəaliyyət göstərirdi, onların rəhbərliyi ilə namizədlik dissertasiyaları hazırlanmışdı. M.Allahmanlı, R.Qafarlı, Q.Umudov, Y.Babayev, T.Cavadov, E.Quliyev namizədlik dissertasiyaları müdafiə etmişlər. Səciyyəvidir ki, bu gənclər hazırda doktorluq dissertasiyası da müdafiə eləmişlər.

Afad Qurbanov rektor idi, mən də filologiya fakültəsinin əyani şöbəsinin dekanı idim. Özümüz də böyük, istəkli pedaqoji məbədimizin 60 illik yubileyinə hazırlaşırdıq. Çox

gərgin işləyirdik. Qoy başqa fakültələrin rəhbərləri məni bağışlasınlar, əsas yük, ağırlıq, hazırlaşma, qarşılanma rektorluğun, bir də filologiya fakültəsinin öhdəsinə düşmüşdü. H.Əliyev instituta gəldi, bayram əhval-ruhiyyəsi yaratdı, bizi təbrik elədi. Yubiley ərəfəsində rektorluq, fakültə bir sıra ümumrespublika əhəmiyyətli tədbirlər həyata keçirirdi. Hələ tələbəlik illərindən yadımızda qalıb ki, respublikanın ədəbiyyatşünas və dilşünas ailmlərinin əsərlərini oxuyuruq, özlərini isə görmürdük, tanımırdıq. Yubiley ərəfəsində mən görkəmli alimlərin tələbələrlə görüşlərini qərara aldım. Fikrimi rektor Afad Qurbanova açdım, o da bəyəndi və kömək gəstərəcəyinə söz verdi. Akademik Həmid Araslıdan başladıq. Onun həyat və yaradıcılığı haqqında məruzəni mən elədim. Tələbələr Həmid müəllimə çoxlu suallar verdilər. Həmid müəllim belə bir epizod söylədi. Onu Göyçay rayonunun kəndlərindən birinə müəllim göndərmişdilər. O, sinifdə şagirdlər arasında folkloru toplamaq üçün müsabiqə elan edir. Bir şagird xüsusilə seçilir. Həmid müəllim qolundan saatı çıxarıb o şagirdə bağışlayır. Mən bir dekan kimi fakültə tələbələri ilə akademiklərdən Məmmədcəfər Cəfərov, Məmmədağa Şirəliyev, Əziz Mirəhmədov, Kamal Talıbzadə, professorlardan Əzizə Cəfərzadə, Zərifə Budaqova, Yaşar Qarayev və başqaları ilə görüşlərini təşkil elədim. Tələbələr alimlərin söhbətlərinə qulaq asır, suallar verir və razılıqlarını bildirirdilər. Bir dekan kimi mən bu fəaliyyətimi fakültəyə hədiyyə hesab elədim.

Yubiley ərəfəsində rektorluq və dekanlıq bır sıra respublika əhəmiyyətli tədbirlər həyata keçirmişdir. Onlardan mən yalnız birini oxucularımıza çatdırmaq istəyirəm. Ən böyüyü və yadda qalanı “Azərbaycan ədəbiyyatı tarixi” fənninin ali məktəblərdə tədrisi və onu yaxşılaşdırmaq tədbirləri” haqqında respublika əhəmiyyətli elmi-praktik konfrans idi. Konfransda respublikanın bütün ali məktəblərinin alim və pedaqoqları iştirak edirdi. Gəncə, Naxçıvan, Sumqayıt, hələ Xankəndində də pedaqoji institut fəaliyyət göstərirdi. Dövlət Universitetinin,

Milli Elmlər Akademiyasının, Nizami adına Ədəbiyyat İnstitutunun elmi işçiləri də iştirak edirdi. Bəkir Nəbiyev, Paşa Əfəndiyev, Bağır Bağırov (Gəncə) plenar iclasda məruzə elədilər. Mənim mövzum belə idi: "Azərbaycan ədəbiyyatı tarixinin ali məktəblərdə tədrisi və onu yaxşılaşdırmaq tədbirləri haqqında". Bir neçə gün bir neçə şöbədə ən böyük və dəyərli məruzələr dinlənildi. Mən sonra bir sıra ən yaxşı məruzələr topladım, redaktə elədim və kitabça şəklində nəşr elədim. Kitabın adı belə idi: "Azərbaycan ədəbiyyatşünaslığının aktual problemləri" (1988). Kitabda A.Qurbanovun, B. Nəbiyevin, Ş.Mikayılovun, N.Xudiyevin, T.Xalisbəylinin, X. Məmmədovun, Ş.Cəmşidovun, B.Muradovun, P.Əfəndiyevin, Y.Axundovun, C.Əhmədovun, Ə.Səfərlinin məruzələri çap olunmuşdur.

Azərbaycan şifahi xalq ədəbiyyatının toplanması, nəşri, tədqiqatı və tədrisində mənim şəxsən ən böyük xidmətlərindən biri də respublika üzrə ilk dəfə geniş şəkildə pedaqoji institutlarda folklordan çöl praktikasının həyata keçirilməsindən ibarət olmuşdur. Folklorun məqsədyönlü toplanmasına, onun bir xalq sənəti kimi kəşf edilməsindən sonra başlanmışdır. Bu da dünya miqyasında XVIII əsrin sonları və XIX əsrin əvvəllərinə aiddir. Humanitar ali məktəblərin birinci kursun da folklor və onun nəzəri məsələləri tədris olunur. Sonra folklorun qaynaqlarda necə meydana gəlməsi, necə ifa edilməsi məsələləri məhz çöl praktikası zamanı həyata keçirilir. Keşmiş sovetlər məkanında çox əvvəllərdən universitetlərin tədris planlarında folklor praktikası olub. Ancaq 1978-ci ildən sonra bu praktika sovetlər məkanında pedaqoji institutların da tədris planına daxil edilmişdir. Praktika gəlib bizim instituta çıxdı. Dekan və kafedra müdirləri nə eləmək, necə eləmək haqqında çox fikirləşdilər. Nəhayət, praktika bir professional folklorşünas kimi mənə həvalə edildi. Əvvəlcə 15 makina yazısında bir vəsait hazırlayıb rəhbər müəllimlərə payladım. İlk dəfə Bakının kəndlərinə getdik. Mən folkloru necə toplamaq,

saxlamaq metodikasına aid iki kitab çap elədim (1981, 1991). Bunlardan respublikanın bütün institutlarında bəhrələndilər. Tələbələrimiz ikinci ildən başlayaraq Azərbaycanın, Gürcüstanın rayon və kəndlərinə praktikaya getməyə başladılar. Hətta bir ili bir qrupumuz Ermənistanın azərbaycanlılar yaşayan rayonlarına da praktikaya getmişdilər. Sonra nankor qonşularımız yolları bağladılar. Mən kafedra müdiri kimi hər il birinci kurs tələbələrini qruplara bölür, hər qrupa müəllim təyin edir və rektorun əmrini hazırlayırdım. Beləliklə, tələbələrimiz Quba-Xaçmaz zonasına, Dərbəndə, Şəkiyə, Şamaxıya praktikaya getmişlər. Kafedranın müəllimləri T.Xalisbəyli, M.Həkimov, H.Qasımov, M.Allahmanlı, R.Qafarov, Q.Umudov Gürcüstanda, Qazaxda, Ağstafada, Tovuzda olmuşlar. Respublika üzrə pedaqoji institutda çox uğurla folklor praktikasının keçirilməsi folklora olan marağı daha da artırdı. Hətta vaxtilə folklor praktikasında fəal iştirak eləyən məzunlar məktəblərdə folklor guşələri, kabinələri, hətta muzeyləri də təşkil edirdilər. Bu fəaliyyətimlə mən fəxr eləyirəm.

Mənə dedilər ki, səni Cəmil müəllim axtarır. Görkəmli yazıçı və jurnalist Cəmil Əlibəyov o zaman radio və televiziya verilişləri idarəsində müavin işləyirdi. Getdim, görüşdük. Cəmil müəllim hələ "Azərbaycan gəncləri" qəzetində redaktor işləyəndə mənim bir neçə məqaləmi çap eləmişdi. Cəmil müəllim dedi ki, mən neçə aydır eşidirəm ki, burada xalq ədəbiyyatı ilə bağlı bir veriliş açmaq istəyirlər. Ancaq açılmır ki, açılmır: "Bulaq", "Çeşmə", "Qaynaq". Paşa müəllim, gəlin sizinlə bu verilişi açaq. Açsaq, davam eləyək. Siz 15 dəqiqəlik bir veriliş yazıb gətirin. Özü də Vətən, torpaq haqqında olsun. Mən verilişi hazırlayıb gətirdim. Cəmil müəllim bəyəndi, dedi ki, adını belə qoyaq: "Xalq yaradıcılığı bulağı". Üstünə də yazdı ki, 1970-ci ilin noyabrın 22-də veriliş efirə gedəcək. "Bulaq" açıldı, çox uğurla səsləndi. Mən şəxsən düz 7 ay bu verilişi təkbaşına aparmışam. Xalq ədəbiyyatımızın ən gözəl,

şirin, dadlı-düzlu nümunələri ilə dinləyiciləri tanış elədim. Həmin "Bulaq" indi də həvəslə dinləyicilərin ruhunu oxşayır.

Bir neçə ildir ki, "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasında fəaliyyət göstərirəm. Kafedra müdiri akademik Feyzulla Qasımzadədir. Biz ona Mirzə deyirik. O, bir gün məni yanına çağırıb dedi ki, gələn il üçün elmi-tədqiqat işinin mövzusunu deyim. "Molla Cümənin yaradıcılığını öyrənmək istəyirəm" dedim. Mirzə elə o saat dedi: Paşa, əvvəlcə onun şeirlərini toplamaq lazımdır, sonra da tədqiq eləmək. Bu mülahizə məni çox düşündürdü. İnstitutumuzun rektoru, professor Mehdixan Vəkilov idi. Elmi işlər üzrə prorektor isə görkəmli fizik alim professor Abasqulu Abbaszadə idi. Hər ikisi tədbirimi bəyəndilər. Beləliklə, mən 1961-ci ilin oktyabrın birindən Molla Cümənin vətəninə fərdi ekspedisiyaya yollandım. Bir ay Şəki və Balakən rayonları arasındakı kəndləri qarış-qarış dolaşdım, çoxlu rəvayətlər yazdım, şeirlər topladım. İkinci il yenə ekspedisiyanı təkrar elədim. 4 əlyazması ilə qayıtdım. Materiallar, əlyazmaları üstündə düz 30-40 il işlədim. 1966-1995-ci illər arasında ilk dəfə aşığın 5 kitabını hətta rus dilində də çap elədim. Uzun illər çalışaraq aşığın böyük külliyatını hazırladım. 41 müəllif vərəqi həcmində olan bu külliyat prezident İlham Əliyevin sərəncamı ilə prezident adminstrasiyası tərəfindən 25 min nüsxə ilə çap edilərək Azərbaycanın bütün kitabxanalarına hədiyyə verilmişdir. Hazırda bu külliyat Almaniyanın Halle şəhərinin universitet kitabxanasında saxlanılır. Mən fəxr edirəm ki, ömrü faciə ilə başa çatan bu böyük sənətkarın zəngin yaradıcılığına ikinci həyat vermişəm. Apardığım tədqiqatlarla həm Azərbaycan aşıq sənətinin böyük dirəklərindən olan Molla Cüməyə, həm də özümə heykəl qoymuşam.

Böyük, müqəddəs, iftixarımız olan pedaqoji məbəddə fəaliyyətim dövründə düz 14 rektorla işləmişəm. Mənim ilk rektorum bütün Zaqafqaziyada ilk pedaqoji elmlər doktoru olan

Əhməd Seyidov olub. Oxuculara böyük hörmət və ehtiram bəslədiyim rektorlarımı təqdim edirəm:

Əhməd Seyidov
Cəfər Xəndan Hacıyev
Mehdi Mehdizadə
Həmid Qədirov
Cəbrayıl Ələsgərov
Mehdixan Vəkilov
Mehdi Əliyev
Şövqi Ağayev
Haşım Ağayev
Afad Qurbanov
Sərvər Aslanov
Nizami Xudiyev
Bəhlul Ağayev
Yusif Məmmədov

Rektorlarım Azərbaycan xalqının elmini, mədəniyyətini, təhsilini, ədəbiyyatını, pedaqogikasını yaradıb inkişaf etdirmiş böyük şəxsiyyətlərdir. Mən böyük iftixarla, qürurla onlarla işlədiyim üçün özümü xoşbəxt hiss edirəm. Bütün rektorlarımın hörmətini, izzətini qazanmışam. Mənə institutda hər daim ən çətin, ən ağır və şərəfli işlər tapşırılıb, onları canla-başla, şərəflə, ürəklə yerinə yetirmişəm. Məhz rektorlarımın qayğısı, hörməti, məsləhəti ilə dəfələrlə məbədimizdə filologiya fakültəsinin həm əyani, həm də qiyabi şöbələrində dekan, 16 il kafedra müdiri, “Dədə Qorqud elmi-tədqiqat laboratoriyası”nın müdiri, Müdafiə Şurasının elmi katibi, sədr müavini və başqa vəzifələrdə işləmişəm. 11 elmlər namizədi, 4 elmlər doktoru yetişdirmişəm.

Folklor anamın südü ilə qanıma daxil olub. Allahdan vergi almış doğma xalqımın dimağından süzülmüş mənəvi sərvətlər ömrüm boyu daxilən məni təlatümə gətirmişdir. Milyon illərdən bəri yaranmış folklor nümunələri haqqında elmimizin düz 2 əsrlik tarixi var. Bu elmi əsrlər uzunu yüzlərlə

insanlar yaratmışlar. Mən şəxsən F.Köçərli, R.Əfəndiyev, Salman Mümtaz, Hənəfi Zeynallı, Əmin Abid, Yusif Vəzir Çəmənzəminlinin böyük və müqəddəs ənənələri üzərində pərvəriş tapmışam. Professor M.Rəfilinin tələbəsi kimi Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri kimi respublikamızın böyük folklorşünaslarının ənənələrini qorumuş, əzizləmiş, bir az da olsa zənginləşdirmiş və yaşatmışam. Beləliklə, respublikamızın ən böyük, ağsaqqal folklorşünası kimi yüksəlmişəm. Hazırda respublikamızın baş folklorşünasıyam. Oxucular məni bağışlasınlar, bütün məsuliyyətimlə deyirəm, folklor haqqında 2 əsrlik elmimizə məni qədər məhsul verən olmayıb. Təbii mən əsərlərin sayı miqdarına görə deyil, məhz elmi, təcrübi, tarixi əhəmiyyətinə görə titanik işlər görmüşəm. Bu, mənim son movizəmdir. Bunu bu dünyada öz adımdan yadigar qoyub o biri dünyaya köçürəm. Xalqımın yanında üzüm ağ, alnım da açıqdır.

Nəşriyyatın direktoru: f.ü.e.d. Xanlar Həsənli
Nəşriyyat redaktoru: Alparslan Öztürk
Kompyuter dizayneri: Emin Əsgərov

**PAŞA ƏFƏNDİYEV**

# MOLLA CÜMƏ
# (həyatı və yaradıcılığı)

Yığılmağa verilmişdir: 01.05.2017
Çapa imzalanmışdır: 06.06.2017

---

Formatı: 60×84×1/16, əla növ kağız, Sifariş: 65, Tiraj: 500 ədəd.
"Ləman nəşriyyat poliqrafiya" MMC-də çap edilmişdir.